MUSA QASIMLI

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ BÖYÜK DÖVLƏTLƏRİN AZƏRBAYCAN SİYASƏTİ

(1914-1918-ci illər)
**3 hissədə**

## III HİSSƏ

*(sənədlər, materiallar, xəritələr, şəkillər)*

754
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

"ADILOĞLU" nəşriyyatı
BAKI-2004

Tərcümə edən və tərtibçi müəllif: **Musa Qasımlı,**
*tarix elmləri doktoru, professor*

Redaktor və sözardının müəllifi: **Qardaşxan Əzizxanlı**

**Q $\frac{0525120534}{121\text{-}2004}$ sifarişlə**

**© M. Qasımlı**

**QASIMLI M.C. BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ BÖYÜK DÖVLƏTLƏRİN AZƏRBAYCAN SİYASƏTİ (1914-1918-ci illər)**

3 HİSSƏDƏ. III HİSSƏ

(sənədlər, materıallar, xəritələr, şəkillər)

BAKI: "ADİLOĞLU" NƏŞRİYYATI, 2004.-532 s.

Üç hissədən ibarət olan monoqrafiyanın üçüncü hissəsində Azərbaycan, ABŞ, Almaniya və Böyük Britaniya arxiv və kitabxanalarında saxlanılan bir sıra sənəd, material, xəritə və şəkillər toplanmışdır.

Kitab elmi dairələr, diplomatlar, siyasətçilər, aspirantlar, magistrlər, tələbələr və diplomatiya tarixi ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

**GASIMLI M.J. THE POLICY OF THE GREAT POWERS WITH RESPECT TO AZERBAIJAN IN THE YEARS OF WORLD WAR I (1914-1918)**

IN 3 PARTS. PART III

(documents, materiales, maps, fotos)

BAKU: "ADILOGLU", 2004.-532 p.

The third part of this monography, which consists of 3 parts, contains documents, materials, maps and photos from the archives and libraries of Azerbaijan, USA, Germany, Great Britain.

The book is written for scientific, diplomats, politics, post graduate students, magistrates, students and all who are interested in the history of diplomacy.

**ГАСЫМЛЫ М.ДЖ. ПОЛИТИКА ВЕЛИКИХ ДЕРЖАВ ПО ОТНОШЕНИЮ К АЗЕРБАЙДЖАНУ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ (1914-1918)**

В 3-Х ЧАСТЯХ. ЧАСТЬ III

(документы, материалы, карты, фотографии)

Баку, изд. "АДИЛОГЛУ", 2004.-532 стр.

В третьей части монографии состоящая из трех частей, содержатся документы, магериалы, карты и фотографии хранившиеся в архивах и библиотеках Азербайджана, США, Германии, Великобритании.

Книга рассчитана для научных кругов, дипломатов, политиков, аспирантов, магистров, студентов и всех кто, интересуется историеи дипломатии.

## MÜNDƏRİCAT

Tərtibçi müəllifdən....................................5

I. Çap olunmuş sənəd və materiallar..........................7

II. Azərbaycan Respublikası Dövlət Tarix arxivinin materialları ...........................................197

III. Azərbaycan Respublikası Dövlət arxivinin materialları .....................................................201

IV. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət arxivinin materialları ..247

V. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi arxivinin materialı...............................275

VI. Almaniya arxivlərinin çap olunmuş sənədləri.....277

VII. Böyük Britaniya arxiv materialları....................375

VIII. Amerika Birləşmiş Ştatlarının arxiv materialları və xarici siyasət sənədləri.................................473

IX. Xəritələr...................................................497

X. Şəkillər.....................................................513

Redaktordan (sözardı) ....................................529

# TƏRTİBÇİ MÜƏLLİFDƏN

*Hörmətli oxucu, bu kitabla xalqımızın XX əsr tarixini dərindən araşdırmağı ötən yüzilliyin sonlarında tarixçilərin qarşısında mühüm vəzifə kimi qoymuş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tövsiyələrinin yerinə yetirilməsi istiqamətində tərəfimizdən bir addım atılmışdır. Uzun illərin axtarışları nəticəsində Azərbaycan, ABŞ, Almaniya, Böyük Britaniya, Türkiyə və başqa ölkələrin arxiv materialları, sənədli mənbələri, dövri mətbuatı əsasında yazılmış "Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti" adlı üç hissədən ibarət monoqrafiya (I hissə. 1914-cü il avqust - 1917-ci il oktyabr. Bakı, "Qanun" nəşriyyatı, 2000. - 300 səh.; II hissə. 1917-ci il noyabr - 1918-ci il noyabr. Bakı, "Adiloğlu" nəşriyyatı, 2001. - 406 səh.; III hissə. Sənədlər, materiallar, xəritələr, şəkillər. Bakı, "Adiloğlu" nəşriyyatı, 2004. - 532 səh.) çap edilərək mühakimənizə verilmişdir.*

*Birinci dünya müharibəsi illərində böyük dövlətlərin hər birinin Azərbaycanda geniş hərbi-siyasi, strateji və iqtisadi maraqları olmuşdur. Müharibənin son mərhələsində hərbi əməliyyatların aparılmasına Azərbaycanın təbii sərvətlərinə, xüsusən, neftinə yiyələnmək cəhdləri ciddi təsir etmişdir. Regionda aparılan hərbi əməliyyatlar daha çox Bakı və Mosul neft mənbələrinə, hərbi-strateji məntəqələrə sahib olmaq üstündə getmişdir. Azərbaycan, Yaxın və Orta Şərqdə böyük dövlətlərin maraqlarının kəskin toqquşduğu ərazi idi. Həmin maraqları reallaşdırmaq üçün dövlətlər bütün mümkün vasitələrdən - hərbi, siyasi, diplomatik, kəşfiyyat və b.istifadə etməyə çalışmışlar. Müharibə çoxlu maddi və insan itkilərinə səbəb olsa da, nəticələri bəşəriyyətin, o cümlədən Azərbaycan xalqının həyatında mühüm ictimai-siyasi və tarixi əhəmiyyətli hadisələrə gətirib çıxardı. İmperiyaların dağılması ilə dünyanın siyasi xəritəsində böyük dəyişikliklər baş verdi, bir sıra xalqlar öz*

*müstəqil dövlətlərini yaratdılar. Yeni beynəlxalq münasibətlər sistemi və qüvvələr nisbəti formalaşdı. Uzun illər boyu dövlət müstəgilliyi uğrunda mübarizə aparmış Azərbaycan xalqının istəkləri məhz müharibənin gedişində daxili və beynəlxalq amillərin təsiri altında reallaşdı. Azərbaycanın dövlət müstəqilliyi müsəlman Şərgində ilk dəfə olaraq respublika formasında bərpa edildi, hökümət, parlament, ordu, təhlükəsizlik və digər strukturlar yaradıldı. Böyük dövlətlərin 1918-ci il mayın 28-dək, yəni müstəqilliyin bərpa edilməsinədək olan dövrdə olduğu kimi, Azərbaycan Xalq Cumhuriyyətinə münasibətdə də yeritdikləri siyasətin, güddükləri maraqların obyektiv və hərtərəfli tədqiq edilməsinin elmi aktuallıq daşıdığı şəksizdir. Eyni zamanda, tarixi təcrübənin öyrənilərək müasir dövrdə yeridilən siyasətlə müqayisəli təhlil edilməsi, müvafiq nəticələr çıxarılması da elmi və siyasi baxımdan əhəmiyyətlidir. Bu baxımdan monoqrafiyanın hər üç hissəsinin maraq doğuracağına inanırıq. Monoqrafiyanın üçüncü hissəsində Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasətinin hərbi deyil, əsasən, diplomatik-siyasi və strateji tərəflərinə dair Azərbaycan, ABŞ, Almaniya, Böyük Britaniya və b. ölkələrin arxiv və kitabxanalarında saxlanılan sənəd, material, xəritə və şəkillər toplanmışdır. Sənəd və materilların məzmun tərcüməsi, həm də əsasən ixtisarla verilmişdir.*

*Xalqımızın tarixini öyrənmək istəyənlər üçün faydalı olacağı inancı ilə kitab haqqında xeyirxah qeydlərini söyləyəcək şəxslərə öncədən minnətdarlığımızı bildiririk.*

*Monoqrafiyanın üçüncü hissəsinin nəşri xərclərini öz üzərinə götürmüş xeyirxah insan, Azərbaycan xalqının dəyərli oğlu Səxavət Zəkioğluna, hazırlanmasına etdikləri köməyə görə Q.Əzizxanlıya, M.Əliyevə, S.Heydərovaya və A.Əzimliyə təşəkkür edirik.*

# I

# ÇAP OLUNMUŞ
# SƏNƏD VƏ MATERİALLAR

Qaynaq: *Mejdunarodnıe otnoşeniya v epoxu imperializma. Dokumentı iz arxivov çarskoqo i vremennoqo pravitelstv. 1878-1917 qq. Seriya III. 1914-1917 qq. T.VI. 5 avqusta 1914 q. - 3 yanvarya 1915 q. Ç.1.M.,-L., Soçekizdat, 1935.- 484 str.*

## № 110
## Xarici işlər naziri Londondakı səfir Benkendorfa

Teleqram № 1924

16/3 avqust 1914-cü il
Təcili Paris və Londona
İstanbula (qeyri-təcili)

Parisə və Londona bildirilir.

Byukenen bu gün mənə bildirdi: böyük vəzir İstanbuldakı ingilis səfirinə məxfi olaraq demişdir ki, Porto bizim hazırlıq işlərimizdən qorxur və Rusiyanın Türkiyəyə qarşı düşmənçilik niyyətlərinin olmadığı barədə İngiltərə və Fransanın təminat verməsini xahiş etmişdir.[1]

Bu baxımdan, bitərəf olacağı təqdirdə Türkiyənin ərazi toxunulmazlığına birgə təminat verməyə hazır olmaları barədə üç dövlətin təcili olaraq İstanbula bəyanat vermələri və həmçinin alman konsessiyalarının onun mülkiyyətinə keçməsini vəd etmələri arzu ediləndir.[2]

***Sazonov***

*Qeydlər:*

1. Sonra qeyd olunur: "Üç dövlətin təminat formasının işlənib hazırlanmasını xeyli dərəcədə arzulunan hesab edirik, məhz biz Türkiyə ilə müdafiə ittifaqı haqqında müqavilənin bağlanmasına hazır idık".

2. Girsə 16/3 avqust tarixli 1925 №-li teleqramında Sazonov gös-

tərirdi ki, Türkiyənin bitərəfliyi dedikdə o, "onun hərəkətlərinin Azərbaycanda dayandırılmasını da" başa düşür, "İngiltərə və Fransanın belə bəyannaməni müdafiə etmələri xeyli dərəcədə arzuedilən-dir"...

*s.108*

***

## №147
## Xarici işlər naziri qərargah yanında diplomatik dəftərxananın işlər müdirinə

Teleqram № 2068 22/9 avqust 1914-cü il

Zəhmət olmasa, Ali Baş komandana məruzə edin.

Türkiyədə siyasi vəziyyət daha da həyəcanlı olur. Ərzurumdakı baş konsulun teleqramları yaxın vaxtlarda Türkiyə tərəfindən elə hərəkətlərin törədilməsi mümkünlüyünü göstərir ki, bu da onun ardınca münasibətlərin labüd olaraq kəsilməsinə gətirib çıxara bilər. Bizim İstanbuldakı səfirimiz vəziyyəti xeyli dərəcədə həyəcanlı qiymətləndirir.[1]

Bununla əlaqədar olaraq söyləməyi özümə borc bilirəm ki, yeni hissələrin çıxarılması ilə Qafqazda bizim hərbi qüvvələri nəinki zəiflətmək olmaz, əksinə onları Türküstandan gətirilən ordularla gücləndirmək lazımdır. Nazirlər Şurası bu mülahizələrlə razıdır...

Çarskoe selo, (22) 10 avqust 1914-cü il

***Sazonov***

*Qeydlər:*

1. Girs 15/2 avqust tarixli 712 №-li teleqramında İran səfirinin məxfi məlumatına əsaslanaraq türk emissarlarının Ərzurumdan keçməklə İran sərhədlərinə gəlib Azərbaycanda ruslar əleyhinə üsyan təşkil etmələri barədə xəbər verir...

*s.140-141*

***

## № 191
## Xarici işlər nazirinin Nazirlər Şurasının sədri Qoremıkinə məktubu

Məktub № 587 30/17 avqust 1914-cü il

Məxfi

Zati-aliləri İvan Loqinoviç,

Əlahəzrət imperatorun Qafqazdakı canişininin (22)9 avqust 1914-cü il tarixli 1955 №-li məxfi məktubu barədə mənə verdiyiniz məlumata cavab olaraq aşağıdakıları söyləməyə özümə borc bilirəm:

Mövcud siyasi şəraitdə və imkanlar ucbatından yaxın vaxtlarda Türkiyə ilə münasibətləri kəsmək və Kiçik Asiyanın erməni vilayətlərində indi islahatlar keçirmək tamamilə yersiz və yolverilməzdir. Bununla əlaqədar olaraq general-adyutant qraf Vorontsov-Daşkova müraciət etmiş erməni ictimai xadimlərinə onun verdiyi cavaba mən yalnız qoşula bilərəm.

Canişinin dediyi kimi Qafqazın erməni əhalisinin ayağa qaldırılmasının və bu iş üçün cəlb edilməsinin tamamilə başa düşüldüyünü nəzərə alaraq hökumətin Türkiyəyə münasibətdə siyasəti və erməni xalqının gələcəyinə dair baxışları ilə bu xalqın nümayəndələrini daha ətraflı tanış etmək məqsədəuyğun olardı.[1]

İndiki vəziyyətin gərginliyinə baxmayaraq, Türkiyə ilə münasibətləri kəsmək hələ gerçəkləşməmişdir, diplomatik danışıqlar yolu ilə onu aradan qaldırmaq imkanı itirilməmişdir. Bu məsələdə müttəfiqimiz Fransa və İngiltərə bizə lazımi yardım göstərir.

Əksinə, hərbi əməliyyatlar meydanında başlıca hadisələrin gedişi, şübhəsiz, tərəddüd edilən bütün məsələlərə həlledici təsir edə bilər. Hər halda müttəfiqlərimizin də tamamilə razılaş-

dıqları kimi ümumi siyasi nöqteyi-nəzərdən Türkiyə ilə müharibəni onun özü törətmişdir, bizim tərəfimizdən edilən hər hansı hərəkətlə törədilməmişdir. Ona görə də siyasi vəziyyəti tam adınlaşdırmadan ermənilər arasında hər hansı üsyan yaratmaq tamamilə arzuolunmazdır və hətta təhlükəlidir. Sonuncu (yəni qiyam - M.Q.) bu xalq üçün xeyli kədərli nəticələrə gətirib çıxara bilər. Türkiyə ilə sülhü qoruya bilməsək, ona silahlı qüvvə ilə kömək edərik.[2] Lakin məncə ermənilərə belə bir məsələdə ən müsbət vədlər vermək lazımdır ki, Türkiyə ilə saziş əldə edilərsə, bu erməni məsələsi zəminində heç cürə güzəştə getmək demək olmasın. Bununla belə, həm ermənilərlə, həm də kürdlərlə ən sıx münasibətlər saxlamaq lazımdır ki, Türkiyə ilə münasibətlər kəsilərsə, mövcud halda onlardan istifadə etmək mümkün olsun. Bu baxımdan sərhəddən silah və sursat keçirmək və münasibətlər kəsildikdə və ya kəsilməsi qaçılmaz olduqda onların xaricdəki əhaliyə paylanması üçün hər cür hazırlıq işləri görmək lazımdır.

Mən yuxarıdakı mülahizələri bildirməklə Siz zati-alilərindən acizanə surətdə xahiş edirəm ki, deyin, onlar haqqında həm Ali Baş komandana, həm də əlahəzrət imperatorun Qafqaz canişininə teleqrafla məlumat verməyi mümkün sayırsınızmı?

Hörmətlə, ***Sazonov***

***Qeydlər:***

1. Bütün ermənilərin katolikosu Qafqaz canişininə göndərdiyi 18/5 avqust tarixli 1131 №-li məktubda göstərirdi ki, "Almaniyanın xəlvəti şirnikləndirdiyi Porto bu ilin 26 yanvar tarixli sazişini ləğv edə bilmişdir, buna görə də hazırlanmış islahat kimsəni qane edə bilməz". Türk Ermənistanı hələ Türkiyə hüdudlarında qaldığından erməni məsələsini həll etmək üçün V Gevorq bir sıra ilkin tədbirlərin həyata keçirilməsini təklif edirdi. Katolikosun məktubunu 22/9 avqust tarixli 1955 №-li məktubu ilə Qoremkinə göndərən Vorontsov-Daşkov məlumat verirdi ki, "bütün erməni əhalisi Türkiyə ilə birbaşa müharibə-

yə susamışdır. Vorontsov-Daşkovun fikrincə, katolikosun məktubunda ermənilərin istəkləri aşağıdakılardan ibarətdir: 1. Mövcud vəziyyətdə - Türkiyə ermənilərinin həyatını və əmlakını qorumaq üçün yerlərdə tezliklə general-inspektorları yerləşdirmək. 2. Avropa müharibəsi qurtardıqdan sonra sonuncu üçün Rusiyanın şəksiz nəzarəti altında ilkin rus proqramına əsasən Türkiyədə erməni islahatını həyata keçirmək". Vorontsov-Daşkov yazır: "Mənə elə gəlir ki, Avropa müharibəsi qurtardıqdan sonra Türkiyə ermənilərinə dair Rusiyanın öz proqramını həyata keçirəcəyi barədə hökumətin vədlərini vermək lazımdır. İndi isə general-inspektor haqqında ermənilərin istəklərini yerinə yetirmək xeyli dərəcədə məqsədəuyğundur".

2. Girs 19/6 avqust tarixli 768 №-li teleqramı ilə Vandakı konsula bildirirdi: "Bizimlə əvvəlcədən razılaşmadan ermənilərin hər hansı çıxışları bizim üçün arzuedilən deyildir. Yaxın gələcəkdə mümkün ola biləcək belə işlərə qoşulmaq indi hələ tezdir, belə ki, biz hələ Türkiyə ilə sülh şəraitindəyik. Biz onunla münasibətləri heç cür kəsmək istəmirik".

*s.183-184*

***

## № 298
## III Siyasi şöbənin məsləhətçisi İstanbuldakı səfir M.Girsə

Teleqram № 2851 23/10 sentyabr 1914-cü il

Ali Baş komandan və Qafqaz canişini ilə razılığa əsasən Türkiyə ilə müharibə olacağı təqdirdə ermənilərin, aysorların və kürdlərin üsyanını vaxtında hazırlamaq qəbul edilmişdir. Dəstələr Azərbaycandakı (Güney Azərbaycan nəzərdə tutulur - M.Q.) bizim konsulların və bizim oradakı dəstə rəislərinin nəzarəti altında fars adminstrasiyasından tamamilə gizli hazırlanacaqdır. Tüfənglər hazırlanmışdır, lakin onlar yalnız lazım olduqda veriləcəkdir. Pulla maliyyələşdirməkdən ötrü kredit də vardır. Dəstələr fəal hərəkətə yalnız bizim icazəmizlə başlayacaqlar.[1]

Sizin admiral Edqarda[2] olan teleqramınıza istinad edən na-

zir bu gün Baş qərargahın rəisinə teleqram vurmuşdur. O, belə hesab edir ki, vəziyyət mürəkkəbləşdikdə vaxt itirmədən yuxarıda göstərilən tədbirləri hazırlaşmağa başlamaq lazımdır, lakin hələ vəziyyəti üsyan dərəcəsinə çatdırmamağı məqsədəuyğun sayır.[3]

*Klemm*

*Qeydlər:*

1. Vorontsov-Daşkov 24/11 avqust tarixli 445 №-li teleqramında "müxtəlif kürd başçılarından və erməni xadımlərindən ona daxil olan" təklifləri Sazonova təqdım edir. Onlar "kürdləri və aysorları Türkiyəyə qarşı çıxışlara qaldırmaq barədə öhdəlik götürürdülər".

Vorontsov-Daşkov göstərilən təkliflərə ehtiyatla yanaşmağın vacibliyini qeyd edərək, bu sahədə bir sıra hazırlıq tədbirləri görməyi, türklərə düşmən olan elementlərin üzə çıxmasına imkan yaratmağı və onlardan qüvvə hazırlamağı, hərbi əməliyyatlar başladıqda həmin anda istifadə etməyi məqsədəuyğun və mümkün sayır. Buna görə də o, Sazonovdan xahiş edir ki, onun sərəncamına 25.000 üçatılan tüfəngin və 12.000.000 patronun verilməsindən ötrü Hərbi Nazirliklə əlaqəyə girsin. Bu silahlar hazırlanmış plana uyğun olaraq bölüşdürülməli idi.

Vorontsov-Daşkov 20/7 sentyabr tarixli 760 №-li teleqramında Türkiyə ermənilərinin hazırladığı üsyan planı barədə müfəssəl məlumat verir. Bu palana görə Olt, Sarıqamış, Kağızman və İqdırda yerli hərbi rəislərin başçılığı altında silahlı dəstələr yaradılmalı idi. İran hüdudlarında Voropanovun və Xoydakı konsulun nəzarəti altında Xoyda və Dilmanda kiçik olmayan dəstələr hazırlanmalı idi. Maku yaxınlığında konsul Olferovun vasitəsi və Əbdürrəzzağın iştirakı ilə kürdlər təşkil edilməli idi; Urmiyada aysorlardan və ermənilərdən ibarət dəstə yaratmaq konsul Vvedenskiyə və Andreyevskiyə həvalə edilirdi. Vorontsov-Daşkov yazırdı: "Hamının rəhbər tutmalı əsas göstəriş ondan ibarətdir ki, dəstələr yalnız bizim razılığımızla fəal hərəkətə başlamalıdırlar. Bütün hazırlıq işlərini gizli, yalnız konsullar və hərbi hissələr vasitəsilə, fars mülkli və jandarma adminstrasiyasının iştirakı olmadan aparmağı təklif edirəm".

2. M.Girs 21/8 sentyabr tarixli 1150 №-li teleqramı ilə böyük və-

zirlə "Heben"in Qara dənizə çıxması haqqında apardığı söhbət" barədə məlumatı çatdıraraq bütün türk donanmasının Qara dənizə çıxmasının təhlükəli olduğunu qeyd etmişdi. 22/9 sentyabr tarixli 1164 №-li teleqramında Girs "Breslau"nun Qara dənizə çıxması haqqında məlumat vermişdi".

3. Sazonovun 23/10 sentyabr tarixli 2849 №-li teleqramı. Yanuşkeviç həmin tarixli 4180 №-li teleqramı ilə Sazonova bildirdi ki, "Vorontsov-Daşkovun layihələşdirdiyi tədbirləri Ali Baş komandan tamamilə bəyənir və onları müdafiə edir".

*s. 292-293*

***

## № 305
## Təbrizdəki baş konsul xarici işlər nazirinə

Teleqram № 671 23/10 sentyabr 1914-cü il

Tehrana teleqram vururam:

Sərdar Rəşid, onu Azərbaycanın müvəqqəti rəisi təyin etməklə Şücaəddövlədən uzaqlaşan Tehran hökumətinin yaxın gələcəkdə ondan da daha böyük asanlıqla xilas olmaq niyyətində olduğunu bildiyindən özünəməxsus yüngül ağıllılıqla Tehranın rəğbətini qazanmaq və burada öz mövqeyini möhkəmləndirmək qərarına gəlmişdir. Bu məqsədlə o, liberal elementlərlə oyuna girməyə başlamışdır və Şücaəddövlənin şəhər özünüidarəsinə verdiyi və belçikalılardan ustalıqla alınan aksiz və mal-qaranın kəsilməsinə görə verginin qaytarılması barədə belçikalılarla danışıqlara girmişdir. Bundan başqa, o mənimlə məsləhətləşmədən əyalət hökumətlərini dəyişdirməyə və təyin etməyə başlamışdır. Bu vəziyyət məni bu gün onun nəzərinə belə bir şərti çatdırmağa məcbur etdi ki, hakimiyyətini müdafiə etməklə bizim maraqlarımıza hədsiz sadiq qalacağı və bizim göstərişlərimizə uyğun olaraq hərəkət edəcəyi barədə vədlərinə inanmışdıq. Əgər onun hərəkətləri vədlərinə uyğun gəlməsə, onda onu

bu vəzifədə saxlamağa bizim heç bir əsasımız olmayacaqdır. Əgər biz onun tərəfindən əks hərəkətə rast gəlsək, onda qətiyyətli tədbirlərə əl atmağa məcbur olacağıq: nəinki onu general-qubernator vəzifəsindən, hətta Azərbaycandan uzaqlaşdıracağıq. Bununla belə, Şücaəddövləyə mən məsləhət görmüşəm ki, nazirliyin 2833 №li teleqramına uyğun olaraq Rusiyaya səfərini təxirə salsın və vəzifəsinə qayıdacağı barədə şəhərdə şayiələr yaysın.[1]

İmperator nümayəndəliyinə məlumat verməyə cəsarət edirəm ki, Türkiyə ilə müharibə olacağı təqdirdə fövqəladə vəziyyətdə Şücaəddövlə burada həqiqətən bizə lazım ola bilər.

***Orlov***

*Qeydlər:*

1. Klemmin 22/9 sentyabr tarixli 2833 №-li teleqramında Təbrizə əlavə olaraq məsləhət görülürdü ki, Türkiyə ilə müharibə olacağı təqdirdə və türk donanmasının Krım sahillərini bombardman etməsi imkanlarını nəzərə alaraq Şücaəddövlənin Yaltaya səfərini təxirə salması məsləhət görülsün. Burada onun üçün bağ evi ayrılmışdı.

***s.299-300***

***

**№ 308**

**Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə**

Teleqram № 2871 24/11 sentyabr 1914-cü il

451 №-li teleqram alınmışdır[1].

Şimali İranın (Güney Azərbaycan - M.Q.) başlıca məntəqələrində inkasso edilmiş maliatın bizim və İngiltərə bankları arasında bölüşdürülməsi təklifləri ilə razılaşa bilmərik. Maliat 1912-ci ildə olduğu kimi tamamilə bizim banka daxil olmalıdır. Buna israr etməyinizi xahiş edirik. Öz tərəfimdən 'mən Böyük

Britaniya səfirinin diqqətinə Şahənşah bankının bizim nüfuz dairəsinə soxulmasının yolverilməzliyini çatdırdım. Lakin zəruridir ki, inkasso edilmiş məbləğlərin banklarımız tərəfindən İran xəzinəsinə maneəsiz verilməsi, kiminsə iddialarını yerinə yetirmək üçün özbaşına ləngidilməməsi təmin edilməlidir.

***Sazonov***

*Qeydlər:*

1. Korostoveç 21/8 sentyabr tarixli 451 №-li teleqramında belə bir məlumat verirdi: şübhə etmirəm ki, maliatın digər hissəsi Şahənşah bankına daxil olmalıdır ki, buna da o, (İran - M.Q.) "bu güzəştə tamamilə həvəssiz gedir". Korostoveç "bizim banklarla daha əlverişli şərtlər əsasında sazişə nail olmaq" ümidi ilə xahiş edir ki, "onu İsaq xanın yazılı vədləri ilə əlaqələndirməsinlər, çünki farslar güman ki, bizim tərəfimizdən böyük güzəştlər almağa ümid edirlər".

*s.302*

***

## № 311
## Petroqraddakı ingilis səfiri xarici işlər nazirinə

Məktub 25/12 sentyabr 1914-cü il

Əziz cənab Sazonov,

Aşağıda mənim dünən Sizə oxuduğum və şəxsən Sizə göndərməyi xahiş etdiyiniz qeydlər vardır.

1. Rusiya konsulları vergiləri yığmağa başladıqdan bəri şimal əyalətlərindən (Güney Azərbaycan - M.Q.) vergilərin alınması xeyli dərəcədə aşağı düşmüşdür və bu mənbədən indiyədək dövlət xəzinəsinə heç bir daxilolma olmamışdır. Azərbaycanda və Astrabadda məlum olmuşdur ki, İran vergi ödəyənləri öz vergilərini Rusiya konsulluğuna ödəməyə məcbur edilmişlər.

2. İsfahan bankının müdiri general-qubernatorun bütün ən mühüm inzibati vəzifələrini özünə mənimsəyir.

3. Petroqrad hakimiyyətinin özünün yerli rəsmi və qeyri-rəsmi agentlərinin fəaliyyət formaları haqqında məlumatı yoxdur və ya az məlumatı vardır. Rusiya baş konsulu onun İsfahandakı yerli agenti vasitəsi ilə Sərdara və Yanquya verilən hər hansı təklifi qətiyyətlə rədd edir. Lakin bunun olması barədə ciddi əsaslar vardır. Ola bilsin, konsul bu addımlar barədə heç nə bilmir. Çünki adətən, bunlar kütlənin içindən İrandan, Rusiyanın konsulluğu yanında rəsmi, yarımrəsmi və qeyri-rəsmi xidmətçilər tərəfindən edilir və onların hərəkətlərini asanlıqla rədd etmək olar. Şübhə ola bilməz ki, rus agentləri bəxtiyarilərin ingilislərlə əlaqələrini kəsməkdən ötrü onları ayağa qaldırırlar.

4. Belə bir fakta göz yummaq olmaz ki, İranda formalaşmış ümumi fikrə görə rus maraqları ingilis maraqlarının düşmənidir.

5. Şəms-əs Soltane, əgər düşmənçilik dedikdə Rusiya baş konsulluğunun, rus bankının müdirinin yardımı ilə keçmiş üzüyola sələfləri tərəfindən ona verilmiş general-qubernatorun bəzi təbii səlahiyyətlərini özünə qaytarmasını başa düşürsə, onda, şübhəsiz, bu, rus maraqlarına ziddir. Bankın müdiri general-qubernatorun adamlarının guya kəndlilərlə pis davranmaq, rus təbəələrinin çox az hissəsinə sahib olduqları və ya idarə etdikləri və ya Rusiyanın himayəsində olan şəxslərin hər hansı kəndində pis niyyətli şəxsləri cəzalandırmaq üçün öz nümayəndəsini göndərməyi qadağan etmək bəhanəsi ilə guya 1000 nəfər silahlı adam verə bilməklə lovğalanmağa başladıqda vəziyyətin necə olduğunu başa düşmək olar.

Bunu yazdıqdan sonra mən cənab V.Tounleydən teleqram aldım ki, Rzanın (xan) dəstəsi İsfahan əyaləti ilə sərhəddə Kavpisdə və bəxtiyarilər ölkəsində yeni soyğunçuluq törətmişlər. Yerli hakimiyyət onu cəzalandırmaqda gücsüzdür, çünki o, rus idarəçiliyində yerləşən Zill-əs -Sultan kəndlərində sığınacaq tapmışdır.

Səmimiyyətlə, Sizin ***Corc Byukenen***

*s.304-306*

754
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

***

## № 348
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 477 2 oktyabr / 19 sentyabr 1914-cü il

Tounleyin sözlərinə görə, onlar Şimali İrandakı (Güney Azərbaycan - M.Q.) bütün maliatin bizim banklara verilməsi ilə razılaşmağa çətinlik çəkirlər. Qorxurlar ki, bununla İranın rus və ingilis nüfuz dairəsinə bölüşdürülməsi xüsusi ilə aydın qeyd ediləcəkdir. Mən cavab verdim ki, belə təəssüratdan qaçmaqdan ötrü ümumi qaydadan hər hansı şəhəri, məsələn, heç bir maliat verməyən Qəzvin və ya Həmədanı çıxarmaq olar - ən gəlirli əyalətlərdən daxil olan məbləğin nəzarətsiz öz sərəncamına almaq istəyi barədə farslara edilən təklif aydın təsdiq edir. Tounleğ razılaşdı və bizim iddialarımızı farslar qarşısında müdafiə etməyi vəd etdi ...

*Korostoveç*

*s.351*

***

## № 316
## III Siyasi şöbənin məsləhətçisi Təbrizdəki baş konsul Orlova

Teleqram № 2916 26/13 sentyabr 1914-cü il

Şəxsən

Tehrana məlumat verilir[1].

669 və 671 №-li teleqramlar alınmışdır.

Nəzərə alın ki, nazir İranın vəzifəli şəxslərinin onların inzibati funksiyalarını bizim konsulların mənimsəmələrinin və onların (iranlı məmurların - M.Q.) açıq-aşkar adi piyada səviyyəsinə salınmasının qəti şəkildə əleyhinədir. Konsulların hər yer-

də idarəçiliyi öz əllərinə keçirməyə can atmaları bizim müdafiə etdiyimiz şah rejiminin nüfuzunu sarsıdır və farsların heysiyyatinə toxunur, bizə qarşı ümumi əsəbilik yaradır və ingilis-rus sazişinin əsaslarını bizim pozmağımıza dair tənələr əsassız deyildir.

Konsullar yerli admınstrasiyanı özlərinə yalnız mənəvi cəhətdən tabe etməyə can atmalı, sonuncunu isə hər yerdə arxa plana keçirməlidirlər. Şimali İranda (Güney, Azərbaycan-M.Q.) bizim güclü vəziyyətimizdə buna asanlıqla nail olmaq olar.

Məsələn, administrasiyanın maaşlarını verməyi öz üzərimizə götürmək və ya Sərdar Rəşidə Tehranla münasibətlər qurmağa və əyalət vəzifələrində ətrafını özünə sadiq adamlarla əhatə etməsinə mane olmaq nəyimizə lazımdır?...

*Qeydlər:*

1. Sazonov 10 sentyabr tarixli 2546 №-li teleqramında Korostoveçə təklif edirdi: "Yenidən bütün konsullara izah olunsun ki, nümayəndəliyin xüsusi icazəsi olmadan yerli hakimiyyəti dəyişmək və ümumiyyətlə, şah hökumətinin hər hansı suveren hüquqlarını pozmaq onlara qadağan edilir".

***s.311-312***

***

## № 350
## Xarici İşlər Nazirliyinin Petroqraddakı ingilis səfiri Byukenenə yaddaş qeydləri

3 oktyabr/20 sentyabr 1914-cü il

Britaniya səfirliyinin bu ilin 24/11 sentyabr tarixli yaddaş qeydlərinə istinad edərək İmperator Xarici İşlər Nazirliyi səfirliyin diqqətini belə bir fakta yönəltməyi öz borcu hesab edir ki, Şimali İranda (Cənubi Azərbaycan - M.Q.) rüsumların azaldıl-

ması Rusiyada səfərbərliklə əlaqədar olaraq dəmiryol xidmətinin xeyli dərəcədə pozulması ilə bağlıdır. Bunu nəzərə almaq lazımdır ki, indiki vaxtda malların daşınması şərq dəmiryollarının böyük hissəsində bərpa edilmişdir və Nijeqorod yarmarkasının nəticələri bütövlükdə qənaətləndiricidir və güman etməyə əsas vardır ki, İran gömrük gəlirlərinin artımını yaxın vaxtlarda ləngitməyəcəkdır.

Nazirlik şah hökumətinin pul vəsaitinə olan israrlı ehtiyacını yalnız təsdiq edə bilər, lakin cənab E.Qreyə görə cənab Sazonov düşünür ki, indiki şəraitdə İran xəzinədarlığına az və ya çox avans verilə bilməz. Nazirliyin (21)8 sentyabr tarixli yaddaş qeydlərində xatırladığı kimi, Tehran kabineti rus bankının təqdim etdiyi şərtləri qəbul edən kimi imperator hökuməti İran xəzinədarlığına çatacaq 300.000 tümən məbləği şah hökumətinə verməyə hazırdır.

İmperiya nazirliyi Tehranda Rusiya nümayəndəliyinə imperiya konsulluqları tərəfindən rus təbəələrindən yığılan torpaq vergisinin... və Azərbaycandakı İran kazak briqadalarının saxlanılmasına ayrılan məbləği İran xəzinədarlığına ödəmək barədə göstəriş vermişdir. Nazirlik düşünmür ki, konsulluqların maliatı toplamaları üçün xərclər çox ola bilər. Beləliklə, imperator hökuməti konsulların vergi toplamasını İran hökuməti Qeydiyyat - Ssuda bankının İranla 1912-ci il sazişini bərpa etməyə razılıq verən kimi ləğv etməyə artıq razılaşmışdır. Bu sazişə görə həmin bank rus nüfuz dairəsində dövlət vergilərinin toplamalıdır. Bununla belə, İran hökuməti görünür, öz vergilərinin bir hissəsinin toplanmasını ingilis bankına verməyi arzuladığından bu təklifi qəbul etməkdə tərəddüd edir. Bunun nəticəsi olaraq ingilis bankının 1907-ci il konvensiyasının ruhu ilə uyğun gəlməyən bu konsessiyadan imtina etməsi məqsədəuyğundur. Bu, yuxarıda göstərilən avansla əlaqədar olaraq İran hökuməti ilə sazişi asanlaşdırardı.

*s.354-356*

***

## № 362
## Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 3091 5 oktyabr/ 22 sentyabr 1914-cü il

479 №-li teleqram alınmışdır.

İndiki vaxtda ordularımızın Azərbaycandan geri çağırılması haqqında əlbəttə, söhbət gedə bilməz. Belə ki, onların olması bir qayda olaraq, rusların və digər xaricilərin bu vilayətdə məlum qayda-qanununu və təhlükəsizliyini təmin edir. Şah hökumətinin ordusu özü bunu edə bilmir.

Şübhə yoxdur ki, ordularımızın çıxarılması ilə yaranacaq anarxiya Azərbaycanda qığılcımıləngitməz və labüd olaraq tərk etdiyimiz məntəqələrin, Osmanlı səfirinin bütün təntənəli vədlərinə baxmayaraq, türklər tərəfindən işğalına gətirər.

*Sazonov*

*s.369-370*

***

## № 375
## Təbrizdəki baş konsul xarici işlər nazirinə

Teleqram № 712 9 oktyabr/ 26 sentyabr 1914-cü il

Tehrana teleqrafla göndərilir.

Xahiş edirəm, məlumat verəsiniz ki, imperiya diplomatik nümayəndəliyi bizim orduların çıxarılması haqqında kabinetin qərarından sonra Azərbaycanda seçkilər keçirməyi yenə də əvvəlki kimi zəruri sayırmı. Bir daha xəbərdar etməyi özümə borc bilirəm ki, yerlərdə seçilən nümayəndələrlə məclisin nüfuzsuz və əyalətdə kimsənin tanımadığı kabineti müdafiə etməsi əllərimizi bağlayacaq, tərəfdarlarımız tərəfindən müharibə ilə ala-

qədar olaran bizim zəifliyimiz kimi hesab ediləcək və düşmənlərimizə əlavə silah verəcəkdir. İmperator hökuməti Türkiyə ilə açıq münaqişəni həll edənədək seçkiləri təxirə salmağı qəbul edirmi?[1]

*Orlov*

*Qeydlər:*

1. Klemm 12 oktyabr/29 sentyabr tarixli 3233 №-ci cavab teleqramında bildirirdi: "Nazir hesab edir ki, Azərbaycanda məclisə hər hansı seçkilər indiki şəraitdə məhz yerinə düşərdi".

*s.384*

***

## № 392
## Təbrizdəki baş konsul xarici işlər nazirinə

Teleqram № 726 15/2 oktyabr 1914-cü il

Surəti Tiflisə və Azərbaycandakı bütün konsulluqlara. Tehrana teleqrafla göndərilir.

Burada olan məlumatlara görə kabinet indiki hərbi naziri Azərbaycanın pişkarı təyin etmək niyyətindədir. Beləliklə, əvvəllər mövcud olan şayiələr təsdiq edir ki, onun vəzifəsi Şücaəddövlədən ayrılmaq, sonra isə bizim vasitəmizlə vəzifəyə qoyulmuş digər adamlarımızı aradan götürməkdir. Rusiyanın xeyli müxtəlif maraqları ilə bağlı olan sərhəd vilayəti hakiminin xüsusi tapşırıqları ilə tanış olmayan adamın pişkar təyin edilməsi və buraya gəlməsi onlarla bizim konsullar və ordu hissələri arasında daimi münaqişə yaradardı, hələ iki il əvvəl baş vermiş dəyişikliklərin nəticələrini saxlayan diyarda normal qayda yaratmağa mane olardı.

İndiki şəraitdə Sərdar Rəşid hətta İran maraqları baxımından daha əlverişli hakimdir, diyarın mümkün ehtiyaclarını Teh-

ranın tələbləri ilə razılaşdıra bilər və imperator hakimiyyəti orqanları ilə daim baş verən münaqişələri həll etməyə qadirdir və hətta imperator hökumətinin iradəsinin əksinə olaraq Azərbaycanda mövcud siyasi vəziyyəti dəyişdirməyə qadirdir. İran və rus maraqlarının diyarda barışdırılması nöqteyi-nəzərindən onu bu vəzifədə yalnız imperator hökumətinin yaxınlarda istefasına razılıq verdiyi Şücaəddövlə ilə əvəz etmək arzuedilən olardı[1].

*Orlov*

*Qeydlər:*

1. Sazonov bu teleqrama istinad edərək 18/5 oktyabr tarixli 3339 №-li teleqramında Korostoveçə belə bir göstəriş verirdi: "Məlumat verdiyiniz şayiə təsdiq olunarsa, şah hökumətinə qəti şəkildə bildirin ki, Şücaəddövlün istefasına razılıq verdikdən sonra biz Sərdar Rəşidin başqası ilə əvəz edilməsinə razılıq verə bilmərik".

*s.405-406*

***

**№ 396**
**Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə**

Teleqram № 3338 18/5 oktyabr 1914-cu il

Orlovun 728 №-li teleqramına istinad edərək[1].

Xeyli maraqlarımızın olduğu Şimali İranda (Güney Azərbaycan- M.Q.) qubernatorlar təyin edilərkən hər iki tərəf üçün arzuedilməz mürəkkəbliklərdən yaxa qurtarmaqdan ötrü həmişə nümayəndəliklə razılaşdırılardı. Bu barədə şah hökumətinə xatırlatmanızı faydalı və bir qayda olaraq geri çəkilməməyi Sizdən xahiş edirəm. Əks-təqdirdə bizim konsullar təyin edilmiş məmurları tanımamağa məcbur olacaqlar.

*Sazonov*

*Qeydlər:*

1. Orlov 15/12 oktyabr tarixli 728 №-li teleqramla nümayəndəliklə əvvəlcədən razılaşdırılmadan Ərdəbilə kargüzarın təyin edilməsi məsələsi barədə xəbər verir.

*s. 409*

***

## № 400
## Qafqaz canişini xarici işlər nazirinə

Teleqram № 1617 19/16 oktyabr 1914-cü il

3230 №-li teleqram alınmışdır[1].

Sizinlə razıyam ki, bizim indıki halda Urmiyəni fədailərə və kürdlərə təslim etməyimiz təkcə Azərbaycanda deyil, eyni zamanda, bütün İranda nüfuzumuzu sarsıdardı. Bu mülahizələri əsas götürərək 28 sentyabrda (11 oktyabr) kürdlərin bizim süvari dəstəyə hücum xəbərini eşidən kimi general Voropanova teleqram göndərdim və kürdləri, xüsusən də onların başçılarını ən ağır üsullardan belə çəkinməyərək cəzalandırmağı əmr etdim.

Siz zati-alilərinizə məlum olduğu kimi general Voropanovun cəza ekspedisiyası onları artıq yerinə yetirir. Belə görünə bilər ki, bu tədbirlərlə kifayətlənmək lazım deyildir. Urmiyədəki son hadisələr, xüsusən vitse-konsul Vvedenskinin 672 №-li teleqramına əlahəzrət imperatorun dərkənarı nəzərə alınarsa, bu vilayətdə bizim hərbi vəziyyətimiz haqqında ümumi mənzərəni yaradır[2].

Fikrimcə, Urmiyə əyalətinin bizim ordular tərəfindən tutulmasının dinc şəraitdə general Voropanov qüvvələrinin arzuolunmaz parçalanmasına gətirib çıxarmasının indi Türkiyə ilə müharibə ehtimalının yarandığı bir vaxtda təhlükəli olduğunu qəbul etməliyik. Belə ki, türklərin Van istiqamətindən hücuma keçməsi Urmiyəni tutan bizim ordularımızı Xoydan ayırar və

məğlubiyyətə uğramaq təhlükəsinə salar. Bu ehtimalla hesablaşaraq mən Urmiyəni tutmaq üçün müharibənin başlanması ilə general Voropanovun başlıca qüvvələrinə sürətlə birləşməyə qadir olan süvari dəstə yaratmağa əmr etdim. Süvari dəstənin belə hərəkətini demək olar ki, labüd qəbul etmək lazımdır. Belə ki, sülh şəraitində bizim qoruduğumuz nüfuzumuz Türkiyə ilə müharibənin ilk günündən pozulacaqdır. Fikrimcə, bundan yaxa qurtarmaqdan ötrü polkovnik Andrievskinin və vitse-konsul Vvedenskinin rəhbərliyi altında təcili olaraq Urmiyədə suriyalılardan və bizə sədaqətli olan adamlardan ibarət xüsusi dəstə yaratmağa başlamaq mümkündür. Bu dəstə Urmiyəni kürdlərin hücumlarından qorumaq iqtidarında olmaq qədər güclü olmalıdır.

Əgər Siz mənim fikrimlə razısınızsa, onda general Voropanovun nəzarəti altında dəstələrin yaradılmasının təfərrüatı barədə polkovnik Andrievskiyə və vitse-konsula tapşırıq vermək olar.

Bu teleqramı əlahəzrət imperator cənablarına məruzə etməyinizi və nəticələri barədə mənə məlumat verməyinizi xahiş edirəm.

*Vorontsov-Daşkov*

*Qeydlər:*

1. Sazonov 12 oktyabr/29 sentgabr tarixli 3230 №-li teleqramında məlumat verirdi ki, Urmiyədəki konsulun 672 №-li teleqramına II Nikolay belə bir qeyd etmişdir: "Urmiyədəki qoşunlarımızın vəziyyəti məni narahat etməkdə davam edir. İki şeydən birini etmək lazımdır: ya onları geri çağırmaq, ya da general Voropanova tam fəaliyyət sərbəstliyi vermək lazımdır. İran ərazisinin türklər və kürdlər tərəfindən tutulmasına yol vermək olmaz". Bu barədə məlumat verən Sazonov belə fikir söyləyir ki, "Urmiyənin kürdlərə və fədailərə verilməsi, şübhəsiz, təkcə Azərbaycanda deyil, həmçinin bütün İranda bizim nü-

fuzumuzu sarsıdacaqdır və ehtimal ki, başqa yerlərdə də bizə düşmən olan çıxışlara səbəb olacaqdır".

2. Vvedenski 8 oktyabr/25 sentyabr tarixli 672 №-li teleqramında əyalətdə vəziyyətin ümumən pisləşməsi haqqında məlumat verirdi: "Türklərlə hansısa sazişlə bağlı olan farslar Təbrizdə heç bir ölçü götürmürlər. Bizim tərəfimizdən olan qətiyyətsizlik türklərin təcavüzkar tədbirlər görmələrinə səbəb olur. Əyalət türklərin, fədailərin və kürdlərin fanatik dəstələrinin aşkar təcavüzü ərəfəsindədir. Dilmanda qalan dəstənin iki yüz nəfərlə və kiçik piyada hissəsi ilə tamamlanması vacibdir".

*s.412-413*

***

## № 403
## Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 3391 — 21/8 oktyabr 1914-cü il

503 №-li teleqram alınmışdır[1].

Son vaxtlar İran hökumətinin qaldırdığı məsələlər bizim mənafelərimizin əksinədir. Türkiyə kimi onun da müharibə vəziyyətindən istifadə edərək öz məqsədlərinə çatmaq istəyir, aydın şəkildə görünür. Tamamilə güman edilir ki, bizim nüfuzumuzu sarsıtmaqla yanaşı, öz nüfuzlarını qaldırmaq istəyən İran nazirləri türklərin və onların arxasında duran almanların və avstriyalıların belə çıxışlarını təşviq edirlər. Siz Tehran kabinetini buna çox ciddi diqqət yetirməyə yönəltməlisiniz. İzah etməlisiniz ki, onun belə hərəkəti bizə münasibətdə açıq bədxah xarakter daşıyır. Şah nazirlərinə açıq şəkildə başa salın ki, müharibə İranda heç nədə bizim mövqelərimizi qətiyyən dəyişdirə bilməz, burada biz öz mənafelərimizi qorumaq üçün əvvəllər olduğu kimi bütün lazımi tədbirlərdən hansı lazımdırsa, onu da həyata keçirəcəyik.

Xüsusən, Tehran kabinetinin sizə təqdim etdiyi arzularla

əlaqədar olaraq biz hesab edirik ki, Türkıyə ilə indiki gərgin vəziyyətdə və sərhəd Qafqaz Azərbaycanının bizim üçün mühüm əhəmiyyət daşıdığı şəraitdə bu əyalətin idarə olunması yalnız bizim istəyimizlə, razılığa uyğun olaraq həll edilə bilər. Biz zəruri hesab edirik ki, göstərilən əyalətdə (Cənubi Azərbaycan - M.Q) bütün hakimiyyətin indi lazımi məlumatlara sahib olan və bizim etibarımızı qazanan Sərdar Rəşid kimi şəxsin əlində cəmləşməlidir. Ala əs-Soltanenin təklif etdiyi kombinasiya diyarın ali idarəçiliyində labüd ixtilaf yaratdı, buna görə də o, qətiyyən qəbul edilməzdir. Rus təlimatçılarının rəhbərliyi altında Azərbaycan üçün 3000 adamdan ibarət yeni kazak birqadasının yaradılmasına biz əlbəttə, razı olmalıyıq, lakin İran hökumətində bunun üçün vəsait tapılmasına şübhə edirik.

Azərbaycanda bizim hansısa gizli məqsədlərimiz olmadığına gəlincə isə, biz tam təsdiq etmişdik ki, bu əyalətdə sahib olmağa əsas verən çoxlu hadisələrdən istifadə etməmişik[2].

*Sazonov*

*Qeydlər:*

1.Korostoveç 19/6 oktyabr tarixli 503 № -li teleqramında məlumat verirdi ki, “Nazirlər Şurasının sədri vəliəhdin Azərbaycanın hakimi təyin edilməsi haqqında məsələsinə qayıdaraq” ona demişdir: “Rus hökuməti belə təyinatla razılaşaraq bununla təsdiq etmişdir ki, onun Azərbaycanda gizli niyyətləri yoxdur”. Vəliəhdin gənc olduğunu nəzərə alan “hökumət onun fəxri pişkarı kimi tanınmış mənsəb sahibini təyin etmək niyyətindədir”.Baş nazir daha sonra məlumat vermişdir ki, Sərdar Rəşidi “Vitse-qubernator və Azərbaycanın faktiki hakimi kimi saxlamaq nəzərdə tutulmuşdur... Bundan başqa hökumət vəliəhdin gətirilməsi üçün 3000 nəfərlik xüsusi hərbi hissə yaratmaq niyyətindədir”. Son məsələ üzrə Korostoveç bildirmişdir ki, “briqadanın artırılmasını vacib hesab edir”.

2. Korostoveç 27/14 oktyabr tarixli 509 №-li teleqramında 3391 №-li teleqramı aldığını təsdiq edərək məlumat verirdi ki, o, “onda olan informasiyalar barədə Nazirlər Şurasının sədrinə məlumat ver-

mişdir və Avropadakı indiki mühüm hadisələr olduğu bir vaxtda Şah hökuməti tərəfindən Rusiyaya xeyirxah və daha inamlı münasibətin saxlanılmasının vacibliyini qeyd etmişdir". Mostoufi-əl-Məmalək bəyan etmişdir ki, "Şah hökuməti bizim arzularımızı qəbul edir və vəliəhdin təyin edilməsində israr etmir və bu məsələni, hələ ki, açıq saxlayır".

*s.416-417*

***

## № 409
## Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova

Teleqram № 3432 23 /10 oktyabr 1914-cü il

1617 №-li teleqram alınmışdır.

Belə əhatəli məruzə əsasında Siz zati-alilərin arzusuna cavab olaraq diqqətinizi aşağıdakı mülahizələrə yönəltməyi özümə borc bilirəm:

Urmiyədən ordularımızın çıxarılmasının ardınca Türkiyə kürdlərinin hücumları başlanmışdır, onlara İran kürdləri də qoşulmuşdur, görünür bizim postlarımızdan geri çəkilməyimizə zəifliyimizin əlaməti kimi baxmışlar.[1] Dəstələrimizi əvəz edən kazak dəstələri kürdlərin təzyiqlərinə tab gətirmək iqtidarında olmuşlar, yalnız Xoydan kömək gəldikdən sonra kürdlər Urmiyə şəhərini tuta bilməmişlər.[2] Kürdlər Türkiyə ərazisinə qovulmalarına baxmayaraq, onlar hücumu indi yenidən başlamaq istəyirlər. Qoxuram ki, yardımçı dəstələrin geriyə - Xoya aparılması ilə vəziyyət yenidən təhlükəli olar. Mənə elə gəlir ki, türklərin rəhbərlik etdiyi kürdlərin hücumlarını müstəqil dəf etməyə qadir olan suriyalılardan və ermənilərdən ibarət ordunun yaradılmasını həm bu etnik qrupların döyüşçülərinin azlığı, həm də onların arasında hərbi təşkilatçılığın və silahlanmanın kifayət qədər olmaması ucbatından çətin ki, həyata keçirmək mümkün olsun. Məlum olduğu kimi, kürdlərin hücumlarını dəf edər-

kən bizdə mühüm rolu piyadalar və artilleriya oynadı. Digər tərəfdən, Türkiyədən keçən dağ keçidlərini tezliklə bağlamaq lazımdır. Bununla da türk ordularının artilleriya ilə qarətçilik məqsədilə Urmiyə üzərinə hərəkət və böyük Xoydan bizim dəstələri ayrı salmaq imkanları aradan qalxacaqdır. Nəhayət, Urmiyə gölündə gəmiçiliyin yaxşı olmamasına baxmayaraq, piyadaların su yolu ilə köçürülməsi mümkün görünür. Təbriz dəmiryolu ilə gölə böyük yelkənli qayıqların gətirilməsi üçün təcili tədbirlər görülür.

Belə şəraitdə xatırlanan dəstənin Urmiyədən geri çağırılmasına, bizə sadiq olan xristian əhalinin məhvinə yol verməməyə və bütün İranın gözündə bizim nüfuzumuzu sarsıtmamağa üstünlük verməyi güman etmək olar.

Əlahəzrət imperatorun bu mülahizələrlə razılaşması məqsədəuyğun olardı.

***Sazonov***

***Qeydlər:***

1. Vorontsov-Daşkov 30/17 sentyabr tarixli 141 №-li teleqramında məlumat verirdi ki, "türklərin səfərbərliyi başa çatan kimi... bəzən türklərin köməyi ilə kürd kütləsi sərhəddən keçərək" sərhəd kəndlərinə hücum etmiş və mal-qaranı aparmışlar. Vorontsov-Daşkov belə halların müvafiq siyahısını verir, bununla yanaşı o, Ərzurumda "bizim konsulluğun katibinin daş-qalaq edilməsini, rus təbəəsi olan tacirlərin böyük mallarının həbs edilməsini, rus təbəələrinin Türkiyəyə buraxılmasına və Türkiyədən çıxarılmasına icazə verilməsinin dayandırılmasını" xatırlayır və göstərilən halların qarşısını almaq üçün Türkiyəyə təsir göstərməyi xahiş edir. II Nikolay 2 oktyabr / 19 sentyabr tarixli dərkənarında belə qeyd edirdi: "Türkiyəyə qəti təsir göstərilsin".

2. Vvedenski 16/3 oktyabr tarixli 684 №-li teleqramında məlumat verirdi ki, yaxınlarda "şəhər kənarında, Ankaraya gedən yolda, kürd quldurlarının Urmiyəyə hücum etdikləri yerdə onları ordularımıza hücum etməkdə və vəhşiliklər törətməkdə təqsirkar bilinən on bir nəfər kürd və onlara yardım edən şəxslər qubernator tərəfindən asılmışdır. Vvedenski belə yekun vurur: "Bizə sadiq olan qubernatorun bu tədbirlərini xalq rəğbətlə qarşılamır".

***s.421-422***

***

## № 418

## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 511 28/15 oktyabr 1914-cü il

Tounley mənə məxfi olaraq bildirdi ki, İran hökuməti xeyli pulsuzluqdan xilas olmaq istəyi ilə İran körfəzinin strateji adlarını İngiltərəyə satmaq düşüncəsi üzərində dayanmışdır və onun bu barədə prinsipial razılıq verdiyi haqqında məlumat vermişdir. İngilis hökuməti adalar üçün 1.000.000 funt sterlinq təklif edir. Sövdələşmənin detalları hələ müəyyənləşdirilməmişdir. Yalnız müəyyənləşdirilmişdir ki, yuxarıda göstərilən məbləğin yalnız 400.000 funtu əvvəlki avansların ödənilməsinə sərf ediləcəkdir. 300.000 hind istiqrazlarının ödənilməsinə və yalnız 300.000 iranlılara nəqd yolla veriləcəkdir[1].

***Korostoveç***

*Qeydlər:*

1. Korostoveç 30/17 oktyabr tarixli 516 №-li teleqramında İran hökumətinin 27/14 oktyabr tarixli notasında Rusiya hökuməti qarşısında müharibənin İran ticarətinə vurduğu çətinliklər ucbatından 1900 və 1902-ci illər istiqrazları üzrə kuponların ödənilməsinin bir il təxirə salınması, onlardan kazak briqadalarının saxlanmasına xərcləməyə, keçmiş şaha pensiya verməyə, ingilislərlə birlikdə 300.000 tümən avans həcmində ona ssuda verməyə dair vəsatət qaldırılması haqqında məlumat verirdi. Korostoveç məlumat verirdi ki, "Tounley iranlıların belə mühacirətinə öz hökuməti adından rədd cavabı vermişdir. Əlavə etmişdir ki, İran maliyyəsi üzərində müvafiq nəzarət qoyulmayanadək və indiki halda yalnız ingilis hökumətindən pul vəsaiti olan Hörmüz adasındakı Kiş, Larak, Hörmüz və Xonsan adaları satılmayanadək ingilis hökuməti iranlılara heç bir pul ssudası verməyəcəkdir".

*s. 430-431*

Qaynaq: *Mejdunarodnıe otnoşeniya v epoxu imperializma. Dokumentı iz arxivov çarskoqo i vremennoqo pravitelstv. 1878-1917 qq. Seriya III. 1914-1917 qq. T. VII. 14 yanvarya 1915 q. - 23 maya 1915 q. Ç. 1. M.,- L., Soçekizdat, 1935. - 568 str.*

## № 6

## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 1 14/1 yanvar 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

Mən 30 dekabr (12 yanvar 1915-ci il) tarixli teleqramla türklərin Təbrizə daxil olması barədə şah hökumətinin mənə verdiyi məlumatın məzmununu Əlahəzrətə çatdırmağımda böyük şərəf duyuram.[1] Bu məsələ ilə bağlı mənim Nazirlər Şurasının sədri Mostoufi-əl-Məmaləklə söhbətim zamanı o, qeyd etdi ki, türk səfiri ilə hərbi ehtiyaclara dair danışıqlar davam edir və rus qoşunlarının türklərin təzyiqi ilə geri çəkilməsini və İranın yadelli işğaldan və ərazi itkisindən xilas edilməsini təsdiqləyir. Daha sonra Asim bəy bildirir ki, vəliəhd Təbrizə gələn kimi və burada normal nizam-intizam bərqərar edildikdə türk qoşunları Azərbaycandan uzaqlaşacaqlar. Ümumiyyətlə, türklər iranlılarla münasibəti korlamamaq üçün hər bir məsələyə ehtiyatla yanaşır və onu hərbi-strateji ehtiyaclarla əlaqələndirirlər. Belə ki, məsələn, İranın Rusiyanın xeyrinə bitərəfliyi pozması barədə Təbrizdə türk baş komandanının məlumatına baxmayaraq, türklər özlərini təmkinli apararaq daxili asayişi pozmaqdan və əhalini sıxışdırmaqdan çəkinmirlər. Çox güman ki, belə bir nümunəvi davranış uzun sürməyəcək və türkləri müşayiət edən kürdlər tezliklə özlərini həqiqi mənada göstərəcəklər. Mostou-

fi-əl-Məmalək bildirdi ki, şah hökuməti türk işğalçılığı məsələsi ilə əlaqədar təlaş içindədir və Asim bəyin verdiyi vədə əsasən, o, vəliəhdin tezliklə Təbrizə göndərılməsinə çalışacaqdır. 1907-ci ildə Azərbaycanda general-qubernator tərəfindən təşkil olunmuş pişkar timsalında Nizamül-mülkün təyin olunması nəzərdə tutulmuşdu. Təbrizdə kargüzar vəzifəsinə daxili işlər nazırinin yoldaşı Şərifəddövlə təyin olundu. Şahzadə Eynəddövlənin göndərılməsinin təxirə salınması bizim xeyrimiz üçün edilsə də, əslində bu əyan, türkpərəstliyi ilə özünü artıq nüfuzdan salmış və buna görə də Böyük Britaniya missiyası onu dəstəkləmək iqtidarında deyildir. Vəliəhdi səfərdə üç min atlı müşayiət edəcəkdır. Ekspedisiyanın təşkilinə sərf olunmuş xərcləri ört-basdır etmək üçün şah hökuməti ingilis missiyasına yüz min funt sterlinq borc almaqdan ötrü müraciət etdı. Bu xahişin tezlıklə qəbul edilməsini gözləməyən iranlılar lazımi məbləği gələcək maliyyə vergiləri və digər gəlirlərdən əldə etməyi nəzərdə tutdular. Çox çətin ki, əhali vergiləri vaxtından əvvəl ödəməyə razı olsun. Hökumətin düşmənləri əsaslı olaraq deyirdilər ki, vəliəhdin göndərilməsi lazımi ehtiyaclara və məmurlara məvacib verilməsinə pul ayrılması üçün bir bəhanədir.

Yaxınlarda görüşdüyüm Böyük Britaniya diplomatik nümayəndəsi bizim qoşunların çıxarılması ilə bağlı məsələyə razılığını bildirdi. Amma onu da qeyd etdi kı, Təbrizə daxil olmuş (nədənsə kürdləri hesaba almır) 2 min rus əsgərinin yeddi yüz turk əsgəri qarşısında geri çəkilməsi bizim üçün əlverişsiz şəkildə təlqin ediləcəkdir. O, həmçinin, dəstənin Qəzvində saxlanılmasına təəssüfləndiyini bildirmir. O, hesab edir ki, onun burada olması türk səfirinin artıq işarə verdiyi kimi türklərin oraya qoşun göndərməsi fikrinə gətirib çıxara bilər. Rusların yerləşdiyi məntəqələrə türklərin daxil olması Tehranın şayiələrə uyan əhalisinin əhval-ruhiyəsinə təsir göstərməyə bilməzdi. Mənim britaniyalı həmkarım yenə də təkrar etdi ki, bizə iranlıların mövqeyini dəstəkləmək zəruridir. Qeyd etdi ki, onda olan mə-

lumatlara görə Petroqradda müsəlman dünyasının və xüsusən, iranlıların xeyirxahlığının qədrini bilmirlər. Bu məsələ ingilislər üçün birinci dərəcəli əhəmiyyət təşkil edərdi. Onun fikrincə, belə bir şəraitdə Mazandaranın və xüsusilə, Məşhədin təxliyə edilməsi ictimai fikrə təsir göstərə bilər və hökumətin vəziyyətini yüngülləşdirərdi. Hərçənd, o, əlavə etdi ki, İran körfəzində olan nümayəndə polkovnik Koks, çox güman ki, iranlılarla hesablaşmağın gərəksiz olduğunu fikirləşir. Onun fikrincə Bağdadın tutulmasına qədər bizə İranın bitərəfliyini saxlamaq gərəkdir, iranlıların bizim tərəfə keçməsini isə nəinki artıq, hətta zərərli olduğunu fikirləşir. Çünki belə olacağı təqdirdə bizim hərəkət azadlığımızın qarşısı alınacaqdır. İngilis həmkarımın sözlərinə görə ingilis-hind məmurlarının nöqteyi-nəzərləri İranın bitərəfliyinin tərəfdarı olan cənab E.Qreyin rəğbətini qazanmaqdı. Cənab V.Tounley Mostoufi-əl-Məmaləkə məsləhət vermək niyyətindədir ki, türk qoşunlarının çıxarılmasını da Porto qarşısında təkid etsin və bununla vəliəhdin ezamiyyətini tələsdirsin, vəliəhdin gəlişi isə Azərbaycanda nizam-intizam və təhlükəsizliyin bərqərar olmasına əsas verir.

Bizim İrandakı tərəfdarlarımız, məsələn, Sepahdar və Kamran Mirzə rus dəstələrinin çağırılması məsələsini rəğbətlə qarşılamırlar. Onlar belə hesab edirlər ki, bu, Rusiyanın nüfuzuna təsir göstərə bilər və daxili asayişin pozulmasına gətirib çıxarar. Bu cəmiyyətdə belə bir fikir mövcuddur ki, qoşunlarımızın çıxarılması - sadəcə olaraq siyasi manevrdir və rus qoşunları Azərbaycana yenidən daha da möhkəmlənmək üçün qayıdacaqdır. Hökumət üzvləri tərəfindən də bu cür imkan qəbul olunacaq. Əlbəttə ki, onlar rus qoşunlarının İrana qaytarılmasında bizim ən cüzi bəhanəmizi aradan qaldırmaq üçün bütün güclərini sərf edəcəklər.

Bütün bunlarla bağlı olaraq şah hökumətinin yuxarıda qeyd edilmiş məlumatının tərcüməsini Əlahəzrətə çatdırmaqdan böyük şərəf hissi duyuram. Qəbul edin və oxuyun.

*Korostoveç*

*Qeydlər:*

1. Şah Sultan Əhmədin dayısı Şüca-əs-Soltanə İran hökumətinin razılığı ilə Qərbi Avropadan İrana qayıtdı. O, 1911-ci ildən burada yaşayırdı. Məhəmmədəli şahin taxt-tacı qaytarmaqda uğursuz cəhdlərdən sonra o, 1915-ci ilin əvvəlində Petroqradda olmuş və 12 yanvar 1915-ci il / 29 dekabr 1914-cü ildə II Nikolay tərəfindən qəbul olunmuşdu. 2 yanvar 1915-ci il / 20 dekabr 1914-cü il tarixli məktubunda Sazonov Barka yazırdı ki, "bu şahzadənin şəxsiyyəti bizim üçün böyük əhəmiyyət kəsb edir və onun bizə qarşı dostluq münasibəti siyasi nöqteyi-nəzərdən çox vacibdir, xüsusilə, İran yüksək hökumət dairələrinin bizə qarşı düşmən münasibətı olan bir şəraitdə. Bu mürəkkəbləşmələr bizim üçün narahatlıq doğurur"...

*s.9-11*

***

**№ 28**

**Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova**

Teleqram № 85 18/5 yanvar 1915-ci il

Surətləri Tehrana və Baş komandanlığın qərargahına. Şah hökuməti İsveç zabitlərinin rəhbərliyi altında jandarma dəstəsi və ümumi sayı 3000-ə qədər olan digər qoşunlarla birgə vəliəhdin Təbrizə uğurla göndərilməsi üçün bütün qüvvələrini səfərbər edir. Şahzadənin bu dəstə ilə Təbrizə çatması nəticəsində bəzi məlumatlara görə türklər öz vədlərinə sadiq qalıb qoşunlarını oradan çəkərlərsə, qoşunlarımızın Təbrizə əks hərəkəti və orada mövqeyimizin siyasi cəhətdən bərpası çətin olacaqdır.

Bütün bunlara görə vəliəhdin Təbrizə gəlişinə qədər Azərbaycan dəstəsini ora göndərmək daha təqdirəlayiq olardı. Məlumata görə orada türklərin sayı çox deyildir, Qəzvin üçün nəzərdə tutulmuş dəstəmiz türkləri geri oturtmaqda çətinlik çəkəcəkdir. Türklər bizim hücumlardan ehtiyat edərək vəliəhdin səfərini hər vəchlə tələsdirirlər.

*Sazonov*

*s.36-37*

***

## № 42
## Petroqarddakı İngiltərə səfirliyinin xarici işlər nazirinə yaddaş qeydləri

20/7 yanvar 1915-ci il

Tam məxfi

Cənab Sazonovun cənab Byukenenlə İran məsələsinə dair söhbəti ilə bağlı Əlahəzrətin səfirliyi rus hökumətinə aşağıdakı məlumatları çatdırır.

Müharıbənin əvvəlindən cənab E.Qrey İranda rus və yaxud ingilis nüfuzunun genişlənməsinə dair heç bir məlumat verməmişdır.

Rusiyanın İranla istənılən ixtilaflardan və ona qarşı münasibətdə hər cür təcavüzkar niyyətlərdən çəkinməsi arzusunun yeganə səbəbi müsəlmanların Türkiyə ətrafında birləşməsi nəticəsində Böyük Britaniya qüvvələrinə zərbə endirmək təhlükəsinin yaranması idi. Belə bir vəziyyət Misirdə olduğu kimi, Hindistanda çətinlik törədə bilər. Bundan başqa cənab E.Qrey belə bir fikirdədir ki, Türkiyəyə qarşı müharibədə rus nümayəndələrinın Şimali İrandakı (Güney Azərbaycan - M.Q.) fəaliyyəti Rusiyanın maraqları ilə üst-üstə düşmür.

Cənab E.Qrey belə hesab edir ki, Rusiya aşağıda göstərilən iki yoldan biri ilə getməlidir:

1. Ya öz qoşunlarını geri çağırmaqla (İranda) nüfuzunu qaldırmalıdır. Belə olacağı təqdırdə Rusiya İranın Türkiyəyə müxalif çıxmasına nail ola bilər; yaxud da, əgər İran hökuməti Türkiyənin tərəfində durarsa, o, (Rusiya) daha münasib bir vaxtda bir qədər sonra işi öz əlinə almağa nail olar.

2. Yaxud da kı, o, Azərbaycana kifayət qədər hərbi qüvvələr göndərməklə Şimali İranda (Güney Azərbaycan - M.Q.)Türkiyənin irəliləməsinin qarşısını ala bilər.

Cənab E.Qrey Şücaəddövlənin xidmətlərindən istifadə et-

məyi gərəksiz hesab edir Belə ki, buna oxşar fəaliyyət Türkiyəyə qarşı hərbi əməliyyatların uğursuzluğu ilə nəticələnmiş və İran hökuməti ilə narazılığa gətirib çıxarmışdır.

Rusiya bu iki yoldan birini, əlbəttə ki, özü seçməli idı. Cənab E.Qreyin fikrincə təəssüf ki, bu yollardan heç biri qəbul olunmadı. Nəticədə Rusiya Şücaəddövlədən istifadə etməklə İran hökumətinin istəyinə qarşı çıxmaqda məzəmmət edildi və bundan başqa öz qoşunlarını çıxarmaqla Tehranda heç bir mənəvi uğur əldə edə bilmədi. Belə ki, İran hökumətinin gözü önündə bu hərəkət türk hücumu kimi qələmə alındı.

Cənab E.Qrey buna görə də cənab Sazonovu İrana dair təkliflərin səbəbini birinci növbədə müharibənin gedişində İran, Rusiya və Böyük Britaniyanın maraqlarının oxşarlığı, ikincisi isə Şimali İranda (Güney Azərbaycan - M.Q.) Rusiya nümayəndələrinin hər iki tərəfin maraqlarına uyğun gəlmədiyinə əmin olduğuna inandırmağa çalışırdı.

Müharibə hələ ki, davam edir. Müharibəyə təsirindən asılı olmayaraq İran məsələsi cənab E.Qrey üçün əhəmiyyət kəsb etmir. Onun İrana qarşı münasibətdə yeganə qayğısı ölkədə rus siyasətinin müharibənin gedişinə müsbət və yaxud mənfi təsir etməsi məsələsidir.

Cənab E.Qrey ümid edir ki, Türkiyənin İranda əldə edə biləcəyi bu və ya digər strateji üstünlüklər Qafqazda rusların qələbəsinin puç olmasına səbəb ola biləcək, eyni zamanda, Türkiyə İranda bəzi diplomatik mövqeləri əldə etmişdir. Bu da ümumiyyətlə, müsəlman dünyasında yarana biləcək çətinliklər ucbatından bizim üçün ciddi məsələ ola bilər.

Rusiya İranda itirdiklərini bərpa etmək üçün hansı hərbi addımın atılmasını özü həll etməlidir: Cənab E.Qreyin fikrincə yeganə diplomatik addım İran hökumətinin 100.000 funt sterlinq borc alması haqqında müraciəti məsələsində hər iki hökumətin razılığa gəlməsi ola bilər. Əgər imperator hökuməti müəyyən hissəni öz öhdəsinə götürərsə, onda məbləğin yarısını Əlahəz-

rət hökuməti ödəməyə hazır olduğunu bildirdi.

Səfirlik soruşur ki, cənab Sazonov bu borcu verməyi müsbət hal hesab edirmi və əgər müsbət fikirdədirsə, onda onun fikrincə bu əməliyyat hansı şəaritdə həyata keçirilə bilər? Cənab E.Qrey belə təhlil edir ki, əgər hər iki hökumət bu borcun verilməsinə gedərsə, onda çox ağır və az müvafiq şərtlərin qoyulması da məqsədəuyğun deyildir.

*s.59-62*

***

**№ 44**
**Xarici işlər naziri Paris və Londondakı səfirlər İzvolskiyə və Benkendorfa**

Teleqram № 115 20/7 yanvar 1915-ci il, axşam saat 7

Serafimov İstanbuldan teleqraf edir ki[1], komitənin bəzi üzvləri gənc türklərin şəxsi maraqlarını təmin etmək məqsədi ilə onlara qoşulmağa çalışırlar. Serafimov əlavə edir ki, danışıqlardan yayınırsa, komitə fransız və ingilislərə müraciət edəcəkdir.

Bizim türklərlə aramızda Rusiya üçün həyati əhəmiyyəti olan boğazlar məsələsinin durduğunu nəzərə alaraq və hər növ danışıqların bu məsələnin həllini ləngidə bilməsini görərək mən Serafimova əmr edirəm ki, komitə üzvləri ilə münasibətə baxmayaraq, daxil olmaq fikrindən yayınsın.

Əminəm ki, Sizi vəkil edən hökumət də İstanbula təyin etmiş gizli nümayəndəsinə eyni göstərişi verəcəkdir[2].

*Sazonov*

*Qeydlər:*

1. 19/6 yanvar tarixli 85 №-li teleqram.
2. 27/14 yanvar tarixli yaddaş qeydləri. Byukenen Sazonova bildirdi ki, "cənab E.Qrey əlbəttə ki, türklər tərəfindən irəli sürülən heç bir separat xarakterli danışıqlara getməyəckdir".

*s.65*

***

## № 45
## Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 122 20/7 yanvar 1915-ci il

653 №-li teleqram alınmışdır[1].

Vəliəhdin Təbrizə göndərilməsi və qoşunlarımızın Azərbaycandan tamamilə çıxarılması məsələsinə bizim münasibətimizlə əlaqədar olaraq İshaq xanın sorğusuna rəğmən elçiyə aşağıdakı cavablar verilmişdir:

Biz dəfələrlə vəliəhdin Azərbaycana göndərilməsinə qarşı olduğumuzu bildirmişik. Gənc şahzadənin burada olması çox çətin ki, yeri ünsürlərə təsir göstərsin, onun ətrafında isə ağır nəticəli ixtilaflar asanlıqla yarana bilər. Fikrimizcə, əyalətə təcrübəli Rəşid-əl-Mülkün rəhbərlik etməsi daha məqsədəuyğun olardı.

Türklərə gəldikdə isə biz onların vədlərinə inanmırıq və hesab edirik ki, vəliəhdin gəlişindən sonra da ayrı-ayrı bəhanələrlə Azərbaycan ərazisini tərk etməyəcəklər. Onlar Azərbaycan ərazisindən bizə qarşı mübarizədə baza kimi istifadə edəcəklər. Onları İran ərazisindən bizim qoşunların hücumları çıxara bilər, bu da Qafqaz hərbi rəisliyinin strateji mülahizələrindən asılıdır.

*Sazonov*

*Qeydlər:*

1. 13 yanvar 1915-ci il / 31 dekabr 1914-cü il tarixli 653 №-li teleqramla Korostoveç türk səfirinin bəyanatını çatdırdı ki, türklər Azərbaycanı vəliəhdin bu əyaləti idarə etməyə başlamasından dərhal sonra tərk edəcəklər.

*s. 65-66*

***

## № 55
## III Siyasi şöbənin müşaviri Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 153 21/8 yanvar 1915-ci il

Bizim müsbət rəyimizlə Şücaəddövlənin Azərbaycana gəlişi ilə burda yarana biləcək hərbi münaqişələr nəticəsində vurulmuş ziyanın məsuliyyətini üzərimizə qoyan İshaq xanın notasına cavab olaraq İran diplomatik nümayəndəsinə göndərdiyimiz geniş notanın qısa məğzini aşağıda göstəririk:

Noyabrın əvvəllərində türklərin İrana hücuma başlaması məsələsinə şah hökuməti heç bir reaksiya vermədi. Bunu kürdlər türklərə köməyə çağırış kimi qəbul etdi. Şücaəddövlə Azərbaycana bir qədər gec gəldi və İran ərazisinə artıq daxil olmuş kürdlərə və türklərə qarşı müqaviməti təşkil etmək cəhdlərinə cavab olaraq İran hökumətinin müqavimətinə rast gəldi. Bununla Şücaəddövlənin bizim çox da böyük olmayan dəstənin geri çəkilməsinə və İyasın[1] ölümünə səbəb olan uğursuzluğu açıqlanır. Beləliklə, Azərbaycanda müharibənin yaratdığı bütün bədbəxtliyin məsuliyyəti hər mənada şah hökumətinin üzərinə düşür.

Hər iki notanın surəti poçt ilə göndərilir.

***Klemm***

*Qeydlər:*

1. Sovucbulaqdakı rus konsulu işləyən A.İ.İyas 29/16 dekabr 1914-cü ildə Miandab şəhərinin zəbt edilməsi zamanı öldürülmüşdü.

*s.77*

***

## № 60
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 2 21/8 yanvar 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

Ötən məlumata əlavə olaraq vəliəhdin Təbrizdə nəzərdə tutulmuş ezamiyyətinə dair bəzi dəlilləri Əlahəzərətə çatdırmaqdan böyük şərəf duyuram. Burada həmin ezamiyyətdə o mənada böyük ümid bəslənilir ki, şahın qardaşı və taxt-tacın varisi şimaldakı (Güney Azərbaycan M.Q.) iğtişaşçı ünsürlərə və oradakı tayfalara mərkəzi hökumətə sədaqəti saxlamaq üçün zəruri təsir göstərəcəkdir. Bundan əlavə, iranlılar ümid edirlər ki, Porto öz vədinin üstündə duracaq və Təbrizdə yeni hökumət yaranan kimi qoşunları oradan çıxaracaqdır. Nizamül-mülkdən əlavə vəliəhdlə birgə Nəsrəddin şahın oğlu şahzadə Yaminəddövlə hərbi qüvvələrə və Məs-əl Mülk saraya rəhbərlik etmək üçün yola düşəcəkdir. Sərdar Rəşidə istefaya getmək təklifi verilsə də, indi o, vəliəhdin yol məsrəfləri üçün göndərilmiş iri məbləğə görə öz vəzifəsində qalacaqdır. Teleqrafın türklərin nəzarəti altında olması ucbatından Təbrizdən gələn məlumatlar azlıq təşkil edir. Məlumdur ki, türklərin döyüş üçün 700 nəfəri olduğu halda, kürdlərin sayı hələ əvvəllər 4000 nəfər təşkil edirdi. Çox güman ki, onların sayı bəlkə Culfaya göndərilmiş yeni qüvvələrin daxil olması ilə əlaqədar artmışdı. İran hökuməti və Təbriz əhalisi türk qoşunlarını fərəhlə qarşıladı. Bu da türklərə olan rəğbətdən daha çox onları öz tərəfinə çəkmək istəyindən doğurdu. Söz-söhbətlərə görə türklər özlərini ümumilikdə ləyaqətli aparırlar. Bu da onların Şücaəddövlə ilə münasibətdə və ümumiyyətlə, ruspərəstlikdə ittiham olunan bəzi gərəksiz məmurlarla qəddarcasına hesablaşmasına mane olmurdu. Belə ki, onlar Sovucbulaq qubernatoru Sərdar Mükri və onun oğlunu, Bane şə-

hərinin sabiq və hazırki qubernatorlarını, Marağa xanı Müzəffər Sultanini güllələmiş, bir neçə erməni, həmçinin, iki rus təbəəsi edam edilmişdir. Şah hökuməti türklərin İstanbulda törətdiyi amansızlığa qarşı türk səfirinə etirazını bildirdi. Türk səfiri bu aktı türk qoşunlarına qarşı düşmən münasibətdə ittiham edilən məlum düşmənlərə qarşı ehtiyat tədbiri kimi qiymətləndirdi. Bununla Asim bəy bir daha təkrarladı ki, Rusiyanın İran ərazisindən təxliyəsi barədə rəsmi bəyanatından sonra türk qoşunları geri çağırılacaqdır.

Son məlumatlara görə vəliəhd guya Təbrizdə polis təşkil etmək üçün özü ilə 200 jandarma və 2 İsveç zabiti gətirir. Çox güman iranlılar bu yolla bizim ərazimizə bu qoşun hissəsinin buraxılmaması şərtimizin əksinə olaraq jandarma idarəsini şimala (Güney Azərbaycan- M.Q.) keçirmək istəyir. İranlılar jandarmaların göndərilməsini şahın və vəliəhdin şəxsi istəyi kimi qəbul edirlər. Mənə elə gəlir ki, bu tədbir jandarmeriyanın Şimala buraxılmaması barədə tələblərimizə həmişə mənfi yanaşan Böyük Britaniya missiyasından xəbərsiz qəbul edilmir.

Mənim xarici işlər naziri Muin-əl-Vəzarə ilə son görüşümdə o, məlumat verdi ki, İshaq xan bu yaxınlardakı teleqramı ilə əsasən, İranın səmimi məqsədlərinə dair bizim hökumətin fikirlərini yayındırmağa və hətta Əlahəzrətdən çətin anda İrana maddi cəhətdən kömək etmək vədinə də nail oldu. Rəsmi nümayəndələrimizlə İran elçisinin danışıqlarından irəli gələn xoş təəssürat əlahəzrət imperatorun şahzadə Şüca-əs-Sultanə üçün keçirdiyi yüksək səviyyəli qəbul və onun təltif edildiyi ali mükafatla korlandı. Muin[1] əlavə etdi ki, İran hökuməti belə güman edir ki, şahzadə Şüca-əs-Sultanə imperator hökumətini mövcud anlaşılmazlığı aradan qaldırmaq üçün İranın Rusiyaya qarşı dostluq münasibətlərinin dəyişmədiyinə inandırdı.

İnanmaq çətindir ki, bu məsələ ilə bağlı vədlər həqiqətə uygun olsun. Əksinə, onun həqiqətə uyğun olmadığını etiraf etmək lazımdır. Çünki şah hökumətinə artıq aydın idi ki, biz Təb-

rizə vəliəhdin təyin olunmasına qarşı çıxırıq. Çünki biz görürdük ki, onlar antirus siyasətdə şahzadədən silah kimi istifadə edirlər. Buna baxmayaraq, vəliəhd Təbrizə yola düşür, həm də, qoşunlarımızın və baş konsulluğumuzun çıxarılmasından dərhal sonra. Məlumdur ki, iranlılar Təbrizə pişkar kimi bizə rəqib olan şahzadə Eynəddövləni göndərməyə çalışır. Lakin bu şəxsin yararsızlığını nəzərə alıb fikirlərindən çəkindilər. Bundan başqa , şah hökumətinin Rusiyaya meylli və bizimlə bağlı şəxslərə qarşı düşmən münasibətlərinin olmasına dair çoxlu misallar gətirmək olar. Lakin mən Əlahəzrətin vaxtını almamaq üçün bu sadalamadan vaz keçirəm. Keçmiş hökumətin ruspərəstliyi elə aydın xarakter almışdı ki, o, missiyanı həddən artıq sadəlövhlüklə və hökumtətlə münasibətdə laqeydliklə ittiham edən tərəfdarlarımızın məzəmmətinə rast gəldi. Onlardan çoxu Böyük Britaniya missiyasının hərəkət tərzinə dəlalət edərək İranın daxili işlərinə tez-tez qarışmasına və hətta kabinetin siyasətinə təsir edən, ilk növbədə isə rus nüfuzuna acıyan ruhaniliyə və Məclisin mötədil partiyasına üz tutaraq bütün ünsürləri sıxışdırmağı mənə məsləhət görürdülər.

Belə məsləhətlərə ciddi yanaşmaq düzgün deyildir. Tarixi və digər səbəblərdən ənənələri nəzərə alaraq Rusiya Şimali İranın (Güney Azərbaycan - M.Q.) bəzi iri mülkiyyətçiləri və köhnə rejimin şahzadə və əyanlarının timsalında bank borcları və könülsüz tərəfdarlarımız olan az fəaliyyətli və daha doğrusu, mürtəce ünsürlərlə münasibətə girdi. Bu şəxslər siyasi nüfuzlarından və məşhurluğların istifadə etməyərək rus proqramının keçirilməsində bizə real kömək də göstərə bilmədilər. Hətta demək olar ki, onlar ölkənin ictimai fikrində nüfuzlarını aşağı salaraq bizim üçün artıq yükdürlər. İngilis missiyası çoxdan bu yükdən azad olmuş, nüfuzlu və həyat fəaliyyəti olan ünsürlərə himayədarlıq etməyi üzərinə götürmüşdür. Hətta paytaxtda da səncablar, bəxtiyarlar kimi ayrı-ayrı tayfalar ingilislərə üstünlük verir və onlara arxalanırlar. Bu tayfaların xanları Britaniya səfir-

liyi və nümayəndəliyi ilə daim ünsiyyətdə olurlar. Çox güman ki ingilis hökuməti öz proqramlarını həyata keçirmək üçün bəxtiyar xanlarını ön sıraya çəkəcəkdir.

Məclis və ruhani idarələrinin iştirakı ilə tərəfdarlarımızın göstərişinə əsasən hökumətlə mübarizə məni ingilis səfiri ilə ixtilafa gətirib çıxara bilər. O, belə hesab edir edir ki, bizim tərəfimizdən əsassız olaraq hər hansı bir aktiv hərəkət hələ yersizdir və biz iranlılarla ixtilafdan, onların türklər tərəfinə keçməsi və müsəlman ideyasına aludə olmasından qaçmalıyıq.

Qəbul edin və tanış olun.

*Korostoveç*

*Qeydlər:*

1. Korostoveçə çatdırılmış notada İran hökuməti belə bir xahişlə müraciət etmişdir ki, "ona olan hücumlara cavab vermək və İranı təhlükədən qurtara bilmək üçün İran hökumətinin yaxşı niyyətlərinə təsir göstərsin". Bu da onu göstərir ki, Şücaəddövlənini səfəri Türkiyəyə qarşı mübarizədə heç bir nəticə vermədi. Lakin eyni zamanda türk qoşunlarına Təbrizi tutmaq bəhanəsini verdi. Türk hökuməti bəyan etdi ki, İran artıq öz bitərəfliyini pozmuşdur (Korostoveçin 12 yanvar 1915-ci il / 30 dekabr 1914-cü il tarixli 647 saylı teleqramı).

*s. 80-83*

***

## № 61
## Qafqaz canişini xarici işlər nazirinə

Teleqram № 123 — 21/8 yanvar 1915-ci il

Təcili

Sizin 59 nömrəli teleqramınızı aldım[1].

Türk qüvvələri üzərində uğurlar əldə etdikdən sonra Sizin arzunuzu həyata keçirmək və Təbrizi tutmaq çətinlik törətmir. Amma mən Əlahəzrətin nəzərinə çatdırıram ki, Təbrizin boşaldılması hərbi mülahizələrdən, daha doğrusu, sərhədlərimizi

möhkəm bağlamaq üçün Azərbaycanda səpələnmiş qoşunları toplamaq və hərbı hissələrdən başqa istiqamətlərdə də istifadə etmək zərurətindən doğur. Əldə olunmuş qələbələrə baxmayaraq, Qafqaz ordusu üçün çətin anlar yenə də gələ bilər. Belə ki, artıq Sizə məlumdur, türklər Qafqaz sərhədinə qərbdən yeni güclü qüvvələr yönəldirlər. Belə bir şəraitdə əgər biz Təbrizi tutsaq, mən hərbi şəraitlə əlaqədar onların yenidən geriyə çağırılmasına cavabdeh deyiləm. Təbrizın boşaldılması, yaxud tutulması məsələlərində belə yayınmalara yol verilməsini və müharibə zamanı, xüsusilə, vəliəhdin oraya gəlişi türk qoşunlarının Təbrizdən çıxarılması təminatı ilə bağlı olarsa, bizim ümumiyətlə, Təbrizdən imtina etməyimizın düzgün olub-olmamasını özünüz həll etsəniz, daha yaxşı olardı. Yuxarıda qeyd olunanlara yekun vuraraq məlumat verirəm ki, əgər Siz təkid edirsinizsə, biz Təbrizi tutmağa hazırıq. Lakin mən müharibənin Qafqaz cəbhəsinə cavabdeh olan Baş komandan kimi bunun ardınca Təbrizin qoşunlardan boşaldılması əmrini verməyəcəyəm.

*Qraf Vorontsov-Daşkov*

*Qeydlər:*

1. Orijinalda səhv getmişdir. Belə ki, 59 №-li teleqram Serbiyaya ünvanlanmışdır və Bolqarıstanla danışıqlara aiddir. Çox güman ki, Sazonovun 20/7 yanvar tarixli 121 №-li teleqramı nəzərdə tutulur. O, burada Qafqaz canişininə məlumat vermişdi ki, II Nikolay onun, vəliəhdin gəlişinə qədər "Azərbaycanı türklərdən xilas edənlər timsalında" rus ordularının Təbrizə gəlməsinin zəruriliyi haqqında mülahizələrini bəyəndi. Əks təqdirdə dəstənin Təbrizə qayıdışı "yeni işğal xarakteri daşıyacaq, yeni ixtilaflara və Tehranda olduğu kimi, Londonda da etirazlara səbəb olacaqdır".

*s.83-84*

***

## № 68
## Qafqaz canişinliyi yanında sərhəd əlaqələri üzrə məmur vəzifəsini yerinə yetirən III Siyasi şöbənin müşavirindən Mərkəzə

Teleqram № 172 23/10 yanvar 1915-ci il

Təcili

General Mişlyayevskinin 29 №-li teleqramına əsaslanıram[1]. Yaxşı olardı ki, Orlov qoşunların ardınca Təbrizə hərəkət etsin. Alman səfirini ələ keçirməyə çalışmaq lazımdır.

Əgər İyasın ölümü haqqında məlumat təsdiq edilərsə, onda günahkarlarla qəddarcasına hesablaşmaq lazımdır.

***Klemm***

*Qeydlər:*

1. 22/9 yanvar tarixli 29 №-li teleqramda general Mişlyayevski məlumat vermişdir ki, 22/9 yanvarda rus qoşunlarının Təbrizi tutması haqqında sərəncam və Ərdəbıl-Qəzvin ordusunun Ərdəbilə qaytarılması əmri oldu. 30/17 yanvarda Təbriz rus qoşunları tərəfindən tutuldu.

s.89

***

## № 86
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 22 26/13 yanvar 1915-ci il

Tounley Əlahəzrətin Böyük Britaniya səfiri ilə İran məsələsində ingilis-rus münasibətlərinin nizama salınmasına dair söhbətinin məzmunu ilə məni tanış etdi. Öz növbəsində mən keçən

möhkəm bağlamaq üçün Azərbaycanda səpələnmiş qoşunları toplamaq və hərbi hissələrdən başqa istiqamətlərdə də istifadə etmək zərurətindən doğur. Əldə olunmuş qələbələrə baxmayaraq, Qafqaz ordusu üçün çətin anlar yenə də gələ bilər. Belə ki, artıq Sizə məlumdur, türklər Qafqaz sərhədinə qərbdən yeni güclü qüvvələr yönəldirlər. Belə bir şəraitdə əgər biz Təbrizi tutsaq, mən hərbi şəraitlə əlaqədar onların yenidən geriyə çağırılmasına cavabdeh deyiləm. Təbrizin boşaldılması, yaxud tutulması məsələlərində belə yayınmalara yol verilməsini və müharibə zamanı, xüsusilə, vəliəhdin oraya gəlişi türk qoşunlarının Təbrizdən çıxarılması təminatı ilə bağlı olarsa, bizim ümumiyətlə, Təbrizdən imtina etməyimizin düzgün olub-olmamasını özünüz həll etsəniz, daha yaxşı olardı. Yuxarıda qeyd olunanlara yekun vuraraq məlumat verirəm ki, əgər Siz təkid edirsinizsə, biz Təbrizi tutmağa hazırıq. Lakin mən müharibənin Qafqaz cəbhəsinə cavabdeh olan Baş komandan kimi bunun ardınca Təbrizin qoşunlardan boşaldılması əmrini verməyəcəyəm.

*Qraf Vorontsov-Daşkov*

*Qeydlər:*

1. Orijinalda səhv getmişdir. Belə ki, 59 №-li teleqram Serbiyaya ünvanlanmışdır və Bolqarıstanla danışıqlara aiddir. Çox güman ki, Sazonovun 20/7 yanvar tarixli 121 №-li teleqramı nəzərdə tutulur. O, burada Qafqaz canişininə məlumat vermişdi ki, II Nikolay onun, vəliəhdin gəlişinə qədər "Azərbaycanı türklərdən xilas edənlər timsalında" rus ordularının Təbrizə gəlməsinin zəruriliyi haqqında mülahizələrini bəyəndi. Əks təqdirdə dəstənin Təbrizə qayıdışı "yeni işğal xarakteri daşıyacaq, yeni ixtilaflara və Tehranda olduğu kimi, Londonda da etirazlara səbəb olacaqdır".

***s.83-84***

***

**№ 68**

**Qafqaz canişinliyi yanında sərhəd əlaqələri üzrə məmur vəzifəsini yerinə yetirən III Siyasi şöbənin müşavirindən Mərkəzə**

Teleqram № 172 23/10 yanvar 1915-ci il

Təcili

General Mişlyayevskinin 29 №-li teleqramına əsaslanıram[1].

Yaxşı olardı ki, Orlov qoşunların ardınca Təbrizə hərəkət etsin. Alman səfirini ələ keçirməyə çalışmaq lazımdır.

Əgər İyasın ölümü haqqında məlumat təsdiq edilərsə, onda günahkarlarla qəddarcasına hesablaşmaq lazımdır.

***Klemm***

*Qeydlər:*

1. 22/9 yanvar tarixli 29 №-li teleqramda general Mişlyayevski məlumat vermişdir ki, 22/9 yanvarda rus qoşunlarının Təbrizi tutması haqqında sərəncam və Ərdəbil-Qəzvin ordusunun Ərdəbilə qaytarılması əmri oldu. 30/17 yanvarda Təbriz rus qoşunları tərəfindən tutuldu.

s.89

***

**№ 86**

**Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə**

Teleqram № 22 26/13 yanvar 1915-ci il

Tounley Əlahəzrətin Böyük Britaniya səfiri ilə İran məsələsində ingilis-rus münasibətlərinin nizama salınmasına dair söhbətinin məzmunu ilə məni tanış etdi. Öz növbəsində mən keçən

ilin (25) 12 mart tarixli məktubum[1] ilə bitərəf zonanın hüdudları məsələsində 1907-ci ildəki müqaviləyə[2] dəyişikliklər etmək göstərişini verdim. Tehranda olduğum bir illik təcrübə fikrimdən dönməyi və aşağıdakı mülahizələri söyləməyə məni vadar edir.

Mən şübhə edirəm ki, təklif olunmuş mülahizə ilə müqavilənin yenidən baxılması həyata keçsin. Əgər belə bir şey olarsa, İngiltərə ilə möhkəm dostluq münasibətlərinin qurulmasına nail oluna bilər. Əgər London kabineti Tounleyin sözləri ilə desək onlar tərəfindən elan edilmiş: "ingilis ictimai fikrinin böyük əhəmiyyət verdiyi İranın bütövlüyü və toxunulmazlığı və kiçik xalqların - (Belçika) milli inkişafına himayədarlıq etmə prinsiplərinə sadiq qalarsa", onda o, İranın bölünməsinə ilkin addımın olduğunu hesab edərək bitərəf zonanın aradan qaldırılmasına getməyəcəkdir. İngilislər isə buna razı olmayacaqdır. Çünki bitərəf zona hind siyasətinin can yandırdığı bufer rolunu oynayır: onun bölünməsi isə E.Qreyin qeyd etdiyi kimi, İngiltərə üçün arzuolunmaz olan iki dövlətin vasitəsiz qonşuluğuna gətirib çıxaracaqdır. Və üstəlik onun mövcudluğu zamanı İran üzərində müstəqil dövlət kimi və yaxud da ki, onun hökuməti öz suveren hakimiyyətini formal olaraq biruzə verə biləcək bir hissə kimi qalır. Buna görə də ingilislər müqavilənin yenidən baxılmasına qarşı çıxır və onların dəqiq nüfuz dairələrinə heç olmasa, artırılmasına və bərabər hüquqları aydınlaşdırmaqla bölünməsinə üstünlük verirlər. Mən zənn edirəm ki, belə birləşmə bizim üçün də əlverişlidir, lakin bir qədər başqa formada.

...Çünki Londonun göstərişlərini rəhbər tutan ingilis missiyası həqiqətən öz təşəbbüsü ilə Şimalın (Güney Azərbaycan - M.Q.) Tounleyin sözləri ilə desək, daxili işlərinə müdaxilə edəcəkdir. Mərkəzi İran hökuməti isə siyasətimizi iflic edəcəkdir.

... Bu, ingilis-rus münasibətlərinə səmərəsiz və zərərli təsir göstərməklə özünükənarlaşdırma üçün imkan açaraq əlbəttə ki, iranlılarla münaqişə və ixtilaflardan, hər iki dövlətin rəsmi nü-

mayəndələrinin şəxsi xüsusiyyətlərindən asılı olmayacaq və mahiyyət etibarilə əl-qolumuzu bağlaycaqdır. Mən belə hesab edirəm ki, Tehranda hegemonluğu ələ almağa çalışmaqdan könüllü boyun qaçırma bizim nəhəng dövlət cazibədarlığımızı azaltmayacaqdır. Təsir dairəsinin uzaqlığına baxmayaraq, ingilislər belə nüfuza malikdir, bizim İranda mövqeyimizin gücünü İngiltərə ilə siyasi mübarizədə və Tehran hökmdarları arasında ixtilaflarda deyil, İranın mehriban, yaxud qüdrətli qonşusu kimi Rusiyanın nüfuzunda axtarmaqdan ibarətdir. Və üstəlik paytaxtda fəal iştirak üçün ciddi kompensasiya Şimalda (Güney Azərbaycan - M.Q.) rus mövqeyinin güclənməsinə və Böyük Britaniya ilə dostluq münasibətlərinin bərpasına xidmət edəcəkdir. Bitərəf zonada Tehranın ayrılması təcrübəsində Azərbaycanı və ona yaxın əraziləri tədricən və qeyri-iradi ayırmaq və onları Təbrizdə baş konsulluqdan və Qafqaz idarəsindən asılı vəziyyətdə saxlamaq olardı. Oxşar mərkəzsizləşdirmə Tounleyin təsdiqi ilə müstəqil fəaliyyət göstərən cənab T.Koksun ağalıq etdiyi İran körfəzində ingilislər tərəfindən keçirilmişdi. Layihələşdirilən bu birləşmə ancaq mövcud vəziyyəti rəsmiləşdirəcəkdir. Çünki Tehranda iki missiyanın bərabərhüquqluğunun pozulmasına baxmayaraq, 1907-ci ildən hakim rol ingilislərə məxsusdur və onun iddia edilməsi real səmərə gətirməyərək qarşılıqlı münasibətlərin kəskinləşməsinə gətirib çıxarır.

Böyük Britaniya Azərbaycanda, həmçinin, Gilan və Mazandaranda bizim mövqeyimizi tanımağa hazır olsa da ingilislərin üstünlük təşkil etdiyi ingilis-rus yarışmasının meydanı olan paytaxtda tanımağa hazır deyildi. Çox güman ki, paytaxtın bitərəf zonaya birləşməsi çoxdankı münaqişə səbəbindən İran fitnə-fəsadlarını və rus-ingilis partiyalarının mövcudluğunu dayandıra bilməyəcəkdir. Lakin dairəmizdə həqiqi marağı olan daha ciddi ünsürlərin bizə ağır təsir göstərməsi nəticəsində onun xarakteri dəyişəcəkdir. Bu birləşmə paytaxtın başqa dövlətin nüfuz dairəsində yerləşməsi faktından narazı olan iranlıları da məm-

nun edəcəkdir. Himayədarlarımız tərəfdən də etiraz səsi ucalacaqdır. Lakin onlardan çoxu bizi hökumətlə küsdürməyə çalışaraq nüfuzumuzu gözdən salır. Təqdim olunan birləşmə formal tərəfdən 1907-ci il müqaviləsinə sadəcə olaraq əlavə notaların mübadiləsi ola bilər, bunun sayəsində istər İngiltərədə, istərsə də burada ictimai fikrin gərginləşməsindən və İranın parçalanması cəhdində bizi günahlandırmaqdan qaçmaq mümkün olacaqdır.

*Korostoveç*

*Qeydlər:*

1. 25/12 mart 1914-cü il tarixli məktub Xarici İşlər Nazirliyinin işlərində tapılmamışdır.

2. İran, Əfqanıstan və Tibetin təsir dairələrinin bölüşdürülməsi haqqında 31/18 avqust 1907-ci il tarixli ingilis-rus sazişi.

*s.114-117*

***

## № 91
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 24 27/14 yanvar 1915-ci il

Bu günlərdə yola düşən səfir dünən vəliəhd tərəfindən qəbul edildi və onun üzərinə düşən vəzifələrin mümkünlüyünü, Baş konsulluq və Qafqaz hökuməti ilə səmimi dostluq münasibətlərinin yaradılması zərurətini, xaricilərin və farsların şəxsi məqsəd güdən, İranın mənafeyinə uyğun olmayan qızışdırmalarına əhəmiyyət verməməyi nəzərə çatdırdı. O, vəliəhdi antirus siyasətinin İran üçün kədərli nəticələrdən çəkindirərək və xəbərdarlıq etdi. Onun ezamiyyətinə qarşı Petroqradda yanlış fikir hökm sürür ki, bunların da qarşısını almaq lazımdır.

Vəliəhd imperatora dərin sədaqət hisslərini çatdırmağı xahiş etdi. Bizim nümayəndələrin göstərişlərinə uyğun münası-

bətləri nizamlamaq niyyətinin olduğunu bildirdi və İranın taleyinin bütünlüklə bizdən asılı olduğunu dərk edərək bəyan etdi ki, Rusiya əleyhinə yönəlmiş məsləhətlərə əməl etməyəcək və bizim etimadımızı doğrultmağa çalışacaqdır. Mən vəliəhdə məsləhət verdim ki, onu müşayiət edən jandarmaları kazaklarla əvəz etsin. Əlahəzrət isə buna cavab olaraq bildirdi ki, bu qərar, yəni jandarmaların göndərilməsi məsələsi hökumət tərəfindən həyata keçirilmişdir. Söhbətdə iştirak edən Muin-əl-Vəzarə sübut etməyə çalışdı ki, jandarmalar vəliəhdi müşayiət edirlər və onlara əhəmiyyət verməmək lazım deyildir.

Bütün bu təminat vəliəhdin gəncliyi ilə əlaqədar olaraq ciddi əhəmiyyət kəsb etmirdi, onun hərəkətləri ətrafdakılara və yaxud da ki, ona təsir edə bilən bir kəsdən asılı olacaqdı. Şah hökuməti Təbriz yaxınlığında Nemətabadda səfirliyin binasının türklər tərəfindən talan edilməsinə öz narazılığını bildirdi.

***Korostoveç***

*s. 121*

***

**№ 97**

**Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə**

Teleqram № 4        28/15 yanvar 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

23/10 yanvar tarixli 16 №-li məxfi teleqrama[1] əlavə olaraq, Əlahəzrətə sərəncam üçün xarici işlər nazirinin rus qoşunlarının İrandan (Güney Azərbaycan - M.Q.) çıxarılması məsələsinə dair notasının tərcüməsini və mənim cavabımı çatdırmaqda şərəf duyuram.

Qəbul edin və tanış olun.

***Korostoveç***

*Qeydlər:*

1. 23/10 yanvar tarixli 16 №-li teleqramda Korostoveç İran xarici işlər nazirinin notasının qısa məzmununu və öz cavabını çatdırdı.

*s. 128*

*Əlavə I*

### *Şah hökuməti xarici işlər nazirinin cənab imperatorun İrandakı səfirinə 6 rəbiül - əvvəl 1333-cü il tarixli[1] 4980/688 saylı notasının tərcüməsi*

Rus-türk müharibəsinin başlanmasına qədər olduğu kimi sonralar da rus qoşunlarının İranda olması təhlükəsinə qarşı bir neçə dəfə yazılı və şifahi şəkildə çıxış etmiş və sonra gözlədiyimiz kimi imperator hökuməti tərəfindən şah hökumətinin nöqteyi nəzərləri qəbul olunmuşdur. Nəhayət, səfər ayının 14-də[2] cümə günü Nazirlər Şurasının sədri kimi Əlahəzrət və mən rus qoşunlarının İrandan (Güney Azərbaycan - M.Q.) çıxarılması əmri barədə məlumat aldıq. Bundan başqa səfər ayının 17-də[3] axşam əlahəzrət Müşavir-əl-Məmalək də bu məlumatı təsdiqlədi. Səfər ayının 18-də[4] Əlahəzrət öz istəyini həyan etdi ki, Mənsul-əl-Mülk rus qoşunlarının İrandan çıxarılması barədə xəbəri Şah hökumətinin nəzərinə çatdırmışdır, həqiqətən rus qoşunları Qəzvindən Rusiyaya daxil olmuşlar. Əlbəttə, imperator hökumətinin İranla dostluğa xidmət edən, cəmiyyətin şüurunu sakitləşdirən bu tədbiri şah hökuməti böyük məmnuniyyətlə alqışladı. Təəssüf ki, əldə olunmuş məlumatlar əsasında, Qəzvin ordusunun Qəzvinə qayıtması əmrinə baxmayaraq, Astarabadda dəstənin sayı artırılmışdır. Rus hökumətinin şah hökumətinə Rusiya ilə İranın xeyrinə meyllənən tədbirlərinin həyata keçirməsinə kömək etməsini şah hökuməti gözləyəndə - mən bilmirəm ki, cəmiyyətin şüurunu qarışdıran bu qeyri-müəyyən hərə-

kət tərzini nə ilə izah edir. Belə ki, Rusiya və İranın maraqlarını müdafiə etməkdən başqa şah hökumətinin digər məqsədi yoxdur. Mən Əlahəzrətdən artıq dərəcədə xahiş edirəm ki, İrandan rus qoşunlarının çıxarılması məsələsinə dair lazım olan tədbirləri həyata keçirsin və İran üçün təhlükənin qarşısı alınsın.

*Qeydlər:*

1. 9 yanvar 1915-ci il.
2. 19 dekabr 1914-cü il.
3. 22 dekabr 1914-cü il
4. 23 dekabr 1914-cü il.

*s. 129*

*Əlavə II*

**Cənab imperatorun İrandakı səfirinin şahın xarici işlər nazirinə (25) 12 yanvar 1915-ci il tarixli 2 №-li notasının tərcüməsi**

Zati alilərinizin 6 rəbiül-əvvəl tarixli 4980 №-li notasına cavab olaraq məlumat verməyi özümə şərəf bilirəm ki, qoşunlarımızın təxliyəsi rus hərbi hissələrinin strateji mülahizələrindən asılıdır. Rus dəstələrinin Qəzvinə qaytarılması və Astrabadda onların sayının artırılmasına gəlincə isə bu çox güman ki, ola biləcək təsadüflərin xəbərdarlığı kimi qəbul edildi. Mən şah hökumətinin iki dövlət arasında dostluq münasibətlərinin möhkəmlənməsi cəhdlərinə böyük həvəslə güzəştə gedərək, Əlahəzrətin notasının məzmununu hökumətin nəzərinə çatdırmağı unutmamışam və belə bir cavabı alan kimi Sizə məlumat verəcəyəm.

*s. 130*

***

## № 110

## İstanbuldakı İtaliya səfirliyində olmuş Serafimov xarici işlər nazirliyinin II Siyasi şöbəsinin müşaviri Qulkeviçə

Məktub 30/17 yanvar 1915-ci il

Əziz və hörmətli Konstantin Nikolayeviç,

Sizin 114 №-li teleqramınızda[1] qeyd edilən tapşırığı yerinə yetirərək elə bu gün komitənin məşhur qrupunun məni ziyarət edən vasitəçisinə təkrar etdim ki, müharibə ərəfəsində məni burada saxlamaqla nazirlik Türkiyədə həmvətənlərimizin sonuncu maraqlarının qorunması zamanı İtaliya səfirliyinə kömək etmək məqsədi ilə saxlamışdır və əsla mənə siyasi xarakterli tapşırıqlar verməmişdir. Eyni zamanda, mən ona aydınlıq gətirdim ki, yuxarıda qeyd edilmiş vəziyyəti dəyişdirə bilən yeni göstərişlər almağım mümkün deyildir. Çünki İtaliya səfirliyinin vasitəsi ilə mən nazirliklə əlaqə saxlaya bilmirəm.

Verilmiş məlumata əsasən türklərin qəti və təkidli təklifləri müəyyən vaxta təxirə salınır. Lakin yaxın gələcəkdə bütün bunlar müəyyən səbəblərlə meydana çıxacaqdır. Ölkənin narazı ünsürləri əvvəlcə ürəksiz, daha sonra isə qəti qərarla Osmanlı siyasətinin rəhbərlərinə qarşı etiraz səsini ucaltdlar və hal-hazırda İstanbulda olduğu kimi, əyalətlərdə də müəyyən qruplaşmalar gedir. Bu da hərbi uğursuzluqlar nəticəsində Osmanlı hökumətinin tərkibində köklü dəyişikliklərə gətirib çıxara bilər.

Hərbi əməliyyatlara qədər yaranmış vəziyyətdən xilas yolu tapmağa çalışan həssas komitə üzvləri indi acı həqiqətin xoş xəyallar üçün yer qoymadığı bir vaxtda böyük güzəştlər və qurbanlar bahasına olsa da, Osmanlı imperiyasını xilas etmək üçün üsullar axtarmağa çalışırlar. Belə ki, bu istiqamətdə ən böyük maneə hakim rol oynayan hərbi partiya idi. Adı çəkilmiş nümayəndələr onun düşmənlərinin başında durur. Onlar Ənvər Paşa

və onun tərəfdarlarının müqavimətini qırmaqla nəyə ümid etdiklərini aydınlaşdırmağa çalışırlar. Sülhsevər şəxslərin hərəkəti bizim onların təklifinə münasibətimizdən asılı olacaqdır.

Sonuncu, almanların köməyi ilə davam edir, ölkədə nüfuzlarını saxlamaq üçün güc tətbıq etmək, qoşun hissələrində qələbəyə aparan əminlik ruhu və özünü qurban vermə cəhdini təcəssüm etdirməklə saxlamaq lazımdır. Bu fəaliyyətin hər cür qarşıdurması, mənim fikrimcə, bizim rəqiblərin hərbi qüdrətinin zəifləməsidir və deməli, bizim üçün də əlverişli və arzuolunandır. Məsələni bu baxımdan nəzərdən keçirərkən mənə sülh tərəfdarlarının ilkin müraciətlərində onlarla hər hansı bir əlaqə saxlamağa tam və şərtsiz rədd cavabı vermək imkanını tapa bilmədim. Elə o zaman qeyd etdim ki, onlarla danışığa girmək səlahiyyətim yoxdur. Nə qədər ki, ölkəni Ənvər Paşa və alman səfirliyi idarə edir, onların dedikləri dəlilsiz qəbul olunmalıdır. Mənim bəyanatıma türklər cavab verdilər ki, onlar hələ danışığa girmək fikrində deyillər. Lakin onlar müvafiq əsas hazırlamaq və onlarla məni tanış etmək niyyətindədirlər. Eyni zamanda, alman partiyası ilə mübarizədə onlara maddi yardım göstərilməsi məsələsinə də toxundular - bu kömək Ənvər Paşa və onun əlaltıları üçün həlledici, nəhəng, vahid qüvvə olan ruhaniliklə 38 nəfərin adına yazılmış geniş torpaq sahələrinin olmasına işarə edərək türklər xahiş etdilər ki, onlara bu torpaqların saxta sahiblərindən əsl sahiblərinə qaytarılması haqqında məlumat verək və ümumiyyətlə, İstanbulu ələ keçirdiyimiz təqdirdə nə baş verə bilər? Bu mövzuya dəfələrlə qayıdaraq Səlanikdə[2] olduğu kimi artıq qan tökülməsi, Ənvər Paşa və almanların arzuladığı kimi 600 min xristian və 800 min müsəlmanı şəhər küçələrində toqquşmadan çəkindirmək kimi "böhranlı anlar"dan qaçmaq üçün onlar hər şey etməyə hazır olduqlarını bıldirdilər. Öz səmimiliyinə sübut olaraq, onlar mənə həvalə olunmuş işlərdə çətinlik çəkdiyim zaman müraciət etməyimi və həmçinin, müsəlmanların xristianlara qarşı münasibəti sahəsində zəruri

olan göstərişləri verməyimi xahiş etdilər.

Bu bəyanatlar müxtəlif vaxtlarda mənim tərəfimdən gənc türklərin ən etibarlı adamlarından və Tələtin özünün razılığı ilə "Tan" qəzetinin redaktorundan Sizə məlum olan Xəlil bəy tərəfindən təlimatlar alan vəkilin dəvət olunmasına baxmayaraq, dərhal verilmişdi.

Belə bir şəraitdə necə hərəkət etməyim haqqında göstərişlər olmadığı üçün mən türklərə sırf səfir xarakterli göstərişlər verməyə davam edirdim. Hətta türkləri ümidsiz etməyərək mənə aydın olmayan səbəblərdən təlimatlarım əks nəticə verdi.

Belə ki, məsələn, mən sülh partiyasının son vaxtlaradək üç qrupa bölündüyü haqqında məlumat aldım. Onlardan birincisi, Türkiyə üçün Bosfor sahillərində öz üzərlərində Avropa nəzarətini tanımaq yolu ilə, ikincisi, boğazlar məsələsində Rusiya və müttəfiqləri arasında ehtimal oluna bilən ixtilaflarda öz qənaətlərini əsaslandırır və böhranlı dəqiqədə İstanbulu ingilis-fransızlara vermək, nəhayət, üçüncüsü, Rusiya ilə müharibəni labüd hesab edərək, elə ilk vaxtdan gələcək nailiyyətlərdə maksimum imkan əldə etmək və daha az qurbanlarla İstanbulun Rusiyanın tabeliyinə keçmək şərtlərini qoymağa çalışırdı.

114 №-li teleqramda mənə verilmiş göstərişlərə uyğun olaraq cavab verdiyim adi vasitəçi bu gün məni ziyarət etdi. O, mənə məlumat verdi ki, buradakı ingilis nümayəndəsi cənab Uo hərbi kəşfiyyatla məşğul olduğuna görə Türkiyəni tərk etməyə məcbur edilməmişdir. Lakin türklərin onlarla hər hansı bir əlaqə yaratmaq cəhdlərinin nəticəsi olaraq guya cavab vermişdir ki, onun "dönmə"lərlə[3] heç bir işi yoxdur. Belə bir münasibət komitə üzvlərinin xətrinə dəydı. Fitnə-fəsad nəticəsində guya Porto ingilis məmurunun uzaqlaşmasını tələb etdi. Necə olmasına baxmayaraq, cənab Uonun gedişi ilə pasifistlərin ikinci qrupu öz ümidlərini bizə bağlayır və belə bir nəticəyə gəlir ki, İngiltərə bizə boğazlar və nəzarət haqqında məsələlərdə tam azadlıq təqdim edir. Burada Rusiyanın mahiyyətini gücləndir-

məyə malik olan bu inandırma şəxsən mənim üçün 114 № -li teleqramda verilən təlimatlarla narahatlıq gətirir. Bu da pasifistlərin imperator hökumətinin mərhəmətini qazanmağa səylərini daha da artırır və ingilis həmkarımın lap əvvəldən tutduğu mövqeni qəbul etməyə məcbur olan kimi təlimatlarımın olmadığı təqdirdə mənə müraciətlərində daha da təkidli olacaqlar. Mən desəm ki, İstanbuldan getmək mənim üçün kədərli hadisə deyil, əlbəttə, Siz mənim səmimiyyətimə inanacaqsınız. Hörmətli Konstantin Nikolayeviç, mən bütün bunların rəhbərliyin işinə yararlı olacağına əmin olmaq istərdim.

Mən məhz bu məqsədlə, bütün qeyd olunmuş məlumatları nəzərdən keçirmək üçün Sizə çatdırmağı özümə borc bilirəm və sadiqliyimə inanmağı xahiş edirəm.

Dərin hörmətlə, ***B.Serafimov***

***Qeydlər:***

1. Qulkeviçin 20/7 yanvar tarixli 114 №-li teleqramında belə bir sərəncam verilirdi: "Komitə üzvlərindən heç kimlə siyasi danışıqlara girmək olmaz".

2. 9 noyabr / 27 oktyabr 1912-ci ildə I Balkan müharibəsi zamanı Səlanikin yunanlar tərəfindən ələ keçirilməsi nəzərdə tutulur.

3. "Dönmə" müsəlmanlığı qəbul etmiş Səlanik yəhudilərinə deyilirdi.

***s. 145-148***

***

**№ 97**

**Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə**

Teleqram № 6 4 fevral/22 yanvar 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

Son günlərdə şimaldan (Güney Azərbaycan - M.Q.) xəbərlərin gəlməsi ilə İran hökumət dairələrində tərəddüdlər daha da gücləndi. İlk öncə, iranlılar ümid edirdilər ki, qoşunlarımızın

Təbrizdən çıxarılması Azərbaycanın tamamilə təmizlənməsinə dəlalət edir. Bununla onlar türk hökuməti qarşısında öz müvafiq təkidlərini yenidən davam etdirirlər və vəliəhdin gəlişini güclü şəkildə tələsdirirlər. Rus qoşunlarının Mərənd və Xoyda cəmləşməsi xəbəri buraya çatanda mövqelərimizi türklərə verməyi nəzərdə tutmadığımız aydın oldu. Buna görə də şah hökumətinin həyacanı daha da artdı. Nazirlər dəfələrlə bu vəziyyəti müzakirə etmək üçün təcili iclaslara toplaşdılar, lakin qəti qərara gəlmədilər. Məni ziyarət edən Muin-əl-Vəzarə məlumat verdi ki, hökumət İran ərazisində hərbi toqquşmanın qarşısını almaq niyyətindədır. Belə bir təhlükədən qaçmağın ən yaxşı vasitəsi rus qoşunlarının olmaması idi. Onun fikrincə bu da türklərin çıxmasına xidmət edə bilərdi. Mən öz həmfikirimə aydınlıq gətirdim ki, missiya üçün müəyyən plana xidmət edən hərbi rəhbərliyin strateji mülahizələrinə müdaxilə etmək çox çətindir və mən naratlıq üçün heç bir əsas görmürəm. İranlılar isə dəfələrlə pislik etmiş kürdlərdən azad olmaq üçün bizim çıxışları alqışlamalıdırlar.

Azərbaycanda baş verən hadisələrlə bağlı təhlükəni oradakı bəzi torpaq mülkiyyətçiləri, məsələn, bizim gələcək niyyətlərimizlə çox maraqlanan şahzadə Fərman -Fərma və Sepahdar da büruzə verdi. Mən bu şəxsləri inandırmağa çalışdım ki, rus qoşunlarının müvəqqəti geri çəkilməsi Azərbaycanda olan maraqlarımızdan imtina etmək deyil və onlar əvvəlki kimi bizim himayəmizə arxalana bilərlər. İsfahandakı türk səfirinin müavini məşhur Pyujenin[1] və oradakı bəxtiyarilərin rəhbərlərinin düşmən xarakterli çıxışlarından narahat olan şahzadə Zillləssultanın oğlu Əkbər Mırzəyə də bu məlumatları çatdırdım.

Sofian yaxınlığında döyüş, türklərin qaçması və rusların Təbrizə daxil olması burada böyük sensasiya yaratdı və bizim xeyrimizə dönüş oldu. Ruhdan düşməyə başlayan tərəfdarlarımız yenidən ümidləndilər və Rusiyaya rəğbətini açıq şəkildə büruzə verməyə başladılar. Bununla yanaşı, onlar yenidən hö-

kumətin getməsi və bizə biganə olan bəzi nazirlərin başqaları ilə əvəz olunması barədə söhbət açdılar. Vəliəhdin Təbrizə göndərilməsinin vaxtsız olması barədə məsələ də ortaya çıxdı. Hələ ki, bu barədə vəsaitin çatışmaması və hökumət üzvləri arasında fikir ayrılığının olması üzündən heç bir qərar qəbul edilməmişdir. Ümid etmək lazımdır ki, Təbrizin tutulması buradakı ictimai fikri təzələyəcək və türk-alman fitnə-fəsadçıları tərəfindən ruspərəstliyin süni şəkildə şişirdilməsinin inkişafını dayandıracaqdır. Faktların və düşmən böhtanlarının həddən ziyadə azğınlaşmasını xəbərdar etmək üçün bu hadisələrin məzmunu ilə bağlı məlumatı çap etdirməyi məsləhət bildim. Qeyd etdim ki, düşmənlər iki xalq arasında çox əsrlik dostluq münasibətini pozmağa müvəffəq olmadılar və bu vaxtdan etibarən əvvəllərdə olduğu kimi Rusiya ilə İran arasında əməkdaşlıq bərpa olundu. Təbrizin tutulması məsələsi ilə geniş tanış olan şah hökuməti general Çernozubov və rus qoşunları tərəfindən göstərilən iltifat və mərhəmətə görə dərin minnətdarlığını bildirməyi xahiş etdi. Bu yaxınldarda Tehrana gəlmiş şahzadə Şüca-əs Soltanə Əlahəzrətin (13 yanvar 1915-ci il) 31 dekabr tarixli 847 №-li[2] məktubunu mənə çatdırdı. Burada o, imperatorun ali qəbulunda Rusiyada İrana qarşı təcavüzkarlıq fikrinin olmadığını və onunla dostluq münasibətlərinin saxlanılması arzusunun bildirilməsi barədə iltifatlı sözləri haqqında məlumat verdi. Bu bildiriş şahzadə tərəfindən şah və hökumət üzvlərinə də çatdırıldı və Azərbaycanda bizim fəaliyyətimizdən irəli gələn inamsızlıq hisslərini parçaladı. Şahzadə davam edərək bildirdi ki, təəssüf olsun iki hökumət arasında mehriban münasibətlərin yaranmasına türkpərəst təbliğat maneçilik törədir, həmçinin türklər və almanlar uğurları və bizim məğlubiyyətlərimiz haqqında təhrif olunmuş məlumatlar yaymaqdadır. İranlılar bu iki missiyanın məlumatlarından onlara daha çox etibar edirlər. İctimai fikir türklərin halına acısa da, hökumət onun səmtini dəyişdirməkdə, hətta bunu arzulasa belə, gücsüzdür.

Hazırki hökumətin dəyişməsi yolverilməzdir və ingilislər üçün də arzuolunmazdır. Şahzadə Şüca-əs-Soltanənin fikrincə, Rusiyanın nüfuzunun düşməsinə Azərbaycanda baş verən sonuncu hadisələr təsir göstərir və bizim qətiyyətsizliyimiz zəifliklə xarakterizə olunardı. Şahzadə belə fikirləşir ki, Təbrizin yenidən tutulması, türklərin çıxarılması və Qəzvində hərbi hissənin güclənməsi iranlıların əhval-ruhiyyəsində dönüş yaradacaqdır. Lakin türklərin qayıtma təhlükəsi aradan götürüldükdən dərhal sonra qoşunları geri çağırmaq vədinə əməl etməli idik. O, həmçinin, belə təhlil edir ki, maddi yardım etmək vədi inamın bərpasına xidmət edə bilər. Rusiya və Böyük Britaniya missiyasının sıx birləşməsi labüddür,yoxsa iranlılar onlar arasında ədavət toxumu səpməyə çalışacaqlar. Ümumiyyətlə, şahzadə Şüca-əs-Soltanə qeyd etdi ki, mən hələ ətrafa yaxşı-yaxşı baxmamışam, amma mənə çatan məlumatları müzakirə edərək Petroqradda deyilənləri təsdiq etməyə hazıram. Şahzadə öz ətrafında mövqeyindən asılı olmayan və bizə biganə qalmayan şəxsləri toplamaq niyyətindədir ki, onlara və ruhanilərə arxalanaraq əvvəlki dostluq münasibətlərini bərpa etmək işlərinə başlasın. O, belə hesab edir ki, ehtiyatla və aramla hərəkət etmək gərəkdir. Çünki bəzi dairələrdə ona ehtiyatla yanaşırlar və artıq indi mətbuat ictimai fikirdə onu nüfuzdan salmağa çalışır. Qeyd edirlər ki, o, Rusiya ilə əlbirdir və rusların niyyətlərini həyata keçirmək üçün çalışır. O, tamamilə əmindir ki, rəqiblərimiz ona ləkə yaxmaq və hökumət qarşısında nüfuzdan salmaq üçün əlindən gələni edəcəklər. Şahzadə Şüca-əs-Soltanə Böyük Britaniya missiyasının açıq şəkildə olmasa da, gizli şəkildə qarşıdurmasına rast gəldiyini də qabaqcadan görürdü. Çünki o, bilirdi ki, missiya onun gəlişindən narazıdır.

Danışıqdan mən belə bir nəticə çıxardım ki, şahzadə Şüca-əs-Soltanə möhkəm dayağı olmadığı üçün arxa axtarmaqdadır. Eyni zamanda bizimlə münasibətin onun nüfuzunu aşağı salacağından da ehtiyat edir. O, özü də etiraf edir ki, hələ elə bir

nüfuzu yoxdur. Belə bir imkanın əldə olunması indiki rəhbərlərin İrandan uzunmüddətli çıxması üzündən müəyyən zaman tələb edəcəkdir. Əlahəzrət, həmçinin, qeyd etdi ki, yaxınlarımız İmperator hökumətinin himayəsindən istifadə edərək şəxsi məqsədlər güdür, onlar arasında nüfuzlu şəxslər yoxdur, Səədəddövlə, Vosuqəddövlə istisna təşkil etsələr də, onlar da təəssüf ki, nüfuzlu deyillər.

Şahzadə Şüca-əs-Soltanənin yaranmış vəziyyətə verdiyi qiymətlə, xüsusilə, Azərbaycana dair olan məsələlərdə daha çox səy və ardıcıllıq nümayiş etdirməsi ilə razılaşmaya bilmərəm. Mənə belə gəlir ki, şahzadə indiki hökumətin barışmazlığını və onun türkpərəstliyini bir qədər şişirdir və iki missiyanın fəaliyyət tərzində İran nazirləri taktikalarını dəyişəcək, bizimlə dostluq münasibətləri axtarmağa başlayacaqlar.

Bununla, Təbrizin tutulmasına dair məlumatın[3] missiya tərəfindən çap edilmiş mətnini çatdırmaqda böyük şərəf duyuram.

Qəbul edin və tanış olun.

*Korostoveç*

*Qeydlər:*

1. İsfahandakı nümayəndə Qilderbrand 4 fevral / 22 yanvar tarixli 48 №-li teleqramda məlumat vermişdi ki, "özünü türk və alman səfiri kimi qələmə vermiş" Pyujen şəhərə gəlmiş və onun qaldığı evin üstündə alman və türk bayraqları sancılmışdır.

2. Bu məktubla Sazonov Korostoveçə III Siyasi şöbənin məsləhətçisi Klemmin Şüca-əs-Soltanənin Petroqradda olması haqqında 13 yanvar 1915-ci il / 31 dekabr 1914-cü il tarixli qətnaməsinin surətini təqdim etdi. Rusiya Xarici İşlər Nazirliyinin nümayəndələri ilə söhbətdə Şüca-əs-Soltanə ümid etdi ki, "o, öz ətrafında Rusiyanın bütün tərəfdarlarını (onların arasında Kamran Mirzə, Sepahdar, Fərman-Fərma, Səədəddövlə, Vosuqəddövlə və bir çox başqa görkəmli şəxslər vardır) toplamağa müvəffəq olacaqdır. Bəyan etdi ki, "o, bizim tərəfdən yeni kabinə haqqında məsələdə və ümumiyyətlə, İran nazirləri ilə münasibətdə daha çox qətiyyətliliyimizi görmək arzusundadır". Xarici siyasət sahəsində Şüca-əs-Soltanə "İranın Rusiya və

İngiltərəyə arxalanmaq zərurətini ifadə etdi. Söhbətlərində, həmçinin, İranda rus torpaq idarəçiliyi, Şimali İranda (Qüzey Azərbaycan - M.Q.) nüfuzlu şəxslər və kazak briqadaları haqqında məsələlərə də toxunuldu, üstəlik Şüca-əs-Soltanə bu məsələlərdə rus nöqteyi-nəzərini dəstəkləyirdi. Lakin ölkənin ayrı-ayrı gəlir mənbələrinin və təbii sərvətlərinin emalının mənimsənilməsi ittihamlarından bizi uzaqlaşdırmaq üçün rus konsessiya müəssisələrinə iranlıların cəlb olunmasının məqsədəuyğun olmasını qeyd etdi".

3. Xarici İşlər Nazirliyinin işlərinə əlavə tapılmamışdr.

*s. 177-181*

***

## № 139
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 46 5 fevral / 23 yanvar 1915-ci il

Xarici işlər naziri Təbrizin bizim qoşunlar tərəfindən tutulması zamanı nümayiş etdirdiyimiz nümunəvi intizam və cəmiyyətdə dərin iz buraxan Çernozubovun şəhər əhalisinə müsbət münasibətinə görə mənə təşəkkür elan etdi. Söhbət bu zaman səmimi keçdi və mənə qarşı heç bir tələb qoyulmadı. Xüsusi söhbətdə Muin-əl-Vəzarə Bakıya məxfi olaraq məlumat verdi ki, hökumət dairələri İranın sonralar bitərəf siyasət yeridəcəyinə şübhə ilə yanaşırlar. Çünki İran buna qadir deyildir. Bütün bunların nəticəsində Rusiya və İngiltərənin tərəfində durmaq, əlbəttə ki, böyük gəlir və təzminat üçün İranın maraq dairəsində olardı.

İranlılarla bu mövzuda söhbəti davam etdirməklə bağlı göstərişlər verməyinizi xahiş edirəm. Onların daha konkret çıxış edəcəyi təqdirdə şah hökumətinin bizim tərəfə keçmək istəyini həvəsləndirmək lazımdır. Yoxsa, İranın bitərfliyi ilə kifayətlənmək daha əlverişlidir. Mən belə təxmin edirəm ki, türklərin Əhvaza hücumu və bəxtiyarların maraqlarını müdafiə etmək zərurətində qətiyyəti nazirlərdə təəssürat yarada bilər. Mən bu haqda 29 №-li teleqramda məlumat vermişəm[1].

***Korostoveç***

*Qeydlər:*

1. Korostoveç 29/16 yanvar tarixli 29 №-li teleqramında məlumat verirdi ki, türklərin Əhvazda inglis neft qurğuları istiqamətində hərəkəti ilə əlaqədar olaraq "neft müəssisələrində marağı olan" bəxtiyarlar İran hökumətinin nə tədbir görmək niyyətində olduğunu açıqlamağı tələb etdilər. Onlar, həmçinin türklərə qarşı müstəqil çıxışlarla da hədələyirdilər.

*s.188*

***

## № 154
## Qafqaz canişini xarici işlər nazirinə

Teleqram № 273 7 fevral / 25 yanvar 1915-ci il

Tehrana 274 №-li teleqram göndərirəm.

Sərdar Rəşid və onun əlaltılarının Azərbaycanın inzibati vəzifələrində olması, hərbi rəhbərlərimizin əmrlərinin yerinə yetirilməsi, yollara, poçt və teleqrafa nəzarət yerli vasitələrdən qarşılıqlı istifadəyə zəmanət verir. Öz cavanlığına və mövqeyinə görə məsuliyyət daşımayan vəliəhd Təbrizə gəldiyi zaman, bizim tərəfdarlarımızı əvəz edəcək və biz hərbi cəhətdən yuxarıda qeyd olunan əlverişli şəraitdən xeyli dərəcədə məhrum olacağıq. Məxfi məlumatlara görə vəliəhdi müşayiət edənlərin içərisində bir neçə alman və türk agentləri də daxil olmuşdur. Bundan əlavə, vəliəhdlə jandarmanın gəlişi bizim qoşunlarla baş verə biləcək hərbi toqquşmalara gətirəcəyi üçün yolverilməzdir[1].

Bütün bunlarla yanaşı, Təbrizdə hərbi münaqişələrin baş verməsini və vəliəhdin həyatı üçün təhlükəni nəzərə alaraq onun Tehrandan yola düşməsini ləngitmək və Təbrizə gəlişini qeyri-müəyyən vaxtadək təxirə salmaq daha yaxşı olardı[2].

***Vorontsov-Daşkov***

*Qeydlər:*

1. Korostoveçə 2 fevral /20 fevral tarixli 366 №-li teleqramında Sazonov rus hökumətinin aşağıdakı məsələyə tam aydın nöqteyi-nəzərini belə tərzdə formalaşdırırdı: "Jandarmadakı İsveç zabitlərinin çoxunun almanpərəst olması ilə əlaqədar olaraq onlardan hansı birinin Təbrizdə olmasını yolverilməz hesab edirik. Buna görə də əgər vəliəhdi müşayiət edən jandarmanın başçısı sırasında belə bir zabit varsa, onda o, öz dəstəsini Təbrizə çatdırdıqdan dərhal sonra oranı tərk etməlidir. Ümumiyyətlə, jandarmaya gəldikdə isə , biz həmişə onların bizim təsir dairəmizdə, xüsusi ilə, qoşunlarımızın olduğu bir yerdə görünmələrinə qarşı çıxmışıq. Belə ki, şah hökuməti bununla razılaşmaq istəmir, yaxud da, aqibətin necə olacağı cavabdehliyini öz üzərinə götürür. Kiçik bir bəhanə nəticəsində onlardan narazılıq ona gətirib çıxara bilər ki, jandarma qoşunlarımız tərəfindən tərkisilah edilə bilər və Təbrizdən çıxarılar. İzn verin, bu mənada şah hökuməti ilə məsləhətləşim."

2. Bu teleqrama cavab olaraq Korostoveç 10 fevral / 28 yanvar tarixli 56 №-li teleqramda Qafqaz canişininə vəliəhdin yola düşməsinin təxirə salındığı haqqında məlumat vermiş və "bu ezamiyyətin vaxtını uzatmaq"da İran hökumətini inandırmağa çalışdığını qeyd etmişdir.

***s. 203-204***

***

## № 171
## Xarici işlər naziri Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 534 11 fevral /29 yanvar 1915-ci il
Surəti Londona
46 və 51 №-li teleqramlar alınmışdır.

Zənnimizcə, Türkiyəyə müharibə elan etməsi ilə İranın açıq şəkildə bizə birləşməsi şah hökumətinin gücsüzlüyü ucbatından bizə xeyir gətirə bilməzdi. Digər tərəfdən, bu, İngiltərə və

bizim üçün nəinki iranlıları pul və silahla təchiz etmək demək olardı və həmçinin, lazımi yerdə, məsələn, Kirmanşah rayonunda hərbi yardım göstərmək öhdəliyini də boynumuza qoyardı. Müharibədə vasitəsiz iştirak, bundan başqa, iranlılara mükafat tələb etmək hüququ da verə bilərdi. Baxmayaraq ki, iranlılar bu hüququ bitərəfliyə görə alacaqlar. Lakin bu başqa bir xarakter daşıyacaq və bunun əvəzində çox güman ki, Siz İranda hər hansı bir mənfəət əldə edə bilərsiniz.

Bununla yanaşı, İrandan bitərəflikdən başqa, çox şey gözləmək lazım deyildir. Bu da öz əksini alman-türk fitnə-fəsadları və əngəllərə müqavimətdə, imkan daxilində türklərin İran ərazisinə etiraz və kürdlərə təzyiq göstərmək yolu ilə deyil, hətta çox güman ki, türk dəstələrinə qarşı sərhədyanı İran tayfalarının partizan hərəkat yolu ilə də ifadə olunmalı idi.

Tehran hökumətinin tərkibində baş verə biləcək dəyişikliklərə gəldikdə isə şahın İranı rəqiblərimizlə məhvedici yola sürükləməyə qadir olan adamaları, xüsusilə, bizim və ingilislərin türklər üzərində qələbəsindən sonra çağırmaq fikrini yaxına buraxmırıq.

***Sazonov***

*s. 230*

***

## № 172
## Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova

Teleqram № 541 11 fevral / 29 yanvar 1915-ci il

Surəti Tehrana (rəhbərlik və icra üçün)

273 №-li teleqram alınmışdır.

Əlahəzrətin vəliəhdin Təbrizə gəlişinin arzuolunmaz olması haqda fikrini bölüşdürərkən mən öz növbəmdə Tehran hökuməti qarşısında bu mənada çıxış etmək tapşırığını diplomatik nümayəndəyə vermişəm. Qəbul olunmuş qərarın təxirə salın-

masına nail olmaq üçün şah hökumətinə güclü təzyiq göstərmək lazım deyildir.

Taxt-tac varisinin Azərbaycana göndərilməsinə iranlılar, bu əyalət üzərində haqqlarını tanıtmaq arzusu kimi baxırlar və etirazımız əyaləti ələ keçirmək niyyətlərimiz haqqında indiki zamanda xüsusilə, arzuolunmaz olan çoxdankı söz-söhbətləri yalnız gücləndirərdi. Biz, əlbəttə ki, vəliəhdi əhatə edən şəxslərin tərzimizə uyğun olmasında təkid edə bilərik və məndə olan məlumatlara görə şahzadəni müşayiət edən şəxslər sırasında alman-türk agentləri və arzuolunmaz şəxslər yoxdur. Jandarmaya dair Tehran hökuməti artıq xəbərdar edilmişdir ki, kiçik bir bəhanə ilə onlar tərkisilah oluna və Təbrizdən çıxarıla bilərlər. İsveç zabitləri isə oraya heç buraxılmayacaqdır. Fitnə-fəsadların olması təqdrində isə şahzadənin günahkar əlaltılarının geri çağırılmasına nail olmaq heç də çətin olmayacaqdır. Digər tərəfdən, sonuncuya təsir göstərməyi əldə edərək - bu da bizim üçün əsas tapşırıq ola bilər - biz müəyyən mənada əl-qolumuzu bağlayacağıq və Mərkəzi İran hökumətinin Azərbaycan işlərinə[1] müdaxiləsini tamamilə zəiflədəcəyik.

Bu məlumatlar əsasında tərəfimdən diplomatik nümayəndəmizə göstərişlər verilir.

*Sazonov*

*Qeydlər:*

1. Korostoveçin 24 №-li teleqramına əsaslanaraq Klemm 2 fevral / 20 yanvar tarixli 362 №-li teleqramında Təbrizdəki konsul Orlova təqdim edirdi ki, "şahzadənin şəxsi vəziyyətini və nüfuzunu" hüdudlaşdıraraq "vəliəhd və onun əlaltıları ilə dostluq və etibarlı münasibətləri qurmaq" üçün bütün tədbirlər görülsün. Həmin tarixli 363 №-li teleqramda Sazonov Qafqazdakı canişinə məlumat verirdi ki, "vəliəhdin mövqeyini və Rusiya ilə dostluq münasibətləri saxlamaq və onun tərəfindən verilmiş nümayəndələrimizin göstərişlərini rəhbər tutmaq və dini nəzərə alaraq" Təbrizə daxil olarkən vəliəhdə hərbi ehtiram göstərmək zəruridir.

*s. 231*

***

## № 181

## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 4 11 fevral / 29 yanvar 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

Mən dəfələrlə Əlahəzrətə şah hökumətinin gələcəkdə bitərəfliyi saxlamaq məsələsi ilə əlaqədar olaraq tərəddüdləri və şübhələri barədə məlumat vermişəm. Mostoufi-əl-Məmalək mənimlə və Böyük Britaniya diplomatik nümayəndəsi ilə söhbətdə etiraf etdi ki, hökumət sərhəddə əhalinin türkpərəstliyini dayandırmaq üçün paytaxtda və yaxın ərazilərdə böyük nüfuzdan istifadə edir, ancaq, xüsusi ilə, sərhədyanı əyalətlərdə ruhanilər tərəfindən dəstəklənən türk təbliğatı böyük uğurlar əldə edir. Bu məlumatlar İsfahan və Kermanşahdakı nümayəndələrimiz tərəfindən və Kürdüstanda hazırlıq aparan Böyük Britaniya missiyasının məxfi dəlilləri ilə, Tehranın özündə müsəlman hərəkatına gətirib çıxarmağa çalışan buradakı türk səfirliyinin fəal iştirak etdiyi Qaşqay hərəkatı arasında olan dəlillərlə də təsdiq olunur. İctimai fikrin təzyiqi altında hökumətin Türkiyəyə yaxınlaşması və daha doğrusu, İran üçün fəlakətli siyasət yeritməsindən ehtiyat edərək Nazirlər Şurasının sədri və onun bəzi tərəfdarları daha müəyyən mövqe tutan adamlar müqavilə iştirakçıları tərəfinə açıq şəkildə keçmək qənaətinə gəldilər. Mostoufi-əl-Məmələkin etirafına görə hökumətdə uzun sürən böhranla əlaqədar konkret təkliflərlə bizə edilmiş müraciət təxirə salınır. Yeni kabinetdə daxili işlər naziri vəzifəsi şahzadə Eynəddövləyə, hərbi nazir vəzifəsi şahzadə Səmsəməssoltanəyə, ədliyyə naziri vəzifəsi isə Hakim-əl-Mülkə həvalə ediləcəkdir. Bu nazirliyin yaradılması ilə sədr vəzifəsini icra edən Mostoufi-

əl-Məmalək yeni siyasi istiqamət haqqında məsələ qaldıracaq və Rusiya ilə İngiltərə arasında saziş təklif edəcəkdir.

Məclis qarşısında müvafiq çıxışları özü üçün asanlaşdırmaq, Almaniya və Türkiyəyə ağırlıq edən ictimai fikri öz tərəfinə yönəltmək üçün hökumətə kifayət qədər tutarlı əsaslarla siyasətin bu cür dönüşünə haqq qazandıracaqdır. Porto ilə əlaqənin kəsilməsinin bəhanəsi türklərin İrana müdaxiləsi, onlar tərəfindən törədilən təcavüzkarlıq və amansızlıq, İran məmurlarının edamı, türk rəsmi nümayəndələrinin islamı müdafiə etmək adı altında daxili çaxnaşma və ədavət toxumu səpmək məqsədi ilə kəskin təbliğatı ola bilərdi. Mənim teleqramda dediyim kimi, dərdimizə şərik olan Böyük Britaniya diplomatik nümayəndəsi İranın bizim tərəfimizə keçməsinə, bu keçidin müsəlman dünyasına mənəvi təəssürat qoyması ilə bağlı həmçinin, qeyd etmişdir ki, kapitalın və Kərbəlada şiə ziyarətgahlarının sərvətlərinin talanması Türkiyə ilə münasibətlərin kəsilməsi üçün bir bəhanədir. Mostoufi-əl-Məmalək öz fikrini bildirdi ki, bütün bu dəlillər Məclisə kifayət qədər qaneedici görünməyəcək və onlar çox güman, rus qoşunlarının olması barədə məsələ qaldıracaqlar. Bununla bağlı rus qoşunlarının çıxarılmasına dair imperator hökumətindən müsbət təminat əldə etmək yaxşı olardı. Mən İran nazirlərinə, indi Türkiyə ilə hərbi münaqişələrin lap qızğın çağında, strateji mülahizələrlə hesablaşmaq gərək olduğu bir vaxtda, bu məsələnin ortaya atılmasının yersiz olduğunu bildirdim. Mənə məlumdur ki, irəli sürülən nöqteyi-nəzəri cənab Tounley də dəstəkləmiş, daha irəliyə gedərək iranlılar Təbrizə vəliəhdin təyin edilməsi fikrindən əl çəkməyi də məsləhət görmüşdür.

Mən İranın tərəfimizə rəsmi keçidinin bizə nə verəcəyini bilmirəm. Bu cür ittifaq hərbi əhəmiyyət daşımır, çünki İran tayfalarının döyüş xüsusiyyətlərinin olması şübhə altındadır, bəxtiyarlar da daxil olmaqla. Üstəlik, onlar üzərində Tehranın hakimiyyəti nominaldır.

Zənnimizcə, tam loyallığını saxlayan İran ittifaqının bizim müsəlmanlara mənəvi təsir qoyması da şübhə altındadır. İranın bizə birləşməsinin mənfi tərəfi tamamilə aydındır. İlk növbədə biz iranlıların iddiaları ilə də hesablaşmalı olacağıq. Onlar fikirləşirlər ki, bununla bizə xüsusi iltifat göstərilər və artıq təzminat tələb edəcəklər. Mən artıq bu barədə 31 (18) dekabr tarixli 80 №-li teleqramda[1] məlumat vermişəm. Bundan əlavə, İranla münasibətə daxil olaraq, biz hərəkət azadlığımızı itirəcək və müharibənin başlanması ilə Azərbaycanda yeni rejimin qurulması işində ingilis-rus münasibətlərinin yenidən baxılmasında və yaxud İranın borc mükəlləfiyyətlərin təmin edilməsində, Maku və Muğanın mühasirəsi haqqında məsələdə rus-iran münasibətlərini nizamlamaq imkanından özümüzü məhrum edəcəyik[2]. Buna görə də, mövcud vəziyyətin, yəni İranın bitərəfliyinin saxlanılması bizim maraqlarımıza daha dolğun cavab verir. Türkiyə ilə ittifaq az ehtimal olunur. Əgər İran hökmdarları belə bir addım atmağı sürətləndirsələr, çox çətin ki, bu, qüvvələr nisbətini dəyişdirə bilər. Artıq bəzi tayfalar türklər tərəfində mübarizə aparırlar. İranın bizim tərəfə açıq şəkildə keçməsi Böyük Britaniya üçün Hindistan, Əfqanıstan və ümumiyyətlə, müsəlmanlara, həmçinin, ingilislərin artıq mübarizə apardığ cənubdakı ərəb tayfalarına təsir göstərmək mənasında əlverişlidir.

Vəliəhdin rəsmı olaraq Təbrizə yola düşməsinə icazə verildiyinə baxmayaraq, o, qəti səyahət üçün xoşbəxt günü şəhərkənarı evində gözləyir. Bu səfər ilk növbədə vəsaitin çatışmaması üzündən və Azərbaycanda hadisələrin gedişinin daha mükəmməl və aydın olmasına ümid bəsləməklə yubanır. Şah hökuməti və saray əhli qəlbdə ümid edirlər ki, vəliəhdin Təbrizə gəlişinə qədər orada ruslar və türklər qalmayacaq və yeni idarəetmənin yaradılması ilə sonuncular oranı tərk edəcəklər. Bizim Təbrizə qayıdışımız İran hökumətinin ümidini qırdı, onlar narazılıqlarını heç bir məsələdə büruzə vermədilər.

Vəliəhdlə söhbətimdə mən Rusiya ilə dostluq münasibətlərinin saxlanması zəruriliyini və bizim aramızı vurmağa çalışan pisniyyətli şəxslərin fitnə-fəsadlarına uymayaraq hökumət və müəssisələrimizlə səmimi münasibətləri qorumağa təlqin etməyə çalışırdım. Qeyd etdim ki, Rusiya İranın yaxın qonşusudur, dəfələrlə onun köməyinə gəlmişdir və onun təbii himayədarı olan imperator hökumətinin mövqeyinin xüsusi olaraq qədrini bilməlidir. Həmçinin qeyd etdim ki, müşayiətin tərkibinə jandarmalar daxil etməsinlər və onları kazak dəstəsi ilə əvəz etmək daha məqsədəuyğundur. Təəssüf ki, şah hökuməti qərarını dəyişmədi və jandarmalar İran zabitlərinin rəhbərliyi altında yola düşürlər. Vəliəhd Əlahəzrət imperatora və Rusiyanın mövqeyinə sədaqət hisslərinə məni inandıraraq diqqətlə qulaq asırdı. O, Təbrizdə rus dəstəsinin rəhbərinin kazak briqadasının komandiri kimi tanıdığı general Çernozubovun olmasına razılığını bildirdi: Şahzadə Şüca-əs-Soltanənin səfəri haqqında söhbət açaraq Petroqradda ona münasibəti və etibarımızdan istifadə edib-etməməyi öyrənməyə çalışdı. Şəxsən mən vəliəhdin hökmdar təyin edilməsində Azərbaycanda bizim üçün ziyanlı bir şey görmürəm. Taxt-tac varisinin Təbrizə gəlişi, ayrı-ayrı səbəblər üzündən rusların təsirindən çıxan Tehran üzərində bizim təsirimizin bərpasını asanlaşdıra bilər və eyni zamanda bu əyalət siyasi cəhətdən bizə xidmət edə bilər. Təbrizin paytaxtdan asılılığının zəifləməsi indiyə qədər Tehranla bizim aramızda manevrı saxlamağa məcbur olan və tez-tez dəyişən hökmdarlar dövründə deyil, məhz vəliəhdın vaxtında mümükn ola bilər.

Vəliəhdlə birlikdə pişkar timsalında gələn Nizamül-mülk mənə daha xoş təsir bağışladı. Mən onunla çox söhbət etmişəm. Bu adam mətin və müstəqil düşüncəsi olan şəxsdir. O, bütün yeniliklərə, həmçinin Məclisə mənfi münasibət bəsləyir. Nə üçün hökumətin seçimi onun üzərində dayandı sualına Nizamül-mülk belə cavab verdi ki, şəxsi mənfəət güdməyən bu şəxs heç bir

partiyaya mənsub deyildir. Çox güman ki, buna görə də yüksək missiyaya layiq görülmüşdür. Həmçinin, ona görə seçilmişdir ki, artıq o, Azərbaycanını general-qubernatoru vəzifəsində çalışmış, Məhəmmədəli şah dövründə isə pişkar vəzifəsini tutmuşdu. O, İranın şəraitə uyğun bitərəfliyini çoxdankı və sədaqətli dostu olan ruslarla yaxşı münasibəti saxlamaq niyyətindədir.

Qəbul edin və tanış olun.

*Korostoveç*

*Qeydlər:*

1. Bu teleqramda Korostoveç onda olan məlumatları çatdırırdı ki, iranlılar Antanta tərəfinə keçməkdə kompensasiya kimi Azərbaycanın təxliyə edilməsini, iri borc iltizamı, yaxud avans, silahla təchiz edilmə, Rusiya və İngiltərənin borcları üzrə faizin və gömrük rüsumlarının azaldılmasını tələb edəcəklər; arzuolunan şərtlər kimi Kərbəla və Nəcəfin verilməsi də qeyd olunurdu.

2. 15/2 fevral tarixli 64 №-li teleqramda Korostoveç yenidən bu məsələni qaldıraraq aşağıdakıları bildirirdi: "İranın hazırki maliyyə sistemində, hətta mövcud istiqraz və avansla da səliqə ilə ödəmək imkanının olmadığını nəzərə alıb yeni öhdəliklər haqqında danışmadan bizim qarşılıqlı əlaqələrimizə xələl gətirə bilən pul mübahisələrindən qaçmaq üçün məncə, nəinki Maku və Muğanı zəbt etməyə razılaşmağı İrana biz tərəfdən faktiki kredit verməyi daha məqsədəuyğun hesab edirəm.

İranın cənubunda ingilis-hind borclarının ödənilməsi ilə əlaqədar analoji vəziyyətdə İran körfəzinin adalarının satılması, bu məsələ dəfələrlə ingilis hökuməti tərəfindən qaldırılmışdır, - təqdim olunmuş kombinasiyanın həyata keçməsinin xeyrinə xidmət edir"-deyə Korostoveç öz teleqramını bitirirdi.

s.239-242

***

## № 220

## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 10 18/5 fevral 1915-ci il

Hörmətli cənab Sergey Dmitriyeviç,

Mənim teleqrafla göndərdiyim məlumatlardan Əlahəzrət şah hökumətinin kabinetin tərkibinə iki nəfər yeni üzvün: şahzadə Eynəddövləni daxili işlər naziri və Şirazın indiki general-qubernatoru, şahzadə Mükbər-əs-Sultanı ədliyyə naziri kimi daxil etməsi niyyəti ilə tanış olmuşdur[1]. Bu təyinatların qəbul olunmasına baxmayaraq, yeniləşmiş hökumətin Məclisə təqdim edilməsi hələlik təxirə salınır ki, bu da nazirlərin siyasi proqrama dair tam yekdilliyə nail olmasının çətinliyi ilə bağlıdır, ilk növbədə isə imperator hökuməti tərəfindən mümkün olacaq etiraz təhlükəsindən irəli gəlirdi. Adı çəkilmiş şəxslərin namizədliyinin irəli sürülməsinin rəğbətimizi qazanmayacağını bildirərək, iranlılar bizimlə söhbətdə qeyd olunmuş birləşmə haqqında məsələnin üstündən keçirlər, onlar Böyük Britaniya missiyası vasitəsi ilə dolayısı yolla hərəkət etməyə çalışırlar. Bu məsələ ilə bağlı təqdim olunmuş izahata aydınlıq gətirən Muin-əl-Vəzarə qeyd etmişdir ki, şahzadə Eynəddövlənin namizədliyi Mostoufi-əl-Məmalək tərəfindən irəli sürülmüşdür. O, ölkədə bu əyanın nüfuzundan, xüsusilə, köçəri tayfalar arasında olan nüfuzundan istifadə etməyə çalışır və Eynəddövlənin çoxlu tərəfdarları olan Məclisdə ona arxalanmaq istəyində idi. Kabinetin tərkibinə daxil olaraq, guya ki, Eynəddövlə Nazirlər Şurası sədrinin nöqteyi-nəzərləri ilə uyğunlaşmalı və əlbəttə, Rusiyaya qarşı heç bir düşmən hərəkətə yol verilməməlidir. Muin-əl-Vəzarə qeyd etdi ki, Eynəddövlənin türkpərəstliyi varsa, onda o, nəinki bizə, hətta ingilislərə də xoşagəlməz olmalıdır: onu da

qeyd edim ki, bu ingilisləri də az narahat eləmir. Muin əlavə etdi ki, Eynəddövlənin təyin olunması bizdə narazılıq törətmək təhlükəsinə görə ləngiyir, bizim etiraz etməyimizə və hökumətin vəzifəsini yüngülləşdirməyə ümidini ifadə etdi. Muin-əl-Vəzarə, həmçinin, digər nazir Müxbər-əs-Soltanənin almanpərəst hissləri haqqında şayiələrə əhəmiyyət verməməyi xahiş etdi. Qeyd edim ki, Müxbər-əs-Soltanə kabinetin digər üzvləri ilə birgə həmrəy olaraq fəaliyyət göstərəcəkdir. Mən Muin-əl-Vəzarəyə cavab verdim ki, Petroqradda əvvəlki fəaliyyətini nəzərə alaraq həqiqətən şahzadə Eynəddövləyə qarşıdırlar və ona görə də bəzi etirazlar edilə bilər. Şah hökuməti isə öz tərəfindən dostluqda təkrarən əminlik olmasını sübuta yetirməli və heç olmasa bir mübahisəli məsələdə razılığa gəldiyini nümayiş etdirməlıdir, heç olmasa, maliyyə məsələsində.

Hökumətin tərkibinin yeniləşməsi barədə danışıq apardığım Böyük Britaniya elçisi Eynəddövləni çox qızğın şəkildə müdafiə etdi. Onun fikrincə yalnız Eynəddövlə sakitliyi təmin edə və ölkəni türklərlə birləşmədən xilas edə bilər. Cənab Tounley adı çəkılmiş əyanın Ruisyaya meylliliyinə və bizimlə əlbir fəaliyyət göstərməkdə hazır olduğuna əmindir. Əgər biz bu təyinata yol verməkdən imtina etsəydik, Mostoufi-əl-Məmalək istefaya getməyə məcbur olardı və hakimiyyət Türkiyə tərəfdarlarının əlinə keçərdi. Mənim ingilis həmkarımın fikrincə Eynəddövlə indiki çətin vəziyyətdə tərəddüd edən hökuməti dəstəkləməyə və onu lazımi yola yönəltməyə qadir olan yeganə adamdır. Bizim irəli sürdüyümüz namizədlər Məclisə və ictimai fikrə arxalanan Mostoufi-əl-Məmalək tərəfindən rədd edilə bilərdi. Səədəddövlənin türkpərəst olması və nüfuzunun olmaması baş nazır vəzifəsinə namizədliyini verməsinə ciddi maneçilik törədir. Vosuqəddövləyə gəldikdə isə o, Ərbab Cəmşidin borclarını ləğv etmək üçün bizim bankla sazişdə iştirakı ilə nüfuzdan düşdü.

Qeyd etməliyəm ki, adı çəkilmiş əyanların keçirilmiş attestasiyası məndə olan məlumatlara dolğun cavab vermir.

Hökumət tərkibində daha cəsur və nüfuzlu adamın olması zəruriliyində təkid edən cənab V.Tounley mənim diqqətimi yenidən iranlıların rəsmi olmasa da, Türkiyə tərəfinə keçməsi məsələsinə yönəltdi. Bu da Əfqanıstan, Ərəbistanın əhval-ruhiyyəsinə və Hindistan müsəlmanlarının loyallığına təsir göstərə bilər. Artıq indi ərəblərin cənuba hərəkətləri barədə və bir neçə İran rəhbərinin, məsələn, vali Tuştikuxun Türkiyə tərəfə keçməsi barədə həyəcanlı xəbərlər gəlməkdədir. Türklərin həmçinin, Qəsri-Şirindən Kirmanşah və Həmədana daxil olması barədə də məlumatlar vardır, üstəlik yerli tayfalar onlar tərəfə keçməyə meyl göstərirlər.

Eynəddövləyə gəldikdə isə, mən teleqramlarda deyilənləri təkrar etməyi özümə rəva bilmirəm. Daha doğrusu, Böyük Britaniya bitərəfliyinin belə vəchlə təqdim etdiyi və şah hökumətinin dostcasına bitərəfliyinin saxlanılması və müsəlman təbliğatının dayandırılması üçün təminat kimi gördükləri bu şəxsin təyinatına qarşı çıxmasına heç bir əsas görmürəm. Eynəddövlənin düşmənimiz kimi tanınmasına baxmayaraq, çox güman ki, Rusiya ilə münasibətləri korlamamaq və ingilis dəstəyini nüfuzdan salmamaq üçün hökumət başçısı ilə həmrəylik münasibətlərində barışdırıcı mövqe tutacaqdır. Bəzi tərəfdarlarımız, xüsusilə, erməni koloniyasının nümayəndələri bu seçkiyə tamamilə mənfi yanaşacaqlar, onlar türk və alman təsirinin, antivirus və erməni mürəkkəbləşmələrinin güclənməsini əvvəlcədən deyirdilər.

Qəbul edin və tanış olun.

***Korostoveç***

*Qeydlər:*

1. Bu şəxslərin kabinənin tərkibinə daxil ediləcəyinin təmin olunması haqqında məlumat verərək Korostoveç əlavə edirdi ki, "Tounleyin Eynəddövlənin nikbin baxışları ilə razılaşmağıma baxmayaraq, onun adi türkpərəst və düşmənimiz olduğu dəqiqləşdirilmişdir. Əgər bu yolla iki missiyanın birləşməsinə nail olsaq (15/2 fevral tarixli 65 №-li teleqram), onda mən adı çəkilmiş namizədin təyin edilməsinə qarşı çıxmağa heç bir əsas görmürəm."

*s.289-292*

***

**№ 221**

**Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə**

Teleqram № 1 18/5 fevral 1915-ci il

Hörmətli cənab Sergey Dmıtriyeviç,

Əlahəzrətin, Vəliəhdin Təbrizə təyin edilməsinə dair bizim münasibətimizi əks etdirən 11 fevral / 29 yanvar tarixli 541 №-li teleqramını aldım. Əlbəttə, belə bir şəraitdə bu təyinata qarşı qəti çıxış etmək yersizdir, şah hökuməti bununla Azərbaycanda suverenliyi təsdiq etməyə və rusların işğalına baxmayaraq, bu əyalətin İranın qalan hissəsi ilə münasibətlərinin davam etməsini göstərməyə çalışırdı. Vəliəhdin Təbrizə gəlişi faktı ilə barışaraq, gənc bir hökmdara, daha doğrusu, onun müşavirələrinə təsir etmək üçün müəyyən tədbirlər görməliyik. Bu məqsədlə bizim oradakı səfirliyimiz rus rəsmi dairələri ilə sıx münasibətlər saxlamaq və rus nüfuzundan uzaqlaşmamaq fikrini vəliəhdə təlqin etmək üçün lazımi səy göstərməlidir. Öz-özlüyündə çox güman ki, hakim dairələrimiz yeni hökumətin hərbi məmurları və əlaltıları ilə ixtilaf və münaqişələrdən qaçmağa çalışaraq vəliəhdə, müvafiq olaraq şaha diqqət və ehtiram göstərməlidirlər. Şah hökumətinin vəliəhdi və onun çoxsaylı heyə-

tini lazımi vəsaitlə təmin etmək üçün kifayət qədər tədbirlər həyata keçirməyəcəyini qabaqcadaq görmək olar. Belə bir təqdirdə maddi yardım göstərmək cəhdi vəliəhdi öz tərəfimizə çəkmək vasitələrindən biri olardı. Başlanğıc üçün bizim bank vasitəsilə Tehrana ötürülən rus təbəələri və İran vassallarından alınan maliyyə vergilərinin bir hissəsini vəliəhdin sərəncamına vermək olar. Hərçənd ki, yeni hökuməti öz tərəfinə yönəltmək üçün səfirlik başqa üsullar da tapa bilər.

Vəliəhdin bizim tərəfə cəlb olunması o zaman bizə xeyir gətirə bilər ki, ümumi proqramla eyni vaxtda Azərbaycanın ... mərkəzi hökumətdən asılılığının zəifləməsi həyata keçirilsin. Bu barədə artıq mən əvvəlki teleqramlarımda məlumat vermişəm[2]. Əgər bu mülahizə diqqəti cəlb etməyə layiqdirsə, məsələni belə qoymaq lazımdır ki, yeni rəhbərlər baş konsulluğu bir çox yerli məsələlərin həllində baş instansiya hesab etməyə alışsınlar. Baş konsulluğun Qafqaz idarəçiliyi ilə hərbi, sərhəd, köçürmə və s. kimi məsələlərdə birbaşa əlaqəsini təşkil etmək olardı. Sonuncunun Əlahəzrətin canişinindən asılılığı Tehran hökumətinə müqabil olaraq iranlıların istər-istəməz hesablaşmalı olduqları dil mərkəzi yaratmaqla bizim Azərbaycanın işlərinə müdaxilə etməyi bəsitləşdirəcəkdir. Məsələninin belə qoyuluşu yerli xarakterli və Petroqradın təşəbbüsü ilə yaranan məsələlərin cavabdehliyini daşımağa məcbur olan missiyanın fəaliyyətini də yüngülləşdirə bilər. Hərbi dövrdə buna oxşar idarə üsulu yaranmışdır. Biz yalnız onu gələcək üçün möhkəmləndirməliyik. Əlbəttə, öncədən, vəliəhdin Təbrizə gəlişi ilə iranlılar onun vasitəsi ilə bizim konsulluğun əhəmiyyətini zəiflətməyə çalışacaqlar. Belə bir təəssürat mənim vəliəhdlə və onun pişkarı Nizamül-mülklə söhbətimdən irəli gəlmişdir. Yeri gəlmişkən, vəliəhd missiyanın əmrləri ilə hesablaşmayan bizim konsulların Azərbaycanda həddən ziyadə müstəqil siyasət aparmalarını, onların özbaşınalığının İran hökumətinin fəaliyyətinə mane olmasını sezmiş və bütün bunlara son qoyulmasını məqsə-

dəuyğun hesab etmişdir. Mən vəliəhdə açıqladım ki, bu məlumatlar həqiqətə uyğun deyil və konsullar göstərişləri rəhbər tuturlar, lakin müstəqillik labüddür, çünki bəzən missiya yerli cəhətlər barədə mühakimə yürütməkdə çətinlik çəkir.

Əlahəzrət, mən əlavə etdim, özünüz inanacaqsınız ki, mərkəzdən alınan göstərişləri kor-koranə icra etmək olmaz və agentə, istər inzibatçı olsun, istərsə də konsul nümayəndəsi, məlum hərəkət azadlığının verilməsi zəruridir.

Öz səfərini təxirə salan vəliəhd şəhərkənarı sarayda yaşamaqda davam edir.

Qəbul edin və tanış olun.

*Korostoveç*

*s.292-294*

***

**№ 231**
**Qafqaz canişini xarici işlər nazirinə**

Teleqram № 1185 20/7 fevral 1915-ci il

Hazırda Qafqaz ordusunun qərargahına ermənilərin nümayəndəsi Zeytundan gəlmişdir. O, bəyan etmişdir ki, 15 minə yaxın erməni türk rabitə yollarına hücum etməyə hazırlaşır, ancaq onların tüfəng və patronları yoxdur[1]. Zeytun türk-Ərzurum ordusunun rabitə yollarında yerləşdiyinə görə İskəndəriyyəyə lazımi sayda patron və tüfəng göndərilməsi zəruridir. Bu silahlar orada ermənilər tərəfindən götürüləcəkdir. Bununla yanaşı, Zeytun ermənilərinin fəaliyyətinin fransız və ingilislərə xeyirli olması, bu məsələnin tələsikliyi və bilavasitə bizdən tüfəngləri çatdırmaq zərurətinin olmaması ilə bağlı mən belə güman edirdim ki, fransız və ingilis gəmilərində İskəndəriyyə silah və güllələrin çatdırılması üçün onların hökumətləri ilə əlaqə saxlamaq zəruridir[2].

*Vorontsov-Daşkov*

*Qeydlər:*

1. Analoji təklif Qahirədə baş konsul Smirnova Hnçaq Partiyasının nümayəndələri tərəfindən edilmişdir. Onlar Qafqazdan min erməninin könüllü timsalında gətirilməsi və bu məqsədlə maddi yardım ayrılması istəklərinin olduqlarını bildirmişdilər. Bu barədə məlumat verən (22/9 fevral tarixli nömrəsiz teleqram) Smirnov əlavə edirdi ki, buna oxşar müraciət artıq ingilislər tərəfindən rədd edilmişdir.

2. Bu teleqram 22/9 fevral tarixində 708 nömrə ilə Parisə və Londona göndərilmişdir. Ona cavab olaraq İzvolski 2 mart/17 fevral tarixində 111 №-li teleqrafında bildirmişdi ki, fransız hökuməti Zeytun erməniləri üçün silah ayrılması imkanından məhrumdur, çünki onlar özləri də ehtiyac içindədir. 6 mart/21 fevralda 113 №-li məlumatında Savinski bildirmişdi ki, onu baş erməni komitəsinin sədri Varandyan ziyarət etmiş və "türklərə qarşı müharibədə iştirak etmək üçün Kilikiya sahilərində yaşayan ermənilərə imkan yaradılmasını xahiş etmişdir". Komitə adından o, "Amerikada olan ermənilərin xidmətlərini də təklif etmişdi". "Amerikada yaşayan ermənilərə gəmi göndərilməsi və silah verilməsini" xahiş etmişdi.

***s. 304-305***

***

## № 239
## Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova

Teleqram № 740 — 23/10 fevral 1915-ci il

Paytaxtdan gələn 439 №-li[1] teleqrama Korostoveçin 69[2] və 73 №-li teleqramlarına, özümün eyni tarixli teleqramıma əsaslanıram.

Yeni Tehran hökumətinin bizə qarşı qeyri-səmimi münasibəti və Türkiyə ilə yaxınlaşmaq meyli təqdirində bizim tərəfi-

mizdən Qəzvin ordusunun möhkəmləndirilməsi daha əhəmiyyətli olardı. Hərçənd belə bir şəraitdə biz, ittifaq missiyası və təbəələr böyük təhlükəyə məruz qala bilərik.

İndiki şəraitdə bunun nə dərəcədə həyata keçməsinin mümkün olması barədə teleqram vurmaqdan imtina etməyin[3].

*Sazonov*

*Qeydlər:*

1. 13 yanvar 1915-ci il / 31 dekabr 1914-cü il tarixli 439 №-li teleqrama cavab olaraq Sazonov İranın Rusiyaya tərəf meylinin olması barədə məlumat verirdi. Çox güman ki, bu da "türklərin Azərbaycanda qalması" istəyindən irəli gəlirdi. O, Qəzvin ordusunun güclənməsinə qarşı çıxdığını və türkləri Təbrizdən tezliklə çıxarmaq üçün" (15/2 yanvar tarixli 20 №-li teleqram) Azərbaycan ordusunun artırılmasının məqsədəuyğunluğunu bildirirdi.

2. 20/7 fevral tarixli 69 №-li teleqramda Korostoveç İran hökumətinə belə bir bəyanat verməyi xahiş edirdi ki, "böhranı uzatmamaq və onlara çətinlik törətməmək üçün biz Eynəddövlənin təyinatına qarşı çıxmırıq. Lakin kiçik bir qeyri-səmimi münasibətdə biz öz maraqlarımızı müdafiə etmək üçün başqa tədbirlərə əl atacağıq. Daha sonra Korostoveç Tounleyin fikirlərini çatdırırdı ki, Eynəddövlənin təyinatına razılıq vermək labüddür. Belə ki, "hətta iki missiyanın qarşılıqlı təsiri ilə bizi qane edən kabinetin təşkil edilməsində şah hökumətini məcbur etmək iqtidarında deyilik və belə bir məcburiyyət təhlükəlidir, çünki bu uzunmüddətli böhrana, türkpərəstliyin güclənməsinə və hətta hökumətin açıq şəkildə düşmən partiyaya çevrilməsinə səbəb ola bilər".

3. 28/15 fevral tarixli 179 №-li teleqramda Qafqaz canişini məlumat verirdi ki, o, Qəzvin ordusunun güclənməsini "məqsədəuyğun və tezliklə həyata keçə biləcək bir iş" hesab edir.

s.311-312

***

## № 240
## Xarici işlər naziri Kudaşevin qərargahı yanında diplomatik dəftərxananın rəisinə

Teleqram № 36 23/10 fevral 1915-ci il

Tam məxfi

İngilis səfiri öz hökumətinin tapşırığı ilə Böyük Britaniya hökumətinin verdiyi məlumata əsasən Türkiyəni kömürlə təchiz edən yeganə mənbə olan Zonquldağa qarşı bir tədbir görmək fikrində olmaq niyyətimiz barədə maraqlandı.

Yuxarıda qeyd olunanlar barədə qərargah rəisinə məlumat verməyə icazə verin və sonrakı hadisələr barədə teleqraf edin.

*s.312*

***

## № 279
## Xarici işlər naziri Londondakı səfir Benkendorfa

Teleqram № 903 2 mart / 17 fevral 1915-ci il

138 №-li teleqram alınmışdır[1].

Tounleyin razılığı ilə Korostoveç tərəfindən Nazirlər Şurasının sədrinə bəyanat verilmişdir. O da, bu bəyanatın məzmunu və məqsədəuyğunluğu ilə tamamilə razılaşmışdır[2]. Hökumətin tərkibinə arzulamadığımız üzvlərin daxil edilməsinə qarşı çıxmamaq mümkün deyildir. Bizim susmağımız isə zəiflik kimi görünə bilərdi. Bu da hazırki vaxtda çox təhlükəlidir.

Bəyanata cavab olaraq Mostoufi-əl-Məmalək Korostoveçı şah hökumətinin səmimi münasibətləri olmasına və bitərəfliyə riayət etməsinə inandırdı: o, həmçinin, Eynəddövlə və Müxbir-

əs-Soltanəyə də cavabdehlik etdi. Xarici işlər naziri də dostluq təminatı verdi.

Biz iranlılara təzyiq etmək fikrində deyilik. İran hökumətinin fəaliyyət tərzi və yaxud Salarəddövlənin türklər və kürdlərlə[3] birlikdə Tehrana hərəkəti kimi hadisələrin tələbi ilə bizim ordunun güclənməsi barədə Qafqaz canişininin məlumatlarını da əlavə edərək qeyd olunan məsələləri Qreyin nəzərinə çatdırın.

*Sazonov*

*Qeydlər:*

1. 27/17 fevral tarixli 138 №-li teleqramda Benkendorf məlumat verirdi ki, Qreyin fikrincə yeni İran hökuməti qarşısında çıxış onların fəaliyyət istiqamətinin müəyyən olunmasına qədər arzuolunmazdır. Belə ki, o, heç bir nəticə verməyəcək və yalınz Almaniya vəTürkiyənin xeyrinə olacaqdır.

2. Korostoveçə 28/15 fevral tarixli 88 №-li teleqramla məlumat verilmişdir.

3. İran hökumətinin Korostoveçə verdiyi dostluq zəmanətinə və İranda artıq mübahisələrdən qaçmağa əsaslanan Sazonov 2 mart / 17 fevral tarixli 898 №-li teleqramla Qafqaz canişininə məlumat verirdi ki, o, "belə hesab edir ki, hələlik iranlılara təzyiq göstərmək lazım deyildir və Qəzvin ordusunun güclənməsini təxirə salmaq lazımdır. Lakin bu hissə üçün ehtiyatı əldən buraxmamaq lazımdır ki, onlar Qəzvinə çəkmək asan olsun, əgər "yeni kabinetin hərəkət tərzi onu tələb etmirsə". Bu teleqrama cavab olaraq Qafqaz canişini 7 mart / 22 fevral tarixli 212 "№-li teleqramla Sazonovu xəbərdar edirdi ki, "Sizə məlum olan əməliyyat, mühüm qüvvələrin quru hissələrini donanmadan yayındırmaqla mənə Sizin tərəfinizdən verilmiş və bu ordunun nəzərdə tutulmuş güclənməsinin həyata keçirilməsinə imkan verməyəcəkdir".

s.367

***

## № 332
## III Siyasi şöbənin müşaviri Təbrizdəki baş konsulluğun rəhbəri Belyayevə

Teleqram № 1041 9 mart / 24 fevral 1915-ci il

Vəliəhdin Təbrizə gəlişi ilə bizim başlıca vəzifəmiz ona təsir etmək olacaqdır. Bununla da mərkəzi İran hökumətinin Azərbaycan işlərinə müdaxiləsini tamamilə zəiflədəcəyik. Bunun üçün zahirən şahzadənin mənəviyyatına hörmət etmək və onunla səmimi münasibətlərə nail olmaq gərəkdir. Bununla yanaşı, ilk növbədə biz Azərbaycanda ənənəvi hakim roldan imtina etmədiyimizi ona hiss etdirməliyik. Bizim müdaxiləmizi tələb edən hərbi vəziyyət şəraitinə arxalanmaq indi daha asan olardı. İlk növbədə tərəfdarlarımızın təqib edilməsini, bizə sərfəli şəxslərin əvəz olunmasını, bizə düşmən ünsürlərin səhlənkarlığı və s. yol verilməməsini şahzadəyə açıqlayaraq kürdlərə, şahsevənlərə və hər cür təbliğatçılara bizə qarşı istənilən çıxışların dayandırılması üçün təxirə salınmadan ciddi göstərişlər verilməsində də təkid etmək lazımdır. Şahzadə ilə söhbətdə İrana qarşı təcavüzkar niyyətlərimizin olmamasını və bizim onlara dostluq münasibətimizi təsdiqləyərək qoşunlarımızın Azərbaycandan geri çağırılmasının mümkünlüyü haqqında daha qətiyyətlə danışmaq lazımdır, hətta əgər türklər ona hörmətdən çox bizim təzyiqimiz altında İran ərazisini təmizləsələr belə, hələlik bu barədə söhbət belə gedə bilməz.

Vəliəhdin və onun tərəfdarlarının arzuolunmaz hərəkətləri olacağı təqdirdə Siz onlara bizim nümayəndəmizə verdikləri vədləri sonuncu teleqrama əsaslanaraq xatırlada bilərsiniz.

Sizin hakimiyyətinizə və yerli əhali ilə davranmaq qabiliyyətinizə güvənirik.

***Klemm***

*s.426-427*

***

## № 356

## Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova

Teleqram № 1088 12 mart / 27 fevral 1915-ci il

Sizin 1185 №-li teleqramınız alınmışdır. Benkendorfun 168 №-li teleqramına əsaslanıram[1].

Zeytun təşkilatına birbaşa cavabdeh olan başçıların adlarını və həmçinin fransız-ingilis desantlarının dəstəyi olmadan türklərə qarşı müstəqil şəkildə mübarizə aparmağa nə dərəcədə qadir olmaları barədə məlumat verməyi Əlahəzrətdən xahiş edirəm. Erməni dəstəsinin məğlubiyyəti zamanı əhali arasında ədavət yaratmamaq üçün Zeytun rayonunda hansı qüvvələrin türklər tərəfindən yeridildiyini bilmək daha yaxşı olardı.

***Sazonov***

*Qeydlər:*

1. 9 mart/24 fevral tarixli 168 №-li teleqramda Benkendorf məlumat verirdi ki, ingilis hökuməti Zeytun erməni təşkilaının əsas rəhbərlərinin adını bilmək istəyir və maraqlanır ki, ermənilər İskəndəriyyədə desantsız silah qəbul edə bilərlərmi?

***

## № 366

## Torpaq quruluşu və torpaq məsələləri üzrə baş inzibatçı xarici işlər nazirinə

Məktub № 132 13 mart/28 fevral 1915-ci il

Məxfi

Türk cəbhəsində hərbi əməlıyyatlarımızın uğurlu nəticələri güman etməyə əsas verir ki, yaxın gələcəkdə Qafqaz sərhəd-

dinin bu vəya digər dərəcədə düzəldilməsi, Kiçik Asiya və Ermənistanda ərazilərimizin yuvarlaqlaşdırılması imkanı açılacaqdır. Hazırki vaxtda burada Rusiyanın ələ keçirəcəyi ərazilərin xüsusiyyətini və həcmini əlbəttə ki, qabaqcadan bilmək olmaz. Belə ki, bu keyfiyyətlər, təkcə cəbhədəki əməliyyatların gedişindən deyil və həmçinin, ümumi siyasi şəraitdən də asılı olacaqdır. Bizim üçün bu və ya digər dərəcədə əhəmiyyət kəsb edən Türkiyənin birləşdirılməsi çətinlik törətməyəcəkdir.

Bu mülahizələr əsasında Əlahəzrətin diqqətini kənd təsərrüfatı üçün əhəmiyyətli olan ərazilərə yönəltməyi özümə borc bilirəm.

Onların birincisi Qara dəniz sahillərində - bizim indiki ərazilərimizdən Samsuna qədər (Trapezund vilayəti) əraziləri əhatə edir. İqlimə və nəbatata görə bu sahil Batumun davamını təşkil edir. Lakin bura bir qədər istidir. Bu torpaq portağal, liman, qoz, tütün yetişdirir, meşələrlə zəngindir, bağ məskənləri və kurortlar üçün əlverişli şəraiti vardır. Sahilin məhsuldarlığı daha da arta bilər, mədəni bitkilərdən burada çay da becərilir.

Sahildən cənuba yerləşən dağlıq rayonlar daha yüksəklikdə yerləşir və bu ərazilər əhalinin məskunlaşması üçün çox əlverişlidir.

Birincidən cənub-şərq istiqamətində yerləşən digər ərazi-Ermənistan adlanan (Ərzurum və Van vilayətləri və Bitlis vilayətinin bir hissəsi) ərazi Araz və Fərat çaylarının yuxarı axarının hövzəsidir. Bu ərazinin çox hissəsi kəskin sağlam iqlimi ilə fərqlənir və rus məskunları üçün əlverişli əhəmiyyəti vardır. Boş torpaqlar burada geniş əraziləri əhatə edir. Bu ərazinin əsas rayonları Araz çayının şimal sahilləridir. Onun aşağı axarı bizim hüdudlarda yerləşir və Şərqi Zaqafqaziyanın geniş təpə sahələrinin becərilməsi üçün zəruri tədbirlər və ya işlər o zaman mümkün ola bilər ki, çayın yuxarı axarında qış sularını qorumaq və yayda su çatışmamasını aradan qaldırmaq üçün su anbarlarının tikintisindən ötrü şərait yaradılsın. Həmçinin Arazda balıq ehtı-

yatını çoxaltmaq məqsədi ilə onun yuxarı hissələrdə olan rayonlarına sahib olmağın bizim üçün böyük əhəmiyyəti vardır.

Az əhəmiyyət kəsb etməyən ərazilərin bir qismi İran sərhədi boyunca yerləşir. Ön Asiyanın ümumi siyasi quruluşunu nəzərdən keçirərkən gözlənilən hadisələrdə bu ərazilərə xüsusi diqqət yetırmək lazımdır.

Bu ərazilərdən birini cənubdan bizim Muğan düzünə qədər uzanan İran Muğanı təşkil edir. Rus Muğanının suvarılması relyef şəraitinə görə 40 min desyatin torpağı özündə cəmləşdirən cənuba doğru genişlənə bilməz. Bu rayonun və həmçinin, İran Muğanının sərhədyanı hissəsinin suvarılması İran hüdudlarında Arazın sağ sahilinə kanalın çəkilməsi zamanı mümkün ola bilər, Bu rayonun suvarılması üçün İran hökumştindən İran Qeydiyyat-Ssuda bankı adına konsessiya istəmək nəzərdə tutulmuşdur: konsessiyanın layihəsi artıq hazırlanmış və bu işi Tehrandakı imperator missiyasının nəzarətinə həvalə etmək Əlahəzrətə daha sərfəli olardı[1].

Rus Muğanının cənub hissəsinin suvarılması barədə məsələnin həlli ilə yanaşı, İran Muğanının daxıl edilməsi bizə İran hüdudlarında Muğandakı qəsəbələrımızı böyük itkidən, oğurluqdan və mal-qaranın şahsevənlər tərəfindən qaçırılmasından qorumağa imkan verə bilərdi. Bundan əlavə, rus sərhədinin cənuba əhəmiyyətli yüksəkliklərə keçirilməsi qeyd olunmuş rayonun fəlakəti - çəyirtkə ilə uğurlu mübarizə aparmaq niyyəti ilə məqsədəuyğundur.

Bütün bu məqsədlərə sərhədlərin düzəldilməsi cavab verərdi. Belə bir şəraitdə Lənkəran və Qaryagin arasında şimala doğru uzanan İranın əraziləri bizim ıxtiyarımıza keçərdi. Bütün Şimali Azərbaycanın birləşdirilməsi arzuolunandır. Belə olduqda Arazın bütün sağ sahili bizim ixtiyarımıza keçər və suvarma məqsədi ilə su anbarının tikilməsində yaranan narahatlıqlar aradan qaldırılardı

Şərqdən məlum əraziyə bizim üçün az əhəmiyyəti olmayan

Xəzər dənizinin cənub sahilləri - Gilan və Mazandaran bitişikdir. Bu yerlər mülayim ıqlimi ilə fərqlənir, inşaat materialları olan meşələrlə zəngin, subtropik mədəni bitkilərdən tutmuş pambıq, portağal və limon da daxil olmaqla bitkilərin yetişdirilməsi üçün əlverişlidir. Dənizə tökülən çaylar balıqla boldur. Nəhayət, daha şərqdə Astarabad əyaləti yerləşir, əsasən, Kurken çayı və digər xırda çayların hövzəsini əhatə edir. Son zamanlar burada bir sıra rus qəsəbələri (əhalisi 10 min nəfərdən 21-22 min nəfərə qədər olan) meydana gəlmişdir, rus sahibkarları tərəfindən əldə edilmiş və icarəyə götürülmüş çoxlu ərazilər vardır, pambıqçılıq mədəniyyətinin inkişafı məqsədi ilə suvarma konsessiyaları haqqında xahiş də bəyan edilmişdir. Bu rayonun birləşdirilməsi burada dolaşıq olan torpaq münasibətlərinin nizama salınması üçün imkan aça bilər və bizim məskunların və sahibkarların mövqeyini möhkəmləndirə bilər, belə ki, onlar hələ tərəddüdlü və etibarsız hesab olunurlar.

Bu məlumatdan aydın olur ki, adı çəkilmiş əyalətlərin genişlənməsi imperiyanın hüdudlarını cənuba doğru uzadar, önəmli təsərrüfat məsələlərinin həlli üçün yol açardı.

Yuxarıda şərh olunanlar barədə məlumat verərək Əlahəzrətə itaətkarcasına xahişlə müraciət etməyi özümə borc bilirəm ki, hərbi əməliyyatlar bitdikdən sonra qarşıda duran danışıqlarda müharibə nəticəsində Türkiyə və İranla sərhədlərimizini düzəldilməsinin mümkünlüyünü nəzərinizə çatdırım.

***Krivoşein***

***Qeydlər:***

1. Nazirlik tərəfindən bəyənilmiş və Uçot-Ssuda bankı idarəsi tərəfindən hazırlanmış, Muğan düzünün İran hissəsinin suvarılmasına dair konsessiya layihəsi nəzərdə tutulur. Bu layihənin surəti Tehrandakı işlər həvalə olunmuş Sablisə 15/2 dekabr 1913-cü ildə göndərilmişdir.

***s.475-477***

***

## № 367
## Xarici işlər naziri Qafqaz canişini Vorontsov-Daşkova

Teleqram № 1145 14/1 mart 1915-ci il

2363 №-li teleqram[1] alınmışdır.

Məqsədlərinə nail olmağa yaxınlaşan vəliəhdin Təbrizə gəlişinin qarşısını siyasi mülahizələr ucbatından almaq çox çətin olardı. Müdaxiləmizin İranda bizə qarşı etirazın yaranmasına səbəb ola biləcəyi üçün ehtiyatlı olmağa əsas vardır. Digər tərəfdən, belə də məlumat var ki, taxt-tac varisinin Təbrizə gəlməsi Azərbaycana və həmçinin, Tehrana daha çox sakitlik gətirəcəkdir. Çünki Tehranda İranın həmin əyalətlərdə möhkəmlənməsi üçün bu amilə böyük əhəmiyyət verilir. Həm də bizə düşmən olan kabinet istefaya getmiş və çox güman ki, yaxşısı ilə əvəz olunacaqdır[2].

Bizə qarşı təbliğatın qarşısını almaqdan, şahzadəni təhlükə altında qoya biləcək mürəkkəbliklərdən qaçmaq üçün onu müşayiət edən atlıları buraxmaqdan ötrü tədbirlərin görülməsi və elə ilk görüşdən vəliəhdə ehtiyatla davranmağın zəruriliyini təlqin etmək Belyayevə həvalə olunmuşdur.

Vəliəhdin gəlişi bizə müəyyən mənada rahatlıq gətirərsə, onda biz tam hərəkət azadlığı əldə edərdik. Öz növbəsində bunu şah hökuməti dərk etməliydi.

*Sazonov*

*Qeydlər:*

1. 12 mart/27 fevral tarixli 2363 №-li teleqramda Vorontsov-Daşkov mənə, ordu komandanına yazırdı ki, Azərbaycanda milli və anti-rus hərəkatın güclənməsi ilə əlaqədar olaraq Tehran hökumətinin Azərbaycandakı siyasətinin istiqamətinin bizə qarşı yaxşı münasibət

səmtinə yönəldilməsi və Azərbaycan əhalisinin əhval-ruhiyyəsini müəyyənləşdirənə qədər vəliəhdin Təbrizə səfərini təxirə salmaq daha məqsədəuyğun olardı.

2. 12 mart/27 fevral tarixli 99 №-li və 15/2 mart tarixli nömrəsiz teleqramda Benkendorf nazirliyə bildirirdi ki, Mostoufi-əl-Məmalək "bizim dəstəyimiz olmadan işləmək bacarığı olmadığından və Məclisin mənfi münasibətinə görə" istefa vermiş və Muşirəddövlə ilə əvəz olunmuşdur.

*s. 478*

***

## № 375
## Xarici İşlər Nazirliyi dəftərxanasının rəis müavini diplomatik dəftərxananın rəisi Kudaşevə

Teleqram — 15/2 mart 1915-ci il

Xahiş edirəm, nazirin nəzərinə çatdırasınız: fransız məlumatları ilə bağlı N.A.Neratov aşağıdakı mülahizələri irəli sürür: onun fikrincə fransızlara bildirmək lazımdır ki, bizdə olan məlumatlara görə ermənilər onların məskunlaşdığı əyalətlə birlikə Mersini də arzulayır və bu ərazilərin fransızların iddia etdikləri zonaya daxil olması ermənilər arasında Fransaya qarşı inamsızlıq yarada bilər. Üstəlik fransızlara başa salmaq lazımdır ki, biz onların diqqətini bu məsələyə ona görə yönəldirik ki, erməni tamahları barəsində onları agah etməməyimizdə bizi ittiham etməsinlər. Nəticədə A.A.Neratov belə təhlil edərdi ki, əgər Fransa Mersinin birləşməsini vacib və zəruri hesab edirsə, onda biz əlbəttə ki, buna qarşı əngəl törətməyəcəyik.

*Bazili*

*s.488-489*

***

## № 404

## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 118 21/8 mart 1915-ci il

Ölkədə sakitliyi pozmağa yönələn və xaricilərin təhlükəsizliyini məlum səbəblərə görə təhlükə altına qoyan yaranmış vəziyyət haqqında məsələləri ingilis, fransız, Belçika diplomatik nümayəndələri ilə müzakirə edərkən biz belə qərara gəldik ki, hökumətdən İranı müttəfiq ölkələrə qarşı düşmən münasibətinə gətirmək və ölkədə intizamsızlıq yaratmaq məqsədi güdən alman-türk fəsadlarının yaratdığı təhlükədən qorunmağa dair müvafiq tədbirlər görmək üçün iranlılara xəbərdarlıq etmək razılığını alaq. Bununla əlaqədar olaraq, nəzərdə tutulmuşdur ki, şah hökumətinə rus qoşunlarının məntəqələrdə saxlanılması və hətta daha da gücləndirilməsi zərurəti, alman agentlərinin təbliğatına qarşı tədbirlərin görülməsini tələb etmək, Şiraz qubernatorunun çağırılması və İsveç zabitlərinin İran körfəzi rayonundan çıxarılması barədə Tounleyin tələblərini dəstəkləmək haqqında bəyan edilsin.

Mən öz həmkarlarımla şah hökumətinə tam oxşar bəyanat verə bilərəmmi?[1]

Mənim fikrimcə bu, vacibdir.

Çarskoe selo, (24) 11 mart 1915-ci il

*Korostoveç*

*Qeydlər:*

1. 22/9 mart tarixli 1307 №-li teleqramda Sazonov Korostoveçə məlumat verirdi ki, o, "digər cəbhələrdə ciddi əməliyyatların nəticəsi kimi Qafqaz hərbi komandanlığının indiki zamanda Qəzvin ordusunu gücləndirmək üçün müəyyən hissənin oradan ayrılmasını mümkün

hesab etmədiyi barədə ingilis və fransızlara xəbərdarlıq edərək" onların elçiləri ilə müştərək şəkildə İran hökumətinə nəzərdə tutulmuş bəyanatı verə bilər. 31/18 mart tarixli 136 №-li teleqramda Korostoveç məlumat verirdi ki, nazir, sədrə göstərilmiş bəyanatı verərək həmçinin, Muşirəddövlənin diqqətini Təbrizdə "Vəliəhdin administrasiyasının göstərdiyi yersiz hərəkətə" yönəltmişdir; nazir-sədr rus niyyətlərinin həyata keçməsi üçün əlindən gələni etməyə vəd vermişdir. Lakin "rus qoşunlarının İranda olmasına qədər bitərəfliyə əməl etməyin çətinliyinə də istinad etmişdir".

*s. 536*

Qaynaq: *Mejdunarodnıe otnoşeniya v epoxu imperializma. Dokumentı iz arxivov çarskoqo i vremennoqo pravitelstv. 1878-1917 qq. T.VII.14 yanvarya - 23 maya 1915 q. Ç.2.M.,-L., Soçekizdat, 1935.-536 str.*

## № 396
## Tehrandakı müvəqqəti işlər vəkili xarici işlər nazirinə

Məxfi teleqram № 20 25/12 mart 1915-ci il

Əlahəzrət Sergey Dmitriyeviç,

Siz zati-alilərinin mənim teleqramlarımdan İranda müasir vəziyyətə dair şah nazirləri ilə son söhbətlərimin məzmunu haqqında artıq məlumatınız vardır. Mənimlə ayrıca, həm də Böyük Britaniya müvəqqəti işlər vəkili ilə birlikdə keçirilən söhbətlər sübut edir ki, yeni kabinet vəziyyətin qiymətləndirilməsində özündən əvvəlkinin baxışlarına hələ sadiq qalmışdır və Muşirəddövlədən Mostoufi-əl-Məmaləkə nisbətən daha az praktik adamlar gözləmək olar. Nazirlər Şurasının sədri və xarici işlər naziri bizim dəstələrin Ənzəliyə çıxarılmasını göstərib mənə müraciət edərək Siz zati-alilərinə məruzə etməyi xahiş etdilər ki, bu fakt şah hökumətində xeyli ağır təəssürat yaratmışdır və bu dəstələri göstərilən məntəqələrdən geri çağırmaq həm Rusiyanın, həm də İngiltərənin mənafeləri üçün arzuedilən olardı. Muşirəddövlənin sözlərinə görə ölkədə sakitlik hökm sürür və buna görə də rus ordularının olması paytaxtın tutulması və bütövlükdə hökumətə təzyiq göstərilməsi kimi izah edilir...

Öz-özlüyündə aydındır ki, farslar heç vəchlə Türkiyəyə qarşı Rusiya ilə birləşməyəcəklər, onları ənənəvi dostluq telləri, əlavə edim ki, həyati mənafe birləşdirir. Yeganə mümkün

yol qalır - bitərəflik. Lakin təəssüf olsun ki, bu, Rusiya və Böyük Britaniya tərəfindən daim pozulur və pozulma rayonu tədricən genişlənir, bütün İranı əhatə etmək təhlükəsi yaradır. İndiki kabinet Məclisin və xalqın etimadını qazanmışdır. Lakin bu etimadı saxlamaq və müsəlman təbliğatına cavab vermək üçün hökumət göstərməlidir ki, o düzgün yol tutmuşdur və onun saziş dövlətləri ilə həmrəyliyinin möhkəm əsası vardır. Bununla belə, Böyük Britaniya cənubda, Rusiya isə Şimalda İranın bitərəfliyini pozduqları və rus ordularının paytaxta yaxın yerləşdiyi indiki vaxtda kabinet alman və türk təbliğatına qarşı təsirli tədbirlər görməkdə acizdir. Hər halda kabinet belə tədbirləri görmək üçün Məclisin ilkin razılığını almalıdır, bundan ötrü ətraflı izahat təqdim etməlidir. Muşirəddövlə əlavə etdi ki, rus ordularının Azərbaycanda olması, həmçinin arzuedilən olmasa da, bu məsələnin müzakirəsini daha əlverişli vaxtadək təxirə salır.

Şuranın sədrinə etiraz edərək mən bizim qoşunların İranda olmasının qayda-qanunu və təhlükəsizliyi qorumaq, düşmənlərimizin antirus qarışığı yaratmaq cəhdləri haqqında xəbərdarlıq etmək və hətta şah hökumətini bizə qarşı düşmənçilik çıxışlarına yol verməmək zərurəti barədə əvvəlki izahatları təkrar etdim. O, həmçinin İsfahandakı və Kermanşahdakı alman konsulları haqqında qətiyyətli tədbirlər görmək barədə bizim təqdimatımızı müdafiə edir. Rus dəstələrinə gəlincə, o, hesab edir ki, onların olması daha çox sakitləşdirici təsir göstərir və düşmənlərimiz və bizə düşmən olan fars elementləri üçün bəzi çəkindirici xidmət edir. Hər halda o, Şiraz qubernatorunun dəyişidrilməsi təklifinin rus dəstələrinin Şimali İrandan (Güney Azərbaycan- M.Q.) geri çağırılması məsələsindən asılı olmağında əsas görmür. O, bu barədə öz hökumətinə məlumat verməyə hazırdır. Lakin düşünür ki, belə kombinasiya Londonda rəğbətlə qarşılanmayacaqdır və cənab N.Qrey ola bilsin, qoyulmuş şərtlərin yerinə yetirilməsini tələb edəcəkdir. Cənab V.Tounley bunun müqabilində təkrar etdi ki, farsların daha da

inad göstərmələri Buşirə ingilis ordularının çıxarılmasına gətirib çıxaracaqdır.

Bu söhbətdən mən belə bir təəssürat aldım ki, rus dəstələrinin paytaxtı guya təhlükəyə salması barədə İran nazirlərinin şikayəti başlıca olaraq şəxsi və taktiki mülahizələrlə bağlıdır, guya bizim orduların çıxarılması və ya heç olmazsa, bu sahədə müvafiq səylər göstərilməsi Məclis və Demokratik Partiya tərəfindən bəyəniləcəkdir. Mən icazə verməyə hazıram. Qəzvin dəstəsinin çıxması ola bilsin, buradakı şovinistləri sakitləşdirsin və kabinetin nüfuzunu möhkəmləndirsin. Lakin çətin ki, rus təsirini artırsın və ümumi vəziyyəti yaxşılaşdırsın. Düşmənlərimiz və əleyhidarlarımız, şübhəsiz, belə addımları Rusiyanın zəifliyi kimi izah etməyə çalışacaqlar və müvafiq olaraq öz mövqelərini gücləndirəcəklər.

Mən bu dəstələrin başlıca olaraq rus təbəələrinin və müəssisələrinin mühafizəsində birbaşa təyinatı olduğunu dedim. Məsələn, Ənzəli dəstəsi Talışlı və Lianozovun, Xoştaryanın müəssisələrini mühafizə etməlidir. Hər halda ümumi sayı 1500 nəfərdən çox olmayan bizim kiçik dəstələrin paytaxta qarşı hansısa planlarının olduğu istisna edilir.

Söhbətdə iştirak edən Böyük Britaniyanın müvəqqəti işlər vəkili dəstələrin saxlanması xeyrinə olaraq mənim dəlillərimi müdafiə etdi. Yeri gəlmişkən, İngiltərəyə və Rusiyaya qarşı alman-türk planları barədə cənab P.Koksdan şəxsi formada aldığı məlumatı və alman təbliğatçılarının hazırladıqları, - təkcə İranda deyil, həmçinin Əfqanıstanda ingilislər üçün çətinlik törətmək və Avropa hərbi əməliyyatlar meydanından qoşunların bir hissəsini qaçırmaq planları barədə məlumat verdi. Mənim ingilis həmkarım sonra bildirdi ki, yerli fars hakimiyyəti, bəzi köçəri tayfaların rəhbərləri, məsələn, vali Puştinux və qismən jandarma tərəfindən rəğbətlə qarşılanan türk səfirliyi və alman nümayəndəliyi tərəfindən fəal təbliğat aparılır ki, farslar belə vəziyyətə son qoymaq üçün heç bir şey etmədilər və buna görə də

Böyük Britaniya hökuməti maraqlarını qorumaq üçün özü qayğı göstərməyə məcburdur.

Məhz indiyədək farslar vəziyyəti düzəltmək üçün tam gücsüz və qabliyyətsiz idilər. Bu fikri mənim ingilis həmkarım, həmçinin xatırladığımız (21) 8 mart tarixli teleqramla bizim əleyhimizə olan düşmən təbliğatının dayandırılmasına qarşı tədbirlər görülməsini və rus dəstələrinin saxlanmasını zəruri sayan farslara bəyanat vermək barədə öz hökumətlərindən təlimat gözləyən Fransa və Belçika səfirləri bölüşdürürlər.

Mənimlə fərdi söhbətində xarici işlər naziri Böyük Britaniyanın, daha dəqiq desək, İranın bitərəfliyini pozmağa cəsarət edən, hansısa alman rəsmi və fərdi şəxslərini təqib edən və həbs edən, onların əmlakını və yazışmalarını ələ keçirən, köçəri tayfalar arasında niyyətlər və fars məmurlarına qarşı fəaliyyət göstərən ingilis agentliklərinin fəaliyyətindən şikayət etdi. İranın suveren hüquqlarını tamamilə inkar edən bütün bu faktlar əhalinin narazılığını və etirazlarını, xüsusən Fars körfəzində və Şirazda yaratmışdır, burada ingilis konsulunun özbaşınalığına qarşı xalq çıxışlarını gözləmək olar. O, əlavə etdi ki, paytaxtda ictimaiyyət qəzəblənmişdir, İranın dostu hesab etdikləri ingilislərə qarşı narazılıq getdikcə artır. O, ümid edir ki, biz mötədil formada öz müttəfiqimizə təsir edə bilərik.

Müvafiq iradlar yaxınlarda farslar tərəfindən bizim Azərbaycandakı fəaliyyətimiz və konsullarımızın hərəkətləri barədə deyilmişdir. Şücaəddövlənin və başqalarının, bütövlükdə farsların etirazları, təəssüf ki, Böyük Britaniya nümayəndələri tərəfindən müdafiə edilmişdir. Bu dəfə rollar dəyişilmişdir və mən birinci dəfə olaraq ingilislər əleyhinə və hətta onları geri çəkmək barədə farsların xahişlərini eşitdim.

Salamlarımı qəbul edin.

*Korostoveç*

*s.21-24*

***

## № 433
## Xarici işlər naziri
## Tehrandakı diplomatik nümayəndə Korostoveçə

Teleqram № 1402 27/14 mart 1915-ci il

Surəti Təbrizə və Tiflisə

Belyayevin 48 №-li teleqramına istinad edirəm[1].

Belyayev bizi tamamilə qane edən vəziyyətin vəliəhd tərəfindən pozulmasına yol verməmək üçün təcili tədbirlər götürməyi təklif edir. Bunun üçün o, vəliəhdlə və pişkarla aydınlaşdırmalıdır ki, indiki vəziyyətdə Azərbaycanda bizim ordularımızın olduğu şəraitdə onların bu cür hərəkətləri özləri üçün ağır nəticələrə gətirib çıxara bilər.

***Sazonov***

*Qeydlər:*

1. Belyayev 26/13 mart 48 №-li teleqramında məlumat verirdi ki, "rus polis təlimatçısının məsləhətləri ilə gözəl işləyən" Təbriz şəhərinin polis rəisi Sərdar Sətvəti vəliəhd "kasıb, ehtiyacı olan, xəsis, Avstriyada tərbiyə almış, avstrofil, türkofil olan şahzadə Əminəddövlə əvəz etmişdir". Belyayevin fikrincə bu tədbir o deməkdir ki, "bizim adamları alman tərəfdarları və agentləri ilə əvəz etmək haqqında Tehranda hazırlanmış plan həyata keçirilməyə başlanılır".

*s. 30-31*

***

## № 396
## Tehrandakı diplomatik nümayəndə xarici işlər nazirinə

Teleqram № 24 8 aprel/26 mart 1915-ci il

Zati-aliləri Sergey Dmitriyeviç!

Rus təbəəsi Allahverdiyev və konsulluğun poçtalyonu Bia-

yev üzərində gömrük jandarmasının etdiyi zorakılıq haqqında İsfahandakı konsulluğumuzun işlər müdirinin teleqraf məlumatını[1] alan kimi Nazirlər Şurasının sədrinə qəti etiraz etmək üçün tələsdim. Bunun müqabilində mən Muşirəddövləni başa saldım ki, şah hökuməti əgər bizimlə mehriban münasibətlər saxlayırsa və istəyirsə ki, onu bizə düşmən olan elementlərlə, xüsusən alman və türk təbliğatçıları ilə həmrəylikdə bizi şübhələndirməsinlər, onda belə faktlara, hər şeydən əvvəl, rus təbəələrinə qarşı dəfələrlə öz nifrətini göstərən və İsfahan zorkalığına yol verməkdə təqsirkar olan fars zabitlərini cəzalandırsın, Qlirup və Fosseliusu[2] ölkədən çıxarsın. Əlavə etdim ki, ziyankar fəaliyyəti cəzasız qalan və daha da genişlənib cinayətkar xarkter alan Pyujenin də qovulması çox zəruridir. Qərib xanın[3] öldürülməsinə və bunun adı çəkilən avantüristin iştirakı ilə həyata keçirilməsinə, bizim himayəmiz altında olan rus təbəələrinə və farslara qarşı bir çox zorakılıq fəaliyyətinə baxmayaraq, Pyujen haqqında indiyədək heç bir ölçü götürülməmişdir. Mən, həmçinin, nazirin diqqətini Kermanşahdakı həyəcanlı vəziyyətə və Həmədanda məşhur Muxtar bəyin başçılığı ilə kürdlərin qalxmasına yönəltdim. Sonda mən Təbrizdə bizim əleyhimizə olan fəaliyyət və mətbuatda antirus təbliğatının davam etməsi barədə danışdım. Bu, göstərir ki, bizə düşmən olan istiqamət daha ağıllı və mötədil siyasəti üstələyir.

Muşirəddövlə izah etdi ki, türk-alman təbliğatını kəsmək üçün o, fars hakimiyyət orqanlarına təlimat vermişdir ki, türk və alman agentlərinin hər hansı təşviqindən imtina etsinlər, beyinlərin sakitləşdirilməsi və ciddi bitərəflik tədbirləri haqqında qayğı göstərsinlər. Muşirddövlə məlumat verdi ki, İsfahan hadisəsi barədə hələ məlumat almamışdır (sonuncu çətin ki, mənə xarici işlər naziri müavininin göndərdiyi və baş verən bütün hadisələrdə bizim konsulluğu təqsirləndirən məktubla inandırıcı olsun), lakin xəbərdar etməyi özünün borcu sayır ki, Kermanşahdakı və İsfahandakı vəziyyət barədə bizim məlumatlarımız

təhrif edilmiş və şişirdilmişdir. Bir sözlə, o, bizi razı salmaqdan ötrü hər şeyi etməyə hazırdır və elə indicə ciddi təhqiqata başlayacaqdır, lakin bizdən xahiş edir ki, şah hökumətinin çətin vəziyyətini başa düşən və onun bitərəfliyə əməl etməsini yüngülləşdirən addım ataq. Buna da rus dəstələrinin Qəzvindən və Rəştdən çıxarılması və İrana xahiş etdiyi moratoriumu verməklə nail olmaq olar. Muşirəddövlə Təbrizdə adminstrasiya əleyhinə mənim söylədiyim ittihamları qətiyyətlə rədd etdi və təsdiq etdi ki, əgər münasibətlər qaydaya düşmürsə, onda bu işdə (vəziyyətlə və vəliəhdin hüquqları ilə hesablaşmaq istəməyən və hətta ümumi qəbul olunmuş diplomatik etiket qaydalarını asan (baş konsulluğun işlər müdirinin kargüzara birinci səfər etmək istəməməsinə işarədir)) bizim konsulluq günahkardır.

Muşirəddövlə bu dəfə özünü daha barışdırıcı aparırdı və bitərəflik, milli ordu, qanunverici islahatlar və b. haqqında utopik mülahizələrə az yer verirdi. Görünür, Petroqradda İran səfirinin Siz zati-aliləri ilə söhbəti barədə aldığı hesabatın və şah hökumətinin indiki hərəkətlərinin İran üçün ən məhvedici nəticələri barədə xəbərdarlığın təsiri altında idi (Klemmin (2 aprel) 20 mart tarixli teleqramı)[4]. Həmçinin tamamilə inandırıcıdır ki, fars hökumətinə mötədil təsir Böyük Britaniya səfirinin qarşısını alardı. Sonuncu farsları xəbərdar etmişdir ki, rus dəstələrinin olmasına dair şikayəti müdafiə edə bilməz və evakuasiya haqqında israr etməməyi məsləhət görmüşdür. Sonra cənab V.Tounley İranın cənubunda alman-türk təbliğatının qarşısını almaq üçün qubernatorların qəti təlimatlarla təmin edilməsini tələb etmişdir, əks halda məsələləri öz əlinə alacağı ilə hədələmişdir. O, həmçinin jandarmanın və İsveç zabitlərinin fəaliyyətlərinə qarşı etiraz etmişdir və başa salmışdır ki, belçikalıların sıxışdırılması Londonda rəğbətlə qarşılanmır və İranın nəzərdə tutduğu maliyyə dəyişikliklərinin, xüsusən pul yardımı alınmasının uğurlarını gözdən sala bilər. Hər halda şah hökuməti indiki şəraitdə moratorium haqqında xahişlərinin uğursuzluğa düçar olmasın-

dan təəccüblənməməlidir, məhz yeni maliyyə təşkilatı (Belçika nəzarəti formasında təminatdan məhrum olan) marağı olan hökumətlərin çətin ki, lazımi etimadını qazansın və bu əməliyyatın başa çatmasını asanlaşdırsın.

Cənab V.Tounleylə söhbətdə mən kabinetin başında xeyirxah insan, lakin nəzəriyyəyə həddindən artıq məftun olan Muşirəddövlə qaldıqca tələblərimizin uğur qazanacağına şübhə etmədiyimi gizlətmədim. Məhz bu canişin Məclisə xeyli dərəcədə bağlıdır. Əgər bu proqram çoxluğun türkofil və antirus meyllərinə cavab vermirsə, öz proqramını həyata keçirmək iqtidarındadır. Məclisdən asılı olan bu şəxs lazım gəldikdə bu müəssisənin və ya daha doğrusu, onun daha böyük əhəmiyyət kəsb edən qatı elementlərinin mənafelərini yerinə yetirməyə çalışıcaqdır. Məsələn, yaxın vaxtlarda Məclis sədrinin müavini məşhur demokrat Süleyman Mirzə seçilmişdir. Bundan başqa, deputat yerləri boşaldıqca boş yerləri demokratlar tuturlar. Beləliklə, zaman keçdikcə Məclis açıldıqca Demokrat Partiyası xeyli güclənir və bu, əlbəttə, kabinetin fəaliyyətinə təsir edəcəkdir.

Cənab V.Tounley görünür, kabinetin zəif iş qabliyyəti haqqında mənim düşüncələrimi nəiki bölüşür, hətta indiki vəziyyəti ümidsiz görərək irəli gedir və Avropadakı hadisələr imkan verən kimi London və Petroqrad hökumətlərinin İran işlərinə böyük diqqət yetirəcəyini və ingilis-rus nəzarətinin labüdlüyünü öncədən görür. O, hətta mənafelərimiz naminə müxtəlif yarım tədbirlərlə baş verən dağıntı və başıpozuqluq proseslərinə mane olunmasını, əksinə hadisələrə təbii istiqamət verilməsini irəli sürür. Bütövlükdə, mənim ingilis həmkarımın baxışlarında son vaxtlar kəskin dəyişikliklər əmələ gəlmişdir: o, İranın dirçəldilməsi, onun suverenliyinin və müstəqilliyinin müdafiə edilməsi haqqında danışmır və nəinki fars çıxışlarını təşviq etmir, əksinə bizim tərəfimizdə dayanır, bu da əlbəttə, nümayəndəliyin vəziyyətini yüngülləşdirir.

Cənab V.Tounleyin indiki siyasi xətti dəyişmək üçün səylə-

rimizin səmərəli olmayacağı barədə düşüncələri ilə ümumilikdə razılaşaraq mən, bununla belə, düşünürəm ki, bəzi tədbirlər bizim təsirimizi, məsələn, Azərbaycanda, Gilanda və Mazandaranda möhkəmləndirərdi. İndi elə tədbirlər görmək olar ki, əlbəttə binaları yerli şəraitdə həyata keçirmək mümkündür. Belə möhkəmlənmək artıq baş vermiş fakt əhəmiyyəti daşıyacaqdır, normal qayda-qanunu bərpa etdikdə onunla hesablaşmaq lazım gələcəkdir.

Salamlarımı qəbul edin.

*Korostoveç*

*Qeydlər:*

1. 4 aprel/21mart tarixli 190 №-li teleqram.

2. İsfahandakı konsul Hildenbrandtın 18/5 mart tarixli 162 №-li məlumatında göstərilir ki, İsveç təlimatçıları Qlirup və Fosselius açıq şəkildə özlərinin "almanpərəst hisslərini və rəğbətlərini" bildirirlər və İran jandarmalarının rus təbəələrinə qarşı "qalmaqal törətmələrini və özbaşına hərəkətlərini" dayandırmaq üçün tədbirlər görmürlər.

3. Hildenbrandt sonralar, 4 may/21 aprel tarixli 243 №-li məlumatda bildirirdi ki, "Zill-əs-Sultana administrasiyasında əvvəllər xidmət etmiş və Kerman diyarının vitse-qubernatoru olmuş, İsfahanda əhali arasında öz nüfuzu ilə məşhur olan Qəribxan göstərilən vəzifədən getdikdən sonra bazarın gur yerində, general-qubernatorun evinin yanında öldürülmüşdür". Hildenbrandtın düşüncəsinə görə "şübhələr, tamamılə əsaslı olaraq Pyujenin adamlarının üzərinə düşür".

4. 1509 №-li teleqram. Klemm həmin gün 1508 №-li teleqramı ilə Korostoveçə məlumat verirdi ki, İran xarici işlər nazirliyinin "İranda türklərin və almanların hərəkətlərinə qarşı qəti etiraz edən" sirkulyar teleqramı barədə məlumat verən İsaq xana cavab verilmişdir ki, rus hökuməti "İranın gecikmiş addımı" barədə məmnuniyyətlə tanış olmuşdur, lakin "təkcə yazılı etirazları deyil, alman-türk intriqalarının kəsilməsinə dair fəal tədbirləri görmək istərdi".

s.110-113

***

## № 507
## Təbrizdəki baş konsulluğun işlər müdiri xarici işlər nazirinə

Teleqram № 64 11 aprel/29 mart 1915-ci il

Surəti Tiflisə,
Tehrana və Ərdəbilə

Vəliəhd mənim məsləhətlərimə qulaq asaraq öz müstəqilliyini göstərmək üçün ilk cəhdlər etdikdən sonra onun köməkçilərinin pişkara və kargüzara şikayətlərinə dair Tehrandan teleqram gəlmişdir. Burada vəliəhdə göstərilir ki, o, yalnız nominal hakimdir və bütün idarəçilik pişkarın üzərinə düşür; vəliəhd incimişdir, Nizamül-mülklə mübahisələşmişdir və geriyə - Tehrana getmək üçün heyət verilməsini əmr etmişdir. Yaxın adamları onu çətinliklə sakiləşdirmiş, lakin səfəri təxirə sala bilməmişlər. Nizamül-mülk Azərbaycandakı qubernator yerlərini auksiondan vəliəhdin ətrafındakı müxtəlif adamlarına Pişaverin müdafiə etdiyi Müqdirəddövlənin qubernator olduğu Ərdəbildən satmağa başlamışdır.

Pişkar bu vəzifəyə Tehrandan tövsiyə məktubu və Ərdəbilin verilməsi xahişi ilə gəlmiş Mükərrəməddövləni təyin etməyi nəzərdə tutur. Düşünürəm ki, indi Ərdəbildə elə həmin əvvəlki gəlirlərdir. Bu namizəd Nizamül-mülkə 10000 tümən hədiyyə verməyi vəd etmişdir və təyin olunma, demək olar ki, baş tutmuşdur. Mən etiraz edərək göstərdim ki, Müqdirəddövlə bizə böyük xidmət göstərmişdir və onun dəyişdirilməsi şahsevənlər arasında çox ağır təəssürata səbəb olacaqdır. Onlar belə şərh edir ki, vəliəhd ruslara meylli şəxsləri dəyişdirir, ona görə də onların özləri yenidən qarət və hücumlara başlayırlar, Nizamilmülklə uzun danışıqlar zamanı mən başa saldım ki, Mükərrəməddövlə Ərdəbilə gələrkən bizim qoşunlar tərəfindən şəhərə,

sadəcə, buraxıla bilməz. Vəliəhdin qəbulunda olarkən sonuncu da həmçinin, Nizamül-mülkü müdafiə etdi. Mən öz fikrimdə qaldım və hələlik yeni qubernatorun təyin edilməsi ləğv edilmişdir. Və Müqdirəddövlədən vəzifəyə təyın olunmaq üçün mötədil peşkəş almaq haqqında danışıqlar başlanmışdır. Düşünürəm ki, sonuncu Nizamül-mülkə və bütün bəzi şeyləri verməyə mane olmur.

*Belyayev*

*s. 127-128*

***

## № 507
## Xarici işlər naziri
## Qafqaz canişininin köməkçisi Mışlyayevskiyə

Teleqram № 1817 — 22/9 aprel 1915-ci il

386 №-li teleqram alınmışdır[1].

Mən Vaşinqton və Romadakı bizim diplomatik nümayəndəliklərə katolikosun Şimali Amerika Birləşmiş Ştatları və İtaliya hökumətlərinə müraciətini müdafiə etmək göstərişi vermişəm. Nazirlik Türk Ermənistanın gələcək quruluşu haqqında məsələyə dair hələ son qərara gəlməmişdir. Belə bir şey qəbul edilən kimi onun haqqında yubanmadan məlumat verəcəyəm[2].

*Sazonov*

*Qeydlər:*

1. Qafqaz canişinın köməkçisi 17/4 aprel tarixli 386 №-li teleqramında Sazonova məlumat verirdi ki, Van və Bitlisdəki qırğınlar haqqında Tiflis ermənilərinin məlumat alması ilə əlaqədar olaraq Vorontsov-Daşkov katolikosun İtaliya kralına və ABŞ prezidentinə Portonun qarşısında ermənilər üçün güzəştlərə getmək xahişi ilə müraciət etməsinə etiraz etmir və xahiş edir ki, nazirlik Türk Ermənistanına dair nəzərdə tutulan təkliflər barədə ona məlumat versin.

2. Həmin tarixli 1818 № -li teleqramda Sazonov Roma və Va-

şinqtondakı səfirlərə katolikosun müvafiq hökumətlər qarşısındakı xahişini müdafiə etmək göstərişini vermışdir.

*s. 235*

***

## № 609
## Xarici işlər naziri Paris və Londondakı səfirlər İzvolskiyə və Benkendorfa

Teleqram № 1876 | 25/12 aprel 1915-ci il

Özümün 1818 №-li teleqramıma istinad edirəm.

Nazirlikdə Asiya Türkiyəsindəki anarxiya və türklərlə kürdlərin erməniləri qırması haqqında yeni xəbərlər alınmışdır. Fransız (ingilis) hökumətinə bizimlə və İngiltərə ilə birlikdə Portoya müraciəti dərc etməyi zəhmət olmasa təklif edin. Belə ki, ermənilərin əzişdirilməsində şəxsi məsuliyyət Türkiyə Nazirlər Şurasının bütün üzvlərinin, həmçinin bu hadisələrlə bağlı olan bütün türk mülki və hərbi vəzifəli şəxslərin üzərinə qoyula bilərdi.

Müraciətdə Suriyadakı qırğından sonra 1860-cı ildə Avropada görülən cəza tədbirlərini xatırlamaq olardı. İngilis (fransız) hökuməti razı olduğu təqdirdə müraciətin mətni barədə razılaşmağınızı xahiş edirəm, onun eyni və bir gündə üç ölkədə mümkün qədər tez çap edilməsi məqsədəuyğundur[1].

*Sazonov*

*Qeydlər:*

1. İzvolski 27/14 aprel 243 №-li teleqramında məlumat verırdi ki, Delkasse Sazonovun təklifini bəyənmişdir və birgə müraciətin mətnıni hazırlamaq üçün Londonla əlaqə yaradacağına söz vermışdir. 30/17 apreldə Byukenenin vasitəsi ilə Qrey katolikosun İtalya və Amerika hökumətlərinə müraciətinin cavabını gözləməyi təklif etmişdir.

*s. 252*

***

## № 721
## Tehrandakı müvəqqəti işlər vəkili xarici işlər nazirinə

Teleqram № 201 9 may / 26 aprel 1915-ci il

Cümə axşamı mənim Eynəddövlə ilə birinci görüşümdə o, xəstəliyinə istinad edərək bitərəfliyin və sabitliyin pozulmasına dair mənim təkidli tələblərimə müəyyən cavab verməkdən boyun qaçırdı. Bu gün ilk dəfə olaraq o, şahın yanına getmiş, sonra isə mənim yanıma gəlmiş, lakin məni evdə tapmamışdır. Yevreipovu öz yanına dəvət etmişdir, bitərəfliyin pozulmasına və Tehran və İsfahanda təbliğatı qızışdıranlara qarşı təsirli tədbirlər görəcəyi barədə öz qətiyyətini müsbət mənada bildirmişdir. Bu məqsədlə oralara Bəxtiyar xanı Əmir Cəngi göndərmışdir. İsveçlər jandarmalara 60.000 tümən ianə ödəməyi vəd etmişlər və bu məbləği bazarda əldə etmişlər. Eynəddövlənin sözlərinə görə bu, həqiqətə uyğun deyildir və onun özü bu məbləğin alman missiyasından alınmasına şübhə edir. Nazir əmindir ki, cihad uğur qazana bilməz. Belə ki, ruhanilər ona rəğbət bəsləmirlər. Onun sözlərinə görə hətta Əmir Hikmət türklərin Kermanşaha soxulmasına qarşı çıxış edərək rusofilə çevrilmişdir.

Nəhayət, nazir müharibə qurtaranadək Azərbaycanda rus qoşunları haqqında məsələyə toxunmamağı vəd edir. Əlamətdar haldır ki, "Noubahar" qəzeti bu gündən Rusiyaya qatı düşmənçilik münasibətini dəyişmişdir. Bununla əlaqədar olaraq bir daha qeyd etməliyəm ki, Eynəddövlə sonda İran üçün yaxın gələcəkdə avansın zəruri olması, həmçinin ona türk hücumuna müqavimət göstərmək üçün tüfənglər verilməsi haqqında xəbərdarlıq etdi.

Onunla sabah görüşəcəyəm və verdiyi vədləri işdə sübut etməyi və başlanğıc kimi yenidən alman missiyası üçün gətirilən

yükə baxmağı və bitərəfliyin bərpası üçün təbirlər görməyi təklif edəcəyəm.

Bazarın bu gün gözlənilən tətili pulların verilməsi nəticəsində baş tutmadı. Cəbhədə baş verən dəyişiklikləri hələ ki, şahın şəxsi təsiri kimi qələmə vermək olar. Görünür, o, dünən Avstriya səfirinin İrandan ötrü Türkiyə ilə birlikdə fəaliyyət göstərməsi barədə uzun-uzadı dilə tutmasına laqeyd qalmışdır.

*Etter*

*s.397-398*

***

**№ 724**
**Xarici işlər naziri Paris və Londondakı səfirlər İzvolskiyə və Benkendorfa**

Teleqram № 2155 10 may/27 aprel 1915-ci il
№ 2[1]

Bəyanat. Təxminən bir aydır ki, Ermənistanın kürd və türk əhalisi birləşərək, adətən türk hakimiyyətinin köməyi ilə erməniləri qırırlar. Belə qırğın aprel ayının ortalarında Ərzurumda, Deqdanda, Ekində (Acı), Bitlisdə, Muşda, Sasunda, Zeytunda və bütün Kilikiyada olmuşdur; Vanın ətrafındakı yüzlərlə kəndin sakinləri tamamilə qırılmışdır; şəhərin özündə erməni məhəlləsi kürdlər tərəfindən mühasirə edilmişdir. Eyni vaxtda İstanbulda Osmanlı hökuməti günahsız əhali üzərində vəhşiliklər törədir.

Türkiyənin xristianlığa və sivilizasiyaya qarşı bu yeni cinayətlərini nəzərə alaraq müttəfiq hökumətləri yuxarıda deyilənləri Ali Portonın nəzərinə çatdırır ki, onlar göstərilən cinayətlərə görə Osmanlı hökumətinin bütün üzvlərini, həmçinin erməni qırğınlarında əli olan agentlərini şəxsən məsuliyyət daşıyan hesab edəcəklər[2].

***Sazonov***

*Qeydlər:*

1. Sazonov 1 (2156) №-li teleqramı ilə İzvolski və Benkendorfdan xahiş edirdi ki, onun bu teleqramda təklif etdiyi bəyannamə ilə Fransa və İngiltərə razılaşdıqda, onun Paris və Londonda dərc olunduğu gün Petroqradda dərc edilməsi üçün xəbər versinlər.

2. İngiltərə və Fransanın cavabı üçün bax № 797. Bəyanatın son redaktəsində "xristianlığa və sivilizasiyaya qarşı" ifadələri var idi. Delkassenin arzusuna uyğun olaraq "Fransanın hakimiyyəti altında olan müsəlmanların hisslərini təhqir etməkdən" çəkinərək "bəşəriyyətə və sivilizasiyaya qarşı" sözləri ilə əvəz edilmişdir (İzvolskinin 21/8 may tarixli 327 №-li teleqramı və Sazonovun 22/9 may tarixli 2399 №-li teleqramı).

***s. 400-401***

***

## № 740
## Londondakı səfir xarici işlər nazirinə

Teleqram № 333 12 may/29 aprel 1915-ci il

2119 №-li teleqramı aldım[1]

Nikolsona məlumat verdim. Eyni vaxtda Fransanın müvəqqəti işlər vəkili Səlanikdən gələn teleqramın məzmunu ilə məni tanış etdi: Teleqramda bildirilir ki, ermənilər Vanı tutmuşlar, karvansarayı partlatmışlar və şəhəri dağıtmışlar. Bundan sonra türklər onu yenidən tutmuşlar, yalnız ondan sonra qırğın baş vermişdir. Nikolson deyir ki, ingilis hökumətinin bilavasitə heç bir informasiyası olmamışdır. Lakin əgər fransız məlumatı təsdiq olunarsa, onda Türkiyə bu hadisələrdə sübut tapacaqdır ki, ermənilər açıq üsyana qalxmışlar. Mən ona cavab verdim ki, görünür, qanlı təxribatdan sonra onların başqa heç bir çıxış yolu qalmamışdır və iş türklər haqqında getdiyindən belə dəlillər, fikrimcə, bütün əhəmiyyətini itirir. Nikolson öz mövqeyində israr etmədi.

***Benkendorf***

*Qeydlər:*

1. Sazonov 7 may / 24 aprel tarixli 2119 №-li teleqramında Vaşinqtona, Parisə və Londona Xoydakı vitse-konsulluğunun işlər müdiri Vvedenskinin 6 may / 23 aprel 163 №-li teleqramını çatdırmışdır. O, Vandan gələn ermənilərin Amerika konsuluna aşağıdakı məzmunda qeydlər verdiyi haqqında məlumatı aldığını bildirirdi: "Vanda başdan-bana üsyandır. Hökumət şəhəri bombardman edəcəyi ilə hədələyir. Amerika koloniyaları təhlükədədir. Amerika hökumətinə xəbər verməyinizi xahiş edirik".

*s.416-417*

***

## № 765
## Rusiyanın London və Parisdəki səfirləri Benkendorfa və İzvolskiyə Zavriyevin qeydləri (1)

May 1915-ci il

İndiki müharibənin ilk günlərindən Rusiya erməniləri Türkiyənin ona qoşulmasını gözləyirdilər. Bu güman etməyə ümid verirdi ki, müharibə qurtardıqda erməni məsələsi yenidən gündəliyə gələcək və qəti şəkildə həll ediləcəkdir. Ermənilər baş verən hadisələrdən kənarda qala bilməzdilər, ona görə də onlar bunlarda fəal iştirak etdilər.

İmperiyanın vətəndaşları kimi ermənilərin daimi orduya böyük sayda əsgər və zabit verməl託ərindən başqa, onlar tərəfindən, həmçinin döyüş şücaəti göstərdiklərinə görə rus generalları tərəfindən xoş sözlər deyilən könüllü dəstələri təşkil edilmişdir. Öz hesablarına və hökumətin bəzi maliyyələşdirilməsi ilə 5 min nəfərə çatan könüllülərin sayını xeyli artırmaq da olardı, lakin hərbi idarədə silah çatışmazlığı buna mane oldu. Bunu nəzərə alan əlahəzrət Qafqaz canişini müvəqqəti olaraq yuxarıda göstərilən sayla kifayətlənmək haqqında əmr verdi.

Ermənilər həmçinin, şəxsi əməkləri və maddi ianələri ilə dini etiqadlarından asılı olmayaraq yaralılara və xəstələrə qayğı

göstərilməsində yaxından iştirak etdilər. Sonunculara onların çəkdikləri xərc indi artıq iki milyon rublu ötüb keçmişdir.

Burada deyilənlərdən aydın olur ki, Rusiyadakı kiçik erməni xalqı (1.700.000) həqiqətən özünün maddi və fiziki qüvvəsi hesabına işləyir.

Belə fəaliyyətlə yanaşı olaraq ermənilər Türk Ermənistanının muxtariyyəti məsələsinə dair rus hökumətinin münasibətini aydınlaşdırmaq üçün Qafqaz canişini ilə əlaqələr qurdular.

1914-cü il avqustun əvvəlində bütün ermənilərin katolikosu Qafqazdakı əlahəzrət canişinə göndərdiyi məktubunda belə bir arzunu ifadə etmişdir ki, müharibə qurtardıqdan sonra Rusiya Türk Ermənistanına Rusiya himayəsi altında ərazi və muxtar özünüidarəyə təminat versin.

Canişin katolikosa məktubla cavab verdi[2] ki, bununla bağlı Petroqrada göndərdiyi sorğuya Nazirlər Şurasının sədrindən cavab almışdır ki, Rusiya 1913-cü ildə İstanbulda dövlətlərə etdiyi təkliflərə uyğun olaraq ilkin islahat proqramı mənasında ermənilərin təkliflərini müdafiə edəcəkdir.

1914-cü ilin noyabrında Tiflisdə əlahəzrət imperatorun ən yüksək səviyyədə (kənar şəxslər olmadan) katolikosu qəbul edərkən, katolikos ermənilərin belə bir şeyə ümid etdiklərini bildirdi ki, zati-aliləri Türk Ermənistanına muxtariyyət bağışlamağa razı olacaqdır. Əlahəzrət imperator cavab verdi ki, güman edir ki, "erməniləri işıqlı gələcək gözləyir və inanır ki, Ermənistan gələcəkdə Bolqarıstandan nümunə götürməyəcəkdir".

Dörd saata qədər davam edən görüş başa çatdıqdan sonra əlahəzrət bildirdi ki, "erməni məsələsi müharibə qurtaran kimi sülh danışıqlarında ermənilərin gözlədiklərinə uyğun olaraq həll ediləcəkdir".

Qafqazda ermənilər iş görməklə yanaşı erməni nümayəndələri Petroqradda xarici işlər nazirliyi ılə daimi ünsiyyətdə olmuşlar. Bir sıra söhbətlər nəticəsində aydın olmuşdur ki, hələ nazırlıyin erməni məsələsində son proqramı yoxdur. Lakin gü-

man edir ki, Rusiya dövlətlərə təklif edərsə, ermənilər kifayətlənməlidirlər:

1. Türkiyə imperiyası hüdudlarında başlanğıcda muxtariyyət formasında idarə edilən Ermənistanın yaradılması.

2. Dövlətlərin seçdikləri general-qubernatorun sultan tərəfindən yalnız təsdiq edilməsi və bayrağın saxlanılması ilə ifadə olunan Türkiyənin suverenliyinin saxlanılması.

3. Ermənistan üzərində üç dövlətin - Rusiya, İngiltərə və Fransanın protektoratlığı.

4. Ermənistan ərazisi 6 erməni vilayətindən (demək olar ki, tamamilə müsəlman əhalisindən ibarət olan qərbdə və cənubda əyalət hissələri istisna olmaqla) və Aralıq dənizindəki Mersin limanı ilə birlikdə Kilikiyanın Yumurtalıqla bütün İskəndəriyyə körfəzi istisna olmaqla təşkil edilməli idi.

5. 1913-cü ildə Rusiyanın İstanbulda təklif etdiyi ilkin islahat layihəsinə əsaslanan muxtariyyət proqramının dəyişən ümumi siyasi şəraitdən asılı olaraq təbii genişləndirilməsi. Erməni nümayəndələri bu təməllərlə razılaşdılar.

O vaxt aydın oldu ki, layihəni ermənilərin özləri İngiltərə və Fransa hökumətləri qarşısında müdafiə etməlidirlər, xüsusən Kilikiyaya altı vilayətin birləşdirilməsi məsələsində. Həmçinin, hər iki ölkənin ictimai rəyinə təsir etmək lazım idi. Bundan ötrü İngiltərə və Fransaya ermənilərdən ibarət heyət göndərmək təklif edildi.

Nazirlik ermənilərin bu təklifinə rəğbətlə yanaşdı və özünün London və Parisdəki səfirləri vasitəsi ilə yardım göstərəcəyini vəd etdi.

Lakin təklif edildi ki, Rusiya səfirlərinin açıq köməyi İngiltərə və Fransada bu nümayəndə heyətinin roluna, xüsusən, Kilikiya haqqında məsələdə şübhə doğura bilər.

Buna görə də nazirliklə razlığa gəlindi ki, nümayəndə heyəti imkan daxilində Rusiya səfirlərinin açıq qarışması olmadan hərəkət edəcəkdir. Sonuncunun müdaxiləsi yalnız çətinlik ola-

cağı hallarda, həmçinin səfirlər lazım bildikdə ola bilər.

Nazirlik ümumi direktiv kimi nümayəndə heyətinə yuxarıda göstərilən 5 maddəni əsas götürərək Türk Ermənistanı muxtariyyəti proqramını həyata keçirməyi təklif etmişdir.

Yuxarıda deyilənləri Siz zati-alilərinin diqqətinə çatdırmaqla qeyd etmək lazımdır ki, Petroqraddakı söhbətlər tamamilə məxfi aparılmışdır, onlar yalnız katolikosa və ermənilərdən olan məsul şəxslərə məlumdur və nazirlik öz üzərinə heç bir formal öhdəliklər götürməmişdir. Lakin söhbətlərdə hər iki tərəfdən səmimilik, həmçinin birgə fəaliyyətin zəruriliyinə inam, bir-birinə etimad bəsləmək və ümumi maraqlara inanmaq hiss edilmişdir.

*Y.Zavriyev*

*Qeydlər:*

1. Neratov 17/4 aprel tarixli 1721 №-li teleqramında Benkendorfa və İzvolskiyə erməni xadimi Zavriyevin "adı çəkilən ölkələrdə erməni istəkləri xeyrinə hökuməti və ictimai rəyi tanış etmək məqsədi ilə" Parisə və Londona səfər etməsi barədə məlumat vermişdir. Sonra Neratov məlumat verirdi ki, "nazirliyə yaxşı cəhətdən məlum olan Zavriyev onu siyasi dairələrə daxil etməyi və himayə etməyi xahiş edir".

2. Katolikosun görüşünə dair nazirlikdə tərtib edilən qeydlər xarici siyasət arxivində P.A. 3484 №-li işdə saxlanılır. Onun məzmunu dərc edilən işlərdə verilmişdir.

*s. 455-458*

***

**№ 768**

**Xarici işlər nazirinin müavini Londondakı səfir Benkendorfa**

Teleqram № 2247 15/2 may 1915-ci il

Parisə məlumat verilir.

Sizin 333 №-li teleqram alınmışdır.

Solundakı fransız konsulunun ermənilərin işləri haqqındakı

məlumatları bizim Qafqazdakı hakimiyyətimizdən və İrandakı konsullarımızdan aldığımız informasiyaların həqiqiliyindən fərqlənə bilməz. Sizin Nikolsona cavabınızı tamamilə bəyənirəm. Şübhə yoxdur ki, ermənilərin Vandakı üsyanına səbəb qırğın olmuşdur, əksinə, ona görə yox ki, bizim ordular gələnədək ermənilərin qüvvəcə üstün olan kürdlərə və türklərə qarşı hərəkata başlamalarının mənası yox idi[1].

Portoya birgə bəyanatın eyni vaxtda verilməsini və istəyinizi, hətta əgər ona lazımi təsir etməsə də, akkreditə olunduğunuz hökumətə yenidən göstərməyinizi xahiş edirik. Bu, hər halda ermənilərin ruhunu yüksəldəcəkdir, türklərə qarşı mübarizədə bizə sərfəli olacaqdır.

***Sazonov***

*Qeydlər:*

1. Rusiya Xarici İşlər Nazirliyində oxunmuş 14/1 may tarixli 347 №-lı şifrəli teleqramda Avstriya-Macarıstanının İstanbuldakı səfiri Pallaçivi Buriana məlumat verirdi ki, bir neçə gün əvvəl o, erməni məsələsinə qarışmaqdan imtina etməyi mümkün sayaraq aşağıdakıları göstərmişdir: "Bu məsələnin indi siyasi məna kəsb etdiyini nəzərə alaraq mən ən yaxın imkan olduqda türk dövlət xadimlərinin diqqətinə dostcasına çatdırmaq niyyətindəyəm ki, Ermənistanın xristian əhalisinə qarşı təcavüzkar hərəkətlər düzəldilməz nəticələrə gətirib çıxara bilər". 15/2 may tarixində Pallaviçi Tələt bəylə görüşü haqqında 352 №-li teleqramında bildirirdi: "Mən ona bu işdə ehtiyatlı olmağı məsləhət gördüm. Tələt bəy razılaşdı ki, təkcə bir neçə min kürd deyil, eyni zamanda türklər də qarışıqlıqlarda iştirak edirlər".

***s. 460-461***

***

## № 771
## Tehrandakı müvəqqəti işlər vəkili xarici işlər nazirinə

Teleqram № 222 16/3 may 1915-ci il

Şəxsən Sizin diqqətinizə.

2200 və 2210 №-li teleqramlar alınmışdır.

Müəyyən edilmiş məqsədlər üçün qoşun göndərilməsi çətin ki, məqsədəuyğun və ehtiyatlı olardı. Onların yaxınlaşması haqqında ilk xəbər gələn kimi düşmən dövlətlərin nümayəndələri bu vəziyyətdən hədsiz dərəcədə artıq işğalçılıq planlarımızı göstərərək xalq narazılığını bizə və müttəfiqlərimizə qarşı qaldırmaqda istifadə edəcəklər. İrana təsirli qüvvə göndərmək barədə qərar qəbul edildikdə öncədən Qəzvin dəstəsini Tehrana çağırmaq lazımdır. Oranı indidən tədricən xəlvəti adamlarla və xüsusən artilleriya ilə möhkəmləndirmək məqsədəuyğun olardı. Mənim ingilis və fransız yoldaşlarım yuxarıda göstərilən baxışlarla tamamilə şərikdirlər.

Təkrar etməliyəm ki, nazirlərlə və digər xadimlərlə çoxsaylı görüşlərdən sonra məndə, həm də Marlinqdə indiki kabinetin səmimi niyyətləri haqqında az-az mülahizələr möhkəmlənir. İsfahandan göndərilən 262 №-li teleqram bunu təsdiq edir. Hələlik, hökumətdə maneələr qoyulmaması, əksinə mətbuata, xüsusən Məclis üzvlərinə təsir etməsinə kömək göstərmək mümkündür. Bunun üçün hər ay 500 tümənlik kredit lazımdır, ola bilsin, bu məbləğ bir az artırılsın. Sonuncunun törətdiyi çətinlikləri nəzərə alaraq mən müvafiq tədbirlər görmək niyyətindəyəm.

Nəticədə əlavə edim ki, əlbəttə, hər saat İrana çıxarıla biləcək möhtəşəm qüvvənin Bakıda toplanması haqqında xəbər burada bilinsəydi sözlərin cazibədarlığı və nüfuzu xeyli artardı. Marlinq və hətta təəssüratlı Lekont həmçinin güman edirlər ki,

bizim pul yardımımızla birlikdə Bakıdan müvafiq təhlükə hələ ki, bədxah təbliğatına əks təsir etmək üçün kifayət edərdi və ehtiyatlı olardı.

İranın maliyyə ehtiyacları haqqında qeydlər ehtimal ki, bizə sabah təqdim ediləcəkdir. Bundan sonra ingilis diplomatik nümayəndəsi ilə birlikdə aylıq ehtiyatların qədərini müəyyənləşdirməyə çalışacağam.

*Etter*

***

## № 778
## Xarici işlər naziri Parisdəki səfir İzvolskiyə

Teleqram № 2307 18/5 may 1915-ci il

Sizin 318 №-li teleqram[1] alınmışdır.

Ermənilərlə söhbət, sadəcə, akademik xarakter daşımışdır. Zavriyevə heç bir müəyyən proqram göstərilməmişdir. Ermənilərin Kilikiyanı gələcək erməni vilayətləri hüdudları daxilində görmək istəmələri barədə arzularını nəzərə almaq haqqında onun xahişinə cavab verilmişdir ki, Kilikiyada fransız hökmranlığı olduğu şəraitdə biz belə arzunu müdafiə edə bilmərik.

*Sazonov*

*Qeydlər:*

1. İzvolski 17/4 may tarixli 318 №-li teleqramında Zavriyevin qeydlərinin (bax: № 765) nazirlik tərəfindən nə qədər bəyənildiyini soruşaraq göstərirdi ki, "Kilikiyaya aid maddə mənə xüsusilə incə görünür, çünki Fransa bu vilayətə dair öz baxışlarını bizə bildirmişdir".

*s.471-472.*

***

## № 797
## Xarici işlər naziri Parisdəki səfir İzvolskiyə

Teleqram № 2324 20/7 may 1915-ci il

Sizin 307 №-li teleqramınıza istinad edirəm[1].

Böyük Britaniya səfiri mənə məlumat vermişdir ki, Qrey Türkiyədəki ermənilərin qırılmasına dair Xarici İşlər Nazirliyində hazırlanmış Portoya olan müraciəti bəyənir və fransız hökuməti öz razılığını bildirən kimi onu Londonda bəyan etməyə hazırdır. Belə razılığın alınmasını sürətləndirməyinizi xahiş edirəm.

***Sazonov***

*Qeydlər:*

1. İzvolski 11 may / 8 aprel tarixli 307 №-li teleqramında məlumat verirdi ki, Delkasse Sazonovun hazırladığı bəyannamənin mətni ilə (bax: № 724) razıdır və bununla bağlı olaraq ingilis hökuməti ilə əlaqələrə girmişdir.

***s.488-489***

***

## № 799
## Londondakı səfir xarici işlər nazirinə

Teleqram № 352 20/7 may 1915-ci il

Sizin 2247 №-li teleqramınızı aldım.

Mənim 333 №-li teleqramımda deyildiyi kimi Qreylə söhbəti davam etdirdim. Mən ona dedim ki, Vanda üsyan deyilən faktı təsəvvür kimi qəbul edilə bilməz. Belə ki, o, şübhəsiz, qırğınlarla müşahidə olunmuşdur. Qrey buna heç bir etiraz etmədi. Lakin o, dərcetmənin praktiki məqsədəuyğunluğunun şübhəli

olması haqqında danışmağa başladı. Belə ki, bu, Türkiyəyə az təsir edə bilər. Mən bu baxışı müdafiə edərək Qreyə dedim ki, başqası vardır. Mən onun diqqətini buna cəlb etdim. Məhz bizim xüsusi və hətta hərbi maraqlarımız üçün çox mühümdür. Bütün ermənilərə əhval-ruhiyyədə köməyimiz nəzərdə tutulan çıxışlar, ümumiyyətlə, onlara şəksiz təsir edəcəkdir və bu təəssürat sınaqlara məruz qalan erməni əhalisi arasında sürətlə yayılacaqdır. Mən bu dəlillər üzərində israr etdim və onlara ciddi diqqət yetirməyi xahiş etdim. Qrey məndən soruşdu ki, biz ayrılıqda çıxış etsək kifayət etməzmi? Mən ona cavab verdim ki, bu nəticə bizim üçün həmişə açıq qalacaqdır. Lakin bizim indiyədək üçlükdə çıxış etməyimiz olmamaşdır. Mənim fikrimcə mühümdür ki, bu qayda gələcəkdə də tətbiq edilsin. Bununla yanaşı olaraq, üç dövlətin açıq şəkildə türklərin hərəkətlərini pisləməsi tamamilə əhəmiyyətsiz deyildir. Buna bizim bilavasitə maraqlarımız kimi baxıla bilməz. Fikrimcə, mən Qreydə təəssürat yaratdım. O, mənə dedi ki, dediklərimi nəzərə alaraq bütün bu məsələlərin müzakirəsinə qayıdacaqdır.

***Benkendorf***

***s.490-491***

***

**№ 811**
**Xarici işlər naziri Tehrandakı müvəqqəti işlər vəkili Etterə**

Teleqram № 2390 — 22/9 may 1915-ci il

243 №-li teleqram alınmışdır.

Böyük Britaniya hökuməti İsfahan qətli ilə əlaqədar olaraq Qəzvinə 60 min nəfərlik dəstə göndərməyi bu gün təkidlə xahış edir. Qərargahla və canişinlə əlaqə saxlayarıq. Lakin hansısa bir imkan olmasına şübhə edirik. Ümid edirik ki, artıq Bakıdan yo-

la salınmış dəstələr Bakıda gələcək dayaqlar hazırlanması barədə xəbərlərlə məlum təəssüratı yaradacaqdır[1].

*Sazonov*

*Qeydlər:*

1. Etter 21/8 may tarixli 244 №-li teleqramı ilə Sazonova xəbər verirdi: "Gələn dörd yüz nəfəri İsfahan cinayəti ilə əlaqələndirməyi mən təklif edirəm. Nazirlərə göstərmək lazımdır ki, həyəcanlı xəbərlər alınan kimi imperator hökuməti hansı tələskənliklə guya Bakı yaxınlığında yerləşən orduların tərkibindən hər ehtimala qarşı kiçik dəstə ayırmağı vacib hesab etmişdir. Bu, uydurmaçıların bədxah cəhdlərinin qarşısına hədd qoya bilər".

*s.503*

Qaynaq: *Dokumentı o russkoy politike v Zakavkazye. Vıpusk pervıy. İzdanie osoboy Komissii pri Ministerstve İnostrannıx Del Azerbaydjanskoy Respubliki. Baku, Pravitelstvennaya tipoqrafiya, qazeta "Azerbaydjan", 1920.-342 str.*

## Türkiyənin Rusiyaya qarşı müharibə elan etməsi ilə əlaqədar olaraq tədbirlərin həyata keçirilməsi haqqında

Əlahəzrət İmperatorun
Qafqaz canişinliyinin dəftərxanası
Xüsusi şöbə
4 noyabr 1914-cü il
№ 2149
Tiflis şəhəri — Tam məxfi

Əldə olunmuş məlumatlara görə hələ Türkiyənin Rusiyaya qarşı açıq düşmən münasibətinə qədər türk panislamçıları tərəfindən müsəlman əhalisi olan bütün ölkələrdə yaymaq üçün xarici dillərə tərcimə edilmiş "Dünya müsəlmanlarına müraciətnamə" tərtib olunmuşdur.

"Müqəddəs müharibə zəruridir" başlığı altında qeyd olunan müraciətnamə Qafqaz da daxil olmaqla müsəlman ərazilərinin ədalətsiz xristian zülmündən azad edilməsi uğrunda müqəddəs müharibəyə qəti çağırışı özündə əks etdirir.

Müsəlmanlar üçün müqəddəs olan "Quran"a istinad edən, milli fərqləri və təbəələri nəzərə almadan müsəlmanların qardaş olmasını xatırladan və xristian dövlətlərində İslam dininə

ibadət edənlərin guya zülm və təqiblərə məruz qalmalarını göstərən müraciət şübhəsiz, təsirli ola bilər və müsəlmanlar arasında arzuolunmaz həyəcanların baş verməsinə təkan ola bilər.

Dəftərxana canişinin tapşırığı ilə məlumatları çatdıraraq Əlahəzrətdən qeyd olunan müraciətnamənin yayılmasına sərt nəzarətin qoyulmasını və belə bir məsələnin ortaya çıxdığı halda onun dərhal müsadirə olunması barədə göstəriş verməsini xahiş edir.

Müdir (imza)

Xüsusi şöbənin katibi (imza)

*s.92-93*

***

DİN
Bakı qubernatorluğu
11 noyabr 1914-cü il
№ 1789
Bakı şəhəri

Əlahəzrət imperatorun Qafqaz canişinliyinin dəftərxana rəisinə

Mən müqəddəs müharibəyə çağırışın yayılmasına nəzarət etməyi qəza rəislərinə tapşıraraq bütün bunlarla yanaşı Transqafqaz Müftisi və Şeyxülislamın onların hökumətlərinə müqəddəs müharibə haqqında fitvaların ləğv edilməsi barədə müraciətlərinin və yerli mollalara ünvanlanmış çap olunmuş açıqlamaların göndərilməsinin də əhəmiyyətli olduğunu hesab edirəm.

İmza: Qubernator, Kamerger ***Alışevski***
Təsdiq etdi: Dəftərxana rəisi ***Petrov***
*s.93*

***

Qafqaz ordusunun hərbi qərargahı
General-kvaritrmeyster
idarəsi
Kəşfiyyat şöbəsi
31 oktyabr 1914-cü il
№ 2977

Təcili məxfi

Bakı qubernatoruna

Düşmənimiz tərəfindən doğru olmayan və yaxud müharibə səhnəsindən tam yalan məlumatların gizli şəkildə yayıldığını nəzərə alaraq əhaliyə, xüsusi ilə müsəlmanlara yönəlik məlumatların verilməsini və hadisələrin gedişinin düzgün işıqlandırılmasını təmin etmək lazımdır. Qafqaz ordusunun qərargahı Bakıda Azərbaycan dilində çıxan "Sədai-Həqq" adlı qəzetə 200 nüsxə abunə olmuşdur, onların müəyyən hissəsinin quberniyada və müsəlman əhalisi olan ərazilərdə yayılması nəzərdə tutulmuşdur.

Məlumatları nəzərə alaraq, adı çəkilən qəzetin Sizə həvalə edilmiş quberniyada neçə nüsxədə yayılmasını və ya "Sədai-Həqq" qəzetinin paylanacağı şəxslərin dəqiq ünvanlarını bizə bildirməkdən imtina etməyin.

Adı çəkilən qəzetin göndərilməsi nəzərdə tutulan şəxslərin kənd mollalarından, başçılarından və əhali arasında nüfuzu olan şəxslərdən seçilməsi daha məqsədəuyğundur. "Sədai-Həqq" qəzetinin nömrələrinin 25 nüsxəsi ünvanlara redaksiyadan göndəriləcəkdir ki, bunun hökumət uydurması olduğu fikri yaranmasın.

General-mayor ***Bolxovitinov***
Baş qərargahın şöbə müdiri kapitan ***Koçerşevski***

***s.93-94***

***

**Türk emissarlarına qarşı mübarizənin təşkil edilməsi barədə Bakı qubernatoru dəftərxanasının sənədləri**

№ 34, 1914-cü il

Surət
Məxfi təlimat

Əlahəzrət İmperatorun Qafqaz
canişininin köməkçisi
Xüsusi şöbə
9 oktyabr 1914-cü il, № 1920
Tiflis şəhəri

General-qubernatorlara, qubernatorlara, Qafqaz diyarının ayrı-ayrı dairələrinin və əyalətlərinin rəislərinə, Bakı şəhər rəisinə.

Əlahəzrət İmperatorun Qafqaz canişinliyi idarəsində əldə olunan məlumatlara görə bizim hüdudlarımıza emissarlar gəlir. Onların əsas məqsədi baş verə biləcək hərbi mürəkkəbliklər, son hadisələrlə bağlı bizim tərəfimizdən tətbiq edilən hərbi tədbirlər haqqında türk hökumətinə vaxtında xəbər vermək, Qafqaz müsəlmanları arasında təbliğat aparmaq yolu ilə çıxışlar qaldırmaqdır.

Bizim hüdudlara gələ biləcək türk emissarlarının zərərli fəaliyyətinin qarşısını almağın təxirəsalınmazlığını etiraf edərək, mən Qafqaz ordusunun Baş komandanının əmri ilə Sizdən xahiş edirəm ki, Türkiyədən gələn emissarları müşahidə etmək üçün nəzarət mərkəzləri yaradılsın. Nəzarət şəhər məntəqələrində, iri ticarət-sənaye mərkəzlərində, mehmanxanalarda, ucuz mehmanxanalarda, karvansaraylarda və s. yaşayış yerlərində, kənd yerlərində isə karvansaraylara gələnlərin mollalara, qazılara və

dini vəzifəli olan bütün şəxslərə həvalə edilməsini təşkil edəsiniz.

Bununla yanaşı, Sizdən bizim Türkiyədəki konsul müəssisələrimizin icazəsinə baxmayaraq, milliyyətindən asılı olmayaraq, yaşamaq məqsədi ilə indiyə qədər və hazırda Sizə həvalə olunmuş ərazilərə gələn Türkiyə təbəələrinə gizli nəzarət etməyi xahiş edirəm.

Qeyd olunmuş məqsədlərin həyata keçirilməsi üçün Qafqaz ordusunun Hərbı qərargahı tərəfindən Sizin ixtiyarınıza ilkin mərhələdə min rubl keçirilir, adı çəkilən qərargaha haqq-hesabın təqdim edilməsi və məsrəflərlə əlaqədar olaraq ixtiyarınıza müvafiq məbləğdə yeni kredit açılacaqdır.

Qeyd olunanlara onu da əlavə etmək istərdim ki, agenturanın təşkilinə ayrılan kreditdən asılı olmayaraq, aşkar olunmuş hər bir silahlı türk emissarlarına görə Sizin sərəncamınıza ordunun Hərbi qərargahına 200 rubl məbləğində mükafat bu işdə fərqlənən vəzifəli şəxslərə verilmək üçün ayrılmışdır. Həm də bu mükafatın həcmini Dairə qərargahı o halda artıracaqdır ki, inzibati idarənin gücü ilə nəinki emissarı aşkarlamaq mümkün olsun, həm də emissarı hərbi səhra məhkəməsinə verməyə kifayət qədər əsas verən onun casusluq fəaliyyəti haqqında müəyyən faktlar müəyyənləşdirilsin.

İmza: Əlahəzrət sarayının qofmeysteri ***N.Peterson***

Təsdiq etdi: Xüsusi şöbənin müdiri ***Pisarski***

Doğrudur: Kargüzar ***Verbitski***

*s. 94-95*

***

Bakı quberniya jandarma idarəsinin axtarış üzrə rəisi
4 sentyabr 1915-ci il
№ 4994
Bakı şəhəri Tam məxfi

Bakı qubernatoruna

Mənə həvalə olunmuş agentura idarəsindən çatdırılmış, lakin yoxlanılmamış məlumata əsasən, Bakı şəhərində müsəlmanlar arasında yüksək əhval-ruhiyyə vardır: Əfqanıstan, İran və ümumiyyətlə, Qafqaz müsməlmanlarının üsyan və çıxışlarının baş verəcəyi barədə söz-söhbətlər gəzir. Həmçinin İranda qarışıqlığın qarşısı alınmazsa, Bakı şəhərində də üsyanın baş verməsi ehtimalı qeyd edilir.

Lənkəran qəzası başdan-başa silahlanmış, Şamaxı qəzası tamamilə silahlanmasa da, müəyyən mənada güclüdür. Burada "qonaq" adlandırılan ləzgilərin axını gözlənilir.

Şayiələr gəzir ki, İranda artıq ingilislər döyülür, ruslar sıxışdırılır və tezliklə rusların da döyüləcəyi ehtimal olunur. Əgər İranda hadisələr belə cərəyan edərsə, iki ay keçər-keçməz burada da üsyanın baş verəcəyi gözlənilir.

Üsyan baş verən zaman ilk növbədə Biləcəri-Petrovsk istiqamətində dəmiryolunun 2-3 stansiyası sıradan çıxarılacaqdır.

Həmin mənbədən verilən məlumata əsasən, burada və Qafqazın başqa yerlərində olan müsəlman panislamçı təşkilatçılarının tərkibinə şəxsiyyəti hələ müəyyən edilməyən gürcülər'də daxil olmuşdur.

Bununla bağlı müəyyən məlumatlar da vardır ki, yaxın günlərdə Qafqazın bəzi yerlərində ermənilər və gürcülər arasında toqquşma olacaqdır. Müsəlmanlar tərəfindən dəstəklənən bu toqquşma geniş vüsət ala bilər və Qafqazda gürcülər, müsəlmanlar və ermənilər arasında ümumi toqquşmaya gətirib çıxara bilər.

Nəzərdə tutulan toqquşmalar bəzi yerlərdə yaxın günlərədək gözlənilir. Bu barədə məlumat o qədər dəqiq, toqquşma isə o qədər təxirəsalınmaz olar ki, onun gecikməsi belə təəccüb doğurur.

Verilmiş məlumatların yoxlanılması və dəqiqləşdirilməsi üçün məndən asılı olan tədbirləri həyata keçirmişəm və Əlahəzrətə sərəncam üçün məlumat verirəm.

Əlahəzrət imperatorun Qafqazdakı (xüsusi şöbənin) canişininin mülki-məsələlər üzrə köməkçisinə eyni tarixlə 4954 №-li məlumat verilmişdir.

Polkovnik ***Leontyev***

*s. 95-96*

***

Bakı şəhər rəisi — Məxfi
4 may 1916-cı il, № 2434 — Təcili

Əlahəzrət İmperatorun Qafqaz canişinliyi dəftərxanasının xüsusi şöbəsinə

4 fevral tarixli 694 №-li sərəncama əsasən xüsusi şöbəyə məlumat verirəm ki, məndə olan məlumatlara görə mənə rəisliyi həvalə edilmiş nisbətən ağıllı müsəlmanlar əvvəllər olduğu kimi indi də Dövlət Dumasının müsəlman fraksiyasından narazılıqlarını bildirirlər. Buna səbəb ilk növbədə Rusiya təbəəliyində olan müsəlmanların fraksiyası tərəfindən irəli sürülən ən mühüm problemlərin bu günə qədər Duma çoxluğu tərəfindən dəstəklənməməsidir.

Deputatlar və onların seçiciləri arasında münasibətlər tədricən pisləşir və nəticədə nəinki müsəlman deputatlar, həmçinin, Dövlət Duması da kütlə qarşısında nüfuzdan düşür.

Müsəlman deputatların nadir çıxışları izsiz-soraqsız qalırdı və savadlı müsəlmanlar Dövlət Dumasının iclasları barədə stenoqrafik hesabatlarda öz deputatlarının çıxışını görmədikdə qəzəblənirdi. Nəticədə müxtəlif dedi-qodu, qarşılıqlı ittiham və

bəzən də deputatların milli məsələyə xəyanətdə ittiham olunmalarına gətirib çıxaran ittihamlar üçün geniş imkanlar açılırdı. Seçicilər və deputatlar arasında bu arzuolunmaz əngəli aradan qaldırmaq üçün bəzi müsəlman ictimai xadimləri fraksiyaya yardım məqsədi ilə öz aralarından məsləhətçi, məlumatçı və bilavasitə müsəlmanların ehtiyacları ilə tanış olan şəxslər seçməlidir. Onların üzərinə həmçinin, sosial-iqtisadi, dini-mənəvi, elmi-tərbiyəvi ehtiyaclara toxunan məsələlərin aydınlaşdırılması da düşür.

Məsləhətçilər, daha doğrusu, vəkil Ə.Topçubaşov və Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov da nəzərdə tutulmuşdu. Onların müvəqqəti olaraq təyin edilməsi məsələsi açıq qalır.

Dövlət Dumasının müsəlman fraksiyasına müsəlmanların ehtiyacları barədə məlumat göndərmək üçün "Açıq-söz" qəzeti redaksiyasının tərkibində "Məlumat bürosu" yaratmaq nəzərdə tutulmuşdur.

Bakı quberniyası Jandarma idarəsinin sənədlərində yuxarıda adı çəkilmiş Vəzirov haqqında siyasi nöqteyi-nəzərdən əlverişsiz məlumatlar yoxdur.

Vəkil Topçubaşova gəldikdə isə, jandarma idarəsinin 1911-ci ilə aid agentura məlumata görə Kazan şəhərində türk donanması üçün müsəlman əhalidən yığılan pulların Bakıya Topçubaşova göndərildiyi qeyd olunur.

Ümumiyyətlə, agentura 1911-ci ildə Topçubaşovun ən görkəmli panıslamistlərindən birı olduğunu qeyd edir.

1915-ci ildə Topçubaşov tanınmış Bakı taciri Quliyevlə birgə Kars vilayətində müsəlmanlar və ermənilər arasında münaqişənin səbəblərini həll etmək məqsədi ilə Kars əyalətinə və Tiflisə Əlahəzrət ımperatorun Qafqaz canişininin yanına gəlmişdir.

Mixaylovski, Şəhər rəisinin müavini ***Davıdov***
Dəftərxana rəhbərliyinin vəzifələrini icra edən
*s. 97-98*

***

№ 2185 Tam məxfi

19 aprel 1916-cı il Zəruri

Bakı quberniya jandarma idarəsinin rəisinə

Əlahəzrət İmperatorun Qafqaz canişininin dəftərxanasının xüsusi şöbəsinin həmin ilin 4 fevral tarixli 694 №-li əmrinə əsasən Dövlət Dumasının müsəlman fraksiyasına kömək etmək üçün Bakıdan Petroqrada ya vəkil Əlimərdan bəy Topçubaşovun, ya onun köməkçisi Qasım Qasımovun və yaxud da ki, şəhər dumasının üzvü olan Heydərovun göndərilməsinin nəzərdə tutulması barədə məndə məlumat vardır.

Bununla bağlı olaraq, Əlahəzrət, Sizdən xahiş edirəm ki, bizə yuxarıda adı qeyd edilmiş vəkıllərin Bakı şəhərinin müsəlman əhalisi tərəfindən Petroqrada göndərilməsi, imkan daxilində onların siyasi istiqaməti, müsəlmanlar tərəfindən alacaqları tapşırıqları, təlimatları və həmçinin, onların müsəlmanların daha hansı kələklərini müdafiə etmək düşüncələri barədə ətraflı məlumat verəsiniz.

ARAYIŞ: 694 №-li sərəncam Sizə həvalə olunmuş idarədədir.

İ.m. Şəhər rəisi ***Kovalyov***

Dəftərxana rəisinin səlahiyyətlərini müvəqqəti icra

edən podpolkovnik ***Davıdov***

Kargüzar ***N.Paşkov***

***s.98-99***

***

Bakı şəhər polis idarəsinin axtarış üzrə rəisi
27 fevral 1916-cı il
№ 28
Bakı şəhəri
№ 928

Zəruri
Məxfi

Məndə olan məxfi məlumatlara görə müsəlman əhali Dövlət Dumasındakı fraksiyasından həqiqətən narazıdır. Redaktoru Rəsulzadə adlı birisinin olduğu "Açıq söz" adlı yerli azərbaycanlı qəzetində belə qalmaqallarla yanaşı Dövlət Dumasının üzvü olan Tevikilovun məqaləsi ilə bağlı Kazan tatarları ilə mübahisələr də çap olunmuşdur.

Elə həmin məlumatlara əsasən də müsəlman fraksiyasına kömək məqsədi ilə kiminsə Petroqrada göndərilməsi məsələsi hələ müzakirə olunmamışdır.

Çox güman ki, buradan göndərilənlər ya vəkil Əlimərdan bəy Topçubaşov, ya onun köməkçisi Qasım Qasımov, ya da ki, Şəhər dumasının üzvü Heydərov ola bilər. Bu barədə məlumat verirəm.

Axtarış polisinin rəisi ***Rukin***

***s.99***

***

Əlahəzrət İmperatorun Qafqaz canişinliyinin dəftərxansı
Xüsusi şöbə
4 fevral 1916-cı il
№ 694
Tiflis şəhəri

Zəruri
Məxfi
Sərəncam

Müvəqqəti general-qubernatorlara, qubernatorlara, Qafqaz

diyarının ayrı-ayrı dairə rəislərinə, Bakı şəhər rəisinə və vilayət jandarma idarələrinin rəhbərlərinə

Daxili İşlər Nazirliyində olan məlumatlara əsasən Kazan quberniyasının müsəlman əhalisinin mütərəqqi qüvvələri Dövlət Dumasındakı müsəlman fraksiyasının fəaliyyətindən narazı olduqlarını bildirir və qeyd edirlər ki, fraksiya imperiyanın çoxmilyonlu müsəlman əhalisinin maraqlarını müdafiə etməyə nə səy göstərir, nə də bu məsələləri kənara qoyur. Onlar belə güman edirlər ki, Dövlət Dumasının yaxın günlərdə keçiriləcək sessiyasında başqa xalqlara və o cümlədən müsəlmanlar üçün vacib olan məsələlərə toxunulacaqdır. Kazan müsəlmanları fraksiyaya kömək zəruriyyəti yaranarkən müsəlman əhalisi olan ayrı-ayrı yerlərdən təcrübəli ictimai xadimlərin müvəqqəti göndərilməsi üçün təbliğat aparırdılar.

Dövlət Dumasının müsəlman fraksiyasından narazılıq haqqında Qafqazdan da bəzi xəbərlər vardır. Bununla bağlı (xüsusi şöbə üzrə) Dəftərxana Sizə həvalə olunmuş rayonun müsəlman əhalisi arasında kimlərin Petroqrada göndərilməsi, imkan daxilində göndərilən şəxslər haqqında ətraflı məlumat verməyinizi və onların siyasi fəaliyyəti, yerli müsəlmanlar tərəfindən alacaqları tapşırıq və direktivləri haqqında, həmçinin, onların müsəlmanların daha hansı kələklərini müdafiə etmək düşüncələri ilə bizi məlumatlandırmağınızı xahiş edir.

İmza: Əlahəzrət sarayının kamer-yunkeri ***İstomin***

Təsdiq etdi: Kargüzar ***Trutkov***

Doğrudur: Kargüzar əvəzi ***Severinov***

*s. 100*

***

Əlahəzrət imperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisi
2 aprel 1916-cı il
№ 1713
Tiflis şəhəri

Məxfi

Əlahəzrət G.S.Kovalyov cənablarına

Hörmətli cənab Georgi Samoyloviç!

Arayışı təqdim edərək Əlahəzrətdən Bakı şəhərində tatar (Azərbaycan) dilində çıxan "Babai-Əmir" yumoristik jurnalının redaktorunu hüzurunuza çağırmağınızı, onun bahalığın hökm sürdüyü, əhalinin kasıb təbəqəsinin maddi təminatında çatışmazlıqların açıq-aşkar şəkildə hiss olunduğu bir vaxtda, əhalinin bir hissəsini digər hissəsinə qarşı qoyaraq jurnalın səhifələrində araqızışdırıcı məqalələr yerləşdirməsinə yol verməməyinizi xahiş edirik.

Böyük ehtiram və sədaqətlə

***Kn.V.Orlov***

***s.101***

***

Əlahəzrət imperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisi
5 iyul 1916-cı il
№ 3362
Tiflis şəhəri

Tam məxfi

Müvəqqəti general-qubernatorlara, qubernatorlara, ayrı-ayrı vilayət rəislərinə, Bakı şəhər rəisinə və Stavropol qubernatoruna

Rusiya müsəlmanları arasında hərəkat keçən yüzilliyin sonunda əhalinin bütün təbəqələrində hökumət rejimindən narazılıqların yaranması ilə başlamış və 1904-cü ildə rus-yapon müharibəsi zamanı isə xüsusi ilə güclənmişdi. Azadlıq hərəkatı dalğası bütün müsəlmanları bürüdü, ölkənin köklü rus əhalisi isə dini, siyasi və əmlak bərabərliyi məqsədlərinə nail olmaq üçün artıq o vaxta qədər kifayət qədər hazır idi. Öndə gedənlərlə həmrəy olaraq onlar belə bir rejim qurmaq istəyirdilər ki, burada qanunlar hər bir xalqı təmsil edən nümayəndələr tərəfindən qəbul edilsin. 1904-cü ilin sonu - 1905-ci illərdə keçirilmiş müşavirələrlə yanaşı, imperiyanın müsəlman əhalisi olan ayrı-ayrı şəhərlərində müsəlmanların həmrəy çıxışı üçün zərurət meydana gəldi. Onlar Krım və Qafqazı da bu hərəkatda iştirak etməyə çağırdılar. 1905-ci ilin fevralında müsəlmanların Petroqradda keçirilmiş məşvərət iclasında isə onların ümumxalq qurultayının çağırılması nəzərdə tutulmuşdu. Sonuncusu 1905-ci il avqustun 15-də Nijni-Novqorod şəhərində keçirildi. Bu qurultay Ümumrusiya Müsəlmanları İttifaqının ("İttifaq-əl-Müslimi") nizamnaməsinin qəbuluna istinad edən müsəlmanların birliyinin başlanğıcına səbəb oldu. 1906-cı il yanvarın 13-23-də müsəlmanların Petroqradda keçirilən II qurultayında nizamnamədə dəyişikliklər edildi. Bu iclasda artıq ittifaqa siyasi təşkilatın forması təqdim olundu. Elə burada da Dövlət Dumasına seçkilərin yaxınlaşması ilə əlaqədar olaraq Konstitusiyalı Demokratik Partiyaya birləşmək məsələsini həll etmək də qərara alındı. Müsəlmanlar arasında Konstitusiyalı Demokratik Partiyaya birləşmək meylini doğuran əsas səbəblərdən biri adı çəkilən partiyanın proqramında Rusiya təbəəliyində olan xalqların bərabərhüquqluluğunu tələb edən maddənin mövcudluğu oldu. Rusiya müsəlmanları I və II Dövlət Dumasına seçkilər zamanı Dumaya "kadetlərin" gətirilməsinə imkan daxilində səy göstərdilər. Kadetlərin başqa millətlərdən daha çox yəhudilərə meyl göstərməsi və müsəlmanların maraqlarını müdafiə etməməsi

nəticəsində müsəlmanların Konstitusiyalı Demokrat Partiyasına münasibəti soyudu.

1907-ci il 3 iyun seçkiləri haqqında qanun müsəlman deputatların sayının 40-dan 6-ya endırilməsi ilə müsəlmanlara zərbə vurdu; bu vəziyyət müsəlman əhalisinin mütərəqqi hissəsində Dövlət Dumasındakı nümayəndələrinin fəaliyyətindən narazılığa gətirib çıxardı. Çünki onlar bu qanunun həyata keçirilməsinə qarşı çıxmaq üçün heç bir fəaliyyət göstərmədilər və lazımi güc sərf etmədilər.

1914-cü ildə Almaniya və Avstriya tərəfindən müharibənin elan edilməsi ilə ictimai formada hökumətə kömək etmək həvəsindən çox siyasi və ictimai rolu əldə etmək məqsədi ilə müsəlmanlar Petroqradda qurultay çağırdılar. Hərbçilərlə və onların ailələrinə kömək etmək və sanitar dəstələrini yaratmaq məqsədi ilə "Müvəqqəti Müsəlman Komitəsi" təsis edildi. Lakin komitə qurultayın istək və arzularının həyata keçirilməsində öz fəaliyyətlərini çox da davam etdirə bilmədi. Buna görə də xalq arasında münasib nüfuz qazana bilmədi. Çox güman ki, komitəyə qarşı soyuq münasibətin yaranmasına səbəb nizamnamənin müsəlmanlar üçün arzuolunmayan formada mühüm dəyişikliklərlə təsdiqi olmuşdu. 1914-cü ildə mütərəqqi müsəlman mətbuatında Ümumrusiya Müsəlmanlarının Xalq İttifaqı "Sıratul-Mustakim"in ("sağ", daha doğrusu, "Düzgün yol") təsis olunması sayəsi böyük həyəcana sahib oldu. Təsisçiləri Məhəmmədsəfa Bəyazitov, Bayraşev və b. əsas məqsədi müsəlmançılığı keçmişdə və hazırda öyrənmək, Rusiyanın bütövlüyü və vahidliyi uğrunda, monarxiyaya sədaqətdə ciddi qanunvericilik əsasında Rusiya müsəlmanlarının vəziyyətini hərtərfli yaxşılaşdırmaq və maarifini tədqiq etmək, həmçinin onların sırasında sol cərəyanda müşahidə olunan qarşıdurma məqsədi ilə Rusiya müsəlmanlarının loyal hissələrini birləşdirmək idi.

Onun nizamnaməsi amansız tənqid atəşinə məruz qaldı. Ufada nəşr edilən "Tormış" qəzetinin nömrələrinin birində

Dövlət Duması üzvləri Tevkelev, Axtyamov və b. tərəfindən imzalanmış məktub dərc edildi. Bu məktubda onlar müsəlmanları yaranmaqda olan partiyanın onlar üçün təhlükəli olacağını xəbər verir, bu partiyanın eyni ilə rus qaragüruhçu partiyasnı xatırlatdığını qeyd edir və müsəlmanların mədəni inkişafını ləngidəcəyini göstərirdilər. 1905-ci ilin iyununda Mərkəzi Rusiya müsəlmanlarının dini məclisinin müftisi Məhəmmədyar Sultanovun ölümündən sonra mütərəqqi müsəlmanların əsas məqsədi bu vəzifəyə öz həmfikirlərindən birinin, yaxud, onların maraqlarını müdafiə edə biləcək kimsənin qoyulması məsələsi idi. Bu istiqamətdə təbliğat geniş xarakter alsa da, heç bir müsbət nəticə əldə olunmadı. Bu vəzifəyə Məhəmmədsəfa Bəyazitovun təyin olunması sarsıdıcı xəbər oldu.

Müsəlmanların mütərəqqi dairələri tamamilə sarsıldı. Belə ki, onlar müftinin təyin olunması məsələsinə sınaq kimi baxırdılar. Bütün müsəlman qəzetləri, “Sıratul-Mustakim” Müsəlman Cəmiyyətinin yaradılmasında Bəyazitovu günahlandıraraq ona qarşı güclü təbliğata başladı. Mütərəqqi qüvvələr isə Dövlət Dumasının müsəlman fraksiyasına və Dumanın bəzi üzvlərinə (o cümlədən Kerenskiyə) Bəyazitovun təyin olunması ilə bağlı kədər hissi bildirilən teleqramların göndərilməsi istisna olmaqla Bəyazitovun təyin edilməsi məsələsinin təxirə salınmasına çalışırlar. “Bütün Rusiyanın müsəlman əhalisi isə şəxsi və milli işləri kənara qoyub ruslarla əl-ələ verərək düşməni uzaqlaşdırmaq yönündə fəaliyyətə başladılar. Bundan başqa müsəlmanlar belə ümid edirlər ki, müftinin təyin olunması ilə hökumət müsəlman səs çoxluğu ilə hesablaşacaqdır.

Bundan əlavə, mütərəqqi qüvvələr öz ehtiyaclarını müəyyənləşdirmək, proqramlarını tərtib etmək, Bəyazitovun müfti təyin olunmasına qarşı etiraz səsini bildirmək məqsədi ilə Ümumxalq müsəlman qurultayının çağırılmasının zəruriliyi məsələsini ortaya atdılar.

Mütərəqqi müsəlmanların ən vacib milli istəkləri bunlardır:

1) Müsəlmanlara aid olmayan dini bayramlarda öz işlərini dayandırmağa məcbur edilməmələri üçün istirahət günlərinin təyin olunması məsələsinin həlli; 2) Müsəlman qurultayları tərəfindən qəbul olunan prinsiplərə əsasən dini islahatlar; 3) Müsəlmanlara qarşı qanunlarda mövcud olan bütün məhdudiyyətlərin aradan qaldırılması; 4) Müsəlman qırğızların torpağa təhkim edilməsi və onların torpaqla təmin edilməsi; 5) Türküstan diyarında vilayətlərin idarə olunması haqqında qanunun yenidən nəzərdən keçirilməsi və dəyişdirilməsi, orada yaşayan müsəlmanların hüquqlarının genişləndirilməsi.

Dövlət Dumasında yaranmaqda olan "Mütərəqqi blok"a müsəlman fraksiyası laqeyd yanaşdı və bu vəziyyət mütərəqqi müsəlmanlar tərəfindən məzəmmətlə qarşılandı, onları siyasi səhvlərdə və milli maraqları müdafiə etməməkdə təqsirləndirdilər. Bununla yanaşı, fraksiya ilə əməkdaşlıq etmək, onunla sıx əlaqə yaratmaq və xalqla birgə fəaliyyət aparmaq üçün bütün müsəlman mərkəzlərinin ictimai xadimlərindən ibarət xüsusi "büro"nun yaradılması haqqında məsələ qaldırdılar.

1915-ci il sentyabrın 3-də Dövlət Dumasının buraxılmasından sonra mütərəqqi müsəlmanların əhval-ruhiyyəsi bir qədər yüksəldi. Hətta müsəlmançılığın sosializmə münasibəti və Rusiyada inqilabi hərəkatın yaradılması təqdirində hamı üçün vahid fəaliyyət proqramının işlənib hazırlanması haqqında məsələlərin aydınlaşdırılması məqsədi ilə müsəlmanların gizli şəkildə qurultayının təşkil edilməsi barədə fərziyyə də meydana gəldi.

1916-cı ilin martında Dövlət Dumasının müsəlman fraksiyası tərkibində xüsusi məşvərət bürosunun təsis edilməsi barədə layihə təsdiq edildi və sonuncusu Kazan, Ufa, Orenburq və Troitsk şəhərlərinin dörd nümayəndəsindən ibarət təşkil olundu. Müsəlmanların keçirilən müşavirələrində Müsəlman İttifaqının proqramı təsdiqləndi; müsəlman fraksiyasının yeri müxalifətdə müəyyənləşdirildi.

İstər fraksiya bürosunun təşkili və saxlanılması, istərsə də rus müsəlmanlarına aid müxtəlif məsələlərin işlənilməsi, yerlərdən əməkdaşların cəlb olunması üçün Dövlət Dumasının müsəlman fraksiyasına maddi kömək göstərmək məqsədi ilə bir neçə ərazidə müsəlman əhalisi arasında pul toplanılır. Həm də mütərəqqi yönümlü mollalar bu halda ianə verən ayrı-ayrı müraciət etməklə kifayətlənməyərək yuxarıda qeyd olunan ehtiyac üçün ibadət niyyəti ilə məscidlərə gələnlərə müsəlmanların inkişafı baxımından müsəlman fraksiyasının əhəmiyyətini izah etməklə vəsait toplamağa nail olmaq istəyirlər.

Məlumat verərək Sizdən xahiş edirik ki, yerli müsəlman əhalisindən qeyri-qanuni vergilərin yığılmasına yol verməmək üçün tədbirlər görəsiniz.

Yerli jandarma idarəsinin rəisinə yuxarıda qeyd olunmuş məlumatlar artıq təqdim edilmişdir və münasib vaxtda o, təqdim olunmuş məlumatlar əsasında Sizə hesabat verəcəkdir.

İmza: General-leytenant ***Kn.Orlov***
Təsdiq etdi: Xüsusi şöbənin müdiri ***Pisarski***
***s. 101-106***

***

Əlahəzrət imperatorun
Qafqaz canişininin dəftərxanası

Tam məxfi
Şəxsən
Sərəncam

Xüsusi şöbə
24 dekabr 1914-cü il
№ 2682
Tiflis şəhəri

Müvəqqəti general-qubernatorlara, qubernatorlara, Qafqaz

diyarının ayrı-ayrı dairə rəislərinə, Bakı şəhər rəisinə və Stavropol qubernatoruna

Canişınliyin dəftərxanasına daxil olan məlumatlara görə Qafqaz müsəlmanlarının bütünlüklə loyal görünmələrinə baxmayaraq, Türkiyə bizim müsəlmanlardan öz məqsədləri üçün istifadə etməyə çalışır. Qafqaz bölgəsinin bəzi yerlərində, xüsusilə sərhəd boyunda təblığat yolu ilə müsəlman əhalisini Türkiyənin xeyrinə çıxışlar etmək üçün yoldan çıxaran türk emissarlarının və müsəlmanlar arasında Türkiyə tərəfdarlarının olması barədə göstəriş də vardır.

Bundan əlavə, müsəlmanlara qarşı özlərini həddən ziyadə ədəbsiz aparan erməni drujinniklərinin hərəkətlərinin müsəlmanların əhval-ruhiyyəsinə təsir göstərməsi barədə məlumatlar da vardır.

Dəftərxananın xüsusi şöbəsi Əlahəzrət İmperatorun Qafqaz canişininin tapşırığı ilə məlumat verərək Sizdən xahiş edirik ki, müsəlmanların vəziyyətini diqqətlə izləyəsiniz, erməni və müsəlman əhalisinin qarşılıqlı münasibətləri və onlar arasında baş verə biləcək toqquşmalar haqqında bizi xəbərdar edəsiniz və hər hansı anlaşılmazlıqlardan qaçmaq üçün Sizə həvalə olunmuş quberniyadan (əyalət, mahal) erməni könüllülərini dərhal sərəncama göndərəsiniz.

Sonrakı hadisələrin gedişi barədə Sizə məlumat verməyi lütf edəsiniz.

İmza: Xüsusi şöbənin müdiri ***Pisarski***

Təsdiq etdi: Kargüzar ***Trutkov***

Doğrudur: Kargüzar əvəzi ***S.Belyayev***

*s.161-162*

***

Əlahəzrət imperatorun
Qafqaz canişininin mülki
işlər üzrə köməkçisi
2 mart 1915-ci il
№ 1016
Tiflis şəhəri

Surətdən surət
Məxfi
Şəxsi
Sərəncam

Müvəqqəti general-qubernatorlara, qubernatorlara, dairə rəislərinə, Bakı şəhər rəisinə və Zaqafqaziyadakı quberniya jandarma idarələrinin rəislərinə

Zaqafqaziya şəhərlərindən birində fevralın son günlərində yerli sakin olan ermninin evində hərbi sursatların saxlandığı yerdə təsadüfi partlayış oldu. Evin müəyyən hissəsi dağıldıqdan məlum olur ki, hərbi sursatın miqdarı kifayət qədər çox imiş. İşin araşdırılması bu anbarın yaranma tarixinin 1904-1905-ci illərə təsadüf etdiyini aşkarlasa da, hadisə əhali arasında hələ də partladıcı maddələr və silah anbarlarının olmasına dəlalət edir.

Bununla belə, son vaxtlar ermənilər və azərbaycanlılar arasındakı gərgin münasibətlər və əhali arasında silahların saxlanılması belə güman etməyə əsas verir ki, həm erməni, həm də müsəlman əhalisi qonşuluq münasibətlərinə baxmayaraq, istənilən zaman toqquşma olarkən gizli saxlanılan silahlardan istifadə edə bilərlər və 1904-1905-ci illərdən nümunə götürərək yenə də milli əsaslarla toqquşmaya başlayarlar.

Qafqazın həyatında baş verən hadisələr öz axarı ilə bütün xalqlara müxtəlif səviyyədə təsir göstərirdi. Ümumilikdə isə bölgədə yaşayan üç qrup: erməni, gürcü və müsəlmanların dövrü mətbuatlarına əsasən öz xalqının loyallığını və eyni zamanda, digər xalqla bu xüsusiyyətin olmadığını sübut etməyə çalışmasını qeyd etmək olar. 1904-1905-ci illərlə müqayisədə gürcü mətbuatı özünəınəxsus yer tutur. Onlar Türkiyə ilə müharibənin

təsiri altında ermənilər və müsəlmanlar arasında münasibətlərin gərginləşdiriləcəyini görürdülər. Mətbuatın bu meyli xalq kütlələrinin əhval-ruhiyyəsinə təsir etməyə bilməzdi. Ölkədə hakimiyyət orqanları milli ədavəti qızışdıran mətbuat çıxışlarına qarşı hər cür tədbir görürdü. Belə ki, yerli hökumətlərin köməyi olmadan ali orqanlar milli ədavətin yaranması, onun genişlənməsi və qarşısını almaq iqtidarında deyildilər.

Buna görə də hazırki vaxtda yerli hökumətlərin birbaşa öhdəliyində təkcə qeyd olunmuş hadisələr deyil, həmçinin milləti qıcıqlandıran bu və ya digər belə faktların meydana gəlməsini izləmək və qabaqcadan xəbərdarlıq etmək vəzifəsi də dururdu. Əgər belə faktlar meydana gələrsə, qanun çərçivəsində onların xalq kütlələrinin psixikasına təsirini aradan qaldırmaq lazımdır. Dövlət məmurlarına vahid fəaliyyət proqramı əsasında silahlı toqquşmaya çıxara biləcək bir millətin digərinə qarşı münasibətini tənzimləmək vəzifəsi tapşırılmışdır. Bununla yanaşı, silahlı toqquşmalar haqqında qabaqcadan xəbərdarlıq etməyin ən real üsullarından biri əhalinin kütləvi şəkildə tərkisilah edilməsi barədə təcili tədbirlərin görülməsidir. 2 fevral 1162-1170 №-li sərəncamına görə türklər tərəfindən müvəqqəti zəbt edilmiş ərazilərdə əhali arasında iri həcmdə silahların aşkar olunması ilə əlaqədar tərksilah məqsədilə müntəzəm şəkildə axtarışların aparılması təklif olunur; hal-hazırda Zaqafqaziya şəhərlərindən birində olan partlayış və ermənilər arasında silahlanma barəsində məndə olan məlumatlara görə belə hesab edirəm ki, bu cür hallara qarşı təxirəsalınmaz tədbirlər görmək lazımdır.

Məlumat verərək Sizdən xahiş edirik ki, Sizə həvalə olunmuş inzibati idarənin agenturasını gücləndirəsiniz, bütün əhalini (erməni və müsəlmanlar, həmçinin, 1904-1905-ci illərin təcrübəsinə görə qeyri-millətlərin ermənilərə və müsəlmanlara müvafiq qiymətlərlə silah satışını nəzərə almaqla onlar arasında da) tərkisilah etmək məqsədi ilə məmurlar axtarışa cəlb olunsunlar və mənim məlumatlarımı aldığınız tarixdən hesablanaraq

10 gün müddətində qeyd olunmuş ərazilərdən odlu silahların, hərbi sursatların yığılması tarixi, hansı millətin nümayəndəsinə məxsus olması barədə bizi xəbərdar edəsiniz.

Əlahəzrət, bununla belə, əlavə etmək isitəyirəm ki, fikrimcə bəzi məntəqələr istisna olmaqla (silah istehsal edən kiçik şəhərlər, xüsusilə sərhədyanı), mövcud silahların qeydiyyata alınması məqsədəuyğundur.

İmza: Qofliyeter ***N.Peterson***

Təsdiq etdi: Xüsusi şöbənin müdiri ***Pisarski***

Doğrudur: Kargüzar əvəzi ***Belyayev***

Surəti ilə düzdür: Rotmistr ***Keller***

***s.164-167***

***

№ 76, 1915-ci il

**Bakı qubernatorluğu dəftərxanasının qovluğu**
**1915-ci il üçün hesabat**

Əlahəzrət İmperatora
Bakı qubernatorunun məruzəsi

Mənə həvalə olunmuş quberniyadakı vəziyyətə dair 1915-ci il üçün hesabatı Əlahəzrət İmperatora təqdim etməkdə böyük şərəf hissi duyuram.

İmza: Əlahəzrət imperator sarayının kamergeri qubernator ***V.Alışevski***

1 mart 1916-cı il

## Bakı qubernatorunun 1915-ci il üçün hesabatı

Əhalinin əhval-ruhiyyəsi

Quberniyanın hərbi əməliyyatlar cəbhəsinə yaxın olması nəticəsində əhalinin əhval-ruhiyyəsi qəza rəhbərliyinin daimi nəzarətinin predmetinə çevrildi.

İl ərzində müsəlmanlar tərəfindən heç bir düşmən xarakterli çıxışlar və yaxud hökumət tapşırıqlarına əməl etməmək qeydə alınmamışdır.

Bununla yanaşı, müsəlman ölkələrində təhsil almış mollaların təsiri altında olan geri qalmış camaat Türkiyə tərəfindən başlanmış müharibəyə hüsn-rəğbətlə yanaşdı. Belə ki, bu hüsn-rəğbət türk qüvvələrinin hər hansı bir uğuru ilə bağlı xəbərlər eşidilərkən əhali arasında əhval-ruhiyyənin qalxması ilə müşahidə olunurdu: rusların və müsəlmanların qarşılıqlı münasibətləri isə həmişəki kimi müsbət olaraq qalırdı.

Qafqaz cəbhəsində hadisələrin gedişi ilə bağlı olaraq ermənilərlə müsəlmanlar arasında gərgin münasibətlər nəzərə çarpırdı və üstəlik bu xalqların qarşılıqlı surətdə bir-birindən uzaqlaşması hal-hazırda Türk Ermənistanında baş verən hadisələrlə nöqteyi nəzərlərin köklü surətdə fərqli olmasından asılıdır.

Buna baxmayaraq, ermənilərlə müsəlmanlar sırasında nüfuzlu şəxslər daxili münaqişələri aradan qaldırmaq üçün bütün güclərini sərf etdilər və bunun müqabiləndə də nizam-intizam heç yerdə pozulmadı...

*s.167*

***

Bakı quberniya jandarma idarəsinin rəisi
24 yanvar 1915-ci il
№ 640
Bakı şəhəri

Surət
Tam məxfi

Əlahəzrət İmperatorun Qafqaz canişininin mülki məsələlər üzrə köməkçisinə

Məndə olan məlumatlara görə bu il yanvar ayının 22-də Bakı şəhərindən əvvəlcə Tiflisə, sonra isə Kars vilayətinə vəkil Əlimərdan bəy Topçubaşov və yerli tacir Ağabala Quliyev göndərilmişdir.

Adı çəkilən şəxslərin səfərinin əsas məqsədi Əlahəzrət İmperatorun Qafqaz canişinindən ermənilərlə müsəlmanlar arasında toqquşmaların Kars vilayəti ərazisində olması barədə məlumat toplamaq və bu məlumatları yerində yoxlamaqdan ibarət idi.

Bununla bağlı yerli müsəlmanlar arasında belə bir şayiə hökm sürür ki, yaxın vaxtlarda erməni hərəkatına qarşı etıraz olaraq Azərbaycan dilində müraciətnamələr buraxılacaq və sox güman ki, Qafqazın bəzi şəhərlərində küçə yürüşləri təşkil olunacaqdır.

Müraciətnamə və yürüşün quruluşu qeyd olunmuş şəxslərin Tiflisə səfərindən sonra verdikləri məlumatlar əsasında təşkil olunacaqdır.

Əlahəzrət, məlumat verərək bir də əlavə edirəm ki, bu məsələninin aydınlaşdırılması ilə bağlı idarə tərəfindən tədbirlər görülmüşdür.

Həmin tarixlə 642, 644, 648 və 650 №-li məlumatlar Polis Departamentinin direktoru, Karsın müvəqqəti general-qubernatoru, Bakı şəhər rəisi, Bakı qubernatoru və Dağıstan vilayətinin

müvəqqəti general-qubernatoruna təqdim olunmuşdur.

Əlavə: Topçubaşov və Quliyev haqqında işdən 2 arayış.

İmza: Polkovnik ***Leontyev***
Doğrudur: Potmistr (imza)
***s.168-169***

***

Bakı quberniya jandarma idarəsinin rəisi
31 yanvar 1915-ci il
№ 816
Bakı şəhəri

Surət
Tam məxfi

Əlahəzrət İmperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisinə

24 yanvar tarixli 640 №-li məlumata əlavə olaraq Əlahəzrət İmperatora çatdırıram ki, Bakıdan Tiflisə gələn vəkil Topçubaşov və Ağabala Quliyev səfərdən, xüsusilə də Əlahəzrət İmperatorun Qafqaz canişininin hərbi əməliyyatlarda zərər çəkmiş müsəlmanlara ianələrin ayrılmasına icazə verməsindən tamamilə razı qalmışlar.

Bununla yanaşı həmin agentura məlumatlarına əsasən müsəlmanlar tərəfindən heç bir yürüş qeydə alınmamış və hal-hazırda onlar tərəfindən müraciətnamənin çap edilməsi gözlənilir.

Bu hadisə ətrafında nəzarət davam etməkdədir.

Həmin tarixlə 818, 820, 822, 824 və 826 №-li məlumatlar Polis Departamentinin direktoru, Kars vilayətinin müvəqqəti general-qubernatoru, Bakı şəhər rəisi, Bakı qubernatoru və Dağıstan vilayətinin müvəqqəti general-qubernatoruna təqdim edilmişdir.

İmza: Polkovnik ***Leontyev***
Doğrudur: Potmistr (imza)
***s. 169-170***

***

Qafqazda Əkinçilik və Torpaq məsələləri üzrə
Baş idarənin müvəkkili
26 avqust 1915-ci il
№ 11991
Tiflis şəhəri

Məruzə: Yuxarı Vorontsov kanalının II hissəsindəki ərazilərin dərhal məskunlaşmasına başlamaq haqqında

Orijinalda yazılmışdır: "icazə verilir". Peterson. Doğrudur: Xüsusi tapşırıqlar üzrə məmur əvəzi (imza)

Əlahəzrət İmperatorun Qafqaz canişininə

Bakı qubernatoru Müvəqqəti quberniya komissiyasının nəzərdən keçirdiyi Yuxarı Vorontsov suvarma sisteminin I hissəsində mövcud olan 11 köçürmə ərazisinin və həmin suvarma sisteminin II hissəsində Cənubi Muğanda təşkil olunmuş 21 köçürmə ərazisinin layihələrinin təsdiqi barədə həmin ilin 12 avqust tarixli 22365 №-li sərəncamını mənə göndərdi.

Bununla yanaşı, Əlahəzrət sarayının kamergeri Alışevski məlumat verir ki, sərhədlərin açılması ilə həmin ərazilərdə məskunlaşma yalnız hərbi əməliyyatlar dayandırılması və sərhəd postlarında qarovulun təşkil olunmasından sonra mümkün ola bilər.

Muğanda yaşayan torpaq idarəçiliyinə tabe olan məskunlaşmamış 500-ə yaxın köçkün ailənin tezliklə yerləşdirilməsinin zəruriliyini qəbul edərək, Əlahəzrətin tapşırığına müvafiq olaraq mənim 6 oktyabr 1914-cü il tarixli 17730 №-li qətnaməmi aydınlaşdırmağı özümə borc bilirəm. Fikrimcə, Muğanda Yuxarı Vorontsov kanalı boyunca yaşayan əhalinin məskunlaşması-

nın zəruriliyi nəinki bu köçkünlərin məişətinin təmin edilməsi nöqteyi-nəzərindən, həmçinin illik icarəyə verilmiş həmin torpaqların istismarı ilə istər-istəməz yaranan duzlaşmanın qarşısını almaq məqsədi ilə suvarma qurğularının saxlanılması üçün daha vacibdir.

Mən belə hesab edirəm ki, Yuxarı Vorontsov kanalının ikinci hissəsində suvarılan torpaqların məskunlaşması şərqdə Bolqarçay qəsəbələri ilə, qərbdə isə həmin kanalın birinci hissəsində əvvəllər yaranmış qəsəbələrin olması quraqlığın çoxalmasına təkan ola bilər və şübhəsiz, Cənubi Muğanda təhlükəsizliyi təmin edə bilər.

Bunun nəticəsi olaraq Əlahəzrət, Sizdən xahiş edirik ki, Yuxarı Vorontsov kanalının ikinci hissəsində suvarılan torpaqların məskunlaşması şərqdə Bolqarçay qəsəbələri ilə, qərbdə isə həmin kanalın birinci hissəində əvvəllər yaranmış qəsəbələrin olması quraqlığın çoxalmasına təkan ola bilər və şübhəsiz Cənubi Muğanda təhlükəsizliyi təmin edə bilər.

Bunun nəticəsi olaraq, Əlahəzrət, Sizdən xahiş edirik ki, Yuxarı Vorontsov kanalının ikinci hissəsində yaranmış ərazilərdə əhalinin məskunlaşmasını tezləşdirəsiniz, ilkin mərhələdə salınmış qəsəbələrin əhalisin müvəqqəti olaraq qorumaq üçün tədbirlərin görülməsinə və Bakı idarəetmə orqanlarının köməyi ilə məskunlaşan əhalinin özünümüdafiə üçün odlu silahlarla təmin edilməsinə icazə verəsiniz.

İmza: Müvəkkil ***Şaşkovski***

Təsdiq etdi: Qafqazda köçürmə işləri rəisinin səlahiyyətlərini icra edən ***Krıxnov***

Doğrudur: Xüsusi tapşırıqlar üzrə məmur əvəzi (imza)

***s. 180-181***

***

Bakı Qubernatoru | Məxfi
№ 1634
5 sentyabr 1915-ci il | Təcili

Əlahəzrət İmperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisinə

Əkinçilik və torpaq işləri üzrə Baş idarənin müvəkili Yuxarı Vorontsov kanalı ətrafına rus köçkünlərinin məskunlaşması barədə mənə məlumat verilmişdir.

Bunun nəticəsi olaraq, Əlahəzrət, Sizə məlumat verməyi özümə borc bilirəm ki, İran sərhəddindəki bu rayonda vəziyyət xoşagəlməzdir və burada məskunlaşan rus köçkünləri üçün böyük təhlükə vardır.

Sərhəd keşikçiləri öz postlarının çox hissəsini tərk etmişlər və köçkünlərə təcili yardım göstərmək iqtidarında deyillər. Bununla yanaşı, son vaxtlar şahsevənlərin hücumları geniş xarakter almış və onların quldur dəstələri sərhəddə keşikçilər tərəfindən saxlanılmadığı üçün bizim ərazilərin dərinliklərinə doğru dəfələrlə daxil olmuşlar.

Yeni salınmış kəndlərdə hərbi qarovulun qoyulması barədə müvəkilin mülahizəsi həyata keçirilə bilməz. Çünki köçkünlərin məskunlaşdığı yer kimsəsizdir və burada hərbi hissə yerləşdirmək üçün şərait yoxdur.

Tiflis cəbbəxanasının artıq tüfəngləri olmadığı üçün köçkünləri silahla təmin etmək mümkün olmayacaqdır.

Bütün bu mülahizələri nəzərə alaraq, Əlahəzrət, Sizdən xahiş edirəm ki, Yuxarı Vorontsov kanalının ətraf ərazilərində məskunlaşma məsələsini təxirə salasınız, - heç olmasa, hərbi təlimatın qarovul vermək və düşmən münasibətli şahsevənlərin hücumlarından köçkünlərin təhlükəsizliyini təmin edə bilmək

kimi məsələlərini aydınlaşdırana qədər.

Fikrimcə, İranla yaranmış xoşagəlməz münasibətləri nəzərə alaraq müharibə qurtarmayana qədər köçkünlərin sərhəd boyunca yerləşdirilməsi qeyri-mümkündür.

İmza:
Kamerger rütbəli Qubernator ***Alışevski***
Təsdiq etdi:
Dəftərxana rəhbərinin nümayəndəsi, Onbaşı

***s. 181-182***

***

Əlahəzrət İmperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisi

Tam məxfi
Sərəncam

23 may 1915-ci il
№ 2233
Tiflis şəhəri

Müvəqqəti general-qubernatorlara, qubernatorlara, dairə rəislərinə, Bakı şəhər rəisinə və Zaqafqaziyadakı jandarma idarələrinin rəislərinə

Bu ilin 2 mart tarixli 1016 №-li sərəncama əsasən, yerli əhalidəki odlu silahların və hərbi sursatların aşkar edilməsi, tarixi, silahı olan şəxsin milliyəti, onu aşkara çıxarmış polis məmurunun adı, silah tapılmış yer və onun miqdarı haqqında məlumatların hər on gündən bir çatdırlması daimi olaraq müəyyənləşdirilmişdi.

Bu sərəncam əsasında daxil olan materiallar heç də dolğun məlumatlar vermir. Bəzi hallarda silah tapılan şəxsin milliyəti, silahın haradan alındığı, kim tərəfindən tapıldığı barədə məlu-

mat verilmir. Bununla yanaşı, məlumatlar müxtəlif vaxtlarda və kifayət qədər gec çatdırılır.

Bütün bunlarla əlaqədar Sizdən xahiş edirəm ki, silahla bağlı məlumatların çatdırılması zamanı yuxarıda qeyd olunmuş nöqsanların aradan qaldırılması üçün tədbir görəsiniz.

Bununla yanaşı, hesabatlarda göstərilən on gün müddətinə əməl edilsin: 1-dən 10-na, 10-dan 20-nə, 20-dən 1-nə kimi və s. Əgər on günlüklərdə silah və yaxud hərbi sursat aşkar edilməyibsə, bu barədə də məlumat verilsin.

İmza: Əlahəzrət sarayının qofmeysteri, senator ***N.Peterson***
Təsdiq etdi: Xüsusi şöbənin rəisi ***Pisarski***
Doğrudur: Kargüzar əvəzi ***Çikovani***

***

## 19 yaşından 45 yaşınadək olan Zaqafqaziya müsəlmanlarının cəbhəni möhkəmləndirmək işinə çağırılması haqqında

Bakı şəhər rəisi — Tam məxfi
№ 4049
11 iyul 1916-cı il

Əlahəzrət İmperatorun Qafqaz canişininin mülki işlər üzrə köməkçisinə

Agent məlumatına əsaslanaraq Əlahəzrətin 19 yaşından 45 yaşınadək olan Zaqafqaziya müsəlmanlarının cəbhəni möhkəmləndirmək işinə çağırılması haqqında fərmanına cavab olaraq bu çağırışla bağlı yeni xüsusi tapşırıqlar verilməyənə qədər heç bir iş görməmək göstərişi verilmişdir.

Bu dəyişmələrlə əlaqədar olaraq sonrakı fərmanın təsiri nəticəsində müsəlmanların əhval-ruhiyyəsinə nəzər yetirməyi özümə borc bilirəm.

Müsəlmanlar arxa cəbhəyə çağırılmalarında onların siyasi mövgelərinə inanılmadıqlarını görür və deyirlər ki, erməni, yəhudi və digər xalqların nümayəndələri orduya çağırılarkən Rusiyanı silahla qoumaq şərəfi müsəlmanlara heç də nəsib olmur.

Daha sonra müsəlmanlar arasında peşələrə və ali zümrələrə malik olan şəxslərin sayı kifayət qədər çoxdur və onlar fiziki əməyə vərdiş etməmişlər. Bütün bunlar məni soruşmağa vadar edir ki, Əlahəzrətin fərmanında qoyulmuş şərtlərlə cəbhəni möhkəmləndirmək üçün işçi qüvvələri cəlb etməkdənsə, müsəlmanları da orduya çağırmaq məsələsini əlavə etmək olmazmı?

İ.m. Şəhər rəisi ***Kovalyov***
Dəftərxana işlərini müvəqqəti icra edən ***Şimanovski***
Kargüzar ***Çikvaidze***

***s. 218***

***

Bakı şəhər rəisi — Məxfi
30 iyul 1916-cı il
№ 4609
Bakı şəhəri

Cənab Əlahəzrət Vladimir Nikolayeviç!

Tiflisdə sonuncu dəfə olarkən zaman mən Sizə müsəlmanların cəbhə işlərinə çağırışı barədə məlumat vermişdim. Müsəlmanlar tərəfindən pozula biləcək asayişi qorumaq üçün mən Bakı müsəlmanlarının ən nüfuzlu şəxslərini, həmçinin mollaları dəvət etmişəm və onlara vətəni qorumaq üçün müsəlmanların

çağırışının zəruriliyini açıqlamış, onlardan şayiələrin yayılmaması üçün geri qalmış camaata təsir göstərmələrini xahiş etmişəm. Mən həmçinin, Bakıda olmayan müsəlmanların nüfuzlu şəxslərinə bu mövzunu əhatə edən xüsusi məktublar da göndərmişəm. Müraciətin surəti əlavə olunur.

Bu müraciətə cavab olaraq mən Hacı Zeynalabdin Tağıyevdən məktub almışam və bu məktubu Əlahəzrətin nəzərinə çatdırıram. Əlahəzrət tərəfindən 27 iyul tarixində Qafqaz haqqında fərmanın verilməsi ilə məsələnin tam həll olmaması barədə teleqram almaqla mən bu haqda müsəlman əhalisinə aydınlıq gətirmək üçün Bakı və Balaxanı-Sabunçu polismeysterlərinə müvafiq təkliflər vermişəm.

Əlahəzrətdən xahiş edirəm ki, bu məlumatı lütfən qəbul etsin.

Sədaqət və böyük ehtiram hissi ilə;

***Kovalyov***

***s. 129-220***

***

Bakı quberniya jandarma idarəsinin axtarış üzrə rəisi
3 avqust 1916-cı il
№ 5088
Bakı şəhəri

Tam məxfi

Əlahəzrət İmperatorun Qafqazda (xüsusi şöbə üzrə) canişinin mülki işlər üzrə köməkçisinə

Zati-alilərin nəzərinə çatdırıram ki, agentura idarəsindən mənə məlumat çatdırılmışdır ki, müsəlmanların müdafiə qurğuları tikintisinə cəlb edilməsi barədə fərman verilməsi haqqında şayiələr dolaşır.

Müsəlmanların ziyalı təbəqəsi özlərini loyal göstərməyə və hökumətə sədaqətli olduqlarını bildirməyə çalışsalar da, əslində hər növ çıxışları dəstəkləyəcəklər.

Dəmiryollarını dağıtmaq, teleqrafı sıradan çıxarmaq, neft mədənlərini yandırmaq və s. zərərli işlərlə məşğul olmaq üçün müsəlmanlardan ibarət səyyar dəstələrin yaradılması nəzərdə tutulmuşdur.

Müsəlmanların nüfuzlu şəxsləri isə bu zaman baş verəcək hücumların onlar üçün də ələkeçməz olan quldurların işi olduğunu göstərərək hökuməti inandırmağa çalışacaq və qeyd edəcəklər ki, müsəlmanlar loyal münasibətdədirlər və quldurlarla heç bir əlaqəsi yoxdur.

Müsəlmanların hərbi işə faktiki çağırılması ilə əlaqədar olaraq çıxışların başlanması üçün şərait yaranacaqdır.

Hərbi işlərə çağırış haqqında fərmanın ya tam həyata keçməyəcəyinə, yaxud da müsəlmanların özlərinin buna yol verməyəcəyinə ümid edən müsəlmanların kifayət qədər sərbəst aparması haqqında bəzi qeydlər də vardır.

Məlumatlar əlavə etmək istərdim ki, mənə həvalə olunmuş idarə tərəfindən müsəlmanların əhval-ruhiyyəsinin öyrənilməsi və həmçinin çıxışların təşkili səbəblərinin, onlarla bilavasitə bağlı olan şəxslərin fəaliyyəti barədə agentura tərəfindən lazımi tədbirlər görülmüşdür və diqqəti cəlb edən hər şey barədə təxirə salınmadan məlumat veriləcəkdir.

6-cı dəftərxana üzrə polis departamentinin rəisinə artıq məlumat verilmişdir və bu məlumatların surətləri Dağıstan vilayətinin müvəqqəti general-qubernatoruna, Bakı şəhər rəisliyinin müvəqqəti general-qubernatoru və Bakı qubernatoruna həmin tarixlə 5090, 5092, 5094, 5096 nömrələr təqdim edilmişdir.

İmza: Polkovnik ***Severinovski***

Əsli ilə düzdür: Rotmistr ***Mateqorin***

***s.220-221***

***

D.İ.N. Tam məxfi
Bakı şəhər rəisliyinin
Balaxanı-Sabunçu polismeysteri
12 avqust 1916-cı il
№ 50
Balaxanı
Bakı şəhər rəisinə

Əlahəzrətin nəzərinə çatdırıram ki, məndə olan agentura məlumatlarına əsasən mənə həvalə olunmuş polismeysterliyin müsəlmanları onların müdafiə qurğularının təşkili işinə cəlb olunması barədə növbəti fərmanın verilməsindən çox narahatdırlar və bildirirlər ki, onlar bu işə könüllü getməyəcəklər. Müsəlmanlar başqa millətlərlə bərabər hərbi mükəlləfiyyətə deyil, arxa cəhbə üçün çağrıldıqlarına görə narazıdırlar. Bundan əlavə, əmək qabliyyəti olan bütün şəxslər işə cəlb olunur, qadınlar və qocalar isə təsərrüfatı qorumaq üçün qalırlar. Onlar müstəqil şəkildə kənd təsərrüfatını idarə etmək iqtidarında deyillər və şəriət onlara çöl işlərini görməyi qadağan edir və bütün bunlar təsərrüfatın məhvinə apara bilər. Müharibəyə çağırılan qeyri millətin məmurlarının ailələri məvaciblə təmin olunur, arxa cəbhədə çalışan müsəlmanların ailələri isə bu hüquqlardan məhrumdurlar.

Müsəlmanların başqa millətlərlə hərbı mükəlləfiyyətə çağrılma, onların ailələrinin məvaciblə təmin edilmə hüquqlarında bərabərləşməsi və həmçinin ailələrdə bir neçə əmək qabliyyətli işçilərin saxalanılması təqdirində müsəlmanlar vətəni müdafiə etmək üçün getməyə hazır olduqlarını bildirirlər.

Müsəlmanların məcburi şəkildə işə çağırılması təqdirində isə onların hökumət orqanlarına qarşı müqavimət göstərməsi və çıxışların başlanması istisna olunmur. Neft mədənilərinin yandı-

rılması məsələsinə gəldikdə isə bu ehtial həqiqətə uyğun deyil və məntiqi nəticəyə də uyğun gəlmir. Belə ki, müsəlmanlara məxsus mədənlərin başqa millətə məxsus mədənlərə yaxın olduğu üçün onların yandırılması məsələsinə yol vermək olmaz.

Müsəlmanların yüksək təfəkkürə malik ziyalı təbəqəsi isə məcburi çağırılmanın nəticələrinin kədərli olacağı ilə çox dilxordurlar. Lakin onlar niyə görəsə əmindirlər ki, arxa cəbhəyə çağırış haqqında Əlahəzrət fərmanı bu dəfə həyata keçməyəcəkdir.

Polismeyster: ***Kadieyşvili***
Katibin vəzifələrini icra edənin imzası

*s. 222-223*

***

Əlahəzrət İmperatorun Qafqaz canişinliyi
general -adyutant Nikolay
20 avqust 1916-cı il

**Qafqaz müsəlmanlarına müraciət**

Əlahzrət İmperatora bütün Qafqaz müsəlmanlarının vətən və taxt-tacı qorumaq uğrunda hazır olduqları barədə etdiyim məruzəyə əsasən Əlahəzrət İmperator bu ilin 25 iyun tarixli fərmanında göstərilən işlərə yerli müsəlmanları cəlb etməmək haqqında göstəriş verdi.

Mən diyar əhalisinə Əlahəzrətin göndərdiyi məktubu çatdırmaqdan böyük şərəf duyuram. Əminəm ki, müharibənin əvvəlindən düşmənlə mübarizə aparan Qafqazın müsəlman alaylarından nümunə götürən digər müsəlmanlar da çar çağırışından sonra öz borclarını müvəffəqiyyətlə yerinə yetirəcəklər.

*s.223*

***

D.İ.N. Təcili
Bakı polismeysterliyinin baş katibi Tam məxfi
23 avqust 1916-cı il
№ 13
Bakı şəhəri

Cənab Bakı şəhər rəisinə

Bu ilin 5 avqust tarixli 4652 №-li sərəncamına əməl edərək Əlahəzrətə çatdırıram ki, müsəlman icmasının əhval-ruhiyyəsi barədə məndə olan məxfi məlumatlara görə onların hərbi-müdafiə işinə çağırışı ilə əlaqədar olaraq narazılıqları nəzərə çarpır, onlar hərbçi kimi deyil, işçi kimi çağırıldıqlarına görə çox dilxordurlar. Daha sonra müsəlmanlar öz ailələrinin taleyinə və maddi vəziyyətə görə də narahatdırlar. Belə ki, ailənin bütün ağırlıqları kişilərin çiyinləri üzərinə düşür və buna görə də kişilərin çağırışı ilə onların ailələrinin ehtiyacları artacaq və işlər tənəzzülə doğru gedəcəkdir. Əsgərlər və yaxud onların qohumları tərəfindən müsəlmanlar üzərində zor tətbiq edilərsə, bu zaman asayiş pozular və hökumətə qarşı çıxışlar başlana bilər. Çağırışın baş tutduğu təqdirdə isə müsəlmanlar arasında intizamsızlıq meydana gələcəkdir. Ziyalı müsəlmanlar da bu çağırışa yaxşı baxmırlar və onlar vətənə xidmət etməkdə hazır olduqlarını bildirsələr də, ordu sıralarına deyil, arxa cəbhəyə çağrıldıqları üçün narazılıq edirlər. Kənd müsəlmanları şəhər müsəlmanları ilə, şəhər müsəlmanları isə müsəlmanların mərkəzi sayılan Dağıstan əhalisi ilə həmrəy çıxış edirlər. Məlumata görə bütün göstərişlər və tapşırıqlar məhz Dağıstandan göndərilir. Müsəlman əhalisinin geri qalmış camaatı onların arxa cəbhəyə çağırılması fərmanının təxirə salınacağına tam əmindirlər və buna görə də onların arasında hələlik tam sakitlikdir. Mətbuatda müsəlmanların çağırışı haqqında fərmanın çap edilməsinə baxmayaraq, müsəlmanların narazılıq çıxışları haqqında hələ ki, söz-söh-

bət yoxdur və həmçinin Bakı quberniya jandarma idarəsinin rəisinin 3 avqust tarixli 5088 №-li məlumatında qeyd olunan müsəlmanların niyyətlərini həyata keçirmək məqsədi ilə dəstələrin təşkil edilməsinə dair fikirləri haqqında da bir xəbər yoxdur. Bununla bağlı olaraq Əlahəzrətə çatdırıram ki, avqustun 2-də acxşam saat 8-də mənə həvalə olunmuş idarəyə Bakı şəhəri müsəlman əhalisinin 50-yə yaxın nümayəndəsi dəvət olunmuşdu. Mən onlarla müsəlman əhalisinin hərbi işlərə cəlb olunması barədə kifayət qədər söhbət etdim. Dəvət olunan nümayəndələr yekdilliklə elan etdilər ki, Bakı şəhərinin müsəlman əhalisi rəhbərliyin bütün əmrlərini vaxtında və dəqiqliklə yerinə yetirməyə hazırdır. Çağırışla bağlı söz-söhbətlərin yaranması səbəbi isə onunla bağlıdır ki, hər bir ailədən hərbi işlərə (19-45 yaş həddi arasında) kişilər və onların oğulları çağırılır və nəticədə ailələrin vəziyyəti tamamilə ağırlaşacaqdır.

Polismeyster vəzifəsini müvəqqəti icra edən podpolkovnik
***Qamreklidze***
***s. 223-225***

***

Bakı quberniya jandarma idarəsinin axtarış üzrə rəisi
20 avqust 1916-cı il
№ 5494

Tam məxfi

Əlahəzrət İmperatorun Qafqaz (xüsusi şöbə üzrə) canişininin mülki işlər üzrə köməkçisinə

Təqdim etdiyim 3 avqust tarixli 5088 №-lı məlumata əlavə olaraq Əlahəzrətə çatdırıram ki, yerli müsəlmanların əhval-ruhiyyəsinin aydınlaşdırılması barədə agentura idarəsindən aşağıdakı məlumatlar alınmışdır:

Müsəlman əhalinin hərbi işə çağırılması haqqında Əlahəzrət fərmanı müsəlmanlar arasında bir sıra mülahizələrin yürüdülməsinə əsas verdi.

Müsəlmanlardan çoxu deyir ki, hökumət onları işləməyə çağırmaqla doğma ocaqdan ayırmaq niyyətindədir, hərbi əməliyyatalara göndərməklə isə ön xətdə güllələnmək təhlükəsi ola bilər. Arxada isə mübarizə aparmağa və hər növ hucum və geri çəkilmələrdə mühafizəçi rolunu oynamağa məcbur ediləcəklər. Bəzi müsəlmanlar belə mülahizə yürüdürlər ki, hərbi işə çağırılmış şəxslər və onların ailələri maddı cəhətdən təmin edilməyəcəkdir. Belə ki, onların qadınları açıq həyata uyğunlaşmadıqları üçün kişilərin getməsi ilə onlar sözün həqiqi mənasında aclıq çəkəcəklər, yaxud da ki, dilənçilik və hətta müsəlmanlar üçün yolverilməz olan əxlaqsızlıqla özlərinə çörək pulu qazanacaqlar.

Qeyd olunmuş mülahizələr əhalinin kasıb təbəqəsi arasında yayıla bilər. Qismən varlı təbəqəyə gəldikdə isə onlar Əlahəzrət fərmanına tabe olmaq istəməyərək bunun əksinə olaraq dini məsələləri irəli sürür, əhaliyə Türkiyənin başqa ölkələrlə apardığı müharibənin "tam dini xarakter" daşıdığını təlqin etməyə çalışır və buna görə də şəriətə əsasən möminlərdən heç kim İslamın düşmənlərini dolayısı yolla da olsa dəstəkləmək iqtidarında deyildir.

Ümumi nöqteyi-nəzərə gələrək qeyd olunmuş mülahizələr müsəlmanlar arasında belə əhval-ruhiyyənin olmasına gətirib çıxarır ki, onlar artıq Əlahəzrət fərmanına tabe olmaq istəmirlər.

Hər bir müsəlmandan işləməyə çağırışa müqaviməti haqqında eşitmək olar, amma bu müqavimətin nədə özünü büruzə verəcəyi hələ ki, dəqiq məlum deyildir. Belə ki, bu vaxta qədər müsəlmanlar ümumi müqavimətə planlı şəkildə hazır deyildilər. Agentura məlumatına görə çağırışa müqavimət müxtəlif cür planlaşdırılır. Məsələn, Bakı şəhərində əhalinin çoxu İran pasportları ilə xaricə, yaxud da ki, başqa yerlərə getməkdə çıxış yo-

lu axtarırlar. Digər yerlərdə, məsələn, Nuxa, Zaqatala, Göyçay, Ağdaş və s. isə dağlara, meşələrə çəkilmək və silahla müqavimət göstərmək nəzərdə tutulmuşdur.

Məlumata əlavə etmək istərdim ki, Agentura idarəsi müsəlmanların əhval-ruhiyyəsinin aydınlaşmasına istiqamətlənmiş və diqqəti cəlb edən hər bir şey haqqında təxirəsalınmadan məlumat verəcəkdir.

6-cı dəftərxana üzrə polis departamentinin rəisinə məlumat verilmiş və surətləri Dağıstan vilayətinin müvəqqəti general-qubernatoruna, Bakı şəhər rəisliyinin müvəqqəti general-qubernatoruna və Bakı qubernatoruna həmin tarixli 5496, 5498, 5500 və 5502 №-li məlumatlar təqdim edilmişdir.

İmza: polkovnik ***Severinovski***
Əsli ilə düzdür: Rotmistr ***Mateqorin***

***s. 225-226***

***

Bakı quberniya jandarma idarəsinin axtarış üzrə rəisi
31 oktyabr 1916-cı il
№ 6986

Tam məxfi

Bakı şəhər rəisinə

Əlahəzrətin nəzərinə çatdırıram ki, müsəlmanların hərbi işə çağırılması ilə bağlı agentura idarəsindən aşağıdakı məlumatlar alınmışdır:

Bu yaxınlarda Bakı müsəlmanlarının "Nicat" maarif təşkilatının İsa bəy Aşurbəyovun rəhbərliyi ilə keçirilən iclaslarının birində müsəlmanların Zaqafqaziyada 80000 müsəlman işçinin hərbi işlərə çağırılması haqqındakı elana münasibəti məsələsi

müzakirə olunmuş və üstəlik bu çağırışa mane olmamaq haqqında qərar da çıxarılmışdır. Fikrimcə, işçi qüvvələrinin sırasına cəmiyyət üçün yarasız olan adamların qatılmasına imkan daxilində çalışmaq lazımdır.

Müsəlmanlar arasında qərara alınmışdır ki, hərbi işə çağırılmış şəxslər başqaları ilə əvəz olunarkən sonuncular onlara hökumət tərəfindən verilən əmək haqqı həcmində mükafat ödəsinlər.

Hal-hazırda etiraf etmək olar ki, müsəlmanların əhval-ruhiyyəsi qəfildən yaxşılığa doğru dəyişilmişdir və belə bir halı hətta etibarlı saymaq olar.

Yuxarıda adı qeyd olunmuş İsa bəy Aşurbəyov haqqında mənə həvalə olunmuş idarənin sənədlərində məlumatlar vardır. O, 1907-ci ildə müsəlmanların "Hümmət" sosial-demokratik təşkilatının ən fəal üzvlərindən biri olmuşdur. İsa bəy Aşurbəyov 1907-ci il iyunun 9-da Bakı şəhərində həbs olunmuş, onun üzərində heç bir cinayət xarakterli əşya və kifayət qədər dəlillər tapılmadığına görə elə həmin il iyunun 11-də azad edilmişdir.

Bundan əlavə, İsa bəy Aşurbəyov 1915-ci ildə ona məxsus olan mətbəədə Türkiyənin qüdrətini ifadə edən yarlıkları reklam etdiyinə görə cəzalar haqqında qanunun 1024-cü maddəsi ilə məsuliyyətə cəlb olunmuşdur. Bu işin nəticəsi barədə isə idarənin sənədlərində məlumat yoxdur.

Əlahəzrət imperatorun Qafqaz canişininin mülki məsələlər üzrə köməkçisinə və polis departamentinin rəisinə 6982 və 6984 №-lı məlumatlar çatdırılmışdır.

Polkovnik ***Severinovski***

*s.226-227*

***

D.İ.N. Tam məxfi
Lənkəran qəza rəisi
№ 21, 7 yanvar 1915-ci il
Lənkəran şəhəri
Bakı quberniyası

Əlahəzrət Bakı qubernatoruna məruzə

Əlahəzrət İmperatorun nəzərinə çatdırıram ki, məndə olan agentura məlumatlarına görə Biləsuvardakı poçt kontorunun müsəlman rəisi bizim qoşunların istiqaməti barədə İrana məlumatlar ötürür.

Lənkəran poçt idarəsinin rəisi Quliyevin, - qeyd edim ki, o da müsəlmandır, qəbahətli bir işi qeydə alınmasa da hal-hazırda poçt və teleqraf idarələrinin müsəlman məmurların əlində olması fikrimcə, yolverilməzdir və bu barədə qeydlərimi Əlahəzrətə sərəncam vermək üçün təqdim edirəm.

Qəza rəisinin müavini (imza)

*s. 234*

***

D.İ.N. Təcili
Tiflis poçt-teleqraf dairəsinin rəisi Tam məxfi
Ayr. ..... sərəncam
Maddə1
13 yanvar 1915-ci il
№ 88
Tiflis şəhəri

Bakı şəhər rəisinə

Bakı şəhər rəisliyinin poçt-teleqraf müəssisələrində xidmətdə olan müsəlman məmurların siyahısını göndərərək Əlahəzrətdən xahiş edirəm ki, Türkiyə ilə müharibəni nəzərə alaraq, ona həvalə olunmuş quberniyada müsəlman məmurlarından ibarət xidmətçilərin saxlanıb-saxlanılmaması və onlara qarşı münasibətdə hər hansı bir tədbirin həyata keçirilməsi barədə məni məlumatlandırsın.

Əlavə: siyahı

Dairə rəisi ***Musselius***
Kargüzar ***Moiseyev***

Bakı şəhər rəisliyinin poçt-teleqraf müəssisələrində xidmət edən müsəlman şəxslərin siyahısı.

Bakı poçt-teleqraf kontoru:

Məmurlar: II dərəcəli - Cəbrayıl bəy İmamverdiyev
IV dərəcəli- Əbilqasımağa Kişibəyov
V dərəcəli - Şərur bəy Paşayev
VI dərəcəli - Hüseynağa Mustafa oğlu Ağayev

Poçtalyonlar: Qurbanəli Dərvişov, Abbasqulu Xanəhmədov, Məmməd Axundov

I Bakı poçt-teleqraf kontoru: kontorun rəisi Şəfiyev

Etibarlıdır: Kargüzar, Bakı şəhər rəisliyinin dəftərxanası ***N.Paşkov***

*s.232-232*

***

Bakı şəhər rəisliyı
18 fevral 1915-ci il
№ 774
2 nəşr
№ 88
1915-ci ıl

Tam məxfi
Təcili

Tiflis poçt-teleqraf dairəsinin rəisinə

Mənə həvalə olunmuş şəhər rəisliyinin poçt-teleqraf müəssisələrində xidmətdə olan müsəlmanların siyahısını göndərərək Əlahəzrətin nəzərinə çatdırıram ki, bu siyahıda adı çəkilən məmurların heç bir qəbahət işləri olmadıqları üçün onların bundan sonra xidmətdə qalmalarına etiraz etmirəm.

Bundan başqa, belə hesab edirəm ki, Türkiyə ilə müharibə zamanı müvəqqəti olaraq siyahıda göstərilmiş xidmətçilərə nəzarət etmək işi Bakı poçt-teleqraf idarəsinin rəisinə həvalə olunsun.

Şəhər rəislyinin n.m. polkovnik ***Martınov***
Dəftərxana rəisi ***Umantsev***
Karküzar əvəzi ***Paşkov***

*s. 233*

Qaynaq: *Dokumentı vneşney politiki SSSR. Tom I. 7 noyabrya 1917 q. - 31 dekabrya 1918 q. M., Qospolitizdat, 1959.- 772 str.*

## № 156

## Xalq Xarici İşlər Komissarlığının İranın müvəqqəti işlər vəkili Əsəd xana notası

29 aprel 1918-ci il

İran ərazisinin rus qoşunları tərəfindən boşaldılması məsələsinə dair Sizin bu ilin 26 aprel tarixli 52 №-li notanıza cavab olaraq aşağıdakıları bildiririk.

İran cəbhəsinin Hərbi-İnqilabi Komitəsi bu il 23 mart tarixli teleqramı ilə məlumat vermişdir ki, "İran Cəbhəsinin Hərbi-İnqilab Komitəsi çox böyük səylə rus qoşunlarını İrandan çıxarmışdır. Təxliyə zamanı asayişin pozulmasına yol verilməmişdir. İşğal ərazisindən çoxmilyonlu əmlakın çıxarılmasına başlayırıq. İran xalqı ilə sıx dostluq münasibətləri qururuq".

Deməli, layihələşdirilmiş təxliyəni sürətləndirmək üçün sovet hökuməti tərəfindən hər bir şey edilmişdir. İran hökumətinin məlumatına görə əgər İranda sovet hökumətinə tabe olmayan əksinqilabçılar qalırsa, onda biz İran hökuməti ilə həmrəy olaraq onlara qarşı lazımi tədbirlər görməyə hazırıq. Bununla belə, İranda general Baratovun qeyri-mütəşəkkil quldur dəstəsinin qalması səbəblərindən birinin son vaxtlaradək general Baratovla sıx münasibətdə olan Tehranın əvvəlki elçisi Etterin İran rəsmi dairələrinə yol tapmasının olduğunu qeyd etməyi özümüzə borc bilirik. Bu da Baratovun quldur dəstəsindən əksinqilabi məqsədlər üçün istifadə etmək imkanı verirdi.

İranın müvəqqəti işlər vəkilinin 26 aprel 1918-ci il tarixlı

notasında deyilirdi:

"İran səfirliyindən alınan rəsmi məlumatlara əsasən general Baratov rus qoşunlarının çıxarılması barədə əmrlə və demək olar ki, başa çatmaqda olan təxliyə ilə hesablaşmayaraq İran ərazisində zabitlər, əsgərlər və kazaklar kimi rus könüllülərindən ibarət xüsusi dəstələr yaradır. Könüllülər yerli hakimiyyət orqanlarının narazılığına baxmayaraq, İran hüdudlarında, məsələn, Kermanşah, Sənədəc, Qəzvin, Gilan və b. əyalətlərdə qalmaqda davam edir; bütün bunlarla yanaşı, general Baratov tərəfindən Məşhəd şəhərində yenidən yaradılmış partizan dəstəsi Xorasan rus dəstəsinin hissəsi kimi qalmaqda davam edir. Onların tərkibindən Aşqabada guya poçt aparmaq üçün xüsusi olaraq yüz nəfərlik dəstə ayrılmışdır.

Belə bir hal mehriban qonşuluq münasibətləri prinsipinə ziddir, eyni zamanda İranın bitərəfliyinin yolverilməz şəkildə pozulmasıdır. Buna görə də aşağıda imza edən yuxarıda qeyd olunanları Rusiya Respublikası hökumətinin nəzərinə çatdıraraq və İranda qoşunların bundan sonra da qalmasına etiraz edərək İran ərazisində hələ də qalan zabit və komanda heyəti başda olmaqla rus hərbi hissələrinin və dəstələrinin silahın növündən və adından asılı olmayaraq hamısının istisnasız, təcili geri çağırılması və təxliyəsi üzrə dərhal tədbirlər görməyi xahiş edir".

*s. 273-274*

***

**№ 170**

**Xalq xarici işlər komissarı müavininin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası**

11 may 1918-ci il, № 1369

Almaniya diplomatik nümayəndəsi, imperator elçisi cənab qraf Mirbaxın 8 may tarixli notasına cavab olaraq Xalq Xarici İş-

lər Komissarlığı onu qeyd etməyi zəruri hesab edir ki, Tiflisdə Qafqaz hökuməti adını daşıyan hökumət geniş xalq kütləsi tərəfindən ciddi dəstəklənməyən adamların yığnağından ibarətdir.

Zaqafqaziyanın müstəqil elan olunmasına dair Rusiya hökuməti öz növbəsində Tiflisə tələb göndərsə də cavab almadı. Zaqafqaziya rus sovet hökuməti tərəfindən heç vaxt tanınmamışdır.

Buna görə də Xalq Xarici İşlər Komissarlığı təklif edir ki, türk sərhədində Brest sülh müqaviləsinin şərtlərinin yerinə yetirilməsi barədə danışıqlar başqa birisi ilə yox,rus sovet hökuməti ilə aparılsın.

Xalq xarici işlər komissarının müavini ***Çiçerin***
***s.285***

***

**№ 171**

**Xalq xarici işlər komissarı müavininin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası**

11 may 1918-ci il, № 1374

Biz artıq bəyan etmişdik ki, Zaqafqaziya hökuməti geniş xalq kütləsi içərisində dəstəyi olmayan adamlar toplusudur. Biz artıq Türkiyə və Almaniyadakı elçilərə göstəriş vermişik ki, sovet hökuməti tərəfindən Zaqafqaziya tanınmamışdır. Biz artıq Almaniya və Türkiyə hökumətlərinə Moskvadakı nümayəndələri vasitəsi ilə Brest müqaviləsinin həyata keçirilməsinə dair danışıqlar aparmağı təklif etmişik.

Suxum dairəsində sovet hökuməti Türkiyə ilə sülh şəraitində olaraq Zaqafqaziya hökumətinə qarşı mübarizə aparır. Zaqafqaziya hökumətinin Suxum dairəsinə hücumu təqdirində bizim

donanmaya sovet hökumətini müdafiə etmək göstərişi verilmişdir. Donanmamız Türkiyə və Almaniyaya bitərəf dövlətin donanması kimi aid olacaqdır.

Xalq xarici işlər komissarının müavini ***Çiçerin***
*s. 285.*

***

**№ 174**

**Xalq xarici işlər komissarlığının**
**Almaniyanın Xarici İşlər Nazirliyinə notası**

Surəti RSFSR-in səlahiyyətli nümayəndəsinə
radio ilə məlumat verilmişdir
11 may 1918-ci il, № 1369

11 may tarixli radioqramla Şərq cəbhəsində alman qoşunlarının ali baş komandanı Xalq Xarici İşlər Komissarlığına Qara dəniz donanmasının dərhal Sevastopola qayıtması haqqındakı tələbi barədə məlumat vermişdir. Onlar bu tələbi Qara dəniz donanması gəmilərinin Ukraynada alman qoşunlarına qarşı döyüşlərdə dəfələrlə iştirakı ilə əsaslandırdılar və əlavə etdilər ki, əgər bu tələb yerinə yetirilməsə, Şərq cəbhəsinin baş komandanı Qara dəniz sahili boyunca Sevastopoldan çıxan Qara dəniz donanması gəmilərinə qarşı mübarizəni davam etməyə məcbur olacaqdır.

Xalq Xarici İşlər Komissarlığı bu tələbə qarşı Brest sülh müqaviləsinə açıq ziddiyyət kimi qəti etirazını bildirir. Bu müqavilə rus gəmilərinin alman əllərinə verilməsi deyil, onlara rus limanlarında olmaq və yaxud tərkisilah etmək öhdəliyini qoyur. Sevastopolun alman qoşunları tərəfindən işğalından sonra Qara dəniz donanması gəmiləri rus limanına getməli idilər. Onlar No-

vorossiysk şəhərinə gedərək belə də etdilər. Gəmilərin Sevastopola qayıdışı Qara dəniz donanmasının tam faktiki güzəştə getməsi demək idi.

Almaniya hökuməti sovet donanmasının Qara dənizdə Almaniya və Türkiyəyə qarşı hərbi əməliyyatlarda guya ki, iştirakına qarşı bir dəfə də olsun etiraz etməmişdir. Ayrı-ayrı gəmilərin separat hərəkətlərinə qarşı Almaniya hökumətinin göstərişlərinə əsasən bizim tərəfimizdən tədbirlər görülmüşdür və bizim tədbirlərimizin həqiqətəuyğun olmaması barədə Almaniya tərəfdən heç bir məlumat alınmamışdır.

Bununla yanaşı, Brest sülh müqaviləsinə əsaslanan Almaniya hökuməti Brest sülh müqaviləsinin şərtlərinə və özünün, Krımın Ukrayna tərkibinə daxil olması barədə 26 mart* tarixli bəyanatına zidd olaraq Krımı işğal etmişdir.

Eyni zamanda, mayın 12-də Almaniya diplomatik nümayəndəsi qraf Mirbax Almaniya hökuməti adından bəyan etmişdir ki, Fin körfəzində İno istehkamı haqqında məsələnin həllinə qədər rus gəmiləri Kronştadtdan İnoya keçə bilmirlər. Xalq Xarici İşlər Komissarlığı rus gəmilərinin rus limanı Novorossiyskidən işğal olunmuş Sevastopola qaytarılması barədə tələblə Baltik dənizindəki rus gəmiərinə Kronştadt və rusların əlində olan İno arasında hərəkət etməkdən çəkinmək tələbi arasında olan ziddiyyəti qeyd etməyə bilməz.

Rus hökuməti Rusiyanın bütün hissələrində möhkəm sülhün bərqərar edilməsi məqsədi ilə hər bir şeyi etməyə hazırdır.

O, həmçinin, əgər müqavilə Rusiyanın bütün hissələrində alman, Avstriya-Macarıstan, türk işğallarının qəti hüdudlarının və Rusiyanın bütün hissələrində hərbi əməliyyatların şərtsiz dayandırılmasını təhlil edən, Finlandiyada və Ukraynada sərhədlərinin qurulmasna təkidlə nail olduğumuz və nail olmaqda davam etdiyimiz ümumi müqavilənin bu məsələ üzrə bir hissəsi olacaqsa, gəmilərin Sevastopola qayıtmasına razılıq verməyə də hazırdır.

Donanmanın Sevastopola qayıtmasının digər şərti Sevastopolun Almaniya, Türkiyə, Avstriya-Macarıstan və yaxud Ukraynanın işğalından tam azad olması ola bilər.

Belə ki, hərbi əməliyyatların dayandırılmasına Qafqazda da nail olmaq gərəkdir. Yoxsa rus hökuməti Almaniyanın diplomatik nümayəndəsi qraf Mirbaxın sovet hökuməti ilə Zaqafqaziya hökuməti adlı bir hökumət arasında vasitəçiliyi haqqında təklifini qəbul edir - onsuz da Almaniya və Türkiyə Zaqafqaziya siyasi hadisələrinin faktiki iştirakçılarıdır.

Xalq xarici işlər komissarlığı
***Çiçerin***

*Qeydlər:*

* Çox güman ki, Almaniya XİN-nin 29 mart 1918-ci il tarixli 13402 №-li radioqramı nəzərdə tutulur.

Şərq cəbhəsində alman qoşunlarının baş komandanının 11 may 1918-ci il tarixli radioqramında deyilirdi: "Keçmiş Qara dəniz donanmasının heyətinə qarşı hərbi əməliyyatların dayandırılmasına gəlincə, əgər açıq dənizdə olmayan Qara dəniz donanmasının bütün gəmiləri təxirə salınmadan Sevastopol limanına qaytarılarsa, - burada onlar tərksilah edilib nəzarət altına alınacaqlar və əgər Novorossiysk limanı yenidən gəmiçilik üçün açılacaqsa, - Şərq cəbhəsinin baş komandanı buna o zaman razılıq verə bilər.

Bu tələblər zəruridir. Çünki Qara dəniz donanmasının gəmilərinin Novorossiyskidə olduğu müddətdə Ukraynada alman qoşunlarına qarşı mübarizədə dəfələrlə iştirak etmiş və bununla sübut etmişdilər ki, onlar nəinki Brest sülh müqaviləsinə əsaslanmaq arzusunda deyillər, hətta rus hökumətinin əmrlərini də yerinə yetirmək niyyətində deyillər. Əgər bu şərtlər yerinə yetirilə bilməzsə, onda Şərq cəbhəsinin baş komandanı Sevastopoldan çıxan Qara dəniz donanmasının gəmilərinə qarşı Qara dəniz sahilləri ərazisində hücumlarını davam etdirməyə məcbur olacaqdır".

*s.294-296*

***

## № 178

## Xalq xarici işlər komissarını müvəqqəti əvəz edənin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası

15 may 1918-cı il, № 1446

Dünən Xalq Xarici İşlər Komissarlığına Almaniyanın diplomatik nümayəndəsi, imperator elçisi cənab Minbax tərəfindən özündə Qafqaz Dağlıları İttifaqı hökumətinin bu ittifaqın Qara dənizdən tutmuş Xəzər dənizinədək olan ərazilərdə özünü müstəqil dövlət elan etməsi haqqında bəyanatını əks etdirən radioteleqram çatdırılmışdır. Bununla bağlı olaraq Xalq Komissarlığı Qara dəniz sahilləri, Kuban, Terek, Dağıstanın tayfa və xalqları ilə Rusiya Federasiyası arasında sıx əlaqələrin olduğunu, onların özlərinin demokratik surətdə təşkil olunmuş qurultaylarında çoxdan bildirdiklərini qeyd etməyi özünə borc bilir. Öz xalqının geniş təbəqələrinin istəyini tapdalamağa çalışan çox da böyük olmayan bir qrup əhalinin özü tərəfindən ifşa ediləcəkdir.

Bu qrup tərəfindən hökumətin qəsb edilməsinə qarşı Rusiya sovet hakimiyyəti qəti olaraq çıxış edəcəkdir.

Xalq xarici işlər komissarını müvəqqəti əvəz edən

*Çiçerin*

*s.302*

***

## № 179

## Xalq xarici işlər komissarını müvəqqəti əvəz edənin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası

15 may 1918-ci il, № 1447

Dünən Almaniyanın diplomatik nümayəndəsi, imperator elçisi cənab qraf Mirbax tərəfindən edilmiş rus hökuməti və Zaqafqaziya hökumətinə münasibətdə Almaniya hökuməti tərəfin-

dən vasitəçilik məqsədi ilə onun xidmətlərinin qəbul edilməsi, bu məsələyə dair bizim təklif və tələblərimizi yazılı şəkildə ona çatdırmaqla bağlı təklifinə cavab olaraq Xalq Komissarlığı bildirir ki, onun fikrincə, Almaniya, Osmanlı hökuməti və Zaqafqaziya hökuməti arasında Batumda aparılan danışıqlara rus hökumətinin səlahiyyətli nümayəndəsinin cəlb olunması vacibdir.

Xalq Komissarlığı Zaqafqaziyanın bir çox yerlərində Zaqafqaziya hökumətinin tanınması və geniş xalq kütləsinin bütün Zaqafqaziyada ona qarşı çıxış etməsini bildirməyi özünə borc bilir. Tiflis və Kutais quberniyasında Rusiyadan ayrılmağa qarşı əhali öz etiraz səsini ucaltmışdır. Suxum, Poti, Kutais, Qori, Tiflis, Duşet və sair gürcü şəhərlərində və bir çox yerlərdə keçirilən geniş mitinqlərdə Seymi qəsbkarlıqda günahlandıran və referendum keçirilməsini təkidlə tələb edən qətnamələr çıxarılmışdır. Qətnamələrdə qeyd edilir ki, Seym üzvləri Ümumrusiya Müəssisələr Məclisinə inqilabın əldə etdiyi nailiyyətləri möhkəmləndirmək üçün seçilirdilər, onlar Rusiyadan ayrılmaya aid məsələləri həll etmək səlahiyyətində deyildilər. Erməni şəhərləri və kəndləri öz deputatlarının Seymdən getməsində təkid edərək referendumun keçirilməsini tələb edirlər. Bir çox gürcü və erməni deputatları artıq Seymi tərk etmişlər.

Bakı Seymçi dəstəni qəsbkar adlandırırdı. Bu mənada Lənkəran, Ələt, Dərbənd, Petrovsk, Hacıqabul, Kürdəmir və ümumiyyətlə, Gəncə hüdudlarına qədər bütün Şərqi Zaqafqaziya da çıxış etdi.

Batumda aparılan danışıqlarda rus hökuməti nümayəndəsinin iştirakı məsələsində təkid edən Xalq Komissarlığı qeyd edir ki, bununla, Zaqafqaziya hökumətinin Rusiya hökuməti tərəfindən tanınması heç də təmin edilmir, əlavə edir ki, onun iştirakı olmadan bağlanmış müqaviləni o, özünü tanımaq hüququnda hesab etməyəcəkdir.

Xalq xarici işlər komissarını müvəqqəti əvəz edən

*Çiçerin*

*s.302-303*

***

## №183

## Xalq xarici işlər komissarını müvəqqəti əvəz edənin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası

17 may 1918-ci il, №1500

Cənab qraf!

Mən Sizə aşağıda göstərilən işlər barəsində təxirəsalınmaz tədbirlər görmək xahişi ilə təcili məktub yazıram.

Zaqafqaziya hökuməti adlanan hökümət xalq kütlələri ilə bağlı deyildir: bu ərazinin mühüm hissəsi bütünlüklə bizim tərəfimizdədir. Abxaziyada bütün xalq bu qəsbkarlara qarşı mübarizə aparır, amma Zaqafqaziya hököməti salahlı ticarət gəmilərindən sahili bombardman edir. Dənizçilərimiz bizə sadiq olan yerli əhaliyə qarşı bu hücumlara passiv tamaşaçı kimi qala bilmirlər və Siz, şübhəsiz, başa düşərsiniz ki, əgər alman hököməti Qara dənizdə bu quldurlara qarşı mübarizə aparmaq işində bizə kömək etmirsə, onda o, bizim özümüzü müdafiə etməyimizə qarşı da çıxa bilməz.

Bu ərazilərdə gərgin vəziyyəti aradan qaldırmaq üçün mən Sizdən kifayət qədər tez cavab verməyinizi xahiş edirəm.

Cənab qraf, mənim Sizə olan böyük ehtiramımın səmimiliyini qəbul edin

*cənab **Çeçerin***

***s.306-307***

***

## №193

## Xalq xarici işlər komissarını müvəqqəti əvəz edənin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası

22 may 1918-ci il, № 1640

Alman hökumətinin Brest müqaviləsindən irəli gələn və ay-

dınlaşdırılmamış qalan məsələləri həll etmək məqsədi ilə xüsusi komissiyanın yaradılmasına bəyan etdiyi razılıqla yanaşı, Xalq Xarici İşlər Komissarlığı qeyd olunmuş komissiyanın çağırılma yerinin Moskva olmasını təklif edir və gündəlikdə növbədənkənar aşağıdakı məsələlərin qoyulmasını təqdim edir.

1. Qafqazdakı vəziyyət, burada nə Zaqafqaziya hökuməti, nə də Dağlıların ittifaq hökuməti Rusiya Federasiyasndan ayrılmasına təəssüf etməyən xalq kütləsinin dəstəyindən həqiqi mənada istifadə edir;

2. Krımdakı vəziyyət, əhalinin əksəriyyəti sovet hökuməti tərəfində çıxış edir;

3. Brest müqaviləsinin III maddəsi ilə nəzərdə tutulmuş sərhədin istiqamətinin Pskovda demarkasiya komissiyası tərəfindən qoyulması əsaslı ziddiyyətlər və həmçinin, mübahisə doğuran müvəqqəti alman hüdudlarının göstərilməsi nəticəsində dayandırılmışdır;

4. Brest müqaviləsinə əsasən yalnız müvəqqəti alman polis qüvvələri tərəfindən zəbt olunan Estlandiya və Liflandiyanın siyasi vəziyyəti;

5. Əsirlərə dair qətnamələrdə prinsipial anlaşılmazlıqlar, onların praktik nəticəsi müvafiq qərarların verilməsi ilə bir-birinə yaxın anlaşılmazlıqlardır...

Xalq Komissarlığı əmindir ki, bu məsələlərin həlli üçün onun təklifi ilə Moskvada əl altında olan müvafiq sənədlər əsasında aparılan iş alman xalqının olduğu kimi, rus xalqının da maraqları üçün əhəmiyyətli nəticə verəcəkdir.

Xalq xarici işlər komissarını müvəqqəti əvəz edən

*Çiçerin*

s.315-316

***

## № 195

## Xalq xarici işlər komissarını müvəqqəti əvəz edənin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa notası

23 may 1918-ci il, № 1672

Mayın 13-də Almaniyanın diplomatik nümayəndəsi, imperator elçisi qraf Mirbaxın rus hökuməti və Zaqafqaziya hökuməti arasında vasitəçilik məqsədi ilə öz xidmətlərini təklif etməsi məsələsinə cavab olaraq Xalq Xarici İşlər Komissarlığı rus hökumətinin bu təklifi qəbul etməsi haqqında bəyanat verdi*. Beləliklə, rus hökumətinin Zaqafqaziyada hakimiyyət başında duran bir qrup şəxslə yaxınlaşması cəhdləri boşa çıxandan sonra Rusiya Sovet Federasiyası və Zaqafqaziya bölgəsi ilə münasibətlərin nizama salınması işində ilk addım atıldı.

Mayın 14-də Almaniya diplomatik nümayəndəliyi rus hökumətinə öz tələblərini və verilmiş məsələdə istəklərini yazılı şəkildə bəyan etməyi təklif etdi. Mayın 15-də Xalq Komissarlığı cavab verdi ki, onun fikrincə, Batumda bir tərəfdən Almaniya və Osmanlı hökumətləri arasında aparılan danışıqlarda rus hökumətinin səlahiyyətli nümayəndəsinin iştirakı zəruridir, əks təqdirdə rus hökuməti bu danışıqları hüquqi cəhətdən saymayacaqdır.

Dünən, mayın 22-də Almaniya diplomatik nümayəndəliyi Xalq Xarici İşlər Komissarlığına məlumat verdi ki, Çxenkeli hökuməti Zaqafqaziyanın müstəqlliyinin tanınmasına dair rus hökuməti ilə danışıqlara nümayəndə kimi daxil olmaq üçün vətəndaş Maçabelini göndərir. İmperator elçisi qraf Mirbax əlavə olaraq qeyd etdi ki, Almaniya imperator hökuməti danışıqların aparıldığı yer kimi Kiyevin olmasını təklif edir və bu işin tezliklə nizama salınmasını tövsiyə edir.

Çxenkeli hökuməti ilə sıx münasibətlər saxlamaq cəhdləri-

nə nail olmadıqdan sonra rus hökuməti Almaniya diplomatik nümayəndəliyinin məlumatını rəğbətlə nəzərə alır və Çxenkeli hökumətinin nümayəndəsi ilə təcili danışıqlara başlamağa hazır olduğunu bildirir, o, həmçinin bununla Zaqafqaziya hökumətinin təsdiq edilməsi və Zaqafqaziya əhalisinin çoxunun bu ölkəni müstəqil görmək arzusuna zidd olan məsələlərin həll olunmasını bəyan edir. Rus hökuməti eyni zamanda, təxmin edir ki, Moskva və Tiflislə münasibətlərində problemləri olan Kiyev şəhəri nəzərdə tutulmuş danışıqlar üçün çox çətin ki, əlverişli yer olsun. Rus hökumətinin fikrincə, işin xeyri üçün danışıqlar Zaqafqaziyadan çox da uzaqda olmayan Sovet Federasiyasının şəhərlərindən birində keçirilməlidir, üstəlik rus hökuməti bu məqsədlə Vladiqafqazı təklif edir. Rus hökuməti alman hökumətinin qeyd olunmuş danışıqlara dərhal başlanması və tezliklə nəticəyə nail olunması istəklərini tamamilə bölüşdürür.

Xarici işlər komissarını müvəqqəti əvəz edən

*Çiçerin*

*Qeydlər:*

* Almaniyanın Moskvadakı diplomatik nümayəndəsinin 22 may 1918-ci il tarixli yaddaş qeydində deyilirdi: "Çxenkeli knyaz Maçabeliyə Zaqafqaziya Respublikası adından rus hökuməti ilə Zaqafqaziyanın müstəqilliyinin tanınmasına dair danışıqlar aparmaq işini həvalə etmişdir.

Alman hökuməti rus hökumətinin tezliklə danışıqlara başlanmasına razılığını bildirməyi xahiş edir. Alman hökuməti belə hesab edir ki, Kiyev danışıqlar üçün əlverişli yerdir, belə ki, Ukrayna ilə danışıqlar aparan rus nümayəndələri orada Zaqafqaziya nümayəndələri ilə də danışıqlar apara bilər.

Alman hökuməti iki nümayəndə ilə təmsil oluna bilərdi".

*s. 316-318*

***

## № 212
## Xalq xarici işlər komissarının RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəsinə teleqramı

31 may 1918-ci il, № 279

Bakı ilə birlikdə Şərqı Zaqafqaziya bütünlüklə bizimdir. İndi türk komandanlığı Zaqafqaziyadan bütün dəmiryollarının ona verilməsini tələb edir. Bəyan edir ki, türklər Bakıya gedir, çünki burada müsəlmanlar kömək tələb edirlər. Hər mənsəbli xalq kütlələri bizimlədir. Bu, müqavilənini kəskin şəkildə pozulması deməkdir. Bu, Almaniyanın təminatına ziddir.

***Çiçerin***

*s.338*

***

## № 243
## S.Şaumyan və P.Çaparidzenin Petrovsk, Yekaterinodar, Həştərxan, Çaritsin, Saratov Deputatlar Sovetinə

Surəti Moskvaya - Leninə

21 iyun 1918-ci il

Şimali Qafqazda və Volqa boyunda belə şayiələr gəzir ki, guya Bakı sovet hakimiyyəti ingilislərlə alman-türklərə qarşı müştərək mübarizə haqqında razılığa gəlmiş və guya ingilis qoşunları artıq Bakıya çıxarılmışdır. Bu təbliğat xarakterli şayiələri təkzib edərək bəyan edirəm ki, Bakıda heç bir ingilis hərbi hissəsi yoxdur. Bakı sovet hakimiyyətinin ingilislərlə Bakının müştərək müdafiəsi haqqında müqaviləsi və s. kimi bir razılıq yoxdur, ola da bilməz. Haradan gəlməsinə baxmayaraq, imperialist cəhdlər Bakı proletariatı və Qafqaz sovet qırmızı ordusu tərəfindən qəti müqavimətə rast gələcəkdir.

Bakı Xalq Komissarları Sovetinin sədri və Qafqaz işləri üzrə komissar ***S.Şaumyan***
Bakı Deputatlar Sovetinin sədri ***P.Çaparidze***
Bakı, 21 iyun
*s.371*

***

**№ 212**
**V.İ.Leninin Çaritsinə İ.V.Stalinə teleqramı**

7 iyul 1918-ci il, gecə saat 1

Bu gün* saat 3-ə yaxın sol eser bomba ilə Mirbaxı öldürdü. Bu ölüm monarxiyaçıların və yaxud ingilis-fransız kapitalistlərinin marağına açıq surətdə uyğun idi. Sol eserlər canini ələ vermək istəməyərək Dzerjinski və Latsisi həbs etdilər və bizə qarşı üsyana başladılar. Biz elə bu gecə amansızcasına rəftar edəcəyik və xalqa bütün həqiqəti çatdıracağıq: biz müharibə ərəfəsindəyik. Bizdə yüzlərlə girov sol eser vardır. Əksinqilabçıların əlində silaha çevrilən bu bədbəxt və isterik avantüristləri hər yerdə amansızcasına məhv etmək lazımdır. Kim müharibəyə qarşıdırsa, bizimlədir.

Bakıya dair əsas odur ki, Şaumyan ilə yaxın münasibətdə olasınız və almanların Berlində səfir İoffeyə etdikləri, bizim almanlara neftin bir hissəsini təminat verməklə, türklərin Bakıya hücumunun qarşısını almağa almanların hazır olduqlarına dair təklifindən Şaumyan xəbərdar olsun. Əlbəttə ki, biz razı olacağıq. Beləliklə, sol eserlərə qarşı amansız olun və tez-tez məlumat verin.

***Lenin***

***Qeydlər:***

* Yəni iyulun 6-da.
*s. 381*

***

## № 276
## Bakıda vəziyyətə dair İ.V.Stalinin Çaritsindən V.İ.Leninə teleqramı

21 iyul 1918-ci il

Bakıdan Şaumyandan alınan məlumata görə Sovetdəki eserlər və daşnaklar ingilisləri Bakıya köməyə çağırmağı tələb edirlər. İngilis-fransız agentləri tərəfindən təşviq edilən ordunun və donanmanın bir hissəsi də bunu tələb edir. Şaumyan məndən hökumətin fikri barədə təcili rəsmi məlumat verməyi tələb edir. Mən Bakıya aşağıdakı teleqramı göndərməyi lazım bildim: "Son məlumatlara görə Bakı Deputatlar Sovetinin xalq fraksiyası varyaqların-ingilislərin guya ki, türk işğalçılarına qarşı mübarizədə kömək etmək məqsədi ilə çağırılmasına nail olmağa çalışırlar. Murmansk və Uzaq Şərqdə ingilis-fransızlar tərəfindən edilən belə bir köməyin təcrübəsini nəzərə alaraq qətiyyətlə demək olar ki, xalq fraksiyası özü dərk etmədən Bakı və onun rayonlarının işğal edilməsi üçün əsas hazırlayır. Bununla yanaşı, şübhəsiz ki, xalq partiyalarının V Ümumrusiya sovetlər qurultayının Rusiya Sovet Respublikasının almanlardan və ingilislərdən asılı olmayan müstəqil siyasəti uğrunda açıq çıxış etdiyi bir vaxtda beynəlxalq siyasət məsələlərinin belə sistemsiz şəkildə həll etməsi cəhdi ingilis-fransız imperialistləri qrupunun xeyrinə Rusiyanın təşkil olunmuş tələbinin kobud surətdə pozulması deməkdir. Ümumrusiya MİK və Xalq Komissarları Soveti adından mən Bakı Sovetindən, ordu və donanmadan bütün Rusiya fəhlə və kəndlilərinin ixtiyarına tabe olmasını tələb edirəm. V Sovetlər qurultayı qərarlarının həlli uğrunda mən Bakı Xalq Komissarları Sovetindən müvafiq komissiya üzvlərinin həbsinə qədər xarici kapitalın agentləri ilə həlledici mübarizənin və müstəqil beynəlxalq siyasətin danışıqsız həyata keçməsini tələb edirəm.

Xalq komissarı ***İ.Stalin***

***s.401-402***

***

**№ 277**
**V.İ.Leninin S.T.Şaumyana teleqramı**

22 iyul 1918-ci il

Stalinin Bakı Deputatları Sovetinin xalq partiyasına qarşı və V sovetlər qurultayının qərarına dair teleqramını yalnız dəstəkləyə bilərəm.

Xalq Komissarları Sovetinin sədri ***Lenin***

*s. 402*

***

**№ 284**
**Xalq xarici işlər komissarı Almaniyanın müvəqqəti diplomatik nümayəndəsi Ritslerə**

25 iyul 1918-ci il, № 4014

Cənab məxvi müşavir,

Sovet hökumətinin Almaniya ilə dostluq münasibətləri qurmaq üçün usanmaz cəhdlərinə baxmayaraq, alman-türk qüvvələri Bakıya doğru hərəkət edir və artıq Şamaxıdadırlar. Biz Brest müqaviləsi şərtlərinin pozulmasına qarşı və sovet hökumətinə sədaqəti sarsılmaz olan Bakı ərazisinə qarşı yönəlmiş bu hücuma ciddi surətdə etiraz edirik. Biz ümidvarıq ki, alman hökuməti bu qoşunların qarşısının alınmasına səy göstərəcək və ərazimizin toxunulmazlığına olan qəsdə son qoyacaqdır.

Cənab məxvi müşavir, Sizə olan səmimi ehtiramımı qəbul edin.

***Çiçerin***

*s.410*

***

## № 276
## Bakıda vəziyyətə dair İ.V.Stalinin Çaritsindən V.İ.Leninə teleqramı

21 iyul 1918-ci il

Bakıdan Şaumyandan alınan məlumata görə Sovetdəki eserlər və daşnaklar ingilisləri Bakıya köməyə çağırmağı tələb edirlər. İngilis-fransız agentləri tərəfindən təşviq edilən ordunun və donanmanın bir hissəsi də bunu tələb edir. Şaumyan məndən hökumətin fikri barədə təcili rəsmi məlumat verməyi tələb edir. Mən Bakıya aşağıdakı teleqramı göndərməyi lazım bildim: "Son məlumatlara görə Bakı Deputatlar Sovetinin xalq fraksiyası varyaqların-ingilislərin guya ki, türk işğalçılarına qarşı mübarizədə kömək etmək məqsədi ilə çağırılmasına nail olmağa çalışırlar. Murmansk və Uzaq Şərqdə ingilis-fransızlar tərəfindən edilən belə bir köməyin təcrübəsini nəzərə alaraq qətiyyətlə demək olar ki, xalq fraksiyası özü dərk etmədən Bakı və onun rayonlarının işğal edilməsi üçün əsas hazırlayır. Bununla yanaşı, şübhəsiz ki, xalq partiyalarının V Ümumrusiya sovetlər qurultayının Rusiya Sovet Respublikasının almanlardan və ingilislərdən asılı olmayan müstəqil siyasəti uğrunda açıq çıxış etdiyi bir vaxtda beynəlxalq siyasət məsələlərinin belə sistemsiz şəkildə həll etməsi cəhdi ingilis-fransız imperialistləri qrupunun xeyrinə Rusiyanın təşkil olunmuş tələbinin kobud surətdə pozulması deməkdir. Ümumrusiya MİK və Xalq Komissarları Soveti adından mən Bakı Sovetindən, ordu və donanmadan bütün Rusiya fəhlə və kəndlilərinin ixtiyarına tabe olmasını tələb edirəm. V Sovetlər qurultayı qərarlarının həlli uğrunda mən Bakı Xalq Komissarları Sovetindən müvafiq komissiya üzvlərinin həbsinə qədər xarici kapıtalın agentləri ilə həlledici mübarizənin və müstəqil beynəlxalq siyasətin danışıqsız həyata keçməsini tələb edirəm.

Xalq komissarı ***İ.Stalin***

***s.401-402***

***

## № 277
## V.İ.Leninin S.T.Şaumyana teleqramı

22 iyul 1918-ci il

Stalinin Bakı Deputatları Sovetinin xalq partıyasına qarşı və V sovetlər qurultayının qərarına dair teleqramını yalnız dəstəkləyə bilərəm.

Xalq Komissarları Sovetinin sədri ***Lenin***

*s. 402*

***

## № 284
## Xalq xarici işlər komissarı Almaniyanın müvəqqəti diplomatik nümayəndəsi Ritslerə

25 iyul 1918-ci il, № 4014

Cənab məxvi müşavir,

Sovet hökumətinin Almaniya ilə dostluq münasibətləri qurmaq üçün usanmaz cəhdlərinə baxmayaraq, alman-türk qüvvələri Bakıya doğru hərəkət edir və artıq Şamaxıdadırlar. Biz Brest müqaviləsi şərtlərinin pozulmasına qarşı və sovet hökumətinə sədaqəti sarsılmaz olan Bakı ərazisinə qarşı yönəlmiş bu hücuma ciddi surətdə etiraz edirik. Biz ümidvarıq ki, alman hökuməti bu qoşunların qarşısının alınmasına səy göstərəcək və ərazimizin toxunulmazlığına olan qəsdə son qoyacaqdır.

Cənab məxvi müşavir, Sizə olan səmimi ehtiramımı qəbul edın.

***Çiçerin***

*s.410*

***

**№ 285**
**Xalq Xarici İşlər Komissarlığının RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəsinə teleqramı**

25 iyul 1918-ci il

Alman-türk qoşunları Bakıya irəliləyirlər. Onlar bir neçə alay və artilleriyanın olduğu Şamaxı və Kürdəmir rayonlarında cəmləşmişlər. Hücumun qarşısını təcili surətdə almaq gərəkdir. Bakını ciddi təhlükə gözləyir.

*Çiçerin*

*s.410*

***

**№ 287**
**S.T.Şaumyanın V.İ.Leninə teleqramı**

27 iyul 1918-ci il

Cəbhədə vəziyyət gündən-günə pisləşir. Şamaxı istiqamətində bizim qoşunlarımız Bakıya qədər geri çəkildilər və dəmiryol xətti boyu yenidən təşkil edildilər. Şimaldan Pirsaat istiqamətində, cənubdan Salyan tərəfindən hədələnən qoşunlar Ələt stansiyasına qədər geri çəkildilər: vəziyyət çox gərgindir. Uğursuzluqların və çaxnaşmanın təsiri nəticəsində vəziyyətin gərgin olduğu sovetdə sağ partiyalar dünən, iyulun 25-də yenidən ingilisləri dəvət etmək məsələsini qaldırdılar. V sovetlər qurultayının qətnaməsinə və Stalinin ingilislərin dəvət edilməsinin yolverilməzliyi haqqında teleqramına əsaslanaraq mən bu məsələnin müzakirədən çıxarılmasını tələb etdim. Qeyri-müəyyən səs

çoxluğu ilə mənim tələbim rədd edildi. Mən buna qarşı qəti etirazımı bildirdim. Məsələninin müzakirəsində sağ eserlər, daşnaklar və menşeviklərin 259 səs çoxluğu, bolşeviklər, sol eser və sol daşnak qruplarının 226 səsinə qarşı ingilislərin dəvəti və hökumətin sovet partiyalarından deyil, hər bir kəsdən təşkil edilməsi haqqında qətnamə qəbul etdilər. Bu qətnaməyə də mərkəzi hakimiyyətin nümayəndəsi kimi öz qəti etirazımı bildirdim. Səsvermə zamanı daşnaklar bizə qarşı münasibətdə satqınlıq etdilər. Sollar bəyan etdilər ki, onlar qəbul olunmuş qətnamənin Rusiyanın fəhlə və kəndlilərinə münasibətdə bədnam xəyanət və nankorluq kimi qiymətləndirirlər və onlar qəbul olunmuş qərarlar üzərində hər hansı cavabdehliyi öz üzərlərinə götürmürlər.

Qətnamə qəbul olunduqdan sonra şəhərdə vəziyyət çox gərgindir. Vətəndaş müharibəsi təhlükəsi yaranmışdır. İngilis köməyi şübhə altındadır. Lakin onların dəvəti haqqındakı qətnamə ordunu tamamilə bərbad vəziyyətə qoydu və təhlükəni artıraraq arxa cəhbənin nizamını pozdu. Bakını xilas etmək Rusiya üçün vacibdir. Rusiyadan təcili olaraq yardım üçün qoşunlar göndərmək lazımdır. Nizami qoşunların dərhal göndərilməsi üçün tədbirlər görməyinizi xahiş edirik. Bizə qarşı nizami türk qoşunları döyüşürlər. Alman təlimatçıları vardır. Qoşunların dərhal göndərilməsi üçün Sizin sərəncamlarınızı və ingilislərin dəvət olunması haqqında qəbul olunmuş qərarla bağlı Sizin göstərişlərinizi gözləyirik.

Qafqaz işləri üzrə fövqəladə komissar ***Şaumyan***

*s. 411-412*

***

## № 294
## Xalq xarici işlər komissarı Almaniyanın diplomatik nümayəndəsi Helferixə

2 avqust 1918-ci il, № 4150

Əlahəzrət,

Biz Qafqazdan Bakıya irəliləyən qoşunlar haqqında məsələni dəqiqləşdirən məlumatlar almışıq. Bir neçə həftə bundan əvvəl türk qoşunu yanında könüllü ordu korpusu yaranmışdır. Buraya Kornilov qiyamı zamanı onun ardınca gedən və Qafqaz xalqlarından yaranmış, köhnə quruluş zamanı süvarini təmsil edən keçmiş "Vəhşi diviziya"nın qalıqları daxildir. Bu qalıqlar hücum zamanı türk ordusunun batalyonları tərəfindən birləşdirilmiş və bundan əlavə, türklər, onlar tərəfindən işğal olunmuş rayonlarda müsəlman əhalisini zorla hərbi mükəlləfiyyətə cəlb etmişlər, əvvəllər bu geniş yayılmışdı. Məhz bu "könüllü ordu" Bakıya irəliləyir. Biz əminik ki, türk ordusuna qarşı münasibətdə bizə verilmiş təminatlar bu ordunun yuxarıda xarakterizə olunmuş hissələrinə də aiddir.

Cənab diplomatik nümayəndə, Sizə olan böyük ehtiramla səmimi inamımı qəbul edin.

***Çiçerin***

***s. 416***

***

## № 306
## Xalq xarici işlər komissarının Almaniyanın baş konsulu Hauşildə notası

19 avqust 1918-ci il, № 4388

Şübhə yeri qalmayan mənbələrdən göründüyü kimi Almaniya və Türkiyə tərəfindən bizə verilmiş bəyanatlara baxmayaraq, son həftələr ərzində türk qoşunları Bakıya hərəkətlərini da-

vam etdirir və artıq şəhərin özünə hücum da etmişdir. Elə indi Bakıdan gələn, bizə yaxşı tanış olan şəxs məlumat verir ki, iyulun əvvəlində türk qoşunları Kürdəmiri tutmuşdular. İyulun ortasında qoşunlarımız türkləri Göyçaya qədər sıxışdırdı. Lakin iyulun 22-si üçün xəstəliklərin yayılması, suyun çatışmaması və digər çətinliklər ucbatından Ələtə çəkildilər və artıq iyulun 28-də türklər Biləcəriyə çatdılar. Türklərin gəlişi ilə Bakı əhalisi arasında yaranmış təşviş iyulun 18-də Şamaxının tutulması ilə əlaqədar olaraq qaçqınların yaranması ilə daha da gücləndi. İyulun sonunda şəhərin vəziyyəti çox ümidsiz görünürdü. Bakı yaxınlığında iyulun 31-də Şıxov və Bibiheybət yüksəkliklərini ələ keçirən türklər bolşevik qoşunlarının artilleriya hücumlarına rast gəldi və avqustun 4-də türkləri Biləcəridən çıxarıldılar.

Hələ iyulun 30-da Bakıda türk qoşunlarına komandanlıq edən Şövkət Paşanın şəhərin verilməsini tələb edən müraciətnaməsi alındı. Türklər müsəlmanlar arasında vərəqələr paylamağa başladılar. Bu vərəqələrdə deyilirdi: biz vəhşi deyilik, ancaq biz sizi vəhşilərdən xilas etməyə gəlmişik. Son günlərdə bu ərazidə baş verən hadisələr haqqında məlumatlar daxil olmamışdır. Son məlumatlara görə şəhərdə .vəziyyət çox ağırdır. Brest sülh müqaviləsinin biabırcasına pozulmasına, Almaniya və Türkiyə hökumətləri tərəfindən verilmiş çoxsaylı təminatlara qarşı qəti etiraz bildirərək, xahiş edirik, Siz Almaniya hökumətinə bir daha bildirəsiniz ki, Bakının türklər tərəfindən tutulması böyük faciə olacaq və böyük həcmdə sərvətlərin dağılmasına səbəb olacaqdır. Yenə də ümid edirik ki, Almaniya hökuməti bu faciənin baş verməsinə yol verməyəcəkdir. Xüsusən də, ona diqqəti yönəldirik ki, Bakı nefti bütün Rusiyanın xalq təsərrüfatı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də Rusiya, ona əhəmiyyətli olan ölkələrlə iqtisadi münasibətlərə daxil olmağa çalışır.

Xalq xarici işlər komissarı ***Çiçerin***

***s.428-429***

***

## № 308
## RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəsinin Xarici İşlər Nazirliyinə notası

19 avqust 1918-ci il, № A491

Rusiyanın səlahiyyətli nümayəndəliyi türk qoşunlarının Bakıya irəliləməməsi barədə Xarici İşlər Nazirliyinin rus hərbi hakimiyyətinin məlumatlarından irəli gələn aşağıda göstərilənləri nəzərinizə çatdırır. Türk qoşunları Bakını ələ keçirmək cəhdlərini davam etdirirlər. İyulun 31-də türk qoşunları artıq şəhər yaxınlığında yerləşən Şıxov və Bibiheybət yüksəkliklərinə çatmış, avqustun 4-də sovet qoşunları tərəfindən Biləcəridən kənara qovulmuşlar. Türk qoşunlarının nailiyyətləri alman təlimatçılarının xidmətləri ilə bağlıdır. Avqustun 5-də Bakıya Rusiyadan gəmilərlə alman zabitləri və tibb bacıları gətirilmişdir. Onlar gəlişlərinin məqsədi ilə maraqlanmış və türk qərargahı haqqında məlumatlandırılmışlar. Onların gözlədiyi kimi bu tarixdə türk qərargahı artıq Bakıda olmalı idi. Türklər Bakı şəhərinə hücumdan məmnun qalmadılar: iyulun 29-da onlar Bakı-Dərbənd dəmiryol xəttində yerləşən Nasosnı dəmiryol stansiyasına doğru hərəkət etdılər.

Yuxarıda qeyd olunan məlumatlar türk qoşunlarının Bakıya hücumunu sübut edən dəlillərdir. Sənədli dəlil kimi iyulun 30-da türk qoşunlarının komandanı Şövkət Paşanın şəhərin verilməsi haqqında tələbinin Bakıya çatdırılmış müraciətnaməsi ola bilər. Bəhanə görkəmi vermək üçün Şövkət Paşa müraciətnaməsində bildirir ki, türklər vəhşi deyillər, əksinə, onların əsas məqsədi müsəlmanları vəhşilərin əlindən xilas etməkdir.

Almaniya imperiya hökumətinin türklərin Bakıya buraxılmaması haqqında təminatlarına müvafiq olaraq Rusiya səlahiyyətli nümayəndəliyi yuxarıda gətirilmiş faktlar və Almaniya İm-

periya hökumətinin təlimatları arasında ziddiyyətlərə aydınlıq gətirmək üçün Xarici İşlər Nazirliyindən kömək istəmək məcburiyyətindədir. Rusiya səlahiyyətli nümayəndəliyi bunu da təəccüblə qeyd etməlidir ki, Almaniya imperiya hökumətinin təminatlarına zidd olaraq türk qoşunlarının tərkibində alman təlimatçıları xidmət edir və türk nailiyyətləri də bu təlimatçıların köməkləri ilə izah olunur. Bakının türk qoşunları tərəfindən tutulması və bunun ardınca ermənilərin Bakıda türk qoşunları tərəfindən tutulması və bunun ardınca ermənilərin Bakıda qırğın törətmə təhlükəsi şəraitində əvvəl-axır ingilispərəst mövqenin üstün gəlməsi də təəccüblü olmazdı.

Rusiya səlahiyyətli nümayəndəliyi ümid edir ki, Xarici İşlər Nazirliyi bununla əlaqədar olaraq tədbirlər görəcək və bununla da Almaniya imperiya hökumətinin Bakıya dair təminatlarına hörmətsizliyə son qoyulacaqdır.

**İoffe**

*s. 430-431*

***

## № 319

## Rusiya və Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Türkiyə arasında imzalanmış sülh müqaviləsinə əlavə rus-alman müqaviləsi

27 avqust 1918-ci il

Rusiya Sovet Federativ Sosialist Respublikası və Almaniya imperiya hökuməti 1918-ci il martın 3-ü (17-si)ndə Rusiya və Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında bağlanmış sülh müqaviləsi ilə bağlı yaranmış mehriban razılaşma və qarşılıqlı yaxınlaşma timsalında siyasi məsələlərin həllini rəhbər tuturlar və bu yolla hər iki dövlət arasında mehriban və dostluq münasibətlərin bərpa edilməsi istiqamətində

başlanmış imzalanmaya kömək etmək niyyətindədirlər.

Bu məqsədlə sülh müqaviləsinə əlavə müqavilə imzalamağa razılıq verdilər və öz müvəkkilərini təyin etdilər: Rusiya Sovet Federativ Sosialist Respublikası hökuməti:

Almaniya imperiya hökuməti yanında öz diplomtik nümayəndəsi cənab Adolf Loffeni.

Almaniya imperiya hökuməti:

Xarici İşlər Nazirliyinin stats-sekretarı, imperatorun həqiqi məxvi müşaviri, istefada olan kontr-admiral cənab fon Hinçe və Xarici İşlər Nazirliyində rəis, imperatorun həqiqi gizli müşaviri cənab İohanqnes Kriqeni.

Öz vəzifələrini icra edən müvəkkillər bir araya gələrək aşağıdakı məsələdə razılığa gəldilər...

## VI fəsil. Qafqaz
## Rus dövlətində ayrılma cəhdləri

### Maddə 4

Sülh müqaviləsində və yaxud əlavə olunmuş müqavilədə başqa bir şey qərara alınmamışdır, Almaniya rus dövləti və onun ayrı-ayrı vilayətləri arasındakı münasibətlərə qarışmayacaq və buna görə də o, bu vilayətlərdə müstəqil dövlət qurumlarının təşkilini nə dəstəkləyəcək, nə də buna çağıracaqdır...

### Maddə 13

Rusiya, Almaniyanın Gürcüstanı müstəqil dövlət qurumu kimi tanımasına razılığını bəyan edir.

### Maddə 14

Sülh müqaviləsinin IV maddəsinin III abzasına əsasən Almaniya Gürcüstan və ya onun vilayətlərinin hüdudlarından kənarda Qafqazda baş verə biləcək hərbi əməliyyatlarda hər hansı bir üçüncü ölkəni dəstəkləməyəcəkdir. O, Qafqazda üçüncü

ölkənin hərbi qüvvələrinin aşağıda göstərilən xətləri keçməməsi üçün öz təsirini göstərəcəkdır: Kür çayının mənsəbindən Petropavlovski kəndinə qədər, sonra Şamaxı qəzası sərhədindən Ağrıoba kəndinə qədər, Bakı, Şamaxı, Quba qəzalarının sərhədlərinin birləşdiyi nöqtəyə qədər düz xətt boyunca, daha sonra Bakı qəzasının şimal sərhədindən dənizə qədər.

Rusiya imkan daxilində Bakı ərazisində neft və neft məhsullarının əldə olunmasına yardım edəcək, əldə olunmuş məhsulun dörddə bir hissəsini Almaniyaya verəcəkdir. Belə ki, hər ay hələ təyin olunacaq müəyyən miqdarda (tondan az olmayaraq): Bakı ərazisində əldə olunan miqdar müəyyən olunmuş həcmi təchiz etmək üçün kifayət deyildir və yaxud da ki, başqa məqsədlər üçün istifadə edilməlidir, ona başqa yerlərdə əldə olunmuş miqdar əlavə olunur; satış qiyməti kömürün miqdarının qiyməti ilə hesablanır.

Bu da 12-ci maddənin III abzasına əsasən Rusiyaya təqdim olunacaq malın qiyməti ilə, qalıq isə həmin tarixli rus-alman maliyyə müqaviləsinin 3-cü maddəsininin II paraqrafına əsasən Rusiya tərəfindən Almaniyaya çatdırılmalıdır. ..

**Maddə 12**

11-ci maddə və 12-ci maddənin 1-ci abzasına əsasən Donetsk hövzəsi alman qoşunlarının əlində olduğu qədər Rusiya hər ay orada əldə olunmuş kömürün, 14-cü maddənin 2-ci abzasına əsasən Almaniya tərəfindən qoyulmuş, Bakı ərazisindən gələn neft və ya neft məhsullarının miqdarından 3 dəfə çox və orada əldə olunan benzinə qoyulmuş miqdardan 4 dəfə çox əldə edir. Belə ki, Donetsk hövzəsində əldə olunan kömür bunun üçün kifayət etmir və ya başqa məqsədlər üçün istifadə edilir. O, əlavə olunmuş alman kömürü ilə tamamlanacaqdır.

*s.437-443*

***

## № 338

### RSFSR səlahiyyətli nümayəndəliyinin Almaniya Xarici İşlər Nazirliyinə notası

12 sentyabr 1918-ci il № A555

Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyyətli nümayəndəliyi Xarici İşlər Nazirliyinə məlumat verir ki, Vladiqafqazdan alınan rəsmi məlumatlara görə Vladiqafqazdan 37 verst aralıda yerləşən alman qoşunları Hərbi-Gürcüstan yolunda cəmləşmişlər.

Bu vəziyyət yerli əhalini çox narahat edir. Alman hökumətinin oradakı agentləri bu məlumatları yayaraq Almaniyanın köməkliyi ilə inquşlara müstəqillik vəd edərək onları aldadırlar. Məlum olduğu kimi, inquşlar öz şəxsi istəkləri ilə indiki rus hökumətinin tərəfindədirlər. Onlar sovet hökumətinə qarşı düşmən münasibətdə olan dağ kəndlərini tərkisilah etdilər. Buna görə də belə bir hökumət əleyhinə təbliğatı, - əgər həqiqətən onun bir rolu varsa-əhval-ruhiyyəyə və sonuncu rus-alman müqaviləsinin məzmununa ziddiyyətindən asılı olmayaraq çox zərərli ola bilər. Belə ki, o, inquşlar arasında narahatlıq və anlaşılmazlıq yaratmaq üçün nəzərdə tutulmuşdur.

Elə həmin məlumatlardan aydın olur ki, gürcü hökuməti Bakının indiki hökuməti ilə əlaqə qurmuşdur. Onlar da məlum olduğu kimi, ingilispərəstliklərini açıq büruzə verir, daha sonra Terek vilayətindən gələn bütün bolşevikləri həbs edirlər. Bu vəziyyət əgər yuxarıda göstərilən məlumatlara həqiqətən uyğundursa, bu yaxınlarda imzalanmış və təsdiq olunmuş Əlavə müqavilənin kobudcasına pozulması demək olar və bundan başqa, Almaniya imperiya hökumətinin niyyət və maraqlarına tamamilə uyğun olmazdı. Belə ki, Terek vilayətindən gələn bolşevik

hissələri Rusiya və Almaniyanın da eyni dərəcədə marağı olan Bakı və Vladiqafqazı ingilis hücumlarından qorumaq və xilas etmək üçün nəzərdə tutulmuşdur.

Eyni zamanda Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyyətli nümayəndəliyi Xarici İşlər Nazirliyinin nəzərinə çatdırır ki, Vladiqafqazda rus hökuməti ingilis missiyasını bu ərazini tərk etmək üçün təhrik etmək qərarına gəlmişlər. Belə ki, o, açıq surətdə hökumət əleyhinə fəaliyyətə keçmişdir.

Səlahiyyətli nümayəndəlik ümid edir ki, Almaniya İmperiya hökuməti tezliklə bütün məlumatları dəqiqləşdirəcəkdir və Xarici İşlər Nazirliyinin təcili cavabını gözləyir.

*s. 477-478*

***

**№ 344**
**Xalq xarici işlər komissarının Niderland elçisi Udendikə notası**

Teleqrafla Petroqrada
çatdırılmışdır 19 sentyabr 1918-ci il

Bakının təxliyəsi zamanı ingilislər özləri ilə keçmiş Bakı Sovet hökumətinin üzvləri olan Şaumyanı, Çaparidzeni, baş komandan Petrovu və b.-nı aparmışlar. Qəti etiraz edirik. Litvinovun repatriasiyası ilə yanaşı, onların da repatriasiyasını tələb edirik. Sizin vasitəçi olmağınıza ümid edirik.

*Çiçerin*

*s.489*

***

## № 346
## Xalq xarici işlər komissarının Türkiyənin Xarici İşlər Nazirliyinə notası

20 sentyabr 1918-ci il

1918-ci il martın 3-də Brest-Litovskda imzalanmış sülh müqaviləsi ilə Rusiya və Türkiyə arasında yeni ərazi-siyasi münasibətləri formalaşdı.

Brest-Litovskda müqavilənin IV maddəsi əvvəllər Rusiya Respublikasının tərkibinə daxil olmuş Kars, Ərdəhan və Batum vilayətlərinin əhalisinə qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə razılıq əsasında yeni quruluş yaratmaq hüququ verirdi.

Qeyd olunmuş vilayətlərin taleyi, onların beynəlxalq hüquqi vəziyyəti bu vilayətlərin əhalisinin öz iradəsi ilə yaradılmalı idi. Bununla yanaşı, müqavilə imzalandıqdan sonra bu vilayətlər türk hərbi qüvvələri tərəfindən tutuldu, onlar sülhsevər əhali üzərində yolverilməz soyğunçuluq və zorla müşayiət edilən hərbi işğal rejimi qurdular. Türk idarəçilərinin bu hərəkətləri ilə eyni zamanda, 19 yaşdan yuxarı kişi əhalisinin məcburi səfərbərliyı həyata keçirildi. Səsvermə ərəfəsində Türkiyəyə xeyir gətirə bilməyən nüfuzlu vətəndaşlar sürgün edilir, həbs edilir, bir çox hallarda güllələnirdilər. Səsvermə türk hakim dairələrinin nəzarəti altında keçirilirdi, onlar qarşılarında duran öz qurbanlarını repressiya etmək və qisas almaq üçün bu yolla nişanlayırdılar. Belə şəaritdə səsvermənin nəticələri həll olunmaya bilməzdi.

Rusiyadan qoparılmış vilayətlərin əhalisi üzərində törədilən amansızlıqlarla bağlı müqavilənin 4-cü maddəsininin pozulduğunu hesab edən sovet hökuməti bəyan edir ki, o, Kars, Ərdəhan və Batum vilayətləri əhalisinin iradəsinin belə izhar edilməsinin nəticələri ilə razılaşa bilməz və bu əhalinin öz vilayət-

lərinin yenı quruluşunu bərqərar etmək hüququndan istifadə etmədiyini bildirir, qeyd olunmuş vilayətlərin yeni quruluşu haqqında məsələni isə açıq qalmış hesab edir.

Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatlar sülh müqaviləsi ilə nəticələndi. Bununla belə, müqavilə imzalanandan dərhal sonra hərbi əməliyyatlar yenidən Türkiyə tərəfindən bərpa olundu və indi də davam etməkdədir. Türk nizami qoşunları quldur dəstələri ilə müttəfiq olaraq Sovet Respublikasının ərazisini tutur, şəhər və kəndləri talayır və dağıdır, qadınlar və uşaqlar da daxil olmaqla xrıstian əhaliyə divan tutur.

Sovet hökuməti dəfələrlə Türkiyə tərəfindən davam etdirilən hərbi əməliyyatlara qarşı etirazını bildirsə də bu etirazlar nəticəsiz qalmışdır. Nəhayət, bu ilin iyulunda türk qoşunları Bakıya yürüş etdi və sovet qoşunlarının düşmənlərə qarşı qəhrəmancasına müqavimətini qırdıqdan sonra Rusiya Respublikasının ən vacib şəhərlərindən birinə yol açdı. Sovet hökumətinin bütün etirazlarına baxmayaraq Osmanlı hökuməti türk hücumlarını inkar edərək cavab verdi, yaxud da, onu əsaslandırdı ki, guya Bakı yaxınlığında yerli əhalidən ibarət qeyri-nizami quldur dəstələri fəaliyyət göstərirlər. Əslində isə Bakıya hücum nizami türk qoşunları tərəfindən edilmişdir və iyulun 30-da Şövkət Paşa şəhərin verilməsi tələbi ilə Bakı əhalisinə müraciət etmişdir.

Bakı şəhəri ələ keçırildəndən sonra türk qoşunları şəhərin özündə yerləşdirilmişdir, türk qoşunları azərbaycanlı quldur dəstələri ilə aciz əhalini və ümumiyyətlə, şəhəri dağıdır və talamaqda davam edirlər. Bakıya hücumda guya, yalnız yerli quldur dəstələrinin iştirak etdiyini bildirmək üçün türk nümayəndələrinin göndərilməsi Türkiyəninin zorakı hərəkətlərini ört-basdır edən faktlarla uzlaşmır, onların himayəsi altında Brest-Litovsk müqaviləsinin sistemli şəkildə pozulması və Rusiya Respublikası ərazilərinin birbaşa tutulması ilə talan həyata keçirilir və həyata keçirilməkdə davam edir.

Sovet hökumətinin etirazlarına baxmayaraq Osmanlı höku-

məti başa çatmış yarım il ərzində Brest-Litovsk müqaviləsinin fasiləsiz pozulmuş, nəhayət, indi bütün bunların nəticəsində o, Rusiya Respublikasının ən vacib şəhərlərindən birini dağıntıya və tutulmağa məruz qoymuşdur. Osmanlı hökuməti bununla göstərdi ki, Rusiya və Türkiyə arasında Brest-Litovsk müqaviləsi pozulmuşdur. Rusiya Sovet Federativ Sosialist Respublikasının hökuməti belə qəbul etməyə məcburdur ki, Osmanlı hökumətinin hərəkəti faktiki olaraq Rusiya və Türkiyə arasında yaranmaqda olan sülh münasibətlərini, bu iki dövlət arasında olan Brest-Litovsk müqaviləsini ləğv edir.

Xalq xarici işlər komissarı ***Çiçerin***

*s.490-491*

***

**№ 347**
**Xalq xarici işlər komissarının Almaniya baş konsulu Hauşildə notası**

21 sentyabr 1918-ci il

Çox hörmətli cənab Baş konsul!

Qeyd etmək lazımdır ki,"Şimali-alman ümumi qəzeti" Bakının türk qoşunları tərəfindən tutulması məsələsinə müsbət yanaşmışdır. Alman hökumətinin nümayəndəsi kimi Sizin diqqətinizi ona yönəltmək istəyirəm ki, Rusiya Respublikasının ən vacib şəhərlərindən birinin tutulması 27 avqust əlavə müqaviləsinin 14-cü maddəsinə görə Almaniya üçüncü ölkənin hərbi qüvvələrinin Kür xəttini keçməməsi öhdəliyini öz üzərinə götürdükdən sonra baş vermişdir və eyni zamanda türk qoşunlarının Kürün arxasına çəkilməsi üçün tədbirlər görməyi vəd etmişdir. Bakıda ingilis hərbi qüvvələrinin iştirakı aydın xatırladılır,

həqiqətdə isə kiçik dəstədən təşkil olunmuşdu. Biz çox asanlıqla onları qova bilərik.

Mən onu da Sizə xatırlatmaq istəyirəm ki, biz türk hücumları təhlükəsinin Bakıya yaxınlaşması barədə alman diplomatik nümayəndəliyinə dəfələrlə məlumat vermişik, üstəlik alman tərəfindən türk hücumları barədə faktlar hər dəfə inkar olunur, yaxud da hücum həqiqətdə baş verirsə, ona təcili surətdə son qoymaq vədi verilirdi. Türkiyəyə qarşı münasibətdə öz qərarlarını həyata keçirməkdə Almaniyanın kifayət qədər gücünün olmasını nəzərə alaraq, Baş konsul, mən Sizə bu faktlardan doğan nəticələr çıxarmağı təklif edirəm. Nəzərə olmayacağı təqdirdə hüququmuzu öz əlimizdə saxlayırıq.

Bu inamları Sizə olan böyük ehtiram hissi ilə qəbul edin.

*Çiçerin*

*s. 492-493*

***

## № 349
## RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəliyinin xarici işlər nazirinə notası

21 sentyabr 1918-ci il, № A576

Bu il 20 sentyabr tarixli 30 A 32423/139030 nömrəli verbal notaya cavab olaraq Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyyətli nümayəndəliyi aşağıdakıları bəyan edir:

Brest müqaviləsinin 2-ci maddəsində deyilir:

"Razılığa gələn tərəflər digər tərəfin hökumətinə dövlət və ya hərbi təsisatlarına qarşı təbliğat və təşviqat aparmaqdan çəkinəcəklər. Bu öhdəlik Rusiyaya aid olduğu üçün Dördlər İttifaqı dövlətlərinin tutduğu dövlətlərə də şamil edilir".

Bu maddədən belə bir nəticə çıxır kı, digər dövlətin təsisatlarına və yaxud hökumətinə qarşı təbliğat yolverilməzdir və fəhlə-kəndli hökuməti müqavilənin bu maddəsinə riayət etmə-

mək haqqında Almaniya imperiya hökuməti tərəfindən ikinci dəfə irəli sürülmüş iradı qəti surətdə rədd edir. Brest sülh müqaviləsinin imzalanmasından sonra heç vaxt fəhlə-kəndli hökuməti nə hökumətinizə, nə də ki, Almaniya imperiyasının dövlət və hərbi quruluşuna, yaxud da ona müttəfiq olan dövlətlərə qarşı hər hansı bir təşviqat aparmasına özünə heç vaxt rəva bilməmişdir.

Əgər rus mətbuatında imperator hökumətini və ya Almaniyanın dövlət quruluşunu tənqid edən hər hansı bir məqalə çap edilmişsə, onda Almaniya hökuməti alman mətbuatında fəhlə-kəndli hökumətinə qarşı çap olunmuş məqalələrə görə cavabdehlikdən imtina etdiyi kimi fəhlə-kəndli hökuməti də bu məqaləyə görə cavabdehlik daşımır. Buna görə də fəhlə-kəndli hökuməti bu yolla məqalələrə Brest sülh müqaviləsinin II maddəsinin ruslar tərəfindən pozulması kimi baxmaqdan imtina edir, necə ki, Almaniya hökuməti də "Almaniya", "Norddeyçe alqemeyne çaytunq" və b. qəzetlərdə çıxan məqalələri də həmin müqavilənin müvafiq maddəsinin almanlar tərəfindən pozulması kimi baxmaqdan imtina edir.

Bu yolla səlahiyyətli nümayəndəlik Moskvadan gələn teleqramda sitat gətirilmiş qeyd olunmuş verbal notada imperator hökumətinə qarşı yönəlmiş və ya ümumiyyətlə, hər hansı bir təşviqat və təbliğat elementlərini sezməkdən imtina edir və bu məsələ ilə bağlı ona qarşı irəli sürülmüş Brest sülh müqaviləsinin pozulması ittihamına qarşı qəti surətdə etirazını bəyan edir.

Həmin ayın 19-da "Norddeyçe alqemeyne çaytunq" qəzetinin 479-cu nömrəsində "Bakının işğalı" başlığı altında qeyd meydana çıxdı. Burada Bakının türklər tərəfindən tutulması haqqında tam məmnunluq tonunda məlumat verilirdi. Həmçinin əlavə olunurdu ki, "Bakının işğalı" heç bir siyasi əhəmiyyət daşımır. Belə ki, bununla Almaniya və Rusiya Sovet Respublikası arasında imzalanmış müqaviləyə toxunulmur". Səlahiyyətli nü-

mayəndəlik Bakının işğalına dair münasibətdə Rusiyanın vəziyyəti haqqında ayrı-ayrı tərəflərin sorğusuna Moskvadan alınmış teleqram barədə məlumat verməyi özünə rəva bilmişdir. Teleqramda deyilir ki, rus hökumət dairələrində bu hadisəyə ciddi siyasi əhəmiyyət verilir və belə bir fikir ifadə olunur ki, bu, rus-alman müqaviləsinə toxunur.

Moskvanın bu teleqramı başqa əhəmiyyət kəsb edə bilməz. Burada imperator hökumətinə qarşı təşviqatın heç izi də yoxdur. Burada həmçinin, müqavilənini şərtlərinə riayət etməməkdə Almaniyanın ittiham olunması da göstərilmir. Səlahiyyətli nümayəndəlik belə hesab edir ki, Almaniya Rusiyaya qarşı münasibətdə öz üzərinə öhdəlik götürmüşdür ki, o, Qafqazda hər hansı bir üçüncü ölkənin qüvvələrinin Əlavə müqavilədə* göstərilmiş xəttin keçməməsi uğrunda çıxış edəcəkdir.

Səlahiyyətli nümayəndəliyin heç bir şübhəsi yoxdur ki, bu öhdəlik loyal həyata keçirilir. Digər tərəfdən, Rusiyanın hakim dairələri və rus xalqı tamamilə əmindir ki, Almaniyanın vəd olunmuş təsiri o qədər yaxşı nəticə verəcək ki, hər hansı bir üçüncü ölkənin hərbi qüvvələri müəyyən olunmuş xətti keçməyə cəhd göstərməyəcəkdir. Türkiyənin hərbi qüvvələrinin bu xətti keçməsi və Bakının işğal olunması faktı Rusiya üçün gözlənilməz oldu və buna müvafiq olaraq rus hakim dairələrində çox ciddi əhəmiyyət verilir. Bakının rus ticarətində və rus sənayesində məlum iqtisadi əhəmiyyətini nəzərə alaraq, bu şərait rus-alman müqaviləsi üçün nəticəsiz qala bilməz. Yalnız bu, Moskvanın teleqramında şərh olunmuşdur və bu mənada səlahiyyətli nümayəndəlik Moskvanın teleqramını nəşr etdirmiş Berlin qəzetlərində olan münaqişəni aydınlaşdırır.

Xarici işlər nazirini məlumatlandıraraq səlahiyyətli nümayəndəlik əminliyini bildirir ki, Xarici İşlər Nazirliyi Əlavə müqavilədə qeyd edilən xətti Qafqazda hər hansı bir üçüncü ölkənin hərbi qüvvələrinin keçməməsi uğrunda çıxış etmək öhdəli-

yini yerinə yetirmək məqsədi ilə imperator hökumətinin gördüyü bütün tədbirlər haqqında məlumat verəcəkdir.

*Qeydlər:*

* Əlavə müqavilə nəzərdə tutulur.

Xarici işlər nazirinin 20 sentyabr 1918-ci il tarixli A 39423/139030 nömrəli notasında deyilirdi:

"İmperator hökuməti, təəssüf ki, dəfələrlə Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyətli nümayəndəliyinə Brest sülhünün 2-ci madəsinə zidd olan mətbuatdakı rus yazılarına qarşı etiraz etməyə məcbur olmuşdur. Belə ki, mənbəsi rəsmi rus instansiyaları olan mətbuatın Almaniyaya hücumları kəsilmir. İndi də rus rəsmi orqanlarının rus mətbuatında gedən belə yazılara dözməsi və təhrik etməsi məmnunluq doğurmur. Lakin alman mətbuatını müqaviləyə zidd olan və sülhü pozan məqsədlərə xidmət etməyə təhrik edirlər.

"Forvets"ın bugünkü 253-cü nömrəsindəki aşağıdakı məlumatlar çap olunmuşdur:

"Biz rus səfirliyində öyrəndik ki, oraya Moskvadan növbəti teleqram daxil olmuşdur:

Bakının türklər tərəfindən tutulması məlumatı təsdiq olunur. Baxmayaraq ki, türklər Bakının tutulmasında onların deyil, azərbaycanlıların günahkar olması cəhdini sübut etməyə çalışırlar, rus nöqteyi-nəzərindən bu vəziyyət faktların qiymətləndirilməsində heç bir dəyişiklik etmir. Bakıda partlayışlar vardır, şəhər yanğınlara bürünmüşdür.

Bu məlumat rus hakim dairələrində ciddi narahatlığa səbəb olmuşdur. Məlumdur ki, Xəzər dənizi və Volqada bütün gəmiçilik, həmçinin, bütün sənaye Bakı neftindən asılıdır. Bakıda neft sənayesinin məhv olması rus sənayesini uzun müddətə iflic edəcəkdir.

Digər tərəfdən Bakının tutulmasına rus hakim dairələrində böyük siyasi əhəmiyyət verilir. Belə bir fikir hakim rol oynayır ki, Almaniya tərəfindən bunun yerinə yetirilməməsi müəyyən mənada Rusiyanı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən azad edir".

Müvafiq məlumatlar digər alman qəzetlərinə, məsələn, "Fossişe çaytunq"a da daxil oldu.

Səlahiyyətli nümayəndəliyə məlumdur ki, imperator hökuməti söhbət gedən bu məsələlərdə əlindən gələni edir. Əgər buna zidd olaraq rus nümayəndəliyi alman mətbuatında təsdiq edirsə ki, imperator hökuməti öz müqavilə şərtlərini yerinə yetirməmişdir, onda bu inam faktlara ziddir. Bundan başqa, onun meydana gəlməsi və yayılması Brest müqaviləsinin 2-ci maddəsi üzrə rus hökuməti tərəfindən üzərinə götürülmüş vəzifələrin pozulması deməkdir.

Rus nümayəndəliyinin fəaliyəti xarici dövlətin qanunlarla yaradılmış nümayəndəliyindən gözlənilən təmkini ilə bir araya sığmır və riayət etməkdə cənab səlahiyyətli nümayəndə imperator hökumətini açıq şəkildə inandırır.

Buna görə də imperator hökuməti bu yazının nəşr edilməsinə üçün qəti etirazını bildirir. O gözləyir ki, səlahiyyətli nümayəndəlik təxirəsalınmadan (21 sentyabr tarixli axşamkı buraxılışa) bu cür tərzdə "Forverts"ə, həmçinin, digər qəzetlərə də nəşr üçün məlumat verəcəkdir ki, guya Almaniyanın Bakıya dair münasibətdə öz müqavilə öhdəliklərini yerinə yetirməməsi barədə bugünkü nömrədə ifadə olunmuş fikir əsasını itirmiş və buna görə də rəsmi dəstəklənə bilməməsi ilə etiraz doğuran məlumatlar vermişdir.

Əgər belə bir düzəliş edilməsə, onda imperator hökuməti növbəti addımlar atmağa məcbur olacaqdır.

***s. 494-497***

***

## № 358

### RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəsinin Türkiyənin Almaniyadakı səfiri Rüfət Paşaya notası

3 oktyabr 1918-ci il

Cənab səfir,

Əlahəzrətə məlum olduğu kimi Bakının türk qoşuları tərəfindən tutulmasından sonra fəhlə-kəndli hökuməti Osmanlı imperator hökumətinə nota ilə müraciət etdi. Bu notada Rusiya iləTürkiyə arasında sülh münasibətlərinin dayandırılması bəyan edilirdi. Bundan sonra böyük vəzir Tələt Paşa yaranmış münaqi-

şəni sülh yolu ilə həll etmək məqsədi ilə mənimlə danışıqlara başlamağı nəzərdə tutdu. Uzunmüddətli danışıqlardan sonra mən Əlahəzrətə Rusiya üçün yeganə münasib olan tələblər irəli sürdüm:

1) Türkiyə Brest sülh müqaviləsinin müəyyən etdiyi sərhədlərə qədər öz qoşunlarını çəkir: hər cür əsgəri təchizat və sursatları ilə birlikdə nizami, qeyri-nizami qoşunları və bütün ayrı-ayrı türk könüllülərini, türk mülki məmurlarını və bütün qeyd olunmuş ərazini rus qoşunlarına verir.

2) Brest sülh müqaviləsinin şərtlərini pozaraq türk qoşunları tərəfindən Rusiyaya vurulmuş itkiləri bərpa etmək üçün xüsusi beynəlxalq komissiya yaradılır.

3) Hər iki ölkə alman imperator hökumətinə bu öhdəliklərin yerinə yetirilməsinə zəmanət vermək xahişi ilə müraciət edirlər.

Əlahəzrət mənə bəyan etdi ki, öz yoldaşları ilə məsləhətləşməmiş cavab verə bilməz və böyük vəzirin İstanbula getməsindən əvvəl belə qərara alınmışdır ki, Osmanlı hökumətinin cavabı mənə bazar ertəsi 30 sentyabr 1918-ci ildə Əlahəzrət vasitəsilə çatdırılacaqdır. Sonra böyük vəzirin teleqrafla göndərdiyi xahişi əsasında, hələ bu məsələni İstanbulda müzakirə etməyə vaxt tapmamış, onun müddəti 1918-ci il oktyabrın 2-nə qədər uzadıldı.

Əlahəzrət, mənə bu gün məlumat verdilər ki, Osmanlı hökuməti öz qoşunlarına Brest müqaviləsininin müəyyənləşdirdiyi sərhədə qədər çəkilməsi əmrini vermişdir və artıq buna əməl olunmağa başlanılmışdır. Mənim, "bu qoyulmuş tələblərimi Türkiyə tərəfindən qəbul olunması deməkdirmi ki, türk qeyri-nizami qoşunları da geri çəkilir və qalan tələblər də qəbul olunurmu" kimi suallarıma Osmanlı hökuməti təlimatlarının olmamasına əsaslanan Əlahəzrət cavab vermək imkanına malik deyildir.

Bunu nəzərə alaraq mən Əlahəzrət baş vəzirin arzusu ilə tə-

rəfimdən aparılan danışıqları kəsilmiş hesab edirəm və öz hökumətimizin tapşırıqlarını yerinə yetirərək, Siz Əlahəzrətə fəhlə-kəndli hökumətinin Osmanlı imperator hökumətinə adı çəkilən notasını göndərirəm.

*İoffe*

*s. 509-510*

***

## № 362
## V.İ.Lenin və Y.M.Sverdlovun RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəsinə teleqramı

7 oktyabr 1918-ci il

Bakı bizim hakimiyyətə keçməyincə türk protokolunu imzalamağa razı deyilik, çünki bu bəndsiz, Bakının Antantanın əlinə verilməsi barədə onunla gizli razılıq əldə olunmasına şübhə etməyə əsas vardır.

Belə də nəşr edəcəyik.

*Sverdlov, Lenin*

*s. 513*

***

## № 363

## Xalq Xarici İşlər Komissarlığının Türkiyənin xarici işlər naziri Nəsimi bəyə notası

10 oktyabr 1918-ci il

Xalq Xarici İşlər Komissarlığı Osmanlı xarici işlər nazirinin 6 oktyabr tarixli teleqramını almışdır. Burada Xalq Komissarlığının bu ilin 20 sentyabr tarixli radioteleqramına cavab əks olunmuşdur*.

Xalq Komissarlığı təəssüflə bəyan etməyə məcburdur ki, cənab Osmanlı xarici işlər naziri tərəfindən gətirilən mülahizələr Türkiyənin hərəkət tərzinə və ondan irəli gələn nəticələrə Xalq Komissarlığının nöqteyi-nəzərini dəyişmək iqtidarında deyildir. Qafqazdakı işlərin gerçək vəziyyəti Xalq Komissarlığı ilə Osmanlı Xarici İşlər Nazirliyi arasında mühüm ziddiyyəti göstərməyə bilməz. Sovet hökuməti Kars, Batum və Ərdəhanın türklərin əlinə verilməsində Brest müqaviləsininin bütün şərtlərinə əməl etmişdirmi məsələsi ona görə öz əhəmiyyətini itirmişdir ki, türk hərbi qüvvələri heç bir müqavilə şərtlərinə ilə uymayaraq, qoyulmuş hər hansı müddətə baxmadan vaxtından əvvəl və rus hökuməti ilə razılaşmadan Kars, Batum və Ərdəhan ərazilərinə daxil oldular, burada onlar özləri yerli əhali ilə amansızcasına haqq-hesab çəkdilər.

Xalq Komissarlığı görməyə bilməz ki, Zaqafqaziyanın gürcü torpaqlarında Brest-Litovsk müqaviləsinin imzalanmasından sonra üsyançılar hökumətə qarşı ciddi qüvvə əldə etdilər. Onlar geniş xalq kütlələrinin iradəsinə qarşı çıxaraq ilk vaxtlarda Brest-Litovsk müqaviləsi ilə uyğunlaşmaqdan imtina edərək qiyam hökuməti yaratdılar. Sovet hökuməti Tiflisdə möhkəmlənən qiyamçılara bildirdi ki, onların hərəkətlərinin nəticəsində yarananlara görə cavabdehliyi üzərindən atır. Lakin Tiflis qiyamçılarının qeyri-qanuni hərəkətləri üzərində öz fəaliyyətlərinə bəraət qazandırmaq üçün əsaslanmağa Osmanlı hökumətinin hamıdan az haqqı vardır. Çünki məhz türk hökuməti ilk dəfə qiyamçıları hər cəhətdən dəstəkləmiş, onlarla hətta danışıqlar aparmışlar. Türk hökuməti Rusiya Respublikası ilə dostluq münasibətlərinin əksinə olaraq bu qiyamçıları suveren tərəf kimi tanımışdır. Osmanlı hökuməti sovet hakimiyyətinə qarşı qalxmış bir qrup Zaqafqaziya əhalisinin hərəkətinə görə xüsusilə də türk hökumətinin bu qiyamçı dəstələri dəstəklənməsindən sonra və hətta çağırışından sonra məsuliyyəti sovet hökumətі-

nin üzərinə qoymaqda haqlı deyildir.

Cənubi Qafqazda olduğu kimi Şimali Qafqazın ayrı-ayrı yerlərindən də çoxsaylı nümayəndələr fırıldaqçılara qarşı etiraz bəyanatları və böyük qəzəb ifadələri ilə rus hökumətinə müraciətə gəldilər. Bu fırıldaqçılar saxtalıqla yerli hökumətlərin rolunu öz üzərinə götürdülər və yerli hökumət sifəti ilə də İstanbula müraciət edirdilər. Buradan da onlara hər cür dəstək verilirdi. Osmanlı xarici işlər nazirinin Kars, Ərdəhan, Batum vilayətlərində yerli əhalinin keçirdiyi səsverməsinə rus hökumətinin hansısa qiymət verməklə çıxış etmək hüququnu inkar etmək nöqteyi-nəzərini əsaslandırılmış hesab etmək olmaz. Brest müqaviləsi şübhələrə yol verilmədən bu vilayətlərin əhalisinin öz gələcək talelərini qonşu dövlətlərlə, xüsusilə Türkiyə ilə, qətiyyən Türkiyə ilə tək yox, razılıq əsasında özlərinin həll etməsini əks etdirirdi. Brest müqaviləsininin rus hökumətindən bu səsverməyə qarışmaması tələbi o deməkdir ki, bu səsvermə təzyiq göstərilmədən və ümumiyyətlə, rus hökuməti və onun agentləri tərəfindən hər hansı təsirə yol verilmədən keçirilməlidir, buna da tam mənada riayət olunmuşdur. Yerli müsəlman əhalisinin nümayəndələri gələcək talelərinə dair məsələni həll etmək üçün bu vilayətlərin bədbəxt əhalisinin keçirdiyi səsvermənin təqdim etdiyi xalqın iradəsinin yolverilməz təhrifinə qarşı ciddi əsaslandırılımış və mühüm faktik materiallarla möhkəmlənmiş şəkildə acı şikayətlərlə rus hökumətinə şikayət etdi.

Ümumiyyətlə, bu yerlərdə türk hökumətinin hərəkət tərzi kimi, bütün Zaqafqaziyada türklərin hərəkəti və siyasi fəaliyyəti tamamilə Brest müqaviləsi şərtlərinin və Rusiya Respublikası ilə dostluq münasibətlərinin pozulması demək idi. Türk ordusunun Bakıya yürüşü isə Türkiyəyə yaxın olan ərazilərin əhalisinin hərəkətlərinə istinad edilərək bəraət qazandırıla bilməz, çünki Bakıdakı vəziyyətin bunlarla heç bir əlaqəsi yoxdur. Hələ iyunun sonunda türk generalı Şövkət Paşa şəhərin şərtsiz təh-

vil verilməsini tələb etsə də ingilis ordusu Bakıya yalnız avqustda gələ bilmişdi. Bu azmış kimi, türklərin məhz Bakıya yaxınlaşması və şəhər əhalisinin zəhərlənməsi nəticəsində ölüm təhlükəsi ona səbəb oldu ki, bu vaxta qədər sovet hökumətinə sadiq olan vilayət saziş ölkələri tərəfindən satın alınmış qiyamçıların riyakar öyüd-nəsihətlərinə əməl etməyə başladı. Onlar bundan sonra Bakıya çox da böyük sayda olmayan ingilisləri gətirməyə müvəffəq oldular. Bakıya daxil olan ingilis dəstəsi, yalnız türk hökumətinə və onun agentlərinə Bakıya təcavüzkar hücumu haqqında üzürlü bəhanə qazanmaq imkanı vermək üçün kifayət edərdi. Lakin türklərə qarşı hər hansı hərbi əməliyyatların olmasına baxmayaraq, bu dəstə kifayət etmədiyinə görə türklər onlara hücum edən kimi şəhəri tərk etdilər.

Cənab Osmanlı xarici işlər naziri bəyan edir ki, türk hərbi qüvvələri onlar tərəfindən zəbt edilmiş ölkənin təmizlənməsinə başlamışlar. Təəssüf ki, sərəncamın bu haqda konkret nəticələri hələ görünmür və hələ ki, bu yerlərdə heç bir məntəqə türk nizami qoşunları tərəfindən azad edilməmişdir. Türk hökumətinin Rusiya ilə bağlanmış müqavilələrə və onlarla dostluq münasibətlərinə əməl etmək cəhdlərini sübut edən heç bir fakt rus hökumətinə məlum deyildir. Osmanlı hökuməti onlarda belə bir cəhdin olmasını o zaman nümayiş etdirə bilərdi ki, imkan daxilində onlar Rusiya Respublikasının bu vilayətlərində törətdikləri pislikləri aradan qaldırsınlar. Lakin bu da o zaman baş verə bilər ki, türk hökuməti formal surətdə təcavüzlə zəbt etdikləri Bakını və Brest-Litovsk müqaviləsi şərtlərinin müəyyən etdiyi sərhədlərə qədər olan əraziləri Rusiya sovet hakim dairələrinə və bu məqsədlə bizim təyin etdiyimiz müvəkkillərə versinlər, üstəlik türk hücumlarının törətdikləri itkilər ödənilsin. Yalnız bu təqdirdə rus hökuməti Osmanlı xarici işlər nazirinin öz teleqramının axırında göstərdiyi məsələləri sübut edilmiş hesab edəcəkdir. Bakı və bütün Zaqafqaziyanı, Almaniya tərəfindən ta-

nınmış Gürcüstanın sərhədlərinə qədər və Osmanlı imperiyasının Brest-Litovskda müəyyən edilmiş hüdudlarına qədər olan əraziləri bizim səlahiyyətimizə verməklə yanaşı Osmanlı hökuməti bu vilayətlərdən öz nizami qoşunlarını təlimatçı və rəhbərləri ilə birlikdə qeyri-nizami dəstələri də çıxaracaqdır. Yalnız bu zaman bu vilayətlərdə Brest-Litovsk müqaviləsi tərəfindən müəyyənləşmiş vəziyyətə dair məsələləri yenidən bərpa edilmiş kimi nəzərdə keçirmək olar.

Xalq xarici işlər komissarı *Çiçerin*

*s. 514-516*

***

**№ 383**
**RSFSR-in Almaniyadakı səlahiyyətli nümayəndəliyinin xarici işlər nazirinə notası**

1 noyabr 1918-ci il, № A 713

Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyyətli nümayəndəliyi Xarici İşlər Nazirliyinə aşağıdakı məlumatları çatdırmaqdan şərəf duyur.

Əldə olan məlumatlara görə Bakıdan Tiflis vasitəsi ilə Almaniyaya xam neft və neft məhsulları ixrac edilir.

Bakı rayonu Rusiya Sovet Federativ Sosialist Respublikasının ərazisinə daxildir. Rusiyada xam neftin bütün istehsalı və emalı milliləşdirilmişdir və buna görə də bura daxil olan qurğular və həmçinin, onda olan bütün ehtiyatlar Sovet Respublikasının mülkiyyəti hesab olunur.

Bu ilin 27 avqust tarixli müqaviləyə əsasən Sovet Respublikasına Bakının yeganə sahibi kimi ölkədən çıxarılan xam neft və neft məhsullarına görə Almaniya haqq ödəməyə məcburdur.

Buna görə də Rusiya Sovet Federativ Sosialist Respublikasının səlahiyyətli nümayəndəliyi imperator hökuməti ilə ixrac edilən neft məhsullarının qiymətinə və ödəmə intizamına dair, həmçinin, Almaniya tərəfindən Əlavə müqavilə* tərəfindən nəzərdə tutulmuş 3 ton kömürün 1 ton xam neftə və 4 ton kömürün 1 ton benzinə dəyişdirilməsi şərtilə qoyulan təzminat məsələlərinə dair danışıqlara girməyi arzulayır.

Daha sonra səlahiyyətli nümayəndəlik bildirir ki, zərurət olduqda, ixrac olunmuş neft məhsullarına görə ona çatacaq məbləği Maliyyə müqaviləsinə əsasən Rusiya tərəfindən ödənməli olan məbləğin hesabına almaq düzgün olardı.

*Qeydlər:*

* Rus-alman əlavə müqaviləsinin (27 avqust 1918-ci il tarixli) 12 və 14-cü maddələri nəzərdə tutulur.

***s. 548-549***

# II

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TARİX ARXİVİNİN MATERİALLARI

## Zəngəzur qəza rəisi P.Pivaroviçin G.S.Kovalyova 1915-ci il 20 yanvar tarixli tam məxfi məktubu

...Azərbaycanlı işçilərin etibarlılığını üzə çıxarıb şübhəliləri istənilən bəhanə ilə təcili azad etməyə başlayacağam...

Türkiyə ilə hərbi əməliyyatlar başladığı andan silahları yığılmış yerli kürdlərə və azərbaycanlılara... ən ciddi diqqət yetirməyi təklif etdim, çünki onlar ümumiyyətlə, həmişə Türkiyəyə rəğbət bəsləmişlər, onların rəğbəti hələTürkiyə-Balkan müharibələri zamanında da var idi. Silah gətirilməsi ciddi izlənilir. Sizin şifrəli məxfi teleqramınıza uyğun olaraq indi onlardan silahlar yığılacaqdır.

Sarıqamış və Ərdəhan rayonlarında Rusiya təbəələri olan azərbaycanlıların və kürdlərin türklər tərəfə keçərək Rusiya ordularına qarşı vuruşmaları xəbəri alındıqda və xəyanətkarların dövlət tərəfindən cəzalandırılacağı bilindikdə qəzanın bütün əhalisi - azərbaycanlılar və ermənilərin bir-birinə qarışmışlar. Azərbaycanlılar və kürdlər ermənilərin onlardan qisas alacağından qorxaraq, şəhərdəki dükanlarını bağlayıb, şeylərini götürüb öz kəndlərinə qaçırlar. Ermənilər də Sarıqamış və Ərdəhanda etdikləri xəyanətə görə qorxurlar. Yaxşı silahlandıqdan sonra azərbaycanlıların onlara hücum edəcəklərini gözləyirlər.

Mənim məlumatım vardır ki, ermənilər ... gizli gətirilən silahlarla silahlanırlar... Nüfuzlu azərbaycanlılar, kürdlər gizli müşavirələrə başlamışlar. Agentura yolu ilə məlum olmuşdur ki, bir neçə belə müşavirədə təbliğat olmamışdır. Azərbaycanlılar ermənilərin silahlanmasını yaxşı bilərək silah almaq üçün pul toplamaq və onun yolları barədə məsləhətləşmişlər...

... köməkçim Mahmudbəyov və pristav Şəkinski polis məmurları kimi yaxşıdırlar, öz vəzifə borclarını qüsursuz yerinə yetirirlər. Lakin azərbaycanlı əhalisi üzərində indi ciddi nəzarət qoyulması və azərbaycanlılara qarşı ciddi və qəti tədbirlər görülməsi lazım gəldiyi bir vaxtda Mahmudbəyov və Şəkinski

yerli adamlar kimi nəinki sərfəlı deyillər və hətta indiki fövqəladə dövrdə iş üçün ziyanlıdırlar...

Pristav Kələntərov gizli məruzə ilə... mənə söylədi, lakin xahiş etdi ki, bunları onun deməsini kimsə bilməsin, yoxsa onu və qohumlarını öldürərlər. Çünki qəzanın... azərbaycanlıları və kürdləri Türkiyəni çox sevirlər və Türkiyənin buraya tez gəlməsini istəyirlər...

... Son günlər bir sıra görkəmli ermənilər mənə dedilər ki, ümumiyyətlə, ermənilərlə azərbaycanlılar arasında hansısa toqquşma başlayarsa, Mahmudbəyov və Şəkinskinin bitərəf hərəkət edəcəklərinə şübhə edirlər... İndiki halda Mahmudbəyov və Şəkinski münasib deyildir və hətta iş üçün zərərlidir... Mən öyrənmişəm ki, bir neçə erməni də Siz zati-alilərinə Mahmudbəyov və Şəkinskinin buradan dəyişdirilməsi barədə xahiş etmək istəyirlər...

*f.524, siy. 1, iş 11, v.33-39*

***

**Yelizavetpoldan qubernator G.Kovalyovun Qafqaz canişinliyi xüsusi idarəsinə 1915-ci il 4 may tarixli 21№-li tam məxfi məktubu**

...Yelizavetpol quberniyasına türk emissarlarının gəlməsi iki il əvvəl müşahidə edilmişdir. Lakin ümumiyyətlə, həm də jandarma polisi tərəfindən bu emissarların fəaliyyəti qeydə alınmamışdır. Lakin müharibəyədək təbliğat aparılmasını mümkün sayıram. İndi isə quberniyada türk təbəələri olan müsəlmanlar yoxdur və əksəriyyəti İran təbəələridir. Onlar İranla müharibə olacağından qorxaraq quberniyadan getmişlər... Quberniyada silahların yığılması dayandırılmır və harada varsa, onların yığılması üçün mən bütün tədbirləri görmüşəm və görürəm. Bu tədbirlər azərbaycanlılarda 50.000 silahın olması mümkünlüyünü istisna edir... Ermənilər güclü silah ehtiyatı yığırlar... Erməni-

lərlə azərbaycanlılar arasında indiki gərgin münasibətlərin mövcud olduğu şəraitdə daim böyük mürəkkəblikləri gözləmək olar... Quberniyada belə güclü şayiə gəzir ki, azərbaycanlılardan başqa gürcülər də özlərini təhqir edilmiş və alçaldılmış sayırlar...

*f.524, siy.1, iş 11, v.39-40*

***

**Bakı quberniya jandarma idarəsinin rəisi polkovnik Leontyevin 1915-ci il 24 oktyabr tarixli 6122 №-li məxfi hesabat məktubu**

Erməni Daşnaksütyun Partiyasının Bakı Mərkəzi Komitəsi ... hal-hazırda agenturanın göstərişinə uyğun olaraq özünün başlıca vəzifəsi kimi türklərlə mübarizə üçün Türkiyə ermənilərini silahlandırmaqdan ötrü pul toplamağı, həmçinin Qafqaz cəbhəsində ordularımızla birgə hərəkət edən erməni dəstələrini könüllülərlə doldurmağı qarşısına məqsəd qoymuşdur...

*f. 524, siy. 1, iş 5, v.7*

# III

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ARXİVİNİN MATERİALLARI

## 1918-ci ilin martınadək İrəvan quberniyasında əhalisi müsəlman olan, talan edilən və boşaldılan kəndlərin siyahısı

| Qəzaların, milis sahələrinin və kəndlərin adı | Təsərrüfatların ümumi sayı | Sakinlərin sayı | | Cəmi |
|---|---|---|---|---|
| | | kişi | qadın | |
| 1 | 2 | 3 | 4 | 5 |
| *İrəvan qəzası* | | | | |
| *1-ci milis sahəsi* | | | | |
| 1. Damagirməz | 70 | 203 | 184 | 387 |
| 2. Zar | 170 | 396 | 310 | 706 |
| 3. Kamal | 100 | 335 | 290 | 625 |
| 4. Güzəcik | 24 | 73 | 46 | 119 |
| 5. Mangus | 90 | 250 | 176 | 426 |
| 6. Oxçabert | 115 | 269 | 224 | 493 |
| 7. Puta | 40 | 121 | 87 | 208 |
| 8. Karuçlu | 32 | 119 | 69 | 188 |
| 9. Koxt-Tatarlı | 20 | 44 | 35 | 79 |
| 10. Əliırıq | 37 | 119 | 83 | 202 |
| *2-ci milis sahəsi* | | | | |
| 11. Ağhəmzəli | 143 | 438 | 405 | 843 |
| 12. Cambacılı | 63 | 193 | 162 | 355 |
| 13. Xarratlı | 62 | 254 | 242 | 496 |
| 14. Uluxanlı | 500 | 1684 | 1489 | 3173 |
| 15. Qaradağlı | 62 | 254 | 242 | 496 |
| 16. Qaraçar | 64 | 328 | 310 | 638 |
| 17. Reyhanlı | 56 | 229 | 203 | 432 |
| 18. Əbilkənd | 34 | 134 | 122 | 256 |
| *3-cü milis sahəsi* | | | | |
| 19. Sabunçu | 35 | 110 | 92 | 202 |
| 20. Kəmərli | 151 | 459 | 411 | 870 |
| 21. Torpaqqala | 56 | 216 | 199 | 415 |
| 22. Qaraqoyunlu | 67 | 227 | 205 | 432 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 23. Ruhin | 92 | 187 | 145 | 332 |
| 24. Buzovand | 28 | 59 | 37 | 96 |
| 25. Qarahəmzəli | 160 | 437 | 378 | 815 |
| 26. Alıoba | 28 | 110 | 96 | 206 |
| 27. Doqqaz | 36 | 119 | 91 | 210 |
| 28. İnəkli | 37 | 102 | 83 | 185 |
| 29. Ağbaş | 19 | 60 | 72 | 132 |
| 30. Novruzlu | 16 | 129 | 102 | 231 |
| 31. Yamancalı | 107 | 396 | 367 | 763 |
| *4-cü milis sahəsi* | | | | |
| 32. Sədərək | 500 | 2297 | 1820 | 4117 |
| Qəza üzrə cəmi | 3015 | 10298 | 8707 | 19005 |
| *Sürməli qəzası* | | | | |
| *1-ci milis sahəsi* | | | | |
| 33. Əliqoçaq | 69 | 242 | 225 | 467 |
| 34.Yuxarı Bəndümərək | 13 | 56 | 51 | 107 |
| 35. Aşağı Bəndümərək | 12 | 99 | 133 | 232 |
| 36. Kündə | 16 | 129 | 120 | 249 |
| 37. Daşlıca | 17 | 91 | 80 | 171 |
| 38. Asma | 35 | 125 | 122 | 247 |
| 39. Qaragüney | 53 | 373 | 264 | 637 |
| 40. Qucaq | 18 | 172 | 164 | 336 |
| 41. Qarakəsər | 24 | 148 | 118 | 266 |
| 42. Qızınqala | 18 | 172 | 148 | 320 |
| 43. Siçanlı | 18 | 59 | 50 | 109 |
| 44. Ərhacı | 193 | 1041 | 980 | 2021 |
| 45. İzdıra Mava | 262 | 884 | 788 | 1672 |
| 46. Mələkli | 361 | 1100 | 1000 | 2100 |
| 47. Sultanabad | 26 | 86 | 104 | 190 |
| 48. Ağaməmməd | 130 | 330 | 290 | 620 |
| 49. Ağaver | 42 | 121 | 85 | 206 |
| 50. Ərəbkirli | 83 | 203 | 141 | 344 |
| 51. Qasımcan | 80 | 192 | 176 | 368 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 52. Quzugudən | 46 | 121 | 115 | 236 |
| 53. Qazançı | 121 | 178 | 285 | 583 |
| 54. Kiti | 165 | 397 | 354 | 751 |
| 55. Küllük | 101 | 390 | 370 | 760 |
| 56. Oba | 120 | 401 | 319 | 720 |
| 57. Sarıçoban | 63 | 164 | 154 | 338 |
| 58. Yuxarı Çarıqçı | 42 | 121 | 101 | 222 |
| 59. Aşağı Çarıqçı | 15 | 60 | 84 | 144 |
| 60. Yaycı | 226 | 800 | 700 | 1500 |
| 61. Hamarat | 40 | 123 | 131 | 254 |
| 62. Xaraba Əhincan | 145 | 452 | 380 | 832 |
| 63. Hüseynkənd | 79 | 291 | 259 | 550 |
| 64. Zülfüqar | 82 | 280 | 235 | 515 |
| 65. Qızıl Zakir | 49 | 160 | 139 | 299 |
| 66. Qazı Qışlaq | 90 | 210 | 196 | 406 |
| 67. Mirrəşidli | 6 | 22 | 19 | 41 |
| 68. Nəcəfli | 11 | 62 | 65 | 127 |
| *2-ci milis sahəsi* | | | | |
| 69. Həsənxan | 110 | 328 | 290 | 618 |
| 70. Göyçəli | 80 | 310 | 290 | 600 |
| 71. Cənnətabad | 240 | 1200 | 890 | 2090 |
| 72. Dizə | 300 | 1000 | 823 | 1823 |
| 73. Qaraqoyunlu | 28 | 81 | 58 | 139 |
| 74. Qıraqçaq | 35 | 140 | 110 | 250 |
| 75. Öküzlü | 20 | 70 | 53 | 123 |
| 76. Səfərqulu | 28 | 105 | 92 | 197 |
| 77. Toxanşalı Bayat | 68 | 346 | 312 | 658 |
| 78. Toxanşalı Qacar | 178 | 586 | 490 | 1076 |
| 79. Xaraba Əhincan | 42 | 137 | 102 | 239 |
| 80. Şirəçi | 70 | 305 | 270 | 575 |
| *3-cü milis sahəsi* | | | | |
| 81. İncə | 120 | 467 | 417 | 884 |
| 82. Sürməli | 80 | 410 | 380 | 790 |
| 83. Pirli | 92 | 460 | 410 | 870 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 84. Osmanköy | 20 | 70 | 45 | 115 |
| 85. Söyüdlü | 50 | 180 | 139 | 219 |
| 86. Yuxarı Qatırlı | 46 | 290 | 238 | 528 |
| 87. Cuvanlı | 25 | 133 | 93 | 226 |
| 88. Turabi | 70 | 172 | 165 | 337 |
| 89. Mirzəxan | 219 | 110 | 98 | 208 |
| 90. Suki | 39 | 197 | 168 | 356 |
| 91. Pirşah | 56 | 291 | 232 | 523 |
| 92. Akarak | 72 | 371 | 287 | 658 |
| 93. Qamışlı | 35 | 340 | 290 | 630 |
| 94. Aşağı Qatırlı | 21 | 138 | 129 | 267 |
| 95. Çinçcavad | 12 | 110 | 92 | 202 |
| 96. Kaçin | 35 | 317 | 212 | 529 |
| 97. Ağdaş | 46 | 218 | 192 | 210 |
| 98. Ağabəy | 27 | 135 | 116 | 251 |
| 99. Dəmirsixan | 83 | 447 | 396 | 812 |
| 100. Qaracoran | 53 | 412 | 367 | 779 |
| 101. Yanlı | 31 | 322 | 267 | 589 |
| 102. Alıkosa | 50 | 431 | 319 | 750 |
| 103. Siçanlı | 50 | 375 | 298 | 673 |
| 104. Jahlıca | 47 | 219 | 201 | 420 |
| 105. Kürnocaq | 40 | 217 | 209 | 426 |
| 106. Muça | 100 | 492 | 387 | 879 |
| 107. Ərqov | 93 | 476 | 367 | 843 |
| Qəza üzrə cəmi | 5493 | 21889 | 19458 | 41347 |
| *Eçmiadzin qəzası:* | | | | |
| *1-ci milis sahəsi* | | | | |
| 108. Molla Dursun | 35 | 172 | 148 | 320 |
| 109. Hacılar | 29 | 130 | 118 | 248 |
| 110. Girampa | 26 | 71 | 59 | 130 |
| 111. Azarlı | 70 | 176 | 177 | 353 |
| 112. Ağcaqala | 72 | 228 | 192 | 420 |
| 113. Haramlı | 30 | 90 | 72 | 162 |
| 114. Zeyvə | 108 | 352 | 270 | 622 |
| 115. Kolanlı | 159 | 388 | 380 | 768 |
| 116. Qarğabazar | 129 | 370 | 318 | 688 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 117. Gözlü Kəmərli | 89 | 225 | 186 | 411 |
| 118. Səfiabad | 29 | 138 | 105 | 243 |
| 119. Qaraqoyunlu | 74 | 240 | 232 | 472 |
| 120. Ayranlı | 39 | 198 | 172 | 370 |
| 121. Patrinc | 75 | 286 | 240 | 526 |
| 122. Ayranlı | 35 | 110 | 105 | 215 |
| 123. Tos | 83 | 224 | 196 | 420 |
| 124. Karvansaray | 388 | 1379 | 1058 | 2417 |
| *2-ci milis sahəsi* | | | | |
| 125. Kiçikkənd | 32 | 175 | 195 | 370 |
| 126. Persi | 42 | 180 | 143 | 232 |
| 127. Təkiyə | 145 | 382 | 343 | 725 |
| 128. Parni | 173 | 509 | 497 | 1006 |
| 129. Axıs | 74 | 195 | 170 | 365 |
| 130. Zeynalbulaq | 45 | 150 | 145 | 295 |
| 131. Kötəkli | 24 | 120 | 122 | 242 |
| 132. Umi | 190 | 760 | 620 | 1380 |
| 133. Nəzravan | 68 | 290 | 263 | 553 |
| 134. Əngərsaq | 25 | 114 | 95 | 209 |
| 135. Qoşabulaq | 18 | 120 | 91 | 211 |
| 136. Qatur | 270 | 130 | 78 | 208 |
| 137. Qaracoran | 65 | 201 | 194 | 395 |
| 138. Quruəli | 27 | 75 | 60 | 135 |
| 139. Hamamlı | 82 | 210 | 78 | 288 |
| 140. Tuxunabi | 52 | 201 | 178 | 379 |
| 141. Axaraq | 99 | 352 | 277 | 629 |
| 142. Yerqov | 70 | 160 | 120 | 280 |
| *3-cü milis sahəsi* | | | | |
| 143. Yuxarı Qarxun | 213 | 608 | 545 | 1153 |
| 144. Aşağı Qarxun | 120 | 328 | 297 | 625 |
| 145. Şorkənd | 62 | 210 | 198 | 408 |
| 146. Türkmənli | 54 | 250 | 260 | 510 |
| 147. Mollabədəl | 52 | 168 | 167 | 335 |
| 148. Ağduzarx | 110 | 364 | 536 | 720 |
| 149. Kərimarx | 353 | 825 | 875 | 1700 |
| 150. Armudlu | 42 | 152 | 157 | 309 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 151. İydəli | 143 | 446 | 434 | 880 |
| 152. Canfəda | 218 | 690 | 628 | 1318 |
| 153.Yuxarı Qulubəyli | 42 | 171 | 115 | 286 |
| 154.Aşağı Qulubəyli | 40 | 296 | 222 | 518 |
| 155. Saatlı | 43 | 128 | 119 | 247 |
| 156. Qamışlı | 24 | 126 | 112 | 248 |
| 157. Metsqala | 19 | 190 | 174 | 364 |
| 158. Qatırabad | 30 | 310 | 285 | 595 |
| 159. Razdar | 66 | 130 | 96 | 226 |
| 160. Layis | 32 | 138 | 126 | 264 |
| 161. Xocayar | 27 | 123 | 113 | 236 |
| *4-cü milis sahəsi* | | | | |
| 162. Partikən | 64 | 278 | 218 | 496 |
| 163. Pirmələk | 82 | 140 | 121 | 261 |
| 164. Şeyx Qarni | 58 | 220 | 190 | 410 |
| 165. Karvansaray | 85 | 120 | 90 | 210 |
| 166. Aralıq | 62 | 196 | 162 | 358 |
| 167. Quludərviş | 48 | 185 | 172 | 357 |
| 168. Eşnək | 145 | 349 | 328 | 677 |
| 169. Talın | 59 | 232 | 198 | 430 |
| 170. Mehriban | 140 | 290 | 243 | 533 |
| 171. İrind | 45 | 120 | 119 | 239 |
| 172.Yuxarı Qaraqorxmaz | 70 | 210 | 184 | 394 |
| 173.Aşağı Qaraqorxmaz | 42 | 137 | 116 | 253 |
| 174. Aşağı Ağacqala | 115 | 165 | 150 | 315 |
| 175. Sabunçu | 32 | 93 | 72 | 165 |
| 176. Yuxarı Qalaqut | 18 | 24 | 26 | 50 |
| 177. Aşağı Qalaqut | 17 | 47 | 48 | 95 |
| 178. Axançı | 44 | 165 | 162 | 327 |
| 179. Qəzbin | 21 | 47 | 53 | 100 |
| 180. Qaraqulu | 18 | 59 | 29 | 88 |
| 181. Susuz | 18 | 47 | 43 | 90 |
| 182. Qınıq | 19 | 43 | 48 | 91 |
| 183. Mustafa | 60 | 147 | 132 | 279 |
| 184. Bozbur (kürd) | 32 | 98 | 87 | 165 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 185. Aylanlı | 100 | 157 | 149 | 306 |
| 186. Ceyran Qışlaq | 15 | 40 | 43 | 83 |
| 187. İlan Qışlaq | 12 | 30 | 28 | 58 |
| 188. Udfan | 90 | 175 | 125 | 300 |
| 189. Bayramlı | 12 | 44 | 38 | 82 |
| 190. Qədim Bəşir (kürd) | 32 | 98 | 67 | 165 |
| 191. Yuxarı Ağcaqala | 100 | 157 | 149 | 306 |
| Qəza üzrə cəmi | 5979 | 18967 | 16658 | 35784 |
| **Yeni Bəyazit qəzası:** | | | | |
| **1-ci milis sahəsi** | | | | |
| 192. Həzrəkənd | 80 | 295 | 298 | 593 |
| 2-ci milis sahəsi | | | | |
| 193. Ağzıbir | 116 | 413 | 342 | 755 |
| 194. Bığlı | 112 | 338 | 320 | 658 |
| 195. Ağqala | 62 | 218 | 206 | 424 |
| 196. Əyrivənd | 96 | 380 | 326 | 706 |
| 197. Hacı Muğan | 130 | 530 | 504 | 1034 |
| 198. Rövşənkənd | 72 | 253 | 226 | 479 |
| Qəza üzrə cəmi: | 668 | 2427 | 2222 | 4649 |
| Qubemiya üzrə 198 kənd | 15155 | 53581 | 47045 | 100626 |

Bu məlumatlar 1908-ci il Qafqaz təqvimindən götürülmüşdür.

Nəzərə almaq lazımdır ki, 10 il ərzində əhali 30% arta bilər, onda bu rəqəm təxminən 135000 olar.

**Büronun sədri** **(imza)**

**Katib** **(imza)**

*Əsli ilə düzdür: Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinin informasiya şöbəsi.*

***f.28, siy.1, iş 185, v. 1- 8.***

***

# Ə.TOPÇUBAŞOVUN İSTANBULDA APARDIĞI DANIŞIQLAR

Türkiyənin sədr-əzəmi Tələt Paşanın qəbulunda

2 oktyabr 1918-ci il
Çərşənbə axşamı, saat 11:15

Yazı masasının yanında başını aşağı salıb dayanaraq qarşıladı. Təqdimatdan sonra gülümsəməyə çalışaraq qeyd etdi ki, mənim adımdan savayı adıma əlavə də var. Və onda mən də bəyan etdim ki, Rusiyanın qəbul olunmuş adətinə görə mən Topçubaşov familiyasını da daşıyıram, harada isə Tələt Paşa, familiyanı təkrarlayaraq ("Evet, evet Topçubaşov") qeyd etdi kı, o, mənimlə qiyabi tanışdır, məni müsəlman xadimlərindən biri kimi tanıyır və adımı tez-tez, xüsusilə, buraya gələn rus siyasi xadimlərindən eşidibmiş. "Deyəsən, Sizi Rusiyada çox narahat edirlər və son zamanlar bolşeviklər - o, dedi - amma nə etməli?, bu, siyasi xadim üçün qaçılmazdır: mən özüm 27 ay dustaq olmuşam".

Mən təəssüfümü bildirdim ki, Batumda paroxod gözləyərkən çox ləngiməli oldum və bu, məni onun Berlinə qayıdışı zamanı burada olmaq imkanından məhrum etdi. Çox güman ki, mənim də oraya getməyimə ehtiyac var idi. Tələt Paşa qeyd etdi ki, Berlində də o, Azərbaycanın maraq dairəsində fəaliyyət göstərmişdir və özünün dediyinə görə əlindən gələn hər şeyi etmişdir.

- Siz, əlbəttə ki, Azərbaycan nümayəndələri ilə artıq görüşmüsünüz. İkı gün bundan əvvəl söhbət zamanı mən onlara səfərimin nəticələrini təqdim etdim. Mən Sizə təkrar edirəm kı, hələ nə Avstriya-Macarıstan, nə də Almaniya müstəqil Azərbaycan dövlətini tanımaq istəyir. Həmçinin, indiki rus hökuməti

Berlindəki səfiri İoffe vasitəsilə belə bir dəlil irəli sürür ki, Qafqazda müsəlmanlar Türkiyənin təzyiqi altında müstəqil dövlət təşkil edirlər və əgər biz olmasaydıq, türklər Rusiyanı daim təhdid edəcəkdilər. İoffe dedi, bu, ona görədir ki, Qafqazda kəndlilərə bəylər və varlılar tərəfindən zülm olunur və bundan əlavə, orada müsəlmanlar-şiədir, amma siz, türklər-sünnisiniz. Son sübut olaraq mən (Tələt Paşa deyir) cavab verdim ki, - bax mən türk və şiəyəm.

- Paşa həzrətləri, Siz çox gözəl cavab vermisiniz! İzn verin, mən də əlavə edim ki, mənə orada Sizinlə görüşmək nəsib olsaydı, öz növbəmdə cənab İoffeyə deyərdim: "Amma mən Qafqaz müsəlmanı və sünniyəm (baxmayaraq ki, valideynlərim şiədir)". Bütün bunlar əvvəlki Rusiyanın dərsləridir, bu ölkənin məmurları təbliğat məqsədi ilə ayrı-ayrı millətlər arasnda tayfa və dini ədavət toxumları səpirdilər: bu dərslərdən daha çox biz, müsəlmanlar əziyyət çəkirdik. Və mən, rus bolşevizmi ilə bir qədər tanış olan şəxs kimi Sizi inandıra bilərəm ki, indiki rus hökumətinin müsəlmanlara qarşı münasibəti yaxşı mövqedə deyildir. Bunu bolşeviklər Bakıdakı hərəkətləri ilə sübut etdilər. Onlar bir gecədə bolşevikə çevrilən erməni daşnakları kimi millətçi-şovinistləri köməyə çağırdılar. Buna oxşar qeyri-təbii ittifaq ona gətirib çıxartdı ki, bolşeviklərin Bakıda müsəlmanlara qarşı mübarizə təşkil etdiyi zaman ermənilər çox güman ki, hakimiyyətə yiyələnmək istəklərinə görə Bakıdakı bütün qəzəblərini və bu müharibəyə görə milli uğursuzluqlarını bizim üstümüzə atmaq üçün şəraitdən istifadə etdilər.

- Bəli, (Tələt Paşa bildirdi) indiki müharibə çox şeylər törətdi, çox məsələlər qaldırdı. Biz ona böyük ümidlər bəsləyirdik. Lakin indi gördüyünüz kimi, xüsusilə son günlərdəki hadisələri nəzərə alaraq bu ümidlərdən çox az bir hissəsi özünü doğruldacaqdır. Ancaq bizim bir ümidimiz şübhəsiz, həyata keçmişdir: bu da Çar Rusiyasının dağıdılmasıdır. Bu, bizim həqiqi mənada nailiyyətimizdir və bizim üçün, sizin üçün, bütün Rusi-

ya xalqları və xüsusən də Qafqaz əhalisi üçün gözəl nəticələr verməlidir. Bu nailiyyətdən səmərəli istifadə etmək sizə, gürcülərə və ermənilərə vacibdir. Bunun üçün bütün səyləri və cəhdləri cəmləmək, öz aranızda dinc yanaşı yaşamaq və sərhəd və s. məsələlərdə daxili mübahisələri həll etmək lazımdır.

Bu, mənim zənnimcə, indi olmalıdır və hər üç xalqın burada olan nümayəndələrinin başlıca vəzifəsi olmalıdır. Və, əlbəttə ki, bu məsələnin həlli zamanı yeni dövlətin təşkilinə tezliklə nail olmaq üçün 5-6 sərhədyanı kəndlər barəsində xırda mübahisələrdə qurban vermək gərək olacaqdır. Ancaq belə bir şəraitdə biz Qafqaz xalqlarının nümayəndələri ilə əl-ələ tutaraq Sülh konqresinə gedə bilərik. Bu cür başlanğıcı biz də rəhbər tutacağıq. Qafqazda müstəqil Azərbaycan dövlətini görmək kimı çoxdankı arzumuzu həyata keçirmək üçün çalışacağıq.

- Paşa həzrətləri! Azərbaycanı müstəqil dövlət görmək cəhdlərinə görə böyük müttəfiqimiz və himayəçimiz olan Türkiyəyə Sizin timsalınızda minnətdarlıq hisslərimi bildirmək üçün ifadə etməyə söz tapmıram. Bu məsələnin həllindən bizim gələcəyimiz asılıdır: olmaq və yaxud olmamaq, - bundan (olum və ya ölüm) dünyada Azərbaycan türklərinin mövcudluğu asılıdır.

Bizim dövlətin paytaxtı Bakı şəhərinin azad olunması uğrunda türk pəhləvan-əsgərlərinin apardığı qəhrəmanlıq mübarizəsi tam uğurla tamamlanaraq bizi müstəqil Azərbaycan dövlətinin yaradılmasında ümidləndirir və əmin edir. Və bu məsələyə münasibətdə də biz başqa birisinin etirafında ehtiyacımız olmadan sakit ola bilərik.

- Bəli, Siz türk dilində çox gözəl danışırsınız! - Tələt Paşa bildirdi.

- Axı mən də türkəm, - deyə cavab verirəm, - Azərbaycan müsəlmanları özlərini türk hesab edirlər və biz ümid edirik ki, bu istiqamətdə də tam hörmət qazanmışıq. İzn versəniz, - mən söhbətimə davam edərəm - qonşularımız - erməni və gürcülər-

lə bərabər dinc yanaşı yaşamağı istəyirik. Dövlətimizin təşkilinin lap əvvəlindən biz Türkiyənin dövlət siyasəti ilə tam həmrəy olaraq hərəkət etməyi özümüzə borc bildik. Buna görə də hazırki məsələdə biz əlbəttə ki, sizin çağırışınıza qoşulacağıq, biz ermənilər və gürcilərlə münasibətdə məhz bu başlanğıcı əsas götürürük. Ancaq açıq etiraf etmək lazımdır ki, bu xoş məqsədə nail olmaq çox çətindir. Ona görə ki, biz gürcülərlə dinc münasibətə girdiyimiz təqdirdə bu münasibət ermənilərlə çox çətin olacaqdır, çünki onların səmimiliyinə müsəlmanlarımız artıq inanmır. Onların indiki hərəkətlərinə nəzər salmaq kifayətdir: onlarda dövlət olduğu qədər də səmtləşmə mövcuddur. İstanbulda sizi, Berlində isə almanları məhəbbətə və sədaqətə inandırmağa çalışırlar! Bax, buna görə də bizim hökumətimiz məni fövqəladə səlahiyyətli nazir timsalında Avstriya-Macarıstan və Almaniyaya göndərməyi lazım bilmişdir və əlbəttə ki, mənə həvalə olunmuş missiyanı yerinə yetirmək üçün türk hökumətinin razılığı olduğu kimi, Siz sədr-əzəmin razılığı əsasında başqa cür hərəkət etməyəcəyəm.

- Sizə çox minnətdaram (Tələt Paşa deyir). Ancaq yenə də qonşularla daxili çaxnaşmalara Siz özünüz son qoysanız, daha məqsədəuyğun olardı. Erməniləri də yaxşı tanıyırıq, heç olmasa etimad qazanana qədər onlarla da bir araya gəlmək olar. Əgər bir araya gəlməsəniz, onda bizdən və almanlardan arbitraj təşkil etmək olar.

Sizin Berlinə səfəriniz məsələsinə gəldikdə isə, çox güman ki, buna ehtiyac yoxdur. Daha doğrusu, bu haqda bir daha fikirləşmək lazımdır və biz, əlbəttə ki, yenə də görüşəcəyik. Sizə gəlişiniz barədə məlumatı olan xarici işlər naziri ilə də görüşmək lazım gələcəkdir. Siz onu bu gün ziyarət edə bilərsiniz. Xarici işlər nazirinin yanına elə buradan da keçmək olar.

*f. 894, siy.10, iş 150, v.1-306.*

***

## Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəyin qəbulunda

2 oktyabr 1918-ci il
Çərşənbə axşamı, saat 12:15

Kabinetin qarşısında gülümsəyərək qarşıladı.

*Mən.* Özümü təqdim etməyə çox şadam - Azərbaycan hökumətinin üzvü Əlimərdan bəy Topçubaşov. Hökumətimizin qərarına əsasən mən fövqəladə səlahiyyətli nazir kimi Azərbaycanın maraqlarına dair bütün məsələlər üzrə geniş hüquqlarla İstanbul, Vyana, Berlin və həmçinin, Ermənistan və Gürcüstanın mərkəzlərinə göndərilmişəm. Azərbaycan hökumətinin müvafiq mandatını indi təqdim etməkdən şərəf duyacağam. Bununla, mən intizamı pozaraq Sizdən müəyyən vaxt ayırmağınızı xahiş etmədən Sizi ziyarət etdiyimə görə üzr istəməyi özümə borc bilirəm. Ancaq mən bunu sədr-əzəmin göstərişi ilə etmişəm, mən indi onun yanından gəlirəm və o, mənə Sizinlə görüşməyi tövsiyə etdi.

*Nazir.* Mandatı təqdim etməyə tələsməyin, biz hələ görüşəcəyik. Çox şadam ki, Siz məni ziyarət etmisiniz, çünki mən də Sizinlə tanış olmaq istəyirdim. Sədr-əzəm Sizin haqqınızda mənə danışmışdır. Əminəm ki, Siz yolda və xüsusilə də bolşeviklərdə həbsdə olarkən keçirdiyiniz pis hisslərdən dincəlməyə müvəffəq olmusunuz. İndi ümid etmək lazımdır ki, azərbaycanlılar üçün yaxşı günlər gəlir və Siz öz dövlətinizi qurmaqla məşğul ola bilərsiniz. Türkiyə Azərbaycanı sarsılmaz və güclü görmək arzusunda olardı. Bizdə olan məlumata görə Sizin gücünüz kifayət edər, elə deyilmi?

*Mən.* İlk növbədə məlumat verim ki, yaşadığımız bu dövrdə vəziyyətimiz nə qədər ağır olsa da, özümüz barədə fikirləşməyə vaxt yoxdur. Bizim bütün ziyalılarımız, bütün xadimlə-

rimiz öz vətənlərinin xeyri üçün çalışırlar. Bununla əhalinin və müstəqil Azərbaycan dövlətinin himayəçisi olan Türkiyənin etimadını qazanmağa ümid edirlər. Sizin qüvvə barədə sualınıza gəlincə isə mən qeyd edərdim ki, kifayət qədər gücümüz var: bu və ya digər dərəcədə təcrübəli hüquqşünas, mühəndis, publisist, həkim, Zaqafqaziya seyminə və s. dövlət dumalarına seçilən siyasi xadimlərimiz vardır. Düzdür, dövlət idarəetmə işində təcrübəmiz azdır. Bu da ondan irəli gəlir ki, rus hökuməti Rusiyada idarəetməyə müsəlmanları yaxın buraxmırdı və Rusiya tarixində müsəlmanın hələ nazir yox, adi müstaşar təyin olunmasına dair nümunə yoxdur. Bununla belə, erməni və digər xalqların nümayəndələri Türkiyədə hətta nazir vəzifəsini tuturdular!

Hər ehtimala qarşı əgər biz müvafiq namizəd tapa bilməsək, əlbəttə ki, böyük Türkiyəyə hərbi və maliyyə xarakterli məsələlərin həllində müraciət etdiyimiz kimi yenə də üz tutacağıq.

***Nazir.*** Şübhəsiz, türk hökuməti həmişə sizin köməyinizə çatmağa hazırdır. İndi sizdə ordu yaradılır və maliyyə məsələlərində tədbirlər görülür. İndi sizin qarşınızda Azərbaycan sərhədlərini və ümumiyyətlə, qonşularımız erməni və gürcülərlə hüdudları müəyyənləşdirmək məsələsi durur. Bu istiqamətdə siz özünüz daxili sərhəd münaqişələrinə son qoymalısınız ki, bu da bütün Qafqaz xalqları üçün vacib olan qonşularla dostluq münasibətlərinə gətirib çıxaracaqdır. Bu işə müəyyən mənada tez başlamaq lazımdır, azərbaycanlı, erməni və gürcü nümayəndələrinin öz aralarında anlaşması sülh konqresinə ümid olmadığı və işlərin belə döndüyü bir vaxtda xüsusilə tələb edilir.

***Mən.*** Biz özümüz, cənab nazir, qonşularımızla dostluq münasibətlərinə çalışırıq. Lakin biz qorxuruq ki, böyük iştahası olan, öz məqsədlərini başqasının, yəni bizim hesabımıza həyata keçirməyə çalışan, bizi başqa dövlətlərlə bir araya gəlməz və dövlət həyatına malik olmayan millət kimi qələmə verən ermənilərlə uzlaşmağımız çətin olsun. Bax, buna görə də bizim üçün

Avropa mərkəzlərində nümayəndəmizin olması xüsusi ilə vacibdir.

*Nazir.* Mən qonşulara dair sizin söylədiklərinizi başa düşürəm.

Lakin yenə də onlarla mehriban münasibət - həm siz, həm də onlar üçün vacib amildir. Vyana və Berlində sizin nümayəndəliyinizin olması məsələsinə gəlincə isə, mənim fikrimcə, bu da çox vacibdir. Bu haqda mən sizin sülh nümayəndə heyətinizlə söhbət etmişəm və mən bunu uğurlu fikir hesab edirəm. Çünki xaricdə olarkən siz, bununla, Azərbaycanı tez-tez yada salacaqsınız, bu da çox xeyirlidir. Mənim fikrim belədir. Bu haqda məsləhətləşmək lazımdır və biz hələ az görüşməyəcəyik. İzn verin, bu məsələ ilə bağlı mən sizı müəyyən vaxt keçəndən sonra yenə narahat edim.

*Mən.* Siz nə vaxt istəsəniz, çünki mən artıq Vyana və Berlinə səfərim barədə sədr-əzəmi məlumatlandırmışam, Türkiyənin siyası istiqaməti ilə razılaşmağı özümə borc bilirəm: mənim hökumətimin istəyi belədir.

*f. 894, siy.10, iş 150, v.3-5*

***

**Türkiyənin ədliyyə naziri Xəlil bəyin qəbulunda**

3 oktyabr 1918-ci il
Çərşənbə, saat 12:40

Ənvər Paşanın qəbul otağında

Təqdim etdi A.Başampa

Nazir dedi, mən Sizinlə tanış olmağa çox şadam və özüm də sizin ölkədə olmaq istərdim. İş burasındadır ki, mən Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhədlərə dair qarşılıq-

lı tələblərin uzlaşması barədə məsələ üzrə Qafqaz xalqlarının nümayəndələri ilə danışıqlar aparacağam. Bu danışıqları mən Azərbaycan nümayəndə heyəti ilə başlamaq istəyirəm, özü də elə bu gün. Buna görə də mən günorta saat 3-də Sizi nümayəndə heyətinizlə birgə Ədliyyə Nazirliyi binasına gəlməyinizi xahiş edirəm. Bu haqda onlara da məlumat veriləcəkdir. Elə orada danışarıq. Ancaq, ümumiyyətlə, mən belə təxmin edirəm kı, siz özünüz erməni və gürcülərlə sərhədlər barəsində mübahisələrə son qoymalısınız. Əgər razılığa gəlməsəniz, onda arbitraj yaratmaq lazım gələcəkdir. Mənim fikrim belədir ki, Qafqaz müsəlmanlarının şimalda Don və Kubanla, cənubda isə erməilərlə dostluq münasibətlərində və ittifaqda olması zəruridir.

Mən deyəndə ki, etıbar etmədıyin ünsürlərlə ittifaqda olmaq çətindir, onda ədliyyə naziri cavab verdi ki, yenə də buna nail olmağa çalışmaq lazımdır, çünkı bizim ümumi marağımız bundan ibarətdir. Bununla ədliyyə naziri xudahafizləşərək yenə də saat 3-də keçiriləcək iclası xatırlatdı.

*f.894, siy.10, iş150, v.5*

***

**Türkiyənin hərbi naziri Ənvər Paşanın qəbulunda**

3 oktyabr 1918-ci il
Çərşənbə, saat 12:50

Qapının astanasında əlini uzadaraq və gülümsəyərək qarşıladı. Özümü təqdim etmək və tam titulumu demək istəyirəm. Lakin Ənvər Paşa sözümü kəsir: "Bilirəm, bilirəm", - kresloya əyləşdirir, özü də əyləşir və mənə müraciət edərək deyir: - Xoş gəlmisiniz. İstanbul, necə, xoşunuza gəlirmi (mehriban gülümsəyərək).

*Mən.*Qəbula mütəəsir olmuşam, məni qarşıladığınıza görə

minnətdaram və ilk növbədə icazə verin, Qafqaz müsəlman ordusunun ali komandanı çoxhörmətli Nuru Paşadan sizə “salam” çatdırım. Mən onu salamat və iki: onlar tərəfindən yaradılmış Azərbaycan alaylarının silah və paltarla təmin edilməsi və (ikinci) Bakının tutulması məsələsinin həlli barədə fikirlərlə tərk edim. Öz “salam”ını göndərərək Nuru Paşa Sizə məlumat verməyimi xahiş etdi ki, Gəncədə yaxşı su, dadlı üzüm, alma və istədiyiniz hər şey vardır, biz tərəflərə gəlməyinizi xahiş edərdik.

***Ənvər Paşa.*** Dəvətinizə görə minnətdaram, dünən atamız oraya yola düşmüşdür. Hər şeydən çox isə, Azərbaycana belə məhəbbətlə yanaşan qardaşımın rəhbərliyi altında sizin qoşunların uğurlarına sevinirəm. Siz heç onu görmüsünüzmü: əhalinin ona münasibəti necədir? Axı o, bu yaxınlarda əyalətə getmişdi.

***Mən.*** Bizim əhali də Nuru Paşaya eyni məhəbbətlə yanaşır. Onlar Paşa tərəfindən yaradılan hərbi qüvvələrə böyük əhəmiyyət verirlər. Elə mənim səyahətimdən əvvəl o, Şamaxı və Zaqatala dairələrindən qayıtmışdır. Əhali öz qoşunlarının baş komandanını hər yerdə böyük təntənə ilə qarşılayırdı və göstərdiyi köməyə görə, - köməksiz Qafqazda vəziyyətimiz çox ağır olardı, - öz təşəkkürlərini ifadə edirdi. Mən şübhə etmirəm ki, bütün müsəlmanlar tərəfindən dərin təşəkkür hissi ilə qarşılanan Nuru Paşanın rəhbərliyi altında bizim qoşunlarımız tərəfdən Bakının tutulması Paşanı şöhrət çələngi ilə bürüyəcəkdir. Paşa həzrətləri! Biz dərk edirik ki, bütün bunlara görə biz Sizə minnətdar olmalıyıq, mən Sizə qətiyyətlə və şişirdilmədən bildirirəm ki, Sizin qardaşınızın belə ağır məsələ üçün göndərilməsi faktı Qafqaz müsəlmanlarının ürəyini Sizə daha da yaxınlaşdırdı, onlar əvvəllər də Sizi türk dahilərinin parlaq ulduzu kimi sevir və bu faktda da Sizin azərbaycanlı həmvətənlərinizə olan sevginizi görürdülər.

***Ənvər Paşa*** (cəzbedici təbəssümlə). Çox təşəkkür edirəm. Mən öz borcumu yerinə yetirmişəm və əgər qardaşım belə təəssürat qoyubsa, mən, yalnız sevinirəm. Lakin bu məsələdə Sizin

işiniz çoxluq təşkil etməlidir, daha doğrusu, yerli əhali, onun rəhbərləri və hökumət. Mənə məlumdur ki, səfərbərliklə bağlı çətinliklər yoxdur, könüllü olaraq gəlirlər. Belə də olmalıdır. Qafqaz müsəlmanları hərbi mükəlləfiyyət daşımamışlar, onlar hərbi işlərlə tanış deyillər, lakin hərbi ruh yüksəkliyi onlarda qalmaqdadır. Bu da vacib şərtdir.

***Mən.*** Tamamilə düzdür. Mən Bakı cəbhəsinin komandanı Mürsəl bəyin, onun rəhbərliyi altında Azərbaycan hərbi hissələrinin Kürdəmir, Şamaxı və Bakı cəbhələrində döyüş sıralarında göstərilən fədakarlıq haqqında dediyi sözlərə şahidlik edə bilərəm. Təcrübəli təlimatçılar olsa, bizim əhalidən həm kəmiyyətcə, həm də keyfiyyətcə yaxşı qoşun təşkil etmək olar, lakin bizdə silah, paltar və digər hərbi sursatlar çatışmır. Sizin diqqətiniz sayəsində biz bu və ya digərini əldə etmişik. İndi bizdə ağır silahlar da vardır. Lakin bu da yenə kifayət etmir və biz ümid edirik ki, bizim bütün indiki və gələcək hərbi hissələrimiz bizdə olan hərbi sursatlarla təmin olunacaqlar. Bundan əlavə, bizə hər cür mərmi hazırlayan ixtisaslı kadrlar gərəkdir.

***Ənvər Paşa.*** İndi, Bakı haqqında məsələ həll olunduğu bir vaxtda bunu etmək asandır. Lakin Bakı cəbhəsindən bizim qoşunlarımız geri qaytarılacaq, iki diviziyadan birisi. Hə, Bakıda müsəlmanlar çox zərər çəkiblərmi? Axı, Siz də bolşeviklərdən çox çəkmisiniz?

***Mən.*** Bakı haqqında, bolşeviklər və xüsusilə, qəfildən bolşeviklərə çevrilən ermənilər tərəfindən ayrı-ayrı asayiş pozuntuları barədə məlumat verirəm: onlardan qaçmağım haqqında söhbət açıram).

***Ənvər Paşa.*** (mənim şəxsi xarakter daşıyan məlumatlarıma gülərək). Deməli, Bakıda da, amansızlıqlar baş verən digər rus şəhərlərində olduğu kimi varlı adamlar elə zərər çəkməyiblər. Xüsusilə neft mədənləri və zavodlarının salamat qalması müsbət haldır. Onlara bir çoxlarının və ilk növbədə sizin qonşuların

böyük ehtiyacı vardır. Yanacaqsız dəmiryolları çox zəif inkişaf edir. Bəs Azərbaycan yolları?

***Mən.*** Bizim yollar yaxşı işləyir: mazut ehtiyatımız vardır. Lakin bizdə parovoz və vaqonlar azlıq təşkil edir. İndi fikirləşmək lazımdır ki, Bakıda onların sayın artıraq. Biz, əlbəttə kı, qonşularımızı yanacaqla təmin edəcəyik. Çünki biz hamı ilə mehriban münasibətdə yaşamağı və öz dövlətimizdə təşkilati işlərə başlamağı arzu edərdik. Lakin, çox təəssüf ki, bədxahlarımız çoxdur, daha doğrusu, hamı bədxahdır: qonşular və qonşu olmayanlar. Hətta, Almaniya bizi hələ tanımır. Lakin Almaniyanın Qafqazdakı nümayəndəsi fon Kress bizi inandırır ki, o, müstəqil Azərbaycan dövlətinin yaradılmasının tərəfdarıdır və Gəncədə (Hacıkənd) Xəlil Paşanın yanında nahar zamanı tost demişdir. Burada o, bu dövlətin paytaxtı Bakının tezliklə ələ keçirilməsi haqqında istəyini ifadə etmişdir. Eyni zamanda, gürcü hökuməti onun təsirində olaraq öz dəmiryol xəttindən Bakı üçün silah və qoşun keçirilməyə qoymurdu.

Berlində və Avropanın digər mərkəzlərində qonşularımız ermənilərin nümayəndələri hər vəchlə bizi dövlətlər qarşısında nüfuzdan salmağa çalışırlar. Bu cür addımların zərərli aqibətinin heç olmasa, qarşısını almaq üçün hökumətimiz bu mərkəzlərdə - Berlin və Vyanada nümayəndələrimizin olmasını zəruri hesab etmişdir. Mən bu mərkəzlərə, öz missiyamı türk dövlət siyasəti istiqamətində həyata keçirməyimi uzlaşdırmaq üçün əvvəlcədən türk hökumətinin rəhbərləri ilə məsləhətləşdikdən sonra getməyə məsləhət bilinmişəm. Mən bu barədə sədr-əzəmi və xarici işlər nazirini artıq məlumatlandırmışam.

***Ənvər Paşa.*** Mən qeyd olunmuş Avropa mərkəzlərində Azərbaycan nümayəndələrinin olmasını vacib hesab edirəm. Bundan başqa, siz nəinki Vyana və Berlində olmalısınız, həmçinin bitərəf dövlətlərə - İsveç və Hollandiyaya da səfirlər göndərməlisiniz. Ümumiyyətlə, bitərəf və döyüşən dövlətlərin nümayəndələri ilə görüşmək, şəxsi ziyarətlərin köməkliyi ilə

Azərbaycanı tam müstəqil dövlət kimi tez-tez xatırlatmaq məqsədilə və qəzet təbliğatı aparmaq üçün bu ölkələrə səfər etmək lazımdır. Uzun müddət və heç olmasa, sülh imzalanna qədər İsveçrədə qalmaq, Berlinə və s. mərkəzlərə getmək lazımdır. Əgər Siz uzun müddət qala bilmirsinizsə, bəlkə öz indiki heyətinizdən başqa bir nümayəndə göndərəsiniz. Məsələn, Cenevrə və yaxud Lozannada bütün Azərbaycan nümayəndə heyətinin olması daha yaxşı olardı.

Bu haqda hələ fikirləşmək lazımdır və Sizinlə bu barədə söhbət açmaq imkanımız hələ olacaqdır. Hələlik sağ olun (Bu sözləri deyərək, Ənvər Paşa ayağa qalxdı, gülümsəyərək əlimi tutdu və kabinetin qapısınadək ötürdü).

*f.894, siy.10, iş 150, v. 5-8*

***

**Türkiyənin yeni sədr-əzəmi İzzət Paşanın qəbulunda**

21 oktyabr 1918-ci il
Bazar ertəsi, saat 14:15
Bab-Əli binasında

Kapitan Kuquşevin müşayiəti ilə gedirəm. Bab-Əlinin qarşısında Şərq bölməsinin məmuru Sadəddin bəy qarşılayır. Qəbul otağına keçirik və burada sədr-əzəmin yavəri Sadəddin bəydən sakitcə soruşur: bu, nazir və Azərbaycanın səfiridir? O, başını tərpətməklə cavab verdi. Yavər qapıdan çıxır və o saat da qayıdır, deyir: "Buyurun".

***Mən.*** Ali şəxsiyyətə özümü təqdim etməkdə çox şadam - Azərbaycan hökumətinin üzvü, Azərbaycana dair məsələlər üzrə Vyana və Berlinə xüsusi səlahiyyətlə göndərilmiş fövqəladə səlahiyyətli nazir (....) Mandatım Xarici İşlər Nazirliyinə

təqdim olunmuşdur və Hərbi Nazirliyin Şərq bölməsində surəti vardır. Mən üç həftəyə yaxındır ki, burdayam. Sabiq sədr-əzəm Tələt Paşa, Ənvər Paşa və başqa nazirlərlə görüşmüşəm və Sizinlə tanış olmağı gözləmişəm. İzn verin, ilk növbədə ali vəzifəyə - sədr-əzəm təyin olunmağınız münasibətilə Sizə təbriklərimi çatdırım.

***İzzət Paşa.*** Sizə çox minnətdaram. Özünüzü burada yaxşı hiss edirsinizmi? İstanbulda əvvəllər olmusunuzmu?

***Mən.*** Diqqətinizə görə minnətdaram. Mən 18 il bundan əvvəl burada olmuşam və bu müddətdə olan bütün dəyişiklikləri görürəm.

***İzzət Paşa.*** Bəli, zaman çox tez keçir, hər bir şey dəyişir, indi isə günlər deyil, saatlar üzrə... Baxın dünən nələr olmuş və bu gün nələr baş verməkdədir... Dünən biz özümüzü yaxşı hiss etmək vəziyyətində idik, bu gün isə biz... məğlub olmuşuq. İndi bizə öz maraqlarımızı həyata keçirmək üçün həmrəy çalışmaq lazımdır. Bu, sirr deyil ki, biz sizin Azərbaycanı sevirik və bu vaxta qədər bacardığımızı etmişik.

***Mən.*** Əlahəzrət, izn verin, Sizi inandırım ki, bütün azərbaycanlılar hazırki müstəqilliyinə və rusların hakimiyyətindən azad olduqlarına və Azərbaycan üçün etdiyi hər bir şeyə görə öz böyük qardaşı - Türkiyəyə, türk hökumətinə minnətdardırlar. Azərbaycanın istifadə etdiyi o xoşniyyətlı diqqət belə fikirləşməyə əsas verir ki, Sizin yeni kabinəyə rəhbərlik etdiyiniz türk hökumətinin bundan sonra da münasibəti dəyişməz qalacaq və əvvəllərdə olduğu kimi indi də hökumətimiz hələ də ehtiyacımız olan dəstəyə böyük ümid bəsləyəcəkdir.

***İzzət Paşa.*** Təbii, təbii. Böyük qardaş həmişə kiçik qardaşına bacardığı qədər kömək edəcəkdir. Lakin Siz özünüz də görürsünüz ki, şərait indi başqa cürdür. Bizim və müttəfiqlərimizin vəziyyəti qəfildən dəyişmişdir. İndi isə söz Vilson və onun tərəfdarlarınındır. Buna görə də maraqlarımızı müdafiə etməyə hazırlaşmaq lazımdır və bunu biz sizinlə razılıq əsasında etmə-

liyik. Çox güman ki, vəziyyət tezliklə aydınlaşacaqdır. Siz burada olacaqsınız və lazımi anda biz həmrəy hərəkət edəcəyik.

***Mən.*** Sizə bildirirəm ki, Azərbaycan və Türkiyə üçün lazımi anda mən həmişə Sizin xidmətinizdə hazıram. Çünki bizim müvəffəqiyyətimiz Türkiyənin xoşbəxtliyi və qüdrətindən asılıdır. Onun himayəsi altında müstəqil Azərbaycan dövləti yaranmış və mövcud olmaq istəyindədir. Buna görə də biz səmimi qəlbdən arzu edirik ki, bizim qüdrətli himayəçimiz olan Türkiyənin maraqlarına hər bir məsələdə riayət olunsun. Əlbəttə, biz real kömək göstərməyə malik deyilik, çünki özümüzün də köməyə ehtiyacı vardır. Üstəlik də biz dövlət işlərində təcrübəli deyilik. Və buna görə də biz ümid edirik ki, buraxdığımız səhvlər də bağışlanacaqdır. Yenə də yüzillərlə rus hakimiyyətinin zülmü altında yaşayaraq, bir azda olsa, siyasi işlərdə nə isə öyrənmişik və bu da bizi Azərbaycanı ayağa qaldırmağa müvəffəq olmağımıza əmin edir: hər halda qonşularımıza nisbətdə bizdə daha çox imkan vardır...

***İzzət Paşa.*** Mən Sizə deyim ki, nə siyasətçi, nə də ki, diplomatam, sadəcə hərbçiyəm. Əlbəttə, sizin köməyiniz bizim üçün xeyirli olacaqdır. Və mən əminəm ki, siz dövlət işlərinin öhdəsindən gələ biləcəksiniz, sizin gücünüz vardır və biz də sizə kömək edə bilərik. Buna tam əmin ola bilərsiniz.

***Mən.*** İlk gəlişimdə Sizi bu qədər narahat etmək istəməzdim. Mən Sizdən xahiş edirəm ki, türk hökumətinin Azərbaycana münasibətinin dəyişməz qaldığını və bundan sonra da Sizə arxalana biləcəyimizi Azərbaycan hökumətinə çatdırmağı icazə verəsiniz.

***İzzət Paşa.*** Əlbəttə ki, icazə verirəm və deyilən fikirləri də təsdiq edirəm. Bizim kabinetimiz də bu fikirdədir. Əgər Siz Xarici İşlər Nazirliyinin rəhbəri ilə görüşməmisinizsə, Sizdən xahiş edərdim ki, onu da görəsiniz.

***Mən.*** Bu mənim borcumdur. Lakin mən birinci Sizə təqdim olunmağımı istəyirdim.

***İzzət Paşa.*** Mən indi ona zəng vuraram (telefonla zəng edir). Təəssüf ki, hələ yoxdur. Siz onun yanına sabah və yaxud istədiyiniz başqa bir vaxtda gələ bilərsiniz.

***Mən.*** İcazə verin, bir məsələ ilə də Sizi narahat edim: düzdürmü (...)

***İzzət Paşa.*** (...) (Qapıya qədər xoş təbəssümlə yola salır)...

***f.894, siy.10, iş 150, v.8-10***

***

**Türkiyənin yeni xarici işlər naziri**
**Nəbi bəyin qəbulunda**

27 oktyabr 1918-ci il
Bazar günü, saat 12:15
Nazirliyin binasında

Kabinetin mərkəzində dayanaraq çox isti qarşılayır.

***Mən.*** Özümü təqdim etməkdən şərəf duyuram. Sizinlə bir neçə dəfə görüşmək istəyində olduğumu bildirməyə borc bilirəm, lakin Siz çox məşğul idiniz. Mən sonuncu dəfə sədr-əzəmi ziyarət edərkən o, mənə Sizi ziyarət etməyi təklif etdi və hətta özü Sizə telefonla zəng vurdu.

***Nazir.*** Bəli, sədr-əzəm mənə bu haqda məlumat vermişdir. Ancaq bilirsiniz, bu günlərdə işimiz xeyli çoxdur, tez-tez iclaslar və yığıncaqlar olur, mən nazirlikdə çox az oluram. Ziyarətə görə Sizə minnətdaram.

***Mən.*** Mən bir aya yaxındır ki, burdayam. Gələn kimi sabiq sədr-əzəm Tələt Paşa, xarici işlər naziri Əhməd Nəsimi bəy, Ənvər Paşa və b. ilə görüşməyə müvəffəq olmuşam. Demək olar ki, bundan sonra üç həftə davam edən nazirlik böhranı başladı. Əlbəttə, mən yeni kabinə ilə işləmək üçün gözləməliydim. Belə ki, türk hökuməti ilə razılıq və əlaqəli şəraitində işləmək

bizim Azərbaycan hökumətimizin də səmimi arzusudur. Mənim mandatlarımdan göründüyü kimi (hər iki mandatın surəti ilə təqdim edirəm), mən böyük səlahiyyətlərlə Vyana və Berlinə fövqəladə səlahiyyətli nazir kimi göndərilmişəm. Göstərilən səbəbə - kabinetin dəyişməsinə - görə Avropaya səfərimi dayandırmışam və indi yaranan vəziyyətdən belə görünür ki, bu təxirəsalma elə də zərərli deyildir.

*Nazir.* Getməyiniz daha yaxşıdır. Çünki siz indi heç kimlə bağlı deyilsiniz və buna görə də müstəqil hərəkət edə bilər və sizə doğru yönəlmiş dövlətlə yaxınlaşa bilərsiniz. O ki, qaldı bizə, Sizi sədr-əzəmin inandırdığı kimi, biz Azərbaycana məhəbbətlə yanaşacağıq və bacardığımız qədər köməklik göstərəcəyik. Çünki biz arzu edirik ki, sizin gənc dövlətiniz təşəkkül tapsın və daha da möhkəmlənsin. Lakin əlbəttə ki, bizim vəziyyətimizin radikal dəyişikliyi təəssüf ki, bizə əvvəlki tərzdə hərəkət etmək imkanını vermir. Təkrar edirəm, siz türk hökumətinin sizə olan xüsusi münasibətinə tam əmin ola bilərsiniz, yaranmış vəziyyət isə sizin özünüzdən böyük iş və güclü səy tələb edir. Bunu əlbəttə ki, siz özünüz də görürsünüz.

***Mən.*** Bəli, doğrudur. Lakin yeni kabinetin Azərbaycana münasibətinin dəyişməz qalması bizim üçün böyük təsəllidir. Və ardıcıl olaraq biz əvvəlki kimi ondan hər cür kömək və dəstək alacağıq. İlk növbədə isə hərbi hissələrimizin komplektləşdirilməsi üçün lazımi sursatlar əldə edəcəyik.

*Nazir.* Bu, indi bizim yaralı yerimizdir. Şübhəsiz, bizim qoşunların Azərbaycandan çıxarılmasında da təkid ediləcək. Və biz bunu sizə aydın olan tərəfdən etməliyik. Lakin yenə də dərəcəsindən asılı olmayaraq, hər bir istəyən şəxs sizin xidmətinizdə qala bilər: qalanı da, həmçinin, sizdə qalacaq. Başqa sahələrdə də zərurət zamanı kömək edəcəyik. Lakin Siz özünüz də görürsünüz, biz hansı günləri yaşayarıq: bizim bütün diqqətimiz, bütün səylərimiz sülhün bağlanması məsələsi istiqamətinə yönəlmişdir. Ümid etmək lazımdır ki, belə gərgin vəziyyət uzun

sürməyəcək və onda sizinlə sakit və həmrəy işləmək üçün zaman da gələcək.

*Mən.* Mən də ümid edirəm ki, o vaxta çox az qalmışdır. Lakin Sizə açıq şəkildə bildirirəm ki, İngiltərə və Fransa nümayəndələri ilə sülh haqqında danışıqlar aparıldığı adada olmaq istərdim. Vyana və Berlinə yox, oraya isə getməyi çox istərdim.

*Nazir.* Danışıqlar uzun sürməyəcək və tezliklə bizə hər şey aydın olacaq və onda sizınlə həmrəy fəaliyyət göstərmək lazım gələcəkdir. Hələ ki, gözləmək lazımdır.

*Mən.* Mən sədr-əzəmə bildirmişəm. Azərbaycanın və sevimli Türkiyənin ümumi xeyrı üçün tələb olunan hər bir çağırışa cavab vermək mənim borcum və vəzifəmdir (bu zaman məmur gəlir və məlumat verir ki, Avstriya-Macarıstan səfiri gəlmişdir. Xarici işlər naziri: "Qoy gözləsin". Məmur gedir). İzin verin, bir qədər də Sizin vaxtınızı alım, iş burasındadır ki, türk hökuməti tərəfindən bizə diplomatik nümayəndə təyin olunmamışdır. Onun təyin edilməsi hər bir sahədə gərəkli olardı. Üstəlik, dünənki qəzetlərdə belə məlumat yayılmışdır ki, belə bir nümayəndə artıq Ermənistana təyin olunmaqdadır. Və bu da Ermənistan və Gürcüstanda türk hərbi nümayəndələrinin (Məmmədəli Paşa və Əbdülkərim Paşa) olmasına baxmayaraq həyata keçirilir. Nuru Paşanın bu istiqamətdə səlahiyyəti vardırmı?

*Nazir.* Biz də bu barədə fikirləşirik və Azərbaycana diplomtik nümayəndəmiz təyin olunacaq. Nuru Paşaya şifahi şəkildə bir neçə məlumat verilmişdır.

*Mən.* Məlumat verməliyəm ki, erməni nümayəndələrinin bəyanatına zidd olaraq, bu, bizim hərbi hissələrimizdir və onlar da elə öz ərazimizlə göndərilmişdir. Hər halda mən çox məmnunam.

İzn verin, gedim və bir daha bildirim ki, həmişə türk hökumətinin xidmətinə hazıram, özü də bizim ümumi xeyrimizə xidmət edən belə bir işdə.

*Nazir.* Gəlişinizə görə təşəkkür edirəm. Biz əlbəttə ki, Si-

zinlə hələ görüşəcəyik və lazımi anda narahat edəcəyik. Sağ olun (qapıya qədər ötürür və qapını özü açır).

*f.894, siy.10, iş 150, v.10-12*

***

## Türkiyənin yeni Şeyxülislamının qəbulunda

28 oktyabr 1918-ci il
Bazar ertəsi, saat 13-14
Şeyxülislamlığın binasında

İstanbulun demək olar ki, boş küçələri ilə gedirik. Yanında qarovul köşkü olan darvazadan keçərək bir hissəsi güllərlə bəzədilmiş təmiz həyətə daxil oluruq. Geniş yer başdan-ayağa, pilləkəndən başlayaraq xalçalarla örtülmüşdür. Dəhlizdə üç mövliyaya rast gəlirik. Ayrı-ayrı yerlərdə xidmətçilər dayanmışdır. Onlardan biri bizi kabinetə qədər ötürür və içəri daxil olmağı təklif edir. Buna baxmayaraq mən ona vizit kartımı verib gözləyirəm. Həmin dəqiqə qayıdır və daxil olmağı xahiş edir. Katib Mustafa bəy Vəkilovla birgə kürsülər və "Qata" yazılarla bəzədilmiş, gözəl xalçalar salınmış geniş kabinetə daxil oluram. Hündür boylu, ağ şələ saqqallı və möhkəm bədənli xoca şeyxülislam bizi birinci salamladı və bizi pəncərənin yanındakı divanda əyləşdirdi, yazı stolunun arxasındakı kresloda özü vaxtaşırı ayağını qısaraq əyləşirdi.

***Mən.*** Türkiyənin müsəlman ruhaniliyinin rəhbərini görməyi və yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik etməyi özümə borc bilirəm. Siz özünüz qafqazlı, Azərbaycana yaxın olan Dağıstandan olduğunuz üçün bunu etmək xüsusi ilə xoşdur. Şübhə etmirəm ki, müsəlmanların həyatında böyük rol oynayan dini işlər Sizin rəhbərliyiniz altında daha yaxşı gedəcəkdir.

***Şeyxülislam.*** Qafqaz nümayəndəsindən salamları eşitməyə çox şadam. Mən özüm də Sizinlə görüşmək arzusunda idim və Qafqaz haqqında söhbət açmaq istərdim. Vəziyyət necədir? İşlər gedırmi? İndi vəziyyət necədir? Axı indi daha ağır vəziyyət mövcuddur. Mən Azərbaycan və Dağıstanla daha çox maraqlanıram, axı o da, bu da Qafqazdır, heç bir fərq yoxdur. Elə deyilmi?

***Mən.*** Tamamilə doğrudur. Biz də Azərbaycanı Dağıstandan ayırmırıq. O ki, qaldı işlərə, bildirirəm ki, bizim öz hökumətimiz, qoşunlarımız vardır və biz ümid edirik ki, müstəqil Azərbaycan dövlətini yarada bıləcəyik. Buna bizim öz gücümüz də kifayət edər, həm maddi, həm də mənəvi. Ancaq əlbəttə, biz indi də, xüsusilə ilk vaxtlarda qanıbir, dini bir olan Türkiyədən həmişə kömək almağa ehtiyacımız vardır. Bu səbəbdən ilk növbədə Türkiyənin işlərinin yaxşı getməsi daha çox gərəkdir.

***Şeyxülislam*** (köks ötürərək). Bəli, vəziyyət çox ağırdır. Lakin yenə də ümidi saxlamaq lazımdır. Axı bizim şəriətdə siyasi, beynəlxalq həyatın vacib başlanğıcı da nəzərə alınmışdır. Mən tez-tez gənc xadimlərimizə deyirəm kı, xalqların həyatını tənzim edən bu başlanğıclardan yan keçmək olmaz. Baxın, hansı başlanğıclardır: müharibəni yalnız kəmiyyətcə bərabər olan düşmənlə aparmaq olar: məsələn, əgər, düşməndə 20 hərbçi, bizdə 10-u varsa, onda belə düşmənlə mübarizə aparmaq olmaz və şəriətə görə bu səbəbdən düşmənə müharibə elan edə bilmərəm. Digər şərt isə hərbiləşmə, texnika və s. istiqamətdə müharibəyə hazırlığa aiddir.

Əgər düşmən müharibəyə daha hazırlıqlıdırsa və ehtiyatında çoxlu hərbı sursat, texniki qurğular varsa, digər tərəfdə isə bunlar az, yaxud yox dərəcəsindədirsə, yenə də o biri tərəf düşməninə mahirbə elan edə bilməz. Əgər bundan sonra da düşmənlə müqavilə şəraitindəyəmsə, müqavilə qüvvədə olan müddətdə mən düşmənimə qarşı müharibəyə başlaya bilmərəm, bu və ya digər şərtdə də müqavilə pozulmamış hesab olunacaqdır.

Beləliklə, Siz özünüz görürsünüz ki, müharibənin aparılmasında şəriət hansı qanunları qoyur. Neçə əsrlər bundan qabaq irəli sürüldüyünə baxmayaraq, bu şərtlər yenə də təzə və həyatidir. Təəssüf ki, bu şəriət qanunlarına çox zaman riayət edilmir. Əgər bu qanunlara riayət edilsəydi, heç bu qədər də müharibə olmazdı. Bəlkə, izin verəsiniz Sizə çay təklif edim. Biz hələ tam rahatlana bilməmişik və Sizi yalnız çox da yaxşı olmayan kofeyə qonaq edə bilərəm.

***Mən.*** Çox təşəkkür edirəm, kofe çox dadlı idi... Mən çox üzr istəyirəm, onu qeyd etmək istəyirəm ki, şəriətin qanunları haqqında burada da çox az məlumat vardır. Bu üləmalara şəriət qanunlarına Sizin kimi riayət etmək və onlar barəsində məscidlərdə və harada imkan varsa bütün xalqa danışmaq lazımdır. Çünki şərıətdə müasir dövrə tətbıq edilə biləcək çoxlu müddəalar vardır. Onda əlbəttə, şəriətə də başqa cür münasibət olardı.

***Şeyxülislam.*** Bəs, sizin gənclərinizin şəriətə münasibəti necədir?

***Mən.*** Cavab verməliyəm ki, bizim gənclərimiz və ümumiyyətlə, ziyalılarımız şəriətdən uzaqlaşmır və ona hörmət bəsləyirlər.

Bu da bizimkilərin rus təhsil ocaqlarında təhsil almalarına baxmayaraq edilir, bu məktəblərdə ana dili və müsəlman inamlarına tam etinasız yanaşılır. Çox vaxt onlar öz dillərini bilmir və şəriət haqqında dolğun təsəvvürləri olmur. Bu, bizim ən böyük çatışmayan cəhətlərimizdəndir. Lakin biz ümid edirik ki, indi bizim məktəblərimizdə bu çatışmamazlıq öz-özlüyündə aradan qaldırılacaqdır.

Digər böyük çatışmayan cəhət yaxşı hazırlıqlı, ziyalı mollalar və ümumiyyətlə, ruhaniliyin olmamasıdır. Bu, əlbəttə ki, rus hökumətinin səyinin nəticəsidir. Onlar nəinki, dini təsisatlar üzrə vəzifələri yerinə yetirməyə qoymurdular, həmçinin, Türkiyə, Misir və İranda təhsil alan müsəlmanları təqib edirdilər. Bu, Sizə bir qafqazlı kimi məlumdur.

*Şeyxülislam.* Əlbəttə, əlbəttə. Mən özüm də bu aqibətə düçar olmuşam və buna görə də doğma Dağıstana qayıda bilməmişəm (Avariyada, Qunib yaxınlığında İnax kəndi).

*Mən.* Yüzillik müddətdə Qafqaz üzərində rusların hökmranlığından sonra bizim gənclərimizin hansı vəziyyətdə olmasını Siz özünüz görürsünüz. Lakin o, yenə də öz ürəyində türk qanına isti məhəbbətini saxlamış və öz millətini xilas etmək yolunda canından da keçməyə hazırdır. Fərqli fikirlər, bizdə bildiyiniz kimi az deyildir. Mən, xüsusilə, bildirməliyəm ki, əvvəllər şiələr və sünnülər arasında olan dini ədavətə olan ziyanlı nöqteyi-nəzər yaddan çıxarılmış və indi də bizdə buna artıq heç bir əhəmiyyət verilmir.

*Şeyxülislam* (ürəklənərək). Sizdən bunları eşitməyimə çox şadam. Əlbəttə, bu fərq Əl-Quran və vahid Allahı tanıyan müsəlmanları parçalaya bilməz və parçalamamalıdır. Baxın, o, nə qədər zərər gətirmişdir!... Şükür Allaha ki, Qafqazda artıq bu zərəri duyublar.

*Mən.* Bu ədavəti dəstəkləmək üçün rus hökuməti böyük səy göstərmişdir. Onlar həmişə qədim romalıların: "parçala, hökm sür" (divide it impera) şüarına əsaslanmışlar. Hələ rus çarı Böyük Pyotr təxminən 200 il bundan əvvəl qoyduğu vəsiyyətnaməsində öz varislərinə və rus hökumətinə türk və iranlıları, sünni və şiələri küsdürmək üçün qızılla müfti və şeyxülislamları satın almağı məsləhət görmüşdü. Lakin elə indi də bolşevik hökuməti müsəlmanlar arasında ədavəti dəstəkləməyə əl atır. Belə ki, bu yaxınlarda keçmiş sədr-əzəm Tələt Paşa Berlində olarkən bolşeviklərin nümayəndəsi İoffe ona demişdir: "Sizdə Qafqaz müsəlmanları ilə nə ümumilik vardır. Axı onlar şiə, siz - "türklər sünnisiniz". Mən isə belə bir vəziyyətdə, Tələt Paşanın yerinə olsaydım, deyərdim: "Baxın, mən qafqazlıyam və sünniyəm".

*Şeyxülislam* (mehriban gülüşlə). Əla, əla. Əlbəttə, onlar müsəlmanları parçalamağa çalışırlar. Çünki onlarla ayrı-ayrılıq-

da hesablaşmaq asan olacaqdır. Lakin mən çox sevindim ki, indi Qafqazda başqa əhval-ruhiyyə vardır. Bu, çox yaxşı və xeyirlidir. Sizdə yaxşı adamlar vardır və yaxşı dini şəxslər də olacaqdır. Və yəqin ki, indi artıq vardır.

***Mən.*** Təəssüf ki, çox azdır. Sizə məlumdur ki, Rusiyada müsəlmanların 3 müftisi vardır: Orenburq, Krım və Zaqafqaziya müftiləri və bir Zaqafqaziya şeyxülislamı.

***Şeyxülislam.*** Onlar hər ikisi bir şəhərdə yaşayır?

***Mən.*** Bəli, Tiflisdə idilər. Bu dini rəhbərlərin yeri sadə zəif adamlarla doldurulmuşdu. Rus hökuməti də elə buna nail olmağa çalışırdı. Əhali onlara haqsız etimad göstərirdi. Bəzi yerlərdə - Türküstanda, qırğızlarda, Şimali Qafqazda - dini müəssisələr yox idi. Lakin son zamanlarda əhali Şimali Qafqaz və Dağıstan üçün Hacı Nəcməddin Əfəndini müfti seçmişdi.

***Şeyxülislam.*** A-a! Mən onu tanıyıram. Hə, o necədir?

***Mən.*** Biz ondan çox şey gözləyirdik. Çox təəssüf ki, o, bizim ümidlərimizi doğrultmadı. Ancaq çox şey edə bilərdi, çünki nüfuzu var idi. O, daha çox həyati işlərlə məşğuldur. O, varlı adamdır və qoyun sürüsü vardır.

***Şeyxülislam.*** Bəli, dini işlərin qayğısı ilə həyati işlərin qayğısını birləşdirmək çox çətindir.

***Mən.*** Hacı Nəcməddin də belə ideya hökm sürürdü. O, hesab edirdi ki, müsəlman dünyasında yalnız bir dil - ərəb dili olmalıdır. Onun fikrincə, Türkiyə türk dilini özünə dövlət dili götürdükdən sonra özünü məhv etdi. Bu nöqteyi-nəzərin səhv olmasına onu heç cür inandırmaq olmurdu.

***Şeyxülislam.*** Bəlkə də, bütün müsəlmanların Quran dilində danışması daha yaxşı olardı. Lakin bu mümkün deyil, çünki hər bir xalq özünə doğma bildiyi dili sevir və sevməlidir. Nəinki türklər, ümumiyyətlə, heç kim öz ana dilindən imtina edə bilməz.

***Mən.*** Tamamilə doğrudur. Mən Sizin vaxtınızı çox aldım. İcazə verin, bir xahişimi bildirim: belə ki, yeni dini müəssisələ-

rin yenidən təşkil olunması məsələsi bizdə də növbədə olduğuna görə sizin nizam-intizamınız ilə tanış olmaq, onların bizə də tətbiq olunması üçün idarənizdə bir neçə dəfə də olmağıma icazə verməyinizi xahiş edərdim.

***Şeyxülislam.*** Əlbəttə, icazə verirəm. Çox şadam ki, Sizinlə görüşə bildim, əminəm ki, yenə də görüşəcəyik. Bütün işlərinizdə uğurlar arzulayıram.

***Mən.*** Dərin təşəkkürümü bildirirəm. Öz növbəsində icazə verin, Sizə cansağlığı və gələcək işlərinizdə qüvvə arzu edim (Çox mehribanlıqla yola salır, səmimi təbəssümlə qapıya qədər ötürür).

***f.894, siy.10,iş 150, v.14-18***

***

**Batum və Trapezund konfranslarında türk nümayəndə heyətinin sədri, dəniz naziri Rauf bəyin qəbulunda**

3 noyabr 1918-ci il
Bazar günü, saat 12:30-22:20
Türkiyə Dəniz Nazirliyinin binasında

Çox səliqəli Dəniz Nazirliyindəki otağına dənizçi formasında, başına kepka qoymuş Rauf bəy sürətli addımlarla daxil olur.

***Rauf bəy.*** Salam. Sizi indi görə bildiyim üçün çox üzr istəyirəm. Mən üçüncü gün qayıtmışam və Sizin kartınızı görmüşəm. Ondan sonra Siz mənim yanımda olmaq istədiyinizi iki dəfə telefonla bildirmişdiniz. Ancaq mən həqiqətən çox məşğulam və indi də məni yanına çağıran sədr-əzəmin qəbuluna hazırlaşıram. Yenə də üzr istəyirəm.

***Mən.*** Mən də öz növbəmdə Sizi işdən ayırdığıma görə çox

üzr istəyirəm. Bilirəm, çox məşğul və yorğunsunuz. Lakin mənim Sizi belə işdən kənar vaxtda narahat etməyim Azərbaycan Respublikasının nümayəndəsı öhdəliklərini yerinə yetirmək məcburiyyətindən irəli gəlir.

Mövqeyinizi və Azərbaycanın maraqlarına olan sədaqətinizi Siz Trapezund və Batumda artıq nümayiş etdirmisiniz. Bu barədə, həmin şəhərlərdə olan nümayəndələrimiz o qədər çox söhbət açır ki, mən də Sizi heç olmasa bir dəfə görmək arzusunda idim, Sizin şəxsiyyətinizə dərin hörmət bəsləyərək bildirirəm ki, Siz bizim ölkəmizə xeyirxah münasibət bəsləyənlərdən birisiniz.

***Rauf bəy.*** Sizə çox minnətdaram və Sizi inandırıram ki, mənim Azərbaycana münasibətim həmişə səmimi olub və səmimi olmaqda da davam edəcəkdir. Ancaq indi bütün diqqət böyük təhlükədə olan Türkiyəyə yönəlmişdir. Biz yaranmış şəraitdə əlimizdən gələni etmişik. Belə bir təhlükə Azərbaycanı da hədələyə bilər. Müttəfiq - antantaçıların tələbi çox ağırdır. Ancaq nə etməli: onlar qalib, biz isə məğlub olanlarıq.

***Mən.*** Daha sözüm yoxdur. İlk növbədə Türkiyənin qayğısına qalmaq lazımdır, onun müvəffəqiyyətindən bizim müvəffəqiyyətimiz asılıdır: bu, bizim, oğulun ataya olan borcumuzdur. Mənim üzərimə düşən digər borc isə Azərbaycanın maraqlarına qayğı göstərmək tələbidir. Bu günkü qəzetlərdə verilmiş sizin tərəfdən imzalanan barışıq şərtlərinin tam mətni məni çox kədərləndirdi və məni Azərbaycanın gələcək taleyi barədə düşünməyə vadar etdi. 11 və 15-ci maddələrdə bizə böyük zərbə vurulmuşdur: biz Sizin antantaçılarla apardığınız danışıqlarda iştirak etməmişik və bizə məlumat verilmədən Azərbaycanın paytaxtı Bakı və bizim Zaqafqaziya dəmiryolumuz ingilislərə verilmişdir.

***Rauf bəy*** (sözümü kəsərək). Əksinə, Bakı şəhərini də, Zaqafqaziya dəmiryolunu da biz heç kimə verməmişik və vermək hüququmuz da yoxdur. Doğrudur, danışıqlar zamanı antantaçılar

bu məsələdə təkid edirdilər. Lakin biz onlara dəfələrlə sübut edirdik ki, nə Bakı şəhəri, nə də Zaqafqaziya dəmiryolu bizə məxsusdur və biz bu barədə ingilislərlə danışıq apara bilmərik. Onlar bizə cavab verirdilər ki, Bakı türk qoşunları tərəfindən tutulmuş, Zaqafqaziya dəmiryolu isə Azərbaycan hüdudlarında olsa da, guya bizim əlimizdədir.

***Mən.*** Onlar belə fikirləşib yanıla bilərlər. Lakin mənim fikrimcə, antantaçılarla Sizin danışıqlarınızda Bakı müstəqil Azərbaycan dövlətinin paytaxtı kimi qeyd edilməli idi. Axı, əgər, 15-ci maddənin axırını şərh etsək, onda belə məlum olar ki, onlara Bakının tutulması təqdim edilmişdir. Təkrar edirəm, türk hökumətinin antantaçılarla danışıqlarında, Türkiyəyə məxsus olmayan Bakı haqqında müzakirələr üçün yer yox idi.

***Rauf bəy.*** Əfəndim, biz bunu dəfələrlə qeyd etmişik ki, Bakı bizim deyil və bu məsələ ilə bağlı antantaçılar Azərbaycan hökuməti ilə danışıqlar aparmalıdır. Lakin ingilislər qəti surətdə bildirirdilər ki, nəyin bahasına olursa-olsun, Bakını ələ keçirəcəklər. Belə ki, orada hərbçilər arasında sizin adamlarınız var, onlar qeyd edirdilər ki, biz türklər Bakının tutulmasına maneçilik göstərməməkdə təminat verməliyik. Və onlar tələb edirdilər ki, bu, barışıq şərtlərinin mətninə də salınsın. Bu, həmçinin, guya ki, bizim faktiki səlahiyyətimizdə olan Zaqafqaziya dəmiryoluna da aiddir.

***Mən.*** Mən bu iki (11 və 15-ci) bənd ilə bağlı müvafiq etirazımı bildirməliyəm və sabah şəxsən özüm bu etirazı cənab xarici işlər nazirinə çatdıracağam. Lakin ilk öncə bu barədə Sizinlə danışmaq istədim: eyni zamanda, bundan sonra nə edəcəyim barədə Sizdən məsləhət almaq istədim. İş belə yön alır ki, mənim burada qalmağımın heç bir faydası yoxdur. Buna görə də mən Azərbaycana qayıtmağı qərara almışam.

***Rauf bəy.*** Etirazınızı bildirərək, Siz əlbəttə ki, öz borcunuzu yerinə yetirirsiniz. Yaranmış vəziyyətlə tanış olan bir şəxs kimi bəyan etməyi özümə borc bilirəm ki, heç bir müqavimət

indi xeyir gətirə bilməz. Yaddan çıxarmayın ki, biz özümüzü məğlub edilmiş hesab edirik, hamı yorulmuşdur, qoşunlar isə daha döyüşmək istəmirlər. Əgər biz təklif olunmuş şərtləri qəbul etməsəydik, onda biz türk dövlətinin gələcək mövcudluğu arzusu ilə vidalaşmalı olardıq. Və əgər siz, azərbacanlılar bizə kömək etmək istərdinizsə, onda məhv edilərdiniz.

Mənim Sizə bir məsləhətim vardır ki, Azərbaycanın müstəqilliyinin tanınması üçün bütün səylərinizi birləşdirin. Buna görə də Siz getməməli, əksinə, burada qalmalısınız.

Buraya antantaçı nümayəndələrindən ibarət heyət gələcəkdir və Siz onlarla təxirəsalınmadan danışıqlara başlamalısınız. Şəxsən mən bu sahədə Sizə kömək etməyi vəd edirəm.

***Mən.*** Dərin təşəkkürümü bildirirəm. Lakin mən bilmirəm ki, bu danışıqların nəticəsi nə ola bilər, çünki Bakının tutulması artıq qərara alınmışdır, onsuz da Azərbaycanın mövcudluğu təsəvvür edilməzdir. Belə bir vəziyyət yaranır ki, buradan da çıxış yolu tapmaq çətin olacaqdır. Bütün bunların qəfil baş verməsi kimi. Axı, hələ dünən...

***Rauf bəy*** (sözümü kəsərək). Bəli, dünən güc bizim tərəfimizdə idi. Bu gün isə yox. Əgər bu vaxta qədər biz almanlarla birgə hərəkət edirdiksə, indi isə vəziyyət tamamilə başqa cürdür. Təkcə bizim münasibətimizdə yox. Artıq Avstriya bir dövlət kimi yoxdur: o, məhv olmuşdur. Növbə Almaniyanındır. Əgər biz bu və ya digər dərəcədə salamat qalmışıqsa, o, da verdiyimiz qurbanlar bahasına olmuşdur. Antantaçıların Bakını tutması Sizi təşvişə salmışdır. Onlar Batumu da ələ keçirəcəklər, sonra sizin dəmiryol vasitəsilə Batumdan Bakıya qoşunlar, toplar və s. gətirəcəklər. Hər cür müqavimət faydasızdır. Bütün qüvvələri tutuşduraraq ölçmək lazımdır və onda hər şey aydın olacaqdır. Beləliklə, siz tezliklə antantaçılarla Azərbaycana dair danışıqlara getmək imkanını əldə edə bilərsiniz.

Bu gün mən də Nəbi bəylə (xarici işlər naziri) görüşəcəyəm və onunla da söhbət edəcəyəm. Bir daha Sizə bildirirəm ki, ba-

cardığım qədər Sizin xidmətinizdəyəm. Xahiş edirəm, çəkinməyin və mənə lazımi anda zəng vurun. Hələ ki, Sizə güclü və təmkinli olmağı arzu edirik.

***Mən.*** Təşəkkür edirəm. Sizin təklifinizdən istifadə edəcəyəm və Sizin işinizin belə çətin anlarında narahat etməyi özümə rəva biləcəyəm (məni qucaqlayır, iki əlimdən tutaraq tez-tez sıxır və mənimlə birgə dəhlizə çıxır, burada onu adyutant, qapıda isə avtomobil gözləyir).

*f. 894, siy. 10, iş 151, v. 1-3*

***

**Türkiyənin xarici işlər nazirinin müstəşarı Rəşad Hikmət bəyin qəbulunda**

4 noyabr 1918-ci il
Bazar ertəsi, saat 12:10 (saat 12:40)
Türkiyə Xarici İşlər Nazirliyinin binasında

Hələ noyabrın 2 və 3-də katib M.Vəkilov vasitəsilə xarici işlər naziri ilə görüşməyi xahiş etmişdim. Noyabrın 3-də həmin nazirliyin məmuru Ensi bəy telefon vasitəsilə katibə məlumat verdi ki, xarici işlər naziri bu gün noyabrın 4-də günorta saat 12-də məni qəbul edəcək. Düz saat 12-də mən katib Vəkilovla birlikdə cənab nazirin qəbulunda oldum və mənə dedilər ki, nazir elə bu dəqiqələrdə çıxmışdır. Həmin məmur bəyan etdi ki, nazirin müstəşarı nazirliyin binasındadır, o, danışıqlar zamanı barışığın imzalanmasında iştırak etmişdir. Mən onsuz da onu görməliydim. Buna görə də gəlişim haqqında məlumat verilməsini xahiş etdim və dərhal qəbul olundum.

Mən çox da böyük olmayan sadə kabinetə daxil oldum. Masa arxasında xarici görünüşündən cazibəli olan açıqalınlı Hik-

mət bəy əyləşmişdi. Mənim başımda papaqla daxil olduğumu görən kimi asta-asta kostyumunu geyindi. Mən özümü təqdim etdim və adımı dedim.

***Müstəşar.*** Mən nazirin əvəzindən Sizin qarşınızda üzr istəməliyəm, onu sədr-əzəm çağırtdırmışdır. Bu gün qayıdacağını bilmirəm. Əgər Sizin nə isə bir tələsik işiniz varsa və əgər zəruri hesab edirsinizsə, mən Sizin qulluğunuzda hazıram.

***Mən.*** Cənab nazir özü mənimlə saat 12-yə görüş təyin etmişdi. Mən təyin olunmuş vaxtda gəlmişəm və bu barədə məlumat verməyinizi xahiş edirəm. Ancaq mən Sizinlə də, antantaçılarla barışıq imzalanması barədə danışıqlarda iştirak etmiş nümayəndə heyətinin tərkibində olan bir şəxs kimi görüşmək istəyirdim. Mən çox üzr istəyirəm. Lakin deməliyəm ki, mən barışıq şərtlərinin rəsmi mətnini çox kədərli hisslərlə oxudum. Dördillik gərgin müharibədə bu qədər qurbanlar bahasına başa gələn mübarizədən sonra heç kim belə bir barışıq gözləmirdi... Ancaq bir müsəlman-fatalist kimi mən böyük kədərlə qeyd edirəm ki, çox güman, belə bir nəticə taleyin işidir... Mənim zənnimcə, şərtlər çox ağırdır. Lakin Siz və danışıqlarda iştirak edən başqa nümayəndələr də öz işinizi görmüsünüz... Ümid edirik ki, sülh bağlanması zamanı Türkiyənin maraqları nəzərə alınacaqdır...

***Müstəşar.*** Biz bu ümidi itirmirik. Mən Sizi əmin edirəm ki, bundan böyük uğura biz nail ola da bilməzdik.

***Mən.*** Bu istiqamətdə məni dünən Rauf bəy də əmin edirdi. Nə cür olur-olsun, mən Sizin diqqətinizi o xüsusi bəndlərə yönəltmək istəyirəm ki, mənim təmsil etdiyim Azərbaycana da aiddir. Bu barışıq müqaviləsinin 11 və 15-ci maddələridir. Burada həmçinin, Bakı və indi antantaçıların əlinə keçən Zaqafqaziya dəmiryolu haqqında da maddə vardır. Azərbaycan Respublikasını təmsil edən bir nümayəndə, qocaman hüquqşünas-vəkil, əsrin dörddə birindən çoxunu özünü Rusiya müsəlmanlarının ictimai-siyasi işlərinə həsr edən bir şəxs kimi qətiyyətlə bil-

dirirəm ki, Azərbaycanı təmsil edən bir şəxsin iştirak etmədiyi danışıqlarda nə Bakı, nə də ki, Zaqafqaziya dəmiryolu haqqında söhbət gedə bilərdi. Çünki bu və ya digəri qeyd olunmuş respublikanın mülküdür, onların müstəqilliyi həmişə nəzərə çarpdırılmış və türk hökuməti tərəfindən qəbul olunmuşdur.

***Müstəşar.*** Biz bunu etmək istəmirdik, lakin biz, əlbəttə ki, üzərində heç bir hüququmuz olmayan Bakı və Zaqafqaziya dəmiryolu haqqında danışmağa məcbur olunmuşuq. Nəhayət, biz Bakını ingilislərə verməmişik, bu, heç barışıq şərtlərində də yoxdur.

***Mən.*** Doğrudur, belə bir ifadə heç müqavilənin mətnində də yoxdur, lakin ingilis qoşunlarının Bakı şəhərini tutmasına Türkiyənin əngəl törətməyəcəyini söyləmək, "Gedin və Bakını zəbt edin" (m.15) deməyə bərabər bir ifadədir. Eyni halda bu, bizim yollar və Rabitə Nazirliyinin ixtiyarında olan və bizim qulluqçular tərəfindən xidmət edilərək Azərbaycan ərazisində olmuş, hazırda olan Zaqafqaziya dəmiryolu haqqında məsələlərin sənədə daxil edilməsinə razılıq verməyə Türkiyənin hüququ yox idi, buna görə də mən müvafiq etirazı yazılı şəkildə verməyi özümə borc bilirəm. Əminəm ki, bu etiraz Sizin üçün də əhəmiyyət kəsb edəcək, xüsusilə, Bakı şəhəri və Zaqafqaziya dəmiryoluna dair nöqteyi-nəzərinizin möhkəmləndirilməsi istiqamətində.

Bu etiraz səsini ucaldaraq və bununla üzərimdə olan vəzifəni yerinə yetirərək mən xahiş edirəm ki, bu barədə Antanta nümayəndələrindən ibarət komissiya qarşısında sözümü demək imkanını verəsiniz. Xahiş edirəm, mənim etirazımı qəbul edəsiniz (etirazı yazılı şəkildə təqdim edirəm).

***Müstəşar.*** (Etirazı diqqətlə oxuduqdan sonra) Çox yaxşı. Mən bu barədə cənab nazirə məlumat verəcəyəm və biz birlikdə onu müzakirə edəcəyik, ya cavab verəcəyik, ya da ki, danışıq aparmaq üçün Sizi dəvət edəcəyik. Çox güman ki, biz Nazirlər Şurasına da məlumat verəcəyik. Lakin sizdə xidmətdə olan

əsgərlər və zabitlərə dair göstəriş də vardır. Bu, əlbəttə ki, xüsusi söhbətdir. Müzakirə edərik.

***Mən.*** Mən, ümumiyyətlə, xahiş edirəm ki, onu da nəzərə alasınız ki, Azərbaycan Respublikası o qədər türk hökumətinə borcludur ki, formal etiraz ifadəsi ilə kifayətlənə bilmir. Bizim indi köməyə ehtiyacımız vardır və mən ümid edirəm ki, bu yardımı biz türk hökumətinin köməyi ilə antantaçılardan ala bilərik. Və ilk növbədə respublikamızın müstəqilliyinin tanınması işində köməyi. Bu barədə mən Rauf bəylə də danışmışam, o, mənə tam kömək etməyə vəd etmişdir. Buna görə də mən hələ ki, burada qalmaq və Antanta nümayəndələrinin gəlişini gözləmək fikrindəyəm.

***Müstəşar.*** Siz doğru hərəkət edirsiniz: müstəqilliyin tanınmasına nail olmaq lazımdır. Sizin bizə müraciətiniz məni mütəəsir edir və bizim hansı şəraitdə olmağımıza baxmayaraq, sizə kömək etməkdən imtina edə bilmərik (göz yaşları!).

***Mən.*** Mənim yenə sualım var, bu da, həmçinin, yazılı şəkildədir. Mən cənab xarici işlər nazirini ziyarət edərkən Azərbaycana türk hökuməti nümayəndəsinin təyin edilməsi barədə şifahi surətdə məsələ qaldırdım. Gürcüstan və Ermənistanda artıq belə nümayəndələr Gürcüstanda Əbdülkərim Paşa və Ermənistanda Məmmədəli Paşa vardır. Mən bu məsələnın həllinın sürətləndirilməsini xahiş etdim. Belə ki, onun bir çox münasibətlərdə əhəmiyyəti vardır və xüsusilə də, müstəqil Azərbaycan dövlətinin tanınması işində. Elə onda, cənab nazir öz razılığını verdi və söylədi ki, nümayəndə tezliklə təyin olunacaqdır. Bu və qeyd olunmuş məsələni qanuniləşdirmək istəyi səbəbindən, mən müvafiq məzmunlu notanı yazılı şəkildə təqdim etməyi özümə şərəf bilirəm və xahiş edirəm ki, bu notanı qəbul edəsiniz.

***Müstəşar.***(notanı qəbul edir və oxuyur) Əlbəttə, şübhəsiz, sizdə də nümayəndə olmalıdır. Mən notanı qəbul edirəm və onu cənab nazirə təqdim edəcəyəm.

***Mən.*** Sizə minnətdarlığımı bildirirəm. Cənab nazirə həmçinin, mənim salamlarımı da yetirin. Mən artıq cənab nazirə bəyan etmişəm ki, ümumi xeyrə xidmət edən, hüquq və səlahiyyətlərim daxilində hər cür işə hazıram. İzn verin, bu müraciəti təsdiq edim. Həmçinin, izn verin ki, öz hökumətimə məlumat vermək üçün etirazıma tezliklə cavab almağa ümidimi kəsməyim. Mən Pera Palac oteldəyəm. Çox xahiş edirəm, ehtiyac yarandığı zaman mənə məlumat verməkdən imtina etməyəsiniz. Mən gözləyəcəyəm.

***Müstəşar.*** Çox gözəl; mən bütün bunlar barəsində cənab nazirə məlumat verəcəyəm (Səmimi sağollaşır, qapını özü açır).

***f.894, siy. 10, iş 151, v. 4-6***

***

**Türkiyənin xarici işlər naziri Nəbi bəyin qəbulunda**

5 noyabr 1918-ci il
Çərşənbə axşamı
Saat 11:20-11:45
Türkiyə Xarici İşlər Nazirliyinin binasında

Gündüz saat 11-də qəbul otağına daxil oluram. İstambulda qalmış alman səfirliyinin nümayəndəsinə burada rast gəlirəm. Nazirin yanında Krımın nümayəndəsi Həsən Səbri Eyvazov əyləşmişdir. Alman səfirliyinin nümayəndəsi qəbul otağında xalça üzərində əsəbi vəziyyətdə addımlayır. Tanış olaq. "Bəli, vəziyyət indi yaxşı deyil" - o, nazirin yanına dəvət eləməyə gəlmiş məmurun daxil olması ilə söhbətini tamamlayır. Ondan sonra mən də Nəbi bəyin otağına daxil oluram. Nazir bir qədər qalxır, məcburi gülümsəyir, sifəti qızarmış halda salamlaşır, əyləşməyi xahiş edir və papiros təklif edir.

***Mən.*** Mən dünən Sizin təyin etdiyiniz vaxtda gəlmişdim.

Təəssüf ki, Sizi görmək xoşbəxtliyinə nail ola bilmədim və müstəşarınız Rəşad Hikmət bəyi ziyarət etdim. Əminəm ki, özünüzü yaxşı hiss edirsiniz.

*Nazir.* Sizə minnətdarlığımı bildirirəm. Bəli, mən dünən sədr-əzəmın yanına getməliydim, indi bizim işimiz çoxdur, xüsusilə də mənim...

*Mən.* Sizi narahat etdiyim üçün üzr istəyirəm. Mən Sizə Azərbaycan Respublikasına aid müqavilə şərtləri ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Mənə dünən Antanta nümayəndələri, daha doğrusu, İngiltərə nümayəndələri ilə danışıqlar zamanı imzalanmış müqavilədə türk nümayəndələri tərəfindən qəbul olunmuş öhdəliklərə qarşı etirazımı özündə cəmləşdirən notanı Sizin müstəşara təqdim etmək müvəffəq oldu. Bu öhdəliklər müqavilənin 11 və 15-ci bəndlərində ifadə olunmuş Bakı şəhərinə, Zaqafqaziya dəmiryoluna və həmçinin, qoşunların Zaqafqaziyadan çıxarılmasına aiddir.

*Nazir.* Bilirəm, bilirəm, bu öhdəlikləri biz Antanta nümayəndələrinin tələbi ilə qəbul etməyə məcbur olduq. Onlar, xüsusilə, bu maddələrdə təkid edirdilər və biz müqavilə imzalamaq üçün bunu qəbul etməyə bilməzdik. Bu maddələrdən mən, Azərbaycana ziyan gətirə biləcək bir şey görmürəm. Biz həmişə Azərbaycanın marağını müdafiə etmişik və bundan sonra da əlimizdən gələni edəcəyik.

*Mən.* Sizinlə əvvəlki söhbətimdə mən artıq məlumat vermişdim ki, müstəqilliyi Türkiyə hökuməti tərəfindən tərəddüdsüz və şübhəsiz qəbul edilən Azərbaycan Respublikasının mövcudluğu üçün göstərilən vasitəçilik yüksək tutulur və bu bizim üçün çox əhəmiyyətlidir. Və indi mən Azərbaycan Respublikasının müstəqilliyinə diqqət olaraq bildirirəm ki, türk nümayəndələri danışıqlarda Türkiyəyə məxsus olmayan və onun tərəfindən birləşdirilməyən Zaqafqaziya dəmiryolu və Bakı şəhərinə dair öhdəlik götürməməliydi, zənnimcə, ümumiyyətlə, onların bu barədə danışmaq hüquqları yox idi.

*Nazir.* Təkrar edirəm, biz Bakını Antanta ölkələrinə verməmişik və vermək səlahiyyətimiz də yoxdur. Biz dedik ki, Bakının tutulmasına əngəl törətməyəcəyik. Və biz bunu etməyə məcbur idik.

*Mən.* İcazə verin bəyan edim ki, Bakının tutulmasına mane olmamaq, zənnimcə, Bakının tutmağa tam şərait yaratmağa bərabər bır şeydir. Rauf bəyin mənə dediyi kimi danışıqlar zamanı ingılislər bəyan etdilər ki, onlar Bakını ələ keçirəcəklər. Bax, buna görə də, mən belə təxmin edirəm ki, şəhərə dair, xüsusilə də müstəqil dövlətin paytaxtına dair söhbətləri bu respublikanın hökuməti və onun nümayəndələri ilə aparmaq lazım idi. Bu, həmçının, Azərbaycan Respublikası ərazisindən keçən Zaqafqaziya dəmiryoluna aiddir. Qoşunların çıxarılması məsələsinə gəldikdə isə mən belə təxmin edirəm ki, bu tələb könüllü əsgərləri və zabitləri olan hərbi hissələrə aid ola bilməz. Onların sayı çox da nəzərə çarpan deyil. Bilmirəm ki, bu hallara hərbi hissələrdə indi rast gəlmək olarmı, bu haqda məlumatım yoxdur.

*Nazir.* Ümumiyyətlə, oraya qoşun göndərmək bir səhv idi. Yaxşı olardı ki, bu, heç olmayaydı. Onda sizin vəziyyətiniz də belə ağır olmazdı. İnanın ki, biz bundan artıq da edə bilməzdik... Bizim vəzıyyətimiz də xoşagələn deyil. Ancaq biz indi hamımız eyni vəzıyyətdəyik. Biz tərəfdən qəbul olunmuş müqavilənin şərtləri Sizə çox sərt görünür. Ancaq Siz Avstriyaya dair şərtləri oxusanız, onda görərsiniz ki, avstriyalılar bizdən də ağır şərtlər qəbul etmişlər.

*Mən.* İzn verin ki, məlumat verim, harada xalqın maddı və mənəvi gücü varsa, orada müqavilənin ağır şərtlərinə dözməyə və son müqavılənin imzalanması zamanı öz hüquqlarını müdafiə edə biləcəyinə ümid ola bilər. Bəs gənc, möhkəmlənməmiş, hər tərəfdən bədxahlar və düşmən əhatəsində olan dövlət nə etsin?

Biz, əlbəttə ki, ingilislərə və ümumiyyətlə, kiçik xalqların hüquqlarına humanist niyyətlərlə yanaşan antantaçılara qarşı

müqavimət göstərmək fikrində deyildik.

Ümidvarıq ki, bizim səsimiz də eşidiləcək və bizim müstəqil varlığımız həmin antantaçılar tərəfindən də tanınacaq və belə bir işdə sizin adi dəstəyinizə nail olacağıq və əgər indi mən narahat olub etiraza əl atıramsa, bunu mənim üzərimdə duran bir borc kimi yerinə yetirirəm, borcum da Azərbaycan Respublikasının müstəqilliyini və maraqlarını müdafiə etməkdən ibarətdir.

*Nazir.* Bu, aydındır, lakin Azərbaycanın hüquqlarının pozulması mənasında irəli sürülən etiraz indi yersizdir... Hər ehtimala qarşı mən Sizin hələ müstəşarda olan izahatınızla tanış olacağam. Lakin bir daha qeyd edirəm ki, biz başqa cür hərəkət edə bilməzdik. Siz elə Bakı haqqında danışırsınız. Lakin Batum da ələ keçirilmişdir. Bütün bu məsələlər önəmlidir. Sizi inandırıram ki, biz müqavilənin şərtlərini qəbul etməsəydik, onda hər şeyi itirə bilərdik... və 15 gündən sonra bizim İstanbul da ələ keçə bilərdı.

***Mən.*** Mən desəm ki, Tanrıdan Türkiyənin indiki bəladan xilas edilməsini səmimi diləyirəm, onda mən bütün azərbaycanlılarının istəyini də ifadə etmiş olaram... Əgər Türkiyəyə gərək olarsa, onda biz özümüzü də unutmağa hazırıq...

*Nazir.* Çox sağ olun, biz bütün xalqlara, xüsusilə də bizə doğma olan azərbaycanlılara xoşbəxtlik diləyirik. Nəhayət, Sizin yazılı izahatınızı müzakirə edəcəyik və yenidən görüşəcəyik.

***Mən.*** Əlavə etmək istəyirəm kı, mən müstəşara Azərbaycanda Türkiyə nümayəndəsinin təyin edilməsi məsələsinin tezləşdirilməsi haqqında notanı da təqdim etmişəm.

*Nazir.* Yaxşı. Sizi Allaha tapşırıram. Görüşərik (Qapıya qədər ötürür və qapını özü açır).

***f. 894, siy.10, iş 151, v.7-9***

***

**Türkiyənin maliyyə naziri**
**Hüseyn Cavid bəyin qəbulunda**

8 noyabr 1918-ci il
Cümə, saat 14 -17, onun evində

Cəlal Sahirlə birgə xarici səhmlər imzalamaq (iki dəfə: Fransada müharibəyə qədər və Almaniyada 1916-cı ildə) bacarığı ilə şöhrət tapmış, hər iki hökumətdə maliyyə naziri vəzifəsində çalışmış Hüseyn Cavid bəyə məxsus, xarici görünüşündən çox da böyük olmayan evin doqqazı qarşısında dayanırıq. Çəpərləri olan kiçik həyətdən keçirik.

Balaca dəhlizdə bizi türk dilində danışan, çox güman ki, rum (yunan qızı) qulluqçu qarşılayır. Dolaşıq, xalı ilə bəzədilmiş dar taxta pilləkən kabinəyə aparır. Həyətə və küçəyə baxan iki pəncərəli kabinetə daxil oluruq. Şərait çox sadədir. Gözəçarpan heç bir şey yoxdur. Yazı masasının arxasında boyda çox da hündür olmayan, cavan görünən bəy fəsdə, qırmızıyanaq və buna görə də köklüyə meylli olan, şəkillərdə arıq görünməsinə baxmayaraq, guya yunan tipli Hüseyn Cavid bəy əyləşmişdi (o, da Tələt kimi Səlanikdəndir, "dönmə"dir).

Cəlal Sahir qapını açıb məni içəri dəvət edəndə Hüseyn Cavid masanın arxasından qalxır və bizi qapıda qarşılayır. Hüseyn Cavıd əlini uzadır və daxil olmağı xahiş edir.

***Nazir.*** Gəlin, gəlin. Sizinlə tanış olmağıma çox şadam. Sizın barənizdə çox eşitmişəm. Siz, çoxdan buradasınız?

***Mən.*** Bəli, aydan çoxdur. Çox üzr istəyirəm ki, bu vaxta qədər Sizi ziyarət etməmişəm. Sizə rəsmi xarakterli işim də düşmüşdür. Lakin siyasi hadisələrlə bağlı kabinənin belə tez dəyişməsi mənim kabinə üzvləri ilə görüşümü ləngitdi, o cümlədən Sizinlə. Çünki bilirdim ki, bütün nazirlər daha vacib məsələlərlə məşğuldurlar. Buna görə də mən Cəlal Sahirin verdiyi imkan-

dan Sizi ziyarət etmək üçün istifadə etdim.

*Nazir.* Çox məmnunam. Mən Sizi həvəslə qəbul etməyə hazıram, hətta hər gün olduğum nazirlikdə rəsmi işlərlə bağlı da. Siz özünüzü burada necə hiss edirsiniz?

***Mən.*** Diqqətinizə görə minnətdaram. Mən birinci dəfə deyil ki, buradayam. Mən buraya 17 il bundan qabaq Əbdülhəmid rejimi dövründə də gəlmişdim. Mən rəhmətlık İsmayıl Mirzə Qaspirinski ilə gəlmişdim. O, mənə qədər də burada olmuşdu. Çox güman ki, əvvəllər özü haqqında yaxşı iz qoymayıb getmişdi. Çünki biz rus paroxodundan düşən kimi arxamızca iki casus burada olduğumuz müddətdə, bir neçə ay "bizi qorudu". Yenə də mən burada olduğumdan razı qaldım: Türkiyənin nümayəndələri ilə qeyri-rəsmi tanış olmağa müvəffəq oldum və Əsəd Paşa, filosof Rza Tevfik, Cəlal Muxtar və b. ilə də iclas və gizli müsahibələr də apardım. Bu məqsədlə xaricilərin, İsveçrə təbəələrinin mənzilləri və həmçinin, Prinkipo adası seçilirdi.

*Nazir.* Hətta belə! Deməli, Siz köhnə inqilabçısınız. Siz Dövlət Dumasında deputat idiniz?

***Mən.*** Bəli. Lakin mən inqilabçı deyiləm, əsrin dörddə birini Rusiya müsəlmanları və xüsusilə də Qafqazın xeyrinə xidmət etmişəm və etməkdəyəm. Əlbəttə, buna görə rus hökuməti mənim başıma heç vaxt sığal çəkməyib. Əksinə, nəinki Nikolayın jandarmalarının, hətta bolşevik hökumətinin də xoşuna gəlmədim.

Nikolay hökuməti və bolşeviklər məni Vıborq müraciətnaməsinə görə həbsxanaya saldılar.

*Nazir.* Mən bu barədə oxumuşam. Lakin, ümumiyyətlə, biz Rusiya müsəlmanları haqqında məlumatımızın az olduğunu etiraf etməliyik. Bu barədə mətbuatda çox az məlumat vardır və yalnız son vaxtlar bizim qəzetlərimizdə Qafqaz barədə məqalə və qeydlər dərc edilməkdədir. Xüsusilə, biz qardaşlarımız - qafqazlıların siyasi həyatı barədə çox az bilirik. Əlbəttə ki, sizdə sol partiyalar mövcuddur! Hansılardır?

*Mən.* Bizdə demək olar ki, müxtəlif çalarlı partiyalar vardır. Sosial-inqilabçılar, sosial-demokratlar və hətta bolşeviklər. Bütün onlar siyasi cəhətdən az inkişaf etmiş xalqlarda əsasən gənclərdən təşkil olunmuşdur. Lakin bizdə sol partiyalar elə də çox deyildir. Onlar xalq arasında elə bir dərin kök buraxmayıblar və ümumiyyətlə, çox zəıf təşkıl olunmuşlar. Onlar hələ ki, öz həmfikirləri - rus və ermənilərlə həmrəy çıxış edirlər. Bakıda müsəlman partıyaları: sosial-demokrat, "Hümmət" boşevikləri və xüsusilə də sosıal-inqilabçılar belə olmuşdur.

*Nazir.* Bizdə əgər belə partiyalar varsa, onlar da çox zəifdirlər. Biz də hələ ki, bu və ya digər dərəcədə müəyyən mənada təşkil olunmuş İttıhad və Tərəqqi Partiyası vardır. Bu, millı partiyadır. Son zamanlar baş verən hadısələrlə bağlı indi onun üzərinə çox hücum edirlər.

*Mən.* Mən bu partiyanın fəaliyyəti ilə elə də tanış deyiləm. Lakin onun haqqında çox eşitmişəm. Tanış olmaq istərdim. Lakin hələ onun görkəmli nümayəndələrini heç görməmişəm. Üzr istəyirəm, ancaq Sizə açıq şəkildə bıldirirəm ki, bu partiya böyük səhvlərə yol vermişdir. Təkrar edirəm, mən İttihad və Tərəqqi Partiyasının fəaliyyəti ilə demək olar ki, tanış deyiləm. Lakin qeyd etməliyəm ki, onun iki səhvi xüsusilə nəzərə çarpır. Türkiyənin siyasi həyatı ilə səthi tanış olaraq bildirirəm kı, bu partiya Sizin dediyiniz kimi yeganə təşkil olunmuş partiya olsa da, o, xalq kütlələri arasında dərin kök sala bilmədi. Mənim fikrimcə, bu ölkənin zəif inkişaf etmiş siyasi həyatının nəticələrindən irəli gəlır. Əgər bu, belədırsə, onda partiya rəhbərliyi bütün qüvvə və enerjisini partiyanın inkişafı və möhkəmlənməsinə sərf etməli və xüsusilə də hökumət sıralarına cəhd göstərməməlidirlər.

Əksinə, bu partiyanın rəhbərləri, özləri hökuməti təşkil edirdi.

Bu da dılinə və dininə görə əhalisi müxtəlif olan Türkiyə kimı bir ölkədə yolverilməzdir. Mən partiyanın nüfuzunu aşağı

salan bu cəhətləri birinci səhv hesab edirəm. İkinci səhv - Tələt Paşa və b.-nın qaçması idi: onlar qaçmamalı ıdilər.

Bu mətnə Cavid bəyin iştirak etdiyi canlı söhbət də əlavə olunur. Cavid bəy çox hallarda mənimlə razılaşırdı. Partiyanın bölmələrinə dair mehriban söhbət uzun müddət davam etdi.

Söhbət zamanı telefon zəng çaldı. Cavid bəyi fövqəladə məsələlər üzrə hökumətin təcili iclasına çağırdılar. O, üzr istədi. Biz ayrılmaq üçün ayağa qalxdıq.

***Nazir.*** Siz hələ burada qalırsınız? İstədiyiniz vaxt gələ bilərsiniz. Nazirlikdə mən hər gün saat 12-yə qədər oluram.

***Mən.*** Sizin icazənizlə mən bu imkandan istifadə edəcək və sabah, ya da o biri gün Sizi ziyarət edəcəyəm [gedirik].

***f.894, siy.10, iş 151, v.10-11***

# IV

# AZƏRBAYCAN RESPUBLİKASI SİYASİ PARTİYALAR VƏ İCTİMAİ HƏRƏKATLAR DÖVLƏT ARXİVİNİN MATERİALLARI*

* ARSPİHDA-da saxlanılan bu sənədlərin bir qismi Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivləri Hüquq Müşavirliyi İstişarə Odası, N R.106/8-1,2; 107/7; NR.519/47 və b. qorunur. Mətnlər eynı olduğu üçün ARSPİHDA-dakı fondların müvafiq materiallarının tərcüməsi təqdim edılir.

## Qafqaz ordu qərargahı əks-kəşfiyyat idarəsinin əhaliyə əks-kəşfiyyat agentlərinə kömək və yardım göstərmək məsələləri haqqında

İZAHATI

**Orijinal**

Qafqaz ordu qərargahından

Qafqaz ordu qərargahının düşmən qüvvələri, qruplaşması və yerləşməsi haqqında məlumatların toplanması və düzəldilməsi işlərinə baxan kəşfiyyat bölməsi yanında xüsusi "əks kəşfiyyat bölməsi" movcuddur. Onun yeganə əsas vəzifəsi xüsusi agentlər vasitəsilə düşmənin casus təşkilatı ilə kəskin mübarizə aparmaq, onların casuslarını araşdırıb tapmaq, yaxalamaq, daha sonra isə üzə çıxarılmış sənədlərlə məhkəmə orqanlarına təhvil verməkdən ibarətdir. Deyilənlərdən məlum olduğu kimi Daxili İşlər Nazirliyinin digər axtarışları ilə heç bir əlaqəsi olmayan bu bölmənin fəaliyyəti yalnız bu zaman böyük və tam fayda gətirə bilər. Əgər qoşunlar və əhali Azad Rusiyanın xeyrinə yönəlmiş səmimi vətənpərvər hissləri altında ziyanımıza istiqamətlənmiş düşmənin casus fəaliyyətinə qarşı mübarizədə hər vasitə ilə bu bölməyə kömək göstərərsə, bu, xüsusilə indiki zamanda yaz əməliyyatlarının yaxınlaşdığı və qoşunlarımızın hərəkəti və onların qruplaşması haqqında casusların məlumatlarının bizim üçün əlverişsiz nəticə verə biləcəyi bir vaxtda ciddi əhəmiyyət kəsb edir.

Bu şərhləri bəyan edərək ordu qərargahı izah etməyi özünə borc bilir ki, təkcə düşmən münasibətlər, yaxud əks- kəşfiyyatın agentlərinin onların fəaliyyətinə diqqətsizlik və sadəcə etinasızlığı ordu qərargahını qiymətli məlumatlar əldə etməkdən, əks-kəşfiyyatın işini pozmaqdan məhrum edə bilər. Bu da yalnız düşmənimizə xeyir verəcəkdir.

***f.276, siy.7, iş 276, qutu 4***

***

**1918-ci il iyunun 4-də Batumda imzalanmışdır. Osmanlı imperator hökuməti və Azərbaycan Respublikası arasında dostluq**

MÜQAVİLƏSİ

Bir tərəfdən Osmanlı imperator hökuməti və digər tərəfdən özünü müstəqil elan etmiş Azərbaycan Respublikası aralarında siyasi, hüquqi, iqtisadi və intellektual əsasda qarşılıqlı surətdə dostluq və mehriban qonşuluq münasibətləri qurmağa razılıq verdilər və bu məqsədlə öz nümayəndələrini təyin etdilər:

Osmanlı imperatorluğu tərəfindən: ədliyyə naziri, senatın sədri Xəlil bəy və Osmanlı imperatorluğu Qafqaz cəbhəsinin baş komandanı Fəriq Vehib Paşa; Azərbaycan Respublikası tərəfindən: xarici işlər naziri Məhəmmədhəsən Hacınski və Milli Şuranın sədri Məhəmmədəmin Rəsulzadə lazımi formada səlahiyyətlərin mübadiləsi və müzakirəsi zamanı aşağıdakılar barəsində razılığa gəlmişlər.

**I maddə**

Osmanlı imperator hökuməti və Azərbaycan Respublikası hökuməti arasında daimi sülh və möhkəm dostluq bərqərar olacaqdır.

**II maddə**

Aşağıda göstərilən istiqamədə sərhəd xətti Osmanlı imperatorluğunu Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarından ayırır:

Sərhəd Çodok çayının Qara dənizə töküldüyü və 1877-ci ilin köhnə sərhədi ilə Şavnabada qədər qovuşan məntəqədən başlanır və yüksəklikləri keçərək Xalxam və Meniskara çatır: buradan cənuba dönür, Pirsavat yüksəkliyinə qədər keçir və

Abastumandan cənuba 2 km məsafədən şimal-şərqə dönür, Karxul dağının yüksəkliyinə çatır; buradan əvvəlcə şimal-şərqə 5 km, daha sonra isə cənub-şərqə yönələrək Kurkelə çatır, Arxurdan cənuba 2 km-də Kür çayını keçir, Qayabaşı dağının Ortatava və Qaraqaya yüksəklikləri xətti boyunca keçərək Molitsk monastırından cənubda Tabitskur gölünə çatır. O, bu gölü elə keçir ki, bilavasitə Molitsk monastrının cənubundan əks tərəfdəki sahildə yerləşən nöqtəyə doğru gedən birbaşa xətt üzrə gölün 1,5 km məsafədə cənub-şərqə şimal bucağındakı bir hissəsi Osmanlı ərazisində qalır;bundan sonra Tantatayelə çataraq cənuba enir, Dəvəqıran dağ silsiləsinin yüksəklikləri ilə Ağrıkar dağına keçir, Sərhəd Balaram və Nurrəhman dağ yüksəklikləri ilə uzanaraq, buradan cənuba dönür və Ağbulaqdan qərbdə 5 km aralıda dağ yüksəklikləri ilə keçir, Aleksandropol-Tiflis yolunu kəsir. Buradan yenə də dağ yüksəklikləri ilə Xanvəliyə doğru gedir və daha sonra isə düz xətt boyunca Alagöz yüksəkliyinə çatır; daha da uzanaraq düz xətti keçərək Eçmiədzindən qərbdə 7 km aralıda yerləşən Eçmiədzin-Sərdar şossesini kəsir. 7 km-likdə və Aleksandropol-Culfa yolundan şimala doğru təqribən 6 km-likdə Eçmiədzini dolanıb keçir, ona paralel olaraq Başqərpidən dəmiryola gedən yola çatır, onu Başqərpidən 16 km məsafədə kəsib keçir. Bundan sonra sərhəd cənub-şərqə dönür və Aşağı Qarabağlardan qərbdə bir km-likdə Şaqaplu, Aşağı Qaraxan, Çanaxçıdan keçərək Alpinçaya və bu çayla eyni adlanan yerə çatır. Buradan sərhəd Arpaçayla şərqə doğru gedir, Qayalı adlanan yerə, sonra isə Poqand çaydan Ağdaban yüksəkliyinə çatır. Buradan Qaraturp, Araçıq, Qaranlıqdağ yüksəklikləri ilə Rəman çay vadisinə doğru gedir və bu çayın axarı ilə Azərbaycandan cənuba yerləşən Alıcıda köhnə Rus-İran sərhədini kəsib keçir.

**III maddə**

Sərhədlərin müəyyənləşməsinə dair Azərbaycan Respubli-

kası ilə Gürcüstan və Ermənistan respublikaları hökumətləri arasında bağlanan protokollar Osmanlı imperator hökumətinə çatdırılacaqdır. Bu protokollar da indiki müqavilənin bir hissəsini təşkil edir.

**IV maddə**

Ölkədə nizam-intizamı və təhlükəsizliyi təmin etmək üçün lazımi anda Osmanlı imperator hökumətinə çatdırılacaqdır ki, bu protokollarda Osmanlı imperator hökuməti Azərbaycan Respublikası hökumətinə silahlı qüvvələrlə yardım etməlidir.

**V maddə**

Azərbaycan Respublikası hökuməti ərazi sərhədlərində quldur dəstələrinin formalaşması və silahlanmasına qarşı müqavimət göstərməli, burada gizlənən quldurları tərkisilah etməli və dəstələri dağıtmalıdır.

**VI maddə**

Sazişə girən tərəflər aşağı salınmış tariflərin təsis və tətbiq edilməsi yolu ilə dəmiryol daşımaları istiqamətində bir-birlərinə güzəştlərə getməlidirlər, xüsusilə də dəmiryolların tikilməsi, istısmarı, təminatı və aşağı salınmış tariflərin tətbiq edildiyi bütün digər ictimai işlər üçün zəruri olan materialların daşınması istıqamətındə.

Sazişə girən tərəflərin dəmiryolları arasında daşınar heyətin mübadiləsi onun üçün tətbiq edilmiş beynəlxalq prinsiplər əsasında həyata keçiriləcəkdir.

Sazişə girən tərəflər yuxarıda qeyd olunmuş qərarların təfsilatını müəyyənləşdirmək məqsədi ilə dərhal danışıqlara başlayacaqdır.

**VII maddə**

Osmanlı imperatorluğu və Azərbaycan Respublikası arasın-

da müqavilə, konvensiya, saziş, akt və digər sənədlər olmadığına görə sazişə girən hər iki tərəf konsul konvensiyası, ticarət müqaviləsi və digər aktlar bağlamaqda razılığa gəlirlər. Bu da onların hüquqi və iqtisadi münasibətlərinin nizama salınması üçün əhəmiyyəti hesab olunardı.

Konsul konvensiyası iki il ərzində bu müqavilənin ratifikasiyasının mübadiləsi ilə bağlanacaqdır. Bu keçid dövründə hər iki baş konsul və vitse-konsul onların imtiyazlı fəaliyyətinə münasibətdə qarşılıqlı qaydada ümumi beynəlxalq hüquq əsasında millətə daha münasib şərtlərdən istifadə edəcəklər.

Ümumi beynəlxalq hüquq əsasında ticarət müqaviləsinin imzalanması haqqında danışıqlar bir tərəfdən Türkiyə və digər tərəfdən onunla müharibədə olan dövlətlər arasında ümumi sülhün bağlanmasından dərhal sonra başlanacaqdır. Bu vaxta qədər və hər halda 1919-cu il dekabrın 31-dək bu və digər tərəfdən indiki müqaviləyə birinci əlavə ilə bərqərar edilmiş rejim tətbiq ediləcəkdir: bundan 1919-cu il iyunun 30-dan etibarən imtina etmək olar, ancaq onun fəaliyyəti hələ 6 ay müddətində davam edəcəkdir. Quru yolları haqqında məlumat bu müqavilənin təsdiqindən etibarən başlanacaqdır.

**VIII maddə**

Sazişə girən tərəflərin birinin ərazisində sərhədin o biri tərəfində səlahiyyətlı və daşınmaz əmlakı olan sakinlər və kənd icmaları onlardan istifadə edə, onları istismar edə və ya icarəyə verə, yaxud da ki, şəxsən və yaxud etibarlı şəxs vasitəsi ilə sata və ya özü idarə edə bilər.

Heç kim qeyd olunan daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarından, əlbəttə ki, onların dəyərinin ödənilməsi ilə ictimai mənafe üçün özgəninküləşdirilməsi istisna olmaqla məhrum edilə bilməz.

Yuxarıda qeyd olunmuş kənd icmalarının nümayəndələri və sakinləri yaşadıqları ərazidə mənsub olduqları hökumət tərəfin-

dən verilmiş və digər tərəfin hakimiyyət orqanları tərəfindən təsdiq edilmiş yol vəsiqələrini təqdim etməklə sərhədi keçdiyi zaman heç bir maneəyə rast gəlməyəcəklər: güzəşt və xüsusi imtiyazlar sərhədi keçməyə və sərhədyanı ərazilərin ticarətinə aid ediləcəkdir.

Yuxarıda göstərilmiş qərarların təfərrüatları bu müqaviləyə ikinci əlavədə müəyyənləşdiriləcəkdir.

**IX maddə**

Azərbaycan Respublikasının ümumpoçt-teleqraf ittifaqına daxil olmasına qədər Osmanlı imperatorluğu və Azərbaycan Respublikası arasında poçt-teleqraf münasibətləri bu müqavilənin ratifikasiyalarının mübadiləsi zamanı poçt-teleqraf konvensiyaları, sazişləri beynəlxalq ittifaqın nizamnaməsinə uyğun olaraq bərpa ediləcəkdir.

**X maddə**

Osmanlı imperatorluğu, onun müttəfiqləri və Rusiya arasında Brest-Litovskda bağlanmış sülh müqaviləsinə kollektiv və əlavə müqavilələrin qərarları sazişə girən tərəflər arasında öz etibarını bu müqaviləyə ziddiyyət törətməyəcəyinə qədər saxlayacaqdır.

**XI maddə**

Bu müqavilə təsdiq ediləcək və onun ratifikasiyası bir ay müddətinə İstanbulda mübadilə ediləcəkdir.,

Müqavilə mübadilə edildiyi gündən qüvvəyə minir.

Buna sübut olaraq səlahiyyətli nümayəndələr bu müqaviləni imzaladılar.

İki nüsxədə Batumda hazırlanmışdır.

Tərcümə xarici işlər naziri ***M.Hacınski***

Sərhədboyu ərazi ticarətində təqdim olunan xüsusi imtiyazlar.

Sərhədin hər tərəfindən 10 km uzanan sərhədboyu ərazilər üçün gündəlik tələbatı yüngülləşdirmək məqsədi ilə sazişə girən tərəflər aşağıdakılar barədə razılığa gəlirlər:

Hər iki tərəf qarşılıqlı sürətdə gömrük rüsumları, habelə, başqa vergilərdən, dəmiryol üzrə daşımalar istisna olmaqla digər ölkəyə idxal və ixrac vergilərindən azad olurlar:

a) hər daşınmada dəyəri 500 piastrdan artıq olmayan bütün dənli məhsullar və un;

b) sərnişin, qayıqçı, arabaçı və fəhlələrin şəxsi istifadəsi üçün gərəkli olan yataq mələfələri, pal-paltar, yol ləvazimatları, alətlər;

v) sərnişin, mal, səbət, yük və qoşqu heyvanlarının gətirilib aparalımasına xidmət edən daşıma;

q) tərəflərdən birinin yerli əhalisinin digər ölkə ərazisində məskən salması üçün ev şəraitinə lazım olan təsərrüfat əşyaları, mebel, alətlər;

d) gəlinlərin, təzə evlənənlərin, bir ölkədə doğulub digərinin ərazisində evlənənlərin cehizləri hər hansı rüsumdan azaddır;

e) sərhədboyu ərazilərin əhalisinin qonşu ölkəyə əkin məhsulları, məsələn, buğda və s. heyvandarlıq məhsulları, içkilər, yaxud başqa maye məhsuları və ya sərhəd ticarətinin başqa maddələrinin daşınmasına xidmət edən kisə və örtüklər: bu kisə və örtüklər boşaldıqdan sonra həmin yolla qaytarılmalıdır.

j) qış və yay vaxtı mal-qaranı yemləmə və otarma ilə təmin etmək məqsədilə bir tərəfdən digərinə aparılmasından ötrü çəkilən xərclər 6 aylıq müddətinə ödənilməlidir.

**II maddə**

Vergi qoyulmuş daşınar əmlak üzərində adı çəkilmiş imtiyazlardan istifadə etmək üçün hakimiyyət orqanları tərəfindən verilmiş, ixrac gömrük idarəsi tərfindən təsdiq edilmiş və bu malların həqiqətən sərhəd xəttindən gəldiyini sübut edən sənədlər əlavə edilməlidir.

**III maddə**

Sərhəd zonalarının sakinləri icma orqanları tərəfindən verilmiş və gömrük orqanları tərəfindən təsdiq edilmiş, sərhədi keçmək icazəsi verən sənədlər vasitəsi ilə razılığa gələn digər tərəfin ərazisinə müstəqil şəkildə keçə bilərlər.

Bu vəsiqələr yalnız 2 həftə müddətində etibarlı sayılır.

***f.277, siy. 2, bağlama 1, iş 9, v. 43-47***

***

1) Hərbi dəmiryolları və limanları üzrə Osmanlı Baş idarəsi Azərbaycan yollarını 5 il müddətinə aşağıdakı qaydada öhdəsinə götürür.

2) Azərbaycan hökuməti Respublika dəmiryollarının bütün daşınar və daşınmaz heyətini, bütün əmlakını və materiallarını hərbi dəmiryolları üzrə Osmanlı Baş idarəsinin sərəncamına verir.

3) Dəmiryolları, Osmanlı Baş idarəsi tərəfindən onun vəsaiti hesabına təşkil edilən müəssisə və qulluqçular tərəfindən idarə olunacaqdır.

4) Xərclərin tutulması zamanı illik gəlirin 75%-i Azərbaycan hökumətinə daxil olur.

5) Bu müqavilə Osmanlı hökuməti tərəfindən imzalandığı və bu barədə Azərbaycan hökumətinin məlumat verdiyi gündən etibarən qüvvəyə minir.

6) Daşınar heyətin və digər materialların qəbul və təhvil ve-

rilməsi qarışıq komissiya tərəfindən tədricən həyata keçirilir.

7) Türk qulluqçularının Gəncəyə gəlişi ilə onlar yuxarıda qeyd edilən komissiyanın təşkilinə başlayırlar. Bu barədə də Azərbaycan hökumətinin nəzərinə çatdırılır. Sonuncusu isə şəraitə uyğun komissiya seçir və bu komissiya təhvil-təslim işlərinə başlayır.

Bu müqavilə 1918-ci il iyulun 14-də Gəncədə iki nüsxədə bağlanmışdır və bir tərəfdən hərbi dəmiryolları üzrə Osmanlı Baş idarəsinin rəhbəri İsmayıl Hakkı Paşa və digər tərəfdən Azərbaycan hökumətinin nazirləri - rabitə və yollar naziri Məlikaslanov və xarici işlər naziri Hacınski tərəfindən imzalanmışdır.

***f.277, siy.2, bağlama 1, iş 9, v.30***

***

**1918-ci il iyunun 4-də Batumda imzalanmışdır Transqafqaz dəmiryollarının daşınar heyətinin müəyyən edilməsi haqqında**

MÜQAVİLƏ

Transqafqaz dəmıryollarının daşınar heyətinin müəyyən edilməsi haqqında məsələni həll etmək üçün şəraitə uyğun olaraq müvəkkil edilmiş aşağıda imza edənlər, Osmanlı imperatorluğu, Ermənistan Respublikası, Azərbaycan Respublikası və Gürcüstan Respublikasının səlahiyyətli nümayəndələri aşağıdakı razılığa gəldilər:

Rusiya dövlətinin keçmiş mülkiyyəti olan Transqafqaz dəmiryollarının bütün daşınar heyəti sazişə girən dörd tərəf arasında onların ərazisindən keçən dəmiryol xətlərinin uzunluğuna mütənasib şəkildə müəyyən edilir.

***f. 277, siy. 2, bağlama 1, iş 9, v. 24-25***

***

1918-ci il 4 iyunun 4-də Batumda bağlanmışdır.

**Bakı və Batum arasında mövcud olan ağ neft kəməri haqqında**

MÜQAVİLƏ

Bakı və Batum arasında daimi neft nəqlini təmin etmək üçün şəraitə uyğun tərzdə aşağıda imza edənlər - Osmanlı imperatorluğunun, Azərbaycan Respublikasının və Gürcüstan Respublikasının səlahiyyətli nümayəndələri aşağıdakılar barədə razılığa gəlirlər:

Bakı və Batum arasında ağ neft kəməri əvvəlki kimi işləyir.

Sazişə girən tərəflər qarşılıqlı şəkildə neft nəqlinin daimi olması üçün öz ərazilərində olan boruları tam yararlı halda saxlamaqda borcludurlar.

Neftin nəqli üçün vergi yığılacaqdır. Bu da sazişə girən tərəflər arasında onların ərazisindən keçən boruların uzunluğuna mütənasib şəkildə müəyyən ediləcəkdir.

Adı çəkilmiş hökumətlər tərəfindən təyin edilmiş üzvlərdən ibarət komissiya belə halların təfsilatını işləyib hazırlayacaqdır.

*f.277, siy.1, bağlama 1, iş 9, v.26-27*

***

1. Azərbaycan hökuməti dəmiryollarını və dəniz nəqliyyatını Bakı sənaye rayonlarının neft və neft məhsulları ilə təmin və təchiz etmək baxımından Osmanlı imperator hökuməti qarşısında öhdəliyi öz üzərinə götürür.

2. I paraqraf Bakı şəhəri və onun neft rayonlarının Azərbaycan hökumətinin tabelyində verildiyi gündən həyata keçəcəkdir.

3. Neft və neft məhsullarının qiyməti və texniki şərtləri Osmanlı imperatorluğu və Azərbaycan hökumətləri arasında 1334-cü il 4 iyunda Batumda bağlanmış müqaviləyə əsasən xüsusi qarışıq komissiya tərəfindən işələnilib hazırlanır.

4. Azərbaycan hökuməti tərəfindən Osmanlı imperator hökumətinə verilmiş yanacağın əvəzində və hesabına, birinci müqaviləyə uyğun olaraq hərbi dəmiryolları və limanları üzrə idarə imkan daxılində tez bir zamanda Azərbaycan höumətinə İstanbuldan 500 min (500.000) türk lirəsi nisyə olaraq avans verməlidir.

5. Bu müqavilə Gəncə şəhərində 14 iyul 1334-cü il tarixdə 2 nüsxədə bağlanılmış və hərbi dəmiryolları və limanları üzrə türk hərbi rəisi İsmayıl Hakkı Paşa və Azərbaycan hökumətinin sənaye və ticarət naziri Ağa Aşurov tərəfindən imzalanmışdır.

İmza: ***İsmayıl Hakkı***
***Ağa Aşurov***

***f.277, siy. 2 bağlama 1, iş 9, v. 25***

***

İstanbulla ticarət münasibətləri üzrə
Azərbaycan hökuməti nümayəndə
heyətinin başçısı
30 avqust 1918-ci il
№ 24

**Almaniya imperiya diplomatik nümayəndəsi**
**Əlahəzrət qraf Bernsdorfa**

Cənab diplomatik nümayəndə

Azərbaycan Respublikasının müstəqillik bəyənnaməsinin surətini Əlahəzrətə təqdim etməkdən şərəf duyuram. Bu bəyan-

namə teleqrafla dövlətlərə daha əvvəl göndərilmişdir. Lakin teleqraf əlaqələrinin pis olması ucbatından göndərıldiyi yerə çatması barədə məlumat ala bilməmişik. Tezliklə bu məqsədlə mərkəz və bitərəf dövlətlərin paytaxtlarını ziyarət edəcək nümayəndə heyəti yuxarıda qeyd olunan müstəqillik barədə Əlahəzrətə rəsmi şəkildə elan edəcəkdir.

Cənab diplomatik nümayəndə, Sizə olan dərin ehtiramımı qəbul edin.

*f. 277, siy.2, bağlama 1, iş 9, v. 9-22a*

***

*Layihə*

**Almaniya nümayəndəliyi tərəfindən təqdim olunmuş alman mətninə əlavə olaraq rus mətninin surəti**

MÜQAVİLƏ LAYİHƏSİ

Almaniya imperator hökuməti və Azərbaycan Respublikası hökuməti öz nümayəndələri vasitəsi ilə Azərbaycanda alman kolonyalarına münasibətdə aşağıdakılar barədə razılığa gəlmişlər:

**I maddə**

Hal-hazırda Tiflisdə olan Qafqazdakı Almaniya diplomatik nümayəndəliyi, həmçinin, Azərbaycan Respublikasında təsis oluna biləcək diplomatik və konsul müəssisələri öz adi vəzifələrindən başqa, xüsusi danışıqlar əsasında rus və Azərbaycan təbəələri ilə yanaşı, Azərbaycanda yaşayan alman koloniyalarının maraqlarını müdafiə etmək hüququna malikdirlər.

**II maddə**

Quldur dəstələrinin hücumlarının, oğurluq və digər qanun pozuntularının qarşısını almaq məqsədi ilə Azərbaycan höku-

məti alman koloniyaçılarının əmlakını qorumaq üçün bütün tədbirləri həyata keçirəcəklər:

Nizam-intizamı bərqərar etməkdə Azərbaycan orqanlarını dəstəkləmək üçün alman koloniyaçıları həqiqi hərbi xidmətə çağırılanlar istisna təşkil etməklə, yerli milis təşkil edə bilərlər. Bunun da kəmiyyət qüvvəsi hər koloniyaya ayrı-ayrılıqda mütənasib ehtiyaclar üzrə müəyyən olunacaqdır. Azərbaycan hökuməti bununla, adı çəkilmiş milisin Almaniya imperator nümayəndə heyəti tərəfindən təşkil edilməsinə razılığını verir. Bunun köməyi ilə müvəqqəti olaraq ayrı-ayrı alman zabitləri və əsgərləri ezam ediləcəkdir.

Azərbaycan hökuməti hər koloniyanın ictimai torpaqlarının sərhəd hüdudlarında koloniyaçı milisləri nizam-intizamı bərqərar etmək və qaravul vəzifəsini aparmaq işinə cəlb etmək hüququna da malikdir.

**III maddə**

Azərbaycan hökuməti bununla, hazırki müharibəyə qədər rus çarlarının fərmanları ilə hesablaşmalıdır. Belə ki, bu fərmanlar Azərbaycandakı koloniyaçılara aiddir - onlara iltifat göstərilmiş azadlıq və imtiyazları ləğv etməmək, xüsusilə özünüidarəetmə hüquqlarında: dini və mədəni ehtiyaclar və adət-ənənələrin həyata keçirilməsində tam azadlıq vermək.

**IV maddə**

Azərbaycan hökuməti Almaniyaya qayıtmaq və alman təbəəliyini qəbul etmək istəyən alman koloniyaçılarının istəyinə cavab olaraq onları öz təbəəliyindən çıxarmalıdır.

İctimai ittifaqdan ayrılmaq istəyən ayrı-ayrı koloniyaçılar Azərbaycan Respublikası hüdudlarında məskən salmaq və alman təbəəliyini qəbul etmək istədikdə Azərbaycan hökuməti onların xahişilə əvvəlki təbəəliyindən azad etmək məcburiyyətindədir.

İctimai ittifaqın bütün tərkibinin istəyinin bəyan edilməsi

təqdirində də Azərbaycan hökuməti bütün onların hamısını əvvəlki təbəəliyindən azad etməlidir. Həm də onu nəzərə almaq lazımdır ki, hazırki müqavilənini III maddəsində göstərilmiş alman koloniyaçılarının bütün hüquq və imtiyazları indiki vaxtda da qüvvədə qalır.

**V maddə**

Azərbaycan hökuməti alman təbəələrinə Respublika hüdudlarında torpaqlara sahib, daşınar və daşınmaz əmlaka malik olmaq səlahiyyəti verir.

**VI maddə**

Azərbaycan hökuməti Azərbaycanda olan alman koloniyaçılarına rus dövlətinin 2 fevral və 13 dekabr 1915-ci il tarixli qanunlarının (alman, Avstriya-Macarıstan, bolqar və türk təbəələrinin əmlaklarına və həmçinin, Rusiyanın alman və başqa millətin təbəələrinə dair) tətbiq edilməsinə borcludur.

İnqilab ərəfəsində verilmiş bütün dekretlər də həyata keçirilməməlidir. Çünki ki, bunlar alman koloniyaçılarına verilmiş hüquqlara toxunur.

**VII maddə**

Əgər hər hansı bir ictimai ittifaq özünüidarəetmənin hüquqi qərarları əsasında öz işlərini dayandırmaq və özünün torpaq ərazilərini, daşınar və daşınmaz əmlaklarını satmaq və yaxud özgəninküləşdirmək haqqında qətnamə qəbul edərsə, belə təqdirdə də Azərbaycan hökuməti maneçılik törətməyəcəkdir. İndiki şəraitdə bu, 10 illik müddətə qədər uzadıla bilər.

**VIII maddə**

II maddədə göstərilmiş məzmuna əsasən qeyd olunmuş milisin xərclərini ödəmək üçün və II maddədə mədəni təsisataların (məktəb, kilsə, xəstəxana, rahitə yolları, kanalizasiya xətləri və s.) tikilməsində ictimai ittifaqlar öz səlahiyyətlərinə

zemstvo vergiləri kimi ödənilən dövlət rüsumunu yığmaq hüququna malikdirlər.

**IX maddə**

İndiki müqavilə ilkin razılıq kimi nəzərdən keçirilir və imzalandığı gündən dərhal qüvvəyə minir.

İmzalandığı gündən 3 ay keçməmiş indiki müqavilə hər iki hökumət tərəfindən təsdiq olunmalı və yaxud başqa müvafiq sazişlərlə əvəz olunmalıdır.

Bütün bunlara sübut olaraq nümayəndələr müqaviləni öz şəxsi imzaları ilə təsdiqlədilər.

İki nüsxədə verilmişdir.

*1918-ci il tarixdə*

Əsli ilə düzdür: Katib (imza)
Surəti ilə düzdür:

***f.277, siy.2, bağlama 1, iş 6***

***

Bakı şəhəri
Sentrokaspi
3 sentyabr 1918-ci il
saat 19:15 tarixli əmr

**Baş komandan Biçeraxovdan radio-teleqram**

**Orijinal**

Hücuma keçirəm. Yalvarışlarıma baxmayaraq, keçmiş hökumət məni təmin etmədi və bununla da məni müvəqqəti olaraq fəaliyyətsizliyə düçar etdi. Tezliklə ümumi cəbhəyə keçəcəyəm və həm qəhrəmanların, həm də müdafiəçilərin növbəsi çatacaqdır. Əminəm ki, düşmən darmadağın ediləcəkdir. Dəstə müdafiəçilərə salam göndərir və birləşmə saatımızın yaxın ol-

masına inanmağı xahiş edir. Mən ingılislərdən Bakıya doğru yönəldilmiş piyada, zirehli avtomobil, pulemyot və artilleriyadan ıbarət təcili kömək tələb etdim. Bütün Rusiya Bakının müdafiəçilərini izləyir. Bizim qələbə Azad Rusiyanın dirçəlməsinin rəhnidir.

***Biçeraxov***

***f.276, siy.7, iş 284, qutu 4, v.1***

***

**SALAM OLSUN SİZƏ RUSİYA VƏTƏNDAŞLARI!**

Vətəndaşlar! Axırıncı düşmən dəf edilmişdir.

Bütün xalqlar üçün yeni, firavan və azad həyat dövrü başlanmışdır!

Müttəfiqlərin köməyi ilə bərpa olunan bizim böyük Rusiya əzəldən köhnə sərhədlərində qurbanlar və fəlakətlər bahasına təmizlənmiş bir çox yerlərdə öz yeni quruculuq həyatına başlamışdır.

Vətəndaşlar! Rus və müttəfiq qoşunların Bakıya qayıtdığı bir vaxtda, mən bütün vicdanlı vətəndaşları partiya və siyasi ədavəti unutmağa və acı çəkmiş əziz Rusiyanın xeyri və rifahı üçün vahid birlik altında bütün qüvvələri cəmləşdirməyə və bununla da müttəfiqlərimizin vəziyyətini yüngülləşdirməyə, onlara tezliklə öz vətənlərinə dönmək imkanını verməyə çağırıram.

Qafqaz rus dəniz və quru qüvvələrinin
baş komandanı ***Laz. Biçeraxov***

***f. 276, siy.7, iş 283, qutu 4, v.1***

***

**Bakı şəhərinin komandanı miralay Cəmil Cahidin Bakı şəhərində hərbi vəziyyətin tətbiq edilməsi barədə**

ƏMRİ

**Orijinal**

1) Türk komandanlığının himayəsi altında olan, milliyyətindən asılı olmayaraq bütün sakinlər və onların əmlaklarının qorunması üçün tədbirlər görülmüşdür.

2) Bütün mağazalar bu tarixdən etibarən açılmalıdır.

3) Şəhərdə odlu silahla gəzmək, oğurluq halları qəti qadağan edilir, bütün bunların pozulacağı təqdirdə günahkarlar güllələnmə məsuliyyətinə cəlb olunacaqlar.

4) Küçələrdə hərəkət axşam saat 7-dən səhər saat 7-yə qədər qadağan edilir.

5) Hər cür atəş dayandırılmalıdır.

Bakı şəhər komandanı miralay ***Cəmil Cahid***

***f.276, siy.7, iş 256, qutu 4, v.1***

***

**Qafqaz ordusunun türk baş komandanı Nurunun silahların təhvil verilməsi haqqında Bakı şəhər əhalisinə**

ƏMRİ

**Orijinal**

Bu il sentyabrın 18-də axşam saat 6 üçün milliyyətindən asılı olmayaraq bütün şəhər əhalisi yivsiz lüləli ov tüfəngləri istisna olmaqla bütün odlu və soyuq silahları təhvil verməlidirlər.

Silahlar mənzil komitələrinə verilir. Onlar da bütün toplanmış silahları siyahı ilə sahə mənzil komitələrində xüsusi olaraq

bu iş üçün nəzərdə tutulmuş hərbi şəxsə təhvil verirlər.

Mənzil komitəsi olmayan evlərın sakinləri silahları Sahə Komitələrinə şəxsən təhvil verirlər.

1, 8, 9, 10 nömrəli sahələrin sakinləri və Ermənikənd camaatı silahları yuxarıda qeyd edilən qaydada milis bölmələrinə verirlər.

Sahə mənzil komitələrinin ünvanları:

ikinci - Böyük Qala, Qanif Tağıyev evi

üçüncü- Sisianov, 10

dördüncü - Şamaxı, Lalayevlər evi

beşinci - Köhnə Polis, 20

altıncı - Daşlıq və Qoqol döngəsi, Aşurbəyov evi

yeddinci - Telefon, Mayılovun 10 nömrəli evi

Bu əmri yerinə yetirməyən günahkarlar güllələnməyə məruz qalacaqlar.

Qafqaz ordusunun baş komandanı ***Nuru***

***f.276, siy.7, iş 254, qutu 4***

***

**Osmanlı hökuməti ilə bağlanmış 1918-ci il ticarət**

MÜQAVİLƏSİ

16 sentyabr 1334-cü il
Tərcümə

Bir tərəfdən Azərbaycan hökuməti adından fəaliyyət göstərənlər və müvəkkillər təqdim olunmuş 1918-ci il 12 mart tarixli sənəddən göründüyü kimi, müqavilə aktını imzalamaq üçün və qeyd olunmuş hökumət nümayəndəliyi və bu müqavilədə qısaca olaraq "Satıcı" adlandırılan Məhəmmədəmin Rəsulzadə, Səlim Behbudov və Əsəd bəy Rüstəmbəyov, dıgər tərəfdən isə Osmanlı hökumətı adından fəaliyyət göstərən Hicaz və Hərbi

Dəmiryolları və Limanları Baş İdarəsi və bu müqavilədə qısaca olaraq "Baş İdarə" adlandırılan baş inzibatçı Fərid İsmayıl Hakkı Paşa öz aralarında aşağıdakı müqavilə aktı əsasında saziş imzaladılar.

**I maddə.** Azərbaycan hökuməti bu müqavilənin tələblərinə və şərtlərinə uyğun olaraq qeyd edilmiş hökumətə məxsus olan adı çəkilmiş Baş idarəyə ərzaq və sursat satmağı və verməyi öz öhdəsinə götürür. Hazırda mövcud olan və yaxud da ki, gələcəkdə Azərbaycan hökuməti ərazisində istehsal olunacaq ərzaq və sursatın növ və xüsusiyyətləri hər iki tərəfin razılığı ilə xüsusi siyahıda öz əksini tapmışdır. Yuxarıda adı çəkilmiş idarə hazırki müqavilə çərçivəsində ərzaq və sursatın qiymətini ödəməlidir.

**II maddə.** Əvvəlki bənddə göstərilmiş ərzaq və sursatın qiyməti Qiymət Komissiyası tərəfindən təyin edilir. Bu komissiyanın tərkibinə hər tərəfdən iki nümayəndə daxil olur. Əgər nümayəndələr səs çoxluğu və yaxud yekdilliklə qəbul olunan məsələlərdə ümumi razılığa gələ bilməzlərsə, bu zaman Məhkəmə Palatasının sədri tərəfindən beşinci şəxs təyin olunur. Ərzağın olduğu yerdə türk puluna əsasən onun real dəyəri müəyyənləşdirilir.

Qiymət Komissiyası tərəfindən yekdilliklə və yaxud səs çoxluğu ilə çıxarılan qərarlar hər iki tərəf üçün mühüm hesab edilir.

**III maddə.** Əvvəlki bəndlərdə adı çəkilmiş mallar cəmi 2 milyon türk lirəsi həcmində satılar və yaxud qəbul edılərsə, sazişə girən hər bir tərəf bu müqaviləni pozmaq hüququna malikdir. Mal satışının 2 milyon türk lirəsinə çatması barədə hər hansı bir tərəfin yazılı şəkildə məlumat verdiyi gündən etibarən 15 gün müddətində bu hüquqdan istifadə edilmədiyi təqdirdə im-

zalanmış müqavilənin qüvvədə qalması davam edir və üçüncü milyon türk lirəsi dəyərində olan mallara da tətbiq edilir. Bundan əlavə, əgər bu müqavilənin bağlanması və imzalanması günündən etibarən iki il müddətində satılmış və qəbul edilmiş ərzaqların dəyəri 2 milyon türk lirəsinə çatmasa, onda bu iki ilin sonunda müqavilə öz-özünə ləğv olunacaqdır.

**IV maddə.** Təyin olunmuş Satıcı və qəbuledən şəxslər Baş idarəyə satılmış malların, ərzağın yerləşdiyi yerdə Baş idarənin məmurlarına təhvil verilməsi barədə məlumat verən kimi ərzaqların dəyəri İstanbulda, Gəncə və ya Bakıda ərizə və ya tələbnamə ilə Satıcıya ödəniləcək və türk pulları ilə müəssisəyə və ya Satıcının müəyyən etdiyi şəxsə veriləcəkdir.

**V maddə.** Baş idarənin məmurları tərəfindən məhsul qəbul edildikdən sonra daşınmanın qorunmasına xərclərin çəkilməsi və digər tələbatlar Baş idarənin öhdəsinə düşür, lazımi qab-qacağın gətirilməsi də onun vəzifəsinə daxildir.

**VI maddə.** Satıcı adından bu müqaviləni imzalayan şəxslər İstanbulda olmadıqları təqdirdə bu müqavilə aktına riayət etməyə aydınlıq gətirmək hüququna malik olmaq üçün İstanbulda hər hansı bir şəxsə etibarnamə verilməlidir.

**VII maddə.** Bu müqavilənin yerinə yetirilməsi və təfsiri zamanı meydana çıxan mübahisələr Arbitaj komissiyası tərəfindən müzakirə və həll edilir. Bu komissiyanın tərkibinə hər iki tərəfdən 2 nümayəndə daxil olur. Əgər nümayəndələr səs çoxluğu və yaxud yekdilliklə qəbul olunan məsələlərdə ümumi razılığa gələ bilməzlərsə, onda tərəflərin razılığı ilə İstanbulda və yaxud digər yerdə Məhkəmə Palatasının sədri tərəfindən beşinci şəxs təyin olunur. Arbitraj komissiyası sədri tərəfindən çıxarılan qətnamələr tam qəti və kassasiyasız hesab olunur.

**VIII maddə.** Bu müqavilənin türk dilində əsl nüsxəsi orijinal hesab olunur.

**IX maddə.** Hazırki müqavilə imzalanmış və 1334-cü il 16 sentyabr tarixində 2 nüsxədə İstanbulda təqdim edilmişdir.

İstanbulda nümayəndə timsalında olan Azərbaycan Respublikası hökuməti Sənaye və Ticarət Nazirliyinin müvəkkili Əsəd bəy Rüstəmbəyov (imza)

İstanbulda nümayəndə timsalında olan Azərbaycan Respublikası hökuməti Xarici İşlər Nazirliyinin müvəkkili Səlim bəy Behbudov (imza)

Azərbaycan Respublikası hökuməti Sülh heyətinin sədri Rəsulzadə Əmin bəy (imza)

Osmanlı hökumətinin Hicaz və hərbi dəmiryolları və limanlarının Baş inzibatçısı Fəriq İsmayıl Hakkı Paşa (imza)

**Tərcümə etdi: tərcüman Əli**

| **Məhsul** | **Növ** | | |
|---|---|---|---|
| Buğda | Ali | Orta | Aşağı növ |
| Arpa | Ali | Orta | Aşağı növ |
| Ağ neft | | | |
| Neft | | | |
| Maşın yağı | | | |
| Mis | | | |
| Duz | | | |
| Pambıq | | | |
| Yun | | | |
| Dəri | | | |
| Biyan kökü | | | |
| Mal-qara | | | |

1 sentyabr 1334-cü il
(imzalar)
Tərcümə etdi: tərcüman Əli

***f.277, siy.2, bağlama 1, iş 9, v. 4-6***

***

İstanbul, № 456 4 oktyabr 1918-ci il

Şimali Qafqaz Respublikasının dörd müttəfiq dövlətlə ticarət münasibətləri üzrə nümayəndə heyəti

Bu il aprelin 1-də mən Trapezundda Osmanlı imperiyası və Transqafqaz Respublikasının sülh heyətinə Qafqazın siyasi təşkilatına dair qətnamə təqdim etdim. Burada mən Transqafqazın Şimali Qafqaz xalqlarının Birləşmiş İttifaqının ərazisi ilə əlaqəsi olmadan müstəqil dövlət təşkilatı kimi mövcud ola bilməyəcəyi və vahid Qafqazın yaradılmasının strateji, iqtisadi və siyasi mülahizələrdən irəli gəlməsi məsələlərində öz hökumətimin qəti əminliyini əks etdirirdim.

Vahid birliyin çoxsahəli formalarını əvvəlcədən təhlil etmədən hökumətim belə hesab edirdi ki, Transqafqaz Respublikasının buna oxşar hallardan birinin tanınması və qəbul edilməsi ilə Qafqazda bütün xalqların həyati maraqlarına müvafiq olan və daxili, xarici inkişaf və ölkənin çiçəklənməsinə zəmanət verə bilən şərtlər meydana çıxa bilər.

Buna cavab olaraq, Transqafqaz Respublikasında Gürcüstan, Azərbaycan və Ermənistana parçalanmış partiyaların Qafqaz ərazisində tam müstəqil dövlətlər yaratması üçün 6 ay ərzində müxtəlif cəhdləri göstərilmişdir və ölkədəki siyasi böhran, milli münaqişələr və ağır iqtisadi dağıntılar, bir sözlə, bütün

bunlar hökumətimin yuxarıda qeyd etdiyimiz, başqa sözlə, Gənc Qafqaz hökumətlərinin sıx siyasi ittifaqı fikrini daha da qətiləşdirmişdi.

Yuxarıdakı mülahizələrdən nəticə çıxararaq mənim hökumətim Əlahəzrətə Azərbaycan hökumətinin irəli sürdüyü nöqteyi-nəzərə uyğun olaraq, Qafqaz hökumətlərinin Konfederativ İttifaqını yaratmaq üçün həqiqi tədbirlər həyata keçirmək istəyinin olub-olmaması sualı ilə müraciət etməyi mənə həvalə etmişdir.

Əgər Əlahəzrət bu təklifin Azərbaycanın həyati maraqlarına cavab verdiyini hesab edirsə, onda mənim sədrlik etdiyim Şimali Qafqaz hökumətinin nümayəndə heyəti İstanbulda yuxarıdakı şərtlərə müvafiq olaraq dərhal mühüm müqavilə bağlamaq səlahiyyətinə ala bilər.

Təfsilatına gəldikdə isə bunlar qarşıda duran konfransda müəyyən ediləcəkdir. Konfransın vaxtı və yeri isə bütün maraqlı tərəflərin razılığı ilə müəyyənləşdirilə bilər.

Əlahəzrət, xahiş edirəm Sizə olan dərin ehtiramımı ən xoş arzularla qəbul edəsiniz.

İmza: Heydər Bammat

***f.277, siy.2, bağlama 1, iş 9, v. 8-8 a***

***

Bakı şəhəri 17 noyabr 1918-ci il

**Şimali İranda Böyük Britaniya qoşunlarının rəhbəri general-mayor Tomsonun Bakı şəhərinin ingilis qoşunları tərəfindən tutulması barədə**

MÜRACİƏTİ

**Orijinal**

**BƏYANNAMƏ**

Müttəfiq dövlətlərin nümayəndəsi timsalında Bakıya daxil olaraq aşağıdakı məlumatları bəyan edirəm:

Bakı müttəfiqlər adından Böyük Britaniya qoşunları tərəfindən tutulur. Məni Fransa və Birləşmiş Ştatların nümayəndələri müşayiət edir. Biz buraya Yeni rus hökumətinin tam razılığı və icazəsi ilə gəlmişik. Türkiyə bağlanmış müqavilə ilə Bakının bizim tərəfimizdən tutulmasına razılığını bildirmişdir.

Təntənəli anlarda Biz dünya müharibəsinin ilk illərində rus xalqının müttəfiqlərə göstərdiyi böyük xidmətləri unutmuruq. Müttəfiqlər Rusiyada nizam-intizamı bərqərar etməyincə və onlara digər dünya xalqları ilə bir sırada durmaq imkanını yaratmayınca vətənlərinə dönməyəcəklər.

Qafqazda hələ sakitlik hökm sürmür: mənim borcum Bakı ərazisindəki sakitliyi təmin etməkdir. Mövcud ayrılmalar ümumilikdə düşmənlərimizin əməlidir. Nə Almaniya, nə də ki, Türkiyədə xalq hökuməti vardır. Digər ölkələrdə respublika cəhdlərini dəstəkləməklə onlar bu xalqların deyil, öz şəxsi məqsədlərini güdürlər.

Müttəfiqlərin öz ardınca rus ərazilərinin bir qarışının da qoyub getmək niyyətlərinin olmadığı barədə heç söhbət də ola bilməz. Bu baxımdan onlar rus xalqı qarşısında təkəbbürə borcludurlar. Ölkənin və yaxud onun istənilən hissəsinin daxili idarəsi bərabər tərzdə tamamilə rus xalqının işidir, bu işə müttəfiqlər

heç bir halda qarışmayacaqdır. Biz sizin yanınıza yalnız bir məqsədlə gəlirik:

Qayda-qanunun və nizam-intızamın bərpasına mane olan alman və türk narazılıq mərkəzlərini rədd edərək sakitliyi bərqərar etmək.

Bizim bütün xalqlara və məzhəblərə münasibətimiz tamamilə bərabər olacaqdır. Mənim tərəfimdən müvəqqəti yerli və şəhər idarələri təsis ediləcəkdir. Bununla belə, bizim səylərimiz ümumilikdə qayda-qanunun və nizam-intizamın bərpasına yönələcəkdir. Bu məsələdə mən tam əminliklə şüurlu vətəndaşların dəstəyinə arxalanıram, onları öz vəzifələrinə qayıtmağa və ictimai nizam-intizamı bərqərar etmək naminə öz vətəndaşlıq borclarını yerinə yetirməyə çağırıram. Öz növbəsində mənim tərəfimdən verilmiş əmrlər əhali üçün imkan daxilində daha az yorucu olacaq, ticarət və sənaye üçün nəzərdə tutuldacaqdır.

Bakı şəhərinin bütün mötədil və şüurlu vətəndaşlarının həmrəyliyinə arxalanaraq mən ümid edirəm ki, biz Rusiyaya ümumi düşmənimiz üzərində qələbənin bəhrəsindən istifadə etmək imkanını yaratmaq hissləri altında tezliklə vətənə dönmək üçün mənə həvalə olunmuş öhdəlikləri və tapşırılmış vəzifələri tez və asanlıqla yerinə yetirəcəyəm.

Təcili olaraq aşağıda göstərilən zəruri tədbirlər tətbiq edilməlidir:

1. Şəhərdə yaşayan və bunun nəticəsində qoşunun mühafizəsi altında olan şəxslər onlarda olan bütün tüfəng və tapançaları elan ediləcək müddətdə yerlərdə hakim orqanlara təhvil verməlidirlər.

2. Türk qoşunları tərəfindən boşaldılmış şəhər rayonlarında olan türk və alman təbəələrinin hakimiyyət orqanlarına verilməsinə görə mükafat təyin olunacaqdır.

3. Şəhərdə hərbi vəziyyət elan olunur və belə bir rejim mülki orqanların ictimai nizam-intizamın bərqərar edilməsi işində

cavabdehliyi qoşunların üzərindən götürmək iqtidarına malik olmayana qədər qüvvədə qalır.

V.M.Tomson, general-mayor
Şimali İranda Böyük Britaniya qoşunlarının
komandanı

*f.276, siy.7, iş 258, qutu 4*

***

Bakı şəhəri 17 noyabr 1918-ci il

**Müttəfiq qoşunların komandanı Tomsonun Bakı şəhərində hərbi vəziyyətin tətbiq edilməsi haqqında**

**QƏRARI**

**Orijinal**

1) 17 noyabr 1918-ci il gündüz saat 12-dən etibarən Bakı şəhərində hərbi vəziyyət elan olunur. Bu işə müttəfiq dövlətləri adından mən, aşağıda imza edən general-mayor V.M.Tomson, , hökumət və mən tərəfdən təyin olunmuş şəxslər rəhbərlik edəcəkdir.

2) Hərbi vəziyyət zamanı mən, aşağıda imza edən, Bakı şəhərinin hərbi qubernatoru olacağam.

3) Polkovnik F.P.Kokerel müttəfiq dövlətlərin Bakı şəhərində polis komissarı təyin olunur.

4) Bakı şəhəri Şəhər İdarəsi və digər şəhər dövlət müəssisələri öz gündəlik fəaliyyətlərini davam etdirirlər.

5) Hərbi vəziyyətin qanun və qaydaları qısa müddətdə əla-

və olaraq elan olunacaq və zəruri vaxta qədər elan olunanadək davam edəcəkdir. Yuxarıda qeyd olunmuş qayda və qanunlardan hansısa birinin pozulmasında günahkar olan şəxs mənim tərəfimdən təyin olunmuş hökumət nümayəndələri və yaxud mənim zəruri hesab edəcəyim digər tədbirlər vasitəsilə ciddi və təxirə salınmadan cəzalandırılacaqdır.

Müttəfiq qoşunların komandanı,
general-mayor V.M.Tomson

*f. 276, siy.7, iş 259, qutu 7, v.1*

# V

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ARXİVİNİN MATERİALI

**Gürcüstan Fövqəladə Komissiyası
Rəyasət Heyətinin təlimat məktubu.
№ 3. Tam məxfi. -Tiflis
Elektropeçatiya Qruzeçka, 1922.**

... Antanta orduları Zaqafqaziyanı tuturlar və nəhayət, Daşnaksütyun Rusiya Ermənistanı ərazisini öz ixtiyarına keçirir. "Həqiqi böyük Ermənistan" yaradılmasına başlanılır: Daşnaksütyun yad qüvvəni məhv etmək üsulunu təkrar edir. Kars vilayətində 80 kənd yer üzündən silinir...

Daşnaksütyun Partiyası qələbəsini bayram edir. O, öz zəfərinin zirvəsinə yüksəlir...

*PR-41065. 4-cü cild, v. 18-19*

# VI

# ALMANİYA ARXİVLƏRİNİN ÇAP OLUNMUŞ SƏNƏDLƏRİ

Qaynaq: *Pipiya Q.V. Politika Qermanii v Zakavkazye v 1918 qodu. Sbornik dokumentov. Tbilisi, İzdatelstvo "Sabçota Sakartvelo", 1971.-240 str.*

**№ 1**

Meklenburq Böyük hersoqluğunun səfirliyi

22 may 1918-ci il
Berlin
Məxfi

**Həmin il mayın 22-də xarici işlər üzrə komitənin reyxskanslerin sarayında keçirilmiş iclasına dair səfirin qeydləri**

Dövlət katibi fon Dandl iclası mövcud vəziyyətə dair giriş sözü ilə açdı. Daha sonra cənab fon Külman Şərqə dair digər məsələyə toxundu. O qeyd etdi ki, Brest-Litovsk sülhünün başlıca çatışmayan cəhəti odur ki, onun bağlanmasının əsasını cəbhənin o zamankı xətti təşkil etmişdir... İrticanın kəskin artması indi bütün Rusiyada nəzərə çarpmaqdadır. Skoropadskinin özü də böyük rus və çar niyyətlərindən uzaq deyildir. Keçmiş rus zabitlərini özünə cəlb edən könüllülər dəstəsi hər yerdə toplaşmaqdadırlar. Rusiyanın siyasi həyatının istiqaməti yenidən irtica tərəfə yönəlməkdədir. Bu da bizim üçün siyasi cəhətdən arzuedilməzdir. Həyəcanların və intizamsızlığın mümkün qədər uzanması və onların dağılmaqda olan nəhəngin birləşməsinə mane olması bizim üçün siyasi cəhətdən arzuedilməzdir. Kifayət qədər birləşmiş (ərazi cəhətdən - M.Q.) çar Rusiyası Almaniyaya tamamilə düşmən olardı. O, yenidən Antanta tərəfdən müharibəyə qoşulardı. Buna yol verməmək üçün mümkün olan hər şeyi etmək lazımdır. Bu nöqteyi nəzərdən biz bolşevik hökumətini dəstəkləməliyik. Bizim Moskvada qraf Mirbax və

onun qərargahı timsalında yaxşı nümayəndəliyimiz vardır. Ağıllı, lakin az təcrübəli olan cənab İoffe ilə isə razılığa gəlmək mümkündür. Daha sonra fon Külman Türkiyənin Qafqazdakı iddialarına toxundu. Türklər Mesopotamiyaya öz qüvvələrini göndərməyə tam əsasları olduğu halda, Türkiyə Batumun tutulmasından sonra orada Qafqaz türk dövlətinin yaradılmasını arzulayır. Biz türk hərbi məqsədlərinə iddiasız təsir göstərməyə və eyni işləri erməni məsələsinə də tətbiq etməyə çalışırıq. Almaniyada da Qafqazda alman müstəmləkə dövlətinin yaradılmasına dair tamamilə fantastik planın olması barədə söz-söhbətlər getməkdədir. Lakin bu, tam başqa məsələ - mübahisəsiz, danışıqlar yolu ilə qiymətli sənaye konsessiyalarını ələ keçirməkdən ibarətdir.

İmza səfir ***fon Brandenşteyn***
Şverin vilayət arxivi
***fond № 23, v.349-351***
***s. 29-30***

***

**№ 2**

23 may 1918-ci il
Berlin

Quru qoşunları Baş qərargahının rəisi
Siyasi şöbə, № 31693 P

Zabitin Odessadan baş komandanlığa teleqramının surəti

... Qafqazda kifayət qədər pambıq vardır. Belə ki, 1917-ci ilin məhsulu ixrac edilməmişdir. Bunun 300000 pudu Yelizavetpolun payına düşür. Müsəlman Milli Şurası Ermənistana məxsus pambığı milli əmlak kimi qismən müsadirə etmişdir. Daha sonra bir milyon pud pambıq toxumu, təqribən 400000 pud tütün, böyük konyak ehtiyatları (anbarlarda yarım milyon

butulka saxlanılır), milyonun dörddə biri qədər şərab vedrəsi (vedrədə 16 butulka) vardır...

... Barama və açılmış şəkildə çoxlu ipək vardır. Bernşteyn mərkəzi idarənin tezliklə təşkil olunmaması təqdirində qiymətlərin qalxmasından ehtiyat edir. Bakıya gələn dəmiryol xətləri və boru kəmərləri dağıdılmamışdır. Böyük həcmdə daşınar heyət 1917-ci ildə Rusiyaya göndərilmişdir. Buna görə də nəqliyyat imkanları məhduddur...

**Hərbi müvəkkil**
**İmza**

Potsdam Mərkəzi arxivi
***fond 1 - DR, sən. 895-18***
***s.30***

***

**№ 11**

3 iyun 1918-ci il
Poti şəhəri

**İmperiya iqtisadiyyat idarəsindən alınmış məktubdan xülasə**

... Yaxından tanış olmaq üçün mən bəzi qiymətləri nümunə gətirirəm.

Burada qiymətlər indi belədir:

| | |
|---|---|
| Kartoçka ilə bir funt boz çörək | - 80 qəp. |
| Kartoçkasız qarğıdalı çörəyi | - 100 qəp. |
| Kartoçkasız mal və qoyun əti | - 300-350 qəp. |

| | |
|---|---|
| Demək olar ki, süd əldə etmək qeyri-mümkündür | - 100 qəp (butulka) |
| 100 yumurta | - 50 man. |
| Ağ neft (mazut) çox az olur | - hər puda 250 qəp. |
| Maşın yağı az olur | - hər puda 1000 qəp. |
| Çiyələk | - bir funt 150-200 qəp |
| Albalı | - bir funt 125-150 qəp |
| Bir butulka ağ və ya qırmızı şərab | - 600-750 qəp. |
| Meşə fındığı, qoz | - bir funt 100 qəp. |
| Tütün, yaxşı növ | - bir funt 700-900 qəp. |
| Çay | - bir funt 800-1000 qəp. |
| Köhnə və ya təzə mis | - hər pudu 200 man. |

Qafqazlıların öz bayrağı, öz pulları vardır. Lakin bunlar heç bir rol oynamır. Qafqazlılar daha çox köhnə rus (çar) pullarına üstünlük verirlər. Ancaq sonuncu, xüsusilə xırda şəkildə çox az yayılmışdır. Burada tezliklə alman dövləti ilə yenidən sıx münasibətlər qurmasına hazırdırlar. Onlar əlbəttə ki, bu yaxınlıqdan çox şey, xüsusilə ağır həyat şəraitlərinin yüngülləşməsini gözləyirlər; dəmir məmulatlarına, manufaktura, ayaqqabı, paltar, kofe, boya malları, bel, balta, yemək dəstlərinə ehtiyac böyükdür, bıçaq və çəngəlin çatışmaması ucbatından isə gürcülər əllə yeməyə məcburdular. Bundan başqa, xına malları, yazı ləvazimatları, ətrayyat malları olan dükanlar tamamilə boşdur və çox güman ki, burudakı dəyişikliklərin gələcəkdə baş verəcəyini gözləmək olar.

Samtredia, Kutais, Çiaturidən Tiflisə qədər müntəzəm əlaqə vardır. Hər növ dəmiryol, xüsusilə də, Bakı ilə əlaqələr kəsilmişdir. Bu şəhərlərdə də həddən artıq bahalıqdır...

Potsdam. Mərkəzi arxivi,
***fond 1-DR, sən. 4812***
***s.42-43***

***

**№ 13**

Hərbi ərzaq idarəsinin rəisi
s 13788

Berlin V 8
Meorenştrasse 11/12
14 iyun 1918-ci il

Xarici İşlər Nazirliyinin cənab dövlət katibinə
Berlin, V 8 Vilhelmştrasse 75/76

Almaniyada istifadə olunmaq məqsədi ilə Xəzər dənizində balığın qeyri-adi yüksək ovu Bakı və Batum arasında siyasi və ıqtisadi münasibətlərdə keçidlərin açılması üçün olduqca vacibdir...

***Xaynirişinin*** əmri ilə

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 5531***
***s. 46***

***

**№ 14**

23 iyun 1918-ci il

**Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyanın Azərbaycandakı vəziyyətə dair V.İ.Leninə məktubundan**

Almanlara dair məlumatlar ən ziddiyyətlidir . Qərbi Zaqafqaziyadakı vəziyyətdən və almanların planlarından şübhəsiz, Siz daha yaxşı xəbərdarsınız. Əvvəla, biz bilirik ki, onların türklərdən fərqli olaraq Zaqafqaziyada özünəməxsus niyyətləri vardır. Onların ümumi siyasətindən xəbərdar olaraq biz belə zənn edirik ki, onlar mütləq Bakıya daxil olacaqlar. Lakin bu

yolda onlar üçün böyük çətinliklər olmasını da nəzərə alırıq. Ancaq məktubun əvvəlində göstərildiyi kimi 217-ci diviziyanın Batumda yerləşməsi həqiqətə uyğundursa, onda almanların Bakıya daxil olmaq niyyətlərinə daha heç bir şübhə qalmır.

Sov. İKP MK MLİ arxivi,
*fond 461, sən. 42446*
*s. 46*

***

**№ 15**

Hərbi-dəniz donanması
18533 B IV

24 iyun 1918-ci il
Qərargahının rəisi
Berlin

Xarici İşlər Nazirliyinın dövlət katibinə
Quru qoşunları Baş qərargahının rəisinə
hərbi nazirə
İmperiya iqtisadiyyat idarəsinin dövlət katibinə
İmperiya nazirliyinin hərbi-dəniz donanmasının
dövlət katibinə

Məxfi!

Poti limanının rəisi bildirir: əvvəla, guya Türküstanda 46000 hərbi əsir vardır. Onların çıxarılması barədə danışıqlar yalnız Bakının bolşeviklərdən təmizlənməsindən sonra başlanıla bilər. İkincisi, Şımali Qafqazda təqribən 27000 əsir vardır. Kəşfiyyat dəstəsi rəisinin 4943 N-kb teleqramını müqayisə edin. Üçüncüsü, Gürcüstan hal-hazırda türklərdən qaçan yunan, rus və ermənilərlə o qədər doldurulmuşdur ki, imkan daxilində təxliyə tez baş verməsə, aclığın başlanmasına səbəb ola bilər. Eyni məzmunlu teleqramlar quru qoşunlarının baş komandanı-

na, hərbi-dəniz qüvvələri qərargahına baş komandan Makenzeyə və Kiyevdə donanma komandanlığının üzvünə göndərilmişdir.

Şef "Nateko" № 5210
İmza

Potsdam Mərkəzi arxivi,
*fond 1-DR, sən. 3199-18*
*s. 47*

***

**№ 17**

Quru qoşunları Baş qərargahının rəisinə
və qərargahın əməliyyat şöbəsinin rabitə zabitinə

Surəti: dövlət müşaviri fon Qirke Kriveyə - imperiya iqtisadiyyat idarəsinə

P10 Torpedo kateri və 42 №-li sualtı qayıq Sevastopola çataraq Qafqazda iyunun əvvəlindəki vəziyyət barədə məlumat verirlər: Korkovadonun komandanlığı altında alman batalyonları Tiflisə və ondan şərqə doğru irəliləyirlər. Poti limanının təhlükəsizliyini təmin etmək üçün qatar və silahlı hərbi əsirlər - almanlar saxlanılmışdır. Gürcü ordularını ləğv etmək nəzərdə tutulur. Suxumiyə qədər gürcülərin hakimiyyəti genişlənir. Alman hərbi əsirlərindən ibarət kiçik dəstələr türklərin bu vaxta qədər tutmadıqları yerləri - Batuma gedən yolda dəmiryol stansiyalarını və ölkənin daxilində olan ən vacib məntəqələri ələ keçirmişlər. Yelizavetpol azərbaycanlıların əlindədir. Guya Bakıda 60 nəfərdən ibarət ingilis missiyası vardır. Gürcü hökuməti Antantaya qarşı çıxışlarla əlaqədar çətinlik hiss edir. Potidə qeyri-məlum ünsürlər gürcü yük maşınlarında gedib-gəlirlər,

sualtı qayıqların ovçusu onlardan uzaqlaşmışdır. Limanda türklərin tutduğu ərazilərdən çoxlu qaçqın vardır.

Hökumət alman hərbi gəmilərini səmimi qəbul edir. Əhali isə onlara laqeyd yanaşır. General Lossovun sərəncamı ilə P10 və 42 №-li sualtı qayıq Batuma daxil olmadılar. 42 №-li sualtı qayıq iyunun 12-dən 16-a qədər Novorossiysk yaxınlığında lövbər salmışdır. Heç bir dəyişiklik və irəliləyiş yoxdur.

İmza

Potsdam Mərkəzi arxivi,
*f. 1-DR, sən. 3142*
*s. 49-50*

***

**№ 24**

Baş qərargah müvəkkili — Tiflis, 9 iyul 1918-ci il

Məxfi

**Məlumat № 1**

**Batum.** İqtisadi komissiya ilə Batuma getməyin ilkin məramları Türkiyənin iqtisadi və siyasi mövqeyi nəticəsində boşa çıxdı. Bu ilin 27 aprel tarixli müqaviləsinə müvafiq olaraq türklərin təsir dairəsində olan ətraf rayonları ilə birlikdə Batum müstəsna olaraq türk maraqlarını özündə əks etdirir.

Bizim üçün əsas məsələ rəsmi Türkiyə ilə orada qalan zəruri mallarımızın alınması, həmçinin türklərin iqtisadi fəaliyyətinə nəzarət barədə razılığa nail olmaqdan ibarətdir.

Təxminən 35000 ton manqan filizinin alınması barədə müqavilə İsmayıl Hakkı Paşa ilə İstanbulda imzalanmışdır. Nəqletmə bu günlərdə gözlənilən "Rodosto"la dərhal başlana bilər. Lakin İsmayıl Hakkı Paşa ödəməli olduqları qiymətlər barəsin-

də hələ sahibkarlarla razılığa gəlməmişdir. Batumda olan təxminən 24000 ton neft məhsulunun alınması barədə danışıqlar (İsmayıl Hakkı Paşa da indi oradadır) İstanbulda aparılır və başa çatmaqdadır. Bizim tərəfimizdən hərbi sürtkü materialları cəmiyyətinin nümayəndəsi timsalında konsul Burhardt və imperiya dəniz idarəsinin iqtisadi komissiyasından neft məhsulları üzrə ekspert d-r Pfaff Batuma göndərilmişdir. Türk iqtisadi fəaliyyətinə nəzarət və qismən də baş tuta biləcək ixrac münasibətləri üçün kapitan Gerlax müəyyən müddət Batumda olacaqdır. Nəzərdə tutulmuş türk dəniz postu hələ avadanlıqla təchiz olunmamışdır. Kapitan Gerlax bizim tərəfimizdən alınmış xammalın çıxarılmasına da nəzarət edəcəkdir. O, iqtisadi komissiya tərəfindən Qafqaza ezam olunmuş şəxs hesab edilir. Lazımi anda İstanbuldakı səfirliklə əlaqə saxlayacaqdır. Belə ki, razılığa əsasən Batum, Kars və Ərdəhan bu fəaliyyət sahəsinə daxil olurlar. Bu rayonlardan tədarük yalnız İstanbul hökumətinin razılığı əsasında baş tuta bilər.

Batumda ixraca nəzarətin xüsusi əhəmiyyəti vardır. Çünki türklər, çox güman, malları Brest-Litovskda müəyyən edilmiş sərhədin o tayında işğal etdiyi ərazilərdən çıxarmağa çalışacaqlar. Qalan məsələlərdə isə Batumun bizim üçün və Qafqazdakı qeyri-türk vilayətləri üçün əvvəlki ixrac limanı - azad liman kimi elan olunması öz əhəmiyyətini itirmişdir. Mən Batuma qonşu olan Poti limanının eyni əhəmiyyətə malik olması və hətta onu geridə qoyması fikri ilə razılaşsam da, öz iqtisadi və siyasi maraqlarımıza görə gürcü dəmiryolunun sonuncu məntəqəsi olan Poti limanını inkişafına imkan yaratmalıyıq. Bu səbəbdən tonnajımızla Batumdan və Batuma dəniz gəmiçiliyinin bizim bilavasitə maraqlarımıza cavab verdiyi qədər dəstəkləmək daha arzuolunandır.

Poti limanında hələ də gəmiçiliyin zəif inkişafı ilə bağlı verilən bəyanatlara baxmayaraq o, daha ciddi tələbləri ödəyəcəkdir. Hal-hazırda birinci planda işçi qüvvəsi məsələsi durur.

Türkiyə tərəfindən işğal olunmuş ərazilərdən qaçqınların olmasına baxmayaraq, yükvurma işləri üzrə təşkilat tərəfindən yaradılmış çətinliklər nəticəsində işçi qüvvəsi çatışmır. Hökumət bu məsələni nizamlamağa ümid edir. Fəhlələrin yarımac vəziyyətdə olması ucbatından məhsuldarlıq da aşağı düşmüşdür. Bunun nəticəsi olaraq bu vaxta qədər göndərilmiş manqan filizi ilə dolu olan nəqliyyatın yüklənməsi işində alman komendantı əmək istehsalını maksimum qaldırmaq üçün Ukraynadan un göndərilməsini Natekodan tələb etmişdir.

Şəhər vağzalı ilə liman arasında dəmiryolu xətti boyunca 150.000 ton manqan filizi yüklənməyə hazır vəziyyətdə yığılıb qalmışdır. Ondan 100.000 tonu almanların mülkiyyətidir. Gürcü hökuməti ilə manqan filizinin əsas hissəsinin əldə edilməsinə dair müvafiq danışıqlar artıq başlanmışdır.

Manqan filizinin mövcudluğu Çiaturidə yerləşən ehtiyatların nəql edilməsi nəticəsində hər gün artmaqdadır. Bir çox mədənlər bağlanmışdır. Lakin istənilən vaxt işi bərpa etmək mümkündür.

## TRANSQAFQAZDA İQTİSADİ VƏZİYYƏT

Transqafqaz respublikasının süqutu və türklərin Brest-Litovsk sülh müqaviləsinin şərtlərinə əsasən müəyyən olunmuş sərhədləri keçərək erməni və azərbaycanlı ərazilərinə doğru irəliləməsi iqtisadi və siyasi vəziyyətə mənfi təsir göstərmişdir. Vahid iqtisadi rayonun yaradılmasına bəsləninlən ilkin ümidlər boşa çıxmışdır.

Bolşeviklər iqtisadi həyatı demək olar ki, yerli neft sənayesindən asılı olan Bakını Transqafqazdan təcrid etmişlər. Sənaye qurğularının ciddi dağıdılması barədə hələ ki, məlumat yoxdur. Türk-bolşevik hərbi əməliyyatları ərazisində Bakı-Batum neft kəmərinin zədələrini asanlıqla aradan qaldırmaq olar. Pambıqçılığın nisbətən əhəmiyyətli rayonları türklərin əlində və ya-

xud da ki, türk təsir dairəsində yerləşir.

Transqafqaz respublikaları ilə iqtisadi münasibətlərin inkişafı əsasən siyasi vəziyyətin aydınlaşdırılmasından asılıdır. Bu da İstanbulda keçiriləcək konfransda gözlənilir. Bu konfrans iqtisadi münasibətlərdə aşağıdakı məsələlərin həllinə çalışacaqdır:

1) Nəqliyyat, gömrük və s. məsələlərin nizamlanması ilə bağlı vahid iqtisadi rayonun yaradılması.

2) Bakı neftinin gəlirlərində marağı olan bütün dövlətlərin pay ilə təmin olunması.

3) Türkiyənin siyasi təsir dairəsində olan ərazilərdə iqtisadi maraqlarımızın müdafiəsi. Türklərin onlar tərəfindən təşkil olunmuş Azərbaycan Respublikasının oyuncaq hökuməti dövründə bu ərazinin 27 aprel tarixli müqavilənin şərtləri altına düşməsinə baxmayaraq, ixraca (pambıq və yun da daxil olmaqla) qəti qadağa qoyması faktı da bu təşəbbüsün vacibliyini sübut edir.

Ölkənin təcrid olunması ilə əlaqədar olaraq böhran təhlükəsi altında olan nəqliyyat məsələsi Transqafqazda bizim iqtisadi fəaliyyətimiz üçün həlledici əhəmiyyətə malikdir. Dəmiryol nəqliyyatı üçün gərəkli olan duru yanacağın qiyməti hazırda enib-qalxmaqdadır. Görünür, Gürcüstana nisbətən Azərbaycanda ehtiyatlar daha çoxdur. Bakıdan duru yanacağın gətirilməsi və yaxud lokomotivlərin müəyyən hissəsinin digər yanacaq növləri ilə işləməsini təmin etmək mümkün olmasa, bir neçə həftədən sonra burada - gürcü-alman ixrac limanına bitişik olan axırıncı məntəqədə dəmiryol nəqliyyatının hərəkəti dayandırılmalı olacaqdır.

Belə vəziyyətlərdə bizim Transqafqaz respublikaları ilə ilk növbədə ticarət münasibətlərimizin hələ tamamlanmamış prinsipial tənzimləməsi nəzərə alınmadan tədarükün həyata keçirilməsi yolu ilə nəqliyyat işləri üçün mövcud imkanlardan istifadə olunması xüsusilə vacibdir.

Müvəkkil fon Meyerkort artıq bu istiqamətdə (pambıq, yun və s.) fəal çalışır. Bundan fərqli olaraq, misə dair müqavilələr bağlamaq və tədarük etmək olmaz. Belə ki, "Talkriz"in nümayəndəsinin dəfələrlə müraciətinə baxmayaraq, tədarük qiymətləri haqqında hələ də məlumat almamışdır. Tütün, meyvə (quru meyvə), şərab və araq tədarükü üzrə ekspertlərin çatışmamazlığı mənfi haldır. Hərçənd geniş seçimdə təqdim olunmuş bu mallar bizdə maraq doğurur.

Gürcü hökuməti bizimlə əməkdaşlıq etmək üçün iqtisadi komissiya yaratmışdır. Azərbaycanla da danışıqlara başlamaq cəhdi göstərilir. Lakin bu halda türklərlə olan əlaqələrin təcrübəsi nəticəsində onlar tərəfindən maneələr və iradlar gözləmək olar, baxmayaraq ki, Azərbaycan Respublikası rus imperiyası ərazisinə daxildir. Burada bizə, bütün təşkılatlara tədarük üçün müstəsna hüquq verilmişdir. İlk növbədə, avans verilmiş əvvəlki tədarük nəticəsində alman mülkiyyətinin əlinə keçən pambıq ehtiyatını daşımaq üçün cəhd göstəriləcəkdir. Transqafqazda toplanmış pambığın böyük hissəsi Azərbaycanda yerləşir... İrəvanda, Ermənistanın gələcək paytaxtında mühüm pambıq ehtiyatları olmalıdır.

Transqafqazda olan xammal materiallarına dair daha dolğun məlumatlar əlavədə öz əksini tapmışdır. Bununla belə, qeyd etmək lazımdır ki, alman sənayesi və nəqliyyat yolları yüklərini Türkiyəyə boşaltmaq üçün türk dəmiryollarını və şaxtalarını Qafqazın meşə ehtiyatlarından şpallarla və dirəklərlə təchiz olunma işində genıdən bazalaşdırmaq tövsiyə olunur. Bu haqda artıq general-mayor Kress Osmanlı ordusunun baş komandanlığına məlumat vermişdir.

**Hərbi əsirlər.** Hərbi əsirlərin qaytarılması məsələsi əvvəlcə avtomatik olaraq həll olundu. Belə ki, daha əvvəl göstərilmiş böyük rəqəmlər, bir halda ki, Transqafqaz, nəzərdə tutulur, düzgün verilməmişdir. Burada olan hərbi əsirlərdən isə elə burada-

kı qoşunların tərkibində istifadə edıləcəkdir. Bakıda olan hərbi əsirlərə dair rəqəmlər enib-qalxmaqdadır. Lakin göürünür, onların sayı o qədər də çox deyildir. Bundan fərqli olaraq, Zakaspidəki nisbətən böyük heyətlər Bakıdan keçən yolun təmizlənməsini gözləməli olacaqlar. Vladiqafqazdan gələn məlumatlara əsasən bu ərazidə yüzlərlə hərbi əsir vardır. Onların vəziyyəti isə ümumilikdə yaxşı olmalıdır. Biz Hərbi Gürcüstan yolu ilə onların Transqafqaza könüllü təxliyəsinə nail olmağa çalışacağıq. Belə ki, bu vaxta qədər bu təşəbbüs həyata keçməz idi. Çünki rabitə bu yolda quldur dəstələri və bolşevik hərbi döyüşləri nəticəsində tamamilə pozulmuşdur. Poti vasitəsi ilə hərbi əsirlərin növbəti repatriasiyası məqsədilə yolasalma düşərgəsi kimi Tiflisdən qərbdə Qori seçılmışdır.

Nəticə olaraq bildirmək istəyirəm ki, vətənlə pis əlaqələr (radioqramların bir qısmi itir, qalanları isə bır neçə günə gedib çıxır) teleqraf sorğularına, buradan xüsusilə hərbi cəmiyyətlər tərəfindən təcili cavablar göndərilməsini və hər teleqramın surətinin eyni zamanda poçt ılə göndərilməsini dərhal tələb edir.

İmza: mayor ***Hey***

II rabitə zabiti vasitəsi ilə Baş komandanlığa, hərbi-dəniz donanmasna, nümayəndə heyətinə, Brenl Qara dəniz postuna alman qərargahına göndərilmişdir.

İşə əlavə: Xammal materialları

*Əlavə*

## XAMMAL MATERİALLARI

a) **Mis.** Daxil olan məlumatlara görə mis Tiflisdə boldur. Həmçinin, alverçilərin də ən sevimli mövsudur. İyunun əvvəlində orta qiymətlər hər puda 100 rubl dəyərində olduğu halda,

son günlər 158 rubladək qalxmışdır. Məlumata görə hazırda Tiflis ərazisində (anbarlarda olan mallardan başqa) 32-35 min puda qədər mal əldə etmək olar. Söhbət 95 rubldan əldə edilə bilən qırmızı mis və 10% artırılmış məbləğlə satılan elektrolit misindən gedir.

b) **Pambıq.** 1916-cı il məhsulundan görünür, heç bir şey qalmamışdır. Belə ki, onların hamısı hazırda ruslar tərəfindən aparılmışdır. 1918-ci ıl məhsuluna isə ümid bağlamaq olmaz. Çünki heç nə əkilməmişdir (pambıq əvəzində qarğıdalı və buğda əkilmişdir). Beləliklə, biz müəyyən hissəsinin aparılmasına baxmayaraq, 1917-ci ildə toplanmış məhsula güvənə bilərik. Azərbaycanlıların məlumatına görə ən yaxşı halda 1917-ci ıl məhsulunun 50%-nə ümid etmək olar. Daha doğrusu, 600-700.000 pud ... pambıq aparmaq olar.

Bir əldə cəmlənən böyük pambıq hissələri yoxdur. Pambıq bir qayda olaraq, ölkədə xırda hıssələrlə toplanmışdır. Buna görə də ölkə üzrə pambığın alınmasının yerli agentlər və yaxud firmalar vasitəsi ilə həyata keçirilməsi bir məntəqədə cəmlənməsi zəruridir və buradan da dəmiryoluna çıxmalıdır. Türkiyədə olduğu kimi ölkə daxilində nəqliyyat vasitələrinin çatışmamazlığı özünü göstərir.

v) **Yun.** Burada vəziyyət pambıq sahəsində olduğu kimidir. Məhsul ölkə daxilində kiçik hissələrlə paylanmışdır. Göründüyü kimi 100000 pud əldə etmək olar. Nəqliyyat vasitələri və işçi qüvvəsinin muzdla tutulmasında çətinliklər vardır. Sentyabrda ikinci yun qırxımından sonra da bu qədər yun əldə etmək olar.

q) **İpək.** Təkliflər əhəmıyyətsizdir. Daha irı miqdar Azərbaycanda və həmçinın, Zaqataladadır.

d) **Tütün.** Böyük bir hissəsini Suxumdan əldə etmək olar. Daha az hissə Nuxa, Zaqatala və Dağıstanın cənub hissəsində olmalıdır. Almaniya üçün Suxumda olan məhsulla təmın etmək xüsusi ilə vacibdir. Belə ki, pambıq kimı tütünün də becərilməsi qarğıdalının hesabına azaldılmışdır. Yeni məhsullar olan yer-

də isə əhəmiyyətli yığıma ümid etmək olmur.

e) **Dəri.** Olan ehtiyatlar barədə dəqiq məlumatımız yoxdur. Hər yerdə onlar əhəmiyyətsiz kimi qiymətləndirilir. Çünki, ruslar çoxlu müsadirələr etmiş və aparmışlar.

j) **Biyan.** Böyük hissələr Azərbaycanda olmalıdır. Biyan ticarəti bu vaxta qədər demək olar ki, istisnasız olaraq ingilislərin əlində cəmlənmişdi. Məhsulun böyük hissəsi fabriklərdə toplanır, emal edilir və əzilmiş halda ilk növbədə Amerikaya ixrac olunurdu.

z) **Qoyun dərisi.** Bu sahədə çox güman ki, böyük hissələr (bir neçə yüz min dəri) götürmək olar. Təkcə Tiflisdə 20000 qoyun dərisi saxlanmaqdadır.

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 6170***
***s.75-83***

***

**№ 18**

29 iyun 1918-ci il
Batum
Məxfi

**İstanbuldakı alman imperiya konsulunun Transqafqaza səfəri barədə hesabatı**

Bu ayın 21-də cümə günü, saat 1-ə yaxın günorta mən İsmayıl Hakkı Paşanın qonağı olaraq Batuma səfərdə iştirak etmək üçün Qalata sahilində lövbər salan "Gülcamal" gəmisinin göyərtəsinə yollandım. Mən bu dəvəti bir də ona görə məmnuniyyətlə qəbul etdim ki, bu vaxta qədər Qafqazda olan vəziyyətə dair dolğun məlumat almaq mümkün olmurdu. Belə ki, türk hökuməti alman zabitləri və ayrı-ayrı şəxslərin çıxarılmasına əngəl törədir. Çünki onlar özləri türk qoşunları tərəfindən tutulan ərazilərdə təmizlik işləri aparmaq istəyir və buna görə də biz

almanların imkan daxilində oradakı vəziyyətlə tanış olmamızdan imtina edirlər.

İsmayıl Hakkı Paşa məni bu səfərə dəvət etməklə öz etıbarını nümayiş etdirməyə çalışmışdır. Amma mən səfər zamanı onun və onu müşayiət edən türklərin müşahidə etdıklərini görə bildim. Sonuncuların sırasına aşağıdakılar daxildir.

1) Smirna-Kasaba dəmiryolunun rəisi, podpolkovnik Əli Hikmət bəy yuxarıda qeyd edilən vəzifəni icra edərkən müharibə zamanı çoxlu sərvət toplandığından çox çalışqan iş adamı olduğu görünür.

2) Mahmud Paşa, sabiq hərbi nazir və bir ara ictimai işlər naziri olmuşdur, indi senatordur. Batum vilayətindədir. Ona Vehib Paşanın oğruluğu və fırıldağı barədə senata məlumat vermək tapşırılmışdır.

3) Fəthi bəy son zamanlaradək Sofiyada diplomatik nümayəndə olmuşdur. Komitənin nüfuzlu üzvü və deputatdır. Ənvərin həmyaşıdıdır. Lakin onun tərəfdarı deyildir. Ziyalı və ağıllı adamdır. Şübhəsiz, tezliklə siyasətdə böyük rol oynayacaqdır. İndi isə komitəyə rəhbərlik etməklə kifayətlənir. Həddən artıq şöhrətpərəsdir.

4) Faiq bəy Dyomnez və Cavad bəyin dostudur. Onun haqqında yalnız bir məlumat vardır ki, maliyyə nazirliyinin tapşırığı ilə bu səfərdə iştirak edir. Ziyalıdır. 40-a yaxın yaşı var.

5) Muxtar bəy ictimai işlər nazirinin sağ əlidir. Ləzgidir. Ona İsmayıl Hakkı ilə birlikdə Samsun, Trapezund, Batum limanlarını ziyarət etmək həvalə edilmişdir. Çox çalışqan və cəlddir.

6) Mahir bəy deputatdır. Palatanın tapşırığı ilə səfərdə iştirak edir. İlk növbədə isə şəxsi marağını güdür və sövdə bağlamaq niyyətindədir.

7) Sarim bəy Dyomnez və Cavad bəyin adamıdır, Milli bankın müşahidə şurasının üzvüdür.

8) Vayl ilə birlikdə Batumda və digər işğal olunmuş ərazi-

lərdə filiallar yaratmalıdırlar. Bu məqsədlə rus dövlət bankının binası müsadirə edilmişdir. Vayl əslən Vyanadandır, yaxşı ailədəndir, uzun müddət Rusiyada yaşamış və bank müdiri olmuşdur, iltifatlıdır, işdə isə bicdir və ona ehtiyatla yanaşmaq lazımdır. Qısa müddət ərzində türk maliyyə işlərində böyük nüfuz qazanmışdır.

9) Vəhdət Paşa memardır, türk hərbi nazirliyinin xidmətindədir, buradakı məscidlərin vəziyyəti ilə tanış olmalı, yeni məscidlərin tikilməsi barədə məsələ qaldırılmalıdır. Bu da heç bir siyasi əhəmiyyət daşımır.

10) De Mayo ispandır, ictimai işlər nazirliyində mühəndisdir.

11) Anəhye fransızdır, sahibkardır, sahil və limanların tikilməsi üzrə mütəxəssisdir.

12) Doktor Pfaff hərbi-dəniz qüvvələrinin intendant müşaviridir. Hakkı Paşa onu Batumda neft ehtiyatlarını müəyyən etmək və yoxlamaq üçün təyin etmişdir. Qeyri-rəsmi olaraq əlbəttə ki, sırf alman maraqlarını təmsil edir.

Masamızın arxasında türk hökumətinin qonaqları da əyləşmişdir: şahzadə Əbdül Həlim Əfəndi, polkovnik Cavad bəy, İstanbulun komendantı, onun əshabələri, Qafqazdakı ali baş komandan Əsəd Paşa öz qərargahı ilə birlikdə.

"Gülcamal" gəmisinin yola düşməsi saat 2-yə təyin olunsa da, yalnız beşin yarısında biz Qalatasaraydan ayrıldıq və altının yarısında limandan çıxdıq. Belə ki, Əsəd Paşanın atlarının küləş və samanı sahildə qalmışdı. Onların xüsusi yük gəmisinə yükləmək lazım idi. 11 min tonluq gəmi müharibədən əvvəl İngiltərədən alınmışdı. Bu gəmi qoşun dəstələri, hərbi sursat, hətta təyyarə, avtomobil, at, iribuynuzlu mal-qara və yarıac qaçqınlarla yüklənmişdi. Bu qaçqınları öz doğma yurdlarına - ruslardan azad olunmuş şimal-şərqi Anadoluya daşıyırdı. Buna görə də biz yolüstü Samsun, Trapezund və Riç limanlarında dayanırdıq. Samsun rusların təsadüfi atışmalarından daha çox zərər çək-

mişdir. Limanda vəziyyət yaxşı deyildir. Əvvəlki liman yalnız sakit dəniz zamanı istifadə edilə bilərdi.

Müharibəyə bir qədər qalmış bir fransız konsorsiumu limanın tikintisinə konsessiya almışdı. Obyektin o zaman 30 mln. frank qiyməti var idi. Türklər indi yeni, nisbətən daha iri layihə hazırlamışlar və indiki qiymətlərlə materiallar və işçi qüvvəsi 10 qat bahasına dəyərdi. Təxminən belə bir şərait Trapezundda da mövcuddur. Bu liman qeyri-sabit dəniz üçün tam yararsız idi. Ruslar dərhal bəndlərin tikintisinə başladılar. Türklər isə bu işi davam etdirməyin zəruriliyini başa düşmədilər. Lakin onlar Trapezundda liman tikintisinin gözəl layihəsini işləyib hazırlamışlar. Türklərlə məskunlaşmış şəhərin böyük hissəsi Trapezundun alınması zamanı dağıdılmışdır. Onun nə vaxtsa bərpa ediləcəyi isə şübhə altındadır. Hər halda bu məsələ o qədər də vacib deyildir. Belə ki, ermənilərin və yunanların bir qismi Trapezunddan qovulmuşlar və onların evləri qayıdan türk ailələri üçün müsadirə edilimişdir. Hər iki limanda və ona yaxın rayonda əhalinin ehtiyacı böyükdür: ən zəruri şeylər çatışmır, xüsusən buğda alverçi qiymətləri ilə satılır.

Sultanın qardaşı oğlu və Ənvərin kürəkəni, türk avtonəqliyyatının inspektoru şahzadə Əbdül Həlim Əfəndi Ərzuruma getmək tapşırığını almışdı. Lakin onun iki avtomobilini Trapezundda gəmidən düşürmək mümkün olmadığından Batuma bizimlə gəldi. Onun buradan o qədər xoşu gəlmişdi ki, öz tapşırığını yerinə yetirmək məsələsini günü-gündən təxirə salırdı.

25 iyun tarixdə günorta saat 3-də gəminin Batuma gəlişi böyük təntənə ilə qarşılandı. Şahzadə və Əsəd Paşanın şərəfinə toplardan salyut atıldı. Onun qardaşı Vehib isə qəbulda iştirak etməyə lüzum görmədi. Axşam baş komandanlıq bir çox yarasız yemək və pis musiqi ilə təmtəraqlı şam yeməyi mərasimi təşkil etdi. Hər halda biz səfər zamanı yaxşı yeməklə təmin olunmuşduq. O ki, qaldı spirtli içkilərə, biz İstanbuldan çıxdığımız andan içməmişik. Belə ki, buna da öyrəşmək mümkündür. Al-

maniyada İsmayıl Hakkı Paşa elə təmkinli deyildi. Bəlkə o, burada öz həmvətənlərinə yaxşı nümunə olmaq fikrindədir. Deyilənə görə Ənvər və Camal Batuma səyahət zamanı səbətlərlə şampan içmişlər. O zaman "Gülcamal" yalnız ali təbəqə üçün nəzərdə tutulmuşdu və gəmidə indiki səfərdə bir dənə də olsun boş yer tapmaq mümkün deyildi. Hər halda bu general-intendantın daxili təvazökarlığını nümayiş etdirir.

Əsəd Paşa çox gözəl təəssürat yaradır. Qardaşı Vehibi kənarlaşdırmaqda onun nə qədər güclü olduğunu isə zaman göstərəcəkdir. Bu, o deməkdir ki, sonuncu Əsəd Paşanın Batumda yerləşən 3-cü orduya rəhbərlik etməli olduğu bir vaxtda 6 və 9-cu ordudan ibarət ordular qrupuna rəhbərliyini saxlamalıdır. Urmiyə gölündən keçməklə Mosul və ya Bağdada yürüş üçün nəzərdə tutulmuş 9-cu ordu 3 korpusdan ibarətdir. Onlardan ikisi Aleksandropol, biri Batum və Poti arasında - Uuruksu yaxınlığında toplanmışdı. Həqiqətdə isə türklər son məqsəd kimi Bakını, bəlkə də Tiflisi sayırlar. Nə qədər ki, Vehib Paşa zərərsizləşməyib Qafqazda firavanlıq olmayacaqdır. Çünki İstanbulda hökumət Vehibə qarşı gücsüzdür. Bir neçə gün bundan əvvəl Potidən şimalda türk qoşunlarının yerləşdirilməsi Vehibin nəyə qadir olduğunu göstərdi. Əgər Almaniya bu istiqamətdə qəti addımlar atmasa, onda türklərin Bakıya irəliləməsi heç bir təəccüb doğurmayacaqdır. Hər halda bu hərəkət hərbi məqsədlər üçün Bakı-Tiflis və Aleksandropol-Tiflis dəmiryollarından istifadə edə bilmədikləri halda çətinləşə bilər. Batum və Poti arasında Natari sərhədyanı stansiyasında alman və türk hərbi hissələri süngülərlə üz-üzə durdu. Belə "mehriban" müttəfiq münasibətlər Aleksandropol-Tiflis dəmiryolunda da ortaya çıxdı. Burada gürcü sərhəddində körpülər bombardman edilmişdi. Bəzən alman-gürcü və türk hissələri arasında toqquşmalar olurdu. Türklər qoşunlarını daşımaqda bizdən asılı vəziyyətdədirlər. Əgər onlar bizə qarşı silah işlətsələr, bundan məhrum ola bilərlər və fikirləşmədən belə bir addım aımazlar.

Mən bu gün İsmayıl Hakkı Paşa ilə söhbət etdim. Xahiş etdim, o, Əsəd Paşaya öz təsirini göstərsin ki, qardaşının işini davam etdirməsin. Hakkı özü də başa düşür ki, bu ağlasığmaz siyasət Türkiyə üçün yaxşı nəticə verməyəcəkdir. O, düzgün qeyd edir ki, türklər bu vaxta qədər öz ölkələrini idarə etmək iqtidarına malik deyildilər və buna görə də yeni ərazilər ələ keçirməkdən vaz keçməlidirlər.

Mən belə fikirləşirəm ki, bu, onun gəldiyi qənaətdir. Buna baxmayaraq, o, buraya əlbəttə ki, Qafqazda düzgün yerləşməyən hər bir şeyi daşımaq və yaxud onu pula çevirmək məqsədi ilə gəlmişdir. Sadəcə olaraq, soyub-talayan Vehibdən onun fərqi budur ki, İsmayıl Hakkı Paşa imkan daxilində mal sahiblərinin ədalətli iddialarını nəzərə almağa və yaranmış vəziyyətdən çıxış yolu tapmağa çalışır. Son zamanlar o, pambıq, tütün, inşaat malları, pambıq, dəmir, bandaj dəmir, mıx və mis almışdır. Mən adı sadalanan ayrı-ayrı malların təqribi sayını öyrənmək niyyətindəyəm. İstanbulda imzalanmış müqaviləyə əsasən təqribən 35000 ton manqan filizi limanda yüklənməyə hazır vəziyyətdədir: müqaviləyə əsasən bu yük gəmisinin göyərtəsinə qoyulmalıdır. Ancaq mən işçi qüvvəsinin çatışmaması üzündən türklərin bunu etməsinə şübhə edirəm. İsmayıl Hakkı Paşa tərəfindən alınan malların yüklənməsi prosesi o qədər ləng gedir ki, gəminin yola düşməsi artıq gələn həftənin sonuna qədər təxirə salınmışdır. İndi İsmayıl Hakkı Paşa gecə-gündüz işləmək üçün ona əsgər dəstələri göndərməyi baş komandanlığa əmr vermişdir. Göyərtədə dözülməz səs-küy vardır, çox yatmaq olmur, üstəlik burada Batumda böyük nəmişlik vardır.

Doktor Pfaff neft üzrə sazişin imzalanması üçün zəruri olan sənədləri əldə etməkdə az çalışmamışdır. Vehibin adamları əvvəlcə böyük maneə törədirdilər (məşhur kütləvi müqavimət). Lakin buna baxmayaraq birbaşa danışıqlar nəticəsində o, burada nə qədər neftin olmasını müəyyənləşdirməyə müvəffəq olmuşdur.

Hal-hazırda Batumda rus pudu ilə vardır:

| | Məhsulun adı | Məhsulun miqdarı | Müharibədən əvvəlki qiymət 1 pudun qiyməti man. | indiki qiymət |
|---|---|---|---|---|
| 1. | Maşın yağı I | 1150000 | 1 | 10 |
| 2. | Maşın yağı II | 150000 | 0,70 | 6 |
| 3. | Silindir yağı | 7000 | | 6-II |
| 4. | Şpindel yağı | 75000 | 0,80 | 4 |
| 5. | Mazut | 400000 | 0,70 | 3,50- |
| 6. | Sürtkü mazutu | 180000 | 0,45 | 2,20 |
| 7. | Yanacaq mazutu | 100000 | 0,40 | 2- |
| 8. | Neft | 24000 | 0,40 | 2- |
| 9. | İşıqlandırma üçün mazut | 150000 | 0,80 | 4- |

Əlbəttə neft ehtiyatları Vehibin komandanlığı tərəfindən türk hökuməti və ya heç olmasa, hərbi idarəetmə üçün deyil, yalnız öz şəxsi məqsədləri üçün müsadirə edilmişdir. Neft və ağ neft daim çəlləklərdə yük gəmiləri ilə Trapezunda, oradan isə daha uzağa - İstanbula daşınır. Beləliklə, ilkin vaxtda olan 5000 ton ağ neftdən son zamanlar 3800 tonu yoxa çıxmışdır: neft, mazut və neft məhsullarının miqdarı dəqiq məlum deyıldir. Belə ki, onlar min tonlarla ölçülür. Mən dəfələrlə İsmayıl Hakkı Paşanın fikrini bu fakta yönəltməyə çalışmışam ki, o, çıxış yolu tapsın. Lakin görünür, onun bu məsələnin həllini İstanbula qayıdana qədər təxirə salmasına tam əsası vardır. Nəticədə bu qimətli vaxt bitəcəkdir. Çünki artıq birinci tanker Batuma yola düşəcəkdir. Bizə də faktiki olaraq neftin müvafiq miqdarı satılacaqdır. Sürtkü materialları üzrə hərbi təşkilatın müvəkkili konsul Barkqardt dünən Potidən keçərək buraya gəlmişdir. O, başa düşür ki, indiki anda kölgədə qalmalıdır, əgər iş danışıqlara gə-

lib çıxarsa, İsmayıl Hakkı Paşa ilə danışıqlar aparmağı mənə və doktor Pfaffa həvalə edəcəkdir.

Görünür, Batumda alman və alman-rus tacirləri arasında yaxşı münasibətlər mövcud deyildir. Rəqabət mübarizəsi Şuts və Simmerman firmasından olan rus təbəəsi Şuts və onun alman olan müvəkkili Tyubner arasında gedir. Firma böyük şöhrətindən istifadə edir. Belə ki, ixrac cəmiyyətləri və kapitan Gerlaxın (KRA-nın nümayəndəsidir, general Kresslə birlikdə Potidən Tiflisə getmişdir, onu yaxın günlərdə burada gözləyirlər) razılığı ilə sırf alman firmaları olan Varneke və Şter qarşısında əvvəllər göründüyü kimi heç də üstünlük qazanmır.

Varneke və Şter 3 il yarım hərbi əsir olmuşlar. Onlar nə ailələri, nə də ki, öz işləri ilə məşğul ola bilirlər. Şuts isə bu vaxt öz alman təbəəliyindən imtina etdiyi üçün ruslarla saziş imzalaya bilərdi. Varnekeyə və Ştere indi möhlət verilməsi imkanı isə üzürxahlıqdan başqa bir şey deyildir. Kapitan Gerlaxın başlıca vəzifəsi hamı üçün bərabər şərait yaratmaqdan ibarət olacaqdır.

Söhbət qeyd olunmuş 35 min ton manqan filizi və təqribən 21500 ton neftdən əlavə bir neçə min ton manqan filizindən gedir. Bu Frankfurt cəmiyyəti olan Metalqazellşafta məxsus olan, Batum və Trapezund arasında yerləşən, Qara dənizdə Poti yaxınlığında olan zavoda danışmaq üçün nəzərdə tutulmuşdur. Varneke orada saxlanılan manqan filizinin 12000 ton olduğunu müəyyənləşdirmişdir. Mis filizindən təqribən 2000 tonu Kvarsxan və Dzendzul yaxınlığında hazırılanmalı idi.

Batum çox gözəl yerdə yerləşir. Ruslar şəhər və onun ətrafını, iqlim şəraitini yaxşılaşdırmaq üçün çay yatağını tənzimləməyə çalışırdılar. Malyariya xəstəliyinə hal-hazırda çox az təsadüf olunur, yayda isə bəzən çoxalır, buna görə də hər gələn adam profilaktika məqsədi ilə iynə qəbul etməlidir. İndi ocaqçıların yarışı, xidmətçilərin çoxu və bir çox sərnişinlər qızdırma xəstəliyinə tutulmuşlar. Şəhərdə həyat dinc vaxtdakından az fərqlənir. Mən 1913-cü ildə yolüstü Tiflis və Təbrizdə olmuş-

dum; mağazaların çoxu bağlıdır, imkanlı əhali şəhəri tərk etmişdir. Şəhərə yaxın olan rayonlarsız Batum mövcud ola bilməz; o, rus-türk müharibəsindən əvvəl mövcud olmuş balıqçı kəndinə çevrilməsinə qədər tənəzzül edə bilər. Çox təəssüf ki, bu, yaxşı tikilmiş rahat limandır. Ərzaq mallarına tələbat çox böyükdür. Son dərəcə bahalıqdır. Sakinlər deyirlər ki, şəhərin türklər tərəfindən tutulmasına qədər Batumda məhsul bolluğu hökm sürürdü. Türklər əllərinə keçirdikləri hər bir şeyi şəhərdən çıxarırdı. Lakin tezliklə onlar imkanlı əhaliyə üç qat bahasına satmaq üçün ərzaq məhsulları gətirməyə məcbur olacaqlar. Kasıb əhali isə aclıq keçirir.

*Batum, 4 iyul 1918-ci il*

Mən ilk məlumatı ötürər-ötürməz, Avstriya və bolqar nümayəndələri ilə general fon Kress "General" paroxodunda limana daxil oldular. Onlar buraya Tiflisdən Poti vasitəsilə gəlmişlər. Əsas məqsədləri öz vəzifələrini icra etmək, türk komandanlığı ilə Gürcüstan Respublikası arasında mövcud olan anlaşılmazlıqları dinc yolla aradan qaldırmaqdır. Bu vaxta qədər Vehib Paşa Gürcüstanın daxili rayonlarından qayıtdı. Burada onu türk hökumətinin əmri gözləyirdi. Bu əmrə əsasən o, öz vəzifəsindən kənarlaşdırıldı. Ona dərhal İstanbula gəlmək əmri verilmişdi. Buna baxmayaraq, iyunun 29-da axşam general fon Kresslə danışıqları Əsəd deyil, Vehib Paşa apardı. Vehib həmin gecə Trapezunda yola düşdükdən sonra ertəsi günü Əsəd gəlib çıxdı. Vehibin güzəştlərə getməsini gözləmək olardı. General fon Kress belə təxmin edirdi ki, Əsəd daha anlayışlı hərəkət edəcək və qarşılıqlı münasibətə hazır olduğunu nümayiş etdirəcəkdir. Ancaq onların hər ikisi Suxumqala yaxınlığında yerləşən hissələri çıxarmaq və Bakıya hərəkəti dayandırmaqdan imtina etdi. General fon Kress iyunun 30-da günün ikinci yarısında danışıqları kəsməli, Potiyə, yaxud da Tiflisə qayıtmalı idi. Biz Tiflisdən qoşun hissələri ilə gətirilən nəqliyyat vasitələrini buraxma-

yacağıq və belə vəziyyət hələ ki, saxlanılacaqdır.

"General" paroxodu yola düşməzdən əvvəl mən İsmayıl Hakkı Paşanın xahişi ilə general fon Kressə uğursuz nəticələnmiş danışıqlara görə Paşanın təəssüfünü və İrəvan rayonunda yığılıb qalmış xammalın (pambıq, pambıq toxumları, barama və s.) Tiflis vasitəsilə Batuma dəmiryolu ilə gətirməyə razılıq verməsi xahişini çatdırmaq üçün göyərtəyə qalxdım. General fon Kress buna bir şərtlə razılıq verdi ki, İsmayıl Hakkı Paşa lazım olan yanacağı (mazut) versin. Paşa dərhal buna razılaşdı. "General" bu arada dənizə çıxdı və cavab simsiz teleqrafla verilməli idi. Bu elə də asan iş deyildi. Çünki günün ikinci yarısında hər iki teleqrafçı stansiyanın açarını özü ilə götürərək icazəsiz sahildə düşmüşdülər. Nə kapitan, nə də ki, Paşa buna əhəmiyyət verməmişdi. "Rəşid Paşa"nın radistinin dərhal gəlməsi əmri verildi. Stansiyanı çəkic və linglə açdılar. Lakin bu, heç bir nəticə vermədi. Çünki motor işləmirdi. Onu hərəkətə gətirmək mümkün deyildi. Hərbi əməliyyatların gedişindən 8 gün məlumat almamağımız isə təəccüb doğurmur.

Bir neçə gün sonra mən günahkarları necə cəzalandırdığını Paşadan soruşdum. Buna cavab olaraq o, mənə təəccüblə baxdı.

Teleqram sonra "Rəşid Paşa" ilə təqdim edildi. "General"dan cavab da həmin yolla simsiz teleqraf vasitəsilə verildi. Cavab İsmayıl Hakkı Paşanı o qədər də qane etmədi. Çünki general fon Kress Paşanın gürcü hökumətinə hansı qiymətlə nə qədər mazut satmağa hazır olduğunu bilmək niyyətində idi.

İsmayıl Hakkı Paşa buna cavabı mənimlə deyil, komandanlıq vasitəsilə göndərdı. Çünki o, mənim mazuta qoyulan qiyməti bilməməyimi istəyirdi. General fon Kressin istəyi ilə mən yenidən İsmayıl Hakkı Paşadan xahiş etdim ki, məni Əsəd Paşaya təqdim etsin və o, buna əməl etdi. Bunun ardınca, türk əsgərlərinin Suxumqala yaxınlığında yenidən gəmiyə mindirilməsinin həyata keçib-keçmədiyini mən söyləyə bilərəm. Hər halda buna ehtimal etmək olar.

Bu arada türklər Bakıya doğru daha qətiyyətlə irəliləyirdilər. Alekseyin komandanlığı altında bolşevik hissələrinin Bakını öz əllərində möhkəm saxladığı bir vaxtda onlar şəhərin 60 km-də idilər. Bolşeviklərin Hərbi Gürcüstan yolu ilə Vladiqafqazdan Tiflisə doğru hərəkət etməsi və bir neçə gün əvvəl burada döyüşün olması barədə də söz-söhbətlər getməkdədir. Bolşevik dəstələri Kutais və Tiflis arasında olan ərazidə böyük təhlükə törədirlər. Saçxere yaxınlığında onlar Seretel ailəsindən bir neçə knyaz öldürülmüşlər. Bunu görə də türklərin Bakını ələ keçirməsi təəccüb doğurur: çox güman ki, onların bolşeviklərə məğlub olması daha münasib olardı. Əgər biz bolşeviklərlə razılaşa bilsəydik, onda Bakının neft mənbələri və oradakı ehtiyatları bütünlüklə bizim əlimizə keçə bilərdi. Əgər onlar şəhəri tərk etməli olsalar, bütün Bakını yandıracaqlar və bu minvalla nə türklər, nə də ki, biz neft ehtiyatlarını əldə edə biləcəyik. Bunsuz isə Qafqaz dəmiryollarının istismarı tezliklə dayanacaqdır. Gürcüstanın qızdırılması üçün neft 10 günə kifayət edər və buna görə də türklərlə (İsmayıl Hakkı Paşa ilə) buradakı mazut ehtiyatları barədə razılığa gəlməyin əsl vaxtıdır. Paşa Gürcüstandakı işlərdən tamamilə xəbərdardır, əlbəttə ki, bununla bağlı yüksək qiymətlər tələb edəcəkdir. Dəmiryolları yaxşı vəziyyətdədir: hələ müharibəyə qədər ruslar bu istiqamətdə böyük işlər aparmışlar, xüsusi ilə əsas vağzalları genişləndirmişlər. Gürcüstanda aşağıda göstərilən sayda daşınar heyət vardır: 600 lokomotiv və 5000 vaqon; Bakıda: 200 lokomotiv və 6000 vaqon; Batum-Natanebı kiçik ərazidə: 3 lokomotiv və bir neçə yüz vaqon. Türklərin Aleksandropolda nə yerləşdirdiklərini isə mən öyrənə bilmədim.

İyunun 29-da kapitan Gerlax "General" paraxodunda buraya gəldi. Türklərlə yola getmək o qədər də ona asan olmayacaq və o, böyük takt və zirəklik göstərməklə nəyəsə nail ola bilər. "General"ın göyərtəsində ondan başqa mayor Hey, konsul Anders, kapitan-leytenant Xristiansen, Poti limanının komendantı

və missiyanın katibi fon Bettınger də var idi. Onlar fon Kresslə birlikdə Potı və ya Tiflisə geri qayıtdılar.

İsmayıl Hakkı Paşa Əsədə və Vehibin əlaltısı olan Baş qərargahın rəisi polkovnik Lütfi bəylə son dərəcə pis münasibətdədir. Əvvəlcə, onların rəqıbliyi gızli xarakter daşıyırdı. Bır neçə gün bundan əvvəl isə onlar açıq mübarizəyə keçdilər. Bunun nəticəsində İsmayıl Hakkı Paşa Ənvər Paşanın bu məsələyə qarışmasını xahiş etməyı özünə borc bildi. Lakin indiki ana qədər bir cavab alınmamışdır. Belə kı, Əsəd əlbəttə ki, Vehibin tapşırığı ilə manqan filizini və neft ehtiyatını verməkdən imtina edir. İsmayıl Hakkı Paşa fəaliyyətsizliyə məhkum olunmuşdur. O, öz qəzzəbini gizlətməyən qəzəbli şir kimi gəzir, Vehib və Lütfini biabır edir və onların istefasının labüdlyünü bıldirir. Burada isə gizli şəkıldə Qafqazda hakimiyyət uğrunda mübarizə qızışır. İsmayıl Hakkı Paşanın Ənvərə münasıbətini bilməsəydik, buna şübhəmiz olmazdı. Nə qədər kı, Ənvər söz sahıbidir, o, şəxsi dostluq və iş marağı ilə bağlı olduğu İsmayıl Hakkı Paşanı dəstəkləyə bilər və dəstəkləyəcəkdir. Əgər general-indendant İstanbulla teleqraf əlaqəsi qurmağa müvəffəq olmasa (bir neçə gündür ki, buna çalışır) çıxıb getməkdən və məsələni İstanbulda həll etməkdən başqa bir çarə qalmır. Bu gün biz buradakı vəziyyəti üz-üzə müzakirə etdik və mən Paşanın özünə çıxıb getməyi məsləhət etdim ki, bununla ona qarşı münasibətdə hörmətsizliyə son qoyulsun. Baş komandanlıq (Lütfi oxuyun) bu gün elə bir dərəcəyə çatdı ki, qarnizondan bir neçə nəfərin həbs olunması əmrini verdi: birinci olaraq zabit və fransız mühəndisini, onlara qarşı Paşanın əmri ilə limanda tədbirlər görüldü. İsmayıl Hakkı Paşanın qəzəbinin həddi-hüdudu yox idi. Vəzifəsinə başlamaqla bağlı gəlişi zamanı Əsəd Paşa kapitan Gerlaxa bildirdi ki, gələcəkdə Ənvər Paşanın əmrinə uyğun olaraq Batumdan bir çəllək də olsun neft çıxarılmasına yol verməyəcəkdir. Bu isə o deməkdir ki, biz neft barəsində də danışıqlarda irəli getməyəcəyik. Bu, bir daha ona görə təəssüf doğurur ki, bi-

zim quru qoşunların baş komandanlığı yenə də bildirır ki, Batumda bütün neft ehtiyatlarına tezliklə yiyələnməkdə ümumi hərbi komandanlığın böyük marağı vardır. Mən təsəvvür edə bilmirəm ki, Vehıbi, onun sistemini saxlamaq məqsədilə uzaqlaşdırıblar: bu, həm Türkıyə, həm də bizim üçünq yaxşı nəticə verməyəcəkdir. Bu da İstanbul hökumətinin maraqlarına cavab vermir. Mən belə düşünürəm ki, soyğunçuluq və zəhmətsiz gəliri ört-basdır etmək üçün istifadə olunan Ənvərin müvafiq əmri bilərəkdən düzgün yürüdülmür. Hər gün ağ neft və neftlə yüklənmiş gəmilər buradan Trapezunda və Qara dənizin digər türk limanlarına yola düşür. Buradan onlar İstanbula gedirlər. İstanbulda isə bu mallar Vehibin və onun adamlarının xeyrinə baha qiymətlərlə satılır. Buna görə də ixracın dayandırılması barədə söhbət də ola bilməz və Əsəd kimi alicənab insanın belə bir hərəkəti ağlasığmazdır. İsmayıl Hakkı Paşanın bu gün yola düşməzdən əvvəl mənə dediyi kimi, Ənvər Paşadan xahiş etmişdir ki, alman baş komandanlığının 3-cü ordusunun bərpasını təmin etsin və yaxud da heç olmasa, Lütfi bəyin yerinə alman qərargah rəisini təyin etsin. Mən belə fikırləşirəm ki, bu, hadisələrin gedişini dəyişdirə biləcək və Qafqaz barəsində bir sıra məsələlərin bizi də qane edən həllini tapa bıləcək yeganə imkandır.

***Batum, 8 iyun 1988-ci il***

Son zamanlar vəziyyət yaxşılığa, daha doğrusu, İsmayıl Hakkı Paşanın xeyrinə dəyişmişdir. Bu ayın 6-da podpolkovnik fon Feldman İstanbuldan buraya gəlmişdir. O, Ənvər Paşa tərəfindən ayın 26-sı tarixində verilmiş əmrin surətini gətirmişdir. Buna müvafiq olaraq, İsmayıl Hakkı Paşaya türk baş komandanlığının nazir əvəzi kimi baş komandanlıq, bütün anbarlar, xammal, zavodlar və s. verilməli idi. Paşanın arzusu ilə Ənvər sırağa gün axşam İsmayıl Hakkı Paşa vasitəsi ilə teleqrafla əmri Əsədə təkrarladı. İndi isə sonuncunun baş komandan vəzifəsin-

dən kənarlaşdırılması məsələsinə heç bir şübhə qalmır. Hələ srağa gün İsmayıl Hakkı Paşa ilə Əsəd arasında mübahisə zamanı Əsəd Ənvərin əmrini anlaşılmazlıq kimi təqdim etdi. Mən belə fikirləşirəm ki, Əsədi buna onun qərargah rəisi Lütfi bəy təhrik etmişdir. O, bıldirdi ki, podpolkovnik fon Feldman tezliklə alman qərargah rəisi ilə əvəz olunacaqdır. Əsədi əlbəttə ki, kənarlaşdırmaq asan iş deyildir. Əminəm ki, Lütfi ilə onun bütün əlaltıları gedəcəkdir, əks təqdırdə qərargahın yeni rəisi pis vəziyyətdə qalacaqdır.

İsmayıl Hakkı Paşa dərhal və həvəslə işə başlamışdır. O, bütün ehtiyatların, anbar, fabrik və s.-nin siyahısını hazırlayır və mən ona kömək edirəm. Belə zənn etmək olar ki, 35000 ton manqan filizini ixrac etmək çətinlık törətməyəcəkdir, tezliklə neft məsələsi də öz həllini tapacaqdır. Quru qoşunları baş komandanlığının təkidi ilə görünür, paraxod şirkəti iyulun əvvəlində Batuma bir tanker göndərmişdir. Bu, səhv qərardır və İsmayıl Hakkı Paşanın neft sahibkarları ilə danışıqları başa çatmamış bu qərarın həyata keçməsinə mane olmaq lazımdır. Əks təqdirdə yenidən qıymətlər qalxacaqdır. Ona görə də mən kapitan Gerlaxdan xahiş etmişəm ki, paraxod şirkəti ilə teleqraf əlaqəsi saxlasın və adı çəkilən tankerin gəlişini hələlik yubatsın. Buna naıl olmağı isə zaman göstərəcəkdir. Manqan filızinin ixracı ilə bağlı məsələlər isə bir qədər fərqlənir: buna dərhal başlamaq olar. Belə ki, İsmayıl Hakkı Paşanın sərəncamına 2 rota əsgər veriləcəkdir. Manqan filizinin bizə verilməsi prosesi nisbətən tez həyata keçəcəkdir. Buna görə də “Rodosto”nun tez gəlməsi çox arzuolunandır.

Podpolkovnik fon Feldman, adyutant və baş leytenant Olfe dünən Potidən Tiflisə getdilər. Onların qayıdışı 5-6 günə gözlənilir. Qayıdan zaman bizi də ziyarət etmək fikrindədirlər. Burada işini bitirən doktor Pfaff bu cənablarla birlikdə Tiflisə getdi. Oradan Bakıya getməyə cəhd göstərəcəkdir. Məqsədi orada olan böyük neft ehtiyatlarının saxlanılmasını təmin etmək (Bakı

1917-ci ilin oktyabrında 382000 ton, yəni bir ayda indi Batumda olan neftdən 10 dəfə çox neft vermişdi) və yaxud onun məhvinə mane olmaqdır.

Dünən mən bu cənabları baş komandanlıq tərəfindən sərəncamınıza verilmiş motorlu qayıqla Potiyə yola saldım və axşam havanın pis olması ilə əlaqədar gecikərək yenidən buraya döndüm. Poti limanı kiçik də olsa, müasir avadanlıqla təchiz olunmuşdur: müharibə zamanı, o, əlbəttə ki, daşınmalara tab gətirə bilərdi. Yük altında eyni vaxtda çox da böyük olmayan 16-18 paroxod dayana bilər.

İmza

**Davamı**

***Yelizavetpol, 14 iyul 1918-ci il***

Mənim təkrar təqdimatıma cavab olaraq İsmayıl Hakkı Paşa Qafqazda dolaşıq vəziyyəti şəxsən general fon Kresslə müzakirə etmək üçün mənimlə Tiflisə getməyə razı olduğunu bildirdi. Əgər şərait imkan versə, onda qatarlar Yelizavetpola da (türkcə Gəncə) gedəcəkdir, burada Nuru Paşa ilə görüş olmalı idi.

Mənim teleqrafla göndərdiyim sorğuya general fon Kress cavab verdi ki, o, bu səfərə razıdır və axşam 11.7 tarixdə biz yalnız podpolkovnik Əli Hikmət bəyin müşayiəti ilə xüsusi qatarla Batumdan çıxdıq. Ertəsi gün səhər saat 10-da biz Tiflisə çatdıq və vağzalda şəxsən general fon Kress və tərcüməçi baron fon Draxenfels tərəfindən qarşılandıq. Bizə təqdim olunmuş "d'Orient" mehmanxanasında qısa müddət qaldıqdan sonra "Palaş" mehmanxanasında nümayəndəliyin iqamətgahında general fon Kressi ziyarət etdik, daha sonra isə generalla birlikdə sabiq rus canişininin sarayında Gürcüstan Respublikasının baş naziri Jordaniya ilə görüşə getdik. İndiki gürcü hökumətinin zəif mövqeyinin xarakterik cəhəti odur ki, onlar hökumət binasında gür-

cü bayrağını deyil, qırmızı inqilab bayrağını asmağa məcburdur: qırmızı mülki qvardiyanın nüfuzu daha böyükdür. Sonuncu vəziyyətin ağasıdır: qvardiya hökumətin xidmətində yüksək məvacib - hər gün adambaşı 25 rubl. ödənilməsinədək qalacaqdır.

60-a yaxın yaşı olan Jordaniya bızi səmimi qarşıladı. Mənim apardığım söhbət mənasız idi. Çünki bu, yalnız İsmayıl Hakkı Paşa tərəfindən səmimi ziyarət idi. Söhbətdə təsadüfən ıştirak edən xarici işlər naziri xoş təəssürat bağışladı. O, yalnız fransız dilində danışa bilən baş nazirdən fərqli olaraq alman dilini də yaxşı bilir. Sonra o, "klubda" İsmayıl Hakkı Paşanın şərəfinə ziyafət verdi. Bundan sonra biz nümayəndə heyətinin üzvləri ilə həmin "klub"da səhər yeməyi yedik və o, şəraitdən ıstifadə edərək söhbəti daha ciddi istiqamətə yönəltdi. Türkiyə və Gürcüstan arasındakı dostluq münasibətlərinin uzun müddət saxlanılması niyyətlərindəki təminata baxmayaraq, mən hər iki hökumətin səmimi addımlarına şübhə ilə yanaşıram. General fon Kress daim Tiflis ictimaiyyəti qarşısında İsmayıl Hakkı Paşa ilə görünməyə çalışırdı ki, bununla Almaniya və Türkiyə arasındakı münasibətlərin pozulması barədə şayiələrə son qoysun.

Gürcüstanın hərbi naziri ilə biz görüşmədik: o, elə də əhəmiyyətli rol oynamır və bütün gürcü hökuməti kimi çox az iş görür. Hökumət hələ ölkəni və gürcü xalqını idarə etmək bacarığını göstərməlidir. Mən belə hesab edirəm ki, Almaniyanın gürcülər üçün çox iş görməsi və yeni şəraitdə türklərlə münasibətləri korlaması düzgün iş deyildir. İndiki vəziyyətdə Gürcüstanda hər hansı bir sabitlik barədə söhbət gedə bilməz. Buna görə də nizami ordunun yaradılması ən zəruri işdir.

General fon Kresslə söhbətimiz Türkiyənin Qafqazda apardığı siyasətə dair tam aydınlığı təzahür edirdi. Bununla İsmayıl Hakkı Paşanın yaranmış vəziyyəti sırf iqtisadi nöqteyi-nəzərdən təhlil etməsini də nəzərdən qaçırmaq lazım deyildir. Buna görə də general fon Kresslə Ənvər Paşanın kiçik qardaşı, bütün müsəlmanları türk hakimiyyəti altında birləşdirməyi qarşısına

məqsəd qoyan, hal-hazırda iyirmi illik diviziya generalı olmaqla Azərbaycanda komandanlıq edən Nuru Paşa arasında əlaqənin yaradılması çox vacibdir. General fon Kressin istəyi ilə mən dünən Nuru Paşaya generalın gələn həftə Gəncəni ziyarət etmək niyyətində olduğunu çatdırdım. O, buna çox sevindi.

Biz 4:30-da daha uzağa - Yelizavetpola yollandıq. 6 saat mənəsiz səfərdən sonra biz oraya çatdıq. Azərbaycan, xüsusilə Yelizavetpol rayonu bütün qalan Qafqazın taxıl mənbəyidir. Gürcülər Azərbaycana yardım etsələr və ifrata qapılmasalar yaxşı iş görəcəklər. Çünki əks təqdirdə Gürcüstanın onsuz da ağır olan ərzaq təchizatı daha da mürəkkəbləşə bilər. Nuru Paşa 18-dən 25 yaş həddinədək olan müsəlman gənclərini hərbi xidmətə çağırır. Nə qədər ki, rayonlarda panislamçı əhval-ruhiyyə var, ordunun formalaşması çətinlik törətməyəcəkdir. Belə ki, oyanma bir o qədər də gec olmayacaqdır. Artıq bu və ya digər yerdə gənc müsəlmanlar 100 rubl dəyərində cib xərcliyi alan kimi hərbi xidmətdən yayınmağa çalışırlar.

Nuru Paşanın qərargahında ("Qonaq" mehmanxanası) səhər yeməyindən sonra biz onun müşayiəti ilə 104 il bundan əvvəl vürtemberlilər tərəfindən əsası qoyulmuş, nəzarəti şərabçı Forer ailəsinə məxsus olan nümunəvi şərabçılıq təsərrüfatı - Yelenendorf kolonyasına avtomobillə yola düşdük. Hazırda şərabçılıq təsərrüfatlarının, alman sahibkarlarının vəziyyəti az xoşagələndir. Çünki Rusiyada mövcud olan satış bazarları indi onlar üçün bağlıdır, ayrı-ayrı Qafqaz dövlətlərindən Qara dəniz limanı olan Potiyə keçid zamanı vergi və rüsumların qoyulması ilə Mərkəzi Avropaya idxal mürəkkəbləşir. Yaxın vaxtlarda isə vəziyyət daha dözülməz olacaqdır. Belə ki, şərabçılıq təsərrüfatlarının çoxu şərabla doludur, yeni məhsul üçün boş çəlləklər çatışmır, deyilənə görə məhsul bu il daha bol olacaqdır. Sadəlövh almanların (Yelenendorfda təqribən 2500 sakin, bir kilsə və iki məktəb vardır) öz aralarında formada alman zabitini görmələri sevinci böyük idi. Bu alman ünsürünün ruslar, ermənilər

və farslar arasında təmiz görünüşlü saxlanılmasına və vətəndən uzaqda adamların nə cür dəyərlər törətməsinə istər-istəməz təəccüblənirsən. Əgər Qafqaz almanların ola bilmirsə, onda bizim kolonistlər ikinci vətən kimi Rusiyanın yenidən dirçəlməsini arzulayırlar. Bu haqda hər yerdə eşitmək olar. Azərbaycanda bir qism alman kolonisti, təqribən 6000 nəfər vardır. Qismən çox kolonist Tiflis rayonunda məskunlaşmışdır və şərabçılıqla məşğul olmaqdadırlar.

800 m. hündürlükdə fıstıq, qoz ağacları ilə zəngin olan sərin yerdə yerləşən Hacıkəndə səfər etdikdən sonra biz şam etmək üçün Gəncəyə qayıtdıq və dəhşətli istidə vaqon salonlarında gecələdik. Nuru Paşa alicənab, ciddi, tərbiyəli adamdır, alman dilində yaxşı danışır, az da olsa boş vaxtlarında Avropa (həmçinin, alman) ədəbiyyatı və rəssamlığı ilə məşğul olur. Onun şüarı Tripoli və indi yenidən Qafqazdakı uğurlarına söykənən panislamçı ideyalarıdır. Hər şeydən əvvəl, o, 50 zabitlə Xəzər dənizinin o tayına, Türküstan, oradan Əfqanıstana müsəlman əhalini üsyana səsləmək üçün həvəslə gedərdi. Bakının işğalı, silah və sursatla hədsiz təchizat bu ümidsiz təşəbbüsün həyata keçməsi üçün zəmin ola bilərdi. Nuru Paşa Bakının tutulmasını uşaq oyunu hesab etsə də, yenə də İstanbul hökumətinin istəklərinə və qardaşı Ənvər Paşanın əmrlərinə əməl edir və "hələlik" Bakıya hərəkəti dayandırmışdır. O, Azərbaycanın iqtisadi istismarının mümkünlüyünü İsmayıl Hakkı Paşa ilə ətraflı şəkildə müzakirə etmişdir. Ancaq o, çox güman ki, kommersiya işlərindən tamamilə uzaq bir adamdır. Buna görə də o, İsmayıl Hakkı Paşanın İsmayıl xan adlı birisilə və bir neçə başqa alman kommersantla (onlara yun və pambıq alışı hesabına 100 min türk funtu təqdim etmişdir) əlaqəsini qurdu. Bu sövdənin təfərrüatını öyrənmək təəssüf ki, mümkün olmadı. Bəlkə də razılaşma heç baş tutmamışdır, çünki həddən artıq böyük qiymətlər, daha doğrusu, hər pud pambığa 120 rubl və hər pud yuna 65 rubl tələb olunurdu. İsmayıl Hakkı Paşa tezliklə Gəncəyə öz eti-

barlı nümayəndəsi Munir bəyi göndərmək niyyətindədir. Munir bəy onun üçün sövdələr bağlamalı və Batuma malların daşınmasına nəzarət etməli idi. Batumda Hakkı Paşa mallarla istədiyi kimi rəftar edə bilərdi.

***Batum, 16 iyul 1918-ci il***

Dünən Yelizavetpoldan qayıdarkən günün birinci yarısında biz Tiflisdə general fon Kressə Nuru Paşa ilə apardığımız danışıqlar barəsində məlumatı çatdırmaq üçün 2 saat ləngidik. Belə güman edirlər ki, bizim hərbi komandanlığımız son anda yenə də türklərə güzəştə getməyəcək, əksinə türklər tərəfindən qanunsuz tutulan ərazilərin təmizlənməsində daha inadkar olacaqdır. Bunu əlbəttə ki, tədricən həyata keçirmək olar. Belə ki, Qafqazda türk ekspedisiya ordusunun sol cinahının müdafiəsini öz üzərinə götürə biləcək nə alman, nə də gürcü qoşunları vardır. Türklərin razılığı ilə təxliyənin müddəti barədə sazişə nail ola bilərdik. General fon Kresslə Nuru Paşa arasındakı 17 iyul tarixinə nəzərdə tutulmuş danışıqlar bu məsələnin həllinə əhəmiyyətli dərəcədə səbəb olacaqdır.

12 saat gözəl, meşələrlə əhatə olunmuş yaylalarla (xüsusilə, Mixaylov və Riv arasında 5 km. tuneli keçdikdən sonra) getdikdən sonra biz gecəyarı Batuma çatdıq. Bizim yola düşməyimiz sabah səhər saat 4-ə təyin olunmuşdur. Bu gündə növbəti malların qəbulu və cari məsələlərin həlli uğurla başa çatdı. Gəmilər fasiləsiz işləyir, paroxodlardakı bütün boş anbarlar böyük miqdarda çay, sement, müxtəlif formalı dəmirlər, ağ neft, inşaat materialları, çoxlu səngər alətləri və s. ilə tam doldurulmuşdur. Təəssüf ki, ayrı-ayrı mallar barəsində (miqdarı haqqında) dəqiq məlumatlar yoxdur. Bir şey tamamilə aydındır ki, İsmayıl Hakkı Paşa Batumda və onun ətrafında olan hər bir şeyi bu və ya digər yolla pula çevirməkdən ötrü İstanbula göndərmək qə-

rarına gəlmişdir. Buna görə də "Gülcamal" ayrı-ayrı qənimətləri Batuma aparmaq imkanına malikdir. Bu halda üçüncü tamamilə istisna edilir. Bu səbəbdən kapitan Gerlax əsas diqqətini manqan filizinin və onun ardınca gələn neft məhsullarının fasiləsiz göndərilməsinə yönəltməyə məcburdur. Bu gün günün ikinci yarısında mən onu Hakkı Paşaya təqdim etdim, üstəlik o, İstanbulda mineral yağları barədə sazişin bağlanmasını imkan daxilində tezləşdirməyi də vəd etdi. Buna görə də İstanbulda hərbi sürtgü yağları üzrə firmanın nümayəndəsi timsalında konsul Burhardtın iştirakına o qədər də lüzum yoxdur və bu barədə artıq ona məlumat verilmişdir. Eyni zamanda, Burhardtın Novorossiyskə getmək ideyası da həyata keçirilməmişdir. Çünki Novorossiysk bolşeviklərin əlindədir.

İsmayıl Hakkı Paşa Simensə məxsus Kvartsxani mis yatağını və ingilis sindikatına məxsus olan Dzendzul mis yatağını (hər ikisi Batumdan cənub-qərbdə yerləşir) öz idarəsi altına almaq niyyətindədir. O ki, qaldı birinciyə, burada Simens firmasının razılığı tələb olunur. Şübhəsiz bu razılıq alınacaqdır. Çünki İsmayıl Hakkı Paşa 700 fəhləni ərzaqla təmin etməyi öz üzərinə götürmüşdür. Əgər buna əməl olunsa, onda mədəndə işlər uğurla gedəcəkdir. Bunu da ancaq İsmayıl Hakkı Paşa təmin etmək iqtidarına malikdir. Mədən hər ay 150 m. mis verir. Dzendzul ilə isə işlər bir qədər mürəkkəbdir (dinc vaxtda bu mədən iki qat çox mis verirdi). Belə ki, müəssisənin işə başlaması yanacaq və ötürücü qayışların çatışmaması ucbatından ləngiyir. Bu iki mis mədənlərindən əlavə Qafqazda Sanain və Alaverdi (hər ikisi Gürcüstandadır) mədənlərində də çoxlu miqdarda mis vardır. Sanain haqqında dolğun məlumat yoxdur. Alaverdi isə fransızlara məxsusdur, Tiflis-Aleksandropol dəmiryol xəttində yerləşir və ildə 8% misi təşkil edən 200 000 pud mis filizini emal edir. Xoşbəxtlikdən türklərin hakimiyyəti nə bu mədənə, nə də ki,

Giaturda yerləşən mis mədənlərinin zəngin yataqlarına çatır. Batum yaxınlığında Çakva rayonunda yerləşən və rusların ixtiyarında olan çay fabriki İsmayıl Hakkı Paşanın diqqətini xüsusilə cəlb etmişdir. O, bütün məhsulun alınması barədə fabrikin sahibi ilə müqaıvilə bağlamışdır. İzmir və Smirna arasında, Türkiyədə də çay yetişdirmək cəhdləri nəzərdə tutulmuşdur.

İstanbul hökuməti, həmçinin, baş komandanlıq bir neçə ay bundan əvvəl Vehib Paşaya işğal olunmuş ərazidə olan bütün müəssisələri dərhal ələ keçirmək əmrini vermişdir. Lakin bu qaniçən nə inşaatda, nə də gələcək barədə qayğılarda maraqlıdır. Çünki o, hal-hazırda ölkənin qanını sormaq iqtidarına malikdir. İsmayıl Hakkı Paşa son bir neçə həftə ərzində Batum əyalətində işləri həm qaydasına salmış, həm də bununla ölkəyə iqtisadi cəhətdən yardım etmişdir, həmçinin, sənayeni inkişaf etdirmək üçün sərvətlərdən istifadə edə bilmişdir. O, Qafqazın mədəni əlaqələrinin Türkiyədən çox olduğunu və bundan Türkiyənin xeyri üçün istifadə etməyə hazır olduğunu daim etiraf edir. Belə ki, məsələn, son günlərdə o, Türkiyə üçün, yəni özü üçün iki mədən mühəndisini işə götürmüş və onları özü ilə İstanbula aparmaq niyyətindədir. Onlar hər ay 1000 və 2000 lirə alırlar və Kiçik Asiya mədənlərində İsmayıl Hakkı Paşa üçün dağ mədənləri işi üzrə mütəxəssis timsalında çalışmalıdırlar. Əgər Berlində öz növbəsində bu istəklərə yardım edilsəydi, onda bu iki rusun yerində alman mina mühəndisləri çalışardı.

Batumda olduğumuz müddətdə burada böyük plebisit keçirildi. Burada gözlənildiyi kimi, böyük əksəriyyət Türkiyəyə birləşməyə tərəfdar çıxdı. Səsvermə guya gizli şəkildə olmuşdu. Həqiqətdə isə böyük masa arxasında muttesarif (rayon rəisi) əyləşmişdi, masanın üzərində isə yerli camaatın açıq şəkildə almalı olduğu ağ və mavi bülletenlər var idi.

***İstanbul, 20 iyul 1918-ci il***

"Gülcamal"da üç günlük xoş səfərdən sonra biz bu gün səhər Bosfora daxil olduq. Qayıdarkən əvvəlcə Trapezunda, sonra Samsuna getdik, böyük bir tütün yükünü özümüzlə götürdük və nəhayət, dünən Gerakles və ya Zonquldaqda istirahət üçün dayandıq. Köməksiz olmasına baxmayaraq, İsmayıl Hakkı Paşa protez ayağı ilə müxtəlif qurğulara baş çəkmək üçün sahilə endi. Biz kömür dəmiryolları ilə birinci iri şaxtaya qədər irəlilədik və indiki hasilatın vəziyyəti barədə qeyri-qənaətbəxş xəbərlər aldıq. İyunda cəmi 25 min ton hasilat əldə olunmuşdu, dinc dövrdə isə aylıq hasilat 75-80 min ton təşkil edirdi. Bu nəticələr mədənçilərin məhsuldarlığının aşağı düşməsi ilə əlaqədardır. Onlar artıq bir neçə aydır ki, hər gün adambaşına bir çörək və 7 piastr alırlar. Fəhlələrin yemək çatışmamazlığı ucbatından məhsuldarlığın aşağı düşməsi heç də ürəkaçan deyildir. Eyni zamanda, Geraklesdə şaxtanın fransız müdiriyyətinin passiv müqavimət göstərməsi fərziyyəsində da yanılmaq çətindir. Bir məsələ də aydın deyil ki, nə üçün hökumət bu vaxta kimi fransızları hərbi dövrün qanunları əsasında kənarlaşdırılmamış və Gerakles yataqlarını öz iradəsi altına almamışdır. Dünən mən onunla söhbət edəndə İsmayıl Hakkı Paşa, dedi ki, bu təşəbbüsə qarşı çıxan Tələt və Camalın müqavimətini qırmaq qeyri-mümkündür. Digər tərəfdən, alman-türk dairələrinin aksiyaların çox hissəsini ələ keçirmək cəhdləri də boşa çıxdı. Buna görə də Paşa bu məsələ ilə bağlı martda Parisə və İsveçrəyə göndərdiyi Panqiri bəy haqqında mənfi fikir söyləməkdədir.

Bu gün səhər biz Kavakdan nazirlikdə baş verən dəyişikliklər haqqında məlumat aldıq. Yeni kabinənin yaradılması xəbərini Paşa rəhmdil təbəssümlə qarşıladı. Belə ki, o, Kamal bəyin ərzaq təchizatı naziri vəzifəsinə təyin olunmasını eşidəndə dilxor oldu. Onu ən çox narahat edən amillərdən biri də böyük nüfuza nail olmasına ümid etdiyi İctimai İşlər Nazirliyinə Nazim bəyin timsalında yeni rəhbərin təyin olunması idi.

İsmayıl Hakkı Paşa avqustda Kiçik Asiya və Smirnaya get-

mək niyyətindədir. Bundan əlavə, sentyabrda o, tanışlıq məqsədilə Almaniyaya da getmək fikrindədir. O, məndən sentyabrın ortalarında hazır olmağımı xahiş etdi.

İmza

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 6273 və 5175-18***
***s.62-68***

***

**№ 19**

Surəti A 28524
Məhdud cavabdehlikdə
Avropa Ticarət Birliyi
Bremen-Vyana-Budapeşt
Məhdud cavabdehliklə
Alman-şərqi ticarət birliyi- Bremen
Berlindəki nümayəndəlik

Xarici İşlər Nazirliyinə
Berlin, N.V. 7
1 iyul 1918-ci il

İstanbuldan gələn hesabatlar türklərin anlaşmaya uyğun olaraq Aleksandropoldan Təbrizə gedən yolu tutduqlarına dəlalət edir. Bunun yolun müdafiəsi məqsədilə yaxud da ki, türklərin yolda hərəkətlərə nəzarət məqsədilə edilməsi barədə məlumat yoxdur. Lakin bu halda da ehtiyatlı olmaq lazımdır. Əgər türklər, sadəcə olaraq, yolu mühafizə edirlərsə, onda bizim alıcılar Təbriz, Şimali İran, Ermənistan və s-yə yun və pambıq daşınmasında dəmiryollarından istifadə edə bilməyəcəklər və Kiçik Asiyda olduğu kimi, müvafiq məhsul yığımı üçün vaqonların verilməsi icazəsini türk hökumətindən almaq gərək olacaqdır.

Mövcud şəraitdə türklərin mallarımızı satmaq üçün vaqonları Aleksandropoldan Karsa əsassız olaraq çəkməsi hərəkəti təşvişimi biruzə verməyə bilmərəm. Bu təhlükə üçün mənim

əsasım vardır, belə ki, Batumun tutulmasından sonra türk hökuməti bizim nümayəndələrin ora getməsinə maneçilik törədirdi. Yalnız məhdud cavabdehliklə alman-şərqi ticarət birliyindən (bizim İstanbuldakı nümayəndəmiz) cənab Broverin köməkliyi ilə neft yağlarının alınması üçün cənab doktor Pfaffı Batumdan çağırmağa müvəffəq olduq. İsmayıl Hakkı Paşa onunla uğurla alver edir.

Belə ki, şifahi danışıqlar zamanı hakim dairələr İstanbul nümayəndələrimizə açıq şəkildə bildirdilər ki, onlar Batum və Kars əyalətindəki xammalımızdan (daha doğrusu, Brest sülh müqaviləsinə uyğun olaraq türklərə verilmiş ərazilərdə) tədarük istehsal edən firmalarımızın müvafiq boşluqları hesabına əl çəkmək niyyətindədir.

Təbriz yolu barəsində olduğu kimi, Potidən Kutais-Tiflis vasitəsilə Bakıya uzaq məsafəli yolların mühümlüyü barədə məsələyə dair mən qısaca olaraq aşağıdakıları göstərməyi özümə borc bilirəm: Müdirimiz Klazonun Moskvadan verdiyi məlumata və elə indi Bakıdan qayıtmış bir cənabın hesabatlarına və İrandan gələn ardıcıl xəbərlərə əsasən biz Şimali İranda, Ermənistan və gələcək Azərbaycanda hal-hazırda anbarlarda 4 milyon pud pambıq, daha doğrusu, 64 milyon kiloqram, amerikan hesabına görə 320000 tay olduğuna güvənirik. Bundan başqa, 4 milyon pud təşkil edəcək yeni məhsul da vardır. Biz, İran da daxil olmaqla bu əyalətdən 5-6 mln. kq qoyun yunu, çoxlu barama məhsuluna (miqdarını hələ ki, müəyyənləşdirə bilməmişik) da arxayın ola bilərdik.

Biz belə təxmin edirik ki, Türküstan, Xivə, Buxaradakı son məhsuldan 12 milyon pud pambıq da əldə edə bilərik. Məlumata görə yeni məhsulun miqdarı çox deyldir. Çünki aclıqdan ehtiyat edən azərbaycanlılar pambıq kolundan çox buğda əkmişdir. Yeni məhsul təqribən 4 - 6 milyon puda qədər, daha doğrusu, bütövlükdə 16 milyon pud və ya 1 300 000 amerikan tayı təşkil edir.

Pambıqdan əlavə Buxara və sərhədyanı ərazilərdə 10 milyon kq yun toplanmışdır.

İyunun ortalarında Moskvadan verilmiş məlumata əsasən Buxara və Xivə əmirləri bolşevik hökumətini kənarlaşdırmış və bizim Moskva nümayəndələrimizə baxmayaraq, pambığı vasitəçilər yolu ilə satmağa başlayırlar. Onlar pambıq ticarətinə görə ölüm cəzası tətbiq edən indiki hökumətin dekretlərinə məhəl qoymurlar.

Ölüm cəzası qarşısında qorxuya baxmayaraq, bizim Moskvadakı nümayəndəmiz Türküstan anbarlarındakı 40 mln. marka dəyərində olan pambığı əldə etməyə nail olmuşdur.

Dinc dövrdə ölkə daxilində istifadə məqsədi ilə Almaniyaya pambıq ixracı təqribən 1 800 000 tay, Avstriya-Macarıstan da daxil olamaqla 2 mln. tay təşkil edirdi. Nəticə etibarilə Türküstan və Qafqaz pambığının mühüm hissəsini əldə etməklə, biz öz əhalimizi təmin etmək iqtidarında olacağıq. Amerika və İngiltərə ilə müharibənin bir və yaxud iki il də davam edəcəyini fərz etsək, onda Xarici İşlər Nazirliyinə toxuculuq malları ilə bağlı məsələlərin ciddiliyini anlatmaq zəruriliyi çətin ki, meydana çıxsın. Mənə bir şey aydındır ki, biz danışıqlar yolu ilə və yaxud lazımi anda hərbi yolla Mərkəzi Asiya və Qafqaz əyalətlərindən bu xammalın çıxarılmasını təmin edə bilməsək, onda biz 12 ay ərzində çətin vəziyyətə düşəcəyik.

Buna görə də mən xahiş etmək istərdim ki, bir tərəfdən Qara dənizi İranla, digər tərəfdən, Türküstanla bağlayan körpü, Poti-Bakı və İrəvan yolunun köməyilə almanlardan başqa heç kimin nəzarəti altına verilməsin və qüvvə tətbiq edilməsi zəruriliyi zamanı, toxuculuq sənayesi üçün xammalın çıxarılmasına yol verməkdən ötrü bütün vasitələr sərf edilsin.

Mən buna da işarə etmək istərdim ki, Türküstandan gələn məlumatlara əsasən (bu məlumatları artıq mən cənab Əlahəzrət dövlət katibi baron fon der Buşa 19 aprel və 1 iyun tarixli mək-

tublarımda çatdırmışam), Mərkəzi Asiyada antıbolşevik əhval-ruhiyyəsi açıq şəkildə hiss olunur.

Hazırda pambığı Orenburqdan Moskvaya, həmçinin Həştərxandan göndərmək mümkün olmadığı kimi, onu bolşeviklər də ələ keçirə bilmirlər.

Belə ki, mən bu il Türküstanda məhsulun çox olmaması ilə əlaqədar pambığın çıxrılmasını qadağan edən digər bir hökumətin meydana çıxmasından da ehtiyat edirəm. Beləliklə, pambığı ya danışıqlar, ya kompensasiya, yaxud da ki, Türküstanı ələ keçirmək yolu ilə əldə etmək olar.

Biz, türklərin tədarükə mane olmamasını zənn edərək Qafqazda olan pambığı ala bilərik. Lakin Aleksandropol-Təbriz dəmıryolu sahəsində vəziyyəti aydın görmək üçün mən böyük ehtiramla müraciət edirəm kı, bizim tədarükçülərin və mallarımızın bu yolda sərbəst, maneəsiz keçidə malik olması haqqında dəqiq məlumatların olması və yaxud bizim türk hökuməti ilə danışıqlar aparmağımızla bağlı imkan daxılində tez məlumat verəsiniz.

İmza

Potsdam Mərkəzi arxivi,
*fond 1-A, sən. 3450-18*
*s.69-71*

***

## QAFQAZ

### 1.Siyasi icmal

Rus inqilabından sonra Transqafqazda əvvəlcə paytaxtı Tiflis olan vahid federativ respublika yaradıldı. Lakin Brest-Litovsk sülh müqaviləsi əsasında Batumda möhkəmlənən türklərin daxil olmasından sonra bu respublika yenidən üç hissəyə parçalandı: gürcü, azərbaycanlı və erməni respublikalarına.

Gürcüstan Respublikası üçbucaq şəklində Potidən Tiflisə və oradan da türklərin işğalı sayəsində onlara aid olmayan Batuma qədər yayılır. Bu ərazi ilk növbədə gürcülərlə, daha doğrusu, dini mülahizələrə görə türklərin düşməni olan xristian əhali ilə məskunlaşmışdır.

Azərbaycan Respublikası Azərbaycan ərazisində, daha doğrusu, əsas şəhərlər Yelizavetpol və Bakı ilə Transqafqazın şərq hissəsində yerləşir. Bu ərazi əsasən azərbaycanlılarla (müsəlmanlar) məskunlaşmışdır. Lakin burada, xüsusilə, qərb hissədə erməni təbəqəsi də vardır.

Ermənistan Respublikası Gürcüstandan cənub-qərbdən türk sərhədinə qədər uzanır, əsas şəhərləri Aleksandropol, İrəvan və Karsdır, sonuncu türklərə verilmişdir. Əhali əsasən güclü azərbaycanlı təbəqəsindən və ermənilərdən ibarətdir.

Bunun nəticəsi olaraq son iki respublikanın ərazilərində əhalinin aydın bölgüsünü aparmaq mümkün deyildir. Onların maraqları da kifayət qədər dolaşıqdır. Türklər indiki vaxtda ilk növbədə, onlara inanan azərbaycanlı əhalisinə arxalanır. Belə ki, onlar İslam dininə itaət edirlər və bütün növ agentlər onları öz tərəflərinə çəkmək və Almaniyaya qarşı qoymaq üçün son dərəcə qəti tərzdə təsir edə bilirlər. Buna oxşar cəhədlər görünür, Qafqazın cənub-şərq hissəsində kiçik müsəlman xalqları arasında tətbiq olunmuşdur. Belə ki, sonuncular elə də böyük əhəmiyyət kəsb etməyəcəklər.

Qafqaz yolu vasitəsilə Türküstanı ələ keçirmək üçün türklərin təsirlərini şimal-şərqə doğru genişləndirməkdə ümumi səyləri təəssürat yaradır. Elə bil ki, bunun sayəsində türklərin əsas səyləri Ermənistandan yayınır və ikincisi, Almaniya üçün Hindistana, ikincisi, daha yaxın və rahat yol açılır.

Şübhəsiz, müharibədən sonra bu və ya digər dərəcədə okeanın o tayındakı ölkələrdən əlaqəsi kəsilən Almaniya öz iqtisadi məqsədlərini xüsusi səylə Cənub-Şərqə yönəltməli və artıq

indıdən Qafqaz, Türküstan, İran və imkan dixilində Əfqanıstanın iqtisadi istilasını hazırlamalıdır. O, Əfqanıstanda çoxlu xammal ələ keçirə bilər ki, bunu da əvvəllər hazırda ona düşmən olan ərazilərdən və okeanın o tayından əldə edə bilirdi. İndiki vəziyyətdə Qafqazda müvafiq tərzdə fəaliyyətə başlamaq üçün ılk növbədə daha bacarıqlı tacir olan ermənıləri türklərin hücumlarından qorumaq və bunun nəticəsi olaraq imkan daxilində onları Almaniya tərəfinə cəlb etmək irəli sürülür. Ancaq onların etibarına, düzgünlüyünə və sədaqətinə sırf psixoloji tərzdən əsasən arxayın olmaq olmaz. Lakin müsəlmanların qanlı qırğına məruz qalması qorxusu onları uzun müddətə Almaniyaya cəlb edəcəkdir. Qafqazlıların hazırki vaxtda məşhur olan Almaniya ilə daha sıx münasibətlər qurmaq cəhdlərini görünür, ilk növbədə türklərdən müdafiə olmaq cəhdləri ilə izah etmək olar. Bu şəraitdən artıq bu gün istifadə etmək zəruridir. Belə ki, müharibədən sonra, şübhəsiz, türklərin hərəkət tərzi dəyişəcək, ingilislərin nüfuzu isə yenidən gündəmə gələcəkdir. Çünki müharibədən əvvəl, həm də indiki şəraitdə ingilislər öz agentləri vasitəsilə ölkədə fəaliyyətlərini gücləndirməyə çalışırdı və üç adı çəkilmiş respublikanın birləşməsindən dərhal sonra, şübhəsiz onların federasiyasını yaratmağa səy göstərəcəklər. Artıq indi bütün iplərin uc-uca gəldiyi və ümumi paytaxt elan olunan Tiflisin nüfuzu üstünlük təşkil edir.

## 2. İqtisadi vəziyyət

Qafqaz ərazisi Saksoniya qraflığından təqribən 8 dəfə böyükdür və hal-hazırda tam inkişaf etməmiş ölkə sayılır.

Onun əsas məhsullarını neft, pambıq, pambıq toxumu, yağlı bitkilərin bir neçə növü, qoz və yer fındığı (sonuncular ilk növbədə sahil ərazilərdə bitir), Batum sahilindən Zeytun, Qara dəniz ətrafında uzanan zeytun kəməri, Ön Qafqaz əyalətindən

Novorossiyskə qədər - şərab, konyak, iri buynuzlu mal-qara (əldə olunan məlumatlara görə bu malların çox hissəsi inqilab zamanı məhv edilmişdir), qoyun (ət, piy və sümüyü elə yerindəcə emal edib ixrac etmək olar) təşkil edir.

Bunun üçün münasib qurğular hazırda Qafqazda yox dərəcəsindədir. Burada meyvə və tərəvəzləri emal etmək üçün müəssisələr də yoxdur.

Digər məhsullar dəri və yundur, nisbətən əhəmiyyətli dərəcədə Qara dəniz və Xəzər dənizi sahillərində balıqların çoxaldılması, delfinlərin tutulması həyata keçirilir, deməli, indi əlverişli dəniz heyvanlarının piyinin istesalını da yoluna qoymaq olar.

İndi isə belə bir sual meydana çıxır. Almaniya hərbi iqtisadiyyatı üçün Qafqaz məhsullarından istifadə etməkdən ötrü hansı iqtisadi siyasəti həyata keçirəcəkdir?

Hazırda Berlində olan müxtəlif Qafqaz heyətlərinin nümayəndələrinin bütövlükdə alman hərbi iqtisadiyyatı və kartellər tərəfindən tədarükü haqqında çox az təsəvvürü vardır, yenə və yenə də müvafiq danışıqlarda ınhisarlar tərəfindən tədarüklərdən imtina edirlər. Belə ki, onlar bu tip inhisarlar tərəfindən azad ticarətin dağıdılmasından ehtiyat edirlər. Almaniya tərəfindən Qafqaz əyalətində azad alman ticarətini mübahisəsiz tam həll etmək mümkün deyildir. Belə ki, Qafqazda köhnə alman firmaları nisbətən azdır və bu məqsədlə əvvəlcə yeni firmalar yaratmaq gərək olardı. Bunlar da böyük gəlir gətirə bilərdi. Bunun nəticəsində, şübhəsiz, xeyli əlverişli və ölkə məhsullarının ifrat dərəcədə bahalaşması ortaya çıxardı. Bundan əlavə, xaricdə azad ticarət dövlət hərbi iqtisadiyyatı ilə Almaniyanın özündə bir araya sığmır. Belə ki, Qafqazda alınan məhsullar alman sərhədinə çatanda mövcud olan səlahiyyətlər əsasında sərhəddə maksimal qiymətə müsadirə olunacaqdır. Bu yüksək qiymətləri Qafqazda olan alış qiymətlərilə uyğunlaşdırmaq qeyri-mümkündür. Çünki azad ticarətdə alış qiymətləri daim dəyiş-

məkdə olacaqdır. Bütün istənilən hallarda Qafqaz mallarının Almaniyada azad satışı istisna təşkil edir. Yalnız bir çıxış yolu qalır ki, Almaniyada olan kartellər Qafqazda öz filiallarını təsis etsinlər, onlara rəhbərlik etsinlər və ölkə daxılinidə ayrı-ayrı yerli tacirləri birlikdə işləməyə məcbur etsinlər. Hər halda, Ukraynda olduğu kimi bu vəziyyətdən qaçmaq zəruri ola bilərdi, dövlətdən dövlətə tədarük həyata keçəndə bunun nəticəsində fövqəladə çətinliklər və məhsulların alışı və çatdırılması prosesinin ləngiməsi meydana çıxırdı, dövlət ayrı-ayrı tacirlərdən kifayət qədər məhsul almaq iqtidarına malık olmadığı təqdirdə o, müsadırəyə keçməyə məcbur olacaqdır. Ölkədə təşkilati işlərin pis olması nəticəsində mallar hədər yerə izsiz yoxa çıxır.

Beləliklə, pis rabitə şəraiti və ayrı-ayrı sənayeçilərin təsərrüfatlarının kiçik olması səbəbindən sənayeçilərlə bilavasitə əlaqə qurmaq mümkün deyildir, daha böyük alman təşkilatına tələbat olduğundan kartel nümayəndələri və tanınmış etibarlı yerli ticarət firmaları arasında yalnız azad ticarət qalır.

Bundan əlavə, belə hallar bizi yerli ticarət firmaları ilə dərhal düşmən edərdi. Buna görə də bir neçə Qafqaz cənabları tərəfindən idxal və ixrac üzrə alman-qafqaz bankını təzşkil etmək təklifi irəli sürülmüşdür. Bu bank əsasən ölkə məhsulunun hazırlanması və ölkədə alman mallarının yayılması ilə məşğul olmalı idi və bu yolla alman kartel nümayəndələri ilə bilavasitə işləyə bilərdi.

Belə bir bankın şübhəsiz, inhisarlara bəzi hücumları ola bilərdi. Lakin onu hökumətin təsirindən kifayət qədər azad etmək, sırf kommersiya əsasını qoymaq və yalnız onunla işləmək öhdəliyini qətiyyən öz üzərinə götürməmək zəruri olardı. Bank bütün mal ehtiyatlarının daha mühüm hissəsini əlində toplamaqla öz maliyyə qüdrətilə qiymətlərə yaxşı təsir edə bilərdi, o, ehtiyatlarını alverçiliyə və alınıb-satılma zamanı qiymətlərin kəskin artdığı bir vaxtda bazara çıxara bilərdi (bununla mən əsa-

sən Braziliya qəhvəsini, qiymətlərin sabitləşməsini nəzərdə tuturam). Belə ki, bank işgüzar həyata kifayət qədər təsir etmək iqtidarında olan alman kapitalının mühüm hissəsinin iştirak etdiyi təqdirdə bu məsələni yerinə yetirə bilər.

Belə bir mülahizə mənə şübhəsiz, əlverişli görünür. Hazırda Almaniya üçün gərəkli olan xammal tədarükü ilə yanaşı sülhün başlanması ilə Qafqaz ərazisində iqtisadi münasibətdə Almanıyanın möhkəm durması üçün dinc iqtisadiyyatın hazırlanması əsas məsələ kimi hərbi iqtisadiyyat qarşısında durur.

Müvafiq tərzdə işləmək imkanının olması və ilk növbədə müxtəlif kartel nümayəndələri ilə vahid rəhbərliyi həyata keçirmək üçün Qafqaz ərazisində alman hökuməti təşkilatının,daha doğrusu imperiya iqtisadiyyat idarəsinin olması vacibdir. Bu da bütün məsələləri vahid tərzdə hərbi və siyasi orqanlarla razılıq əsasında həll etməyə imkan verəcəkdir. İmperiya iqtisadiyyat idarəsinin nümayəndəsi kimi ilk növbədə Münhendə Bavariya imperator dairə xidmətinin nümayəndəsi Karl Avqust Fişeri nəzərdə tutmaq daha münasib olardı. O, Qafqazda uzun müddət olduğundan oradakı vəziyyətlə yaxşı tanışdır, hazırda qafqazlılar və xüsusilə də alman kolonistləri arasında kifayət qədər məşhurdur. Bu alman dövlət orqanı əleyhinə casus timsalında Qafqaz dövlət orqannını qoymaq məsləhət olardı. O, bütün münasib məsələləri Qafqaz tərəfindən həll edəcək, alman imperiya iqtisadiyyat idarəsinin orqanı ilə fasiləsiz qarşılıqlı münasibətdə olacaqdır. Bu məqsədlə mənə elə gəlir ki, hazırda Berlində olan professor Bernşteyn bizə gərəkli ola bilər. O, anadangəlmə alman təbəəsidir. Müharibədən əvvəl Qafqaz vətəndaşlığını qəbul etmiş və hazırda gürcü parlamentinin deputatıdır. O, şübhəsiz, Almaniyada və həmçinin, Qafqazda vəziyyətə yaxşı bələddir. Beləliklə, onun sayəsində Qafqaz hökuməti tərəfindən iqtisadi sahədə nizamlı və lazımi işi təmin etmək imkanı yaranır.

Bundan əlavə, Almaniya-Qafqaz mal mübadiləsinin inkişafı üçün Qafqazda valyuta ilə bağlı vəziyyəti ən yaxın zamanlarda qaydasına qoymaq vacib görünür. Daha doğrusu, Almaniya Qafqaz dövlət bankı təşkilatında əməkdaşlıq və sonuncunun ticarət əməliyyatında iştirak etməli idi. Qafqazlılar öz valyutasının əsasına marka qoymaq fikrindədirlər. Bu da qiymətlərin dəyişməsinə səbəb ola bilər. Bunun sayəsində isə Almaniya-Qafqaz ticarəti üçün bir sıra bəsitləşdirmə və yüngülləşdirmə həyata keçirə bilər.

Lakin qafqazlılar deyəsən, Qafqaz markasının alman markası ilə elə sıx əlaqədə olması fikirini dəstəkləyirlər ki, onun dəyəri alman markasının dəyərinə dinc vaxtda da bərabər olsun.

Daha sonra ölkənin iqtisadi vəziyyətini şərh edərkən aşağıdakıları da əlavə etmək lazımdır. Almaniya təsiri altında olan Qara dənizdəki bütün limanlarda müntəzəm dəniz əlaqəsi yaratmaq gərəkdir. Həmçinin nəşr işini təkmilləşdirmək və əldə etmək imkanı da olmalıdır. Eyni zamanda alman, gürcü və ya rus dillərində çıxan bir sıra qəzetlərin təşkili də lazımdır. İndi alman dilində çıxan bir sıra qəzetlərin təşkili də lazımdır. İndi alman dilində çıxan yalnız bir qəzet - "Kavkasische Post" vardır.

Əldə olunan məlumatlara görə alman dili çox yayılmışdır (Qafqazda 20-25 minə yaxın alman kolonisti yaşayır). Deməli, Qafqazda alman dlini uzaqlara daha asanlıqla yaymaq olardı.

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 6472***
***s.100-106***

***

## № 33

Hərbi Nazirlik 19 iyul 1918-ci il, Berlin
№ XV 983/A18
A 18
İmperiya iqtisadiyyat idarəsinə
Rabitə zabiti O.P.Berlinə
Cənab mayor fon Bergesə

Keçmiş rus imperiyası üçün çox maraq kəsb edən əraziləri sırasına Qafqaz da daxildir, yüzillik qəflət yuxusundan oyanan və öz təbii ehtiyatlarının istismarını gözləyən və Avropa mədəniyyətini tətbiq edən şəksiz zəngin dövlətdir.

Bütün sərhəd ərazilər kimi rus hökuməti Qafqazla da ögey rəftar edirdi. Qafqaz fəth edildiyi vaxtdan rus məmurluğunun gözdən düşən ünsürləri üçün fəaliyyət meydanı rolunu oynayırdı. Bu ünsürlər oraya "kulturtreger" timsalında, çox zaman isə, sadəcə olaraq sürgünə göndərilirdilər. Tam istila edilməmiş xalqın son anda üsyan etməməsi üçün bir xalqı digər xalqa qarşı qoyurdular və iş rus hökumətinin təhriki ilə erməni-azərbaycanlı ədavətinə gəlib çıxırdı: bunun sayəsində bu iki millət indiyədək qatı düşməndir.

Qafqaz ərazisi Qafqaz dağ silsiləsi ilə demək olar ki, iki bərabər hissəyə: Şimali Qafqaz və Transqafqaza bölünür. Şimali Qafqaza Kuban və Terek kazaklığı və Stavropol quberniyası daxildir. Ərazisi 225 000 kv. km, əhalisi isə 4 mln. nəfərdir. Transqafqaza Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutais quberniyaları, Dağıstan, Kars, Batum və Qara dəniz əyalətləri və Zaqatala dairəsi daxildir: sahəsi 250 000 km., əhalisi isə 7,5-8 mln. nəfərdir. 475 000 kv. km, daha doğrusu, Almaniyadan 65 000 kv. km. kiçik olan ərazidə 12 mln. nəfər yaşayır.

Qafqaz Qara və Xəzər dənizləri arasında yerləşir, daha doğ-

rusu, qısa yolla Avropanı Asiya ilə birləşdirir və gələcəkdə Türküstan, Buxara, Xivə və Şimali İranla əlaqədə mühüm keçid stansiyası rolunu oynayacaqdır. Əgər biz Dəmir darvazalar yaxınlığında Dunay gəmiçiliyində çətinlikləri aradan qaldıra bilsək, onda biz bu ölkələrlə birbaşa rahat əlaqə əldə edə bilərik. Onlar bizim üçün həm satıcı, həm də alıcı kimi maraq doğururlar.

Qafqazın öz inkişaf etmiş dəmiryol əlaqəsi vardır. Lakin o, müharibə zamanı genişləndirilmişdir və daha da genişləndirilməsi mümkündür. Müharibənin əvvəlində yalnız Vladiqafqaz dəmiryolları və Tarnsqafqaz dəmiryolları istismar edilmişdir. Birinciyə Rostov-Don-Bakı və Rostov-Don-Novorossiysk, sonuncuya Bakı-Tiflis-Batum, Tiflis-Kutais-Poti, Tiflis-Kars-Sarıqamış və Tiflis- İrəvan-Culfa məntəqələri daxildir. Müharibə zamanı Mozdok-Qudermes, Culfa-Təbriz, Maku və Ərzuruma qədər dəmiryolları çəkilmişdir. Kaxetiya məntəqəsi tikilməkdədir. O, Tiflisi Kaxetiya şəhərləri ilə birləşdirməlidir, Novorossiysk-Batum Qara dəniz xətti, Armavir-Maykop və həmçinin, Şuşa-Şamaxı-İrəvan xətti də çəkilir.

Nəhayət, Tiflis-Vladiqafqaz dəmiryolunun tikilməsinə də razılıq verilmişdir. Bu yol dağlardan keçərək Böyük Qafqaz sıra dağları vasitəsilə qısa yolla Şimali Qafqazı Transqafqaza birləşdirəcəkdir. Bu xətt Vladiqafqaza gedən yolu 1300 km qısaldır. Belə ki, bu iki şəhəri birləşdirən və yeni dəmiryol xətti istiqamətində keçən Hərbi Gürcüstan yolunun uzunluğu cəmı 220 km-dir. Bakı ərazisində dağları aşan indiki dəmiryolunun uzunluğu 1500 km-dir.

Araqva və Terek çaylarının şəlalələrindən mənim yaddaşıma görə 25-30 mln.at gücündə elektrostansiyanın tikilməsi planlaşdırılır. Hesablanmışdır ki, bu stansiyalarda əldə olunan cərəyandan nəinki bütün Qafqaz üçün və hətta ona yaxın olan əyalətlər üçün də istifadə etmək olar.

Şimali Qafqaz Kuban və Terek kazakları ilə məskunlaşmış-

dır. Belə ki, onun əvvəlki xalqları dağlara sıxışdırılmış, fəqirlərə çevrilmişlər və çox zaman aclıq onları qaçaqlığa getməyə məcbur edirdi. Buna görə də dağlılar kazakların qatı düşmənləridir, onlar odla və xəncərlə bu işğalçıların məskənlərini məhv edirdilər. Kazaklar da onlara eyni cavabı verirlər. Deməli, Qafqazın fəthi hələ ki, başa çatmamışdır.

Əhali əsasən əkinçilik və maldarlıqla məşğul olur. Elə bil ki, bu düzlərin məhsuldar torpaqları kənd təsərrüfatı üçün yaradılmışdır. Şimali Qafqaz klassik aqrar ölkəsidir. Kuban və Terek kimi iri çayların köməkliyi ilə becərilir və məhsulsuzluğun nə olduğunu bilmir. Daha çox məhsullar Stavropol quberniyasında yetişdirilir. Əsas məhsulu buğdadır, çovdar çörəyi heç yoxsul təbəqəyə də məlum deyil. Müharibəyə qədər taxılın böyük hissələri Novorossiysk limanından hər il ixrac edilirdi. Dreyorus, Ştempel və bu kimi iri taxıl ixracatlarının burada öz kontorları var idi.

Transqafqaz azərbaycanlıları (türklər), gürcülər, ermənilər və digər dağlı xalqları məskunlaşdırır. Azərbaycanlılar nisbətən çoxluq təşkil edirlər. Onlar eyni dinə mənsub olan qohum dağlı tayfaları ilə birlikdə təqribən 2 500 000 nəfərdirlər. Gürcülər və ermənilər də 2 mln. nəfər, dağlı xalqları 1 mln. nəfərə yaxındırlar, 1/2-dən 3/4 mln.-a qədər isə rusların payına düşür. Rus statistikləri rusların sayının daha çox olduğunu göstərirlər. Lakin bu, düşünlmüş şəkildə edilirdi.

Azərbaycanlılar əsasən Bakı və Yelizavetpol, qismən isə İrəvan və Kars quberniyalarında, ermənilər - İrəvan və Kars quberniyalarının çox hissəsində, qismən Tiflis quberniyasında, gürcülər isə Tiflis quberniyasnın çox hissəsində, Kutais quberniyasında və Batum əyalətində məskunlaşmışlar. Bu minvalla ermənilər Ermənistan yaylasından enərək azərbaycanlılar və gürcülər arasında yerləşmişlər. Dağıstan əyalətində dağlılar: çeçenlər, ləzgilər, darginlər, inquşlar, kabardinlər, çərkəzlər və

osetinlər; Qara dəniz sahillərində isə yunanlar, türklər və azərbaycanlılar yaşayırlar.

Taransqafqazda yaşayan xalqlar əkinçiliklə məşğul olurlar. Burada cüzi də olsa buğda, arpa, qarğıdalı və digər dənli bitkilər yetişdirilir. Bunun müqabılində isə Transqafqazda üzüm tənəkləri becərilir və buradan Fransaya həm tünd kaxet, həm də yüngül svan şərabları ixrac edılir. Bu şərablar orada yerli növlərlə qarışdırılır və hasil olunan "əsl" Bordo və burqund şərabları bütün dünya ölkələrinə çıxarılır.

Buna görə burada böyük miqdarda çaxır daşı vardır ki, onu da asanlıqla bizim kimya sənayesində istifadə etmək üçün çıxarmaq olar. Bundan əlavə, ölkədə həddən artıq çox təbii ehtiyatlar vardır.

Mis iki irı yataqlardan - Batum ərazisində (Simens qardaşları) Kvartsxan və (ingilislərin) Dzendul və müxtəlif qismən kiçik, Kutais quberniyası və Batum əyalətinin yataqlarından çıxır. Tiflis quberniyasında da mis filizi yataqları vardır. Transqafqaz həmçinin gümüş, sink və dəmir filizləri ilə də zəngindir, Alaverdi rayonunda eyniadlı irı dağ sənayesi cəmiyyəti bu filizlərin çıxarılması ilə məşğuldur.

Manqan filizi ehtiyatları Kutais qubernıyasında Çiaturi rayonunda cəmlənmişdir. Qismən mühüm yataqlar Gelzenkirxen cəmiyyətinin ıdarəsi altındadır. Lakin manqan filizinin əldə edilməsi gürcülərin əlində olan xırda mədənlərdə də həyata keçirilir. Tiflis quberniyasında manqan filizi mədənləri də aşkarlanmışdır və 1914-cü ildə Vitkovitser Eyzenverk firması və Kruppun səhmdar cəmiyyəti arasında manqan filizi tapılan torpaqların alınması barədə danışıqların böyük rolu olmuşdur.

Bakı neft mədənləri hamıya məlumdur; Qroznı və Maykop neft mədənləri nisbətən kiçik və quyu üsulu ilə hasil edilən bir sıra xırda neft mədənləri isə lap az məlumdur.

Qoyunçuluq sahəsi çiçəklənməkdədir. Bır sahibkara mənsub olan 5000-10000 baş qoyun sürüsünə tez-tez rast gəlmək

olar: buna görə də yun, Qafqazda yun yuyanların olmaması ucbatından çirkli də olsa, ixracın əsas məhsullarından biridir. Qafqaz Rusiyaya yüksək keyfiyyətli qoyun pendiri ixrac edir.

1910-1914-cü illərdə rus hökumətinin suvarma şəbəkəsi çəkdiyi Muğan düzü və Yelizavetpol quberniyalarında mühüm pambıq sahələri vardır. Onlar da Rusiyanın pambıq ehtiyacının 20%-ni ödəyir. Suvarma sisteminin səmərəli inkişafı ilə məhsuldarlığı artırmaq da olar.

Tiflis və Yelizavetpol quberniyalarında ipəkçilik inkişaf edir. Bu da Moskva ipəkəyirmə fabrikini xammal ilə təmin edir. Qara dəniz sahillərində, xüsusilə Suxum rayonunda tütün becərilir; bu tütün Rusiyaya "türk tütünü" növü altında ixrac edilir və keyfiyyətinə görə heç də türk tütündən geri qalmır.

Batum əyalətində Çakvanın məşhur çay plantasiyaları vardır. "Narzan" və "Barjom" mineral suları isə təkcə Rusiyada deyil, hər yerdə məşhurdur. Şaftalı, ərik, gavalı və s. meyvə konservlərini İrəvan quberniyası və Dağıstan tədarük edir; dinc vaxtda 1 kq-lıq bankanın qiyməti 16 qəp idi.

Qara dəniz sahillərində əhali delfin tutmaqla və balıq yağı əldə etməklə məşğuldur, yağ Odessadan Rusiyaya ixrac edilir. Ov mərhələsinin nəticəsi 10-12 pudluq 100 çəlləklərlə, daha doğrusu, 180000 kq hesablanır.

Bu qısa icmaldan Qafqazın nə qədər zəngin ölkə olduğu və insanın işgüzar fəaliyyəti üçün neçə imkan açdığı aydın görünür. İstər-istəməz onu öz tərəfimizə çəkmək və təsir altına salmaq fikri ortaya çıxır. İndi bu fikri həyata keçirmək ani gəlmişdir və ondan artıq bu gün istifadə etmək lazımdır, sabaha təxirə salmaq olmaz: belə əlverişli imkan bir daha təkrarlanmaya bilər.

İngilislər və fransızlar artıq çoxdan, müharibə başlandıqdan dərhal sonra Gürcüstanın qədim paytaxtı və Qafqazın müasir paytaxtı olan Tiflisdə ingilis-rus və fransız-rus bürosu təsis etmişdilər. Bunlar da sözdə və əməldə Antantanın xeyrinə təbliğat aparırlar.

İctimai fikri formalaşdırmaq üçün ingilislər “Respublika” və “Qafqaz sözü” (“Kavkazskoe slovo”) (erməni istiqaməti) qəzetlərini öz tərəflərinə çəkə bildilər.

Lakin bizim fəal düşmənlərimiz sırf siyasi fəaliyyətlə kifayətlənmirdilər. Onlar xammalı, xüsusilə mis və manqan, pambıq, yun və ipək alır və onları dəniz yolu ilə Bakı və Rəşt vasitəsilə və quru, Culfa-Təbriz dəmiryolu ilə İrana göndərməyə çalışırlar.

Böyük xalq kütlələri Rusiyadan tamamilə ayrılmağa və Qafqaz Federativ Respublikasının yaradılmasına tərəfdardırlar; ermənilər ingilis protektoratlığı, azərbaycanlılar və gürcülər, həmçinin dağlılar isə əksinə, Mərkəz dövlətlərin protektoratlığının tərəfdarı olmağa üstünlük verirlər. Eyni zamanda türklər barəsində heç eşitmək də istəmirlər və hamısı bir nəfər kimi Batum, Kars və Ərdəhanın təslim olmasından hiddətlənirlər. Və onlar haqlıdırlar, belə ki, türk iqtisadiyyatı rus iqtisadiyyatına nisbətən daha pis adla tanınır.

Belə bir şəraitdə bacarqlı təşviqatla qəzetləri, məsələn “İntibah” (“Vozrojdeniya”) qəzetini (bu qəzet onsuz da alman meylli köklənmişdir, belə ki, o, gürcü burjuaziyasının fikrini ifadə edir) öz təsiri altına almaq yolu ilə Antantanın nüfuzunu iflic vəziyyətinə salmaq və Qafqazı öz tərəfimizə çəkmək üçün real imkanlar meydana çıxır. Bu məqsəd üçün cəhd göstərməyə dəyər!

Lakin ingilislərin bütün əhalini öz tərəfinə çəkməsini və mühüm xammalın ölkədən çıxarılmasını gözləmək lazım deyildir. Vaxt gözləmir.

İmza

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 4393***
***s. 106-111***

***

**№ 38**

Məhdud cavabdehliklə 26 iyul 1918-ci il
Avropa ticarət birliyi
Bremen Timmerdorferştrasse Lyubek r-nu
Cənab məxvi müşavir doktor Gerretə
Xaricə İşlər Nazirliyi
Berlin,Vilhelmştrasse, 75

Çox hörmətli cənab məxfi müşavir!

Mən Xaricə İşlər Nazirliyinə 1 iyul tarixdə göndərdiyim sorğuya bu vaxta qədər cavab almamışam. Bu arada bizə Tiflisdən cənab Meyerkortun nümayəndəsindən 30 iyun tarixli hesabat gəlib çatdı. Burada aşağıdakılar deyilirdi:

"23 iyun, bazar günü, səhər biz, Potiyə çatdıq. Liman xoş təəssürat bağışlayır və suya oturma dərəcəsi 21 futa qədər olan çoxlu gəmiləri qəbul edə bilər; hətta bizim "General" paroxodu da sahilə yanaşa bilmişdir. Rels yolları bir neçə anbarın yerləşdiyi sahilə demək olar ki, çatır. Bazar ertəsi, iyunun 24-də biz Tiflisə yola düşdük və elə həmin axşam oraya çatdıq.

Siyasi vəziyyət barədə hərbi nümayəndələr Berlinə məlumat verəcəklər. Mən onu, tamamilə, dolaşıq hesab edirəm. Yeni azərbaycanlı respublikası olan Azərbaycan öz paytaxtı Yelizavetpol ilə birlikdə türklərin əlindədir. Onlar Gürcüstan respublikasına hər növ ixracı qadağan etmişlər. Şərqi Qafqazda zəngin dənli bitki məhsulları vardır. Lakin hələ bir çox sahələrdən məhsul yığılmamışdır: belə bir vaxtda, burada, Tiflisdə 1 funt çörək 5 rubldur. Aydındır ki, belə bir vəziyyətə çox dözmək olmaz. Srağa gün türklər Potidən şimalda Suxum yaxınlığına da çıxarıldı. Bu, Almaniyanın maraqlarına o qədər ziddir ki, mən bu məsələdə siyasətimizin necə olmasını heç aydın təsəvvür edə bilmərəm.

Qısaca olaraq iqtisadi vəziyyət barədə məlumat verim. Poti-Yelizavetpol dəmiryolu qaydasındadır, Potidən gürcü sərhədinə qədər olan bütün stansiyalarda çox da böyük olmayan alman qarnizonları yerləşər. Vaqon və paravoz kifayət qədərdir, yanacaq (neft) çatışmır.

Ərzaq məhsullarının və ilkin tələbat mallarının qiyməti ağlasığmazdır. Hər yerdə alverçilik hökm sürür. Alverçilər təbəqəsi meydana gəlmişdir. Onların fəaliyyət tərzi son həddə çatır. Səhərdən axşama kimi mənim yanıma mehmanxanaya (bu vaxta qədər mən özümə mənzil tapa bilməmişəm; Tiflisdə əvvəllər 300 000 nəfər yaşadığı halda, indi şəhər əhalisi 1 mln.-a çatır) yun, pambıq, ipək və s. almağı təklif edən şəxslər gəlir. Bununla belə söhbət qiymətləri 30%-dən 100%-dək hüdudlarında qalxıb enən elə həmin mallardan gedir. Məsələn: pambığın hər pudu 115-120 rubl, yunun hər pudu 80-140 rubl, ipəyin hər pudu 4300-5000 rubl, qurudulmuş qoyun dərisinin dənəsi 5,50-7 rubldur.

Mən təmkinimi hələ saxlayıram, makler və alıcılara çatdırmaq istəyirəm ki, əldə olan xammallar barədə dəqiq məlumatım var və mən ancaq mal sahibkarları ilə danışıqlar aparacağam.

Pambıq demək olar ki, Yelizavetpol və əyalətlərində cəmlənmişdir, ümumi miqdarı təqribən 800 000 puddur. Cənab Vinkler buraya gələn kimi mən onunla Azərbaycan Respublikasında türk rezidenti olan Nuru bəylə (Ənvər Paşanın qardaşı), mənim tərəfimdən Kopolidə bağlanan saziş əsasında ixrac məsələsi barəsində danışıqlar aparmaq üçün Yelizavetpola gedəcəyəm; mənim vasitəçim danışıqlar üçün hazırlıq işləri aparır. Mənim aldığım pambıq azərbaycanlılara və ermənilərə məxsusdur; ermənilərə məxsus olan mal hissə-hissə Azərbaycan Milli Şurası tərəfindən müsadirə edilmiş və aparılmışdır. Mövcud hərc-mərclik şəraitində yerli hökumətin köməyi və yardımı olmadan mənə hərəkət etmək çətindir. Şərait aydınlaşana qədər mən Gürcüstan Respublikasında və ilk növbədə Tiflis ərazisin-

də olan malların alışı ilə kifayətlənməli olacağam.

**Yun.** Mən cənab fon Ştukenə Moskvadan gələn məktubu çatdırdım və onunla, təşkilatının mənə işləməsi, yaxşı anbar sahələrinin, həmçinin tələbatı böyük olan bahalı, qablaşdırılmış material ehtiyatlarının mənim sərəncamıma verilməsi şərtini kəsdim. Anbar vağzal yaxınlığında yerləşdiyindən gündəlik məhsulun dərhal göndərilməsi üçün geniş imkan açır. Mən anbarda 100 000 rublluq yun saxlamaq istəyirəm. Burada saxlanılan artıq məlum 3500 pud yun payına cənab Xesloopla birlikdə baxdıqdan sonra mən (hesabat əlavə olunur) malı əvvəllər özgə hesabına satılan qiymətə aldım.

İndiki zamanda bundan aşağı qiymətlə almaq qeyri-mümkündür; preslənmiş yunun 1 pudunun qiyməti 80 rubla bərabərdir. Bundan əlavə, presləşdirilmiş və qablaşdırılmış materialın hər pudu 34 rubldur (8 saat işləməli olan fəhlə 5 saatdan artıq işləmir, 25 rubl alır). Tayların anbardan dəmiryol xəttinə qədər (1/2 km-ə yaxın) daşınması hər puda 50 qəpikdir, uzaq kənddən preslənmiş yunun daşınması hər puda 15 rubldur. Bundan sonra, mən preslənmiş yun alacağam, keyfiyyətinə və qablaşdırmaya nəzarət etmək üçün onları özüm presləyəcəyəm; bu, burada mövcud olan saflıq və düzlük anlayışları şəraitində xüsusilə vacibdir.

74 nömrəli teleqramımda mən Sizə hər pudu 90 rubl olan 3500 pud çirkli yunun alınması haqqında məlumat vermişəm. Hərbi mühafizə altında 5 vaqon (3000 puda yaxın) bu gecə Potiyə göndərilmişdir. Nəqliyyat fakturaları ilə bu gün Potiyə, həmçinin, növbəti yüklənmələri müşahidə etmək üçün qulluqçu da gəlmişdir. Hərbi hökumət dairələri ona lazımi dəstək göstərəcəklər. Mən Konstantaya yola düşən birinci alman paraxoduna malın dərhal yüklənməsi sərəncamını verdim və xahiş edirəm ki, malın sonrakı göndərişinə nəzarət edəsiniz. Həmçinin, mən Sizdən xahiş edirəm ki, ayrı-ayrı malların növbəti hissələrinin yüklənməsinin necə gedəcəyini, necə veriləcəyini və sə-

nədlərin haraya göndəriləcəyi barədə mənə məlumat verəsiniz. Yüklənməyə nəzarət etmək üçün gələcəkdə mənə cənab Landsberq lazım olacaqdır.

Nəqliyyat məsələsini praktiki olaraq həll etmək və gürcü hökumətinin ixrac mallarına rüsum tətbiq etmək fikrində olması barədə şayiələrin həqiqətə uyğun olmasını aydınlaşdırmaq üçün imkan daxilində sınaq partiyasını tezliklə göndərmək çox vacibdir. Sınaq partiyasının çatdırılması zamanı onun keyfiyyəti, yuyulma nəticələri barəsində mənə tezliklə məlumat verməyinizi Sizdən xahiş edirəm.

**Maliyyələşdirmə.** Cənab İqrovski haqq götürmədən malı mənə verdi: "Mən indi cənab Finkeni gözləyirəm, o, pul gəirməlidir..."

Belə zənn edirəm ki, bu hesabatlar Sizə maraqlı olacaqdır. Belə ki, onlarda Tifilisin iqtisadi vəziyyətinin dəqiq təsviri əks olunmuşdur. İyulun 1-də mən Sizə Aleksandropol-Təbriz-İrəvan dəmiryolu barəsində məsələyə dair türklərin mövqeyinə şübhəmiz olduğunu yazdığım halda , indi belə bir yeni sual meydana çıxır, Azərbaycana münasibətdə bizim mövqeyimiz necə olacaqdır? Siz hesabatdan görürsünüz ki, türk rezidenti hər növ ixracı qəti surətdə rədd edir. Digər tərəfdən, ipək və pambığın əsas ehtiyatları məhz Yelizavetpol dairəsində və İrəvan yaxınlığında yerləşir. Cənab Meyerkort onunla kömək etdi ki, İstanbuldan çıxmazdan əvvəl o, Hakkı Paşa ilə müqavilə bağladı. Məzmunu isə hələ ki, mənə məlum deyildir. Beləliklə, biz türklərdən asılı vəziyyətdə fəaliyyət göstəririk.

Hazırda Yelizavetpol vasitəsi ilə gürcü sərhədindən Bakıya qədər olan dəmiryolu türklər tərəfindən zəbt edilmişdir. Bununla belə, Qara və Xəzər dənizləri arasında körpü bizim üçün itirilmişdir. Bu, bizim Türküstana dair gələcək iqtisadi siyasətimiz üçün faciəli ola bilər. Əlverişli şəraitdə Türküstanla münasib müqavilə bağlana bılərdi.

İndi Bakı bizim üçün qapalıdır. Meyerkortun məlumatı ilə

bağlı bizim adamlardan biri Bakıda arxada aşkar olunmuş malların bizim üçün saxlnılmasından ötrü ora yola düşür. Lakin bu, bizə sırf şərq ruhunda ixrac üzərində lisenziya bahasına başa gələcəkdir. Türk funtu ilə ödəmək lazım gələcək ki, bu da bizim üçün əlverişli deyildir.

Bu məsələlərin açıqlanması bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə də Siz Xarici İşlər Nazirliyində hansı xətti tutmaq fikrində olduğunuzu mənə bıldirsəniz minnətdar olaram. Bu, mənə adamlarımıza təminat vermək üçün gərəkdir. Arxayın ola bilərsiniz ki, Sizin məlumatlardan yalnız mən istifadə edəcəyəm və bürodakı cənablarımızdan heç birinə göstərilməyəcəkdir. Onda mən tədarük siyasətimi Sizin siyasətinizə uyğun şəkildə quracağam, daha doğrusu, cənab Meyerkortu saxlaya, yaxud qova, Ermənistanda Azərbaycana nisbətən daha çox tədarük etməyə məcbur edə bilərəm, yaxud da ki, əksinə.

Siz mənə bir neçə sətirlə işarə versəniz, qeyd etdiyim kimi, mən Sizə artıq dərəcədə minnətdar olacağam; bununla yanaşı, mən Sizin diqqətinizi belə bir cəhətə yönəltmək istərdim ki, bizdə az olan xammalla monarxiyanı və bizi təchiz etmə işində hər cür yubanma fəlakətli ola bilər və ən mühüm mənafelərə toxunulduğu təqdirdə ləngiməyə bəraət qazandırıla bilər.

Təəsüf ki, mən hələ müəyyən müddət burada qalmaq məcburiyyətindəyəm. Lakin yenidən qeyd etmək istəyirəm ki, Siz mənimlə belə mühüm məsələlərlə bağlı söhbət etmək istəsəniz Berlinə gəlməyə həmişə hazıram.

Dərin ehtiramla, Sizə sədaqətli olan ***Loman***

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 3040***
***s. 114-118***

***

**№ 39**

**II surət HK Qafqaz 107**
**Teleqram**

Tiflis, 26 iyul 1918-ci il
Komandan, general-mayor Kress
Xarici İşlər Nazirliyinə

Növbəti SS 2013 radioteleqram "General"dan Konstansaya Berta üçün göndərilir.

Xarici İşlər Nazirliyi (23), Quru qoşunları Baş komandanlığı (6), Hərbi Nazirlik, Ərzaq və xammal şöbəsi üçün.

Hərbi Nazirlik, Ərzaq və xammal şöbəsi tərəfindən Qafqazda təsis edilən iqtisadi təşkilatın fəaliyyəti bu vaxta qədər nəticəsiz qalmışdır. Bunun əsas səbəbi hərbi ehtiyaclar üçün xammal işi ilə məşğul olan firmalarda müvafiq nümayəndələrin olmamasından irəli gəlir. Meyerkort firmasının Bremendə etibarlı adamı, pambıq, yun, ipək və qoyun dərisi ilə maraqlanan, hazırda tək ticarət nümayəndəsi olan Haberzanq tədarük edə bilmir. Belə ki, çox saylı müraciətlərə baxmayaraq, ona pul göndərilmir. Tütün, filiz, kauçuk, tərəvəz, meyvə, darı, şərab və s-nin tədarükü üçün təcili nümayəndə göndərmək lazımdır. Buradakı iqtisadi şöbənin aparıcı zabiti ticarət təcrübəsinin olmaması ucbatından uzun müddət ərzində ticarət sövdələşmələrini müstəqil şəkildə bağlamaq iqtidarında deyildır.

Tədarükün ləngimə səbəbi bu vilayətə pul əskinaslarının çatdırılmasında olan çətinliklərdən ibarətdir. Onlara olan böyük tələbatın alman valyutasnın dəyərini arzuolunmaz dərəcədə aşağı salmasından əlavə, böyük məbləğdə manatla tədarüketmə işi onların həqiqətən çatışmaması ucbatından çətinləşir. İndiki zamanda qarşıda duran yeni emissiyada əskinasların necə qarşı-

lanacağını qabaqcadan demək daha çətin olduğundan, mənə 10 milyon məbləğində kredit açan hökumətin pula olan ehtiyaclarını nəzərə alaraq verdiyi vədə tam şəkildə əməl etmək iqtidarında olması şübhə altındadır. Əgər biz Qafqaz xammalının mühüm hissələrini itirmək istəmiriksə, mən 5 mln. rubldan 10 mln. rubladək məbləğdə pul əskinaslarının Almaniyadan dərhal göndərilməsini təxirəsalınmaz məsələ hesab edirəm. Türklər 27 aprel tarixli müqaviləyə əhəmiyyət verməyərək bütün əlçatan ehtiyatları alırlar. Səfərlərimdən birində mən azərbaycanlılardan öyrəndim ki, Türkiyə Almaniyanı tədarüketmə imkanından məhrum etmək və qiymətləri qaldırmaq barədə Batumda Azərbaycanla razılığa gəlmişdir. Çox güman ki, İngiltərə də bu işdə Azərbaycan tacirləri ilə birgə iştirak edir.

Almaniyanın yerli bazara çıxara biləcəyi bütün məmulatların nümunələrinin dərhal göndərilməsi vacibdir.

***Kress***

Surətləri:
1. İmperiya iqtisadiyat idarəsinə
2. İmperiya xəzinədarlığına
3. İmperiya banklarının müdriyyətinə
4. Hərbi Nazirliyə
5. Ərzaq və xammal şöbəsinə
6. Cənab rabitə zabiti O.P., burada, Moltke-Ştarsse, 8, hamıya fərdi qaydada 1-dən 6-dək məlumat üçün böyük ehtiramla göndərilir.

İmza
Möhür

***Potsdam Mərkəzi arxivi,***
***fond 1-DR, sən. 4679***
***s. 118-119***

***

## № 45

Quru qoşunları
Baş qərargahı № OR 1/8

### 2 avqust 1918-ci il tarixdə gündüz saat 1:05-də alınmış teleqramın surəti

Kress iyulun 20-də Tiflisdən teleqraf edır (iyulun 26-da səfirlik tərəfindən ali hərbı komandanlıq, hərbı-dəniz idarəsi və ərzaq və xammal şöbəsi üçün alınmışdır).

İqtisadi təşkilatın Qafqazdakı fəaliyyəti bu vaxta qədər nəticəsiz qalmışdır. Bunun əsas səbəbi xammal tədarükü üzrə müvafiq firma nümayəndələrinin çatışmazlığından irəli gəlır. Tacir Haberzanq yun, ipək, qoyun dərisinin tədarükü üzrə Bremen, Meyerkort firmasının etibarlı nümayəndəsi kimı heç bir şey edə bilmir. Belə ki, çoxsaylı müraciətlərə baxmayaraq, ona pul göndərmirlər. Filiz, tütün, meyvə, tərəvəz, rezin, şərab və s. tədarükü üçün dərhal nümayəndə göndərmək lazımdır. Buradakı iqtisadi şöbə maliyyə vəsaiti və ticarət mütəxəssislərinin çatışmaması səbəbindən müstəqil şəkildə ticarət sazişləri bağlaya bilmir. Pul çatışmazlığının səbəbi belə bir şəraitdə rubl alınması zamanı meydana çıxan çətinliklərdən irəli gəlir. Onlara olan böyük ehtiyacın alman valyutasının dəyərini arzuolunmaz dərəcədə aşağı salmasına baxmayaraq, sonuncunun çatışmaması nəticəsində böyük məbləğdə manatla tədarük işi çox çətinləşir. Qarşıda duran yeni emissiyada əskinasların necə qarşılanacağını qabaqcadan demək daha çətin olduğundan, mənə 10 milyon məbləğində kredit verən hökumətin (pula olan ehtiyaclarını nəzərə alaraq) verdiyi vədə tam şəkildə əməl etmək iqtidarında olması şübhə altındadır. Əgər biz Qafqaz xammalının mühüm hissələrini itirmək istəmiriksə, mən 5 mılyon rubldan 10 milyon

manatadək məbləğdə pul əskinaslarının Almaniyadan dərhal göndərilməsini təxirəsalınmaz vəzifə hesab edırəm. Türklər brilliantları əldən alır və var-dövləti ələ keçirirlər. Onlar çox güman ki, 27 aprel tarixli müqavıləyə əhəmiyyət vermirlər. Yelızavetpola səfərim zamanı mən Azərbaycanın baş nazirindən öyrəndim ki, Batum sülhü zamanı Türkıyə Almaniyanın xammal imkanından məhrum etmək və qiymətləri qaldırmaq barədə Azərbaycanla razılığa gəlmişdilər. İngiltərə də bu işdə çox güman ki, Azərbaycan tacirləri ilə birgə iştirak edir. Son.

Rabitə zabiti O.P.
Berlın № 4935

Quru qoşunları Baş qərargahının rəisinə
Berlin NV 40, 7 avqust 1918-ci il, Moltkeştrasse 8
İmperiya İqtisadiyyat İdarəsinə
(cənab dövlət müşaviri fon Girkeyə)

Məzmununa görə elə bu instansiyaya Qafqaz Hərbi Komissarlığının 1918-ci ıl 27 iyul tarixli 114164, 107 №-li dərkənarı ilə üst-üstə düşən teleqram: “Tütün, meyvə, tərəvəz, şərab və s. almaq üçün nümayəndələrin göndərilməsi üzrə hansı tədbirlərin görülməsi barədə məlumat verilməsi xahişi ilə göndərilir”.

İmza: mayor ***fon Berges***

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 5268/18, v. 37***

***s. 125-127***

***

**№ 48**

Qafqazda alman nümayəndə heyəti İmperiya İqtisadiyyat İdarəsinə

Tiflis, 6 avqust 1918-ci il

**Məlumat**

Bakı türklər tərəfindən alınmış və Azərbaycan Respublikasına təhvil verilmişdir. Gərək ki, zavodlar dağıdılmamışdır. Bakı yaxınlığında yalnız stansiya qurğuları və təqribən 25 verst uzunluğunda Bakı-Batum boru kəmərinin rezervuarları məhv edilmişdir. Şəhərdə asayiş pozulmamışdır. Xəzər donanması Həştərxana getmişdir, Bakı qarnizonundan təqribən 7000 nəfər həlak olmuşdur. Bu da burada şiddətli döyüşün baş verməsini sübut edir. Türklər orduda xidmət edənlərdən başqa heç kəsi Kürdəmirdən buraxmırlar. Onlar ən ağır tədbirlərə əl atırlar və onları çağıran azərbaycanlılar artıq onlara nifrət edirlər. Biz hadisələrin gələcək inkişafını gözləməliyik. Lakin hadisələr gələcəyə pis proqnozlar verir. Boru kəməri Qafqazın üç dövlətində yerləşir. Bu gələcəkdə müharibəyə səbəb ola bilər. Üstəlik ruslar da əlbəttə ki, imkan daxilində məhz Bakı uğrunda silaha sarılacaqlar... Biz almanlar da, Batumun açarlarını türklərə hər hansı şərt olmadan verdikdə əlbəttə ki, heç nə ilə burada qaldıq, xüsusilə də türklər alman zavodlarını, alman mallarını ələ keçirəndə və onları sələmçi qiymətlərlə satanda belə söz deyə bilmədik. Burada yalnız kor olan adam görmür ki, hər iki tərəfdən məngənədə sıxılan Gürcüstan (hələ Ermənistandan danışmırıq) yaxın zamanlarda türklərin qamçısı altında qıvrılmağa məruz qalacaqdır. Onun nominal muxtariyyətinin olması da su-

al altında qalacaqdır. Yaxın gələcək üçün mən Qafqazda hələ bircə aydın gün görmürəm.

Şimali Qafqazda isə vəziyyət tam başqa cürdür. Orada kazaklar hökmranlıq edirlər, Vladiqafqazı mühasirəyə almışlar, monarxist əhval-ruhiyyəsindədirlər, çoxlu dənli bitkiləri, ətləri var, onlar burada mövcud olan qarışıqlığın və bahalığın nə olduğunu bilmırlər. Onlar bolşeviklərə nifrət edir və onlarla heç bir iş görmək istəmirlər. Onların çoxu əkinçi kəndlilərdir və kifayət qədər həmrəydirlər. Vladiqafqaz və Qroznı yaxınlığında dağlı inquşlar və osetinlər gürcülərlə yaxşı münasibətdədirlər. Onlar bolşevikləri qovmuşlar və kazaklarla mehriban münasibət saxlayırlar. Kuban vilayəti və Stavropolda onların ehtiyacı olan hər bir şey vardır və buna görə də heç nəyə ehtiyacları yoxdur. Dağıstanda yalnız köhnə rus pulları dövriyyədədir, onlar həcminə və dəyərinə görə Romanov pulları ilə eynidir. Romanov pulları yenə də bir neçə faiz çox dəyərlənir. Lakin, burada, Tiflisdə və Gürcüstanda Qafqaz bonları ilə iş görmək istəmirlər.

Təbii olaraq belə bir sual meydana çıxır. Bakıda olduğu kimi, əgər biz türklərə xüsusi güzəştlərə getsək, Qroznı və Maykop neftinə daha tez çatmarıqmı? Bakıda hələ də vəziyyət sabitləşməmişdir və biz burada mütləq sabotajla toqquşacağıq.

Qroznıdan Bakıya düzənlik boyunca Beslandan Armavırə qədər ikiqat dəmiryol xətti keçir. Armavirdən 190 verstin yarısından şərq istiqamətinə Maykop və onun neft rayonlarına 50 km dəmiryol xətti qol kimi ayrılır. Bakı və Batum arasında 842, Qroznı-Tuapse yalnız 632 versdirsə, onda Qroznı əlbəttə ki, həmişə Bakı ilə rəqabətə girə bilər. Lakin bunu da əlavə etmək lazımdır ki, Qroznı neftinin bolşeviklərlə döyüşlərin getməsi səbəbindən hazırki sakitlik hökm sürməyən kazak torpaqlarından keçdiyi halda, Azərbaycandan - 460 verst, Gürcüstandan - 350 verst, Türkiyədən 32 verstlikdəki Bakı neftninin (ruslar Bakını sakit buraxmayacaqlar) daşınmasına zəmanət vermək lazımdır. Mən burada dostu Çnertoyevi gözləyən knyaz Amilaxvari (on-

ların hər ikisi Qroznı neft sahələrinin icarədarlarıdır) ilə söhbət etdim. Onun sözlərinə görə Vladiqafqaz və Qroznıya hələ getmək olmaz, lakin tezliklə bu mümkün ola biləcəkdir. Şimali Qafqazda məhsul yaxşıdır, hətta təcrid olunmuş Vladiqafqazda 1 funt ağ çörək 1,5 rubla qədərdir (burada isə 7,5 rubl).

Növbəti poçtumda mən Sizə Qroznı barədə daha ətraflı məlumat verəcəyəm. Mən bu sətirlərin surətini cənab direktor Krafta göndərilməsini xahiş edirəm...

Böyük ehtiramla, Sizə sadiq olan

*X.Varneke*

**P.S.** Bu gün yenidən məlumat verilir ki, Bakının yalnız kiçik bir hissəsi yerli üsyançıların əlinə keçmişdir.

D.O.

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 9435***
***s.129-131***

***

**№ 49**

Berlində
Meklenburq-Şverin səfirliyi

Əlahəzrət İmperatora itaətkarcasına təqdim etmək üçün
Əlahəzrətin cənab dövlət nazirlərinin istifadəsinə
İnformasiya məlumatı № 80

7 avqust 1918-ci il

İstanbulda imperator səfiri avqustun 3-də ümumi siyasətimiz çərçivəsində Qafqaz məsələlərinə dair aşağıdakı məlumatları verir:

"Biz İngiltərə ilə indi həyat uğrunda deyil, ölüm uğrunda mübarizə aparırıq. Hər bir almanın öz şəxsi, siyasi dünyagörüşü nöqteyi-nəzərindən mühakimə edəcəyi, yaxud da ki, sevinclə alqışlayacağından asılı olmayaraq bu, danılmaz faktdır. Gözlənilməyən hadisə baş verməsə, onda müharibə belə qurtarmalıdır, ya Almaniya, ya İngiltərə tamamilə öz əvvəlki mövqelərini itirəcəklər. Hazırda dünyadakı vəziyyət, Tanrıya şükür olsun, bizə belə fikirləşməyə imkan verir ki, bu, İngiltərənin nəsibi olacaqdır. Bununla belə, biz, Böyük Britaniyanın bu taledən qaçmaq üçün bütün ağlasığan vasitələrə əl atacağına əmin olmalıyıq.

Lord Lensdaun ingilis məğlubiyyətinə qarşılıqlı anlaşma şəklində bəraət qazandırmaq istəsə də, öz həmvətənləri arasında tərəfdar tapa bilmir. Amerikalıların qarşılıqlı anlaşma və sülh bağlamaq cəhdi 1916-1917-ci illərdə xaricdə, uğurun yaxınlaşdığı bir vaxtda Vilsonun sehrbazlığı və digər səbəblər nəticəsində məğlubiyyətə uğradığı andan biz onunla hesablaşmalıyıq ki, dünya müharibəsi İngiltərənin tamamilə məğlub edilməsinədək davam etdiriləcəkdir. Tarix bizi öyrədir ki, İngiltərəyə qalib gəlmək problemi yalnız bir yolla, məhz bütün qitənin ingilis ağalığına qarşı quruda və suda birləşməsi yolu ilə həll oluna bilər. Böyük Britaniya çoxdan bilirdi ki, məsələ məhz belə qoyulmalıdır. Buna müvafiq olaraq ingilis xarici siyasətinin mahiyyəti İngiltərənin xeyrinə Avropa monarxlarını toqquşdurmaqdan ibarət idi. Dünya tarixi bizə şüurulu planın yalnız bir nümunəsini, İngiltərəyə qalib gəlmək üçün qitəni vahid şəkildə birləşdirməyi təqdim edir. Amma I Napoleonun bu dahiyanə fikri işğal etdiyi ölkələrin xalqları ilə sərt davranması və tabe etdirdiyi millətlərin xalq psixikasını tam qiymətləndirməməsi üzündən onun həddən ziyadə istilaçı ehtirası ilə toqquşub dağıldı. Elə oldu ki, qitədə ingilisləri Napoleon əsarətindən xilaskar kimi qəbul etdilər. Halbuki bugünkü icmalçı belə düşünməkdə haqlıdır ki, dünya üçün Napoleonun İngiltərənin dəniz qüvvələrini darmadağın

etməsi daha yaxşı olardı və qitə xalqları yalnız bundan sonra öz müstəqilliklərini əldə edə bilərdilər.

Hər halda, Napoleonun cəhdi baş tutmadı və onun bütün hərbi nailiyyətləri dünyada ingilis hökmranlığının möhkəmlənməsinə gətirib çıxardı. İndi biz görürük ki, Böyük Britaniyanın üç əsas tutduğu əli titrəyir. Onun tamamilə məğlub olacağı isə bəlli deyildir. Bəlkə, belə çox irsi müdriklıyi olan ingilis siyasi anbarında son anda vəziyyətdən çıxış yolu tapa bilən bir dövlət nümayəndəsi tapılacaqdır?! Napoleonun təcrübəsindən biz özümüz üçün nəticə çıxarmalıyıq. Əgər biz möhkəm iqtisadi bazanı təmsil edən kontinental blokadanı yarada və saxlaya bilsək, bununla yanaşı blokun ayrı-ayrı üzvləri burada özləri üçün mənfəəti görə bilər və ingilislərə alman hökmranlığından xilaskar kimi baxmağa daha ümid etməzdilər. Belə ki, qələbə bizimlə olmalıdır.

İndiki zamanda kontinental blokadanın genişlənməsi elə də perspektivli görünmür. Bunun nəticəsində imkan daxilində Yaponiya ilə separat sülhə nail olmaq yaxşı olardı. Belə bir sülh hər iki kontingentə böyük nailiyyətlər gətirə bilərdi, daha doğrusu, Rusiya ilə mövcud olan sülhü daha da möhkəmləndirər və çox güman ki, ABŞ-ın siyasi mövqeyini güclü surətdə dəyişə bilərdi. Cənab Vilson, onda təbiətinə xas olan pasifizmə qayıda bilərdi.

Göstərilmiş imkanla yanaşı, biz bütün səylərimizi Dördlər İttifaqının toxunulmazlığını saxlamağa və Rusiya ilə çətinliklə nail olunmuş sülhü möhkəmləndirməyə yönəltməliyik. Siyasətimizin bu ikibaşlı vəzifəsi bizim Qafqazda bu çərçivə daxilində fəaliyyət göstərməyimizi zəruri edir.

Batumda yeni siyasi məsələ ortaya çıxanda bizim Türkiyə ilə etimad əsasında qurulmuş münasibətlərimiz heç də əvvəlki kimi deyildi. Belə ki, müttəfiqlər bizi Buxarestdə Türkiyənin maraqlarını kifayət qədər müdafiə etməməkdə məzəmmət edirdilər. Doğrudur, biz Brest-Litovskda onlar üçün çox iş gördük.

Lakin bu iki paralel addımlar arasında heç bir əlaqə yoxdur, çünki türk xeyirxahlığını tezliklə tamahkarlıq əvəz etdi. Türklər daim işğalçı xalq olmuşlar, onlar müharibəni başqa məqsədlər üçün də aparılmasını heç cür təsəvvür edə bilmirlər. İndi onlar köklü düşmənləri olan rusların devrildiyi bir anda gələcəyi düşünmədən bu şəraitdən istifadə etməyə çalışırlar. Biz Batumda türklərə kömək edəndə onlar məğlub edilmiş Rusiya ilə hesablaşmağımızı əvvəlcə anlaya bilmədilər. Lap əvvəldən Qafqaz türklər üçün qanuni qələbə mükafatı hesab olunurdu. Hələ müharibəyə daxil olmazdan əvvəl onlar baron Vanhengeymdən yazılı şəkildə müvafiq təminatı ala bildilər. Qafqazda türk siyasətinin heç də Brest-Litovskda yaranmaması buradan aydın bəlli olur. Əgər biz Batumda yalnız Rusiyanın xatirinə maneə rolunu oynaya bilsəydik və öz iqtisadi tələblərimizi "vacib şərt" kimi irəli sürsəydik, onda türklərin əvvəldən mövcud olan və indi də qismən saxlanılan belə qıcıqlandırıcı münasibəti olmazdı. Burada kəskin vəziyyət bizim erməni və gürcü tərəfindən türklərə qarşı çıxmaqda və Qafqazda öz siyasi məqsədlərimizi güdməkdə məzəmmət edildiyimiz zaman başlandı. Böyük çətinliklə bu təəssüratı müəyyən mənada söndürməyə müvəffəq olduq. Əgər bəzi alman cənabları hədsiz cəhdlərinin qızğın çağında dilə gəlirsə, onda heç kim tam etibarsız gürcülər və Antanta əleyhinə qaldırılmış ermənilərin xatirinə sınaqdan uğurla çıxmış türk müttəfiqlərini itirməyə bizim razı olmağımız barədə ciddi olaraq düşünə bilməz. Düzdür, adı çəkilən hər iki xalq xristiandır, lakin biz həmişə Allah qarşısında ədalətli olmuşuq. Biz "müqəddəslik" şüarı altında başladığımız dünya müharibəsini xaç yürüşü ilə başa çatdıra bilmərik.

Müttəfiqlərimizlə hesablaşaraq, mənim fikrimcə, guya bizim Gürcüstan və Ermənistan tərəfində olmağımızı mütləq hiss etdirməmək vacibdir. Biz öz mövqeyimizi, xüsusilə iqtisadi maraqlarımızı və Rusiyanı nəzərə alaraq müəyyən etməliyik. Mən əminəm ki, biz iqtisadi məqsədlərimizə Türkiyə ilə düşmənçi-

lik deyil, əməkdaşlıq yolu ilə daha asan nail ola bilərik. Eyni şeylər, mənə elə gəlir ki, Rusiyaya da aid edilə bilər. Lakin biz Qafqaz xalqları tərəfindən çıxış ediriksə, onda özümüzü, eyni zamanda, hər iki tərəfi razı salmağa çalışmaq təhlükəsinə düçar edə bilərik. Doğrudur, biz Gürcüstana onun müstəqilliyini tanımaq vədini versək də, sonuncunu onun üçün qazanmaq vədini verməmişik. Düşmənlərimiz heç bir mənəvi cəhəti düşünmürlər. Baxmayaraq ki, onlar çox güman ki, məhz buna görə siyasi mənəviyyat barədə həmişə danışırlar. İngilislərin gözündə bütün millətlər - istər xristian, yəhudi, istərsə də müsəlman və buddist olsun - daim Britaniya işğal siyasətinin əsas silahı olmuşdur. Əgər ingilislər Dördlər İttifaqını dağıtmaq iqtidarına malik olmalarına əmin olsaydılar, onlar əvvəlcə əzizlədikləri Ermənistanı saya salmadan belə böyük məmnuniyyətlə Qafqazı türklərə hədiyyə edərdilər. İndi ingilislər Rusiyanı hər tərəfdən mühasirəyə almağa və bu yolla onu boğmağa çalışacaqlar. Rusiya yalnız üzüyola olsa və bizə müharibə elan etsə, bu zaman İngiltərə hörmətinə arxayın ola bilər.

Qısaca desək, hazırda türkləri Rusiya ilə hesablaşmağa inandırmağa müvəffəq olduq. Buna görə də bizim başlıca vəzifəmiz iqtisadi məqsədlərimizi saxlamaq şərti ilə, lakin Qafqaz xalqlarını hesaba almadan Türkiyə və Rusiya arasında birliyə nail olmaqdan ibarət olmalıdır. Biz İttifaqımızı təhlükə altına almadan Türkiyəni bu siyasət yoluna yönəldə bilərik. İstənilən başqa bir siyasət böyük təhlükəyə səbəb ola bilər və müvafiq nailiyyətlər vəd etmir. Yaşamağa qadir olan Ermənistanın yaradılmasına, mənim fikrimcə, türkləri heç vaxt yönəldə bilməyəcəyik. Biz öz məqsədlərimizə nail olmasaq da, türklərə münasibətdə istənilən repressiya əsas düşmən olan Britaniyaya qarşı birgə müharibənin gedişini çətinləşdirərdi. Bu halda türklər bizdən ya uzaqlaşa, ya da bizə qarşı adi passiv müqavimət göstərə bilərləri. Bu müqaviməti biz yalnız Qafqazda böyük hərbi qüvvələrin köməyi ilə qıra bilərdik. Lakin biz sonuncuya malik de-

yilik. Mən deyərdim ki, xoşbəxtlikdən, çünki heç bir siyasi marağımız olmayan yerdə hərbi qüvvələrin tətbiq edilməsi bizi utopik Napoleon yoluna gətirib çıxara bilərdi. "Vestigia terrent"

İmza:

***Şverin dairə arxivi,***
***f. №23, v. 437-440***
***s.131-135***

***

**Hesabat № 2**

***Batum.*** Türkiyə Hərbi Nazirliyinin əmrinə əsasən, türk ordusunun general-intendantı İsmayıl Hakkı Paşa Batumda (müsadirə, alış, satış və s.) bütün ehtiyatlar üzərində nəzarət etmək hüququnu mal və xammalların yüklənməsinə yalnız 3-cü ordunun komandanı Əsəd Paşanın icazəsi olduqdan sonra həyata keçirmək şərtilə aldı.

İsmayıl Hakkı kapitan Gerlaxla danışıqlar aparmaq üçün Batuma öz müvəkkilini göndərmək fikrindədir. Batumdakı mürəkkəb vəziyyəti aradan qaldırmağa qadir olduğunu isə zaman göstərəcəkdir.

**Neft və neft məhsullarının tədarükü**

İsmayıl Hakkı iyulun ortasında Batumda səfərdə olarkən qeyd etmişdi ki, Batumda olan ehtiyatlar, neft və neft məhsullarına dair danışıqlar İstanbulda tamamlanmalıdır. Kapitan Gerlax məlumat verir ki, türklər ümumiyyətlə, yanacaq mazutunu satmaq istəmirlər, əksinə onu qoşun nəqliyyatının ehtiyacları üçün istifadə etmək fikrindədirlər. Buraya gəlmiş doktor Pfaffın məlumatına görə Batumda mineral yanacaq ehtiyatları, birinci hesabatda deyildiyi kimi 24000 ton deyil, 35570 tondur. Ehtiyatların dəqiq hesablanması onunla mürəkkəbləşir ki, türklər sis-

termlər üzrə dəqiq hesablamalar aparmağa icazə vermirlər.

Konsul Burhardt hələ də Batumdadır. Çünki, İsmayıl Hakkı onun İstanbula qayıdışını məqsədəuyğun hesab etmir və Bakı tutulan kimi o, şəhərə göndəriləcəkdir.

## Manqan filizinin yüklənməsi

Tonnajı 6000 tona yaxın olan "Minna Horn" paroxodu Batuma 1918-ci il iyulun 30-da çatdı. İstanbulda dağ sənaye bölməsindən leytenant Zeveke bu yaxınlarda Batumdan buraya gəlmişdir və məlumat verir ki, türklər fəhlə qüvvəsinin çatışmazlığına istinad edərək yüklənmə zamanı çətinlik törətmək istəyirlər.

***Poti.*** 1) Manqan filizının yüklənməsı

Potidən verilən məlumatlara görə liman fəhlələri filiz gətirən gəmi sahibləri ilə əmək haqqının ödənilməsi barədə razılığa gəlmişlər. Beləliklə, indi yaxşı iş də gözləməyə dəyər. Çiaturidə əmək haqqının verilməsi məsələsi nizama salınmışdır.

2) İmperiya iqtisadiyyat idarəsinin aşağıda göstərilən ixrac malları Potidə cəmlənmişdir:

| | |
|---|---|
| manqan filizi | — 23800 t |
| yun | — 6200 pud |
| qoyun dərisi | — 360 pud |
| gön | — 1170 pud |

İndiki vaxta qədər göndərilmişdir: manqan filizi - 8000 t

3) Potidə paroxod kompaniyası ittifaqının agenti cənab Şmits təyin edilmişdir.

**A. İxrac**

*1) Nəql etmə*

Gürcü dəmiryolları ilə ixrac mallarının daşınması üzərində tarifin qoyulması barədə danışıqlar başlanmış, lakin hələ bitməmişdir.

Dəmiryolunda mazut ehtiyatı qurtarmaq üzrədir. Kömür vasitəsilə əlaqənin saxlanılması üzrə tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə şaxtadakı vəziyyəti müəyyənləşdirməkdən ötrü doktor Pfaff Tkibuliyə göndərilmişdir. Kəşfiyyat yaxşı nəticə vermişdir. Ümid etmək olar ki, buradakı mazut ehtiyatlı tükənsə də, o vaxta qədər Bakıda yanacaq əldə etmək mümkün olmasa da, dəmiryol əlaqələrinin saxlanılması davam edəcəkdir. Mən doktor Pfaffı daha uzağa neft məskənlərini nəzərdən keçirmək üçün Poti rayonuna göndərdim. Bu barədə hesabat indiyə qədər təqdim olunmamışdır.

*2) İxrac sahəsində işlərin ümumi vəziyyəti*

Bu vaxta qədər iqtisadi bölmənin fəaliyyəti minimum səviyyədə idi. Bunun səbəbi ilk növbədə ondan ibarətdir ki, yun, pambıq, ipək, qoyun dərisi və mis tədarükləri istisna olmaqla mənim sərəncamımda başqa rəsmi tədarüklər yox idi, əldə olanlar isə kifayət qədər çox nəqd pul dəyərinə malik deyildi.

Bəzi kompaniyalara hələ bu vaxta qədər aydın olmamışdır ki, Qafqazda tədarükə Berlindən rəhbərlik etmək mümkün deyildir və əlverişsiz şəraitdə müsbət nəticəyə o zaman nail olmaq olar ki, rəsmi tədarükçülərə fəaliyyət azadlığı verilsin. Vəziyyətın aydın olması üçün iki nümunə gətirim. Müvəkkil Varneke və kapitan fon Kressin 16 iyun tarixli təcili teleqramına nəhayət, 13 iyul tarixdə cavab alındı: "Mayor fon Kreze və Leytenant Zevekenin teleqramında 60000 pud misin alınması barədə təklifinə cavab olaraq bildirilir ki, təklif olunmuş qiymətlər həddən artıq çoxdur. Bizim qiymətimiz 80-90 rubldan artıq deyildir. Misin markasını və formatını teleqraf edin. Əgər Dunay limanına qədər yüklənmə və daşınma hərbi hökumət tərəfindən təmin edilsə, onda pul göndərərik. Bu məsələni Varneke ilə müzakirə edin". Əgər şirkət əvvəlcə misin markası və formatı ilə tanış olub, sonra pul göndərəcəksə, onda sövdənin

bitməsinə bir neçə həftə sərf edəcəkdir. 1 sentyabr tarixdə rezin tədarükü gəlib çatdı.

Cənab Haberzanq nəğd pulun göndərilməsini hələ iyunun əvvəlində xahiş etsə də, bu vaxta qədər bir manat da olsun gəlməmişdir. Bütün yunun alınması isə sual altındadır. Böyük həcmli tədarükə, hər yerdə pul çatışmazlığının hiss olunması və bank sisteminin tamamilə pozulmasına görə akkreditə ilə alınmış məbləğ kifayət deyildir.

*3). Gürcü iqtisadi komissiyası*

Son hesabatda adı çəkilən gürcü iqtisadi komissiyası bu arada işgüzar olmuşdur və biz onunla əlaqə qurmuşuq. Onun prezidenti cənab Nikoladze general fon Lossovun Potidə imzaladığı müqaviləyə loyal münasibət bəsləyir. Lakin bu müqavilədəki şərtləri xüsusi qeyd edir. Bunların əsasında xammal ixracına ölkənin özündə istifadə edilməyənədək icazə verilir.

**B. Ayrı-ayrı malların tədarükü**

***1. Manqan***

Mazut çatışmazlığının hər gün artması ucbatından dəmiryol əlaqəsi məhdudlaşmalı olacaqdır. Poti anbarlarında 23 000 t filizimiz toplanmışdır. Çiaturi və Poti arasında dəmiryol əlaqəsinin dayandırılması və məhdudlaşması ilə göndəriş zamanı meydana çıxan fasilələrdən can qurtarmaq üçün Potidə cəmlənmiş özgə filizini almaq gərəkdir; onun ehtiyatları 150 000 tonu təşkil edir. 1918-ci il 15 iyul tarixli A.212 N:li teleqramda mənim müvafiq sorğuma hələ ki, cavab alınmamışdır. Manqan filizinin tədarükü üzrə kompaniyanın müvəkkil edilmiş nümayəndəsini ya tezliklə göndərmək, yaxud da ki, tədarük üzrə, "Gelzenkirxen Verke"nin müdiri cənab Persinitskini müvəkkil etmək lazımdır.

Hökumət Çiaturi-Poti istiqamətində tariflərin 8 dəfə artırıl-

masını nəzərdə tutmuşdur. Mən bu tarifin endirilməsinə nail olmağa çalışacağam. Daha sonra hökumət Potidə bağlanmış müqaviləyə əsasən manqan filizi qənimətlərini tamamilə inhisara almaq niyyətindədir: Yarısı Gürcüstanın, yarısı Almaniyanın.

*2. Mis*

Talkrizin nümayəndəsi cənab Varneke 1918-ci il 20 iyul tarixində Batumdan buraya gəldi. Lakin gözlənildiyi və dəfələrlə Talkrizə teleqraf edildiyi kimi, o, bir iş görə bilməmişdir. Belə ki, Talkriz tərəfindən təyin edilmiş hər puda 90 min maksimal qiyməti ilə mis əldə etməyə müvəffəq olmamışdır. Eren həmçinin Kvartsxan və Gədəbəy zavodlarının müdirinə, bəyan etdi ki, hər yerdə nəzərə çarpan əmək haqqının yüksək ödənilməsi üzündən misi bu qiymətlə tədarük etmək qeyri-mümkündür.

Hökumət guya yataqları hesablamaq məqsədilə bütün mis ehtiyatlarının hesabını hazırlamaq sərəncamını vermişdir. Növbəti müsadirə yolunda bunun ilk addım olub-olmamasını müəyyənləşdirməyə indiki vaxta qədər müvəffəq olunmamışdır.

*3. Yun*

Əgər mən sonuncu hesabatımda hələ ki, mövcud olan nəqletmə imkanlarını: ticarət sövdələrini bağlamaq yolu ilə istifadəsinin mümkünlüyünü qeyd edirdimsə, indiki anda bu imkanlar yuxarıda göstərilən səbəblər nəticəsində əldə çıxmışdır. Lakin yenə də bu ticarət sövdələrini (tədarük haqqında müqavilə) tövsiyə etmək olardı, - bu dəfə isə başqa səbəblər üzrə.

Gürcüstanda böyük yun ehtiyatlarının olmadığı müəyyən olunduqdan sonra gürcü iqtisadi komissiyası yun ixracını məhdudlaşdırmağın zəruriliyini elan etmişdir. Belə ki, o, daxili tələbatları ödəmək üçün tələb olunur. İlk vaxtlarda böyük sövdələr imzalamağa müvəffəq olsaq da, indi tədarük üçün icazə almaqdansa, artıq əldə olunmuş malların ixracına icazəyə nail olmaq daha asandır.

*4. Pambıq*

Bu günlərdə Azərbaycandan 40 vaqon göndərilməsi gözlənilir, üstəlik hökumət bizə bu miqdarın ixracına icazə vermişdir. Oradakı vəziyyət hələ tamamilə aydınlaşmamışdır. Belə ki, ümid etməyə dəyər ki, aparılan danışıqlar tədricən müsbət nəticələrə gətirib çıxaracaqdır.

*5. Tütün*

Hökumət bizə tədarük üçün tam səlahiyyət vermişdir. Eyni zamanda isə digər şəxslərə ixracı qadağan etmişdir. Hökumətin məlumatına görə Suxumda 650 000 pud tütün vardır. Topdansatış tütün tacirləri fəhlə və qulluqçularına əmək haqqı ödəmək üçün onları satmağa məcburdurlar. Bır tərəfdən, ixracın qadağan edilməsi tütünün başqa şəxslərə satılmasına mane olur, digər tərəfdən isə nəqd pulun və ixracın olmaması ucbatından biz hələ ki, saziş bağlaya bilmirik. Hökumət bizə loyal münasibət bəsləyir. Lakin bizim tədarük edə bilməməyimiz ucbatından o, çətin vəziyyətdədir. Mən topdansatış tütün tacirlərinin iclasını çağırmışam və çalışıram ki, tacirlər assosiasiyasına beh ödəməklə malları özümdə saxlayım.

Mənim səlahiyyətimdə olan nəğd vasitələrin səmərəsizliyi ucbatından, bu müvəqqəti tədbir məhdud zamanda qüvvədə olacaqdır. Beləliklə, mən 1918-ci il 1 avqust tarixli 430/V nömrəli teleqramımda məlumat verdiyim kimi tezliklə ekspert göndərilməsi vacibdir. Həmçinin, onu kifayət qədər nəğd pul vəsaiti və qiymət təyinetmə zamanı hərəkət azadlığı ilə də təmin etmək lazımdır.

*6. Rezin*

İndiyə qədər malın bu növünə də alıcı tapılmamışdır. Mövcud avtomobil şinləri ehtiyatını özümüzdə saxlamaq üçün onların tədarükü üzrə mənim tərəfimdən danışıqlar başlanmışdır.

Nümayəndə heyətinin başçısı mənim sərəncamıma, əlbəttə ki, məhdudiyyət qoyulmuş pul vəsaitlərini nümayəndə heyəti-

nin xəzinəsindən vermişdir. 1918-ci il 1 avqust tarixində leytenant Dorman gəlib çıxdı. Onun da hazırda nəğd pulu yoxdur.

Tədarük çətinliklə gedir.Çünki bu işdə istənilən qiyməti ödəyən türklər tərəfindən gizli rəqabətin rolu vardır. Digər tərəfdən, malın müəyyən hissəsi oğurlanmış və gizlədilmişdir. Bu da onun əldə olunmasını çətinləşdirir. Bu vaxta qədər 487 təkər, 489 kamer, 41 massiv şin və 56 velosiped təkəri əldə edilmişdır. Bir neçə min təkər, kamer və massiv şininin satılması üzrə sazişin bağlanılması haqqında danışıqlar nəzərdə tutulur. Çox güman ki, bu da müsbət nəticə verəcəkdir.

Köhnə rezinin tədarükü onun qiymətləri barədə dəqıq məlumatın olmaması ucbatından indiyə qədər həyata keçməmişdir. Lakin indi bu məsələ ölü nöqtədən hərəkət etmişdir.

*7. Şərab*

Böyük təkliflər vardır, xüsusilə alman kolonyaları tərəfindən. Tədarük işi hələ başlanmamışdır. Belə ki, məndə müvafiq göstərişlər yoxdur. Əgər şərab, konyak və s.-yə maraq ortaya çıxarsa, onda tədarükçünün göndərılməsini xahiş edirəm.

***8. Gön və dəri***

Belə ki, istehsalat ölkə tələbatının 60%-ni ödəyir. Hökumət hər növ dərinin (qoyun dərisi istisna olmaqla), həmçinin dəri məmulatlarının ixracını və tədarükünü qadağan etmişdir.

***9. İpək, barama, tullantılar***

Bu maddə ilə bağlı elə bir tədbir hələ ki, görülməmişdir. Bu malların əsas bazarı Nuxadır, bu şəhər Azərbaycan hökuməti ilə danışıqlar üçün modus tapılanda bizim üçün açıq olacaqdır.

C. Türklərin işgüzarlığı

Gürcüstanda türklər ilk növbədə, rezin, şin, qənd, sink, mis alır, bu mallar Kür çayı boyunca bərələrlə Ağstafa rayonuna qədər göndərilir və sərhəddən keçirilir. Mən dəfələrlə gürcü hökumətinə bu məsələ ilə bağlı məlumat vermişəm. Lakin sərhədi müdafiə etmək üçün qoşunun çatışmaması üzündən bu, bir nəticə vermir.

Tiflis-Natanebi-Batum istiqamətində rezinlə dolu vaqonun saxlanılmasına müvəffəq olunmuşdur. Türklərlə razılığı olan gürcü hökumətinin xahişi ilə vaqon yenidən buraxılmışdır. Belə ki, hökumət bu müqaviləni ixracın qadağan edilməsinədək bağlamışdı.

Tiflisdə olduğu müddətdə İsmayıl Hakkı nümayəndə heyətinin başçısı general fon Kressə özünün imzaladığı 1918-ci il 27 aprel tarixli müqafiləyə əməl etmək vədini vermişdir. Bu vədin praktikada necə yerinə yetirilməsini isə aşağıdakı faktlar göstərir:

"Meyerkort" firması İstanbulda azərbaycanlı Süleyman bəy Şamxorlu ilə Yevlax, Yelizavetpol və Ləki stansiyalarında saxlanılan 300 000 pud pambığın alınması barədə saziş imzaladılar. İsmayıl Hakkı 1918-ci il 17 iyul tarixində Yelizavetpola gəldi. O, Süleyman bəylə söhbətində bu sazişə də toxundu. Bəy əmin etdi ki, o, (İsmayıl) burada nə isə almaq fikrində deyildir. Vağzalda gedən söhbət zamanı İsmayılın agentləri Yelizavetpol şəhərinə getdilər. Bu malların sahibi olan azərbaycanlılar Nuru Paşadan tam asılı olan Azərbaycan hökuməti tərəfindən həbs edildilər, yalnız onlar "Meyerkort" firması ilə müqavilədən imtina etdikdən və onlara məxsus olan malı türklərə hər pudu 90 rubldan satdıqdan sonra azad edildilər.

1918-ci il 3 avqust tarixində Avstriya nümayəndə heyətinin zabiti Ağstafa-Karaklis yolunda pambıqla yüklənmiş yük maşınlarını qarşıladı, onun fikrincə, yük maşınlarının sayı 300-400

idi. Cərgə Azərbaycandan gəlir və Aleksandropola - yolun türk hissəsinə üz tuturdu. 1918-ci il 27 aprel tarixli müqavilənin türklər üçün xarakterik cəhəti İsmayıl Hakkının Nuru Paşaya "müəyyən pul məbləğinin" (bir neçə milyon) tədarük üçün verməsi faktdır.

Azərbaycanın baş nazirinin bəyan etdiyi kim, onun hökuməti ilə Türkiyə hökuməti arasında müqavilə bağlanmışdır. Buna əsasən Azərbaycan yalnız türklərə mal satmalıdır.

Bu müqavilənin müvafiq maddələri Osmanlı imperiyası ilə Azərbaycan Respublikası hökuməti arasında belə səslənir:

***Dostluq haqqında müqaviləyə 1-ci əlavə***

**V maddə.** Sazişə girən tərəflər qarşılıqlı surətdə iqtisadi münasibətləri inkişaf etdirməli və mal mübadiləsini aşağıdakı şərtlər əsasında təşkil etməlidirlər;

**VI maddə.** 1919-cu il dekabrın 31-dək olan dövrdə gündəlik tələbat üçün zəruri olan mühüm sənaye və kənd təsərrüfatı izafi məhsullarının qarşılıqlı mübadiləsi 7-9-cu maddələrin şərtlərinə müvafiq həyata keçiriləcəkdir;

**VII maddə.** Əvvəlki maddədə qeyd edilmiş məhsulun kəmiyyəti və növü sazişə girən tərəflər tərəfindən komissiya vasitəsilə müəyyən olunur ki, bu komissiyada hər iki tərəf bərabər sayda üzvlərlə təmsil olunmalı və öz işinə sülh və dostluq müqaviləsinin imzalanmasından dərhal sonra başlamalıdır;

**VIII maddə.** Mal mübadiləsinə məxsus olan məhsulların qiyməti komissiya tərəfindən müəyyən edilir;

**IX maddə.** Komissiya tərəfindən müəyyənləşdirilmiş malların mübadiləsi xüsusi mərkəzi təşkilatlar tərəfindən həyata

keçirilir ki, bu da dövlətin nəzarəti altında hökumət və ya təşkilatlar tərəfindən müəyyən edilir;

Türk təşəbbüsünü Azərbaycan hökumətinin aşağıda göstərilən qətnaməsi də sübut edir:

**11 iyul 1918-ci il tarixli qətnamə**

Ərzaq nazirinin 24 iyun tarixli qətnaməsinin əsasında və ona əlavə olaraq və 27 iyun tarixli hökumət sərəncamına görə aşağıda göstərilən malların Azərbaycandan ixrac edilməsi qəti qadağandır:

*1) Bütün dənli bitkilər, həmçinin un və bişmiş çörək;*
*2) Pambıq, yun, ipək və onların məmulatları;*
*3) Diri və kəsilmiş mal-qara.*

Başqa qalan məhsullar ərzaq nazirinin xüsusi icazəsi ilə çıxarıla bilər. Bu qətnaməni pozanlar aşağıda göstərilən cəza üsullarına məhkum olunurlar: mal müsadirəsi, 10 000 rubla qədər pul cəriməsi, 6 ay müddətinə azadlıqdan məhrum etmə.

İmza:
Azərbaycan hökuməti Nazirlər
Şurasının sədri ***Fətəli xan Xoyski***
Ərzaq naziri ***A.Aşurov***

**D.İdxal**

Alman mallarının idxal məsələsi əvvəlki kimi ümumi maraq mərkəzindədir. Buna görə də mən 1 №-li hesabatımda göstərdiklərimi yenidən qeyd etmək, Qafqazda indi və gələcəkdə maraqlarımız çərçivəsində mövqelərimizi möhkəmləndirməyin vacibliyinə bir daha işarə etmək istərdim. Əgər biz Gürcüstan Respublikasında mal tədarükünü yoluna qoymağa nail olsaq, bu, bizim Azərbaycandakı işimizi yüngülləşdirəcəkdir. İndiki vaxt

əlverişlidir. Çünki, bizdə olan məlumata görə Azərbaycanda antitürk əhval-ruhiyyə güclənməkdədir. Əgər biz heç olmasa müəyyən məhsulların tədarükü ilə guya məqsədimizin ölkənin istismarı haqqında bizə qarşı mövcud olan yanlış fikirləri dağıda bilsək, onda bu, bizim mövqeyimiz üçün birinci dərəcəli əhəmiyyət kəsb edəcəkdir.

Gürcü iqtisadi komissiyasının sədri mənə öz hökumətinin alman hazır məmulatlarının xammal tədarükünə dəyişməklə idxalı qaydasına salmaq arzusunu çatdırdı və bunu qəti olaraq 1918-ci il 28 may tarixli Poti müqaviləsinə əlavə maddə ilə rəsmiləşdirməyi təklif etdi. Mən bunu nümayəndə heyətinin başçısına şərh etdim.

Bizi Qafqazda həcmli bazarla təmin etmək vacib olduğuna görə Türkiyəyə ixrac üzərində məhdudiyyət qoymaq yolu ilə malları Qafqaza göndərmək üçün çıxarmaq daha arzuolunandır.

Almaniya və Gürcüstan arasında poçt konvensiyasının bağlanmasına qədər buradakı və alman firmaları arasında heç olmasa, fikir mübadiləsini təmin etməkdən ötrü nümayəndə heyətinin başçısı rəsmi məktubların çatdırılmasını nizamlamaq üçün iqtisadi şöbəni müvəkkil etmişdir. Bu məktublar mənə şifrələnmiş, alman poçt markası ilə alman dilində təhvil veriləcəkdir. Cavabın eyni yolla göndərilməsini mən Sizdən xahiş edirəm.

Gürcü hökuməti Almaniyaya alıcı komissiyasını göndərmək niyyətindədir. Alınmış malları hökumət ayrı-ayrı kompaniyalara və qruplara verəcəkdir. Bu üsulla o, qiymətlərin müəyyən edilməsinə təsir etməyə və möhtəkirliyin qarşısını almağa çalışır. Belə ki, bu fikir hökumətə xüsusilə yaxındır. Xüsusi malların hərəkətinin nizamlanması çox güman ki, uzun müddət tələb edəcəkdir. Buna görə də mən hökumətin bu təklifi ilə razılaşdım və onun niyyətlərini dəstəkləmək vədini verdim.

**E. Ümumi məsələlər**

Öz müşahidələrim, həmçinin bu ölkəni yaxşı tanıyan şəxslərin məlumatları əsasında mən Gürcüstanın kənd təsərrü-

fatının vəziyyəti barədə özüm üçün tam da olmasa, kifayət qədər aydın mənzərə yarada bilərəm.

Torpağın istismarı Anadolu və Suriyada olduğu kimi burada da ən primitiv üsullarla aparılır. Burada bütün torpağı kotanla şumlayırlar. Bu da yalnız şırım açır, kökünü isə çevirmir. Məhsulu oraqla yığırlar, buğdanın ayrılması isə köhnə üsul ilə həyata keçirilir. Torpağın ekstensiv istismarı xüsusi itki verir, kəndlilərə torpaq çatışmazlığı buradan irəli gəlir. İntensiv əkinçiliyin nə olduğunu burada qətiyyən bilmirlər.

İşlərin gedişi barədə daha dolğun təsəvvür yaratmaq üçün məsələni aydınlaşdırmaqdan ötrü burada yerləşmiş yunker polkunun tərkibindən daha çalışqan və səriştəli kənd sakinlərini kənd yerlərinə göndərmək niyyətindəyəm.

Mənə məlum olduğu kimi, bu ölkənin kənd təsərrüfatındakı işlərin vəziyyəti və onun tələbatları barədə məlumatlarımızda çatışmazlıqlar vardır. Hər torpaq özünəməxsus istismar və alətlər tələb edir. Avropa üsullarının tətbiq edilməsi böyük uğursuzluğa səbəb olacaqdır. Bu istiqamətdə bir iş görməzdən əvvəl torpaq şəraitini (kimyəvi tərkib, duzların miqdarı və s.), iqlimi və s.-ni öyrənmək lazımdır.

Bu mülahizələrdən nəticə çıxararaq ilk növbədə aşağıdakıları tövsiyə etmək daha məqsədəuyğun olardı:

a) alman kənd təsərrüfatı ekspertlərinin göndərilməsi. Onlar buranın torpaq şəraitini və ehtiyaclarını öyrənəcək və onların təcrübəsindən bizim kənd təsərrüfatı sənayesi üçün istifadə ediləcəkdir. Dinc şəraitdə Şimali Afrika müstəmləkələrində lazımi maşın və avadanlıqların buraxılması Fransada rol oynadığı kimi, burada da müharibədən sonra Qafqazda tətbiq etmə üçün yararlı olan sənayemizin maşın və mallar buraxmasını nizama salmaqdan ötrü bu məsələni aydınlaşdırmaq xüsusi ilə vacibdir.

b) alman təsərrüfatlarında torpağın intensiv istismarı təcrübəsini tətbiq etmək və vətənə qayıtdıqdan sonra bu təcrübədən orada istifadə etmək üçün Almaniyaya getmək çağırışı ilə gürcü

gənclərinə müraciət.

Bu təkliflər burada fəaliyyət göstərən “Çeres” və “Qafqaz kənd təsərrüfatı cəmiyyəti”nin köməkliyi ilə asanlıqla həyata keçə bilər. Onun prezidenti knyaz Sumbatov artıq Almaniyaya yola düşmüşdür...

**F.Bakı**

Elə indi çatan məlumatlara əsasən Bakının bilavasitə türklər tərəfindən tutulmasına artıq şübhə qalmır. Vəziyyət müəyyənləşdikdən sonra neft üzrə ekspert və hərbi-sürtkü materialları cəmiyyətindən tədarükçü dərhal oraya göndəriləcəkdir.

**J. Hərbi əsirlər**

Əldə olan məlumatlara əsasən Bakıdakı alman hərbi əsirlərinin sayı çox deyildir. Onların sayı təxminən 80 və 200 arasındadır. Ora aşağı rütbəli məmur göndərilir. O, qospitallarda olmayan hərbi əsirləri Qori və Tiflisdə yerləşdirməlidir. Onlar burada Potidən təxliyə olunana qədər qalmalıdır. Hərbi xidmətə yararlı olanlar nümayəndə heyətinin cənab başçısının əmri ilə burada yerləşdirilmiş hissələrə daxil edilirlər. Bakının tutulmasının Türküstanda olan hərbi əsirlərin tezliklə vətənə qayıtmasını təmin edəcəyinə çətin ümid etmək olar.

İmza, mayor ***Hey***

Potsdam Mərkəzi arxivi,
***fond 1 DR, sən. 5871***
***s.141-153***

***

## № 58
## Almaniyanın Gürcüstandakı nümayəndəsi qraf Şulenburqun qeydləri

Berlin, 22 avqust 1918-ci il

Dünən Baş qərargahın binasında Qafqazla bağlı iqtisadi və nəqliyyat məsələlərini müzakirə edən konfrans öz işinə başladı. Sırf siyasi məsələlər qaldırılmadı. Lakin müəyyən mənada onlar da nəzərə alındı.

Konfransda quru qoşunları Baş komandanlığı, Baş qərargah, dəmiryol daşınmaları şöbəsi, müvafiq hərbi şirkətlər, imperiya iqtisadiyyat idarəsi və Qafqazda marağı olan digər rəsmi müəssisələr təmsil olunurdular. Qafqazdakı nümayəndə heyətindən iştirak edirdilər: kapitan fon Kriger və mən.

Kapitan fon Kriger cənab general fon Kressin arzularını çatdırdı. Müşavirənin nəticələri aşağıda verilmişdir:

**1. Rabitə yollarının qurulması**

Bu vaxta qədər əlaqə çox pis vəziyyətdə idi. Belə ki, simsiz rabitə tələbatı ödəmirdi, nizami paroxod yolları yox idi. General fon Kress gəmiçilik üzrə dispetçer məntəqəsinə iradlar tutdu ki, o, tamahkarlıq ucbatından nümayəndə heyətinin çoxsaylı müraciətinə baxmayaraq, Poti və Sevastopol arasında daimi rabitənin təcili sürətdə qurulmasına heç səy göstərməmişdi.

Etiraz qəbul edildi.

Bu müddət ərzində daimi paroxod xidməti yaradıldı.

"Daland" Sevastopoldan Potiyə və əks istiqamətdə hər gün hərəkət edir.

| | | |
|---|---|---|
| Bazar ertəsi | gündüz | Sevastopoldan |
| Çərşənbə axşamı | | Potiyə |
| Çərşənbə | gündüz | Tiflis-Poti qatarının gəlişindən sonra Potidən |
| Cümə | | Sevastopola |

Çatandan sonra paroxodlar Odessaya göndərilir. "Daland"ın tonnajı 4000 tondur. Bunun nəticəsində paroxod nəqliyyat vasitəsi çox bahadır.

Qafqazda alman nümayəndə heyətinə hər 5 gündən bir poçt üçün gəmi lazımdır. Böyük paroxodun olması o qədər də vacib deyildir. Bir neçə tonluq yük tutumu olan yedək də kifayətdır.

Hər 5 gündən bir əlaqə qurmaq üçün tədbir görmək vədi verilmişdir.

**2. Qafqazda türklərin xammal tədarükü**

Türk rəqabətinin aradan qaldırılmasına, türklərin saxlanılmasına və onları 27 aprel 1918-ci il tarixli müqavilədən irəli gələn öhdəliklərini yerinə yetirməyə məcbur etməyə dair tam yekdil fikir mövcuddur.

Türk vədlərinin heç bir qiyməti yoxdur. Biz öz məqsədlərimizi yalnız Tiflis-Bakı və Tiflis-Culfa dəmiryollarını tutduqdan sonra həyata keçirə bilərik.

**3. Gürcüstanda un idxalı**

Təcili lazımdır:

a) Təbliğat aparılması səbəbindən. Çünki Antanta qoşunlarımızın əhali üçün nəzərdə tutulmuş çörəyi yeməsi barədə təbliğat aparır.

b) manqan filizi və s. mədənlər üçün işçi qüvvəsi işə götürmək. Əmək haqqının yarısının un ilə ödənilməsi zamanı işçi tapmaq asandır.

c) Qoşunlarımızın qidalanması üçün.

Perspektivdə vəd edilmiş 1200 t çox azdır. Hər ay 1000 ton göndərmək lazımdır. Şimali Qafqazda yol açılan kimi taxılı Kuban əyalətindən gətirmək və öz taxıl tədarükümüzü azaltmaq olar. Novorossiyskdə və Kuban əyalətində guya 2-3 min ton taxıl vardır. Belə ki, hərbi əməlıyyatların gedişi ucbatından şimala (Moskva və Peterburq) ixrac mümkün olmadığından, bolşeviklər Novorossisykidən taxılı bizə və yaxud Gürcüstana verməyə hazırdırlar. Lakin taxılı kazak ərazilərindən çıxarmaq üçün geniş təşkilatçılıq tələb olunur.

İlkin vaxtlar üçün Qafqaza (Gürcüstana) hər ay 1000 ton un göndərmək lazımdır.

**4. Pula olan tələbat**

Möhtəkirlərin tədarük etmək üçün pula təcili ehtiyacları vardır. Böyük məbləğdə rus pulu əldə etmək olmaz. Əksinə, imperiya bankı iri məbləğdə alman pullarını buraxmışdır. Ödənişi göndərmə yolu ilə həyata keçirmək üçün (bəzi hallarda bu mümkündür) Poti, Tiflis, Bakı və İrəvanda alman banklarının şöbələrini təsis etmək lazımdır. Bu məsələni yoxlamaq üçün bank mütəxəssisi təcili Tiflisə çatmalıdır.

Gürcü hökumətinin respublikanın maliyyə təsərrüfatını, vergi və rüsumların toplanmasını təşkil edə bilən təcrübəli maliyyə müşavirinə (yəhudi olmasın!) təcili ehtiyacı vardır. Bunun üçün bank işçisi deyil, maliyyə məmuru gərəkdir. Bu məsələ ilə bağlı İmperiya iqtisadiyyat idarəsi xarici işlər naziri ilə əlaqə saxlayacaqdır.

Gürcüstanla hesablarımızı yüngülləşdirmək üçün Qafqaza alman ixracına hər cəhətdən təsir etmək gərəkdir. Marağı olan hərbi şirkətlər bu ixracı maliyyələşdirməyə hazır olduqlarını bildirdilər. Hazırda hansı malların göndərilməsinin mümkünlüyü dəqiqləşdirilir.

Sifarişlər əldə etmək üçün nümunələrdən ibarət sərginin gəmi ilə Potiyə göndərilməsi təklifi irəli sürülür.

**5. Qafqaza ixrac**

İxrac olunan mallar sırasında nəzərdə tutulur: kimyəvi maddələr, rənglər, əczaçılıq malları, elektrik malları, şüşə və çini, kənd təsərrüfatı və digər maşınlar, kağız materialları (onlar bəyənilmişdir: onlarla davranmaq barədə Qafqaz mətbuatınqda açıqlamalar verilməlidir), yazı kağızı. Gürcüstana ixrac üçün gəmi tonnajı çətinlik yaratmır.

**6. Qafqazdan idxal**

Tiflisdəki alman nümayəndə heyəti xahiş edir ki, bütün alman tədarükçüləri nümayəndə heyəti yanında qeydiyyatdan keçməyin zəruriliyi barədə xəbərdarlıq edilsinlər.

İdxal malları sırasında aşağıdakılar nəzərdən keçırilir:

***a) Manqan filizi (Gürcüstandan)***

Alman və Avstriya-Macarıstan tələbatlarının tam şəkildə ödənilməsi üçün hər ay 40000 ton manqan filizi ixrac etmək lazımdır. Alman mədənləri (Gelzenkirhendə Qafqaz mədənləri birliyi) belə bir məbləği ödəyə bilmir. Başqalarından filiz almaq lazımdır. İndiki zamanda filiz göndərmək üçün hazır filiz kifayət etmir. Buna görə də kapitan Kabolet Potiyə filiz daşımaq üçün gəmilər göndərilməsinin müvəqqəti olaraq dayandırılmasını təklif etmişdir.

Belə qənaətə gəlinmişdir ki, filizin göndərilməsinə ara verməmək də olar. Yüklənməyə tam hazır olan məhsulu əldə etmək üçün gürcü hökumətindən Poti limanında olan düşmən dövlətlərin vətəndaşlarına məxsus (ingilis, fransız, belçikalılara) filizin müsadirəsinə və bizə satılmasına nail olmaq lazımdır. Müvafiq qiymət kimi yuyulmamış filizin hər tonuna 70 marka, yuyulmuş filizin hər tonuna isə 90 marka müəyyən etmək nəzərdə tutulur. Gürcü hökumətinin müvafiq addımlar atması general fon Kressə tapşırılmışdır. Müsadirənin qiymətinin müəyyən edilməsinin bizim işlərə yaxşı təsir edəcəyi gözlənilir. Elə

bu məqsədlə Çiaturidəki alman mədənlərindən filiz qənimətlərinin əldə edilməsini hər vəchlə sürətləndirmək lazımdır.

*b) Pambıq*

Hazırda 200 000 puda yaxın pambıq olmalıdır. Onun əsas kütləsi Azərbaycan və Ermənistanda, daha doğrusu, türk təsir dairəsindədir. Biz onu ya yüksək qiymətlə türklərdən almalı, yaxud da, türklər Brest-Litovsk sülh müqaviləsi əsasında müəyyən olunmuş sərhədin o tayına keçməlidirlər.

*c) Yun*

Transqafqazda çoxlu yun istehsal edilir. Dərhal aparılması mümkün olan malın bir hissəsi bizim tərəfimizdən alınmışdır. Bundan əlavə, hələ 20000 pud Azərbaycanda olmalıdır. Buraya, həmçinin b) bəndində göstərilən mal da daxildir.

*d) İpək*

Hazırda 50 000 puda yaxın b) bəndində göstərilən məhsul vardır. Mühüm hissə Azərbaycandadır.

*e) Mis*

Tiflisdə 40 000 puda yaxın vardır. Onun tədarükü barədə danışıqlar aparılır. Tiflisdən cənubda yerləşən Alaverdi fransız mis mədəni antratsit və koks (buradakı fəhlələr üçün) ərzaqla təmin edildikdən sonra istismara buraxıla bilər.

*f) Dəri*

Qafqazda kifayət qədər olmalıdır. Belə hesab edirlər ki, Gürcüstanda 2 000 000-na yaxın qoyun dərisi vardır.

*j) Şərab və meyvə*

Çoxlu miqdarda Gürcüstan və Azərbaycanda, həmçinin Ermənistanda vardır. Ölkə daxilində marmelad istehsalının mümkünlüyünü öyrənmək lazımdır.

*h) Tütün*

Tiflisdən gələn son məlumatlara əsasən Gürcüstanda 650 000 pud vardır, o cümlədən əsas kütləsi Suxum və onun ətrafındadır. Tələb olunan qiymət hər puda 100-200 rubldur.

*i) Sement*

Novorossiyskidə iri sement zavodları vardır. Hər tonun qiyməti 26 rubldur.

*k) Günəbaxan yağı*

Novorossiyskidə çoxdur. Dəqiq məlumatlar yoxdur.

**7. Konsul nümayəndəliyi**

Novorossiyskini ziyarət edən kapitan fon Kriger oraya təcrübəli konsulun dərhal göndərilməsinin zəruriliyini vurğuladı.

**8. Bakı**

Bakıya dair siyasətimizin aşağıdakı istinadlarından irəli gəlməsi fikrində yekdilliyə nail olunmuşdur:

*a) Bakı rus ağalığı altında qalmaqdadır;*

*b) Neft gəliri alman nəzarətinə keçir;*

*v) Bakıdan gələn dəmiryolları və boru kəmərləri alman nəzarəti altında olmalıdır.*

Dəmiryol daşımaları şöbəsi bildirir ki, Bakı neftinin Almaniya və s.-yə daşınmasında böyük çətinliklər yarana bilərdi. Qara dənizdə tankerlər, Rumıniya, Avstriya-Macarıstan, Ukraynada isə dəmiryol sisternləri çatışmır. Bakı-Batum boru kəməri yalnız ağ neft üçündür. Ondan xam neft çəkmək qeyri-mümkündür. Qafqazda 2000 dəmiryol sisterni olmaldır. Bizim üçün əlçatan gürcü əyalətində, əldə olan məlumatlara görə yalnız 83 vaqon vardır. Qafqazda nə qədər dəmiryol sisterninin olmasını dəqiq müəyyənləşdirmək lazımdır. Bundan əlavə, 1500 qazanxa-

na vaqonlarının hazırlanmasına verilmiş sifarişin tezləşdirilməsinə də nəzarət etmək gərəkdir.

Qafqazdan nəqletmənin çətinliyinə baxmayaraq, mümkün olduğu qədər neft əldə etmək lazımdır. O, quruda 150.000 ton həcmli çoxsaylı neft anbarları olan Breil və Konstansada cəmlənməlidir.

Doktor Herts bildirmişdi ki, nəqletmə ilə bağlı çətinlikləri Volqa yolunun açılması nəticəsində aradan götürməyə nail olmaq mümkündür. Əgər bu, baş tutsa, onda ağ neft yenə də əvvəlki yolla, daha doğrusu, Baltik dənizi vasitəsi ilə daxil ola bilər. Poti limanı neft məhsullarının daşınması üçün hələ avadanlıqla təchiz olunmamışdır. O, yalnız filiz daşınması üçün nəzərdə tutulmuş liman kimi təchiz olunmuşdur.

Bakının tutulmasından sonra neft sahələrinin Nobel firması ilə sıx əməkdaşlıq yolu ilə istismar etmək nəzərdə tutulmuşdur. İsveç vətəndaşı və Nobel firmasının müdiri cənab Xagelinin ləngimədən general fon Kresslə əlaqəsi qurulumalıdır. Nobel zavodlarının sahibkarlarından biri Bakı yaxınlığında bolşeviklərin əsiridir. O, bizim tərəfimizdən azad edilsəydi, çox yaxşı olardı.

**9. Qroznı və Maykop**

Maykop neft sahələrinin bizim əlimizə keçməsi daha məqsədəuyğun olardı. Belə ki, orada əldə edilən neft (Bakıdan fərqli olaraq) benzinlə zəngindir. Maykopun özü heç bir əhəmiyyət kəsb etmir. Bu, ingilislərin fırıldağı idi.

İmzaladı: ***Şulenburq***

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 7394-18***
***s.155-161***

***

**№ 68**

Qafqazda alman imperiya nümayəndəliyi
A 25/9
Əlahəzrət imperiya kansleri
qraf fon Gertlinqə

Tiflis, 7.9.1918-ci il

Azərbaycanda rabitə və tədarük məsələləri barədə çoxsaylı məlumatlar əsasında məsələnin müzakirəsi üçün aşağıda göstərilən cənabların tərəfimdən dəvət edilməsi barədə Əlahəzrətə informasiya verməyi özümə şərəf duyuram:

1) Avropa ticarət mərkəzinin nümayəndəsi cənab Meyerkort;

2) Prussiya Hərbi Nazirliyinin kral müvəkkili mayor Hey;

3) Hərbi Nazirliyin müvəkkili yanında iqtisadi məsələlər üzrə eksperti doktor Pfaff;

4) Missiyanın katibi fon Bettinger.

Müzakirə nəticəsində müəyyənləşdi ki, Türkiyəyə 27 aprel tarixli müqavilənin şərtlərinin həyata keçirilməsində təkid etmək məqsədəuyğun olmazdı. Belə ki, burada söhbət Brest sülhü ilə şərtlənmiş hüdudlarda türklər tərəfindən işğal olunmuş ərazilərdən gedir. Digər tərəfdən, Türkiyə ilə müqavilənin yerinə yetirilməməsindən irəli gələn vəziyyət dəyişkənliyini nəzərə alaraq siyasi mülahizələrə görə onlarla yeni danışıqlara başlamaq vaxtsız olardı. Belə ki, 27 aprel tarixli müqavilənin vaxtının bu il dekabrın 31-də bitməsini nəzərə alaraq, biz bu müddət ərzində tədarük məsələlərinin hansı yolla nizama salınmasını qəti şəkildə müəyyənləşdirməliyik. Əgər Xəzər dənizinin o tayındakı ərazilər İttifaq dövlətlərinin təsir dairəsinə düşəcəksə, onda bu yeni nizamlama xüsusilə zəruridir.

İşlərin belə gedişini nəzərə alaraq Əlahəzrətə aşağıdakı mə-

lumatları vermək qərara alınmışdır:

1) 27 aprel müqaviləsi rəsmi olaraq öz əvvəlki redaksiyasında qüvvədə qalır: bu məsələ indi türklərlə müzakirə olunmur.

2) Avropa ticarət cəmiyyəti Prussiya Hərbi Nazirliyinin razılığı ilə buradakı nümayəndələrinə adı çəkilmiş ərazilərdə öz istədikləri kimi və bilavasitə türklərin iştirakı, yaxud onların vasitəçiliyi ilə tamamilə xüsusi tərzdə tədarük etmək səlahiyyətini verir.

Mən belə firikləşirəm ki, məlumatlarımda məsələnin mahiyyətinin təsvir olunması səbəbindən, xüsusilə də sonuncu təklifimin səlahiyyətli orqanlar tərəfindən heç bir etirazla qarşılanmayacağını güman etməkdə haqlıyam və maraqlarımız üçün artıq indi cənab Meyerkorta müvafiq səlahiyyət verməkdə özümü haqlı hesab etdim.

Mənim qərarıma, buradakı mal bazarlarında qiymətlərin artması, eyni dərəcədə də pambığın İrandan İngiltərəyə satılması təhlükəsi təsir etdi. İndi cənab Meyerkort yaxın günlərdə Nuru Paşa ilə işgüzar danışıqlara başlayacaqdır. Nuru Paşa son görüşündə açıq şəkildə bildirdi ki, bundan sonra gələcəkdə yeni sazişlərin bağlanması türklərin vasitəçiliyi ilə həyata keçirilsin. Təcrübəyə əsasən belə nəticə çıxarmaq olar ki, bu istəkləri həyata keçirməkdən imtina etmək, ixraca icazənin alınması və ərzaq mallarının çıxarılması üçün nəqliyyatla təmin edilməsi ilə bağlı alman sifarişlərinin təmin edilməsində ciddi müqavimətə rast gəlmək olardı. Bununla da tədarükü həyata keçirmək imkanını daha da məhdudlaşdırardı.

Məqsədə nail olmaqda bu yolun nə qədər düzgün olmasını bu gün hələ ki, müəyyən etmək çətindir. Lakin belə fikirləşirəm ki, o, yoxlanılmalıdır. Avropa ticarət cəmiyyətinin üzvləri artıq indi birgə addım atacaqlar. Təklif olunmuş şəkildə xammalı tez və maneəsiz almağın mümkün olmaması meydana çıxarsa, onda tədarük yolları barədə İsmayıl Hakkı Paşa ilə danışıqlarda buna

nail olmağın çıxış yolu qalır. Mən bu məlumatı indiki hərbi və siyasi durumda Bakının neft ehtiyatlarının əhəmiyyəti barədə məsələni yenidən işıqlandırmadan bitirmək istəməzdim. Mən ondan ehtiyat edirəm ki, əgər alman hərbi hissələrinə mənim dəfələrlə irəli sürdüyüm təkliflər ruhunda Bakının tutulmasında iştirak etmək əmri verilsə belə, əlverişli imkan yenə də əldən qaçırıla bilər. Mən artıq teleqraf etmişəm ki, Xəlil Paşa hücuma şəxsən rəhbərlik etmək üçün bu günlərdə Bakı cəbhəsinə yola düşmək niyyətindədir. Mən polkovnik Parakendən xahiş etdim ki, hökumətin qərarı gələnə kimi imkan daxilində Xəlil Paşanın səfərini ləngitsin. Lakin o, imkanı daxilində hər şey edəcəyinə vəd versə də, inanmır ki, Xəlili planlarını yerinə yetirməkdən bir neçə gündən artıq dayandırmaq olar. Hərbi nöqteyi-nəzərdən Bakını türk cəbhəsində toplanmış qüvvələrin köməyi ilə yenidən qaytarmaq mümkündür. Buna görə də mən türklərin tezliklə şəhəri ələ keçirəcəklərini tam ehtimal edirəm. Neft ehtiyatlarını hesaba almaq imkanını əldə etmək üçün bunun ardınca alman hissələrinin göndərilməsini qeyri-mümkün hesab edirəm. Çünki türklər müxtəlif bəhanə və şərtlərlə Ağstafa (Gürcüstan-Azərbaycan sərhədi) dəmiryolu istiqamətindəki hərəkətləri çətinləşdirə və yaxud, onu tam sıradan çıxara bilərlər. Bununla belə, marağı olan dövlətlərin (Almaniya, Avstriya-Macarıstan, Türkiyə, Rusiya, Transqafqaz dövlətləri) nümayəndələrindən ibarət komissiya təşkil etmək zəruridir. Bu komissiyanın vəzifəsinə neft ehtiyatlarının hesabatı və iştirak edən hökumətlər arasında neftin bölgüsünün aparılması daxil ola bilərdi.

Əlahəzrətdən xahiş edirəm ki, bunun üçün lazım olan hər bir şeyi etsin.

İmza: baron ***fon Kress***

I Surəti
Quru qoşunları Baş qərargahının rəisinə
Operativ şöbə - P № 100357 OP

II Surəti
İmperiya İqtisadiyyat İdarəsinin
hərbi-xammal materialları şöbəsinə

İmza
Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 4967***
***s.182-184***

***

**№ 76**

Qafqazda Alman imperiya nümayəndəliyi
İmperiya İqtisadiyyat idarəsinə

25 sentyabr 1918-ci il
Berlin

Qafqazda pis vəziyyətin olmasına baxmayaraq lif tədarükü etmək cəhdləri uğursuzluqla nəticələndikdən sonra və mənim təşkilatım bu xammalla kasıb olan Gürcüstanla məhdudlaşmaq zərurəti qarşısında qaldığından belə hesab edirəm ki, Qafqazda vəziyyəti açıqlaya biləcək və bu ölkədə mənim vəzifələrimi gələcəkdə yüngülləşdirə biləcək ətraflı hesabatı vermək gərəkdir.

General fon Kressin 4 sentyabr tarixli məktubunda əks edilmiş türklərin vasitəsi ilə tədarük etməyimin təsdıqi barədə mənə həvalə olunmuş tapşırıq müsbət nəticələrə gətirib çıxarmadı. Nuru Paşa Bakı cəbhəsinə getdiyi ərəfədə burada idi. Bizim heyətimizin zəmanət məktubuna baxmayaraq, öz katibi ilə mənə çatdırdı ki, hazırda hərbi işlər onun vaxtını çox aparır, ticarət məsələləri ilə məşğul olmaq üçün əvvəlcə Bakını ələ keçirmək və özbaşnalığın hökmran olduğu Azərbaycanda qayda-qanunu

bərqərar etmək lazımdır, yalnız bundan sonra belə məsələlərin həllinə başlamaq olar. Onun sözlərinə görə, Bakıda və Türküstanda olan xammallar barədə də danışmaq lazımdır, çünki bu məsələlər bir-birilə sıx əlaqədədir.

Mən Tiflisə qayıdarkən general fon Kress Nuru Paşanın başqa işlərlə məşğul olması barədə bəyanatını əsaslandrılmış hesab etdi. Belə ki, sonuncu həqiqətən sonrakı günlərdə cəbhəyə yollandı.

Fikrimcə, gələcəkdə də belə boş danışıqlar qarşılıqlı anlaşmaya gətirib çıxarmayacaqdır. Bundan əlavə, qısaca olaraq qeyd etmək istərdim ki, Türkiyə öz işğal zonasını o qədər genişləndirmişdir ki, Qərbi Qafqazda Tiflis istiqamətində İrəvandan şimalda dəmiryolunu və xüsusilə Aleksandropolun özünü zəbt etmişdir və öz sərhəd postlarını İrəvan şəhərindən 5 verst aralıda olan əraziyə qədər çəkmişdir və İrəvanın cənubundan Culfaya qədər dəmiryolunu öz əlində saxlayır. Praktiki olaraq bu onu göstərir ki, Ermənistan Respublikası ilə dəmiryol əlaqələri, indiki yanacaq böhranı olmasa da qeyri-mümkündür. Artıq hamı bilir ki, respublikalar arasında hər növ əlaqəni kəsməyə sistemli şəkildə çalışan Türkiyə, sadəcə olaraq, daşınar heyəti və lokomotivləri müsadirə edir. Əgər biz hətta Aleksandropoldakı türk komandanlığı ilə öncədən razılaşdırmadan sonra özümüzün və yaxud alman hərbi mühafizəsi altında türk daşınar heyətindən istifadə etməklə dəmiryolu əlaqələrini həyata keçirəriksə, türklərlə bizim aramızda işin açıq qarşıdurmayadək gəlib çıxacağı mənə elə də qeyri-adi görünmür.

Azərbaycanda Poyludan şərqdə işlər türklər üçün lap asandır. Türklər orada müstəqildirlər və özlərini müvafiq tərzdə aparırlar. Azərbaycan Respublikası türk əyaləti kimidir, nazirlər isə yalançı şəxslərdir. Lakin orada Türkiyənin zəbt etdiyi ərazilərdə o, amansız soyğunçu siyasəti yeridir.

Azərbaycanda onun əsas diqqətini taxıl ixracı cəlb edir. Taxıl ixracı ölkə daxilində ehtiyacları hesaba almadan həyata ke-

çirilir. Buna görə də ticarət nazırı Aşurov özü mənə demişdi ki, oktyabr ayından bu ölkənin tələbatı üçün taxıl ixracı zəruri həyati məsələ olacaqdır.

Türklərin təzyiqi ilə Azərbaycan Respublikası taxıl, pambıq, yun və ipək məhsullarının ixracını qadağan etmişdir. Belə ki, pambıq sahibkarları ermənilər idi. Türklər azərbaycanlılara sonuncunu oğurlamaq imkanını verdilər. Bundan sonra isə onun hər pudunu 25 rubla yaxın qiymətlə aldılar və (indiki vaxta qədər) Batum istiqamətində təqribən 200 000 pud məhsulu çıxarmışlar.

Azərbaycanlılara məxsus pambığın hər puduna, onların dediyinə görə, 80 rubldan çox ödədilər.

Yunun hər puduna türklər 45 rubl qiymət qoydular. Məlumatlara əsasən, Nuxada (Azərbaycanda) olan böyük miqdarda ipəyin hər pudunu 3000 rubl qiymətində almağa başladılar. Hazırda türklərdə böyük tədarüketmə üçün pul çatışmır.

Rəhbərlik etdiyim təşkilatın fəaliyyəti təqribən 267500 pud pambıq, 76000 pud yun, 113400 qoyun dərisi, 400 pud ipək qalığı, 5500 pud yun və pambıq parçalar, 1200 dənə Asiya örpəyi, 500 dənə qabayunlu örtüklərin alınmasından ibarət olmuşdur.

Bu vaxta qədər alınmış və yüklənmişdir: 22 549 pud pambıq, 22000 pud yun, 3100 pud parça, 40400 baş qoyun.

Mən türklər tərəfindən tamamilə işğal olunmuş ərazilərdə və yaxud İrəvanın özündə pambığın qalan hissəsinin tədarükünü qadağan etdim. Çünki, nümayəndə heyəti ilə aparılan danışıqlar mənim tərəfimdən alınmış malların qəbulu, onların anbarlarda toplanması və ixracı barədə məsələnin həllinə qədər yeni tədarüklərin edilməsinin riskli olması nəticələrinə gətirib çıxarırdı.

Bir də onu xatırlatmaq istəyirəm ki, azərbaycanlılar mənə Bakıdan cənubda Petropavlovskda 80 000 pud Muğan düzü pambığı təklif edirdilər. Lakin mən yuxarıda qeyd olunanları nəzərə alaraq müqavilə imzalamaqdan boyun qaçırdım.

Yun məsələsində də vəziyyət eynidir. Azərbaycan və Dağıstan mənim üçün mənasını itirir və sazişlərimin mühüm hissəsi kağız üzərində qalacaqdır.

Nümayəndə heyətinin iqtisadi qərargah tərəfindən verilmiş keçid barədə icazəyə dair yazılan sorğusu cavabsız qalmışdır.

Hadisələri əsaslı olaraq aydınlaşdırmadan Qafqazdakı bütün fəaliyyətimiz gələcəkdə də çox güman ki, uğursuzluqla nəticələnəcəkdir. Türkiyə istəyir ki, biz danışaqlar aparaq. Bakının birtərəfli işğalı onların mövqeyini möhkəmləndirir. Azərbaycada çağırışların həyata keçirilməsi Qafqazda türk qoşunlarının sayını təqribən 80-100 min nəfərə çatdırmışdır. Bizim Bavariya süvari diviziyasından ibarət sonuncu qüvvələrimizin yarısı yolda məhv edilmişdir. İrəliləmə imkanı həddən artıq məhduddur. Dəmiryoluna gündəlik tələbat üçün 35-40 min pud kömür əvəzinə 13000 pud gətirilir. Qoşunları ərzaqla təmin etmək üçün də pul çatışmır. General fon Kressin əmri ilə mənə tədarük üçün verilmiş məbləğdən 5 milyon rubl müsadirə edilmişdir. Buna görə mənim təşkilatım üçün yaxın vaxtlarda nə isə əhəmiyyətli bir iş görmək mümkün deyildir. Bakının türklərin əlində olduğu hazırki şəraitdə Türküstan haqqında məsələ üzrə İngiltərə ilə türk sazişi təhlükəsindən əlavə bizim Türküstanda görüşməyimizlə ingilislərin ciddi müqavimət göstərməsinin mümkünlüyü barədə (istənilən halda və xüsusilə də indi bununla hesablaşmaq lazımdır) məlumat ortaya çıxmışdır.

Bizim indiyə qədər yeritdiyimiz siyasəti nəzərə alaraq iqtisadi və siyasi maraqlarımıza necə riayət edəcəyimiz bəlli deyildir. Yerli şəraitə bələd olan hər bir kəsin Qafqazdakı indiki ikihakimiyyətliliyin ölkənin yalnız talan edilməsi demək olduğna şübhəsi yoxdur. Qafqaz eyni zamanda müxtəlif dövlətlər tərəfindən idarə oluna bilməz. Özünüidarəetməni mən bu halda elə də diqqətə almıram, çünki bu oyuncaq hökumətdir. Qarşılıqlı əngəllər faciəyə, türklərin talançı siyasəti isə onlar tərəfindən işğal olunmuş ərazilərin müflisləşməsinə gətirib çıxarmalıdır.

Gürcüstan üçün əngəl siyasəti bütün ərzaq, o cümlədən digər malların, həmçinin xammalın qeyri-adı surətdə bahalaşması, daha doğrusu, ödənişın bütün vasitələrinin qiymətdən düşməsinin daim və tez artması deməkdir.

Fikrimcə alman reyxi Qafqazda, xüsusi ilə manqan filizinin əldə edildiyi bir vaxtda öz dövlətinin marağını bundan sonra da müdafiə etməli və yaxud etmək istəyində olduğunu həll etməlidir.

Belə olduğu halda o, dərhal öz mövqeyini möhkəmlətməklə Qafqazda hökmranlığa nail ola bilər. Bizim tərəfimizdən qəti tədbirlərin həyata keçməsi ilə türklərin özlərini qalib hesab etməsini zənn edən tək mən deyiləm; əks halda bizim Tiflisdəki çox məsrəf tələb edən aparatın tərkibini nə məqsədlə getdikcə artırmağımızı başa düşə bilmirəm. Bu vaxta qədər iqtisadi sahədə görülən hər bir iş təəssüfləndiricidir. İstanbulda Qafqaz xammalını türklərdən baha qiymətə almaq yolu sonuncu çıxış olması təhlükəsini yaradır. Lakin bu yolla getmək üçün bahalı aparatı çoxaltmağa heç lüzum yoxdur. Türklərin Qafqazda özlərini necə aparmalarını tam ciddiliklə mühakimə etməyə heç bir şübhə yoxdur. Mövcud vəziyyət dəyişikliyə məruz qalarsa, bizi - ölkədən mənfəət əldə edə bilməyənləri də ölkənin amansız şəkildə talan edilməsi siyasətində, xüsusilə xammal tədarükünü türklərə təqdim etdiyimiz və qarət edilmiş ermənilərin gözü qarşısında müxtəlif yollarla oğurlanmış malları türklərdən baha qiymətlə aldığımız bir halda məsuliyyətə cəlb edə bilərlər. Belə bir şəraitdə, mənə elə gəlir ki, məhdudlaşma və Qafqazda maraqlarımızı ləğvetmə işini aparmaq daha dəyərli olardı.

Lakin güclü siyasət yeritməklə Qafqazın öz qeyri-adi təbii zənginlikləri, xoş iqlimi və məhsuldar torpağı ilə bizim üçün əhəmiyyətli olması şübhəsizdir.

Azərbaycanlılarla ermənilər arasında qatı düşmənçiliyi, gürcülərin isə kifayət qədər məhdud sayda olduğunu nəzərə alsaq, onun işğal edilməsi şərtləri çox asandır. Lakin bütün hallar-

da quldur dəstələrini təhlükə altında saxlayan və əhalinin canını və malını əsaslı şəkildə müdafiə edəcək güclü polis dövlətinə ehtiyac vardır. Bunun üçün Şərqə həqiqətən yaxşı bələd olan, tam hakimiyyətlə əhatə olunmuş, erməni və azərbaycanlıların mənəviyyatın ən aşağı pilləsində durmasına və onların möhkəm şəkildə ələ alınmalarını istəməsində heç bir şübhəsi olmayan şəxsiyyət və güclü əl tələb olunur. Və belə bir halda deviz aşağıdakı şəkildə səslənməlidir: fəaliyyət göstərmək, lakin danışıqlar aparmamaq. Bu zaman ölkənin bərpası mümkün olacaq və kifayət qədər mühüm mal mübadiləsinin yardımı ilə əhali maddi cəhətdən yenidən səhnəyə gələn vahid Rusiyadan asılı olmadıqlarını sübut etmək imkanına malik olacaqdır.

İndi mövcud olan vəziyyətdə azərbaycanlılar, ermənilər və gürcülər mənfur Nikolay dövrünü kədərlə arzulamalı olurlar.

İmza: ***Meyerkort***

Potsdam Mərkəzi arxivi,
***fond 1-DR, sən. 9439***
***s. 201-205***

# VII

# BÖYÜK BRİTANİYA ARXİV MATERİALLARI

Böyük Britaniya Xarici İşlər Nazirliyinin arxivi
4 dekabr 1917-ci il tarixindən
konsul Stivensin teleqramına 35 №-li əlavə

## TRANSQAFQAZ KOMİSSARLIĞININ BƏYANATI

Transqafqaz xalqlarına!

Bir əsrdən artıqdır ki, Transqafqaz xalqları öz həyatını Rusiya ilə bölüşərək bir ittifaqda yaşayıb-yaratmışlar. Əvvəllər onlar öz həyatını və onlara mənsub olan sərvətləri idarə etmək iqtidarında idilər. Belə ki, bu xalqlar malik olduqları hüquqları ilə artıq yaxınlaşan iqtisadi və siyasi fəlakəti aradan qaldıra bilərdilər.

Ümumiyyətlə, Transqafqaz xalqlarının həyatı və onların normal inkişafı Rusiya ilə sıx əlaqədardır. Ölkədə əsas inqilabi azadlıqların zəruriliyinin təminatı, demokratiya və xalq hakimiyyətinin razılığı çərçivəsində vətəndaş müharibəsinə dair məsələlərin həllini nəzərə aldıqda millətlər arasında dəstəklənən Rusiya respublikasının yaradılmasına ehtiyac duyulurdu.

Ölkənin bu istiqamətə yönəlməsi bütün siyasi partiyalar və sosial-demokrat təşkilatlar arasında əldə edilən anlaşma nəticəsində Müvəqqəti hökumət yaradıldı. Bu hökumət müvəqqəti sayılırdı və Ümumrusiya Müəssislər Məclisi çağırılana qədər bütün lazımi səlahiyyətlərə malik idi. Əgər fövqəladə şəraiti nəzərə alsaq, belə halda Müəssislər Məclisinin vaxtında çağırılması mümkün olmayacaqdır. Lakin Müvəqqəti hökumət öz səlahiyyətlərini Transqafqaz və Qafqaz cəbhəsindən Müəssislər Məclisinin üzvü sayılan deputatların təşkil etdiyi konfransın çağırılmasına qədər qoruyub saxlayacaqdır.

Bu hökumət müvəqqəti xarakter daşıyırdı. O, əhalinin ən vacib ehtiyaclarının təmin edilməsi ilə bağlı məsələləri həll etmək hüququna malikdir.

Maliyyənin və ordunun təşkili çətinliklərindən, əhalini “ac

qalmaq" qorxusundan qurtarmaq və müvafiq ehtiyatlarla təmin etmək üçün aşağıdakı növbəti tədbirlər həyata keçiriləcəkdir: nəqliyyat vasitələrinin yaxşılaşması və tərxisin ən vacib şərtlərindən sayılan yol və əlaqələrin yaxşılaşması istiqamətində; ictimai qayda-qanun mühafizəsinə; istehsal və onun düzgün paylanmasının yoxlanılmasına; fəhlə sinfinin maraqlarının qorunmasına; demokratik zemstvoların dərhal institutlaşdırılmasına; bəzi yerlərdə kilsə, dövlət və xüsusi şöbələrin idarə edilməsi ilə əlaqədar mövcud olmayan yerli komitələrin dərhal təşkilinə və yaxın vaxtlarda müsadirə olunacaq məktəblər haqqında məlumatın yayılmasına; demək olar ki, Müəssislər Məclisinin müvafiq qanunverici orqanına məlumat çatdırılması məqsədi ilə bütün torpaq məsələlərini nizama salan qanunvericilik bazasının yaradılmasına; bütün zümrə imtiyazlarının dərhal ləğv edilməsinə; nəhayət, inqilabi prinsiplər əsasında bütün millətlər arasında mehriban qonşuluq münasibətlərinin qaydaya salınmasına dair.

Transqafqaz Komissarlığı rus inqilabçıları tərəfindən elan edilən xalqların öz müqəddəratını təyinetmə prinsiplərini nəzərə alaraq Cənubi Qafqazda milli məsələlərin tez və ədalətli həlli üçün vacib addımlar atacaqlar.

Rusiya cəbhəsinin bütövlüyünü qoruyub saxlamaqdan ötrü Transqafqaz hökumətinin komissarları Qərb cəbhəsində gedən hərbi əməliyyatlarla bağlı qəbul olunmuş bütün prinsipləri və əsas şərtləri, həmçinin Transqafqazda məskunlaşmış xalqın yerli şəraitini və istəyini rəhbər tutaraq, dərhal sülh müqaviləsinin bağlanması üçün ən ciddi tədbirlər görməlidirlər.

Yuxarıda sadalanan bütün müəssisələr hökumətin gələcək fəaliyyəti üçün bazis və presedent formalaşdırır...

Transqafqaz Komissarlığının bütün əmr və göstərişləri dərhal və təxirə salmadan həyata keçirilməlidir.

Bu hökumətin əleyhinə hər hansı bir hərəkət Transqafqaz xalqlarını vətəndaş və millətlərarası qırğına çəkmək kimi qiy-

mətləndiriləcək və hökumətin ixtiyarında olan partiya və təşkilatların malik olduqları güc və qüvvələrin köməyi ilə ifşa olunaraq yatırdılacaqdır.

Transqafqaz Komissarlığı azadlıq və inqilabın tərəfdarları olan hər bir kəsi hökumətin ətrafında sıx birləşməyə, çiyin-çiyinə inqilabın yaradıcı işləri yolunda birgə addımlamağa çağırır.

Transqafqaz xalqları! Bizim taleyimiz sizin əlinizdədir. Gəlin üzərimizə düşən vəzifələrin vacibliyini hamıya nümayiş etdirək.

Gəlin tarixi problemləri asanlıqla dəf edək və bütün dünyaya Böyük inqilabın ədalətli ideallarının canlı nümunəsini və inqilabın insan həyatında gözəl təcəssümünü nümayiş etdirək.

Sonra 12 komissarın imzası göstərilir.

## 4. Azərbaycanda siyasi vəziyyət

### *4.1. Parlament sistemi*

Parlament ümumi səsvermə yolu ilə seçilməmişdir. O, Milli Şura və Fəhlə partiyalarının müəyyən etdiyi deputatlardan ibarətdir.

Parlamentin 2/3 hissəsi azərbaycanlılardır. Onlar da 3 partiyanı təmsil edirlər: hökuməti dəstəkləyən mühafizəkarlar, müsavatçılar (millətçilər) və azərbaycanlı sosialistlər. Yerdə qalan hissə isə Rusiya Milli Şurasının (böyük hissəsi - monarxistlər və kadetlərdən ibarətdir) nümayəndələri olan ruslar və ermənilərdən ibarətdir.

### 4.2.

Siyasi meyllər kifayət qədər məhduddur. Çoxluq təşkil edən müsəlmanlar Rusiyadan tamamilə ayrılmağı arzulayırlar, İran və yaxud Transxəzər türkmənləri ilə də birgə ittifaqın əleyhinədirlər. Şimali Qafqaz xalqlarına müəyyən hörmət bəslənilir.

## 5. Rusiya tərkibində olan Azərbaycanın iqtisadiyyatı

Britaniya yenidən Bakının işğal edənə qədər Azərbaycanda tez-tez müxtəlif, uzun sürməyən dövlət dəyişiklikləri baş verirdi: bolşeviklər, türklər və azərbaycanlılar, sosialist inqilabçılar bu dəyişikliyin səbəbkarları idilər. Lakin az miqdarda da olsa, onlar öz ianələrini baş verən qarmaqarışıqlığa sərf etdilər. Belə ki, heç bir müvafiq qızıl təminatı olmayan kağız pullar buraxıldı.

Ticarət əlaqələri bir tərəfdən Britaniya dəniz blokadası, bir tərəfdən də Gürcüstan və Şimali Qafqaz ilə olan narazılıqlar ucbatından iflic vəziyyətində idi. Nəticədə dəmiryolları və dəniz sularında üzən gəmilər sıradan çıxır, təcili təmirə ehtiyac duyurdular.

Rubl öz dəyərini itirmişdi. Buna baxmyaraq, həyat davam edirdi. Ölkədə maddi və iqtisadi böhranlar hökm sürürdü. Demək olar ki, əhali artıq sabit hökumətin olacağına inanmadığından kredit institutlarına etibar etmirdilər. Aşağıda sadalanan sahələrdə yenidənqurmaya ciddi zərurət yarandı:

*a) Bank sistemi*
*b) Əmək fəaliyyəti*
*v) Nəqliyyat sistemi*
*q) Neft sənayesi*

### *(a) Bank sistemi*

Mövcud vəziyyətdə Britaniya bankının yaradılması heç də yaxşı təsır etmir. Belə ki, bu, britaniyalıların fikrincə, paxıllıq və çaxnaşmaya gətirib çıxara bilərdi. Beləliklə, yeganə mövcud olan bank İranın Şahənşah bankıdır. Bu bank da maddi məsələlər üzrə uzun sürən proqramları həyata keçirmək iqtidarında deyildir. Yuxarıda ifadə olunanlara əsasən qərar verildi ki, yenidən qurulmaqla Dövlət bankı açılsın.

Bu məqsədə köhnə Rusiya imperatorluğu Dövlət bankının və Azərbaycanda mövcud olan Dövlət bankının filialları ilə bir-

gə səylər nəticəsində çatmaq mümkün oldu.

Uzun sürən danışıqlardan sonra təsisçilərin nəzarəti altında bank 1919-cu il yanvar ayının 4-də açıq elan edildi.

Haqqında danışılan bank Azərbaycan hökumətinin Bakı banklarının bon-pul və s. almaq üçün kredit kağız; müvəqqəti kağız pul buraxılışına nəzarət edirdi.

Əhali artıq inanırdı ki, bank öz tərəfdarlarının nəzarəti altında fəaliyyət göstərənə qədər onun fəaliyyəti həqiqi və ümidverici olacaqdır.

Depozitlərin miqdarı onu göstərir ki, sərmayəyə qoyulan pullar nə müsadirə olunacaq, nə də ki, ekspropriasiya olunacaqdır və pul qoyan şəxs istənilən vaxtda pulunu geri götürə biləcəkdir.

Neft sənayesinə maliyyə vəsaiti buraxıldı (əmək haqqı və birinci növbədə, biznes fəaliyyəti üçün 50 000 000 manat ayrıldı).

Əmək haqqı üçün olan ödəniş 28 000 000 manat təşkil edirdi.

Həyata keçirilən tədbirlər iqtisadi böhranı aradan qaldırmağa imkan verirdi. Sənayenin digər sahələri üçün də belə tədbirlər həyata keçirilmişdir.

İş adamları öz paylarını banka qoymağa başladılar. Bu da əhalinin hakimiyyətə olan etibarından bir daha xəbər verirdi. Bakıdakı işgüzar şərait müəyyən qədər qaneedici vüsət almışdı. Lakin istənilən fəallıq nisbətən ləng bərpa olunurdu. Dəmiryol şəbəkəsinin tam fəaliyyətə başlaması və sonrakı ticarət fəaliyyəti üçün bank daimi idarəçiliklə əvəz olunmalı idi.

Gələcək iqtisadi inkişafa dair qərarların verilməsi üzrə artıq yolda olan Maliyyə Komissiyasının gəlişi gözlənilirdi.

### *(b) Əmək*

1918-ci ilin sentyabrından noyabrına qədər sürən türk işğalı ərəfəsində demək olar ki, dəmiryol və neft mədənləri işçiləri-

nin əmək haqlarının ödənilməsinə dair heç bir tədbir görülməmişdi. Xəzər-Tıcarət donunmasının matrosları və dok fəhlələri də bu vəziyyətdə idilər. Bakıda fəhlənin ümumi sayı 65000 nəfəri təşkil edirdi. Bir hissə isə britaniyalıların əleyhdarı olan bolşeviklərdən ibarət idi. 1918-cu il 17 noyabr tarixində Bakının təkrar işğal olunması faktı da qismən ehtiyatla qarşılanmışdır. Əmək haqqı borclarının ödənilməsindən başqa şəhərin ərzaqla təminatı və qiymət dəyərinin sabit və əlverişli olmasının mühafizə edilməsi üçün də müvafiq tədbirlər görülmüşdür. Mürəkkəbləşən vəziyyətin müzakirə edilməsi üçün fəhlə liderləri fikir söyləməyə dəvət olundular. Aydınlaşdırıldı ki, işçilərə əmək haqqı vatı-vaxtında ödənilmədiyindən ciddi yoxsulluq keçirmişlər. Fəhlə qanunvericiliyinin təkmilləşdirilməsini əsas tutaraq yerli hakimiyyət bu çətinliyi aradan qaldırmaq məqsədi ilə Fəhlə Bürosunu yaratdı.

Ümumiyyətlə, Britaniya ilə müqayisədə burada fəhlələr sakit həyat sürürlər. Lakin inqilab dövründə işsizlik nəticəsində və axırıncı dəfə hakimiyyətin bolşeviklər tərəfindən idarə olunmasını nəzərə alsaq, onlar arasında diqqəti cəlb edən narazılıqlar müşahidə olunurdu.

Fəhlələrin təşkil olunması pis deyildi. Onlar sosial-demokrat ideyalarına yoluxmuşdular. Bu da yaxınlarda baş vermiş toqquşmanı göstərirdi. Bununla bərabər, fəhlə sinfi regionda gələcək ticarət əlaqələrinin inkişafına ciddi təsir edə bilən müstəqil amil idi.

Əgər hərbi əməliyyatları və qorxunc şəraiti nəzərə alsaq, mütəşəkkil fəhlələrin sayı bir o qədər də çox deyildir.

*(c) Nəqliyyat sistemi. Dəmiryolları*

Britaniya işğalına qədər dəmiryol sistemi bır neçə ay ərzində fəaliyyət göstərmirdi. Gürcüstan və Azərbaycan arasında olan dəmiryol əlaqələri neft məhsularının daşınmasının zəruri-

liyindən kifayət qədər fəallaşmışdı. Dəmiryol şəbəkəsi müntəzəm surətdə təmir edilirdi.

Gürcüstana gəldiyimiz zaman dəmiryollarının şpallarını sökərək yanacaq şəklində istifadə edir, Azərbaycan ərazisində sexlər tikməyə cəhd edirdlər.

Xüsusi Britaniya missiyasının növbəti dəfə Bakıya gəlişi zamanı zir-zibillə tutulub-tıxaclanmış yolların təmizlənməsinə başlandı. Təmir işləri indiyə qədər də davam etdirilir.

Gəmiçilik

Rus inqilabı ərəfəsində Xəzər dəniz gəmiçiliyi milliləşdirilmişdi. Britaniya işğalının sonunda gəmiçiliyin əsas hissəsi Petrov limanında general Bıçeraxovun başçılığı altında, qalan hissəsi isə Həştərxanda bolşeviklərin nəzarəti altında idi. Ümumiyyətlə, ciddi təmirə ehtiyac duyurdu. İşğalın lap başlanğıcında britaniyalılar Həştərxanda bolşeviklərin nəzarəti altında olan hissələrdən başqa, Xəzər dəniz ticarət donanmasının əsas hissəsini ələ keçirdilər.

Bütün gəmilər milliləşdirilmə xüsusiyyətlərini itirərək, gəmi sahibkarları şurasının səlahiyyətli nümayəndələrindən Britaniya nümayəndələrinin nəzarəti altına keçdi. Ümumiyyətlə, bu, böyük uğur demək idi. Rus matrosları birtaniyalılara və eləcə də hər hansı bir nəzarətə də qarşı idilər. Onların sahildə olduqları vaxt da nəzərə alınmaqla əmək haqqı ödənişləri həyata keçirilirdi.

Vəziyyəti nəzərə alıb onlar əvvəlki normal iş rejiminə qayıtmağa razılaşdılar. Baxmayaraq ki, hələ bunun vaxtı deyildi: buna misal olaraq, onların gəmini öz əllərinə keçirməyə cəhd etməsini göstərmək olar. Matroslar tətil etdilər və gəmi sahibkarları müvəqqəti olaraq geri çəkilməyi qərara aldılar.

Gələcəyə inamsızlıq, bolşeviklərin Həştərxanı işğal etmələri, İranda və Azərbaycanda şəraitə uyuşmayan tariflər, şübhəsiz, işgüzar fəallığa və mal dövriyyəsi həcminə mənfi təsir gös-

tərirdi. Lakin bu hadisə də müvəqqəti idi. Bizim əsas maraqlarımız qısa bir zamanda İran və Azərbaycan arasında ticarət əlaqələrini qaydaya salmaqdan ibarətdir. Bu sözlər Britaniya nazirinin Tehran şəhərinə səfəri zamanı xüsusi vurğuladığı fikir idi.

Bu gün Xəzər dənizində olan ticarətin həcmi Xəzər dəniz ticarət donanmasında olan gəmilərin 1/3 hissəsini əhatə etmək imkanındadır. Hər bir halda yerdə qalan gəmilərə kömək etməyə ehtiyac vardır. Onlar yaz fəslində nefti Həştərxana daşıyırlar. Belə bir şərt vardır ki, bu liman ticarət əməliyyatları üçün boşaldılsın və hər növ yüklərin buraya gətirilməsinə imkan yaradılsın.

Ümidvaram ki, bu gəmi parkı haqqında qaldırılan məsələ tezliklə həll olunacaqdır. Baxmayaraq ki, bu məsələ üzrə əvvəlki müzakirələr heç də qənaətbəxş deyildir.

Başqa nəqliyyat növləri baxımından at-araba və avtomobil nəqliyyatının çatışmamazlığını qeyd etmək lazımdır. Ona görə ki, bu nəqliyat növləri türk qoşunlarının Azərbaycanda olduğu müddətdə müsadirə edilmişdir. Nəhayət, dəmiryollarının fəlakətli vəziyyəti ilə əlaqədar Bakıya ərzağın daşınması çətinləşmişdir.

*(d) Neft*

1918-ci ilin noyabr ayınadək bu sənaye bölgəsində olan vəziyyət dəniz blokadası, Transqafqaz Respublikasının süqutu, Gürcüstan və Azərbaycan arasında olan son qiymətlər üzərində gedən mübahisələrlə əlaqədar olaraq ağırlaşdı. Bundan əlavə, Bakıda nəhəng neft ehtiyatlarının yaranmasını təmin edən fəhlə qüvvəsinin yoxa çıxması və nəqliyyat sisteminin dağılması vəziyyəti bir daha ağırlaşdırdı. Azərbaycanın Gürcüstan vasitəsi ilə neft ixracına qadağa qoyulması, həmçinin, kəmərin özünün zədələnməsi neftin kəmər vasitəsilə ötürülməsinə əngəl yaratdı.

Britaniya işğalının əvvəllərində belə razılıq əldə olundu ki,

neftin kəmər vasitəsi ilə ötürülməsi təzələnməlidir. Neft kəməri qoşulmuş halda idi. Lakin Gürcüstan aldığı neftə görə pul ödəmədiyindən neftin ötürülməsi yenidən dayandırıldı. Maraqlı tərəflər arasında bu məsələ müzakirə olunurdu. Neft sənayesinin vəziyyəti haqqında olan hər bir məlumat təfərrüatı ilə xüsusi olaraq təqdim olunmuşdur. Vəziyyəti nəzarətə götürmək lazımdır.

Neft emalı və maliyyə vəsaitləri üçün sobalar və mexanizmlərin ciddi çatışmamazlığı hiss olunurdu. İstehsalçılar yeni neft quyuları qazıntıları üçün əlavə pul vəsaitlərinə ehtiyac duyurdular.

Neft emalı sahələrinin böyük hissəsi Nobel firmasının nəzarətindədir və firma neftin ixracatına mühüm təsir göstərir. Bundan əlavə, firma Alman bankı tərəfindən maliyyələşdirilir. Bu da bizim göstərilən imtiyazlara təsir göstərməyimizin zəruriliyini tələb edir. Digər tərəfdən, maliyyə nəzarəti yerli hakimiyyət tərəfindən neft üzrə müəyyən edilmiş qiymətləri dəstəkləyən yerli istehsalçılara aiddir. Bizim üçün bu, müvəqqəti olaraq məqbul idi.

Mən ümid edirəm ki, Maliyyə Komissiyası öz səfəri zamanı bu məsələyə böyük diqqət yetirəcəkdir.

İstehsalın əsas və başlıca növü sənayenin bütün digər sahələrini geridə qoyan neft sənayesidir. Rus metodlarının təsərrüfata tətbiq edilməsindən kənd təsərrüfatı olduqca bərbad hala düşmüşdür.

Torpaq sahələri kifayət qədər məhsuldardır, bol buğda, düyü, arpa yetişdirilir.

Lənkəran öz meşələri, zəfəranı və ədviyyatı ilə zəngin bölgədir. Rus hakimiyyəti dövründə vergiqoyma xarakterinə görə: gəlir üzərinə qoyulan vergi, dən, torpaq və sənaye üzərinə qoyulan vergilərdən ibarət idi.

Bu sistemə görə Bakı quberniyası yetərincə özünü təmin

edə bilir, həmçinin Dağıstana, Gürcüstana və İrəvana maddi yardım edirdi.

Axırıncı dəfə vergilər 1917-ci ıldə regionun, xüsusən, dəmiryol vasitəsi ilə əlaqə saxlanılan bölgələrindən yığıldı və sonra dayandırıldı.

Müharibə zamanı türklər Azərbaycan ərazisində məhsulun 1/10 hissəsinə vergi qoymuşdular.

İndiki hakimiyyət də vergi qoyuluşunu və vergi ödəyəcisinin ödəmə qabliyyətinə bu prinsipin nə dərəcədə təsir etməsi üzrə təhqiqatı əvvəlki cədvəl üzrə aparır. Vergilər pul əskinasları ilə ödənilir. Faydalılığın əmsalı hesablanmır.

İstər şəhərlərin, istərsə də əyalətlərin əhalisi, ümumiyyətlə, Azərbaycan əhalisinin böyük hissəsi çox əməksevərdir. Məsələn, Bakıda müftəxor müsəlman, demək olar ki, yoxdur. Tətillərin böyük hissəsi siyasi xarakter daşıyır və rus təşkilatçılarının təşəbbüsü ilə keçirilir.

Azərbaycanlılar da Transqafqazda olan digər milli təşkilatlar kimi rus hakimiyyəti dövründə onlara qarşı olan etinadsızlıqdan danışırlar. Bakıda və əyalətlərdə ibtidai məktəblərin sayı çox məhdud idi. Bakıda bir neçə təhsil ocağı fəaliyyət göstərirdi. Yelizavetpol və Nuxada bir təhsil ocağı yerləşirdi. Ali təhsil məktəbləri mövcud deyildi. Belə vəziyyət rus hakimiyyətinin qoyduğu bir irsdir və bu gün də buna oxşar hallar özünü göstərir. Buna baxmayaraq, Təhsil Nazirliyi ümumi ödənişsiz əsaslarla 7 yaşından yuxarı uşaqların təhsil ilə təmin olunması və orta təhsil ocaqlarında cədvəllərin genişləndirilməsi üzrə layihə işləyib hazırlamışdır.

Yekunda demək olar ki, ticarət baxımından region geniş imkanlara malikdir. Təbii sərvətlərin mövcudluğuna baxmayaraq, region əmtəə qıtlığı keçirir. Bundan əlavə, yerli valyutanın dönərliyi də müəyyən çətinlik içindədir.

Növbəti iqtisadi inkişaf üçün mütləq mərkəzi nəzarətin olması vacibdir. Lakin mərkəz kütləvi çətinliklərin aradan qaldı-

rılmasına məcburdur. Müdiriyyətlərin rüşvətlə ələ alınmaları, korrupsiya, milli düşmənçilik və işdəki intizamsızlıqlar da aradan qaldırılmalıdır. İnsanlarda hakimiyyətə qarşı inam yaratmaq və kreditlərin təcili əldə edilməsi üçün əsas maliyyə vəsaitləri axtarmaq lazım olacaqdır.

## 13 Rusiya tərkibində olan Azərbaycanın cəhdi

*Əsas istiqamət*

Azərbaycanlı əhalinin bir hissəsi suveren Azərbaycanın təcrübəsizliyini dərk edir və başa düşür ki, bir neçə vaxt keçdikdən sonra Azərbaycan yenidən Rusiyanın tərkibinə keçmək istəyəcəkdir. Bu, yaxınlarda hökumət rəhbərlərinin Antanta və Denikinlə danışıqların keçirilməsi üzrə məsləhətləşmələri zamanı qabarıq şəkildə özünü göstərmişdir.

## Qonşu dövlətlə münasibət

Dəmiryol və neftlə bağlı ödənişlərin düzgün aparılmamasına görə Gürcüstana qarşı münasibət ürək açan deyildir. Bu, Bakının Gürcüstana rəğbət bəsləmədiyini göstərir. Bu da Gürcüstanın vəziyyətini ağırlaşdırır. Çünki Gürcüstanın sənaye və maliyyə problemləri birbaşa neft ticarətindən asılıdır.

Ermənistan və Azərbaycan heç vaxt birləşməyəcəkdir. Buna görə də regiondakı dövlət təhsili Terekdən İran sərhədinə qədər olan ərazidə milli əlamət (azərbaycanlı) üzrə aparılacaqdır.

## 1. Britaniyaya münasibət

Bizim üçün ən böyük maneələrdən biri düzgün etirafımızın bütün tərəflər üçün şübhə yaratmasıdır. Könüllü ordunun bizə

qarşı münasibəti ikibaşlıdır: bir tərəfdən, Denikinə göstərdiyimiz kömək minnətdarlıqla qarşılanır, digər tərəfdən isə bizim "qarışmamaq" siyasətimiz, yəni zəngin təbii sərvətlərə malik və Rusiya sənayesi yerləşən Qafqaz regionunu Rusiyadan ayırmaq istəyimiz şübhə doğurur.

Sosialistlərin nəzərində biz imperialistlər və monarxistlər kimi görünürük və bizim Denikinə göstərdiyimiz kömək təkcə bolşevizmə qarşı müharibəyə dəstək vermək kimi yox, həmçinin, Fevral inqilabı ərəfəsində fəhlə sinfinin əldə etdiyi hüquq və azadlıqların əllərindən alınmasına dəstək vermək kimi qarşılanır.

Bizim məqsədlərimiz müsəlmanların diqqətini cəlb edirdi. Onlara qarşı olan münasibətimiz bizə qarşı rəğbəti olan Gürcüstana münasibətdən fərqlənirdi. Azərbaycan ərazisinə qoşunlarımızın daxil olması birtərəfli qəbul edilərək, yalnız bırbaşa işğal kimi izah olunur.

Həmçinin, bu fakt da inkar edilmir ki, Britaniya qoşunlarının Bakıya daxil olması sənayenin inkişafı üçün müsbət hesab edilən mülkiyyətin mühafizəsinə və mülkiyyət üzərində qayda-qanunun bərpasına imkan yaratmışdır.

Britaniyanın məhkəmə sistemi daha yaxşı hesab edilir. Belə ki, Britaniya imperiyası bütün dünya üzrə müsəlman əhalisinin böyük hissəsi üçün himayədar və mühafizəçi idi.

Bütün bunlara baxmayaraq, Azərbacan hələ də Türkiyəyə onunla bir dinə qulluq etdiyinə görə rəğbət bəsləyir.

## 2. Ərazi iddiaları

(a) Azərbaycan, həmişə onun ayrılmaz hissəsi olmuş Zaqatala əyalətinə görə ciddi iddialar irəli sürür.

(b) Yelizavetpol quberniyasına daxil olan Qarabağ regionuna görə Ermənistanın irəli sürdüyü iddiaya qarşı Azərbaycan nizam-intizam nümunəsi olaraq Şuşada müsəlman hökumətinin

bərpa edilməsini tələb edirdi. Əgər müsəlman hökuməti olarsa, bu şəraitdə heç bir şey müsəlman və ermənilərin birgə yaşamasına əngəl törədə bilməz. Və belə bir misal göstərilir ki, ermənilər və müsəlmanlar 1905-ci il təxribatına qədər heç bir toqquşma olmadan Bakı, Yelizavetpol və Şamaxıda birgə yaşamışlar. Azərbaycanın bu cür fikir irəli sürməsinə görə və əgər ermənilərin təcrid olunmasını nəzərə alsaq onda görərik ki, onlar müsəlmanların üstünlük təşkil etdiyi ərazidə və öz hakimiyyətlərindən uzaqda yaşayırlar, həmçinin, millətçilik ideyaları zəminində heç bir toqquşma müşahidə edilmir.

Bu, müsəlmanlar üçün kifayət dərəcədə güclü sübutdur və qarşı tərəfdən anlaşma ilə qarşılanmır...

Əgər əhalinin bu və ya digər hissəsinin qovulması, yaxud deportasiyası üçün güc tətbiq edilməzsə, Azərbaycanın əhali mübadiləsi prinsipini (ermənilərin azərbaycanlılarla əvəz olunması və əksinə) qəbul etməsi mümkündür...

***FR 371/3662   27588***

***

(3631/W 38)
Cənab P.Koks
Bağdad
3 yanvar 1918-ci il
(Xarici İşlər Nazirliyinə ünvanlanmışdır.
Nüsxə isə dövlət katibinə təqdim edilmişdir)

22. Mənim 22 dekabr tarixində göndərdiyim (6259) teleqramımdır, növbəti dəfə - Noyel, 476, 31 dekabrda.

Beləliklə, Ərəbistan padşahını mütləq hərəkətə gətirmək lazım idi ki, o, Qafqaza, bütün Qafqaz və Krım müsəlmanlarından kömək istəməyə əsas deputatlar qrupunu göndərsin, türk əsarətindən müqəddəs yerləri xilas etmək üçün ərəblərin müba-

rizəsində onlara kömək etsinlər. Onları müharibəni davam etdirməyə inandırmaq, bununla yanaşı türk qoşunlarının böyük hissəsini Qafqaz cəbhəsində qalmağa məcbur etmək lazımdır.

"Planın ikinci hissəsi - Qafqaz və Məkkəni əlaqələndirən dəmiryolunun bütün dünya müsəlmanları üçün tikilməsi məcburiyyətindən, dövri mətbuatda əhəmiyyətli təbliğatın genişləndirilməsindən ibarətdir. Azərbaycan cəmiyyətinin ticarət təkamülü o səviyyəyə gəlib çatmışdı ki, gələcək ticarətin zahiri görünüşünə böyük önəm verilirdi və təbliğati baxımdan bu məsələ böyük maraq doğururdu. Bunu göstərərək, biz kommunikasiya xətlərinin açılışına və regionda ticarətin gələcək inkişafına razı olduğumuzu bildiririk".

"Bu gün təbliğat sahəsinə heç bir əlavələr edilməmişdir və bu fəaliyyət sahəsi Almaniya üçün tamamilə cəlbedici hesab edilir".

Şübhəsiz, cənab rəis mənim heç bir hərəkət edə bilmədiyimi nəzərə alaraq uyğun əmr verəcəkdir.

***FO 371/3300 27502***

***

Cənab P.Koks
Bağdad
25 yanvar 1918-ci il

(Xarici İşlər Nazirliyinə ünvanlanmışdır.
Nüsxə Hindıstan üzrə Xarici İşlər Nazirliyinə göndərilmişdir)
(26 yanvar, axşam saat 6:00 radələrində
Hindıstan üzrə Xarici İşlər Nazirliyi tərəfindən alınmışdır)

Qeyri-rəsmi. Noyeldən, 24 yanvar 1918-ci il

“Qeyri-rəsmi məlumat. Mənim 6 həftə bundan əvvəl Bakıda olduğum müddətdə Azərbaycan cəmiyyətinin başçıları kifayət qədər dostsevər hisslərlə köklənmişdilər. Bakıya yenidən qayıtdıqda isə bu hisslər şübhə və ehtiyatlılıqla əvəz olunmuşdu. Bu, (1) bizim ümumi şəkildə ermənilərin maraqlarını qoruyacağımızı bildirməyimizə; (2) ermənilərin bu vəziyyətdən sui-istifadə etmələrinə; (3) Erməni Milli Şurasının təşkil olunmasını dəstəklədiyimizə görə baş verdi. Mən başa düşürəm ki, bu, Rusiya Baş qərargahının könlünü almaq, ermənilərə dəstək vermək və müsəlmanlara etinasızlıq üçün edilir. Lakin bu fikri mən səhv hesab edirəm və düşünürəm ki, bu, yaxın vaxtlarda baş verəcək müsibətə səbəb olacaqdır. Azərbaycanlılar rusların acığına öz milli birlik ideyalarını meydana çıxardılar və ən maraqlısı budur ki, onlar bunu bizim hökmranlığımız altında etdilər. Yalnız azərbaycanlıların üsyanı bizim Qafqaz və Donla əlaqələrimizi qırmağa qadirdir”.

Təəssüflər olsun ki, bolşeviklər hər bir ziddiyyətə dözürdülər. Zaman da bizə qarşı amansız idi. Belə ki, türklər Tiflisə yaxınlaşmışdılar, bolşeviklər isə Don şəhərində general Kaledini qarət edirdilər.

Bu yaxınlarda Yelizavetpolda əsgərlər və azərbaycanlılar, Qroznıda kazaklar və Qafqaz dağlıları arasında baş vermiş toqquşmalar şübhəsiz ki, alman, türk və bolşevik casuslarının fəaliyyətinin nəticəsi idi.

Şirazın bütün alman dustaqları azadlığa buraxılmışdılar və açıq şəkildə təbliğat kampaniyaları keçirirdilər.

*FO 371/3300 27502*

***

Məxfi
Polkovnık Payka. Denstervil üçün Rulondsona
30.I.18 tarixində saat 6:55 radələrində alınmışdır

Şifr 51311

24 yanvar tarixli teleqramda Noyel Bakıda azərbaycanlıların möhkəm dost münasibətlərinin şübhə və ehtiyatla qarşılanan münasibətlərlə əvəz olunmasını təsvir edir. Buna səbəb:

(1) Ermənilərin maraqlarını dəstəkləməyimizdən doğan təəssüratlar;

(2) Ermənilərin bu təəssüratdan sui-istifadə etmələri faktı;

(3) Erməni Mıllı Şurasının formalaşmasına dəstək verməyimiz Rusiya Baş qərargahı üçün fikir ayrılığı yaradır.

Noyelin verdiyi məlumata görə Şirazdan azadlığı buraxılan alman hərbi əsirləri təbliğat kampaniyaları aparırlar.

Yuxarıda deyilənlərin hamısını nəzərə aldıqda, qəti addım atmağın gərəkli olduğu meydana çıxır. Çünki azərbaycanlıları ınandırmaq lazım idi ki, bizim fikirlərimiz təkcə hər hansı bir ayrıca millətin, dövlətlərin yaranmasından ibarət deyildir. Biz istəyirik ki, vahid Qafqaz bloku yaransın və dəstəklənsin.

Həmçinin, bir məlumat da verməliyik ki, biz milli qüvvələrin yaradılmasından ötrü hər cür kömək etməyə hazırıq.

Bunu müsəlman ölkələrində işləyən və müsəlman əsgərlərinə rəğbət bəsləyən təcrübəli məsləhətçilər və zabitlərin köməyi ilə edə bilərik. Şübhəsiz ki, Mesopotamiyadan Qafqaza zabitlər göndərmək mümkündür və Denstervil onları özü seçib göndərəcəkdir.

Ünvanlanmışdır: S.M.A.Denstervıl üçün Rulondsona
2 nüsxə M.İ.L.a.
***FO/371/3300 27502***

***

## İRAN. HƏRBİ MƏLUMAT

Cənab S.Merlinq (Tehran) 17 aprel 1918-ci il
Göndərilmişdir: 11:15. 17 aprel 1918-ci il
Alınmışdır: 8:00. 18 aprel 1918-ci il
№ 316

Təbriz şəhərinin konsul həzrətləri bildirir ki, Tiflisdən gələn 14 aprel 1918-ci il tarixli məlumata əsasən Qafqaz hökuməti bütün vətənpərvər adamları Türkiyəyə qarşı mübarizəyə çağırış manifesti ilə çıxış etmişdir. Yayılan şayiələrə görə Ərdəhan və Kars təslim oluna bilər, lakin Batumu heç vaxt təslim etmək olmaz.

Naxçıvan yaxınlığında baş verən döyüşlərdə ermənilər müsəlmanlardan sarsıdıcı zərbə almışlar. Lakin ermənilər bu yaxınlarda təmir olunmuş dəmiryol körpüsünü söküb dağıtmağı bacarmışlar.

***FO. 371/3300 27502***

***

Bakı şəhəri üzrə memorandum
1 iyul 1918-ci il
№ 153

Verilən məlumat bu gün bir amerikalı buruq ustasının köməyi ilə əldə edilmişdir. Həmin usta 17 may tarixində Bakını tərk etmiş, Həştərxan vasitəsi ilə Volqa və Romanovdan keçərək Nyukastla gəlmişdir.

Aprel ayının ilk günlərində bolşeviklər Bakını tamamilə ələ keçirdilər. Şəhərdə azərbycanlılar yeganə və güclü antibolşevik qüvvəni təşkil edirlər. Erməni qüvvələri bolşeviklərin yaxşı silahlanmalarından istifadə edərək onlarla birləşdilər və azərbay-

canlılarla köhnə haqq-hesabı çürütməyi qərara aldılar. Hərbi gəmilərin matrosları bolşeviklərlə birləşərək azərbaycanlı məhəllələrini atəşə tutdular. Bolşeviklər və ermənilər qələbə çaldılar. Buna görə də azərbaycanlılar Qafqaz və Şimali İranda yaşayan öz dindaşları ilə birlikdə Bakı şəhərinə güclü hücuma keçdilər. 17 may tarixində olduğu kimi Amerika konsulluğu yaxınlaşan təhlükəni hiss edərək informatordan şəhəri tezliklə tərk etməyini xahiş etdi.

Qüvvələrin tərkib hissəsi aşağıdakı kimidir: türklərin kömək göstərdiyi azərbaycanlılara qarşı bolşeviklərə dəstək verən ermənilər və təhlükəsizliyini təmin etmək məqsədi ilə Almaniya ilə müqavilə bağlamağa can atan Gürcüstan.

Nəticə etibarı ilə iki xristian millət, yəni gürcülər və ermənilər barrikadanın ayrı-ayrı səmtində yerləşmişlər.

Mənim agentim təsdiq edir ki, hər hansı britaniyalı əgər Şimali İrana ayaq qoymağa çalışacaqsa həbs ediləcəkdir.

*FO 371/3301 27502*

***

## İRAN. HƏRBİ MƏLUMAT

(Tehran) cənab Merlinqin teleqramına cavab
9 may 1918-ci il
Göndərilmişdir: 5:15. 9 may 1918-ci il
Alınmışdır: 3:20. 10 may 1918-ci il

№ 396
9 may, Təbriz konsulluğu

Nuru Paşa (müəyyən şübhələr vardır ki, Nuru Paşa Ənvərin qardaşıdır) 30 türk zabitinin mühafizəsi altında buraya gəlmişdir. Onları buraya dəvət edən İran kazak briqadasının da zabit-

lərinə bildirdi ki, onlar türk ordusunun Baş qərargahına yaxın olan 25 min nəfərlə Qafqazın türk-müsəlman regionlarını birləşdirməkdən ötrü (1) Kars, (2) İrəvan və (3) Ərdəbildən keçərək Astara və Bakı istiqamətində hərəkət edəcəklər.

Onlar hesab edirlər ki, Azərbaycan Türkiyənin bir hissəsidir. Lakin Rusiya konsulluğu inanır ki, belə dedikdə yalnız Qərbi Urmiyə gölünün keçmiş sərhədi nəzərdə tutulur.

Onların məlumatlarına görə Baş qərargah və müvafiq heyət Təbrizə gələcəkdir (digər tərəfdən, şəhərin general-qubernatoru fransız konsuluna bildirmişdir ki, Nuru Paşa Təbrizdə cəmi bir neçə gün qalacaqdır). Nuru Paşanın dediyinə görə türk hərbçiləri onlara maneçilik törətməyən şəxslərə heç bir ziyan vurmayacaqlar.

Əldə edilən məlumatlara görə Vəliəhd getmək istəyini təkrar gözdən keçirmişdir. Belə ki, rus qoşunları Təbrizə daxil olduqları zaman o, buranı tərk etməmişdir. Eləcə də türk qoşunlarının buraya gəldiyi zaman şəhəri tərk etmək mənasızdır. Digər tərəfdən mənim fransız həmkarım bildirir ki, onun işlərinə türklər tərəfdən təzyiqlər edilir. Kazak briqadası dislokasiyasını dəyişdirməmək əmrini almışdır.

General Karpovun iki gün bundan əvvəl Culfada yerləşən qərargahını tərk etdiyi vaxtdan bəri Tiflisə heç bir məlumat daxil olmurdu. Ermənilər çarəsizlikdən əlaqəsiz qalmışdılar. Fransız konsulluğunun fikrincə Türkiyənin Azərbaycanı gözləməsi gözdən pərdə asmaq üçündür. Rusiya Baş qərargahı tamamilə ruhdan düşmüşdür. Mənim müşahidələrimdən belə çıxır ki, türklər və iranlılar arasındakı münasibətlər gərgin olaraq qalmaqdıdır.

Tehrana Denstervilə göndərilir. Xarici İşlər Nazirliynə, Hindistan üzrə Xarici İşlər Nazirliyinə göndərilmişdir.

№ 396, Bağdad

*FO 371/3259 27763*

***

## İRAN. HƏRBİ MƏLUMAT

Cənab S.Merlinq (Tehran) 19 may 1918-ci il
Göndərılmişdir: 10:05. 19 may 1918-ci il
Alınmışdır: 8:00. 20 may 1918-ci ıl
№ 424

General-qubernator Təbrizdə cənab konsulu inandırdı ki, azad qüvvələr rusların başçılığı altında silahlı birləşmə yaratmağa və türklərin Təbrizə hücumu zamanı, türklərə müqavimət göstərmək üçün bizim tərəfimizdən edilən silahlı və maddi köməyə də razıdırlar. Cənab konsul belə bir fikir irəli sürdü kı, bu məsələ ilk növbədə həll edilməlidir. Əks halda yaradılmış silahlı qüvvələr bizə və ermənilərə qarşı müqavimət göstərə bilərlər. General qubernator yuxarıda göstərilən silahlı birləşmələrə rəhbərlik məsələsinə Britaniya zabitlərinin cəlb olunmasının vacibliyini də qeyd etdi.

İndiki hökumət şübhəsiz, general-qubernatorun təklifini rədd edəcəkdir.

Cənab konsulun çatdırdığı xəbərə görə Culfa erməniləri məlumat verirlər ki, türk qoşunları Aleksandropolu zəbt edərək dəmiryol xətlərinin əsas hissəsinin harada yerləşdiyini öyrənməyi tələb edirlər. Ona görə ki, Britaniya qoşunlarına endirilən zərbələr zamanı dəmiryolları sıradan çıxa bilər və Tiflis ilə əlaqə kəsilər.

Xarici İşlər Nazirliyinə ünvanlanmışdır 424, Hindistan üzrə Xarıcı İşlər Nazirliyinə göndərilmişdir. Nüsxə ısə Bağdada ötürülmüşdür.

***FO 371/3260 27763***

***

Məxfi
Hərbi Nazirliyə
56896, 20 iyul
Xətlərin təmizlənməsi

Əməliyyatlar

20 iyul tarixində saat 8:00 radələrində Melesondan əldə edilən 19 iyul tarixli M.D. 00044 nömrəli məlumata cavab: 1) Britaniya zabitləri heç bir maneə olmadan bütün Mərkəzi Asiya dəmiryollarını ötüb keçmişlər. 2) Krasnovodskdan Terekə qədər xətlərin bolşeviklərdən azad edildiyini təsdiq edirik. 3) Krasnovodskdan və əksinə heç bir maneə və məhdudiyyət olmadan səyahətə çıxmaq mümkündür. 4) Krasnovodsk-Bakı xətlərində olan ən iri paraxodlar Volqaya keçirilmişdir, qalan xırda paraxodlar və 100-lərlə sərnişinlərin daşınması üçün yararlı olan paraxodlar hazır vəziyyətdə saxlanılır. 5) Əgər monarxiyaya qarşı heç bir təklif irəli sürmədiyimizi nəzərə alsaq, Britaniya və britaniyalılara olan münasibət heç də pis deyildir. Monarxiyanın bərpa edilməsinə dair hər hansı bir işarə ictimai rəyi bizə qarşı yönəldə bilər və bunun qarşısını ala bılmək bizim imkanımız xaricindədir.

6) Mak Donel Bakıda çıxılmaz vəziyyətdədir. Onun əmrlərini yalnız bir zabit yerinə yetirir. O, da yaralıdır, lakin bu zabitdən kömək gözləmək olar. Bolşeviklər onun həyatına iki dəfə qəsd etmişlər. Buna baxmayaraq, bu cür çətin vəziyyətdə həmin zabit həmin qrupa başçılıq edir və onu nəzarətdə saxlayır.

7) Tiq Consun mülahizəsinə görə Bakıdakı vəziyyət ağır olaraq qalır və iki amildən asılıdır: a) Xəzər dəniz donanması sahəsində bizimlə əməkdaşlıq; b) Bizım fəal şəkildə müdaxiləmiz. Donanmanın rəhbər hissəsi yalnız kağız üzərində bolşeviklərə aiddir. Mən ümid edirəm ki, ancaq biz ölkəni düşmənlər-

dən və anarxiyadan xilas edə bilərik və ölkənin düşmənlərdən mühafizəsi və müəyyən dərəcədə azadlıq əldə etməsi şərtləri onların bizim tərəfə keçmələri üçün əsas zəmindir.

8) Ermənilər bizim azərbaycanlılara olan münasibətlərimizə ciddi ziyan vurmuşlar. Açıq şəkildə bildirirəm ki, ermənilər cənab imperatorun himayəsində yaşayan millətdir. Ermənilərin azərbaycanlıların çox hissəsini qırmasından belə nəticə çıxır ki, Britaniya müsəlmanlara qarşı köklənmişdir.

9) Bakıdakı bolşeviklər düşmənə qarşı köklənmişlər və demək olar ki, bizim müdaxiləmiz üçün maneə yaradırlar. Lakin onların vəziyyəti kifayət qədər dəyişkəndir və qabaqcadan bu məsələ ilə əlaqədar tədbirlər görmüşük.

10) Düşmənə qarşı təbliğat fəal aparılır və tamamilə britaniyalıların əleyhinədir. Əsasən də Hindistanı amansız üsullarla idarə etməyimiz haqqında şayiələr böyük maraq doğurur. Bu şayiələr ağızdan-ağıza keçərək aləmə yayılır. Düşmən casusları pantürkizm və panturanizmin yayılması ilə bərabər (nisbətən qəbul edilməyən ideyalar), şayiələri həm də mətbuatda, küçələrdə səsləndirirlər və belə bir məsələ haqqında şayiə də gəzir ki, tezliklə Almaniya qoşunları Hindistana soxulacaqdır.

11) Cons Krasnovodska qayıdan zaman Yamut xan ilə görüşdü (Yamut türkmənlərinin başçısı). Bu məsələyə, yəni görüşə bir o qədər də dəyər verməyə dəyməz, çünki türkmənlər türkləri dəstəkləyirlər. Onlar panislamizmin təbliğatı nəticəsində belə düşmənlərin Transxəzər regionuna soxulmalarına müqavimət göstərməyəcəklər. Türklərə qarşı rəğbət bəslədiyimizi söyləməsək belə, o, bizim düşmənə qalib gələcəyimizə əmin olduğunu bildirdi.

12) Əgər söhbət Kiçik xan Cəngəlidən gedirsə o, cinayətkar olmadığını söylədi. Amma biz bunu belə düşünmürdük. Bizi başa saldı ki, o, yəni Kiçik xan Cəngəli əvvəl İran hakiminin pulla işlətdiyi casusu olmuş və bu hökumətin əmrlərini yerinə yetirmişdir. O, öz peşəsini itirdiyini və yaxud da ondan kənar

edildiyini bildirmədi, əksinə dedi ki, məhz İran dövləti Kiçik xan Cəngəlidən Britaniyaya qarşı istifadə edə bilər (Bir neçə vaxtdan sonra).

13) Mak Donelin ələ keçirdiyi sənədlər Mazandaran sahilinə, oradan da İranın içərisinə soxulmaları üçün 2000-ə yaxın Avstriya əsgərinin göndərilməsi haqqında Avstriya hökuməti ilə Mazandaran əyaləti arasında sazişin mövcudluğunu göstərir.

14) Tiq Consun ümumi nəticələri belədir ki, vəziyyət çox ağırdır və Britaniya qoşunları təcili şəkildə Bakıya müdaxilə etməlidir.

Teleqram göndərilmişdir

2 nüsxə

***FO 371/3301 27502***

***

Şərq Hərbi Komitəsi

8 avqust 1918-ci il

Cənab Cudson və Olifant İran və Fransa arasında əməkdaşlığa dair fevral ayında bağlanmış müqavilənin həyata keçirilməsinə razı olduqlarını bildirirlər və Birləşmiş Ştatların bizə üstünlük verməsinin də Fransa tərəfindən heç bir narazılığa səbəb olmadığını da qeyd edirlər.

Cənab Şukburq bizə missiyamızın izahı açıqlanan gizli teleqramı Hindistanın vitse-kralına göndərmək fikrini bildirdi.

Bakı və Qafqaz

Qərar qəbul etmək üçün Komitə səlahiyyət daşıyır

Cənab Cudson və Olifant İran hakimiyyətinə məlumatları çatdırmaq üçün səlahiyyət daşıyırlar:

(1) Missiyaya başlamamışdan əvvəl bizim İranda siyasəti-

mizin aparılması və məsələlərin düzgün şəkildə mübadiləsi cənab Cudsona həvalə edilir.

(2) Cənab Cudsonun cənab Koksla məsləhətləşmədən heç bir addım atmasına icazə verilmir.

(3) Heyət İranın Britaniya nəzarətinin özünü qabarıq şəkildə göstərdiyi regionlarına göndəriləcəkdir.

(7) General Mak Dounun məlumatına görə Bakı qarnizonu təxminən şəhərdən 40 mil aralıda yerləşir. Əvvəlcə onlar Bakıdan 4 verst aralıqda idilər. Burada onlar amansız atəşə düçar oldular. Düşmənin 10 min döyüşçüsü var idi. Qarnizonda isə 7000 türk və azərbaycanlılar birlik təşkil edirdilər. Qarnizona qarşı isə 5 komandirin başçılığı altında 8000 adam döyüşürdü və onların 40-a yaxın silahı var idi. Bizim, bu istiqamətdə göndərdiyimiz qüvvələrin 8 zirehlisi, 360 Staffold nişangahları və 2 pulemyot bölməsi var idi. Bundan əlavə kömək üçün Denstevril oraya 7 zabit və 40 aşağı rütbəli hərbi xidmətçilər göndərmişdir. Bakıya da hərbi kömək göndərilmişdi və bu köməkçilər Biçeraxov ilə əlaqə saxlamağa çalışırdılar. Lakin Biçeraxov 4 avqust tarixində artıq Xaçmaz rayonuna yollanmışdı. Donanmanın verdiyi məlumata görə Biçeraxov cənub tərəfə yollanmışdı, ancaq bu məlumat təsdiq edilmədi. Bundan əlavə, bizim məxfi agentlərimiz də (E.S.-1073) xəbər çatdırdılar ki, neft mədənlərini məhv etmək hələ də mümkün olmamışdır. Belə ki, burada işçilərin çoxu türklərin tərəfdarları olan azərbaycanlılardır və onlar özlərinin inkişafı üçün yararlı sayılan bu mədənləri məhv etmək istəmirlər. Burada olan rus əsgərləri də bu yataqların məhv edilməsini istəmirlər.

General Mak Dounun fikrincə, bizim qoşunların Bakıya hərəkəti zamanı, qoşunlarımız donanmanı Bakıdan Krasnovodska və ya Ənzəliyə köçürməlidirlər. Donanmanın böyük hissəsi, qeyd edildiyi kimi, artıq Həştərxanda yerləşdirilmişdir və bu vəziyyətdən bolşeviklərin Krasnovodska gəlmələri üçün istifadə oluna bilər.

Biz neft mədənlərinin birində təxribat törətdik. Ancaq onun nəticəsi bir o qədər də gözə çarpan olmadı. General Mak Dounun fikrincə, nefti ehtiyat mədənlərindən dənizə axıtmaq mümkündür. Həmçinin, ehtiyat yataqlarına yandırıcı bombalar atmaq olar ki, bu da əhalinin böyük hissəsinin məhvinə səbəb olacaqdır. Lord Robert Sesil Hərbi-Dəniz Nazirliyinə belə bir maraqlı fikirlə müraciət etdi. O bildirdi ki, onların da dərk edəcəkləri bir fakt aydınlaşdırılmışdır ki, Xəzər dənizi üzərində nəzarət ümumi vəziyyət üzərində nəzarətin açarıdır.

Çox uzun sürməyən müzakirədən sonra Komitə qərara aldı:

(a) Lord Robert Sesilin üzərinə Hərbi-Dəniz Nazirliyinin nümayəndələri ilə görüşmək və Xəzər dənizi üzərində nəzarət məsələsini müzakirə etmək üçün Ermənistan kəşfiyyatının rəhbəri ilə görüşmək öhdəlikləri qoyuldu. Nəticələr haqqında Komitəyə mütləq məlumat verilməlidir.

(b) Hərbi Nazirlik Mesopotamiyadakı baş korpusa neft kəmərlərinin və yataqlarının məcburi şəkildə məhv edilməsinin vacibliyindən bəhs edən teleqram göndərməlidir.

General Mak Doun Qafqazda döyüşən qoşunlarla bağlı vəziyyət haqqında məlumat verdi. Bu gün yeganə qoşun çox da böyük döyüş qabiliyyəti olmayan və Bakı ətrafında yerləşən Beşinci Qafqaz korpusu sayılır. General Mak Dounun fikrincə, biz yalnız Bakı qarnizonuna sahib olduqdan sonra onu ləngidə bilərik. Ən yaxşı mühafizə mövqeyi Bakıdan 15 mil aralıdadır. Alman qoşunları Qafqaza hücum edirlər. Bundan əlavə almanlara kömək üçün 4 batalyon getmişdir, ikisi də hərbi köməyə tələsir. Almanlar bir sıra nəqliyyat çətinlikləri ilə üzləşə bilərlər. Lakin buna baxmayaraq, şübhə yoxdur ki, onlar bütün Azərbaycanı zəbt etmək fikri ilə alışıb-yanırlar. Beşinci türk diviziyası Urmiyə regionunda yerləşir, onun fikri Calusu zəbt etmək idi. Təəssüflər olsun ki, biz buna mane olmağa gecikdik.

6-cı ordu ilə qarşılıqlı hərəkətə keçə bilmədik. 11-ci Qafqaz diviziyası öz qüvvələrini Təbrizə toplamışdı və sonra İranda hə-

rəkət etmək üçün yenidən qruplaşmışdı. Türklərin planı ermənilərın evakuasiya edilməsindən və sonra Qəzvinə hücum etmək üçün 7 diviziya, 12000 silahlıdan ibarət qoşunlarını Urmiyə-Təbriz regionuna daxil etməkdən ibarət idı. Türklər Almanların xətti əlaqələrindən və Gürcüstan vasitəsi ılə kommunikasiyadan asılı olmağı açıq şəkildə istəmirdilər. Bunun üçün Ərzurumdan və sonra isə Mardin və Karput vasitəsilə əlaqə yaratmaq üçün bir variant düşünürdülər.

(8) General Smatın fikrıncə, İranın strateji vəziyyətı ağır olaraq qalırdı. Hətta İranın vəziyyəti türklərin öz qüvvələrini toplayıb Həmədan - Rəşt yolunda bizim üzərimizə hücum məqsədi ilə İrandan çıxdıqdan sonra da ağır idi. İranda bızim vəziyyətımiz olduğu kimi qalmaqdaydı. Komitənin iclası zamanı general Smat qısa zamanda bizə qarşı döyüşən qoşunların sayını müəyyən etməyi və bu cür vəziyyətdən çıxmaq üçün onlara qarşı maksimum dərəcədə güclü qoşun yığmağı məsləhət gördü. Bizım kommunikasiya xətlərimiz strateji baxımdan əlverişli deyildi. Belə ki, düşmən donanması ilə paralel yerləşirdi, həm də düşmənin müqavimət göstərməsi üçün əlverişlidir. General Smat Buşir və ya Bəndər Abbasdan Şiraz və İsfahana alternativ xətlərin çəkilməsinin mümkün olub-olmadığını soruşdu.

### Strateji vəziyyət

Mak Doun vəziyyətin strateji cəhətdən yaxşı olacağını güman edirdi. Üç alternativ xətt mövcuddur:

(a) Xanikindən Qəzvinə qədər dəmiryolunun çəkilməsi. Bu, ən azı bir ilə baş tutar. Mühəndislik nöqteyi-nəzərindən Taki-Qirexsk dağ keçidini aradan götürmək çox çətındir. Ən yaxşı halda bu dağ keçidinin üzərindən kanat yolunu çəkmək olar.

(b) Əhvazdan Xürrəmabada, oradan da Həmədana qədər dəmiryolunun çəkilməsi. Təklif olunan marşrut yolu araşdırıldı, tikintinin mümkün olduğu bildirildi və strateji baxımdan özünü

doğrultdu. Bu yol mövcud olduğu təqdirdə biz əmin ola bilərik ki, almanlar tərəfdən dəstəklənməyən türk qoşunlarının hücumu zamanı onlara köməyimiz keçəcəkdir.

(s) Dəclədən Şimal - Qərbi İranın daxilinə, oradan da Taki-Qirexsk dağ keçidi ilə müqayisədə nisbətən keçmək mümkün olan Varn aşırımına qədər dəmiryolunun çəklməsi. Lakin bu marşrut bizim qoşunların hərəkətini dəstəkləmək üçün əlverişli deyildir, düşmən cinahları üçün qorxu yaradacaq və bu marşurut yolu onların qüvvələrinin bir hissəsini Mesopotamiya istiqamətinə azdıracaqdır.

Hər hansı bir dəmiryolunun tikilişi ən azı bir ilə başa gəlir. Motorlaşdırılmış qoşunların yanacaqla təchizatı çox çətindir. Bu iş Bakı-Ənzəli neft kəmərinin çəkilməsindən sonra asanlaşardı.

Buna sədrlik edən adam öz şəxsi təcrübəsinə güvənərək belə bir fikir irəli sürdü ki, Buşir və Şiraz arasında olan region əsas hücum xətti baxımından qəbul edilə bilməz.

Bunun üçün ən əsas yol Şirazın şimal hissəsindən zərbə endirmək cəhdidir.

***FO 371/3381 2888***

***

Məxfi
Xarici siyasət məsələləri üzrə dövlət katibinin müavininə
B.1/565 (№ 1, 2)
15 oktyabr 1918-ci il

Hərbi kəşfiyyatin rəhbəri xarici siyasət məsələləri üzrə dövlət katibinin müavininə öz hörmətini bildirir və Mesopotamiyada G.S.S. məxfi mənbədən aldığı növbəti məlumatı nəzərə çatdırır.

(1) Ənvər Paşanın atası Əhməd Paşanın Batumdan Yelizavetpola göndərilməsinə 12 oktyabrda əmr verilmişdir.

(2) Həmin gün Bakıda türk qoşunlarına rəhbərlik edən Nuru Paşaya Ənvər Paşa bildirdi ki, nə qədər Azərbaycanda türk qoşunlarının mövqeləri güclüdür, onlar ermənilər və rusları rahat buraxmamalıdırlar. Türk qoşunlarının Lənkəran və Astaraya hücumu üçün heç bir maneə qalmamışdır. Türk ordusunun Şərq qruplaşmasına rəhbərlik edən Xəlil Paşa bildirdi ki, 300 rus 4 topla və bir qədər də erməni Astarada möhkəmlənmişlər.

*FO 37/3381 2888*

***

Məxfi
Xarici siyasət məsələləri üzrə
dövlət katibinin müavininə
18 oktyabr 1918-ci il

... Verilən məlumat şəxsən Sizə ünvanlanmışdır: - bizim cəbhə xəttindəki rayonlarda vaxtından əvvəlki təxliyə ilə mücadiləmiz, əgər bizə qubernatorlar tərəfindən kömək göstərilərsə, gücləndiriləcəkdir. Sizin borcunuz yerli hakimiyyəti onlara təqdim edəcəyiniz gələcək planlara inandırmaqdan ibarətdir.

(3) oktyabrın 14-də Ənvər Paşa (? Nuru) bildirdi ki, əgər Türkiyə Antanta ilə sülh müqaviləsi bağlasa, öz qoşunlarını Azərbaycandan, həmçinin, bütövlükdə Qafqazdan çıxarmağa və bu regionu milli qüvvələrin himayəsində saxlamağa məcburdur. O, yuxarıda adı çəkilən qüvvələrin rəhbərliyi üçün təlimatçıların Azərbaycanda və Şimali Qafqazda xıdmət edəcək türk zabitlərinin qalmasına təkıd edirdi ki, Ənvər Paşa az da olsa bunlardan istifadə etsin.

General-mayor Tveytis başa düşdü ki, (3) bənddəki məlumat Ənvər Paşanın keçən dəfəki məktubunun məntiqi davamıdır.

*FO 371/3388 28113*

***

## Xarici siyasət məsələləri üzrə dövlət katibinin müavininə

## MEMORANDUM

"Şimali-Qafqaz" Respublikasına, "Azərbaycana" və Ənvər Paşanın siyasətinə dair məlumat

1. Bu respublikaların yerləşdiyi ərazilər verilmiş xəritədə (Şimali-Qafqaz respublikası - qırmızı, Azərbaycan -göy rəngdə) göstərilmişdir.

2. Şimali-Qafqaz Respublikası keçən yay Rusiyada baş verən inqilab dövründə rus hərbi əsarətindən azad olan Dağıstanın yerli millətləri tərəfindən elan edilmişdir. Bu millətlər o qədər vəhşi və fərqli millətdirlər ki, (həm dil, həm də coğrafi-nöqteyi nəzərdən) onların hər hansı bir yararlı və mərkəzi inzibati ərazi yaratmalarına guman azdır. Bizə məlum olan yeganə hakimiyyət orqanı keçən yay İstanbulda yerləşən və indiyədək orada qalan nümayəndə heyətidir.

Əhalisi təmiz rus və ukraynalı olan Terek regionu və Kuban kazak ölkəsinin ərazilərini özündə birləşdirən "Şimali Qafqaz Respublikası" bu nümayəndə heyəti tərəfindən elan edilmişdir.

... Dağlıların keçmişdə islam dininə itaət edən digər hissəsi (kabardinlər, abxazlar və s.) hal-hazırda maraq doğurmurlar.

Türkiyə ilə əlaqə baxımından və Dağıstanın müstəqil millətlərinin fikrincə "respublika" və onun "nümayəndə heyətləri" əsas amil hesab edilirlər. Ümumiyyətlə, Qafqaz hökumətinin süquta uğradığı zaman, yəni bu ilin may ayında Azərbaycan Respublikası elan edildi. Əhalisinin dili (ruslar tərəfindən "Qafqaz tatarları" adlandırılan) türk dilidir. Onların dialekti eynilə İranın Azərbaycan əyalətindəki kimidir və Osmanlı dilinə çox yaxındır. XIX əsrin birinci otuz illiyində Rusiya ilə İran arasında gedən müharibə zamanı Azərbaycan iki yerə bölünmüşdür.

Lakin müharibə və çar sülaləsinin süqutu nəticəsində onlar şübhəsiz ki, yenə də Rusiya protektoratlığının altına düşəcəklər. İndiki Azərbaycan Respublikası inqilabın əvvəlində əsası qoyulan Azərbaycan Milli Şurasının çağırılması nəticəsində yarandı və bu respublika azərbaycanlı mülkədarların əlinə keçdi.

Onlar mülkədar olaraq bolşevikləri, azərbaycanlı olaraq Qarabağ və İrəvan regionlarında münaqişədə olduqları ermənilər görməyə gözləri yoxdur. Buna baxmayaraq, başqa regionlarda azərbaycanlılar və ermənilər birgə yaşamışlar və ərazi ucbatından konfliktə girişmişlər. Turanlılar və müsəlmanlar kimi onlar da Türkiyəyə meyl edirlər. Belə ki, onların hamısı eyni maraq güdürlər və çox oxşar cəhətlərə malikdirlər.

İnqilabın başlanğıcında azərbaycanlılar və dağıstanlılar arasında olan münasibət bir o qədər də xoşa gələn deyildi (Dağıstanlılar türk dilli olmadıqlarına görə azərbaycanlıların üstünlük təşkil etmələrindən qorxurdular). Lakin sonradan şəraitə uyğun olaraq Türkiyənin təsiri nəticəsində, habelə Bakıda ingilislər və ermənilər birləşdiyinə görə bu qorxu dağıstanlıların azərbaycanlılarla birləşməsinə zəmin yaratdı.

İran ilə münasibətlər pis deyildi. İranın tərkibində olan zaman onlar İran mədəniyyətinə yaxın idilər və öz növbəsində Qərb üsullarını, rus rejiminin ideyalarını mənimsədilər (bu əsasən Bakıya şamil edilir). Onlar İranla birləşmək istəmirdilər. Onlar İran Azərbaycanını zorla ayırıb özünə birləşdirmək və Türkiyə ilə bir ittifaqda müstəqil dövlət kimi ideyaları ilə yaşayırmışlar.

### 4. Türkiyə ilə münasibətlər

Keçən əsrin sonlarında (əsasən 1877-1878-ci illər) və indiki zamanda Rusiya ilə Türkiyə arasında gedən müharibə zamanı Qafqaz müsəlmanları çətinliklər (Rusiya tərəfindən) çəkmişlər.

İnqilab türklər üçün Qafqaza yol açan kimi onlar öz casuslarını Dağıstana və Azərbaycana göndərdilər. Bu ilin yayında onların Qafqaza daxil olması Azərbaycan ilə birbaşa müqavilə bağlamağa imkan yaratdı. Əgər onlar ıyun əməliyyatlarını dəf edə bilsəydilər, bu müqavilə həmişəlik qalardı. İndiki zamanda həm Rusiya Azərbaycanı, həm İran Azərbaycanı Türkiyə qoşunları tərəfindən işğal edilmişdir. Ukrayna və Baltikyanının işğalı zamanı olduğu alman metodları timsalında türklər də hərbi və maliyyə məsləhətçiləri olaraq təmsil olunmuşdular. Başda türklər olmaqla Bakı şəhəri türklərin və azərbaycanlıların birgə səyi nəticəsində tutuldu.

Bakı Rusiya Azərbaycanının paytaxtı elan edildi. Bu şəhər kosmopolit şəhərdir.

Şəhər Türkiyə və Almaniya arasında olan çəkişmənin əsas mənbəyi idi. Çünki almanlar bolşeviklərlə separat danışıqlar zamanı söz vermişdilər ki, Bakı Rusiyanın nəzarəti altında qalacaqdır. Təbii ki, bu da türklərin xəbəri olmadan həyata keçiriləcəkdi. Türkiyə Bakının Azərbaycan paytaxtı elan edilməsini dəstəkləyirdi. Çünki bu, onlara dünyanın ən varlı şəhərlərinin birinə nəzarət etməyə imkan yaradırdı.

### 5.Ənvər Paşanın hərəkətləri

Bolqarıstan təslim olduqdan sonra iki variantın mövcudluğu ehtimal olunur. Birincisi - Konstansaya üzən gəmiyə minmək və İsveçrədə olan pullar üçün oraya üzmək və yaxud həyatı bahasına deyil, ölüm bahasına İstanbul uğrunda vuruşmaq. Lakin Ənvər Paşa hər cür variantın içərisindən üçüncü alternativi seçdi. Şərqi Qafqaza qayıtmaq və Lozanna danışıqlarından (1912) sonra Tripola soxulmaq üçün partizan müharibəsi qaldırmaq.

Azərbaycan Respublikası Britaniya hökumət nümayəndələrinin diplomatik razılaşma üçün gəlmələrini xahiş etdi. Türkiyə

naziri, İsveçrə konfederasiyasında diplomatik nümayəndə Fuad Səlim İsveçrədəki Britaniya nümayəndələrinə İstanbuldakı Azərbaycan nümayəndə heyəti adından buna oxşar xahişlə müraciət etdi.

Bizdə olan məlumata görə (cənab P.Koks № 871-dən 10.10) türklər İran şahzadəsinə (keçmiş İran Azərbaycanın general-qubernatoruna) söz vermişdilər ki, Azərbaycan müstəqil olacaqdır və Türkiyə də həmişə bu ölkəni qoruyacaqdır. Həmçinin onlar Tehranda belə bir məsələ qaldırmışdılar ki, Azərbaycanı şahzadə özü türklərə təklif etmişdir (cənab P.Koks №880-dən 13.10). Həmçinin, şayiələr gəzir ki, Türkiyə Azərbaycan və Dağıstanı birləşdirərək bir dövlət yaratmaq istəyir.

Birinci məlumat bütün təfərrüatı ilə türklərin uydurması idi. Bununla onlar şahzadəyə Şimali Azərbaycanın müstəqilliyini qəbul etdirmək istəyirdilər. Ancaq bundan sonra türklər Şimali Azərbaycanı Dağıstanla birləşdirərlər və bütün regionu yəqin türk nəzarəti altına ala bilmək üçün Cənubi Azərbaycanı da saxtalaşdırılmış plebisit yolu ilə birləşdirə bilərlər. Biz bu tələyə düşməməliyik.

Yəqin ki, türklər regionu hərbi qüvvələrin köməyi ilə əldə edəcəklər. Təbii maneələr kifayət qədər ciddidir: bu, Qafqaz sıra dağları, şimalda Dağıstan qalaları, qərbdə Qarabağ dağları və vəhşi türk ləhcəli tayfaların (şahsevənlər) İran və Gilan təpələrində məskunlaşmaları və Çanaqqala partizanlarının Britaniya əleyhinə olmalarından ibarətdir. Region özünü kifayət dərəcədə təmin edə bilər. Bu, ondan sonra baş verə bilər ki, Bakının neft sənayesi, Qubanın kənd təsərrüfatı sərvətləri, Araz düzənliyi və mineral ehtiyatlar bu regiona nəzarət edənin əlində olsun. Bu, Suriya və Mesopotamiyada yerləşən Britaniya silahlı qüvvələri üçün tamamilə qəbuledilməzdir. Belə ki, mümkün istiqamətdə onlar türk ordusuna və Kürdüstana hücum edəcəklər. Ona görə də kommunikasiya xətlərinin tikintisi də bir neçə ay və hətta bir ilə baş tuta bilər.

Digər tərəfdən, İstanbula asan yol tamamilə təmizlənmişdir (Üçlər ittifaqının qoşunları üçün). Belə ki, Batum və Potidən Bakıya və Təbrizə dəmiryolları mövcuddur və bu yollar artıq türk-alman nəzarəti altındadır. Rusiyanın Avropa hissəsinə aparan dəmiryollarına gəldikdə isə buradan ancaq Bakıdan Xəzər dəniz sahillərinin dərinliklərinə aparan hissə təmizlənib qurtarmışdır. Qeyd edilən dəmiryolu Dağıstan tayfalarının nəzarəti altındadır.

Tamamilə doğrudur ki, C.U.P. siyasəti deməli, Ənvər Paşanın siyasəti bu və ya digər dərəcədə aşağıdakılardan ibarət olacaqdır: oyuncaq müti Antanta İstanbulda imkan daxilində axıra qədər dözüb durmaq, hökumətini idarə edərək son anda Batuma getmək və hər şeyi yenidən başlamaq. Tripoli əməliyyatı ilə yekunlaşan 1912-ci il kampaniyası vacib təbliğati əhəmiyyətə malikdir. Bu, Afrikanın müsəlman yaşayan hissələri üçün kifayət qədər cəlbedici olan panislamizm ideyalarını həyata keçirir və avropalıların nüfuzunu sarsıdır (italyanların yüksək dərəcədə səriştəsizliyinə görə). Türklərin Asiyanın ərəb vilayətlərində iştirakı bu ideologiyaya qida verir.

Şübhəsiz ki, Azərbaycan kompaniyasının planı həmin məqsədləri güdür. Yalnız bir fikir ayrılığı mövcuddur ki, bu kompaniya islam dünyasının şimali-şərq hissəsində özünü göstərir və nəticələr nisbətən ümidvericidir. Mərkəzi Asiyada rusların məğlubiyyəti daha böyük siyasi effekt yaradır, nəinki italyanların Afrikada məğlubiyyəti. Mesopotamiya və Suriyada türk qoşunlarının süqutu, əgər onların Qafqazdan uzaq olduğunu nəzərə alsaq, Qafqaz cəbhəsində türklərin həmişə qələbə çaldığını görməyə öyrəşmiş ictimai rəyə elə də mənfi təsir etmir. Tripoli ərəbləri kimi azərbaycanlılar da öz növbəsində, türklərlə eyni dinə qulluq edirlər. Bundan əlavə, dil və millət cəhətdən birlik "Turan" adını almışdır. Bundan başqa, Rusiyanın regionda məğlubiyyətindən başlayan anarxiyanı türklər cilovladılar. Rusiya

Xəzəryanı Dağıstan ərazisini əldə etmək üçün 100 ilədək qızğın müharibə etdi. Lakin bunların hamısı bir ildə məhv oldu. Dağıstan tayfaları azadlıq əldə etdi. Silahlı olduqları zaman və türk zabitləri ilə təmsil olunduqda onlar özlərini hər hansı işğalçıdan qorumaq iqtidarındadırlar.

Öz növbəsində C.U.P. hələ müharibəni tam bitirməmişdir. Müharibə açıq boğazların və Osmanlı imperiyasının bölünməsindən sonra qurtara bilər. Ancaq o, bütövlükdə sivilizasiyanı ciddi şəkildə zəiflətmişdir. O cümlədən böyük bir islam dünyası üzərində Avropa nəzarətini zəiflətmişdir. İslam dünyasında Ənvər üçün kifayət qədər yer tapılardı.

*FO 371/3388 28113*

***

I/60 1 (M.1.2.)
Xarici siyasət məsələləri üzrə
dövlət katibinin müavininə
Məxfi
18 oktyabr 1918-ci il

Hərbi kəşfiyyatın rəhbəri xarici siyasət məsələləri üzrə dövlət katibinin müavininə öz hörmətini bildirərək, məxfi və etibarlı mənbədən aldığı növbəti məlumatı təqdim edir. 14 oktyabrda türklər Şimali Qafqaz və Azərbaycan Respublikası üçün vahid hökuməti təklif etdi. Belə ki, onların düşüncəsinə görə əgər bu iki ölkə birləşməsə, onlar da öz müstəqilliklərini yenidən bərpa edə bilməzlər.

*FO 371/3301 27562*

***

Göstərilən sənəd Əlahəzrət
hökumətinin xüsusi mülkiyyətidir
Tam məxfi
Siyasi kəşfiyyat idarəsi
28 oktyabr 1918-ci il
Xarici İşlər Nazirliyi
Rusiya 016

## Transqafqazdakı siyasi vəziyyətə dair

## BƏYANNAMƏ

Təqdim olunan bəyannamə Rusiya üzrə 006 saylı bəyannamənin davamı kimi göndərilmişdir və bu yaxınlarda Transqafqazda baş verən hadisələrə, azərbaycanlılar, gürcülər, ermənilər arasında əlaqələrə və onların gələcək Rusiya ilə qarşılıqlı əlaqələrinə aiddir. Xüsusi diqqət Gürcüstanın üstünlük təşkil edən roluna, onların Almaniya ilə qarşılıqlı əlaqələrinə və ayrılmaq imkanına yetirilir.

1917-ci ilin martında baş verən inqilab Estoniya istisna olunmaqla Rusiyanın hər hansı bir başqa regionundan daha çox Transqafqaza müvəqqəti də olsa gözlənildiyindən artıq təsir etdi. Bu təsir Tiflisdə 19 noyabr 1917-ci ildə gürcülərin təşkil etdiyi Konstitusiyalı Milli Şuraya nisbətən son dərəcədə güclənmişdi.

Transqafqazın əsas millətləri arasında qarşılıqlı anlaşmaların mümkünlüyünə parlaq sübut Transqafqaz hökumətinin yaranmasıdır. Belə ki, bütün regionun tam şəkildə müstəqil elan edilməsi baş vermiş bolşevik çevrilişinə müəyyən qədər bir cavab hesab edilir. Həmin müddətdə hökumət keçilməz çətinliklə üzləşmişdir. Gürcülər, ermənilər və azərbaycanlılar arasında daimi ahəngdarlığın təminatı onların Almaniya və yaxud Türki-

yəyə yaxın ərazidə yerləşmələrindən irəli gəlir. İnqılabdan sonra öz təbliğatlarında dini dəlıllərdən istıfadə edən türklər regiona daxil oldular. Onlar bildirdilər ki, Transqafqaz gürcü, erməni və azərbaycanlılardan ibarət konfederasiyasıdır və coğrafi mövqedən də onları azərbaycanlılardan ayırmaqdan qorxurdular. Türklərin Türküstana daxil olması öz növbəsində Türkiyənin hökmranlığı altında türkdilli millətlərdən ibarət vahid dövlət qurmaq arzusu idi. Digər tərəfdən, Almaniya Gürcüstana olan münasibətini müəyyən etdi.

Yeni hakimiyyətin proqramına (4 dekabr) daxil olan bəndlərə fövqəladə dərəcədə aktual məsələlərin həlli daxildır. "Rusiya cəbhəsinin bütövlüyünün qorunması" bəndinə baxmayaraq, Transqafqaz hökumətinin komissarları Qərb cəbhəsində yerli əhalinin ümidsizliyi fonunda tez bir zamanda sülh müqaviləsi bağlanması üçün vacib addımlar atdılar. Yerli şərait olduqca ağır idi. Rus ordusu Qafqazın tərxis olunması haqqında əmr aldı. Lakin bunsuz da fərarilərin böyük hissəsi qarşılarına çıxan hər şeyi məhv edərək Qafqazın içərisinə irəliləyirdilər. Anarxiya yaranmağa başlayırdı və bolşeviklərin mövqeləri güclənirdi. Transqafqaz hökuməti öz sərhədlərini gürcü və erməni qoşunları vasitəsi ilə qorumaq istəyirdi. Lakin bu yenidən böyük bir təşkilatçılıq tələb edirdi. Eyni zamanda, Qafqazdakı türk ordusu və Qafqaz cəbhəsinin başçısı general Prejevalski arasında bütün Qafqaz cəbhəsində barışıq haqqında danışıqlar başladı. Rusiyanın ümumi siyasi vəziyyətini nəzərə aldıqda bu "məcburi addım" kimi qiymətləndirildi.

Mesopotamiya və yaxud digər yerlərdə yerləşən Antanta qoşunlarına zərbə vurmaq üçün mövcud vəziyyətdən istifadə etməklə güclü müdafiə haqqında məsələ Transqafqaz hökumətinin siyasəti ilə razılaşmayan iri azərbaycanlı torpaq sahibləri, türk və digər agenturaların işi azərbaycanlılar və ermənilər arasında toqquşmaya gətirib çıxardı. Əsrlərlə baş verən keçmişin təəssüratları bir neçə ay ərzində yaddan çıxarıla bilməz. Azər-

baycanlıların türklərlə birgə məxfi əməkdaşlığı bəzi azərbaycanlı torpaq sahiblərinin Transqafqaz hökumətinin əsas xəttindən uzaqlaşması bahasına həyata keçirildi. Türklər azərbaycanlı başçılarla birbaşa əlaqəyə girmək məqsədi ilə Bakı üzərinə hərəkatı davam etdirirdi. Batumun təhvil verilməsi təhlükəsinə görə Transqafqaz hökuməti Trabzonda baş verən danışıqlarla razılaşdı.

### Trabzon danışıqları

16 fevral 1918-ci ildə Transqafqaz Seyminin iclasında Türkiyə ilə danışıqlar barəsində gizli qərar qəbul edildi.

Nümayəndə heyətinin Trabzona göndərilməsi təxirə salındı. Belə bir məlumat əldə edildi ki, Kars, Batum və Ərdəhanın Türkiyəyə qaytarılması haqqında Brest-Litovsk müqaviləsi imzalanmalıdır. Nümayəndə heyətləri uyğun tələblərin qoyulmasını israr etdilər. Bu əyalətlərin qaytarılması Gürcüstan üçün sürprizə çevrildi. Belə ki, həmin ərazidə gürcülər və müsəlmanlar (350.000 nəfər) məskunlaşmışdı.

Müsəlmanlar və gürcülər dini baxımdan yox, daha çox qonşu millət kimi birgə yaşayırlar. 1783-cü il müqaviləsinə əsasən Rusiyanın Türkiyə tərəfindən zəbt edilmiş və sonradan Berlin konqresinin (1878) qərarı ilə Rusiyaya verdiyi əyalətlər Gürcüstana qaytarılmalı idi.

Türkiyə hökuməti müharibəyə başlamazdan əvvəl Almaniyaya bu əyalətlərin Gürcüstan Respublikasına, həmçinin 1466-cı ildə Türkiyəyə aid edilmiş Trabzon yaxınlığında yerləşən Lazıstan vilayətini də oraya daxil etməyi təklif etdi. Həmin məsələnin türklərin bolşeviklərlə bağladığı Brest müqaviləsində yenidən irəli sürülməsi buna sübutdur.

Konfransın başlanğıcında Kars, Batum və Ərdəhanın boşaldılması əldə edilən müqavilələrin imitasiyası sayılmadı. Dəqiq cavab yoxdur. Transqafqaz nümayəndə heyəti bildirdi ki, türk

nümayəndələri Trabzonda onların qarşısına Portonun şərtlərini qoymağa getmişlər. Onlar Transqafqaz ilə sülh müqaviləsi bağlamağa tərəfdar idilər. Baxmayaraq ki, bunun üçün türk nümayəndə heyəti ən geniş səlahiyyətləri onlara vermişdi. Lakin gizli təzyiq hələ əvvəldən danışıqlarda Rauf bəyin sədrliyi olana qədər mövcud idi. Türkiyə nümayəndə heyəti Transqafqaz hökumətinin və respublikaların statusuna dair suallar verdi. Cavab belə oldu. Bolşevik inqilabından sonra Qafqazda yeni və müstəqil, Seymə aid hökumət yaradılmışdır. Bu hökumət həmin dövrdə artıq millətlərarası əlaqələrə qoşulmuşdur. Belə ki, onun iştirakı olmadan bağlanmış Brest-Litovsk sülh müqaviləsini tənqid edirdi. Həmçinin qeyd edilmişdir ki, respublikaların müstəqilliyini heç bir böyük dövlət tanımamışdır.

Türkiyə nümayəndə heyəti növbəti görüşdə bu mövqedən imtına etdi. Həmçinin Türkiyə iki dövlət arasında bağlanmış sazişin üçüncü dövlət üçün heç bir qiyməti olmadığını da inkar etmirdi. Bundan əlavə türk nümayəndə heyətinin bildirdiyinə görə əgər beynəlxalq hüququn üstünlüklərindən istifadə etmək istəyirsə, onda o, elə prinsiplərlə formalaşmalıdır ki, sonrakı addımları onların digər ölkələr tərəfindən tanınması ilə nəticələnsin. Bundan başqa, yanvarın 23-də elan edildiyi kimi öz hərəkətini Rusiya Federativ Respublikasının tərkibi sayılan ərazilərin hərəkətləri ilə uyğunlaşdıran Transqafqaz hökumətinin öz nümayəndə heyətini Brest-Litovsk konfransına göndərməməsi faktı göstərir ki, Transqafqaz hökuməti özünü müstəqil deyil, Rusiya Federasiyasının bir hissəsi hesab edir (həqiqətdə Transqafqaz hökuməti öz nümayəndə heyətini Brest danışıqlarına göndərmək fikrində idi. Necə ki, bunu Ukrayna etdi. Lakin azərbaycanlı nümayəndə heyəti danışıqlarda iştirak etməyə etirazlarını bildirdilər).

Türkiyə hökuməti qərara aldı ki, Transqafqaz hökumətini yaratsın və bu hökumət Rusiyadan asılı olmasın...

Ermənilər həm baş vermiş qırğınlara, həm də tanınmış şəx-

siyyətlərinə görə (məsələn: Poqos Nübar Paşa) uzun illər Qərbi Avropa tərəfindən müdafiə edilmişdir. Onların yaxın qonşuları gürcülərdir. Onlar isə belə bir diqqətin obyekti hesab edilmirlər. Tamamilə mümkündür ki, Almaniya qonşuların qüvvə hisslərindən istifadə edib gürcüləri öz himayəsi altına alsın. Əvvəllər Almaniya Gürcüstana bir neçə dəfə müqavilələr bağlamağı təklif etsə də, bütün cəhdlər cavabsız qalmışdı. Belə təkliflərin əsas səbəbi Gürcüstanın sərvətinə nəzarət etməkdən savayı, gürcülərin davakar irqə mənsub olmalarıdır. Almaniya diplomatiyasının regionda bu cür aktivliyinin səbəbi belə bir gücdən bu gün və gələcəkdə istifadə etməklə Yaxın Şərq və Mesopotamiyada öz planlarını həyata keçirmək idi.

Bolqarıstanda və Finlandiyada yüksək intizamlı və döyüş qabiliyyətli qoşunların mövcudluğu elə həmin səbəbdən idi. 300 000 bolqar əsgərinin bu və ya digər dərəcədə alman nəzarəti altında olması Balkanlarda müvafiq qüvvələrin Antantanın zərbəsini dəf etməyə imkan yaratdı və almanlarda bu cür ümidlər Qafqaz üçün də mövcud idi. Belə ki, Gürcüstanı tutmaqla onlar Yaxın Şərqdə qüvvələr nisbətini öz xeyrinə dəyişərək Antanta təhlükəsini aradan qaldıra biləcəklərinə ümid edirlər. Hərbdə adamların say çoxluğu deyil, onların bu və ya digər yerdə vaxtında olmaları əlverişli sayılır. Hazırda Almaniya və Gürcüstan arasında bağlanan məxfi sazişlərin mövcudluğu aşkar edilmişdir. Bu razılaşmalar manqan və başqa xammal ilə təchiz olunma məsələlərinə aiddir. Lakin Gürcüstanın tarixinə nəzər saldıqda bu (proletariatın sinfi mənafeyini burjuaziyanın sinfi mənafeyinə tabe etmək siyasəti) yaranmış vəziyyət qəti başa düşülmür və beləliklə, qarmaqarışıq olaraq qiymətləndirilir. Buna oxşar vəziyyət Finlandiyada da yaranmışdı. Lakin heç bir əsas yox idi ki, Gürcüstan hökumətinin finlər və türklər kimi hərəkət etməsi haqqında düşünülsün. Bolşevik Rusiyasında Gürcüstan hökumətinin nümayəndəsi cənab Qabriel Kundadzenin cənab Uordropa 2 avqust tarixində çatdırdığı "təcili məlu-

mat"ının həqiqi və düzgün hesab edilməsinə əsas vardır. Bu məlumatda xəbər verilirdi ki, Gürcüstanda heç bir partiya almanlara tərəf deyildir. Əksinə Gürcüstan əhalisi Böyük Britaniya və Fransanı özlərinin dostları hesab edirlər və əgər ölkədə almanlara rəğbət hiss edilərsə yalnız bir tərəfdən türklərin və vəhşi müsəlmanların arasında yerləşməkdən, yəni Bakı bolşevikləri və Şimali Qafqazın qonşuluğunda yerləşməkdən doğan ümidsizlikdən baş verə bilər".

Bolşeviklər Qafqaz cəbhəsində tam şəkildə pozğunluq salmışdılar. Bunun nəticəsində də Batum, Ərzurum və s. süquta uğradı. 9 sentyabr tarixində cənab Zurab Avalov (Kerenski hökuməti zamanı Rusiya parlamentindəki Gürcüstan nümayəndəsi) cənab M.Findelə bildirdi ki, o və digər nümayəndə heyətləri Berlində olduqları zaman bizim milli müstəqilliyimizin təsdiqini xahiş etmişdilər, bunun əsasən də, Böyük Britaniya və Fransa tərəfindən edilməsini istəmişdilər. Bu dəlil yaranmış vəziyyətdən Antantanın maraqlarına qarşı istifadəyə çox gözəl imkan yaradır...

**Ermənilər**

Axırıncı onilliklər ərzində ermənilərin Türkiyədən qaçqın kimi Qafqaza soxulmaları erməni məsələsinin həllini tələb edir. Yəni gələcək Ermənistanın mərkəzini Kiçik Asiyanın cənub hissəsində yerləşdirmək məsələsini meydana çıxarır. Bununla bərabər azərbaycanlılar və gürcülər arasında narazılıqları kəskinləşdirmək üçün də cəhdlər edildi. Gələcəkdə münaqişələrdən qaçmaq üçün Gürcüstanın heç bir ərazisi Ermənistana verilə bilməz. Belə ki, bu ərazilər gürcü müsəlmanları ilə məskunlaşmışdır. Bu silahlı toqquşmaya gətirib çıxara bilər və idarə etmək nöqteyi-nəzərindən region üzərində nəzarəti çətinləşdirə bilər. Çünki ərazinin 70%-i gürcü və müsəlmanlardan ibarətdir. Gürcüstan və Ermənistan arasında hər hansı bir toqquşma bu iki millət üçün baha başa gələ bilər və bu vəziyyət almanlar və

türklər arasında ittifaqın yaranmasına əsas verər.

Erməni sosialist siyasətçiləri Gürcüstanda sosial nəzarətin gücləndirilməsi üçün təşviqat aparırlar. Bununla onlar Gürcüstanda milli əhval-ruhiyyəni zəiflətmək və azərbaycanlı liderinin çoxunun rədd etdiyi beynəlmiləlləşdirmənin gücləndirilməsini istəyirlər ki, qədim gürcü paytaxtı olan Tiflisi Qafqazın ümumi paytaxtına çevirsinlər. Onların bu arzusu Varşava yəhudilərinin istəyi ilə üst-üstə düşür. Türkiyədən qovulmuş ermənilər gürcülərə məxsus Tiflis torpağında məskən saldılar və Tiflisdəki qaçqınların sayı yüz minə çatdı. Tiflislə Kubanın arasında əlaqənin kəsildiyini və Kubanın Tiflisi buğda ilə təchiz etdiyini nəzərə alsaq, paytaxt əlavə gələn qaçqın əhalini dolandıra bilməz. Paytaxta qida məhsullarının və dərman preparatlarının gətirilməsi çətin məsələdir. Yaranmış vəziyyət gələcəkdə müəyyən əziyyətlərə gətirib çıxara bilər.

Gürcüstanla gələcək ahəngdar əlaqələr nöqteyi-nəzərindən tarixi və etnoqrafik uyğunluqlara görə gürcülər təklif edir ki, Ermənistan şimal sərhədini düzgün olar ki, birbaşa Ərzincandan Ərzuruma, sonra Sarıqamışa, oradan Karsa, oradan Aleksandropola, oradan İrəvana, oradan da Van gölünə keçirsin. Ermənistanın ərazisi Ərdəhan vilayəti və Oltdan Göyçə gölünə qədər, İrəvan istisna olmaqla, bütün Kars əyalətindən ibarət olacaqdır. Türk əyalətlərinin daxil olması ilə (Sivas, Van, Bitlis, Ərzurum, Karput,Kilikaya) ermənilər əyalətlərin sayına görə inzibati bölüşdürmə noqteyi-nəzərdən qeyri-bərabər əraziləri əldə edəcəklər.

Digər tərəfdən, əgər Türkiyəyə muxtar Ermənistan üzərində suverenliyini qoruyub saxlamağa imkan verilərsə, Türkiyə güman ki, erməniləri Gürcüstanın cənub əyalətlərinə sıxışdırmağa, muxtar, yaxud müstəqil Ermənistana Qərbi Ərzurum ərazilərini almağa icazə verməməyə çalışacaqdır. Beləliklə, Türkiyə ermənilər və gürcülər arasında gərginlik yaratmaqla İran və Azərbaycan azərbaycanlıları ilə əlaqəni qoruyaraq bunu edəcəkdir.

Türkiyə məğlubiyyətə uğradığı zaman iki dost və mehriban qonşu dövlət, yəni Gürcüstan və Ermənistan yaranır və azərbaycanlılarla məsələ açıq qalır. Türkiyə, İran və Azərbaycan əraziləri arasında ərazi əlaqələrinin təşkili üçün müstəqil Gürcüstan və Ermənistan dövlətlərinin yaradılması zəruridir.

Türklərin və azərbaycanlıların ərazicə birləşməsinin vacibliyi ondadır ki, əgər Cənubi Qafqaz və Azərbaycan azərbaycanlıları birbaşa Türkiyə ilə əlaqədə olarlarsa bu, onların bütün Şimali İrana, Əfqanıstana və Türküstana təsir etməsinə gətirib çıxarar.

Göstərilən problemin həlli müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Yenidən yaradılmış üç müstəqil dövlətə Dardanel və İstanbulun beynəlmiləlləşdirilməsi nəticəsində asanlıqla nəzarət olunacaqdır. Müəyyən vaxt ərzində bu üç respublikanın müharibədə iştirak etməsi göstərir ki, Transqafqaz respublıkaları konfederasiyasını yaratmaq mümkündür. Belə ki, bura Azərbaycan, Gürcüstan və Ermənistan daxildir. Belə bir Federasiyanın təşkili əvvəlcədən razılaşma olmadan həyata keçirilə bilməz. Çünki, əks halda bu irqi toqquşmalara və daimi narahatlığa səbəb ola bilər. Federasiya hansı prinsiplər üzərində qurulacaqsa, o prinsiplər siyasi və mədəniyyətin inkişafına uyğun olmalıdır. Balkanlarda və Skandinaviyada olduğu kimi. Azərbaycan Respublikası üçün də əsas problem savadsızlıq və siyasi səriştəsizlikdir.

Məsələnin alternativ həlli əsasən Transqafqaz Azərbaycanının rus hakimiyyəti altına salınmasıdır. Belə qərar Almaniya tərəfindən təklif edilmişdir. Bu dəlil rus-alman danışıqlarında göstərilmişdir. Rusiya Bakı ərazisində neft və neft sənaye məhsullarının əldə edilməsi üçün əlindən gələni edirdi. Rusiya isə ayda istehsal olunan neft məhsullarının 1/4 hissəsini və müəyyən edilmiş miqdarda nefti əvvəlcədən razılaşdırıldığı kimi Almaniyaya verməli idi.

Əgər Bakıda istehsal olunan neftin həcmi danışıqlarda olduğu kimi Almaniyaya vermək üçün kifayət etməsə, bunlar Azərbaycanın dıgər bölgələrindən əldə olunan neftlə əvəz olunacaqdır. Almaniya da üçüncü tərəfin qoşunlarının Qafqaz ərazisinə buraxılmaması üçün müvafiq tədbirlər görməlidir. Məhdudiyyət sərhədləri aşağıdakılardır: Kür çayının axarı ilə Petropavlovska qədər, Şamaxı-Ağıroba sərhədləri, Bakının, Kürün və Şamaxının kəsişdiyi sərhəd nöqtəsi, Bakı regionunun şimal-sərhədindən dənizə qədər. Hadisələrin belə inkişafı Dağıstanın Rusiya Federasiyasının tərkibinə keçməsi ilə nəticələnəcəkdir. Digər tərəfdən, Türkiyənin İran Azərbaycanını azərbaycanlıların dövlətinin tərkibinə qatmaq arzusu vardır.

## Transqafqaz və Rusiya arasında qarşılıqlı münasibətlər

Aydın olur ki, keçiriləcək dünya konfransında Rusiya dövlətinin sərhədləri haqqında məsələ ən çətin məsələlərdən biri kimi gündəmə gələcəkdir. Bu məsələ Antanta ölkələrinin tərəfdarı olduğu xalqların öz müqəddəratını təyin etməsi prinsiplərindən irəli gəlir. Bu məsələnin praktik həllinin çətinliyi ondan ibarətdir ki, məhz hansı ölkələr və millətlər bu prinsipi subyektiv hesab edəcəklər. Bu prinsip estonlara da aid ola bilər və proses zamanı qəbul edilmiş tədbirlər Antanta ölkələri tərəfindən İrlandiya, Yunanıstan və Hindistana tətbiq edilə bilər.

Bəllidir ki, bu prinsip Rusiya dövlətinin sərhədləri kontekstində qəbul edildiyi kimi Rusiya və Böyük Britaniya arasındakı gələcək münasibətləri mürəkkəbləşdirəcək və Rusiya-Almaniya arasında yaxınlaşmaya xidmət edəcəkdir. Şübhəsiz ki, Rusiyada mərkəzləşdirmə instınkti çox güclüdür. Rusiya Qurko və Kerenskinin birindən hərbi, digərindən isə siyasi nəzarət üçün müxtəlif formalar ala bilər. Lakin o hər iki halda mövcud-

dur, sadəcə bunu təsdiq etmək lazımdır. Maarifləndirilmiş rusa Finlandiyanı, Bolqarıstanı və Transqafqazı itirməyə öyrəşmək çox çətin olacaqdır.

Əksər hallarda Rusiya bu prosesləri süni hesab edir və bunun səbəbini Rusiyanın zəifləməsi üçün yönələn öz müqəddəratı təyin etmə adıyla milli azadlıq hərəkatlarında və Britaniya intiriqalarında görür. Bu, şübhəsiz obyektiv faktların inkarı deməkdir. Dəqiq bilmək lazımdır ki, hansı ölkənin siyasi və iqtisadı müstəqilliyi daha çoxdur. Bununla yanaşı, bu ölkələrin Rusiya Federasiyasına qayıtmaq cəhdini saxlamaq lazımdır.

Yuxarıda ifadə olunanları nəzərə alsaq, Transqafqazda vəziyyət aşağıdakı kimidir: gürcülər bu günkü gündə də Rusiya Federasiyasının tərkibinə qayıtmağı istəmirlər. Gürcülərin Rusiya Federasiyasının tərkıbinə keçməsi onların Şimali Qafqazla toqquşmasına gətirib çıxaracaqdır. Çünki burada kazaklar üstünlük təşkil edirlər və onların Qafqazı qarət etmələri və Qafqaz üzərinə göstərdıkləri təzyiqlər zamanı nümayiş etdirdikləri vəhşiliklər yaddan çıxmamışdır. Təzədən dostluq münasibətlərini həyata keçirmək çətin məsələdir. Kuban kazak atamanı Lyaxovun üsulları, onun İran və Qafqazın yerli əhalisinə qarşı münasibəti uzun müddətə hər bir əlaqəni məhv edə bilər. Bundan əlavə, kazaklar respublika hakimiyyət formasını qəbul etməzlər, çünki onların təşkili feodal hərbi sistemi üzrə aparılmalıdır. Ermənilər beynəlxalq nəzarət altında saxlanacaqlar. Azərbaycanlılar isə tək qalmayacaqlar.

Yuxarıda qeyd olunanların hamısını nəzərə alsaq, müstəqillik və ya yarım dövlət qurumunun müstəqilliyi gələcək federasiya üçün addım hesab edilir. Bu da ki, yalnız on illik ərzində həyata keçirilə bilər. Şərq nümunələrində olduğu kimi Gürcüstan və Ermənistanın azadlığa güclü maraqları mövcuddur. Ümumiyyətlə, Qafqaz məsələsi o qədər çətin və çaşdırıcı hesab edilir ki, müəyyən qədər müqayisə olunmuş və qəbul edilmiş həll

olunma yalnız Antanta komissiyasının elə öz məkanında vəziyyətini və şəraitini dəqiq öyrəndikdən sonra baş verə bilər.

"Daily Kevierb" (E.P.S)
Sentyabr 19, 1918-ci il

***FO 371/3301 27562***

***

Hərbi nazirlik!
Ağ ev
S.V.
25 oktyabr 1918-ci il

Əziz Qrehem,

Mənim məktubuma 22 oktyabr tarixində olunan əlavə və Azərbaycan üzrə Şərq komitəsinin notası. Sizə olan hörmətimə inanın və ən yeni məlumat ilə zəngin məruzəmi qəbul edin.

Məndə olan ümidverici məlumatlara görə 17 oktyabr tarixində İstanbula daxil olmaq əmrini alan 5-ci Qafqaz diviziyası Azərbaycanda qalmaq və zəruri olduqda Azərbaycanın "subyekti olmaq" əmrini almışdır. Oktyabrın 15-də Ənvər Paşa sülh müqaviləsinin bağlanmasını gözlədiyi halda dərk etdi ki, Türkiyə öz qoşunlarını Azərbaycan və Şimali Qafqazdan çıxardacaqdır. Ona görə o, Nuru Paşaya və onun qərargah zabitlərinə Azərbaycanda qalmalarına səlahiyyət verdi.

Bu, digər məlumatlarla da uyğun gəlir ki, Ənvərin qohumları olan Xəlil və Nuru Qafqazda qaldılar. Ənvərin atası da Qafqaza gəldi. Ənvər Nuruya əmr verdi ki, necə olursa-olsun, o, öz zabitlərini Azərbaycanda saxlamalıdır. 20 oktyabr tarixində 18 zabit İstanbuldan Qafqazda onlar üçün müəyyənləşdirilmiş yerə gəldilər və Türkiyənin digər hissələrindən də zabitlərin Qafqaza göndərilməsi üçün addımlar atıldı.

Eyni zamanda, 18 oktyabr tarixində Ənvər Paşa əmr verdi ki, heç bir Osmanlı hərbi birləşməsi Ermənistan ərazisinə, xüsusən də Qarabağa ayaq basmayacaqdır və türk komandirlərini azərbaycanlılarla ermənilər arasında olan müxtəlif konfliktə qarışmamağa çağırdı.

Bundan əlavə belə bir məlumat da vardır ki, türklər Tiflis regionunda yerləşən gürcülərə məxsus Karaklis-Lori dairəsini ermənilərə vermək fikrindədirlər.

Bu, türklərin ermənilərə ödəniş vermələri kimi qiymətləndirilir.

## Azərbaycan haqqında qeydlər

Bu sənəd Türkiyə ilə atəşkəs imzalanmamışdan əvvəl yazılmışdır.

1. Transqafqaz hökuməti may ayının sonrlarında dağılan zaman azərbaycanlılar paytaxtı Yelizavetpol olmaqla müstəqil respublika elan etdilər. Onlar Bakını tutmağı planlaşdırırdılar. Ərazi dəqiq müəyyən olunmasa da güman ki, Yelizavetpol və Bakı vilayətləri, Cənub-Şərqi İrəvan, Dağıstan və İran Azərbaycanı daxil olacaqdır.

Sonrakı iddialar görünür ki, İstanbuldakı azərbaycanlı nümayəndəliyi və dağıstanlılar tərəfindən müdafiə olunurdu. Azərbaycanlıların İran Azərbaycanında bir dövlət altında birləşmək arzularının həyata keçməsi haqqında heç bir dəlil yoxdur.

2. 1918-ci ilin iyun ayında türklər Azərbaycana Bakı istiqamətində hücum etdilər və iyul ayının sonlarına qədər artıq yeni respublikanın ərazisinin böyük qismi işğal altında idi. Almaniya bu məsələdə Türkiyəni dəstəkləyirdi. Lakin o, heç vaxt müstəqil dövlət kimi tanınmadı və 27 avqust Rusiya-Almaniya müqaviləsində Bakının Rusiyaya birləşdirilməsi türklərin və azərbaycanlıların etirazını səbəb oldu.

3. İyul ayından başlayaraq Ənvər Paşanın qardaşı Nuru bəy

Yelizavetpolda yerləşərək öz əmrlərini verməyə başladı və bu, yerli əhali arasında narazılıqlara səbəb oldu. Eyni zamanda o, azərbaycanlı qoşunlarının yaradılması və təlimi ilə məşğul idi. Bu, Nuru bəyin Bakı istiqamətində hərbi əməliyyatları ilə əlaqəsi olmayan siyasi ambisiyaları ilə bağlı idi. Bunun müvəffəqiyyətli nəticəsi olaraq sentyabrın 15-də Azərbaycan hökuməti Yelizavetpoldan Bakıya köçdü.

4. Lakin sentyabrın 23-də Almaniya Berlində türk qoşunlarının Bakıdan çıxarılması haqqında gizli razılaşma protokolunu imzaladı və bu, İranla Almaniya arasında münasibətlərin yaranmasına səbəb oldu. Belə çıxır ki, Tələt Paşa Türkiyənin Azərbaycandakı siyasətinin tamamilə dəyişməsinə gətirib çıxaran bu protokolu imzalayarkən məcburiyyət qarşısında qalmışdır. Çünki, o, mövcud hərbi vəziyyətin və Bolqarıstanın süqutunun tamamilə fərqinə varmışdı. Dörd diviziya İstanbula dönmək üçün əmr almışdı.

Digər tərəfdən, oktyabrın 12-də Ənvər Paşadan Nuru bəyə gələn xəbərdarlıqda deyilirdi ki, nə qədər türklər Azərbaycanda güclüdürlər, onlar rusları və erməniləri bu ölkədən çıxarmalıdırlar. Bu, xüsusilə, sərhəd zonası olan Astara və Lənkəran bölgələrinə aid idi. Bu və digər dəlillərdən aydındır ki, türklər İran Azərbaycanı da daxil olmaqla Azərbaycanda öz nüfuzlarını qoruyub saxlamaq fikrindədirlər. Bu, həmçinin, onunla təsdiq olnur ki, türklər Azərbaycanın sərhədlərini dəqiqləşdirməyə çalışır, ermənilərin Qarabağdakı işğal əməliyyatlarının qarşısının alınması üçün könüllü qoşun toplayırlar.

6. Ənvərin ətrafı Azərbaycana yığılmışdır və partizan dəstələrində xidmət üçün toplanaraq Türkiyədən zabitlərin daşınmasından ötrü hazırlıq görürlər. Türklər müharibə zamanı Azərbaycana əlavə qüvvə gətirəcəyini gözləyirlər və bu, mümkün ola bilər.

İki Azərbaycanın birləşməsi haqqında razılaşmanı Təbrizdəki İran şahı irəli sürdü. Oktyabrda İstanbula təyin olunan 5-ci

Qafqaz diviziyası Azərbaycanı tərk etməmək haqqında əmr aldı. Qafqaz diviziyası Azərbaycan hökumətinin əmrlərinə tabe olmalı idi. Bu dövrdə Azərbaycan milli ordusu 9000 nəfər idi. Lakin ordunu sentyabrın sonuna qədər formalaşdırmaq mümkün olacaqdır. Nuru oktyabrın əvvəllərində Şimali Qafqaza səfər etdi. Elə bu tarixdən türklər Azərbaycanın və Qafqazın müstəqil bir dövlət kimi formalaşması uğrunda işlər görməyə başladılar. O, öz təbliğatını burada apararaq, Dərbənd yaxınlığında Biçeraxova qarşı əməliyyatlar həyata keçirdi.

7. Oktyabrın 18-də türklər hərbi əməliyyatları dayandıraraq ermənilərə qarşı münasibətləri dəyişdilər. Bu tarixdə Ənvər türk qüvvələrinin başda Qarabağ olmaqla, erməni ərazilərinə daxil olmaması və türk generallarının erməni və azərbaycanlı mübahisələrində iştirak etməməsi haqqında əmr verdi. Bu bir yalan da ola bilər. Lakin türklərin əsas məqsədi güclərini erməni qüvvələrinə qarşı çevirib keçmiş mübahisəli torpaqlardan faydalanmaq idi.

Oktyabrın 23-də Türkiyə Baş komandanlığı Litovsk sülhünə əsasən Kars, Ərdəhan və Batum istisna olmaqla İran və Qafqazın evakuasiyasına başladı və Şərq ordusu adlı dəstə ləğv edildi. Lakin türklər ermənilərin, xüsusilə də Andranikin hərəkətlərindən ehtiyat edirdilər.

İran Azərbaycanın evakuasiyası zamanı almanları Təbriz və Tehranda olduqları yerləri, Qafqazı da tərk etmək təhlükəsi gözləyirdi. Lakin səfərdə olan Litten Təbrizdəki konsulluq vəzifəsini icra edərək səyahətinə davam edirdi. Fon Kress və alman hökumət nümayəndələri cəmi 500 şəxsin qorunması mümkün oluncaya qədər qalacaqlar və Fon Kress dəstələrdən Almaniyanın nüfuzunu qorumağa, erməni və gürcülərin xahişini yerinə yetirməyə çağırmır.

9. Qeyd olunan 5-ci Qafqaz diviziyasının tərk etməsi nəzərə çarpmamışdır, türklərin qəlbində isə İranın evakuasiyası zamanı azərbaycanlıların özünə inamını formalaşdırmaq, gələcək-

də güclü panturanizm və panislamizm istiqamətli dövlət yaratmaq arzusu vardır.

10. Almaniyaya gəldikdə isə, onların əsas məqsədi Gürcüstandakı maraqlarını nəzarət altında saxlamaq, Fon Kressin Xarici İşlər Nazirliyi, Çxenkeli şöbəsi ilə siyasi əlaqələr qurub, Gürcüstana borclar tətbiq etmək idi. Bu siyasətə Bakıya nəzarət də daxil idi. Almanlar ora bir qrup ekspert göndərdilər. Onlar türklərin Azərbaycandan çıxarılmasına rəsmi köməyə də razı idilər. Görünür, onların maliyyə maraqları Ənvərin maraqları ilə üst-üstə düşürdü və Ənvərin almanlara pul verməsi hamıya məlum idi. Lakin bu fakt da təsdiq olunmalı idi.

11. Nəticə olaraq türklər və almanlar Azərbaycanda və Gürcüstanda qalacaqlar və bu layihə Sülh konfransında müzakirə olunacaq və Qafqaz regionunda gələcək planlar müzakirə ediləcəkdir.

Hərbi Nazirlik
Baş qərargah
30 oktyabr 1918-ci il
***FO 371/3262 27763***

***

Bu sənəd Britaniya hökumətinin xüsusi mülkiyyətidir
Siyasi kəşfiyyat idarəsi
Məxfi

**Transqafqazın Britaniya maraqlarına uyğun olaraq gələcək quruluşu**

1. Transqafqazın gələcəyi Rusiya ilə sərhəd dövlətlərin ümumi problemi olmuşdur və onun bir çox xüsusiyyətləri vardır. Türkiyə Qara dənizi Britaniya donanması üçün açarsa, Tür-

kiyə ilə hərbi əməliyyatlar dayandırılacaq və bu regionlardakı gələcək əməliyyatların həyata keçməsinə zəmin yaranacaqdır. Bu şəraitdə özünə inam və müstəqillik ən müdrik bir plandır. Bu, gürcüləri, ermənilər və azərbaycanlıları müstəqil bir dövlət kimi tanımağa kömək edəcəkdir. Ümid edilir ki, bu dövlətlər bir-birinin ardınca federal dövlət kimi formalaşacaqdır. Bu onu göstərir ki, bu dövlətlər Rusiyadan qurtularaq müstəqil olacaqlar. Qafqaz Rusiya ilə sərhədlərlə ayrılacaqdır. Lakin onların sabit və liberal Rusiya Federasiyasına könüllü qayıdışı istisna olunmamalıdır.

2. Bu xalqların özünü dərketmə bacarıqlarına nəzarət və köməklik etmək üçün Qərb dövlətlərinə ehtiyac duyulurdu və Sülh konfransında Anadolu və erməni məsələləri ABŞ-ın maraq dairəsində olduğu üçün bu tapşırıq ona veriləcəkdir.

3. Təbliğat apara biləcək (hərbçilər də daxil olmaqla) türk və alman qüvvələrini çıxarmaq görüləcək ilk tədbirdir. Bu, Gürcüstan üçün mühüm əhəmiyyət kəsb edir. Əlavə olaraq qeyd edə bilərik ki, Gürcüstan bu üç xalqın içində siyasi və iqtisadi cəhətdən bu gün ən inkişaf etmiş ölkədir.

Müharibənin son illərindən öz artımına və potensial sərvətlərin inkişafına görə Gürcüstan Almaniyanın diqqət mərkəzindədir. Almanların gürcülərə təsiri bu dövrdə daha güclüdür və onlar özlərini heç bir dövlətlə, məsələn, Finlandiya ilə müqayisə etmirlər. Bir çox müstəqil mənbələrə görə alman müstəmləkəçiliyindən tamamilə azad olmaq istəyirlər. Şübhə yoxdur ki, Gürcüstan və Almaniya dövləti arasında bəzən İsveçrənin iştirakı ilə bir çox ticarət müqavilələri bağlanacaqdır və bu ticarət münasibətlərinə zərər gətirəcək amil onların ləğv edilməsi ola bilər. Britaniya maraqlarına gəldikdə isə onlar Batumu müstəqil elan etdilər. Bu məsələlər 1878-ci ildə başladı. Bu planlara əsasən Ermənistan, Bakı, İran və Mərkəzi Asiyaya sərbəst dəmiryolu açılmalı idi.

4. Gürcülər iddia edirdilər ki, onlar öz müstəqilliyi uğrunda

III əsrdən başlayaraq müxtəlif şərtlər altında 1801-ci ilə qədər cəhdlər etmişlər. Bu günə kimi Gürcüstanın öz mövqeyini müəyyənləşdirməyə hüququ vardır. Bu əsasla Gürcüstan köhnə Rusiya imperiyasında güclü mövqeyə malik olmuşdur və heç bir zaman Rusiya tərəfindən istismar olunmamışdır. Tarixi və etnoqrafik cəhətdən zəngin olan Gürcüstanın çətinlikləri erməni qaçqınlarının axınından yaranırdı.

Müharibə statistikasına və müharibədən əvvəlki fikirlərə əsasən bütün şərait Birləşmiş qüvvələr tərəfindən qiymətləndirildi.

5. Ermənilər müstəqillik istəyirsə, eləcə də Türkiyənin 5 vilayətinin, Kilikiya və Rusiya ermənilərinin əyalətlərini qoruyacaq beynəlxalq mandatlı qüvvəyə ehtiyac duyulur. Bu ermənilərin əsas fikirləri idi. Burada fikir ayrılıqları mövcuddur. Bəzilərinin marağı Rusiya Ermənistanına, digərlərinin isə Türkiyə Ermənistanına birləşməkdir. Lakin bəziləri belə birləşmiş Ermənistana birləşməkdənsə Rusiyada qalmağı daha üstün tuturlar. Bu, geniş ərazi olduğuna görə kürdlərlə birləşdirilmə zəruridir. Halbuki onların da ayrılmağa haqqı vardır. Bu iki xalq məsələləri özləri həll etməli olsalar, sözsüz ki, onlar bir qərara gəlməyəcəklər. Bu halda onlar Türkiyə və Rusiyanın müdaxilələrinə ehtiyac duyacaqlar.

6. Üçüncü element Bakı və Yelizavetpol quberniyalarından ibarət olan Azərbaycan Respublikasıdır. Azərbaycanlıların və azad düşüncəli türk Ənvər Paşanın fikrinə görə bura şimaldan Dağıstan və İran Azərbaycanı da əlavə olunmalıdır. Regionun ən gərgin nöqtəsi olan Bakı və Yelizavetpoldan ibarət Azərbaycan dövləti Gürcüstan və Ermənistan əhatəsində özünü idarə edə biləcəkmi və əgər bu mümkün olmazsa, onların yenidən Rusiyaya qayıtması qeyri-mümkün ola bilər.

7. Qeyd etməliyik ki, Gürcüstan öz işlərini lazımi qaydada idarə edə bilər. Ermənilər də həmçinin özünü idarə qabliyyəti-

nə malikdirlər. Lakin digər ölkələr (məsələn, müasir Yunanstan) ona azadlıq verilərkən çətinlik çəkdilər. Azərbaycanlıların ruslarla gələcək münasibətləri aşağıdakı kimi düşünülə bilər:

8. Müharibənin əvvəllərində orduya 150.000-dən 280.000 nəfərədək adam daxil olurdu. Almanların Antanta qarşısında təslim olması Britaniyanın bu üç Transqafqaz dövlətlərinin nümayəndələrinin fikirlərini ifadə etməyə yol açdı və ya onların etnoloji cəhətdən siyasi bir varlıq kimi inkişaf etməsinə yol verdi. Şimal-şərqi Qafqazın Kuban əhalisinə və Don kazaklarına göz yumulmamalıdır. Ukraynada da həmçinin kazak elementləri mövcuddur və bu elementlər köhnə Rusiyanı cənub-qərbə çevirə bilər. Bu siyasət Şimali Rusiyada əhalinin mühacirəti nəticəsi olaraq yarana bilərdi. Rusların Qafqaza təcavüzkar hərəkəti məqsədinə görə vəhşi münasibət idi. Qroznı və Maykopdakı neft mədənləri, Dərbənd və Petrovskda limanlar olduğuna görə Rusiya Transqafqazdakı mülkiyyətlərini itirsə belə, bu onun üçün böyük bir itki hesab olunmayacaqdır. Dahi panturançı, Azərbaycan Respublikası Milli Şurasının prezidenti və İstanbulda nümayəndə Rəsulzadə hökumətin başçısı Fətəli xan Xoyski ilə Yeni Azərbaycan dövlətinin siyasətinin aparılmasında əsas xətti müzakirə edirdi.

Hal-hazırda Ukrayna Böyük Rusiyanın qüvvələri ilə bərabər çalışıb və sülh konfransının iradəsini bir prokuror kimi qəbul etdirirdi. Yəqin ki, Ukrayna Qərbi Qalisiya, Bessarabiya və bütün Qafqazı bu mərkəzlərin federasiyası kimi formalaşdırmaq üçün əməkdaşlığa təhrik edəcək və Kuban kazakları milli ordunun köməyi ilə Suxum vilayətinə öz təsirini göstərəcəkdir.

1 noyabr 1918-ci il

***FO 371/3301 275 62***

***

182430/ W/34 № -li Qeydiyyat
Xarici İşlər Nazirliyi
P.Koks
Tel: № 575
Tehran, Hərbi
Sizin 931№-li teleqramınız (31 oktyabr, Azərbaycan)

Türklər İran Azərbaycanını boşaltmağa ümid edirdilər. Hərbi idarə Türkiyə evakuasiyası zamanı İran hökuməti üçün Culfaya nümayəndə heyəti göndərməyi qərara aldı. Onların başçısı Mesopotamiyada olan Baş komandanlıq tərəfindən təlimatlandırılaraq bir zabit heyəti, bir də siyasi məmurlar və İran hökumətindən ibarət olmalıdır.

Mən Cənab Bulvardı hərbçi zabit kimi göndərməyi təklif edirəm. Öz fikrinizi bildirin.

*FO 371/3262 27763*

***

Bu sənəd Britaniya hökumətinin xüsusi
mülkiyyətidir
Məxfi
Hərbi kabinetə

**Qafqaz regionunda mümkün ərazi siyasəti haqqında memorandum**

**1. Türkiyə Ermənistanından kənar ayrılmış dörd zona vardır:**

1). Gürcüstan;
2). Rusiya Ermənistanı;

3). Rusiya Azərbaycanı;
4). Dağıstan

2. İran Azərbaycanı və Rusiya Ermənistanı memorandumu müzakirə olunmayacaqdır. Keçmişdəki məsələlər Sülh konfransında müzakirə olunmayacaq və İranın ərazi bütövlüyü qorunacaqdır.

3. Göstərilən ərazilər inqilabdan əvvəl Rusiya imperiyasına aid idi. Üç qeyd olunan ərazi və Rusiyanın Avropa hissəsindən ayrılan Dağıstanın dağlıq əyaləti rusların işğalına məruz qalmamışdır.

4. Dörd ölkənin heç biri rus millətindən deyildir (Kuban, Stavropol, Terek regionları ilə müqayisədə dörd xalq öz müstəqilliyini inqilabdan əvvəl elan etmişdir). Onlar öz müqəddəratını təyinetmə hüququnu və praktik siyasəti tələb edirlər.

5. Yarandıqları hər hansı bir ərazidə nüfuza malik olan milli hökumətləri tanımağa başlamaq məqsədəmüvafiqdir. Bu zaman onların müstəqilliyi və ya Rusiyaya birləşməsi sualına toxunulmur. Bu fikri əvvəldən nəzərdən keçirmək olar və bu bəyanata şərhlər verilməlidir. Millətlər Cəmiyyəti bu məqsədlər üçün əlverişli mexanizmlər təqdim edə bilər. Rusiyanın sabit siyasi quruluşa qayıtması üçün məsələlərin həlli uzun çəkəcək və bu üç Qafqaz dövləti qüvvələrdən ayrılaraq muxtar siyasətlə öz müstəqil dövlətlərini yaratmağa ehtiyac duyur. Rusiya istəsə bu dövlətlər onunla federal əlaqədə olacaqlar. Əgər Rusiyada anarxiya uzun illər davam edərsə, bu halda dövlətlərin Rusiyadan ayrılması əbədidir. Bizim Qafqazdakı siyasətimiz təsadüflərlə qarşılaşa bilər.

Bu dörd müstəqil Qafqaz dövlətinin qurulmasına nəzər yetirdikdə, ilk növbədə onların öz ayaqları üzərində dayanması bacarığını müəyyənləşdirmək lazımdır. Qanuni rəhbərin olmaması, hökumətin federal icraedici orqanının yoxluğu, monarx müəssisələrinin və ya suveren təkliflərin və ictimai birliyin ol-

maması federasiyasının zəifləməsinə və ya məhv olmasına səbəb ola bilər.

6. Ancaq dörd dövlətdən heç biri güman etmirdi ki, onların məsləhətçiləri və başçıları maliyyə yardımını müəyyən formada təchiz edən hər hansı bir kənar qüvvənin dəstəyi olmadan da keçinə bilərlər. Əgər belə təşkil olunsaydı, bu dörd dövlətin hər birinə eyni xarici qüvvə tərəfindən məsləhət və yardım verilərdi, onda bu, çox güclü birləşdirici elementin yaranmasına gətirib çıxara bilərdi.

7. Şübhəsiz ki, Britaniya özü üçün çox maraqlı olan bu Orta Şərq ölkələrində anarxiyanın baş almasına icazə verə bilməzdi. Digər tərəfdən də bu bizim üçün Rusiya ilə gələcək əlaqələrimiz baxımından təhlükəli idı. Çünki İngiltərə həmin o qüvvə olacaqdı ki, Rusiya Qafqaz ölkələrində onun məsləhət və dəstəyi üçün namizədliyini göstərəcəkdi. Həmin ölkələrdəki əhali arasında böyük nüfuza malik olan digər güclü dövlətlə yaxşı münasibətdə olmaq bizim maraqlıramıza tam cavab verirdi. Ümumi müzakirələrdən sonra bu ölkələrin hər birindəki vəziyyət haqqında danışmaq olar.

8. Gürcüstan əlverişli limanlara və dəmiryoluna malik, siyasi cəhətdən azadlıq ənənəsi olan, cənub-şərqdə yaşayan müsəlman azlığını çıxmaqla eyni dilə və dinə malik əhali ilə məskunlaşmış yığcam bir ərazidir. Daha yaxşı olardı ki, müasir müstəqil Gürcüstan hökumətini tanıyaq. Baxmayaraq ki, biz onun Almaniya ilə xüsusı münasibətlərinin kəsilməsi üçün təkid etmək məcburiyyətindəyik.Gürcüstanın daxili işləri üçün kənar yardıma çox az ehtiyc vardır. Qeyd olunan üç ölkədən siyasi cəhətdən daha çox inkişaf olduğuna görə Gürcüstan güman ki, onu daha az istismar edən və ondan daha az tələb edən güclü dövlətlə işləməyə razı olar. Bir məsələ öz üstünlüyü ilə diqqət çəkir. Belə ki, Batum və Poti limanları Azərbaycan, Dağıstan, Ermənistan, İran və Mərkəzi Asiya ölkələri ilə ticarət etmək üçün azad limanlar olacaqlar.

9. Rusiya Ermənistanının əhalisi Gürcüstandakı kimi eyni tərkibli deyil (ermənilərin və kürdlərin qarışığı var) və coğrafi cəhətdən dənizlə sərhədi olmadığı üçün əlverişsiz sayılır. O, müharibə nəticəsində talan olunmuşdu və eyni zamanda vəziyyət bir az da ona görə mürəkkəbləşmişdi ki, Rusiya erməniləri əvvəllər Türkiyəyə aid olanlarla birləşmək arzusuna düşə bilərdilər. Bizim ən təbıi siyasətimiz müstəqil hökuməti (Ermənistanın - İrəvan Respublikası) tanımaq və əgər istərsə Türkiyə Ermənistanına birləşməsinə mane olmamaq idi.

10. Rusiya Azərbaycanında daha çətin problemlər mövcud idi. Ölkədə əhalinin tərkibi azərbaycanlılardan, ermənilərdən və başqa qarışıqlardan ibarətdir. Paytaxtı Bakı şəhəri kosmopolit şəhər olaraq özündə neft sənayesində çalışan bir çox millətləri-erməniləri, rusları, farsları, yəhudiləri və başqalarını birləşdirir. Azərbaycanlılar müsəlman, türkdılli xalq olduqları üçün Bakı adminstrasiyasında türklərin böyük rolu vardır. Azərbaycanda torpaq sahibkarlığının, neft sənayesinin türklərin və başqa millətlərin əlində olduğu bir zamanda ölkədə müstəqil hökumətin tanınması bizim üçün heç də məsləhət deyildir. Azərbaycanlıların Türkiyə ilə milli, dini zəmində olan yaxınlıq və ermənilərlə olan ortaq düşmənçilik zəminində qurulmuş əlaqələrini qırmaq Gürcüstan-Almaniya əlaqələrini qırmaqdan daha çətin olacaqdır. Belə bir vəziyyətdə güclü kənar tərəfdara ehtiyac duyulur. Avropa Rusiyasının sənayesi və nəqliyyatı üçün və nəhayət, dünya üçün böyük əhəmiyyətə malik Bakı neft mədənləri barədə də xüsusi problem meydana gəlir. Bakıdakı siyasi rejim və nə olursa - olsun, neft mədənlərinin beynəlxalq nəzarət altına salınması vacibdir.

11. Dağıstan çoxlu müxtəlif dillərdə danışan vəhşi müsəlman tayfalarının (sahil boyundakılar istisna olunmaqla heç biri türkdilli deyildir) birləşməsindən ibarətdir. Rusiyanın oranı işğal etməsi bir əsrə qədər çəkmişdi. İndi Dağıstan yenidən müstəqildir. Lakin onu çətin ki, özbaşına qoyarlar. Belə ki, Bakı-Ru-

siya dəmiryolu onların ərazisindən keçir, eyni zamanda Britaniya üçün böyük maraq kəsb edən Bakı və Qroznı neft mədənləri onların hücumuna məruz qala bılər. Qroznı həqiqətən də inqilaba qədər bir neçə ay onların mühasirəsində qalmışdı. Dağıstan, Qafqaz dağları silsiləsinin şimalında yerləşdiyinə görə Rusiyaya birləşdirilməsi üçün böyük coğrafi zəmın yaranırdı. Lakin Rusiya indiki vəziyyətində açıq-aydın Dağıstan dağlarındakı məsuliyyəti öz üzərinə götürmək istəmir. Qanunun və nizam-intizamın bərpası və gücləndirilməsi vəzifəsi təşəkkürsüz qalacaqdır və hərbi nöqteyi-nəzərdən baxıldıqda da bu, çətindir.

12. Bu problemdə ən çətin məsələ olan mandat səlahiyyətinin seçilməsi qalır. Biz məsələni yaxşıca işıqlandırsaq, belə bir nəticəyə gələrik ki, Rusiya, İngiltərə və İtaliyanın istisna olunması ilə başlaya bilərik. Fransa, ABŞ və Avropanın kiçik ölkələri olan İsveç, Norveç, Danimarka, Hollandiya və İsveçrə qalır. Çox güman ki, prezident Vilson bu kiçik dövlətlərdən birinə üstünlük verə bilərdi, yaxud da elə edəcəkmiş kimi görünərdi. İnanmaq çox çətindir kı, bu təklıf problemin həlli zamanı cıddi müzakirə oluna bilsin. Mandat səlahiyyətinin nüfuz sahibi olması üçün onun ya hərbi gücə, ya da nüfuza ehtiyacı var idi. Bu məqsədlə xırda dövlətlər siyahıdan çıxarıldı, seçim Fransa və ABŞ arasında qaldı.

13. Fransanın seçilməsinin bir neçə üstün cəhəti var idi. Ən başlıcası bu, ermənilər tərəfindən çox müsbət qarşılanacaqdı. Ermənistanın Parisdəki milli nümayəndəliyinin cənab Balfura ünvanladığı son məktubda qarşıya 6 vilayətin və Kilikiyanın daxil olması ilə eyni zamanda əgər arzu edərsə Rusiya Ermənistanının birləşdirilməsi şərtı ilə Ermənistan dövlətinin yaradılması məsələsi qoyulurdu.

İkinci üstün cəhət isə Fransa mandatlığının 1916-cı ildə imzalanmış İngiltərə-Fransa razılaşması ilə üst-üstə düşəcəyindən ibarət idi. Hətta bu yolla, yəni dörd Qafqaz ölkəsinin ərazisini bu memorandumda birləşdirərək Fransanı Suriya, Mesopotami-

ya və Fələstindəkı iddialarında müəyyən güzəştlərə getməyə məcbur etmək olardı.

14. Lakin eyni zamanda nəzərə almaq lazım idi ki, Fransanın Qafqazla heç bir əlaqəsi yox idi və yerli əhali tərəfindən o pıs qarşılana bilərdi. Fransanın İranın şimal sərhədində görünməsi bizim həmin ölkədəki vəziyyətimizi heç də yaxşılaşdırmırdı. Məsələnin belə həlli çox xeyirli olmasa da, Fransa Millətlər Cəmiyyətindəki nüfuzunu azaldaraq öz diqqət və nəzarətini bu mandatlığa yönəltsə, bizim üçün ümumən qənaətbəxş hesab edilə bilərdi.

15. ABŞ mandatı bizə uyğun gəlməlidir və 1916-cı ildə olan ingilis-fransız razılaşmasında Fransa ilə öz narazılıqlarını, şikayətlərini həll etməlidirlər. Biz bilirik ki, amerikalıların aydın şəkildə göstərdikləri biganəlik yalandır və dünya ölkələrinin göstərdiyi diplomatik təsir nəticəsində onlar təslim ola bilərlər.

16. Üçüncü alternativ bizim maraqlarımıza uyğundur. Bu, Ermənistan üzərində Fransanın mandat almasına izin verməkdir. Əgər əhalinin razılığı olarsa, Rusiya Ermənistanına, Rusiya Gürcüstanına, Dağıstana sərfəli yol Amerikanın mandatlığını qəbul etməkdir. Lakin prezident Vilson bu razılığı könülsüz qəbul edir. Çünki bu, ABŞ-a heç bir gəlir və mənfəət gətirməyəcəkdir.

17. Praktik nəticəni əldə etməyin ən gözəl yolu Ermənistan və Cənubi Qafqaz ərazisini fransız mandatlığına verməkdir.

Eyre A.Krov<br>
Forin Ofis<br>
7 noyabr 1918-ci il

*FO 371/3301 27562*

***

**Transqafqazda vəziyyət. Bakıdakı son günlərin səciyyəsi**
17-24 noyabr 1918-ci ıl

Şimali İrandakı qüvvələrin komandanı general
V.M.Tomson tərəfindən hazırlanmışdır

General Tomson tərəfindən Şimali İrandakı qüvvələr noyabrın 17-də 12:50-də Bakıya çatmışdır. Mürsəlin məktubunu gətirən ilk türk zabiti məlumatlandırıldı ki, onlara dövlət əmrini yerinə yetirmək üçün iki batalyon ayrılmışdır. Onların şəhəri tərk etməsi saat 3:00 nəzərdə tutulmuşdur. Şəhərin bir çox məmurları (şəhərin işğalı zamanı türklərə kömək edənlər) müxtəlif şəkildə çıxışlar edirdilər. Biçeraxov görünmürdü və Biçeraxovun gəmisi nəzərdən keçirilən zaman o çox dostcasına və mehribanlıqla dedi ki, azərbaycanlıların Azərbaycan hökuməti bizim tərəfimizdən tanınır və bu halda o, artıq kənarda durmalıdır.

Ümumən, əhalinin bizim gəlməyimizə şad olduğu görünür. Sonralar milliyyətcə rus Milli Şurasının sədri merin müavini kimi göndərildi və əlverişli məsləhətlər verdi. Biçeraxov uzun səyahət etdi və öz hərəkətlərini ifadə edərək Azərbaycan hökuməti qarşısında narahatçılığını bildirdi. O, oteli tərk edərkən Şutlevorsun başçılığı ilə ruslar tərəfindən tutuldu. Müxtəlif xüsusi şəxslər müsahibə verdilər, onların ifadələri və fikrləri nəşr olundu. Axşam “Azərbaycan” qəzeti qələbə barədə geniş miqyaslı elan verdi və Birləşmiş qüvvələrin müstəqil Azərbaycan Respublikasını tanıdığı barədə məlumat yayıldı. Qəzetin redaktorunun içkili vəziyyətdə olduğu barədə söz-söhbət yayıldı və bəyanatın tamamilə səhv olması haqqında bəyannamə dərc olundu. Üç nəfərlik nümayəndə heyətindən biri Ənzəlidə idi və o, saat 11:00-da gəldi. Müsəlman əhalisinə vacib bir xəbəri çat-

dırmaq niyyətində olduğunu qeyd etdi. Onların fikir ayrılıqları mövcud idi. O, gecə vaxtı çox gec olduğunu və onların həyəcanını nəzərə alaraq bütün düşmənçilikləri unutdu.

Onlar məlumatlandırılmışlar ki: 1) Türklərin getməsinə baxmayaraq əmrləri yerinə yetirməmək; 2) Azərbaycan dəstələrinin kənarlaşdırılması; 3) Britaniya dəstələrinin təyin olunması gərəkdir. Onlara "Azərbaycan" qəzetinin təhlükəsizliyinin qorunması çox ciddi və məsuliyyətli vəzifə görünürdü. Onların tələb etdiyi məlumatlar qəzetlərdə geniş miqyasda dərc olunurdu.

Ayın 18-də Sentrokaspi hökuməti 10:50-də gəldi və qətiyyətlə Azərbaycan hökumətinin istefasını tələb etdi. Söhbətlərin çoxu iki təhsilsiz dənizçi arasında gedir, onlar kifayət qədər məmnundurlar və sözlərinin müəyyən dövlət idarələrində keçdiyinə söz verirlər. 200 milyon rubl əldə edəcəklərinə söz verərək onları qanun və hüquq naminə Rusiyanın yenidən qurulması yolunda xərcləyirdilər. Rusiyanın müxtəlif regionlarından zabitlər gəldilər, onların sırasında Vladiqafqazdan mayor Rovlandson, general-mayor Baron Apshoven var idi. Müasir erməni liderlərinin fikirlərinə görə onlar rus və azərbaycanlıların fikrləri ilə hesablaşmalıdırlar. Dağıstanlıların adından rusiyalı müsəlman general qeyd edir ki, o, işlə bağlı bir neçə ay əvvəl İstanbulda olmuşdur. Böyük bir təəssüflə qeyd etdi ki, bu aylar ərzində olan Petrovsk hücumunda iştirak etməmişdir. O, Şimali Qafqazın prezidenti Çermoyevə məlumatı çatdırmaqdan çox həyəcan keçirir. O, Petrovskdakı türk komandirinə hərbi əməliyyatı kəsməkdə şəxsən məsuliyyət daşıdığını qeyd etdi. Cənab Əsədullayev çağırıldı. Bütün tərəflərin müasir koalisiyalı əyalət hökuməti yaratmaq layihələri var idi. O, çox varlı idi və bütün siniflərə məxsus şəxslərlə dil tapa bilərdi və özünün təsdiq etdiyi kimi onlara neçə illərdir təsir göstərə bilirdi.

Ufa hökumətinin nümayəndələri gəldilər və ümidləri heç doğrultmadılar. Ufa hökuməti qətiyyətlə şəxsən Biçeraxovun

böyük məbləğdə hökumətdən oğurluq etdiyinə əmin idi və böyük hakimin bu şəraiti kompensasiya etməsinə ehtiyac duyulurdu. Heç bir halda Qolovin Biçeraxovu tanımayacaqdı. Eləcə də azərbaycanlılarla və ermənilərlə fikir bölüşməyəcəkdi. O, yalnız Birləşmiş qüvvələrlə belə bir fikir bölüşə bilər ki, - hökuməti Qafqazda yerləşdirsin. Onun məqsədi ətrafındakı bütün tərəfləri möhkəmləndirərək, Rusiyanın yenidən qurulmasını təmin edərək öz şəxsi mənafeyini güdmədən xalqa xidmət etməkdir. Qolovin öz səyahətindən hələ özünə gəlməmişdir və onun kimi bir insanın belə çətin bir tapşırıq üçün göndərilməsi düzgün olmazdı.

Donanma nümayəndələri dostcasına bizi salamlayaraq öz işlərindəki gözəl rəftarı nümayiş etdirirdilər. Gəmi sahiblərinin nümayəndələri qarşılıqlı dostluq münasibətlərində idilər.

Rusiya ticarət cəmiyyətinin nümayəndələri ötən gün iclasda qərar qəbul edərək hökumətin koalisiyası naminə əməkdaşlıq etməyə söz verdilər. Onlar bu niyyətlərini azərbaycanlılarla görüşərək həyata keçirmək istəyirlər. Ruslar kimi onlara mane olan Biçeraxovun dəstəsini erməni arxiyepiskopunun erməniləri silahsızlaşdırdığı kimi tərksilah edirlər. Bu günlərdə ətrafda əhval-ruhiyyə normaldır, şəhər sakitdir, Azərbaycan hökuməti isə getmək niyyətində deyil və şəhəri köçürmək istəmir.

**20 noyabr**

Azərbaycan hökumətinin prezidenti cənab Əsədullayevlə birlikdə gələrək respublikanın türklərin təsiri altında qaldığını izah etdi. O, türklərin getməyindən məmnun qalacaqlarını qeyd edərək Birləşmiş qüvvələrin gəlişini salamladığını bildirdi. Onlar ruslardan azad olmaq istəyirdilər və 50.000 adamlıq müdafiə ordusu yaratdılar. O, bütün partiyaların nümayəndələrinin hökumətə uyğun olması ilə razılaşmaq istəmir və iki həftə ərzində təşkilati işlərə başlamağa söz verdi. O, başa düşürdü ki, Birləşmiş qüvvələr müstəqil respublikanı tanımaq istəmir və bütün bu

məsələlər sülh konfransında müzakirə olunacaqdır.

Onun koalisiyalı hökumətə az ümidi vardır. Lakin o, ədalətli təcrübəyə əsaslanaraq hər bir işi ədalətli görməyə çalışacaqdır. O, qanunu pozanların dərhal cəzalandırılacağını dedi. O, bütün tərəfləri, Rusiya hökumətini və erməniləri günahlandırırdı. Şübhəsiz ki, o, ağıllı adam, vəkil, yerli idarəedicidir, Qafqazda əvvəl tanınmış şəxslərdən daha praktikdir. O, Nuru bəyin boş işlərlə məşğul olduğunu qeyd edirdi və onun Azərbaycanda olan iddialarına qarşı çıxırdı. O, bunun qarşısını alacaqdı və deyirdi ki, bütün türklər də bunu etmək üzrədirlər. Bizim tələbimizə əsasən Azərbaycan ordusu Bakıdan çıxarılmış, Yelizavetpolda Andranik və Avetosovun başçılığı ilə kütləvi surətdə azərbaycanlıları qıran erməni qəsbkarlarına qarşı yerləşdirilmişdir.

72 saatlıq təcrübəyə əsaslanıb şəraitdən tələsik nəticə çıxarmaq mümkün deyildir. Əsas xüsusiyyətlərə aşağıdakılar daxildir:

1. Britaniya üçün xarakterik olan milli vətənpərvərlik, monarxiya və respublika quruluşu Bakıda mövcud deyildir.

2. Təhsilsiz erməni və azərbaycanlıların arasında nifrət və səbirsizlik o qədər güclü idi ki, insanlar dəhşətli dərəcədə qəddar olmuşdular.

3. Təhsilli ruslar tədricən mənəviyyatını itirirdilər, onların azərbaycanlılara münasibəti ermənilərdən daha yaxşı idi.

4. Birləşmiş qüvvələr Qafqaz əhalisini mərkəzi rus hökumətinə yönəldərək Britaniyada yaşayan fransızlar və amerikalı ermənilər üçün gözəl şərait yaradırdılar.

Bakı ərazisinə nəzarətdə qoşunlar da iştirak etməlidirlər. Lakin bəzi hallarda yalnız siyasi təzyiq göstərmək lazımdır. Aşağıdakı siyasi və iqtisadi məsələlərdə bizim iştirakımız zəruridir:

1. Azərbaycan ordusunun buraxılması və türklərin əyalətlərdən çıxarılması.

2. Erməni qoşunlarının yerləşməsini qadağan etmək və

Azərbaycan ərazilərindən keçərək silahsız qaçqınların evlərinə qayıtmasını təmin etmək.

3. Ticarətin yenidən təşkil edilməsi.

4. Hal-hazırda Azərbaycan hökumətinin modifikasiya metodlarının sərt olması, onun rus və ermənilərə qarşı çevrilməsi.

Vəziyyət mürəkkəbdir. Lakin partiyaların müasir sülhsevər nümayəndələri vəziyyətin çıxılmaz olmadığına ümid edirlər. Birləşmiş Ştatların, Kanadanın və Avstraliyanın dövlət quruluşuna qibtə ilə baxılır. Lakin qafqazlılar birləşərək yeni bir Rusiya yaratmaq istəyirlər. Bu, Monarxiya və ya Respublika da ola bilər (onlar üçün fərqi yoxdur).

Lakin danışıqlar aparmayan və lider olmayan təhsilli bir şəxs belə kiçik dövlətlərin müstəqil qala bilməyəcəklərini və Rusiyanın hər zaman Qafqazda güclü təsiri olacağını dərk edir. Ancaq ilk növbədə əhaliyə onların daim güclü sandıqları Rusiya dövlətinin əsarətindən qurtulmağı başa salmaq lazımdır.

**21 noyabr**

Böyük neft maqnatı cənab Lestner Nobel Bakıya gəlmişdir. Boş firmasından menecer Boş Danimarka bankına məxsus olan sərmayədən 50 milyon rubl gətirmişdir. Bu sərmayəyə bankın açılması, boru kəmərlərinin çəkilməsi və rus fəhlələrinin cəlb edilməsi daxildir. Sözsüz ki, o, ağıllı insandır və köməyə ehtiyacı vardır. Bu halda şübhəsiz, onun bizə köməyindən çox biz ona kömək edə bilərik. Azərbaycan Ticarət Komitəsindən müsahibə götürülmüşdür. Yeni məlumat yoxdur. Eyni xahişlə Ural kazaklarının nümayəndələri gəlmişdir. Demək olar ki, bu günlərdə hər kəs Biçeraxov dəstəsinin sərxoşluğundan və küçələrdəki atışmalarından şikayət edirlər. 1 şəxsin öldürülməsi və 2 yaralının olduğu rəsmi elan edildikdən sonra adamların silah daşıması qəti qadağan edildi.

**22 noyabr**

Fətəli xan (baş nazir) və maliyyə naziri yenidən seçildilər. Tıcarət şöbəsində yeni nailiyyətlər əldə olunur. O, həqiqətən də koalisiyalı hökumətin yaradılması üçün çalışır. O, Baş komandan ilə görüşərək Biçeraxov dəstəsinin yaratdıqları çətinlikləri müzakirə edərək, sentyabrda onun Bakıdan çıxaracağı böyük məbləğin Rusiya dövlət bankına yerləşdirilməsi məsələsini, eləcə də onun adamlarının törətdiyi pis əməllərin qarşısının alınmadığını müzakirə etdi. Terqriqorov ilə görüşüb ermənilərin köçürülməsinin detallarını müzakirə etmək üçün Rovlandsonla və yerli hökumətlə görüşməyi qərara aldı.

**23 noyabr**

Gürcü nümayəndələri ilə görüş və digər əsas məsələlər müzakirə olunmuşdur. Biçeraxovun yazılı əmri ilə silahlı cangüdənlər onu əhatə edirlər. Bank məmurları Sentrokaspi üzvləridir və ilk növbədə banka nəzarət etmək öhdəliyini yerinə yetirirlər. Buna etiraz olaraq, Biçeraxov ordusunun şəhəri boşaltmalı olduğu bildirildi. Biçeraxov isə saat 2:00-da Bakının işlərinə qarışmayacağını bıldirərək ordusunun şəhəri tərk etməsi üçün gəmiyə ehtiyacı olduğunu nəzərə çatdırdı.

**24 noyabr**

Şimali Qafqazın prezidenti Çermoyev müsahibə vermək istədiyini bildirdi. Lakin gəlmədı. O, əvvəllər imperiya təhlükəsizliyi zabiti idi. O, Biçeraxova qarşı Yusif İzzət Paşa ilə birlikdə əməliyyatlar həyata keçirmişdi. O, türklərə nəzarət edirdi.

Fətəli xan öz xahişini təkrar edir. Koalisiya məsələsində Qolovinlə yaranmış əsas çətinlikləri bildirir və Ufa hökumətinın təqdim olunmasını tələb edir. Onların ən böyük tələbi müs-

təqil respublika və müdafiə üçün ordu yaratmaq idi. Terqazarov ilə, həmçinin ermənilərin əsas məsələlərinin müzakirəsi, keçən gecə Biçeraxov ilə də saatlarla söhbətlər aparıldı. Kartinov və onun zabitlər heyəti tamamilə antiingilisdir və az təsirə malikdir. Nəticədə Biçeraxovun sözləri və hərəkətləri üst-üstə düşmür. O, kazak müdafiəçilərini Dövlət bankına təyin edir, azərbaycanlı məmurları azad edir. Çox az yerli təşkilat fəaliyyət göstərir. Yalnız bank açılmışdır. Kazaklar şəhəri tərk edirlər və nəticədə Biçeraxov öz ordusunu Bakıdan çıxaracağını söyləyir.

24.11.18. (Tomson) tərəfindən imzalanmışdır
(General-mayor) Şimali İran qüvvələrinin komandanı
***SAV 45/107***

***

Bakı
24.11.18

Hörmətli Biçeraxov!

Mən Sizə bir dost kimi yazıram və Sizinlə yazışmanı şifahi söhbətdən daha üstün tuturam. Çünki mənim Sizə deyəcəyim sözlər qətidir və yaxşı olar ki, heç bunu müzakirə etməyək. Hər bir halda mən ümid edirəm ki, bu, bizim şəxsi münasibətlərə heç bir dəyişiklik gətirməyəcəkdir. Siz həmişə bizimlə düzgün olmusunuz. Mən həmişə Sizə rəğbət bəsləmişəm.

Lakin indi bu cür şərait davam edə bilməz. Mən burada baş verən xoşagəlməz halları, mənim adımdan verilən sifarişlərin dəfələrlə yerinə yetirilməməsi hallarını nəzərdə tuturam. Bundan əlavə mən daha böyük hadisələri də nəzərdə tuturam. Müharibə bitmişdir. Sülh bərpa olunmuşdur. Sizin qüvvəniz məqsədsiz işlərə sərf olunur və Siz öz fəaliyyətinizi yaxın zamanda təsdiq etməlisiniz. Mən Çekin və Georgiyevin Sizinlə bərabər

öz qüvvələrini tamamilə sərf etdiklərinə əmin deyiləm və düşünürəm ki, burada onların görəcəyi bir iş yoxdur. Sizin müharibədə hər bir insanın qürur duya biləcəyi nailiyyətləriniz vardır və hər bir şəxsin döyüşlərin ən çətin saatlarında geri çəkildiyi zaman Siz döyüşməyə davam etmisiniz. Siz bunu dəyişmək istəyirsiniz. Sizin düşməniniz indi az deyil və əgər siz fəaliyyət göstərməsəniz, onların əllərinə güclü silah keçəcəkdir. İndi heç bir döyüş davam etmir və mən Sizdən bunu nəzərə almağınızı xahiş edirəm. Bu, mənim vətənimin qarşısında vəzifəmdir və mən burada sülhü bərpa etmək istəyirəm, Sizin qüvvələriniz burada narahatçılığa və həyəcana səbəb olur. Mən xahiş edirəm ki, bu Sizin rəhbərliyinizlə və sifarişinizlə həyata keçirilsin. Mən Sizin dostluğunuzu qiymətləndirirəm. Sizə çox minnətdaram və əminəm ki, Sizə doğru yol göstərirəm və bizim maraqlarımız uyğun gələcəkdir və bu, Sizin üçün çox əhəmiyyətlidir, eləcə də Sizin xidmət göstərdiyiniz ölkənin də maraqlarına uyğundur

Hörmətlə,
**Tomson**
***SAV 45/107***

***

Mənim tərk etdiyim şəraitin qiymətləndirilməsi. 13 may 1919-cu il. Vinston və Kerzonun şifahi söhbətlərindən istifadə edilmişdir. İyun 1919-cu il.

General mayor V.N.Tomson, Şimali İran qüvvələri tərəfindən.

Transqafqaza dair qeydlər

Vəziyyət tədricən ağırlaşır. Bizim işğalımız heç bir xeyir gətirmir. Ölkədə qiymətlər artır, rublun əvvəlki 1/20 satış qiy-

məti dəyişməmişdir. Denikin gənc respublikaçıların gözündə bolşeviklərdən daha pis düşməndir. Denikinin əsas məqsədi Rusiyanın "qəlbi" hesab olunan, yəni varlı təbəqənin yaşadığı, boşeviklər olmayan hissəsini zəbt etmək və İranı Rusiya nəzarətindən tamamilə azad etməkdir.

Denikin bizim köməyimizi qəbul edərkən bizə inanmağı və ya rəğbət bəsləməyi düşünmürdü. Respublikaçılar bizim hər iki tərəfə kömək etməyimizdən narazıdırlar, bizim Denikini və Gürcüstanı yaxınlaşdırmaq məqsədimiz yüksək bir iş kimi qiymətləndirilə bilər.

Bu dövrdə əsas isiqamət bolşeviklərlə birləşərək sosialist Gürcüstanı və panislamçı Azərabaycanı Denikinə qarşı çevirmək, eləcə də Rusiyanı köhnə rejimdən qurtarmaq istəyən imperialist Britaniyanı bu işə cəlb etməkdir. Leninin siyasəti dövrün müasir siyasəti hesab edilir. O asanlıqla fikirlərimizi öyrənib ümumi müstəqillik adı altında Denikini məhv edə bilər.

Demokratik muxtar dövlət şüarını Ukrayna, Krım, Şimali Qafqaz, Gürcüstan və Azərbaycana şamil edərək Rusiyada yalnız ruslara geniş şərait yaradılacaqdır. Fransızlar, yunanlar, italyanlar və ingilislər istismar olunacaqlar. Son 8 ayda Rusiyanın nüfuzu yüksək deyildir və Lenin yalnız Rusiyanın cənubunda nailiyyətlər əldə etmişdir. Denikinin sivil dövlət yaratmaq planları baş tutmur, o, məşhur deyildir, nəticədə onun hərbi nailiyyətləri nəticəsiz qalır və qüvvələrinin mövcudluğu mənasızdır. Transqafqaz bölgəsinə nəzarət edilməsi üçün qüvvələrin yaradılması Sülh konfransında qərara alınacaqdır. Azərbaycan və Gürcüstanın yenidən işğal olunmasında aşağıdakı bəndlər əhəmiyyət kəsb edir.

1. Denikinin fəaliyyəti başa çatacaqdır, o tamamilə bizdən asılıdır. Biz ona qarşı çevrildikdə Gürcüstan və Dağıstana hücum edəcəkdir. Neft daşıyıcıları Bakıdan Həştərxana keçəcək,

Volqa ətrafındakı bolşeviklərin dəmiryolu təmir olunacaq, inkişaf edəcək, sənayesi isə zənginləşəcəkdir.

2. Ermənistan ac qalacaqdır, hal-hazırda Amerika qatarları Gürcüstana göstərilən təzyiq nəticəsində məsafənin yarısını keçəcəkdir. Bu məsələ daim çətin olmuşdur. Bu ziddiyyəti azaltmaq məqsədi ilə Gürcüstan Amerika unu ilə təchiz ediləcəkdir. Lakin bu Gürcüstan hökumətinin düşmənlərə baş əyməsi demək deyildir.

3. Vədlər verilmişdir. Gürcüstan xəbərdar edildi ki, H.N.G-nin məqsədlərinə rəğbət bəslənilir. Dekabrdan bəri sonuncu təlimatlar üzərində işlənilir. Biz Gürcüstan, Azərbaycan və Ermənistanı güclü müstəqil dövlət kimi görmək istəyirik.

İlk bənddə göstərildiyi kimi Denikin sadə bir hərbçıdır. Sözsüz ki, o öz həyəcanını tam torpaq üzərində, eləcə də Xəzər dənizi ilə əlaqələndirirdi, bu təşvişlər Don hökuməti, eləcə də Odessa və Sevastopolun fransızlar tərəfindən idarə olunması ilə bağlı idi. Ermənistan məsələsi ən mühüm idi. Göstərilən bütün cəhdlər Batum və Kars arasında, Tiflis də daxil olmaqla dəmiryolunun təmiri ilə nəticələndi. Lakin Ermənistan öz dəmiryol payını əldə etmirdi, o həmçinin Batum və Trabzon yolundan faydalana bilməzdi.

Üçüncü sual siyasət və borclar məsələsidir. Transqafqaz iki problemin qovşağında idi. Rusiya bizim üçün çox vacib idi. Məhəmmədin müsəlman məsləkdaşlarının qüvvəsinin qüdrəti bitmək üzrə idi. Biz bu vəziyyəti qəbul edəcəkdikmi? Biz Türkiyənin qələbəsinin tabeçiliyini qəbul edəcəkdikmi?

Biz İran şahına və Azərbaycana necə münasibət bəsləyirik və ya rus imperatorluğunun müsəlmanları üçün nə etmək niyyətindəyik? Onlar bizə müraciət etmişlər. Türkmənistan, Buxara, Xivə və hətta Başqırdıstanın nümayəndələri Tiflisə gələrək ingilislərin müdafiəsini və köməyini xahiş etdilər. Ona görə də

Transqafqaz bizim üçün əhəmiyyətlidir. Digər tərəfdən iki bölmənin öhdəliklərini əhatə edərək, yüksək idarəetmə qabliyyətinə görə Fransa və İtaliya nəzər-nöqtəsi olaraq qalacaqdır.

V.M.T.
26/5/1919 imzalanmışdır
*SAV 45/107*

***

Bu qeydlər V.Heveti üçün yazılmışdır

Transqafqaza dair qeydlər

1) Təkliflərə əlavə edilmiş xəritə üç respublika ilə məhdudlaşdırılmışdır. Müsəlman Şimali Qafqaz Respublikası düşüncələrinə və istiqamətinə görə tamamilə türkdür, həmçinin Dağıstan Azərbaycanla əlaqələndirilərək Qafqaz Respublikası hesab edilir. Bu yolla xristian bloku Qara dənizdə, müsəlman bloku isə Rusiyanın və eləcə də Şamilin xatirəsi çox güclü olan və indiki zamanda da unudulmayan Xəzər dənizində toplanmışdır.

Gaqri Kazbek və Petrovskda Rusiyaya qarşı qüvvələr möhkəmlənmişdir. Xəzər dənizini Rusiyanın əsarətinə vermiş qüvvələr aradan qaldırılmalıdır.

2) Türkiyə və Rusiya Ermənistanı birləşdirilməməlidir, onların öz limanı və öz dəmiryolu olmalıdır, Gürcüstanın Batum limanından tranzit kimi istifadə edilməməlidir. Paytaxt kimi Ərzurumla Trabzon ən gözəl liman olmalıdır.

3) Hər üç respublika mandatlıq tələb edir. Ermənistan biznesi hər zaman onlardan nə isə əldə edəcəkdir. Ermənistan öz ətrafındakı iqtisadi cəhətdən böyük gücü olan Gürcüstan və Azərbaycandan çox mənfəət əldə edəcəkdir.

4) Bu təkliflərin əsas məğzi - hər üç respublikanın özünə inam hissini yaratmaq, onları müəyyən mineral sərvətlərlə təchiz etmək, zəif bir ordu ilə silahlandırmaq, onların hər birinə dəmiryol xətti açmaq, gec və ya tez bir zamanda federasiya yaratmağa inandırmaq idi. Məsələn, I Culfa-Ələt dəmiryol xətti Azərbaycan, Sənaində olan sexlər isə Ermənistan hökuməti üçün nəzərdə tutulmuşdu, bu da onlara çox lazımlı idi.

5) Yerdəyişmə mühüm idi, lakin böyük həcmdə deyildi. Məsələn, Qarabağdakı hakimlik davam etməyəcəkdi, Rusiya Ermənistanının müsəlmanları əvvəlki yerlərində qalacaqdılar.

Bu aydındır ki, ermənilərin bacarıqlı işçiləri müsəlman hökumətində sülh və rahatlıq içində yaşamağı Araratın sahilində keçi otarmaqdan daha üstün tutacaqlar. Qafqaz əhalisi yenə də ruslarla, türklərlə və digər xalqlarla əvvəl yaşadıqları kimi yaşayacaqlar.

Daimi axın və ticarətın inkişafı Transqafqazın nə qədər mühüm bir ərazi olduğunu günü-gündən sübut edirdi.

7) Maliyyə xaotıkdir, qiymətlər artır, aylarla təmirsiz, istifadəsiz qalan dəmiryolları işə düşmüş, minimal yemək azuqələri əldə edilir. Artıq Transqafqaz Sülh konfransının təyinatını gözləyə bilməzdi.

Mandatlıq hüququ indi daha mühüm idi. Geniş qiymətlər və yaxın aylarda fəhlə əməyi müdafiə olunacaqdı. İnsaniyyət və qadın azadlığı xüsusi ilə diqqəti cəlb edirdi.

Bu layihələrə görə 1920-ci ilin iyul ayında Transqafqaz və Türkiyə ermənilərinin sayı azalacaqdır.

B) Mühüm tələblər:

1. Müəyyən qüvvəyə malik mandat
2. Transqafqaz cərəyanı
3. Ticarət sahəsi
4. Dəmiryolunun təmiri
5. Türkiyə ermənilərinin məhdudlaşdırılması

6. Türkiyə ermənilərinin vətənlərinə qaytarılması, eləcə də qış üçün ərzaq tədarükünün edilməsi.

İmza: V.M.T.
9/4 1919
*SAV 45/107*

***

Məxfi
Əməliyyat - G.O.C. Mesopotamiyadan
Hərbi qərargah, C.Hindistana, G.N.G Səlanikə, Vilson missiyasına, İstanbula
Göndərilmişdir: Saat 19:05. 20 noyabr 1918
Alınmışdır: Saat 20:30. 21 noyabr 1918

X 3960
1.20 noyabr saat 17:30-da Mürsəl Paşanın böyük qarnizonla Biləcəridən Bakıya girməsi barədə məlumat alındı. Mürsəlin Bakıya gəlişi türklər tərəfindən inkar edildi. Lakin sonradan təsdiq edildi və bir qədər sonra Tomsona məlumat verildi ki, Mürsəl son türk əsgərinin Biləcərini boşaldacağı tarixi gələn gecə söyləyəcəkdir.

2.Mürsəl Osmanlı ordusunun Nurunun rəhbərliyi altında olmadığını dedi. O, Petrovskın evakuasiyasını əmr edə biləcəyini söylədi. O, ərazi indi İzzət Paşanın rəhbərliyi altındadır. Baş qərargahın məlumatına görə Nuru əmri imzalayaraq Petrovskdan və Qafqazdan hər bir türk əsgərinin evakuasiyası məsuliyyətini öz üzərinə götürmüşdür. Zamanın qiymətləndirilməsi baxımından evakuasiya tələb olunurdu. Birləşmiş qüvvələr İstanbulda ola bilərdi.

3. Məlumat verildi ki, Nuru Putadadır (Biləcəriyə 4 mil qalmış ərazi). Yazılı təlimatlar ona Tomson tərəfindən verilmişdir.

O, Tomsona bütün xəbərlər barədə təfsilatı ilə məlumat verməli idi.

4. Tomson məlumat verdi ki, Biləcəridə türklərin evakuasiyası üçün maşın ehtiyatı vardır. Həmçinin Petrovsk və Rusiyanın Bakıdakı nəqliyyat naziri bu hadisədəköməklik göstərməyə söz vermişlər.

5. Bakıda iki alman əsgəri həbs edildi.

6. Noyabrın 19-da ölkənin maliyyə vəziyyəti bank və ticarət nümayəndələrinin maraqları ilə üst-üstə düşürdü.

7. Nəzarətin təmin olunması bərpa edildi.

8. Ənzəlidən seçilərək Bakıya gətirilmiş ermənilərin vətənlərinə qaytarılması təyin edildi.

*FO 371/3301 27562*

***

Cənab P.Koks (Tehran) İran, hərbi
2 noyabr 1918, saat 5:00
3 noyabr 1918, saat 4:15

№ 936 - Mənim 31 oktyabr 981 №-li teleqramım

Bu evakuasiya Azərbaycan üçün təhlükəli ola bilər və İran Azərbaycanı cəbhələrində verilən əraziləri əldə etmək üçün dərhal əmrlər verə bilər və şimal-şərqi İrana, xüsusilə də hökumətə çatdırıldı ki, kiçik briqadasından başqa onların bu məqsədlər üçün ordu qüvvələri yoxdur. Baş nazir qərara gəldi ki, qeyri-bərabər hərbi təlim görmüş 10.000 gənci hərbi qüvvəyə cəlb edəcəkdir. Lakin onların silahları olmadığı üçün məndən xahiş etdilər ki, Əlahəzrət hökuməti İran dövlətinin 10.000 əsgərini 200 tüfənglə təmin etsin. Onlar həmçinin zəmanət vermişlər ki, bu silahlar yalnız qısa bir zamanda istifadə üçün nəzərdə tutul-

muşdur. Ümid edirəm ki, bu xahiş məqsədlidir. Və bu sılahların bizə qarşı çevriləcəyinə inanmıram. Düşünürəm ki, zabıtlərin dəvət olunmasının bir qədər müddətə və ya Sülh konfransına qədər təxirə salınması daha məqsədəmüvafiqdir.

Düşünürəm ki, onlar tədricən əlverişli şəraitin yaranması nəticəsində türk ehtiyat qüvvələrindən faydalana bılərlər.

836 №-lə Xarici İşlər Nazirliyinə, Siyasi Bağdadın Baş qərargah zabitlərinə göndərilmişdir. Hindistana təkrar göndərılmışdir.

## Azərbaycandakı vəziyyətə dair qeydlər

Azərbaycanda və Gürcüstanda vəziyyət çox maraqlı və eyni zamanda gərgindir. Azərbaycanlılar, gürcülər və ermənilər birləşmişlər. Onlar Rusiyaya nifrət edirlər. Lakin onların bir-birinə qarşı nifrəti də çox dərindir. Ancaq onlar mübarizə müqabilində verilən müstəqillik mükafatına görə bu nifrəti boğmağa çalışırlar. Özünə olan inama görə xüsusi ilə Azərbaycan xalqı rəğbətimizi qazanır və əgər xalqın əsas tərkib hissəsi barışmazdırsa, bu halda ona xarici qüvvə rəhbərlik edə bilməz.

İngilislər Bakıda yerləşən zaman Azərbaycan Respublikasının azərbaycanlı nümayəndələrinə Birləşmiş qüvvələrin onları müstəqil dövlət kimi tanıya bilməyəcəyini bildirdilər. Çünki onlar həm Almaniya, həm də Türkiyə tərəfindən idarə olunurdu. Birləşmiş qüvvələr Rusiyada yenidənqurma işlərini öz üzərinə götürmüşlər. İlk bəyanat Azərbaycan Respublikasının baş naziri Fətəli xan tərəfindən verildi. Bu bəyanatda əsasən azərbaycanlılar tərəfindən edilmiş maraq doğuran hərəkətlərə haqq qazandırılırdı. O, bildirirdi ki, Qafqaz əhalisi hər zaman rus əsarətindən azad olmaq ıstəmişdir. Rusiyadakı çevrilişdən sonra bu imkanları daha qabarıq əldə etdilər və bolşevilər Moskvada formalaşdılar. İlk olaraq Qafqaz hökuməti yarandı. Bu da üç həqiqi dövlətin formalaşması demək idi. Bunlar azərbaycanlı və

ya Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri idi. Azərbaycanda daima azərbaycanlıların öz aralarındakı çaxnaşmaları bir tərəfdən, digər tərəfdən isə ermənilərlə və bolşeviklərlə mübarizə davam edirdi. Bu hadisələrin nəticəsi olaraq mart ayında 180 kənd dağıdıldı və azərbaycanlılar öldürüldü. Nəticədə azərbaycanlılar kömək üçün türklərə müraciət etdilər. Türklər müəyyən miqdarda qoşun göndərdilər. Onlar eyni zamanda türklərə kömək üçün müraciət etmək istəmirdilər. Çünki onlar özlərini intellektual cəhətdən türklərdən daha üstün hesab edirdilər. Lakin bu bir həqiqətdir ki, onlar 50.000 nəfərə qədər qoşun topladılar və bu ordu ermənilərə və qonşu dövlətlərə qarşı çevrildi.

Müharibədən sonra mövcud olan Rusiyanın qanunları təqdim olunsaydı, şübhəsiz ki, azərbaycanlılar arasında böyük bir ziddiyyət yaranacaqdı. Bir çox təsir gücünə malik olan azərbaycanlılar başa düşürdülər ki, onlar Mərkəz qüvvələrinin nəzarəti altında qalmalıdırlar. İnanırdılar ki, onlara Sülh konfransından sonra muxtariyyət veriləcəkdir.

Şovinistlər elan edirdilər ki, yalnız Böyük Britaniya müharibədən sonra 3 ay ərzində öz vətəndaşlarının ordusunu meydanda saxlaya və yalnız Britaniya ordusu Qafqazdan çıxdıqdan sonra Azərbaycan müstəqil dövləti yenidən yarana biləcəkdir.

Fətəli xanın bəyanatının təsiri ilə ermənilər bolşevik rejimi zamanı azərbaycanlılarla pis olan münasibətlərini yaxşılaşdırdılar. Azərbaycanın ümumi əhalisinin 3.000.000-nun 2.000.000 azərbaycanlı, yerdə qalan 1.000.000-nun yarısı erməni, bir hissəsi isə rus, alman və digər Avropa xalqları idi. Bakının özündə və yaxınlığında çoxluq təşkil edən azərbaycanlılar və ermənilər arasında ziddiyyət yox idi. Sentyabrın 15-də mənzərə tamamilə dəyişdi. İngilislər Bakını tərk etdilər və türklər şəhərə daxil oldular. Son üç gündə ölən ermənilərin sayı 20.000 nəfərə çatdı. Erməni arxiyepiskopunun dediklərinə görə azərbaycanlılar erməniləri türk əsgərlərindən satın alaraq, onları öldürməkdən

dərin zövq alırdılar. Bu mənada ermənilərin azərbaycanlılara nifrətinin səbəbi aydındır və onları ölkənin hakimi olaraq görməyi belə təsəvvür etmirdilər.

Ermənilər ruslara qarşı daha çox dost münasibətdə olsalar da, onlar rusların hakimiyyətə qayıtmasını istəmirdilər. Bakıda isə 60.000-ə qədər rus var idi. Onlar türklərə çox az müqavimət göstərirdilər və ölkənin müdafiəsini asanlıqla erməni-ingilis ordusuna verdilər.

Birləşmiş qüvvələr tərəfindən Bakı tutulan zaman Rusiya ordusunun vəziyyəti o dərəcədə ağır idi ki, o, əhali tərəfindən qiymətləndirilmirdi və heç bir nüfuza malik deyildi. Biçeraxovun dəstəsinə daxil olan Bakı sakinləri küçədə erməniləri vurur və dükanların sərlövhələri türk dilində yazıldığına görə azərbaycanlı satıcıları öldürürdülər. Bütün bunların nəticəsi olaraq rus dəstələrinə küçələrdə silah gəzdirmək qadağan olunmuşdu. Yalnız 20 nəfərlik zabit dəstələri silah gəzdirə bilərdi və beləliklə, zabitlər gecənin ortasında öz revolverlərini mərkəzi otelin önündə yandırırdılar. Bunun nəticəsi olaraq 170 rus zabiti Bakı küçələrində sərkardan dolaşırdılar. Onlar döyüş meydanına cəlb etmək üçün rus dəstələrini toplayırdılar.Belə bir sual meydana çıxır: əgər Transqafqaz əyaləti Rusiyadan uzaqda idisə, hansı dövlət onların mərkəzi hökuməti kimi tanınırdı? O dövrdə bir neçə hökumət var idi. Lakin onlar müəyyən dərəcədə bu mövqeyə uyğun deyildilər.

Digər yerli hökumət Sentrokaspi idi. O, türklərin gəlişindən əvvəl Bakını idarə edirdi. Onların əsas tələbi Rusiya dövlət bankından 200 milyon rublun və bank təhlükəsizliyinin əldə edilməsi idi. Prezident və Sentrokaspi hökumətinin nümayəndələri nadan dənizçi idilər. Onlar içkiyə meylli idilər və Rusiya hakimiyyət idarələrini təqdim etmək qeyri-mümkün idi. Onlar özlərini hiss etdikləri kimi deyil, Biçeraxovun baş zabiti-qatı antiingilis olan Martinos ilə işləyirdilər və Biçeraxovun hətta hirslənməsi belə onun fırıldaqlarının bir oyunu hesab olunurdu.

Üçüncü dövlət - Şimali Qafqaz və ya dağlılar hökuməti idi.

Onların başçıları yerli vəziyyətə görə Petrovskda və Dərbənddə otururdular. Prezident Çermoyev rus imperiya təhlükəsizliyində işləmişdi və onun ünvanı Bakı şəhərində Metropol mehmanxanası idi. O, çox varlı adam idi. Qroznıda yerləşən və bolşeviklər tərəfindən yandırılan neft mədəninin sahibi idi.

Əhalinin 90%-i müsəlmanların, qalanları isə bolşevizmin tərəfdarı idi. Lakin onlar general Denikinin qüvvələrinə itaət etdiklərini göstərmək istəmirdilər... Dövlət üçün digər acınacaqlı bir şərait İzzət Paşa və Çernyakovun Armistislə bağlı xəbəri idi. Nəhayət, bu iki qüvvə Biçeraxovu Petrovskdan çıxarmağa müvəffəq oldu. Bu vəziyyətdə Biçeraxovun tərəfində olan ermənilər maliyyə nazirinin qaynı olan Dərbənd mayorunu öldürdülər.

Çermoyevin vəziyyətdən çıxış yolu komik operaya bənzəyirdi. O, Biçeraxova öz qoşununu Petrovskdan gerı çağırmasını təklif edərək Şimali Qafqaz hökumətinin qoşununu qəbul etməyi tapşırdı. General-mayor Tomsonun Hərbi Nazirlikdən qəbul etdiyi təlimatlara və Qafqaz hökumətinin siyasətinə əsasən müəyyən etmək olar ki, bütün bu tərəflərin müasir nümayəndələrinin rəhbərliyi ilə Azərbaycan və Gürcüstanda koalisiyalı hökumət yaratmaq istəyirdilər. Partiyanın əsas dövlət yaratmaq üçün çağırışı bu idi ki, əgər siz özünüidarə hökumətini öz bacarığınızla nümayiş etdirərək birləşmiş qüvvələrə təsir etmək istəyirsinizsə, birlikdə, ölkə üçün əhəmiyyətli təkliflər və fikirlər verə bilərsiniz.

Ölkədə yarana biləcək əsas problem bütün təkliflərin əsasən ruslar və ermənilər tərəfindən irəli sürülməsi idi. İndi isə heç biri mövcud hakimiyyətdə təmsil olunmamışdılar. Rəsmi müzakirələrdən sonra hökumətin siyasi bəyanat verməsi qərara alındı. Lakın kabinetdə hər bir millətin nümayəndəsinin iştirakının zəruri olduğu bildirildikdən sonra razılaşdırıldı ki, siyasi bəyannaməyə lüzum yoxdur və kabinetin təşkilində 6 azərbaycanlı, 3 rus və 3 erməni iştirak etməlidir. Normal vəziyyət bər-

pa olunduqdan və gün təyin edildikdən sonra heç bir səbəb olmadan ermənilər baş nazir Fətəli xanın kabinetinə daxil olmayacaqlarını bildirdilər. Çünki o, sentyabrda baş verən qırğına məsuliyyətli şəxs idi. Fətəli xan ölkənin ən ictimai insanı olduğuna görə (o, general Tomsona kömək edən çox az adamdan biri idi) azərbaycanlılar bu hadisə ilə bağlı fikir yürütməkdən boyun qaçırdılar. Bununla da kabinetin formalaşmasında çətinliklər yarandı.

Azərbaycan və Gürcüstan münasibətlərində zəiflik hələ də davam edir.

Bakı və Batum arasında olan boru kəmərlərindən ayda 4 milyon pud ağ neft daşınırdı. Bu, Bakının çiçəklənməsinə kömək edir, lakin Tiflis və Gürcüstanın az hissəsinə çatırdı. Boru kəmərləri Rusiya layihəsi ilə idi və heç bir dövlət öz ərazisindən keçən boru kəməri üçün daha çox məhsul tələb etmirdi. Bakı ağ neft göndərmək, yemək, taxta, manqan, Tiflis isə mazut, Gürcüstanın dövlət borclarının ödənilməsini istəyirdi. Gürcüstan sazişi imzalamaq, Bakı isə sənəd imzalamayana qədər nefti vermək istəmirdi. Nəticədə isə hər iki tərəf borc pul aldı və gürcülərin ən çox ehtiyat etdiyi türklər gürcülərdən dəmiryol vaqonları üçün yanacağa görə müraciət etdilər.

Elan olunan siyasətin zərurilıyi və Britaniya ordu hissələrinin onda iştirakı general Tomsonun yazılarından aydındır. Zəruri mübadilənin iki yolu vardır. Bolşeviklər geniş istehsal imkanları olan Stavropoldan çıxarmaq və Yekaterinburq-Petrovsk dəmiryollarından mənfəət əldə etmək, Batumdan Bakıya olan dəmiryol kəmərinin yenidən təmiri üçün işlər görmək əsas məqsədlər idi.

İmzalanmışdır (R.F.G. General Gorton)
Briqada generalı
8 dekabr 1918-ci il
***FO 371/3667 29720***

***

Məxfi
G.O.C Mesopotamiyadan
D.M.İ. təkrarən Hindistana, Mondrosa, Tehrana
göndərilmişdir: saat 16:45, 13.11.18
Qəbul olunmuşdur: saat 11:00, 14.11.18
№ 1809

Şimali İran qüvvələrinə ünvanlanan aşağıdakı məlumat Bakı qəzetlərində dərc olunmuşdur:

Nuru özünü noyabrın 1-də Qafqaz İslam Ordusunun komandanı təyin etdi və bu tarixdən etibarən o, Azərbaycan ordusunun baş komandanıdır. Noyabrın 1-də Qafqaz İslam Ordusunun siyasi idarəsinin başçısı Naim Cavad bəy öz çıxışında möhkəm əsasları olan bir Azərbaycan ordusunun yaradılacağına ümid etdiyini bildirdi. Azərbaycanda olan türk orduları Azərbaycan Respublikasında xidmətdə olacaqlar və onlarınköməkliyi tələb olunanadək burada qalacaqlar. Noyabrın 19-dan 24-dək olan bütün təkliflər toplanmışdır. Digər məlumatlara gəldikdə isə, Nurunun atası Bakıdadır. Son.

***Qeyd:***

Türklərin Azərbaycanda 5-ci Qafqaz diviziyası, 38-ci, 56-cı polku, 15-ci diviziyası, 36-cı diviziyası vardır. Ümumən 6700 əsgər vardır.

M.T.T nüsxəsi
MTA nüsxəsi - C 16 S.D.C.İ.G.S.

***FO 371/3416 29659***

***

Bu sənəd Britaniya hökumətinin xüsusi mülkiyyətidir və rəsmi istifadə olunmadıqda Xarici İşlər Nazirliyinə geri qaytarılmalıdır.

İran, Hərbi
20 Dekabr
№ 1066

Mənim "Xəttin təmizliyi" barədə 18 dekabr tarixli 1054 №-li teleqram məlumatlarım Təbriz, Naxçıvan və qonşu sahələrdən gələn qaçqınlar haqqında idi. Digər teleqramım isə Müsəlman Komitəsindən gələn adamların müsəlman rayonlarına hücum edən ermənilərdən şikayəti barədə idi. Məlumat şübhəsiz ki, şişirdilmişdir. Lakin vəziyyət ciddi olaraq qalır, görünür, Aleksandropol-Culfa xətti yaxınlığında yerləşən birləşmiş ordu kifayət qədər qorxuducu təsirə malik deyildir.

C) Tiflisdə Azərbaycan sərhədində gedən dəmiryolunda batalyon vardır.

D) Axalkələkdə və Alaverdidə yarım batalyon vardır. Bu yarım batalyon regiondakı əmrləri yerinə yetirmək üçün lazımdır. Gürcüstan və Ermənistan arasında yaranmış bu şəraitdə sülh tələb olunur.

E) Kazbekdə bir batalyon vardır.

Bu qoşunların əmrləri yerinə yetirmək, müxtəlif dəstələri toplamaq, bundan əlavə işləri həyata keçirmək üçün iki əsas yolu vardır:

A) Müxalifət və ya anarxiya hallarında Gürcüstan Respublikasına aid olan torpaqların tabe edilməsi.

B) Yuxarıda qeyd olunan bu ordunun möhkəmləndirilməsi.

Bu qüvvələrin ən yaxşı yerləşmə yeri Tiflis şəhəri idi. Burada yerləşən qüvvələr böyük nüfuza malik idilər.

Gürcüstan Rusiyasına daxil olan köhnə Kutaisin əhalisi dü-

şüncə və siyasi inkişafına görə Tiflisdəki əhalidən fərqlənirdi. Onların bolşeviklərə daha çox rəğbəti var idi. Bu, Gürcüstan, Batum, Kars və Naxçıvanda olan müxtəlif dəstələrlə əlaqələri möhkəmlədən yeganə bölgə idi. Burada iki piyada briqada, süvari, artilleriya və digər dəstələr toplanmışdı. Lakin onların toplanması mövcud şərtlər altında həyata keçirilirdi. Qüvvələrin Tiflisdə toplanmasının digər səbəbi Sülh konfransının qərarından sonra yarana biləcək həyəcanlı şəraitin sabitləşməsi ilə əlaqədar idi. Əgər üç barışmaz ərazi Gürcüstan, Kars, Naxçıvan savaşa qalxsalar, düşünürəm ki, bu şəraitdə həmin dəstələr bəlkə də kifayət olmaya bilər.

### Azərbaycanda vəziyyət

Azərbaycan Respublikası 1918-ci il mart və ya aprel ayında erməni və bolşeviklərin müsəlmanları Abşeron yarmadasından sıxışdırıb çıxarmasından sonra fəaliyyətə başladı. O zamanlar bu, Yelizavetpol hökuməti adlandığına görə antibolşevik idarəetmə sistemli panislamizm ideyalı bir dövlət idi. O yalnız türklərin Bakıya gəlişi ilə, onların köməyi sayəsində əsl Bakı hakimiyyətinə çevrildi... Respublika adlanan ərazi özündə Bakı və Yelizavetpol quberniyalarını, Zaqatala regionunu və İrəvan quberniyasının bir hissəsini əhatə edirdi. Bu regionun əhalisinin təqribən 2.000.000-u müsəlmanlar və azərbaycanlılar, 700.000-i ermənilər və 200.000-i isə ruslar idı.

Azərbaycan adı İranın şimal-şərqində olan bir regionun adı idi və bu ad respublikaya türklərin təklifi, eləcə də panislamçı cəmiyyəti olan Müsavatın təklifi ilə qoyuldu. İran Azərbaycanında hələ də bu dildə danışırlar və bu bölgənin əhalisinin çox hissəsi islam dininə itaət edirlər.

Panislamçılar ümid edirlər ki, böyük Almaniya və Türkiyə dövlətlərinin himayəsi altında əvvəllər Rusiya əsarətində olmuş İran Azərbaycanını tədricən ələ keçirəcəklər və bu yolla da Xə-

zər dənizi sahillərində Azərbaycan dilində danışan böyük respublika yaradacaqlar. Əgər Azərbaycan Respublikası öz formasında və nəzərdə tutulan ərazisində qalarsa, onun adını da dəyişmək olar.

Hökumət parlament və konsulluqdan ibarət idi. Onlar da özözünə seçilmiş, razılıq əsasında formalaşmış antisosialist təmayüllərdən ibarət idi.

1918-ci ilin noyabr ayında britaniyalılar tərəfindən Azərbaycan yenidən zəbt edilən zaman Azərbaycan hökumətinin öz fəaliyyətini davam etdirməsinə icazə verildi, lakin onların mövqeyi dəyişdi. Bu, Britaniyanın arzusu idi ki, azərbaycanlılar ruslar və ermənilərdən ibarət müasir dövlət yaratsınlar. Bu hazırlıqları edərkən çoxlu çətinliklər yarandı. Hal-hazırda ruslar slavyan cəmiyyətinin adından iştirak edəcəklər və rus xalqı bu cəmiyyəti tanımışdır. Lakin Rus Milli Şurası hökumətə daxil olmağa etiraz etmişdir. Lakin son məlumatlar göstərdi ki, onlar da daxil olmaq barədə düşünürlər. Hökumətin bütün səlahiyyətləri demək olar ki, Bakının köhnə sakinləri, müsəlmanların əlində idi və onların şəhərdə böyük maraqları var idi. Hərbi naziri çıxmaq şərti ilə hökumətin heç bir üzvü əvvəllər idarəetmə vəzifəsini tutmamışdı və bu bir növ dövlət işlərinin nəticəsi barədə təsəvvür yarada bilərdi.

Siyasi baxımdan ruslar erməniləri dəstəkləyirdilər və bu halda biz azərbaycanlılarla məşğul ola bilərdik.

Bizim mövcud hökumətlə işləmə tərzimiz onları təəccübləndirirdi. Ruslar başa düşürdülər ki, Britaniya Azərbaycana tam nəzarət etmək və Bakı neftini ələ keçirmək niyyətindədir. Ruslar arasında güclü antiingilis hərəkatı vardır. Biçeraxovun qoşun və donanması əvəllər Britaniya pulu ilə saxlanılırdı. Biçeraxov özlüyündə britaniyalı idi. İngilislərin köməyi ilə indiki hökumət bu ərazidə əmrləri yerinə yetirə bilər. Ümid edirik ki, ruslar və ermənilər tədricən barışacaqlar və ticarətlə məşğul olacaqlar. Bizə qarşı baş təşkilatçı M.Minorskidir. O, Rusiyanın

Tehrandakı səlahiyyətli nümayəndəsi idi. Azərbaycanlılar özləri Fətəli xan Xoyski tərəfindən idarə olunurdu (o, vəkil təhsili almışdır). Azərbaycanlılar düşünürdülər ki, onların muxtariyyətinin tanınması Böyük Britaniyadan keçir. Lakin bu fikirlər Müsavat Partiyasının panislamçıları tərəfindən rədd edildi. Onlar həmçinin Birləşmiş güvvələrin qələbələrini tanımaq istəmirdilər. Şuşa yaxınlığında olan çevriliş cəhdi Azərbaycan güvvələri tərəfindən yatırıldı. Bakı şəhərində bolşevik meylli Müsavat liderləri və onların antibritaniya siyasətçiləri ruslara tabe olmaqdan boyun qaçırdılar.

Azərbaycandakı ümumi vəziyyət tamamilə Bakıda əks olunmuşdu. Bir dəfə də bu məsələ həll edilmişdi. Azərbaycan yəqin ki, erməni və müsəlmanlar arasında yaranan bu məsələni həll edəcəkdir. Burada belə bir ciddi fikir var idi ki, əgər Bakı beynəlxalq komissiya tərəfindən idarə olunarsa, bütün məsələlər çox böyük asanlıqla həll olunacaqdır. Rusiya zənginliyinə görə təsirli və böyük gücə malik olan Bakı neftindən asılı idi.

Burada müharibədən əvvəl əhali 350.000 idi. Lakin indi bütün üç xalqdan birlikdə 260.000 nəfər əhali vardır. Rəsmi verilmiş elana zidd olaraq, hər kəs silahlı vəziyyətdə idi. Şəhərdə düzəldilmiş sadə silahlar və maşın silahları aşkar edilmişdi. Şəhərdə çoxlu silah vəsaiti və anbarı var idi. Rusların 11.000 silahlısı, ermənilərin isə 8.000 yaraqlısı var idi.

Rusların apardığı səylər şəhərdə tətillərə səbəb olurdu. Sonuncu tətil 65.000 fəhlə təbəqəsinin yaxşı təşkilatçılığı ilə həyata keçdi. Bu, ruslar tərəfindən həyata keçirildi. Digər ümumi tətil gözlənilirdi. Bu tətil hal-hazırda dayanmışdır. Lakin gec-tez silahlı qüvvələrdən istifadə edilərsə həyata keçiriləcəkdir. Lakin Azərbaycan hökumətinin bu tətili keçirməsi məsləhət deyildir. Əhaliyə qüvvətli ordunu göstərib qorxutmaq üçün Bakıda minimum bir briqada və bir artilleriya briqadası saxlanılırdı. Dəstələr xüsusilə neft sahələrində cəmləşmişdi. Bu halda əhalinin tərksilah edilməsi nəzərə alınmalıdır.

Başqa məsələlərə gəldikdə şimaldakı bolşevik hərəkatı nəzərə alınmalıdır. Həştərxan əsilli bolşeviklər aktiv təbliğat aparır və bahar aylarında dənizdən keçərək Bakıya girmək istəyirlər. Onlar Qazıyurdu vəhşicəsinə işğal etdilər. Bu işə Qafqaz və Terek qüvvələri başçılıq edirdilər. Petrovskda Britaniya hərbidəniz donanması yaradıldı və burada Biçeraxovun 2000 nəfərlik hərbi qüvvəsi var idi. Bakıda xidmət göstərən əsas zabitlər Britaniya briqadasına girmək istəyirdilər. Lakin onlar hal-hazırda bu batalyona toplaşmışlar. Bolşevikləri rədd etməyin tək yolu Şimali Qafqaz əhalisini cəsarətləndirmək idi.

Yevlax dəmiryol stansiyasından 70 mil cənubda yerləşən Şuşa kənd təsərrüfatı mərkəzidir. Biz Bakını işğal etdiyimiz zaman 2 türk batalyonu səfərbər edilərək Andranikin erməni ordusuna hücum etməyə hazırlaşırdılar. Bu region ermənilər tərəfindən tamamilə talan edilmişdir. Azərbaycanlılar isə kütləvi surətdə öldürülür. Onların bu hərəkətləri əvəz çıxmaq kimi qələmə verilə bilər. Vəziyyətə son qoymaq əmrini yerinə yetirmək üçün Britaniya döyüş dəstəsinin göndərilməsi zəruri idi. Lakin belə bir vəziyyətdə bir batalyon göndərilməsi daha məqsədəuyğun olardı.

Xəzər dənizinin və Bakının cənubunda yerləşən Lənkəranda və Muğanda 5.000 silahlı dəstə, 2.000 bolşevik ordusu və antiingilis qüvvələr yerləşmişdi. Azərbaycanlılar artıq asılı vəziyyətdə idilər. Muğanın şimal sərhədləri silahlanmış erməni və rus dəstələri tərəfindən qarət olunurudu. Azərbaycan hökumətinin oz hakimiyyətini gücləndirməsinə icazə verilsə, bu da qırğınlara səbəb olacaqdır.

Azərbaycan ordusunun mərkəzi qərargahı Yelizavetpolda idi. 25.000 güclü silahlıları var idi. Onlar bir daha rusların hakimiyyəti altına düşmək istəmirdilər. Hökumət yəqin ki, öz ordularını tərxis edəcək və pulları saxlayacaqdır. Bu öhdəliklər bizim əlaqələrimizə əngəl ola bilər. Britaniya dəstəsinin briqadası Yelizavetpol, Şuşa və Lənkəran zonalarına bölünməlidir.

Əhalinin yönümü haqqında qeydləri nəzərinizə çatdırırıq:

Müsəlmanlar iki hissəyə ayrıla bilər: Müsavat Partiyasının üzvləri, İttihad partiyasının və ya Rusiyadakı keçmiş müsəlman panislamçılar partiyasının üzvləri. Onlar müharibə zamanı Birləşmiş qüvvələrə qarşı müvəffəqiyyətlə işləyirdilər və qatı antibritaniyalı idilər. Onlar Qafqazdan Hindistan, İran, Transqafqaz və Əfqanıstandakı müsəlmanlarla əlaqə qurmaq istəyirdilər. Britaniyalılar Transqafqazı keçərək Hindistana gedən yolda dayanmaq qərarına gəldilər. Azərbaycan gücləndiyinə görə cəmiyyət Şimali Qafqaz müsəlmanlarından az kömək alırdı. İttihad Partiyasının mövqeyinə görə Qafqazın heç bir müstəqil dövləti bu mühafizə qüvvələri olmadan tək mövcud ola bilməz. Bu partiyanın nümayəndələri ticarət və maliyyə elementlərindən ibarət olaraq Birləşmiş qüvvələrin köməyini qəbul edirlər. Onların qüvvələri artırdı. Müstəqillik uğrunda olan tələblərə görə bizə qarşı Azərbaycana kömək etmək qorxusu yaradan Rus Milli Şurası tərəfindən güclü təbliğata əsasən Birləşmiş qüvvələrə daha az inam göstərirdilər.

Doğrusunu desək, bizim gəlişimiz Bakının müsəlman cəmiyyəti tərəfindən müsbət qəbul edilmirdi. Müsəlmanlar ümumilikdə bizim erməniləri daha üstün tutduğumuzu görürdülər.

## Ruslar

Həqiqəti desək, Rusiya əhalisi bizim gəlişimizə məmnun deyildi. Hamı belə hesab edirdi ki, biz Azərbaycanın müstəqilliyini tanıyacağıq. Böyük əməksevər kollektiv sosialistlərə üstünlük verirdi və Rusiyaya inanmırdı. İnqilabçı qüvvələr öz məqsədlərinə görə əməkçilərin qüvvələrindən istifadə edirdilər. Unudulmamalıdır ki, Bakı bolşeviklərin dayaq nöqtəsi olmuşdur və liderlərin şəhəri tərk etmələrinə baxmayaraq, birlik hələ də qalmışdır. Digər narahatlıq elementi Qızıl orduda 7000 erməni və rusun iştirakı idi. General Biçeraxovun ordusu və

onun donanması böyük narahatçılığa səbəb olurdu. Onun siyasəti müəyyən deyildi, adamları isə heç bir işlə məşğul olmurdular. O, özünü Rusiya nümayəndəsi kimi qələmə verirdi. Lakin onu bu şəkıldə qəbul etmək istəmirdilər. O, Denikinin davamçısı deyildi. Lakin antibolşevik idi. Hal-hazırda bizim qüvvələr güclənmişdir və düşünürəm o, artıq bizə lazım deyildir.

Rus Milli Şurası britaniyalılara qarşıdır. Onlar Azərbaycan Respublikasını tanımaqdan boyun qaçırırlar, parlament və nazirliyə daxil olmaq istəmirlər. Onlar yalnız Azərbaycanın yenidən Rusiyaya qayıtmasına ümid etdiyinə görə hökumətə daxil olacaqlar. Onlar Biçeraxovdan çox Denikinə yardım etmək istəyirlər.

Özünü slavyan rus cəmiyyəti adlandıran Rusiya cəmiyyəti Birləşmiş qüvvələrə kömək edir. Bu cəmiyyətdə Azərbaycan hökumətinin də nümayəndələri vardır. O, Rusiya fikirlərini söyləmir və Azərbaycan qanunlarını bolşeviklərdən daha yaxşı həyata keçirirdi. Sözün açığı, rus əhalisi görünüşcə antibolşevikdir. Lakin onlar qəlblərində bolşevik əqidəsini üstün tuturlar. Onlar Denikinə azərbaycanlılara qarşı olduğuna görə kömək edirdilər. Onlar monarxiyanın qatı əleyhdarlarıdır.

## Ermənilər

Bakı erməniləri kəskin şəkildə təəssüflənmişdir. Bu aşağı təbəqənin ictimai fıkırləridir. Onlar əvvəllər bolşeviklərə qoşulmuş və Erməni Milli Şurasında gizli daşnak cəmiyyətini gücləndirirdilər. Onlar keçmişi unuda bilmirdilər və özlərinin Ermənistanda olan müstəqilliyinə əmin idilər. Rusiyadan az şikayət edirdilər. Onlar Rus Milli Şurası ilə birgə işləyirdilər və azərbaycanlılardan qisas almaqdan başqa bir təklifləri yox idi.

Bütün ölkə əhalisi ehtiyatlara can atırdı. Onların ilk ehtiyacı: geyim, kitab, ayaqqabı və hər növ ev əşyaları, mexanizmlər idi. Pul böhranı o qədər yüksək idi, bəzən əhalinin ərzaq məhsullarını almağa belə imkanı olmurdu. Qiymətlər tədricən aşağı düşməyə başlayanda məhsullarla bağlı fırıldaqlar günün adi halına çevrildi. Alverçilər məhsullarını yüksək qiymətlərlə satmaq üçün əllərindən gələni edirdilər. Məhsulların qaydasız idxalı varlı alverçilərin bütün məhsulları almasına və öz istədiyi qiymətə satmasına səbəb olurdu. Rusiya bankı ingilislər tərəfindən alınmışdı və idarə olunurdu.

Şübhəsiz ki, idxalda qayda yaratmaq və qiymətləri aşağı salmaqla bağlı bəzi tədbirlər ilk mərhələdə Birləşmiş qüvvələr tərəfindən ediləcəkdır. Rublun dəyişkən vəziyyəti ilə bağlı yaranan maliyyə məsələləri nəinki Azərbaycanda, eləcə də Transqafqazda diqqətlə nəzərdən keçiriləcəkdir. Maliyyə cəhətdən bütün ölkə dağılmaq üzrədir. Fransız nümayəndələri müəyyən məbləğlərdə ticarət sifarişləri verirdilər və Britaniya maraqlarını qoruyan, Rusiya ticarətindən xəbərdar olan Britaniya nümayəndələrinin göndərilməsini istəyirdilər. Hər bir halda kredit verilməsi Britaniya hökuməti tərəfindən həyata keçirilirdi. Bütün idxal olunmuş məhsullar Birləşmiş qüvvələrin nəzarəti altında alıcıya satılmalıdır, əks halda saxlanılmış və gizlədilmiş məhsullar dağıdılacaqdır.

Ümumiyyətlə, Azərbaycandakı şərait Gürcüstandakına nisbətən daha mürəkkəb və təhlükəlidir. Bu təhlükələr aşağıdakılardan ibarətdir:

1. İnsanlarda inamın və idarəetmə sisteminə rəhbərlik edən şəxsin olmaması.

2. Britaniya əleyhinə olanların işçi və kasıb sinfə olan münasibəti. Aşağı təbəqələr elə düşünürlər ki, Britaniya hökuməti Bakını Rusiyadan almaq istəyir.

3. Əhalinin silahlanması faktı.

4. Bolşevik ordusuna yaxınlıq və onlardan dəstək istəmək. Güclü bolşevik təbliğatı mövcuddur.

5. Minlərlə insanın işsizliyi. Bu da insanların həyata inamının azalmasına səbəb olur.

Birləşmiş qüvvələrin Transqafqaz üzrə təqdim etdiyi rəsmi bəyanat bir çox çətinliyi aradan qaldıracaq, eləcə də işsizliyi aşağı salacaqdır. Gürcüstan və Azərbaycan özlərinin respublikalarını yaratmağa cəhd edərkən türklər Transqafqazda rus hökumətinə bənzər quruluş yaradırdılar və bu, Ermənistandan kənar yaşayan ermənilərə də aid ola bilərdi. Bütün qərarlara baxmayaraq kiçik dövlətlərin tamamilə müstəqil olmaları şübhə altında idi. Dövlətlərin bir dəmiryolu, poçt və teleqraf sistemi ilə əlaqəsi bir ölkənin digər ölkədən üstünlüyünü göstərirdi və əsas amil Bakının neft mədənləri idi ki, pul cəhətdən böyük gəlir gətirirdi.

İmzalamışdır: Britaniyanın Səlanikdəki qüvvələrinin baş komandanı General ***GF. Milne***

6 fevral 1919, İstanbul

***FO 371/3661 27763***

***

**Qafqaz və Bakı ərazisinə dair məlumatlardan çıxarışlar**

11 fevral - Almanların evakuasiyası. Alman dəstələrı demək olar ki, Qafqazdan tamamilə çıxarılmışlar. Keçmiş alman konsulu Count Fonder Şulenburq Tiflisdədir, öz dəstələrini də İstanbula gətirmışdir.

13 Fevral - Türküstandan olan 512 Avstriya-Macarıstan əsirlərinin birinci hissəsi Batum yolundan keçərək Krasno-

vodskdan Bakıya gətirilmişdir. 5 amerikan zabiti və 49 Avstriya zabiti bitərəf nümayəndələrin mühafizəsi ilə Tehrandan gətirilmişdir.

4 fevral - Qaçqınların yerləşdirilməsi. Aysor Milli Komitəsının məlumatlarına görə Tiflisdə 7000, Yelizavetpolun ərazisində isə 1.500 qaçqın, Tiflis kənarında isə 6.500-ə qədər qıdalanmaya ehtiyacı olan işsiz insan vardır.

Avstriyalıların 116 çörəkçisi öz məvaciblərini Tiflisdəki Amerika Yardım Komitəsindən alırdılar. Lakin aysorların minnətdar olmaları üçün bu kifayət deyildi.

Britaniya və amerikan yardım xidmətləri Yelizavetpol ərazisində 1.500 qaçqını yeməklə təmin edirdi.

Aysor Komitəsinin qeyd etdiyi məlumata görə 15.000 qaçqından 10.000 nəfəri gələn baharda öz torpaqlarında yerləşdiriləcəkdir. Onlar həmçinin, İçkeriya regionunun qorunması üçün 10.000 qaçqından 3.000-ni orduya cəlb etmək istəyirdi.

Şuşadakı vəziyyət məqbul olaraq qalmışdır. Tiflis öz ərazisində 30.000 erməni və 10.000-ə qədər müsəlman yerləşdirmişdir. Qaçqınların liderləri onlara kömək etməkdənsə, bəzi başqa şeylərin mübadiləsini edirdilər.

4-17 fevral- Vladiqafqazda vəziyyət. Bu dövrdə İnquşetiya və könüllü ordu arasında nifaq yarandı.

Fevralın 4-də könüllü ordu Vladiqafqazı işğal etdi. Lakin bu zamanlar İnquşetiyanın kabardinlərə və osetinlərə verdiyi ərazilərə görə ziddiyyətlər yarandı. Bunun nəticəsində İnquşetiya bolşeviklərlə birləşərək könllü ordunu öz ərazilərindən çıxartdı. Fevralın 9-da isə onlar bütün bolşevikləri həbs etdilər. Fevralın 17-də inquşlar onları könüllü orduya təhvil verdilər.

Fevralın 9-da Şimali Qafqaz hökuməti kabardin və osetin torpaqlarının dərhal geri qaytarılması haqqında əmr verdi.

Lakin bunun həyata keçib-keçirilmədiyi məlum deyildir.

İnquşetiya şimal-qərbi Vladiqafqazın könüllü orduya düş-

mən münasibətlərini elan etdi. Könüllü ordu Mixaylovsk və Samansk kəndlərini zəbt etmək üçün ordu, bir silahlı qatar, 4 qırmızı yük qatarı və 450 dustaq göndərdi. İnquşetiya bolşeviklərlə mübarizə üçün dəstə hazırladı.

**Suxumda və Qara dəniz əyalətində vəziyyət**

Gürcülərin səlahiyyətli şəxsləri Qaqranın şimal-şərq istiqamətindən 15 mil məsafədə müdafiə xətti qurmuşdular. Bu, könllü ordunun Soçi regionunu tutması üçün şərait yaradırdı.

10 fevral - gürcü ordusu könüllü ordu qarşısında geri çəkilmişdir və ordu Suxum əyalətinin sərhədindən keçərək Qaqranı işğal etmişdir.

12 fevral - könüllü ordu qələbə çaldı və onların orduları Bzib çayına (cənubi-qərbi Qaqradan 10 mil məsafədə) çatdılar.

Gürcü ordusu bu çayın 12 milində saxlanıldı. Onların fevralın 9-dakı bəyanatına baxmayaraq, gürcü ordusu könüllü orduya qarşı heç bir müqavimət göstərmədi. Fevralın 12-də könüllü ordu elan etdi ki, Bzib çayında qələbə çalmaq iqtidarında deyıldir. Feralın 12-də britaniyalıların məlumatlarına görə könüllü ordunun baş komandanlığına Soçini zəbt etmək əmr edildi. Könüllü orduya gələcək nailiyyətlərini təmin etmək üçün tabeliklərində olduğu komandan tərəfindən əmr verilmişdir.

15 fevral - Britaniya komandanı general Denikinlə birlikdə ordunun dərhal geri çağırılmasını tələb etdiyi zaman ondan müxtəlif məxfi siqnalın verilməsini tələb etdi.

**Xəzər dənizində vəziyyət**

Bakıdan müxtəlif məhsulların daşınması işləri yaxşı həyata keçirilirdi. General Biçeraxovun rəhbərliyi altında məhsulların yüklənməsi ödənişsiz idi. Dəniz dəstəsi Biçeraxovun qüvvələrindən olan dənizçilər və əsgərlərlə birləşərək heç bir siyasi təşviqatçılıq etmədən və komitə yaratmadan formalaşdılar.

Yerli iqtisadi vəziyyətlə əlaqədar olaraq maaşların 90% ar-

tırılması labüd idi. Bu, Qara dənizdən olan fəhlələrin diqqətini cəlb edəcəkdi və gəmi təmiri zavodunun istehsal etdiyi məhsullar artacaqdı.

Bütün bu hadisələr bolşevik qüvvələrinin diqqətini cəlb edir və onlar Həştərxandan gələrək Xəzər dənizinin şərq sahilinə ekspedisiyaya hazırlaşırlar. Noyabrın 9-da verilən məlumatlara görə bu diviziya birləşmiş kommunistlərdən, sovet müsəlman dəstələrindən və altı süvari dəstəsindən ibarət idi.

Bu qüvvələrdən başqa 10.000 silahlanmış fəhlə və 1.000 dənizçi var idi. Belə məlum oldu ki, Həştərxanın ətrafındakı sakinlər də antibolşevik idi.

Həştərxanın dəniz qüvvələri 3 torpedo-qayıq, 2 sualtı-gəmi, 3 kiçik qayıq və 6 paraxoddan (ticarət gəmiləri) ibarət idi.

**Yerli qüvvələrin məhv edilməsi**

General Prejevalski əvvəllər General Biçeraxovun rəhbərliyi ilə qüvvələrin geri gətirilməsini həyata keçirdi. Bəzi əsgərlər azad edildi. Digərlərinin isə haqqı ödənilərək könüllü orduya göndərildi.

Tənəzzülün ilk mərhələsində bəzi qüvvələr Batum yolu ilə könüllü orduya göndərildi. Lakin gürcülərlə bağlanılmış sazişə əsasən bu yoldan keçmələri mümkün olmadı. Nəticədə Soçi regionundan keçirildilər. Könüllü ordu Terek əyalətini də ələ keçirdikdən sonra əsgərlər Petrovsk yolu ilə könüllü orduya qoşulmaq üçün göndərildi.

**Andranikin qüvvələri**

Gorusda Andranikin başçılığı altında erməni qüvvələri dekabrın 1-də formalaşdırıldı. Bu qüvvələr bir vaxtlar özünə 3500 əsgər toplamışdı, indi isə 1.600 nəfərdir.

Bu qüvvələr indiyədək türklərlə savaşmağa davam edirlər. Dekabrın 1-də Şuşaya hücum edildi. Lakin azərbaycanlılar uğur qazanıb bu qüvvələri Gorusa dönməyə vadar etdilər. Bu tarix-

dən bəri Gorus ətrafında 50.000-ə qədər qaçqın toplandı. Fondların vəsaitləri ordu üçün xərcləndiyinə görə qüvvələrin buraxılması düşünüldü. Lakin bu qüvvələrin kiçik dəstələrə bölünüb bu ərazidə qalması Şuşa üçün təhlükəli ola bilərdi.

Dekabrın 1-də 1.600.000 rubl məbləğində borc götürüldü. Təklif olundu ki, bu qüvvələri əvvəllər Birləşmiş qüvvələr maliyyələşdirdiyindən qüvvələr buraxılana qədər onun 200.000 rublu Andranikə maaş kimi verilsin.

**Gürcüstanda vəziyyət**

Könüllü ordu Suxum əyalətinin bir hissəsini zəbt etdikdən sonra Gürcüstan hökumətinə məlum idi ki, general Denikinin hər bir hərəkətinə ingilislər tərəfindən nəzarət edilir və ona yardımlar olunur. Gürcüstan ərazilərinə müdaxilənin nəticəsi olaraq Birləşmiş qüvvələr elan etdi ki, belə müdaxilələrə artıq yol verilməyəcəkdir. Əks halda bu, Gürcüstan hökumətinin nifrətinə səbəb olacaq və eyni zamanda, dövri mətbuat açıqcasına onları tənqid edəcəkdir. Denikinin işğal olunmuş regionlarından çıxmasına dair əmr barədə Gürcüstan hökumətinə məlumat verildi.

Mübahisəli zonalara nəzarət edən komitə məlumat verdi ki, Gürcüstan ərazisinin işğalı Birləşmiş qüvvələrin bilavasitə köməyi ilə həyata keçirmişdir və bu, böyük məqsədlər naminə edilmişdir. Bu şəraitdə könüllü ordu dəstələri torpaqlardan çıxacaqmı və Gürcüstan hökuməti ərazini yenidən əldə etmək imkanı qazanacaqmı? Könüllü ordu tərəfindən boşaldılan bu ərazilərdə Britaniya ordusu tələb olunurdu.

**Bakı. Azərbaycan**

Mən görürəm ki, Azərbaycan hökuməti güclənir. Nəzarətin artmasına baxmayaraq hələ də bəzi ədalətsizliklər davam edir. İndiyə qədər bizdən kənarda olan ruslar və ermənilər indi hökumətdə birləşmək istəyirlər. Onların məqsədi hələ də məlum de-

yıldir. Lakin onlar Azərbaycan hökumətinin inkişaf etməsinə və güclənməsinə görə yerli idarəetmə sisteminə qoşulmaq istəyirlər.

Azərbaycan hökuməti təkrarən Azərbaycan dəstəsinin Bakıya göndəriləcəyini bildirmişdir. Onların əvvəlki tələbinə Biçeraxovun dəstəsi şəhərdə olduğu üçün etiraz olunmuşdur, iki dəstə arasında münaqişə yaranacağından ehtiyat edilmişdir. General Tomson təklif etdi ki, general Biçeraxovun dəstələri Bakını tərk etsin, məhdudlaşdırılmış Azərbaycan dəstələrinin şəhərə daxil olmasına izn verilsin, onların gəlişinə ingilis ordu komandanlığı şəhərdə hərbi vəziyyət elan edə bilər. Azərbaycan hökuməti mülki əhali arasında əmrlərin verilməsində artıq məsuliyyət daşımalıdır.

Bakıda siyasi təşviqat azalmışdır. Lakin general Biçeraxovun dəstəsindən azad olunmuş hər bir şəxsin atdığı hər bir addım böyük narahatçılıq yarada bilər.

**Lənkəran**

Bu ərazidə əsas narahatçılıq fevralın 7-də baş verdi. Azərbaycan hökumətinin dəstələri əmri yerinə yetirmək üçün sərəncam aldı. Lakin sonradan ingilis qrupunun hadisə yerinə göndərilməsinə qədər bu əmrin icrası dayandırıldı. Britaniya dəstəsi fevralın 12-də Bakını tərk edərək ərazini öyrənmək və məlumat vermək üçün göndərildi.

**İqtisadiyyat**

Bakı

Yerli qiymətlərin və rublun dəyərinin artmasına görə gəmi təmirində çalışan işçilərin maaşı 90% artırıldı. Bu gəmi təmirçilərinin gəlirinin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Maaşların artması idxalla bağlı işlərdə Qara dəniz limanlarından işçilərin gətirilməsinə əlverişli şərait yaratdı. İngilis nəzarəti al-

tında olan İran ixracatında ticarətin həcmi ümid edildiyi kimi inkişaf etmədi. Yük xərcləri 10% qaldırıldı.

Çörəyin qiyməti əvvəlki kimi qənaətbəxşdir. Çünki o, ingilislərin nəzarəti altındadır. Lakin ət və balıq alverçilərin əlindədir. Onlar isə yerli hökumətlə əlaqədə idilər və yoxlama zamanı onların saxtakarlığının qarşısı kəsildi.

**İranla ticarət**

General Tomson Tehrandakı Britaniya nazirinə Azərbaycan və İran arasında ticarət əlaqələri yaratmağı arzuladıqlarını bildirdi. Azərbaycan ticarəti neft və ərzaq üçün digər qida məhsullarını verməklə yaratmaq istəyir. İlk məktuba cavab gəlmədiyinə görə ikinci məktub yanvarın 31-də göndərildi. Qafqazlılar neft verərək İranda tələb olunan digər məhsulların daşınmasını istəyirdilər. İran Qafqazla ticarət qurmağa laqeyd deyildi. Xəzər dənizində gəmiçilik və Qafqazla dəmiryolu sisteminə ingilislər tərəfindən nəzarət olunmurdu. İran üçün ticarət əlaqələrinin qurulması böyük üstünlük idi. Azərbaycan hökuməti üçün hələ də ticarət danışıqları aparmaq vacib idi. Lakin onların indiki münasibəti qənaətbəxş deyildi. Çünki onlar yüksək gömrük öhdəliklərini irəli sürürdü. Müvafiq məlumatı Azərbaycan hökumətinə vermək İran hökumətinə təklif edildi. Bu məlumata əasən Britaniya nüfuz dairəsinin köməyi ilə İran hökuməti Qafqazı geniş miqdarda qida məhsulları ilə təmin etməli idi. Aşağı təqdim olunan qiymətlər Azərbaycan hökumətinin ticarətinə ziyan gətirə bilər. Azərbaycan hökuməti tərəfindən indi baş verən hərəkətlər davam edərsə, təklif edildi ki, İrandan Qafqaza Britaniya və birləşmiş komitə istisna olmaqla, heç bir ixracat olmayacaqdır.

***FO 371/3658 27558***

***

Azərbaycan Respublikasının Paris nümayəndəliyi
Bric otel
Gamps Eyusis küçəsi 74
(19366)
13 oktyabr 1919-cu il

**Paris sülh konfransındakı Britaniya nümayəndə heyətinin prezidentinə**

Cənab prezident,

Avqustun 26-dan mən Britaniya nümayəndə heyətinin hərbi bölməsindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilən teleqrama əsasən bu bölmənin tərkibini aydınlaşdırmaq üçün geri döndüm.

Yuxarıda qeyd olunan bölmənin məxfi xahişini yerinə yetirməyə, teleqramın düzgün formasını və onun sürətini bizə göndərməyə söz verdilər.

Teleqramdan göründüyü kimi Azərbaycan hökuməti Azərbaycan nümayəndə heyətinin başçısı kimi Britaniya hökumətinə müraciət etməyi məndən tələb edir və Qafqazdakı Britaniya ordu komandanlığından Azərbaycan nümayəndə heyətinə pul ayırmağı xahiş edir.

Sözsüz ki, Azərbaycan Respublikası Paris və Bakı arasındakı razılaşmaya əsasən əyalətdə baş verən çətinliklərə, xüsusilə də gələcək pul mübadiləsinə baxmayaraq pul üçün müraciət etməli oldu.

Cənab prezident, Sizə müraciət edərək xahiş edirəm ki, Britaniya hökumətində olan nüfuzunuzdan istifadə edərək mənim sədrlik etdiyim nümayəndə heyətinə borc şəklində pul vəsaiti verəsiniz.

Səmimiyyətlə, ***Topçubaşov,***
Azərbaycan Respublikası nümayəndə heyətinin sədri
***FO 371/3671 27981***

***

Ermənilər tərəfindən müsəlmanların öldürülməsi
İran Xarici İşlər Nazirliyindən
Cənab P.Koksun nəzərinə

21 oktyabr 1919-cu il

Şübhə etmirik ki, Britaniya hökuməti İrəvan, Naxçıvan, Kars və eləcə də bütün Ermənistanın sərhəd bölgələrindən ermənilər tərəfindən törədilən vəhşiliklərdən, soyğunçuluqdan xəbərdardır.

Bununla belə Xarici İşlər Nazirliyinə Ermənistan müsəlmanlarına qarşı heç bir zorakılıq tətbıq edilmədiyi barədə xəbər çatdırılmışdır. Halbuki orada müsəlman ailələri qovulmuş, günahsız kişilər və uşaqlar öldürülmüş. qadınlar zorlanmış, mülkiyyətlər oğurlanmış, kəndlər isə heç bir səbəb olmadan dağıdılmışdır. Onların kiçik hissəsi - 5.000 kişi və qadın nəqliyyat axtararkən öz uşaqlarını qoyaraq qaçmışlar. Onların bəziləri İran sərhədinə və Maku əyalətinə çatmışlar.

Xarici İşlər Nazirliyi əmindir ki, ermənilər tərəfindən törədilmiş bu ədalətsizlik və qeyri-bərabərlik cəzasız qalmayacaqdır.

Bu dəhşətli və iyrənc aktlar nestorianlar, aysorlar tərəfindən Urmiyəyə, Səlmasa və Xoya, ümumiyyətlə, bütün Azərbaycan sərhədlərinə belə hərəkətlərin törədilməsinə öz təsirini göstərmişdir.

Böyük dövlətlərin xalqları azad etmək və dini fərqlərdən asılı olmayaraq bütün insanlar arasında sülhü bərqərar etmək məqsədinə inanan Xarici İşlər Nazirliyi hadisəni səlahiyyətli

şəxslərin nəzərinə çatdıraraq, Britaniya hökumətinin rəsmi dairələrindən xahiş edır ki, ermənıləri öz vəhşi əməllərindən çəkindirsinlər, ermənilərlə qonşuluqda yaşayan sülhsevər insanların təhlükəsizliyini təmin etsinlər.

Böyük dövlətlərin nümayəndələri ermənilərin vəhşi təcrübəsinin şahidı olduqları üçün onlara qarşı tədbir görməyə və onları cəzalandırmağa qərar versinlər.

Bununla da böyük dövlətlər kiçik xalqın yardımçısı olaraq, Qafqaz xalqlarının işlərinə nəzarət edərək, lazımi tədbirlər tətbiq etməyi qərara alsınlar.

***Eylelül Mülk***

*FO 371/3660 275 88*

***

*Qaynaq:* ***The Spy Who Disappeared. Diary of a secret mission to Russian Central Asia in 1918 by Reginald Teague - Joines. Ronald Sinchair o.b.b., M.B.E. (mil.) introduction and epiloque by Peter Hopkrik, London, Victor Gollange LTD, 1990. - 216p.***

Bakı uğrunda döyüş

...1918-ci il avqustun 8-də mən Bakıya günorta çatdım və Avropa otelindəki köhnə otağıma getdim. Hər şey mənə əsatir kimi görünürdü. Birinci gördüyüm adam polkovnik Stoks və polkovnik Keyvord idi. Orduda ali komandan idi. Mən Stoksla otelin pilləkəninin başında oturaraq ilk söhbətimi etdim. Məlum oldu ki, şəhər gecə də gündüz kimi qorunub saxlanılmışdır. Mən onu qəmgin tərk etdim. Türklər öz qələbələrinə elə əmin idilər ki, şəhəri tutmağa tələsmirdilər və onu mənimsəmək üçün narahat deyildilər. Ancaq onlar həmin gün şəhəri tutmamış gəzməyi qərara almışdılar. Ancaq bu vaxt şəhərdə əlbəttə, böyük bir qarışıqlıq var idi...

General Denstervil Bakıya "Kryugerdə" gəldi. O, artıq avqustun 10-da Ənzəlidə öz qərargahını limandakı gəmiyə köçürmüşdü. Orada o bu münasibətlə köhnə üçrəngli rus bayrağını qaldıraraq qırmızı bayrağı endirmişdi... Sentyabrın 14-də türklər qüvvələrin əsas hissəsini təşkil edən Bakı batalyonunu əzməklə dönüş etdilər.

Bakı ətrafında gedən sonuncu döyüşlərdə Denstervilin kiçik qüvvəsindən 180 nəfəri (və ya 20%-i) ölmüş və yaralanmışdır...

***s. 93-101***

# VIII

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ARXİV MATERİALLARI VƏ XARİCİ SİYASƏT SƏNƏDLƏRİ

## ABŞ MİLLİ ARXİVLƏR VƏ HESABATLAR İDARƏSİ (NARA OF THE USA)

Dövlət katibi prezident Vilsona
Vaşinqton, 10 dekabr 1917

Mənim əziz cənab prezidentim, informasiyanın azlığına və ziddiyyətli olmasına baxmayaraq, mən Rusiyadakı şərait haqqında düşünərək aşağıdakı nəticələrə gəlmişəm:

Bolşeviklər Rusiyanın bundan sonra müharibədə iştirakının əleyhinədirlər. Onlar hakimiyyətdə nə qədər çox qalsalar, bir o qədər də Rusiyada qarışıqlıq olacaqdır, ordu mənəviyyatsızlaşacaqdır, qayda-qanunu və hərbi səmərəliliyi bərpa etmək çətinləşəcəkdir. Rusiyanın müharibədən çıxması hərbi əməliyyatları iki-üç il də uzadacaqdır, bu ölkənin pul və insan ehtiyyatlarına olan ehtiyacları artacaqdır.

Dağıdılmış rus ordusunda bolşeviklərin hökmranlığı onun yenidən təşkil olunmasına, növbəti yaz və yayda müharibə üçün əhəmiyyətli amilə çevrilməsinə səbəb olacaqdır.

Bu məsələləri kabinetin iclasından sonra Sizin üçün münasib vaxtda müzakirə etmək istərdim.

Hörmətlə, Sizin ***Robert Lansinq***

***861.00/807 a***

***

Böyük Britaniyadakı səfirə teleqramın ilkin variantı
Vaşinqton, 13 dekabr 1917

Qrosbi üçün: Rusiyada şəraitin öyrənilməsi göstərir ki, sabit dövlətin qurulması üçün ümidlər hələ vardır. Bolşevizm əleyhinə hərəkatların güclənməsi və bolşeviklərin hakimiyyətinin zə-

ifləməsi barədə Moskva və Tiflisdən ümidverici xəbərlər gəlir...

Siz məsələni... Britaniya və Fransa hakimiyyət dairələrinin qarşısında qaldırın. Onların bu məsələ ilə bağlı maliyyə imkanlarının necə olduğunu və antibolşevik xəttə nə qədər maliyyə vəsaiti ayırmaq imkanlarını öyrənin.

Bu məsələnin xarici dövlətlərin maliyyə yardımı ilə əlaqədar olduğunu nəzərə alaraq teleqramı birbaşa Sizə göndərirəm ki, mövcud siyasi kursun məqbul olması barədə razılıq aldıqdan sonra onu Fransa və Böyük Britaniya nümayəndələri ilə müzakirə edəsiniz.

***Robert Lansinq***

***763. 72/8200 a***

***

İsveçdəki nazir Moris dövlət katibinə
(teleqram)
Stokholm, 4 mart 1918
Alınmışdır: 5 mart saat 2:25

16.12. İsveç mətbuatının məlumatına görə bazar günü saat 5-də Berlinlə Rusiya arasında sülh müqaviləsi bağlanmışdır.

Brestdəki Petroqrad sülh nümayəndə heyəti Almaniyanın bütün sülh şərtlərini qəbul etməsi barədə Lenin və Trotskiyə teleqram göndərmişdir...

İsveç mətbuatı hadisəni belə şərh edir: Türkiyə 1878-ci ildə Rusiyaya verdikləri əraziləri geri qaytarır. Kars dağları ilə əhatə olunmuş strateji əhəmiyyətli Batum isə Türkiyə üçün çox vacib yerdir, çünki Xəzər dənizi sahilindəki böyük neft mərkəzi olan Bakıya yol buradan keçir. Bakının çox böyük neft ticarəti türklərin nəzarəti altına keçəcəkdir.

***Moris***

***763.72119/1430***

***

Moskvadan baş konsul Sammers dövlət katibinə
(teleqram)
Moskva, 27 aprel 1918, saat 19:21
Alınmışdır: 16 may, saat 20:05

... Türklər Qafqazda Batum və Ərdəhanı tutduqdan sonra Tiflis yolu üstündə olan Kutaisə yaxınlaşırlar. Çox güman ki, məqsəd Türküstana gedən Bakı dəmiryol xəttini tam nəzarətə götürməkdir.

*Sammers*

*861 001810*

***

Moskvadan konsul Pul dövlət katibinə
(teleqram)
Moskva: 9 iyul 1918
Alınmışdır: 28 iyul, saat 11:45

Alman səfiri Mirbax səfirlikdə iyulun 6-da günorta çağı qətlə yetirilmişdir. Hadisə iki nəfər rus tərəfindən törədilmiş və sovet hökumətindəki sol sosialist inqilabçılar partiyasının güclü antialman siyasətinin məntiqi nəticəsindən törədilmişdir.

Bolşeviklər təhlükəsizlik tədbiri kimi partiyaların fəaliyyətini qadağan etmişlər...

Türklər Bakını tutmağa hazırlaşırlar.

*Pul*

*861 00/2364*

***

Moskvadan konsul Sammers dövlət katibinə
Moskva, 8 noyabr 1917
Alınmışdır: 10 yanvar 1918

... Kazakların və Qafqaz dağlılarının konfransında Kuban, Terek, Həştərxan kazaklarının dəstələri, kalmık tayfaları, Dağıstanın bütün tayfaları və Zaqatala məntəqəsi, Terekin dağlı tayfaları, Kuban ərazisi, Suxum məntəqəsi, Terek ərazisindəki aran tayfaları və Stavropol hökumətinin Cənub-Şərqi ittifaqını yaratmaq haqqında qərar qəbul etmişlər...

***Sammers***

***861 00/934***

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 9 noyabr 1917
Alınmışdır: 10 noyabr, saat 10:15

Baş nazir Sankt-Peterburqu tərk edərək ordu qərargahına getmişdir. Bütün başqa nazirlər Qış sarayında həbs olunmuşlar. Moskvadan xəbər verilir ki, İnqilab komitəsi nəzarəti ələ alır. Qafqaz əhalisi və ordusu İnqilab komitəsi ilə birləşməkdən imtina etmişdir. Lakin maddi yardım olmadan onların bu inqilabdan kənarda qalmasına şübhə edirəm. Biz bu yardımı genişləndirməliyik. Məsləhət görürəm ki, bu məqsədə 10 milyon dollar ayrılsın. Təlimat verməyinizi xahiş edirəm.

***Smit***

***861.00/639***

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 18 noyabr 1917, 18:00
Alınmışdır: 19 noyabr, saat 11:50

Petroqrad və Moskvadan xəbərlər və əlaqə yoxdur. Bakı inqilabçıların nəzarəti altındadır. Bu ərazidə hərəkatın yüksəlişinin qarşısını kəsmək üçün qoşun hissələri göndərmək lazımdır. Növbəti həftə və ya on gün ərzində vəziyyət nəzarətdə saxlanıla bilər. Dövlət və özəl bankların maliyyə böhranı qoşun və əhali arasında ciddi çaxnaşma yaradacaqdır. Ehtiyacı və kağız pulların çapının mümkünsüzlüyünü nəzərə alaraq böyük məbləğdə pulu bütün vasitələrlə İrandan gətirmək lazımdır. Rusiyanın bir hissəsinin müttəfiqlərə və cəbhəyə loyal münasibətini saxlamaq istəyiriksə yuxarıdakı məqsədlə Nyu-York və ya Londondan 10 milyon dollar ayırmaq və İrandakı amerikan nümayəndəliyindən almaq lazımdır...

***Smit***

***861.00/683***

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 23 noyabr 1917, saat 15:00
Alınmışdır: 24 noyabr, günorta 1:00

Mən, şənbə günü Qafqaz hökumətinin yaradılmasına həsr edilmiş toplantıda iştirak edəcəyəm. Bu hökumət Cənub Federasiyasını birləşdirəcək və separat sülhü rəd edəcəkdir. 9 və 18 noyabr tarixli teleqramlarda dedyim kimi əsas məsələ onlara

maddi yardım etməkdir. Təlimatları səbirsizliklə gözləyirəm. Bu yardım həm yerli hökumətin nümayəndələri, həm də baş komandan tərəfindən xahiş edilmişdir.

***Smit***

***861. 00/711***

***

Dövlət katibi Tiflisdəki konsul Smitə
(teleqram)
Vaşinqton, 26 noyabr 1917, saat 16:00

Sizin noyabrın 23-də və əvvəl göndərdiyimiz teleqramları zəhmət olmasa, izah edin. Bu maliyyə yardımı Sizin təsvir etdiyiniz şərait çərçivəsində Rusiyanın dağılmasına və vətəndaş müharibəsinin dayanmasına və separatizmin dərinləşməsinə gətirib çıxarmayacaqmı? Departament bu istiqamətlərdəki inkişaf meyllərini dəstəkləmir.

***Lansinq***

***861.51/244***

***

Dövlət katibi Fransadakı səfir Şarpa
(teleqram)
Vaşinqton, 27 noyabr 1917, saat 13:00
2864. Polkovnik Hauz üçün

25 noyabr tarixli aşağıdakı teleqram Tiflisdəki Amerikan konsulundan indicə alınmışdır. Müttəfiqlərin ali komissarlarının, səfirlərinin, hərbi agentlərinin, yerli millətçilərin və parti-

yaların iştirakı ilə dünən keçirilən toplantıda Transqafqaz müvəqqəti hökumətinin qurulması və bu cəbhədə mübarizənin davam etdirilməsi barədə qərar qəbul edildi.

Rusiyaya qarşı tam loyallıq ifadə olundu və belə bir fakt vurğulandı ki, hökumət Rusiya Müəssisələr Məclisi toplananadək anarxiyanın qarşısını almaq məqsədi ilə yaradılır...

***Smit***

Konsul göstərir ki, bu müvəqqəti Transqafqaz hökuməti Rusiyaya tam loyaldır və Petroqraddakı bolşevik hökumətinin əleyhinədir. 10 milyon dollar vəsaitin ayrılması ilə bağlı konsulun 18 noyabr tarixli teleqramı Qafqaz cəbhəsindəki qoşunların təminatına və maaşlara sərf ediləcəkdir.

Departament Britaniya səfirliyinin Britaniya hökumətindən nəyə görə çox maliyyə vəsaiti ayrılmasını təklif etdiyini başa düşür. Tiflisdəki amerikan konsulluğuna bu hərəkətlərin Rusiyada demokratiyanın dağılacağı və vətəndaş müharibəsini gücləndirəcəyi təqdirdə hökuməti de fakto tanımaq səlahiyyəti verilməyəcəkdir.

***Lansinq***

***861.00/719***

***

Dövlət katibi Fransadakı səfir Şarpa
(teleqram)
Vaşinqton, 28 noyabr 1917, saat 14:00
2870. Polkovnik Hauz üçün

Departament Sizdən belə bir məlumat almaq istərdi ki, həmkarlarınızın Transqafqaz dövlətinin de-fakto tanınması məsələsi barədə ümumi fikirləri necədir?

***Lansinq***

***861.00/719***

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 4 dekabr 1917, saat 17:00
Alınmışdır: 7 dekabr 1917, saat 14:20

...Transqafqaz hökumətinin baş naziri mənimlə dünənki söhbətində bildirdi ki, onun hökuməti az müddətdə davam gətirə bilər. Bu cəbhədəki rus ordusunun və ehtiyatlarının tamamilə tükənməsi hökuməti inqilabçıların hökumətini tanımağa məcbur edə bilər... Britaniya və Fransa nümayəndəlikləri yuxarıdakı nəticələrlə razılaşırlar...

*Smit*

*861. 00/779*

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 5 dekabr 1917, saat 21:00
Alınmışdır: 7 dekabr 1917, saat 7:30

Fransa və Britaniya hərbi agentləri və bu cəbhənin baş komandanı ilə söhbət zamanı sonuncu bildirdi ki, üçüncü türk ordusunun komandanından danışıqları başlamaq barədə məktub almışdır. Hökumətin ıclası zamanı bu fakt onun tərəfindən rəsmi şəkildə elan edildi və üç ay müddətində danışıqlara başlamaq, həmin vaxtda hər iki tərəfdən olan qoşun hissələrinin mövgelərində dayanması barədə qərar qəbul edildi. O, Türkiyə-Britaniya cəbhəsində qoşun hissələri yeridilməsini təkidlə tələb etdi. Həmçinin indiki şəraitdə müttəfiqlərin maliyyə yardımı olmadan ordunu əvvəlki mövqeyində və cəbhədə saxlaya bilmə-

yəcəkdir... Milli ordu hissələrinin mövgelərində dayanması barədə qərar qəbul edildi. O, Türkiyə-Britaniya cəbhəsinə qoşun hissələri yaradılması maliyyə yardımları olacağı təqdirdə mümkündür. Mən dünənki teleqramımda dediyim fikirdə qalıram. Bu tədbirlər təcili görülməlidir.

***Smit***

*763. 72 119/996*

***

İsveçdəki nazir Moris dövlət katibinə
(teleqram)
Stokholm, 6 dekabr, 1917
Alınmışdır: 7 dekabr 1917, saat 13:48

1134. Romadakı rus səfiri Tehrandakı Rusiya nazirindən aşağıdakı informasiyanı buradakı Rusiya naziri üçün almışdır: Qafqazdakı mülki və hərbi hakimiyyət bolşevikləri tanımamışdır və müttəfiqlərlə danışıqlara başlamaq üçün Tehrana xüsusi nümayəndə göndərilir. Bu danışıqların əsas mövzusu müharibəni davam etdirmək üçün maliyyə vəsaiti almaqdır.

***Moris***

***861.00/768***

***

Tiflisdəki konsul dövlət katibinə
(teleqram)
Tiflis, 12 fevral 1918, saat 22:00
Alınmışdır: 13 fevral, saat 19:25

Rus qüvvələri Qafqaz cəbhəsini demək olar ki, tərk etmişlər. Ərzurum, Van və Ərzincan erməni dəstləri tərəfindən tutulmuşdur. Trabzonun qərb və şərqindəki sahil şəhərləri türk

dəstləlləri tərəfindən tutulmuşdur... Cənubi Qafqaz və Vladiqafqaz müsəlman dəstələri tərəfindən tutulmuşdur. Bir çox yerlərdə əlaqələr pozulmuşdur. Bəzi neft mədənləri dağıdılmışdır. Vəsaitin çatışmaması ucbatından milli ordu hissələrinin yaradılması işi zəifləmişdir. Maliyyə çatışmazlığı ucbatından hökumət ən zəruri ehtiyaclarını ödəyə bilmir. Baş nazir Gegeckori məni inandırdı ki, Türkiyə ilə hətta separat sülhə də getməyəcəkdır. Hökumətin indiki şəraitdə müsəlmanlara müqavimət göstərə biləcəyi şübhə doğurur... Erməni liderləri inqilabçılarla iş birliyinə meyl etmək nümayiş etdirirlər, bu isə müsəlmanlara qarşı yalnız müqavimət hərəkatıdır.

***Smit***

***763.72/8861***

***

Böyük Britaniyadakı səfir Peyc dövlət katibinə
(teleqramdan bir parça)
London, 14 fevral 1918, saat 16:00
Alınmışdır: 15 fevral, saat 21:05

8667. Qrosbidən Lansinq və Makdoo üçün:

Tıflisdəki konsul Smitdən teleqram almışam... Soruşur ki, Britaniyanın Qafqazda və İranda ərazi iddiaları varmı? Britaniyalılarla fransızlar arasında razılığa uyğun olaraq britaniyalılar Qafqaz regionunda lıderliyi ələ alırlar...

***Peyc***

***861.00/1101***

***

Tiflisdəki konsul Smit dövlət katibinə
(teleqram)
Tiflis, 15 fevral 1918, saat 18:00
Alınmışdır: 163 fevral, saat 13:56

Ənvər Paşa ali baş komandana teleqram göndərərək məlumat vermişdir ki, ermənilərin müsəlmanlara qarşı hücumlarına və vəhşiliklərinə cavab verəcəkdir. Türk hücumunun qarşısını çətinliklə ala biləcək kiçik erməni dəstələri cəbhədə dayanmışdır. Lakin onlara məsləhət görülmüşdür ki, nizamlı şəkildə geri çəkilsinlər və təhcizat mənbələrini dağıtsınlar. Fikrimcə, bu türk təhlükəsinə qarşı əsas müqavimət olacaqdır.

***Smit***

***861. 00/162***

***

Britaniya səfiri dövlət departamentinə
Vaşinqton, 19 mart 1918
Alınmışdır: 21 mart
№301

Britaniya səfirliyinin Qafqaz haqqında əldə etdiyi aşağıdakı məlumat Birləşmiş Ştatlar hökuməti üçün maraq doğura bilər... Bakı ilə Tiflis arasındakı dəmiryolu və teleqraf azərbaycanlılar tərəfindən nəzarətə alınmışdır. Onlar xarici müdaxiləyə müqavimət göstərirlər və ümid edirlər ki, ərazi Türkiyə tərəfindən bərpa olunacaqdır. Onlarda 70 top, 150 pulemyot, 20 min tüfəng vardır, Yelizavetpol, Lənkəran və Xaçmazda cəmləşmişlər. Onlar azad edilmiş türk və alman əsirləri tərəfindən təşkil olunmuşdur. Rus evakuasiyası başa çatmışdır. Müsəlmanlar Yeliza-

vetpol və Bakını tutmaq istəyirlər. Bolşeviklər azərbaycanlılarla əməkdaşlıq edirlər.

*861.00/1336*

***

Dövlət katibi Böyük Britaniyadakı səfir Peycə
(teleqram)
Vaşinqton, 3 aprel 1918, saat 14:00

7116. Tiflisdəki konsul 10, 11 və 12 mart tarixli teleqramları vitse-konsul Delitlə Tiflisdən Tehrana göndərmişdir. Amerikan missioneri Jarov Qafqazdakı vəziyyətin ağır olması barədə Bartona və Amerika Qırmızı Xaçına məlumat vermişdir. Türklər irəliləyirlər..., azərbaycanlıların əhatəsində. Ermənilər real təhlükə içərisindədirlər... Konsul dövlət katibinə teleqramında bildirir ki, yerli müsəlman əhalisindən istifadə etməyə dair alman planı həyata keçir. Azərbaycanlılar və türk dəstələri yerli əhali kimi döyüşürlər, türkpərəst müsəlman liderləri onları nəqd pulla maliyyələşdirirlər.

***Lansinq***

*763. 72/9295*

***

Moskvadakı baş konsul dövlət katibinə
(teleqram)
Moskva, 18 aprel 1918, saat 13:00
Alınmışdır: 22 aprel 1918, saat 11:00

372. Qafqazdakı Britaniya agentinin aşağıdakı informasiyası Moskvada yenicə qeydə alınmışdır: ... Türklər Ərzurumu, Ər-

dəhanı tutmuşlar, Karsa və Batuma yaxınlaşırlar... Müharibədən İran sakinləri əziyyət çəkmişlər və Lənkəran ərazisində İran üçün əlverişli cəbhə xətti yaratmışlar. Transqafqaz parlamenti sovetləri tanımır və Türkiyə ilə sülh danışıqları aparır. Bu danışıqlar türklər tərəfindən dayandırılmışdır. Türk agentləri Qafqazın müsəlman əhalisi arasında onların ölkəsini Türkiyə ilə birləşdirmək üçün təbliğat aparırlar. Bolşeviklər Bakıda hökmranlıq edirlər. Cənubda azərbaycanlılarla ermənilər, şimalda isə dağlılarla müsəlmanlar arasında vətəndaş müharibəsi gedir. Bakı regionunda rus bolşevikləri azərbaycanlılara qarşı müharibə aparırlar. Mineralnı Vodı-Bakı və Bakı-Tiflis arasında dəmiryol rabitəsi iki aydır ki, kəsilmişdir.

***Sammers***

***861.00/1642***

***

Moskvadakı baş konsul Sammers dövlət katibinə
(teleqram)
Moskva, 1 may 1918, saat 17:00
Alınmışdır: 13 may, saat 14:14

454. Rumıniyadakı Britaniya dəmiryol nümayəndəliyinin rəisi general Kandule Bakıdan getmiş, Həştərxan və Saratovdan keçərək Moskvaya çatmışdır. O, Bakını aprelin 21-də tərk etmişdir.

Bu ofisdən yaxın günlərdə Qafqazdakı vəziyyətə dair təqdim edilmiş və təsdiq olunmuş məlumat əsasında Bakı haqqında da mühakimə yürütmək mümkündür. Bakıda sovet hakimiyyətinə qarşı çıxan azərbaycanlıların fəaliyyəti nəticəsində Bakı ilə Tiflis arasında rabitə çətinləşmişdir. Əgər türklər Kutais və Karsı keçsələr Tiflisdəki müttəfiq hərbi missiyaların və konsulların geri çəkilmək üçün yeganə yolu Vladiqafqaza gedən Gür-

cüstan yoludur... Qroznıda dağlı tayfalar yenı neft mədənlərinə od vurmuşlar. Həmin mədənlərin digər hissəsi və bütün Bakı mədənləri işçi qüvvəsinin çatışmazlığı nəticəsində tam gücü ilə işləmir. Xəzər dəniz donanması fəaliyyət göstərir və Volqa çayı gəmiçilik üçün indi açıqdır, neft daşınan ənənəvi Volqa yolu isə hələ işləmir.

Kandule Londandakı Hərbi Nazirliyə geniş məlumat vermiş və məsləhət görmüşdür ki, Britaniya qüdrətini göstərsinlər, Təbrizə və Ənzəliyə doğru irəliləsinlər,... azərbaycanlılar arasında fəaliyyət göstərən türk agentləri xeyli dərəcədə uğur qazanmışlar...

***Sammers***

***861.00/1787***

***

Moskvadakı konsul Pul dövlət katibinə
(teleqram - bir hissə)
Moskva, 9 may 1918
Alınmışdır: 11 may, saat 13:37

505. 9 may tarixli sovet qəzetinin rəsmi məlumatına görə Moskvadakı türk diplomatik nümayəndəliyi Türkiyə ilə Qafqaz hökuməti arasında sülh danışıqlarının başlanması haqqında notanı Xarici İşlər Komissarlığına təqdim etmişdir. Notada göstərilir ki, Tiflisdəki Qafqaz hökuməti Brest sülh müqaviləsinin IV maddəsinə əsasən ərazi və başqa məsələləri nizamlamaq üçün danışıqlara başlamaq haqqında Türkiyə və Almaniya hökumətlərinə müraciət etmişdir. Türk hökuməti bu xahişi qəbul etmişdir. Alman və türk hökumətləri öz nümayəndələrini Batuma göndərəcəklər.

***Pul***

***861.00/1779***

***

Moskvadakı konsul Pul dövlət katibinə
(teleqram)
Moskva, 17 may 1918
Alınmışdır: 24 may, saat 20:58

529. ... Smit Transqafqaz hökumətinin türklərdən müdafiə olunmaq planının əsas mahiyyətini qeyd etsə də, Batumda davam etməkdə olan sülh konfransı göstərir ki, bundan sonrakı müqavimət daha mümkün deyildir. Tiflislə teleqraf əlaqəsi yoxdur.

***Pul***

***861. 00/1856***

***

Dövlət katibi Moskvadakı konsul Pula
(teleqram)
Vaşinqton, 18 may 1918, saat 17:00

52. Sizin 17 may saat 17:00-da verilmiş 529 N-li teleqramınız. Departament Transqafqazın müdafiəsinə dair Smit tərəfindən təqdim olunmuş planı öyrənmək istərdi.

***Lansinq***

***861.00/1856***

***

Moskvadakı konsul Pul dövlət katibinə
(teleqram)
Moskva, 2 iyun 1918
Alınmışdır: 14 iyun, saat 15:55

593. Sovet qəzeti mayın 28-də Tiflisdən aldığı aşağıdakı məzmunlu teleqramı dərc etmişdir:

"... Türkiyə Transqafqaz hökumətinə ultimatum vermişdir: Aşağıdakı ərazilər Türkiyəyə keçir: Ordubad və Şərur-Dərələyəzin bir hissəsi istisna olmaqla Naxçıvan ərazisi, İrəvan və Sürməli istisna olmaqla İrəvan quberniyasının bir hissəsi, bütün Eçmiədzin bölgəsi, Aleksandropol şəhəri də daxil olmaqla Aleksandropol bölgəsinin bir hissəsi və bütün Axalkələk bölgəsi. Türklər ordu hissələrinin daşınması üçün bütün Transqafqaz dəmiryolunun verilməsini və ordunun ərzaqla təmin olunmasını tələb edirlər. Bu notaya 72 saat ərzində mayın 26-da saat 19:00-dək cavab verilməlidir. Bundan sonra iki hökumət arasında münasibətlər aydınlaşacaqdır".

***Pul***

***861. 00/2015***

***

Moskvadakı konsul Pul dövlət katibinə
(teleqram)
Moskva, 7 iyun 1918, saat 16:00
Alınmışdır: 17 iyun, saat 13:56

609. Departamentin 28 may tarixli, saat 14:05-də alınmış 52 №-li teleqramına Smitin məktubunun məzmunu aşağıdakından ibarətdir:

... Türklərin hücumunu dayandarmaq və gözlənilən alman işğalının qarşısını almaq üçün müəyyən ümidlər vardır. Gürcü dəstələrindəki nizamsızlığın nəticəsində Batum türklərin əlinə keçmişdir... Türklər yerli müsəlman elementlərə kömək edirlər ki, bu da Qafqazda vəziyyəti çətin və mürəkkəb edəcəkdir. Bakıda ermənilər və bolşeviklər vahid cəbhədə azərbaycanlılara qarşı döyüşürlər. Türklərə qarşı müdafiəni təşkil etmək üçün bu münaqişənin mərkəzi Moskva hökuməti tərəfindən dayandırılması mümkündürmü?

***Pul***

***861. 00/2041***

***

Moskvada müvəqqəti olan Tiflisdəki konsul Smit dövlət katibinə

(teleqram)

Moskva, 16 iyun 1918, saat 18:00

Alınmışdır: 4 iyul, saat 15:10

Geqeçkori hökuməti müharibənin davam etdirilməsi və Rusiya ilə birləşmək haqqında aprelin 23-də bəyanat verdikdən sonra Seymdəki erməni və gürcü çoxluğunun səs verməsi nəticəsində zorla istefaya göndərildi, almanpərəst Çxenkeli və Ramişvili hakimiyyətə gəldilər. Həmin vaxtdan etibarən türklərin Karsa doğru irəliləməsinə qarşı səmərəli hərbi müqavimət dayandırıldı. Aleksandropol, Vorontsovka əraziləri və həmçinin Culfaya gedən dəmiryol xətti türklər tərəfindən tutuldu. Cənub-şərqi əyalətlər də türklər tərəfindən işğal edildi. Bakı-Rostov-Don dəmiryolu və Bakı-Qroznı dəmiryol xəttinin bir hissəsi türk zabitlərinin rəhbərliyi altında müsəlmanlar tərəfindən tutulmuşdur. Mayın 26-da Gürcüstanın müstəqilliyi elan edildi və

de- fakto alman protektoratlığına qəbul edildi. Bir gün əvvəl Ramişvili mənə məlumat verdi ki, gürcülərin bu addımı yaxınlaşmaqda olan türk qüvvələrindən Tiflisi müdafiə etmək məqsədilə atılmışdır. Seymin buraxılmasından sonra müsəlman nümayəndələri Türkiyənin himayəsi altında müstəqil Azərbaycan dövlətinin yaradılmasını elan etdilər. Bakı istisna olmaqla bütün Transqafqaz dəmiryol sistemi düşmənlər tərəfindən nəzarətə götürülmüşdür və türklər Bakıya yaxınlaşırlar. Türkiyənin Transqafqazda nizami ordusu 20 min nəfərdən artıqdır. Onlar işğal edilmiş ərazilər hesabına hərbi ehtiyatla tam əmin olunmuşlar. Alman qoşunlarının olmamasından istifadə edərək əsirlərin silahlandırılmasına və qüvvələrin Türküstanda cəmləşdirilməsinə səy edilir...

Türklərlə əməkdaşlıq edən yaxşı silahlanmış azərbaycanlı və kürd dəstələri təxminən 50 min nəfərdir... Bakı hələ də bolşeviklərin əlindədir. Ümumi qüvvələrinin 6 min rus, 5 min ermənidən ibarət olduğu güman edilir. Bu qüvvə təchizatın olmaması nəticəsində altı həftədən çox tab gətirə bilməz...

***Smit***

***861.00/22 00***

***

Moskvada müvəqqəti olan Tiflisdəki konsul Smit dövlət katibinə

(teleqram)

Moskva, 18 iyun 1918, saat 16:00

Alınmışdır: 5 iyul, saat 9:45

... Türk təbliğatçıları Şimali Qafqazda müsəlmanlar arasında canfəşanlıqla təbliğat aparırlar. Onların türklər və almanlarla əməkdaşlığı gözlənilir.

***Smit***

***861.00/22 10***

***

Gürcüstan İnformasiya bürosunun məlumatı
London, 27 Albemarle str., w.1, 26 iyun 1918
Alınmışdır: 30 iyul

... Bolşeviklər Petroqradda hakimiyyətə gəldikdən sonra Transqafqazda üç millətdən: gürcülər, azərbaycanlılar və ermənilərin müstəqil dövlətləri quruldu... Türklər Transqafqaza gəldilər, azərbaycanlılarla əməkdaşlıq etdilər və onlar Transqafqazdan ayrılıb Türkiyənin nəzarətinə keçdilər...

*861. 00/2386*

***

Moskvada müvəqqəti olan Tiflisdəki
konsul Smit dövlət katibinə
(teleqram)
Moskva, 15 iyul 1918, saat 16:00
Alınmışdır: 24 iyul, saat 20:35

İyunun 25-də Bakıda ərzaq təminatı xeyli yaxşılaşmışdır. Həmtərxandan yük gəmiləri ilə gətirilmişdir. 8000 (səkkiz min) erməni, 2500 nəfərlik bolşevik dəstələri vardır. Xəzər donanması onlarla əməkdaşlıq edir. Düşmənlərin qüvvəsi 25 mindir: 800 nəfərlik alman, 2 min nəfərlik gürcü, 5 min nəfərlik türk nizami ordusu, digəri isə rus və türk zabitlərinin rəhbərliyi altında olan qeyri-nizami azərbaycanlı hissələri... Hökumət xəbər verir ki, Bakı almanlar tərəfindən tutulmuşdur. Lakin məlumat təsdiq edilməmişdir... Almaniya və Türkiyə tərəfindən tanınmış yeni Ermənistan dövlətinin ərazisi 12 min kv.km-ə qədərdir. Sərhədləri Dilicandan cənub-qərbdə Alagözə qədər, oradan isə Eçmiədzinin cənubundan İrəvanın şərqinə kimi, oradan da Se-

van gölünə qədərdir. Dövlət İrəvan, Eçmiədzin və Yeni Bəyazit ərazilərini əhatə edir...

***Smit***

***861. 00/2458***

***

Rusıyada səlahiyyətli şəxs Pul dövlət katibinə
(teleqram)
Arxangelsk, 19 noyabr 1918, saat 19:00
Alınmışdır: saat 16:55

... Lindley indi mənə məlumat verdı ki, Milne Odessaya deyil, Qafqazdan türk ordusunun evakuasiyasını müşahidə etmək üçün Batuma getmək əmri almışdır...

***Pul***

***861.00/3241***

***

Nota
İrandan alınmışdır, 26 fevral 1919-cu il
saat 17:00

Bakıdakı Azərbaycan hökuməti İran hökuməti ilə müqavilə imzalamaq üçün Tehrana öz nümayəndələrini göndərmək niyyətini elan etmişdir. Xəbər verilir ki, o yalnız sənaye -ticarət məsələlərini müzakirə etməyə hazırdır.

***761.91/61***

***

Məxfi siyasi məruzə №2

ABŞ-ın İran, Təbrizdəki konsulu Auqistin Vilyam Ferrindən

Hazırlanma tarixi, 12 noyabr 1926

Göndərilmə tarixi: 18 noyabr 1926

Rusiyanın İran Azərbaycanına təsiri

Qədim zamanlardan Azərbaycan tarixi

... Dünya müharibəsinin başlanğıcında Rusiya dəstələri İran Azərbaycanını işğal etdilər... 1914-cü ildən 1917-ci ilin sonunadək bu əyalət Rusiya tərəfindən idarə olundu. Rusiya inqilabı bütün şəraiti bir gecədə dəyişdirdi. Rus əsgərləri müharibədən cana doyduqlarını elan edərək evlərinə döndülər. Türklər... ağır döyüşlərdən sonra Təbrizə daxil oldular, lakin bir müddət sonra buranı tərk etdilər.

*761. 91/122*

*Qaynaq:* *Papers Relating to the foreign relations of the United States. 1918. Russia (in tree Volumes). Volume II. United States Government Printing offise. Washington, Publications of the Department of State,1932.-888p.*

## III fəsil

Cənub-şərqi Rusiya və Qafqaz

### Tiflisdəki konsul Smit dövlət katibinə

№ 69
Tiflis, 19 oktyabr 1917

Cənab, bu zonadakı siyasi və hərbi vəziyyət barədə səfirliyin məlumatının surətini Sizə göndərirəm.
(geniş mətn)
Tiflisdəki konsul Smit Amerika səfiri Frensisə
Tiflis, 19 oktyabr 1917

... Petroqraddan yardım gəlmədiyindən və xalqın məhkum olduğu çətinliklər ucbatından yerli hakimiyyət dairələri çox inamsızlığa qapılmışlar. Onları ruhlandırsam və kömək edə bilsəm cəsarətlə hərəkətə gələrdilər. Mənim səylərim nəticəsində Qafqaz ordusu cəbhədə öz mövqeyini hələ də saxlayır, burada xalqın və ordunun təminatının ən zəruri ehtiyacları ödənilir... Qafqazın daxili işlərinə etdiyim təsirin nəticəsidir ki, almanların müsəlmanlarla gürcülər arasında nifaq salmaq cəhdi baş tutmamışdır... Mən burada vəziyyətin ciddiliyindən tam xəbərdaram, hadisələrin inkişafını diqqətlə izləyirəm. Bildiyim nəticələr hə-

qiqətdir, onlar təcrübəli ingılis və fransız hərbi nümayəndələri general Şor, polkovnik Marş və polkovnik Qardiqni tərəfindən dəstəklənir...

Bu cəbhədə vəziyyət tamam fərqlidir. Əgər yenidən qruplaşma aparılsa, bu barədə mən səfirlıyin dəstəyini xahiş etmişəm, az itki və kıçik xərclə səmərəli hücum təşkil etmək olar. Əgər bu tədbirlər dərhal qəbul edilib yerinə yetirilməsə, bu ərazi ağır təhlükəyə məruz qalacaq, ziyanı ödəmək üçün yüz dəfələrlə artıq xərc tələb olunacaq və biz Qafqazdan xristian əhaliyə qarşı olan böyük ədalətsizlik və ziyan üçün günahkar olacağıq.

Əvvəllər də qeyd etdiyim kimi məsləhətlərim hakimiyyət dairələri tərəfindən bir sıra hallarda qəbul olunur və yerınə yetirilir. Lakin bu məsləhətləri ardıcıl və səmərəlı etmək üçün müəyyən maddi kömək lazımdır. Bunu əldə etmək üçün mən səfirliyin dəstəyinə və əməkdaşlığına ümid edirəm.

*F.Villoqbi Smit*

*s. 578-580*

# IX

# XƏRİTƏLƏR




*1914-cü ildə aparılan hərbi əməliyyatlarda strateji məntəqələr*




*Hərbi əməliyyatlar meydanı*




*Qafqazda rus-türk cəbhəsi*




*1915-ci ildə aparılan hərbi əməliyyatlarda strateji məntəqələr*




*Şərqi Avropa Brest-Litovsk müqaviləsindən sonra*




*Region 1918-ci ilın əvvəllərində*




Döyüşlər aparılan ərazilər




*1918-ci ildə türk ordusunun Qafqaz cəbhəsində hücum istiqamətləri*




*Döyüşlər aparılan ərazilər*




*1918-ci ildə türk ordusunun Qafqaz cəbhəsində hücum istiqamətləri*




***Böyük Britaniya mənbələrinə görə Bakının xəritəsi (1918-ci il)***




*İngilis hərbi hissələrinin Bakıya çıxarılması*
*(4 avqust 1918-ci il)*



*Sentrokaspiçilərin Qafqaz İslam ordusundan Bakını müdafiə etmək planı (sentyabr 1918-ci il)*




*Region müharibə illərində*




*Bakı ətrafında aparılan döyüşlərin sxemi*



*Regionda ərazi dəyişiklikləri*




*Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi*

# X

# ŞƏKİLLƏR



***Brest-Litovsk sülh müqaviləsinin imzalanmasında iştirak edən Osmanlı nümayəndə heyəti ukraynlarla birlikdə***



*Bakıda türk-müsəlman soyqırımı (1918-ci il mart)*



*General L.Denstervil*



*1918-ci ilin yayında ingilis ordularının Cənubi Azərbaycana doğru hərəkəti*



*Bakıda ingilis əsgərlərinin dəfni*



*Mirzə Kiçik xan*



*General Baratov*



*Bakı neft mədənləri*
*(1918-ci il)*



*Bakı şəhərindən bir görünüş*
*(1918-ci il)*



*Ənvər Paşa*



*Nuru Paşa*



*Mürsəl Paşa*



*Xəlil Paşa*



*Qafqaz İslam ordusunun Bakıda qarşılanması*
*(sentyabr 1918-ci il)*



*General V.M.Tomson*



*Böyük Britaniya əsgəri*



*Azərbaycan ordusunun əsgərləri*

# R E D A K T O R D A N

## *Sözardı*

"Birinci Dünya Müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər)" monoqrafiyasının üçüncü hissəsinin nəşri ilə Azərbaycan tarixinin ən mürəkkəb və keşməkeşli dövrlərindən birinin qaranlıq səhifələri üzərinə işıq salan son dərəcə dəyərli bir tədqiqat əsəri tamamlanmış oldu. Müxtəlif ölkələrin arxivlərində və kitabxanalarında saxlanılan çoxlu məxfi materiallar, diplomatik sənədlər əsasında ərsəyə gətirilmiş 1238 səhifəlik üç hissəli monoqrafiyada müəllif tərəfindən 1914-1918-ci illərdə böyük dövlətlərin Azərbaycan siyasətini şərtləndirən əsas amillər, onların Quzey və Güney Azərbaycana dair planları araşdırılmışdır. Türk diplomatiyasının Azərbaycanı müstəmləkəçilikdən azad etmək siyasətinə Avropa dövlətlərini və ABŞ-ı qoşmaq cəhdləri, Rusiyanın islamçılara və türkçülərə qarşı mübarizəsi və bu mübarizədə erməni amilinin rolu, ermənilərin Azərbaycanda yerləşdirilməsi və azərbaycanlıların soyqırımı, Güney Qafqazın Rusiyadan ayrılmasına Antanta dövlətlərinin yardımı, Zaqafqaziya seymində aparılan mübarizələr və türk ordusunun Qafqaza hücumu, Batum konfransında Azərbaycan məsələsi, 14 iyul tarixli Osmanlı-Azərbaycanlı müqaviləsi, Almaniyanın Azərbaycanı tutmaq cəhdləri və Azərbaycanda ABŞ-ın maraqlarının güclənməsi və s. bu kimi onlarla tarixi, diplomatik, siyasi hadisələr, problemlər tam mənzərəsi ilə gözlərimiz qarşısında canlandırılır. İstedadlı tarixçi alim Musa Qasımlının monoqrafiyanın birinci hissəsindəki "araşdırılan hadisə və problemlərin indiyədək Azər-

baycan tarixçiliyində ayrıca tədqiqat obyekti olmadığı" fikrini bir daha vurğulayaraq qeyd etmək istərdim ki, arxiv sənədləri, çap olunmuş arxiv sənədləri, xarici siyasət sənədləri, memuar ədəbiyyatı, dövri mətbuat da daxil olmaqla, bu möhtəşəm monoqrafiyanın yazılmasında bütövlükdə götürdükdə üst-üstə iki minə yaxın mənbə və ədəbiyyatdan istifadə edilmiş, üçüncü hissədə isə qiymətli arxiv materialları, sənədlər, xəritə və şəkillərdən ibarət bütöv bir tarixi sərgi düzənlənmişdir. Monoqrafiyanın üçüncü hissəsində toplanmış Birinci Cahan Savaşı dövrünə aid "məxfi" qrifli sənədlərlə, dünyanın böyük dövlətlərinin Azərbaycanla bağlı gizli diplomatik yazışmaları ilə tanışlıq zamanı bizə - çağdaş Azərbaycan oxucusuna bugünkü müstəqil respublikamızın ictimai-siyasi, iqtisadi həyatında bir sıra aparıcı dünya dövlətlərinin oynadıqları rol aydınlaşmaqla, onların ölkəmizə qarşı bəzən niyə ikili standartlar əsasında siyasət yürütmələrinin səbəbləri də aşkarlanır,- tarix təkrar olunur, - əsərin ən çox maraq doğuran və əhəmiyyətə malik başlıca cəhətlərindən biri də məhz budur.

Hesab edirəm, elm aləmində həmişə işin ağır tərəfindən yapışan alim kimi xüsusi hörmət qazanmış Musa Qasımlı Azərbaycanımızın bu günü və sabahı naminə, onun şanlı keçmişinin ən önəmli mərhələlərindən biri barədə dəyərli tədqiqat əsəri yaratmışdır.

**MUSA QASIMLI**
*(Musa Cəfər oğlu Qasımlı)*
**BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ BÖYÜK DÖVLƏTLƏRİN AZƏRBAYCAN SİYASƏTİ**
**(1914-1918-ci illər)**
3 HİSSƏDƏ. III HİSSƏ
*(sənədlər, materiallar, xəritələr, şəkillər)*
BAKI,"ADİLOĞLU" NƏŞRİYYATI, 2004.-532 s.

Yığılmağa verilmişdir: 15.06.2004
Çapa imzalanmışdır: 23.07.2004
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 33,25 ç.v.
Sifariş: 334
Sayı: 300

"ADİLOĞLU" MMC-nin
mətbəəsində çap edilmişdir.

*Ünvan: Bakı şəh.,*
*Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 98-68-25; faks: 98-08-14*